# AZƏRBAYCAN DİLİ

BAKI-2021

**Redaktor:** ***Hüseyn Abbas oğlu Əsgərov*** filologiya elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri

**Tərtib edənlər:**

**Rəyçilər:**

Dərslik ali məktəblərin hazırlıq fakültələrinin xarici tələbələri üçün tərtib edilmişdir. Dərslikdə fonetika, leksikologiya, morfologiya və sintaksisə aid nəzəri izahatlar, türkdilli tələbələrin Azərbaycan dilində yazılı və şifahi nitqlərini düzgün inkişaf etdirmək üçün müxtəlif çalışmalar, bədii nəsr parçaları, şeirlər, aktual problemləri əhatə edən mətnlər, tarixi faktlar, maraqlı məlumatlar verilmişdir.

Hər dilçilik şöbəsinin yekununda və xüsusən, hər bir əsas nitq hissəsinə aid məlumatın sonunda türk, ingilis, rus dilindən Azərbaycan dilinə çevirmək üçün təqdim edilmiş parçalar, imla, ifadə yazdırmaq üçün mətnlər, inşa mövzuları kitabın dəyərini bir daha artırır.

Bu dərslikdən Azərbaycan dilini öyrənmək istəyən hər kəs istifadə edə bilər

## REDAKTORDAN

Azərbaycanın bir çox ali məktəblərində, o cümlədən BDU-da xarici ölkələrdən, ən çox qardaş Türkiyədən gələn əcnəbilər təhsil alır. İlk növbədə onlara bir tədris ili müddətində hazırlıq şöbəsində Azərbaycan dili fənni tədris olunur. Bu məqsədlə xarici tələbələrə 500 saat həcmində Azərbaycan dili fənni keçilir. Tədris Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müəllimləri tərəfindən icra edilir. Ona görə də kafedra bu fənnə aid yeni dərslik hazırlanmasını məqsədəuyğun hesab edir.

Təqdim olunan dərslik klassik ənənəvi üsullardan fərqli şəkildə tərtib olunmuşdur və bu dərslik 500 saatlıq dərs yükü üçün nəzərdə tutulmuşdur. Dərsliyin hazırlanmasında əsas məqsəd əcnəbi tələbələrə Azərbaycan dilini tələb olunan səviyyədə öyrətmək, bu dildə düzgün oxumaq, yazmaq, danışmaq vərdişləri yaratmaqdan ibarətdir.

Bu dərslikdə Azərbaycan dilinin səs sistemi, leksik tərkibi, qrammatik quruluşu haqqında məlumatlar ənənəvi şəkildə deyil, müasir təlim metodlarının tələblərinə əsasən, nəzəriyyə çox qısa şəkildə qeyd kimi verilmişdir.

Dərslik 60 dərsdən, hər dərs 5 bölmədən ibarətdir.

Qrammatik məlumatları möhkəmləndirmək üçün müxtəlif tipli tapşırıqlar, mətn üzərində iş dərslikdə əsas yer tutur.

Ölkəmizi, şəhərlərimizi, adət-ənənələr və maddi-mədəniyyət abidələrimizi əcnəbilərə tanıtmaq məqsədilə həmçinin klassik şair və yazıçılarımızın, görkəmli şəxsiyyətlərin həyatı və yaradıcılığı ilə bağlı maraqlı oxu materialları – mətnlər verilmişdir.

Müasir təlim metodları kimi maraqlı dinləmə materialları, şaxələnmə, Venn diaqramı, krossvordları göstərmək olar.

Şifahi nitqi inkişaf etdirmək məqsədilə 3 dildə – Azərbaycan, rus, ingilis dilində dialoqlar və tərcümə mətnləri də dərslikdə xüsusi yer tutur. Bu da dərslikdən daha geniş kütlələrin istifadəsinə imkan verə bilər.

Düzgün yazı vərdişləri əldə etmək məqsədilə dərslikdə imla, ifadə və esselərə də xüsusi yer ayrılmışdır.

Dərslikdə durğu işarələri, onlardan yerli-yerində istifadə edə bilmək üçün qaydalar, rəsmi – işgüzar sənədlərin yazılması üçün nümunələr, düşündürücü və maraqlı tapşırıqlar da verilmişdir. Həmçinin dərslikdəki ibrətamiz hekayələr, atalar sözləri, hikmətli sözlər, tapmacalar və dərsliyin maraqlı olmasını təşkil edən xüsusiyyət kimi çox münasib və aktualdır.



## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**"Musiqisi:** ***Üzeyir Hacıbəyov***
**Sözləri:** ***Əhməd Cavad"***

"Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!"

# MÜNDƏRİCAT

**1-ci dərs....................................................................................................15**
1. Salamlaşma.
2. Azərbaycan əlifbası.
3. Rəqəmlər.
4. Mətn. Azərbaycan dövləti.
5. Dialoq.

**2-ci dərs....................................................................................................23**
1. Şəxs əvəzlikləri.
2. Xəbərlik kateqoriyası.
3. İmla. Metro.
4. Mətn. Bakı.
5. Dialoq.

**3-cü dərs....................................................................................................28**
1. İşarə əvəzlikləri.
2. Sinonim, antonimlər və omonimlər.
3. İmla.
4. Mətn. Soyadlar.
5. Dialoq.

**4-cü dərs....................................................................................................35**
1. Heca, vurğu.
2. Nitq etiketləri.
3. İntonasiya, sual-cavab.
4. Mətn. Kömək.
5. Dialoq.

**5-ci dərs....................................................................................................42**
1. Fonetik hadisələr.
2. Bəxtiyar Vahabzadə. "Azərbaycan-Türkiyə" şeiri.
3. Qoşasaitli və qoşasamitli sözlər.
4. Mətn. Qobustan.
5. Dialoq.

**6-cı dərs....................................................................................................48**
1. İsmin hal kateqoriyası.
2. İlin fəsilləri, aylar, günlər.
3. Var/yoxdur sözlərinin işlədilməsi.
4. Mətn. Bakının gəzməli və görməli yerləri.
5. Dialoq.

**7-ci dərs..........................................................................................................56**
1. İsmin mənsubiyyət kateqoriyası.
2. Sual əvəzlikləri.
3. İmla.
4. Mətn. Alim və qayıqçı.
5. Dialoq.

**8-ci dərs..........................................................................................................65**
1. Əsl Azərbaycan sözlərinin xüsusiyyətləri.
2. Gündəlik məşğuliyyətimiz.
3. Ahəng qanunu.
4. Mətn. S.S. Axundov "Qaraca qız".
5. Dialoq.

**9-ci dərs..........................................................................................................70**
1. Əlamət bildirən sifətlər.
2. Frazeoloji söz birləşmələri.
3. Saat neçədir?
4. Mətn. Gəncə.
5. Dialoq.

**10-cu dərs........................................................................................................79**
1. İsmin kəmiyyət kateqoriyası.
2. Saylar. Miqdar və sıra sayları.
3. Xüsusi və ümumi isimlər.
4. Arayış.
5. Mətn. Sumqayıt əfsanəsi.

**11-ci dərs........................................................................................................86**
1. Feilin indiki zamanı.
2. Keyfiyyət bildirən sifətlər.
3. Sənət peşə adları.
4. Mətn. Dəniz kənarında qoca bir şəhər.
5. Dialoq.

**12-ci dərs........................................................................................................94**
1. Feilin keçmiş zamanı. Şühudi keçmiş zaman.
2. Şəxs adları bildirən mürəkkəb sözlərin yazılışı.
3. Şəkil üzrə iş.
4. Mətn. Azərbaycanın inzibati bölgüsü.
5. Dialoq.

**13-cü dərs......................................................................................................102**
1. Feilin nəqli keçmiş zamanı.

2. İmla.
3. Feilin əmr şəkli.
4. Mətn. Şəki Xan Sarayı.
5. Dialoq.

**14-cü dərs. ....................................................................................................109**
1. Keçmiş zamanın inkar forması
2. Xəbərlik kateqoriyası keçmiş zamanda.
3. Dinləmə materialı.
4. Mətn. Küləklər.
5. Dialoq.

**15-ci dərs. .....................................................................................................115**
1. Feilin qəti gələcək zamanı
2. Feildən düzələn sifətlər.
3. N.Xəzrinin “Baharlı yurdum”. “Azərbaycan” sözünün şaxələnməsi.
4. Mətn. Dədə Qorqud.
5. Dialoq.

**16-cı dərs.......................................................................................................122**
1. Feilin qeyri-qəti gələcək zamanı.
2. Qeyri –müəyyən miqdar sayı.
3. İnşa. Mənim arzum.
4. Mətn. Xəzər dənizi.
5. Dialoq.

**17-ci dərs.......................................................................................................129**
1. Hikmətli sözlər.
2. “Xoş gəlmək”, “xoşuna gəlmək”, “xoşlamaq”, “acığı gəlmək” feillərinin işlənməsi.
3. İmla. Azərbaycan mətbəxi.
4. Mətn. Universitetimiz.
5. Dialoq.

**18-ci dərs.......................................................................................................138**
1. Sözün tərkibi (kök və şəkilçi).
2. Azərbaycan dilində eyniköklü sözlər.
3. Mücərrəd və konkret isimlər.
4. Mətn. Azərbaycan Respublikasının gerbi.
5. Dialoq.

**19-cu dərs.......................................................................................................143**
1. Təyin əvəzlikləri.
2. Təsirli və təsirsiz feillər.

3. Mətn. Lənkəran.
4. Dialoq.

**20-ci dərs..............................................................................................150**
1. Qeyri-müəyyən əvəzliklər.
2. Söz birləşmələrinin bir sözlə ifadəsi.
3. Sadə cümlədə söz sırası.
4. Mətn. S.Vurğun.
5. Dialoq.

**21-ci dərs. ............................................................................................155**
1. Feilin məlum və məchul növü.
2. Rəsmi sənədlərin yazılış qaydası (izahat, arayış).
3. İmla. Tar.
4. Mətn. Çövkən.
5. Dialoq.

**22-ci dərs..............................................................................................161**
1. Feilin qayıdış növü.
2. Vergülün işlənməsi.
3. Aşıq Ələsgər "Dağlar" şeiri.
4. Mətn. SOCAR.
5. Dialoq.

**23-cü dərs.............................................................................................168**
1. "Kimi", "qədər", "üçün" qoşmaları.
2. Defisin işlənmə qaydası ("-").
3. M.Füzuli "Məni candan usandırdı".
4. Mətn. Odlar yurdu.
5. Dialoq.

**24-cü dərs.............................................................................................174**
1. Sifətin quruluşca növləri.
2. Dırnaq işarəsi.
3. N.Gəncəvi "Ayüzlü nigarım".
4. Mətn. Səadət Sarayı.
5. Dialoq.

**25-ci dərs..............................................................................................179**
1. Felin icbar növü.
2. Üç nöqtənin işlənməsi.
3. Mətn. 44 günlük Vətən müharibəsi.
4. Zəlimxan Yaqubun "Ordun varsa, yurdun var" şeiri.
5. Dialoq.

**26-cı dərs.......................................................................................................185**
1. Feilin şərt şəkli.
2. İnşa. Mən kiçik olanda...
3. Arxaizm və neologizmlər.
4. Mətn. Naxçıvan Muxtar Respublikası.
5. Dialoq.

**27-ci dərs.......................................................................................................190**
1. Feili sifət. Feli sifətin sifətə aid xüsusiyyətləri.
2. Feilin qarşılıq birgəlik növü.
3. Şeir. A.Səhhət "Vətən".
4. Mətn. 20 yanvar şəhidləri unudulmur.
5. Dialoq.

**28-ci dərs.......................................................................................................196**
1. Feili sifətin feilə aid xüsusiyyətləri.
2. İki nöqtənin işlənməsi.
3. N.Gəncəvi "Eşqdir mehrabı uca göylərin".
4. Mətn. Ü.Hacıbəyli "Həmsöhbətim".
5. Dialoq.

**29-cu dərs.......................................................................................................201**
1. İş feilləri.
2. Məsdər.
3. Dinləmə materialı əsasında ifadə yazmaq.
4.Mətn. Bakı 2015 Avropa oyunları.
5. Dialoq.

**30-cu dərs.......................................................................................................208**
1. Nitq feilləri.
2. Nəqli və sual cümləsi.
3."Əsgər marşı" şeiri.
4. Mətn. Atəşgah.
5. Dialoq.

**31-ci dərs.......................................................................................................214**
1. Hal-vəziyyət feilləri.
2. Xitab.
3. Atalar sözləri və məsəllər.
4. Mətn. Azərbaycan Milli Tarix Muzeyi.
5. Dialoq.

**32-ci dərs.......................................................................................................220**
1. Məsdərin ismə aid xüsusiyyətləri.

2. Mötərizənin işlənmə qaydası.
3. Slayd izləmək.
4. Mətn. Xocalı soyqırımı.
5. Dialoq.

**33-cü dərs.........................................................................................................225**
1. Feili bağlama. Feili bağlamanın feilə aid xüsusiyyətləri.
2. Venn diaqramı üzrə iş. Məsdər, feili sifət, feili bağlama.
3. "Novruz" mövzusunda slayd izləmək.
4. Mətn. Novruz bayramı.
5. Dialoq.

**34-cü dərs.........................................................................................................230**
1. Feili bağlamanın zərfə aid xüsusiyyətləri.
2. Yoxlayıcı tapşırıqlar.
3. Zərf və feili bağlama üçün ortaq və fərqli əlamətlər.
4. Mətn. Novruz adətləri. Mətnə dair sual-cavab yazmaq, danışmaq.
5. Dialoq.

**35-ci dərs..........................................................................................................236**
1. Feilin arzu şəkli.
2. Yoxlayıcı tapşırıqlar.
3. Şeir. S. Vurğun "Şair nə tez qocaldın sən".
4. Mətn. Nar bayramı.
5. Dialoq.

**36-cı dərs..........................................................................................................243**
1. Feilin vacib şəkli.
2. Yoxlayıcı tapşırıqlar.
3. Süleyman Rüstəm "Müəllim" şeiri.
4. Mətn. Qız qalası.
5. Dialoq.

**37-ci dərs..........................................................................................................248**
1. Zərf haqqında məlumat.
2. Yoxlayıcı tapşırıqlar.
3. Tərcümə (ingilis, rus, türk) dilindən azərbaycan dilinə tərcümə edin.
4. Şeir. H.Cavidin "Qız məktəbində" şeiri.
5. Mətn. Qəbələ rayonu.

**38-ci dərs..........................................................................................................253**
1. Feilin lazım şəkli.
2. Yoxlayıcı tapşırıqlar.
3.  Bayatılar.

4. Mətn. Damcılı bulaq.
5. Dialoq.

**39-cu dərs.........................................................................................259**
1. Feilin bacarıq şəkli.
2. Maraqlı məlumatlar. Bilirsinizmi?
3. Slayd izləmək.
4. "Neft daşları" mətni ifadə şəklində yazmaq.
5. Dialoq.

**40-cı dərs.........................................................................................264**
1. Sifətin dərəcələri.
2. Tapmacalar.
3. Yoxlayıcı tapşırıqlar.
4. C.Cabbarlı "Tellər oynadı"şeiri.
5. Mətn. S.Vurğunun "Vaqif" dramı (Qacarla Vaqifın deyişməsi)

**41-ci dərs.........................................................................................270**
1. Tərzi-hərəkət və zaman zərfləri.
2. İfadə "Burla Xatun" dastanı.
3. Hikmət Ziya "Qarabağ" şeiri.
4. Mətn. Azərbaycan Respublikasının Konstitusiyası.
5. Dialoq.

**42-ci dərs.........................................................................................277**
1. Qoşma.
2. Nida.
3. İfadə "Aslan və dovşan".
4. Mətn. Azərbaycan xalq çalğı alətlərinin təsnifatı.
5. Dialoq.

**43-cü dərs.........................................................................................283**
1. Bağlayicilar (tabelilik və tabesizlik).
2. İfadə "Dostlar səfərdə".
3. Rəsul Rza "Çinar" şeiri.
4. Mətn. Ad gününün tarixçəsi
5. Dialoq.

**44-cü dərs.........................................................................................289**
1. Ədat.
2. Dinləmə materialı.
3. Azərbaycan dilində Söz ehtiyatını zənginləşdirmək.
"Moruq" mətni əsasında şaxələnmə.
4. Mətn. H.Əliyev Fondu.

5. Dialoq.

**45-ci dərs...........................................................................................................294**
1. Modal sözlər.
2. Sintaqmlar.
3. Yoxlayıcı tapşırıqlar.
4. Mətn. İlk dəfə Azərbaycanda.
5. Dialoq.

**46-cı dərs...........................................................................................................300**
1. Miqdar zərfləri.
2. Yoxlayıcı tapşırıqlar.
3. Dinləmə. Dinlənilən mətn əsasında ifadə.
4. Mətn. Füsunkar təbiət abidəsi –Batabat.
5. Dialoq.

**47-ci dərs...........................................................................................................307**
1. Yer zərfi.
2. Dinləmə. Dinlənilən mətn əsasında ifadə.
3. Leksika. Yoxlayıcı çalışma.
4. Mətn. Azərbaycan.
5. Dialoq.

**48-ci dərs...........................................................................................................313**
1. Sintaksis. Söz birləşmələri.
2. Şəkil üzrə iş.
3. Məntiqi suallara cavab verin.
4. Mətn. BDU-nun beynəlxalq aləmdə yüksəlişi.
5. Yunis Əmrə “Salam olsun” şeiri.

**49-cu dərs...........................................................................................................318**
1. İsmi birləşmələr
2. İfadə yazı. Bakı funikulyoru.
3 Yoxlayıcı tapşırıqlar.
4. Mətn. Azərbaycan Respublikasının Dövlət Bayrağı.
5. Dialoq.

**50-ci dərs...........................................................................................................324**
1. Baş üzvlər. Mübtəda. Xəbər.
2. İfadə yazı “Mərdəkan dendralisi” əsasında.
3. Yoxlayıcı tapşırıqlar.
4. Mətn. Muğamlar.
5. Cütlərlə iş.

**51-ci dərs..........................................................................................................331**
1. Feili birləşmələr.
2. Həmcins üzvlər.
3. Xalq mahnısı "Pəncərədən daş gəlir".
4. Mətn. Dilarə (C.Cabbarlı).
5. Dinləmə. Dinlənilən mətni ifadə şəklində yazmaq və danışın.

**52-ci dərs..........................................................................................................337**
1. Cümlənin II dərəcəli üzvləri: Tamamlıq. Təyin. Zərflik.
2. İxtisarlar.
3. İmla.
4. Mətn. Azərbaycanın milli şirniyyatları.
5. Dialoq.

**53-cü dərs..........................................................................................................344**
1. Zərfliklərin məna növləri. Tərzi-hərəkət və zaman zərflikləri.
2. Terminlər.
3. İnşa. "Ana" haqqında.
4. Mətn. Əfsanələrlə dolu Xınalıq.
5. Dialoq.

**54-cü dərs..........................................................................................................350**
1. Mürəkkəb cümlə.
2. Menyu.
3. Tərcümeyi –hal. Ərizə.
4. Kəmiyyət kateqoriyasına aid krossvord.
5. Mətn. Böyük şəxsiyyət – Heydər Əlirza oğlu Əliyev.

**55-ci dərs..........................................................................................................355**
1. Bağlayıcılı tabesiz mürəkkəb cümlə (davamı).
2. Təfəkkür feilləri.
3. Vasitəsiz və vasitəli nitq.
4. Mətn. Atayla yaşıd qız.
5. Tərcümə. Mətnləri (türk, rus, ingilis dilindən) azərbaycan dilinə tərcümə edin.

**56-cı dərs..........................................................................................................361**
1. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi.
2. Oxu mətni. "H.Əliyev dövlətçilik və dil haqqında".
3. Baba Vəziroğlu. "Sən elə bir zirvəsən..." şeiri.
4. Mətn. İrəvan xanlığı.
5. Dialoq.

**57-ci dərs..........................................................................................................365**
1. Tabelilik əlaqəsi. Uzlaşma.

2.Məntiqi vurğu.
3. İfadə “Gülüş günü”.
4. Mətn. Şuşa şəhər.
5. Dialoq.

**58-ci dərs......................................................................................................371**
1. Feilin icbar növü.
2. Üç nöqtənin işlənməsi.
3. M.Müşfiq “Yenə o bağ olaydı” şeiri.
4. Mətn. Abşeron yarımadası.
5. Dialoq.

**59-cu dərs......................................................................................................375**
1. Müxtəsər və geniş cümlələr.
2. İfadə “Suqovuşan”.
3. C.Cabbarlı “Türk sağ ikən” şeiri.
4. Mətn. Xudafərin körpüsü.
5. Dialoq.

**60-cı dərs......................................................................................................380**
1. Cümlə üzvlərinin sırası.
2. İmla “Böyüklərlə gəzirəm”.
3. Tərcümə. Mətnləri (türk, rus, ingilis dilindən) azərbaycan dilinə tərcümə edin.
4. Mətn. Aleksandr Düma Şamaxıda.
5. Slayd izləmək.

## 1-ci dərs

1. Salamlaşma.
2. Azərbaycan əlifbası.
3. Rəqəmlər.
4. Mətn. Azərbaycan dövləti.
5. Dialoq.

**1.Salamlaşma.**

– Salam.
Mənim adım Aytəndir.
– Mən müəllimәm.
– Sizin adınız nədir?

–Salam.
Mənim adım Ayxandır.
– Mən tələbəyəm.

– Salam
– Necəsiniz?
–Bəs siz necəsiniz?
– Görüşərik. Hələlik.

– Salam.
– Mən yaxşıyam. Çox sağ olun.
– Mən də yaxşıyam.
– Özünüzdən muğayat olun.

**2.Azərbaycan əlifbası.**

| | | | | | |
|---|---|---|---|---|---|
| A a | [A a] | Azərbaycan | Q q | [Q q] | Qəbələ |
| B b | [B b] | Bakı | L l | [L l ] | Lənkəran |
| C c | [C c ] | Cəlilabad | Mm | [Mm] | Masallı |
| Ç ç | [ Ç ç] | Çuxuryurd | N n | [N n] | Nabran |
| D d | [D d] | Daşkəsən | Oo | [Oo] | Ordubad |
| E e | [E e] | Elabad (Ağsu) | Ö ö | [Ö ö] | Öksən (Tovuz) |
| Ə ə | [Ə ə] | Əylis (Naxçıvan) | P p | [P p] | Pirşağı |
| F f | [F f] | Füzuli | R r | [R r] | Ramana |
| G g | [G g] | Gəncə | S s | [S s] | Sumqayıt |
| Ğ ğ | [Q q] | Qarabağ – | Ş ş | [Ş ş] | Şirvan |
| H h | [H h] | Hacıqabul | T t | [T t] | Tovuz |
| X x | [X x] | Xocalı | U u | [U u] | Ucar |
| I ı | [I ı] | ----- | Ü ü | [Ü ü] | Üçtəpə |
| İ i | [İ i] | İsmayıllı | V v | [V v] | Vəndam |
| J j | [J j] | Jiy (Yardımlı) | Y y | [Y y] | Yevlax |
| K k | [K k] | Kürdəmir | Z z | [Z z] | Zaqatala |
| K | [Kǩ ] | Konya | | | |

***Sinif işi.*** Verilmiş sözləri “k” kərfinin iki cür tələffüzünə görə ayrı-ayrı sütunlarda yazın və oxuyun:

Türkiyə, kəpənək, kanal, kredit, Koreya, kobud, konsul, kar, kor, kirpi, kürk, kolbasa, kukla, Kəlküttə, Tokio, klub, kvadrat, kub, bank, Kars, Konya, korrupsiya, krem, karate, kiçik, küçük, Kəpəz, kafir.

***Sinif işi.*** Nöqtələrin yerinə "h" və "x" hərflərindən uyğun olanını yazın:
ə...laq, sül...., şa...mat, ....örək, ....a...iş, .....akim, mə....kəmə, mətbə...., mü...aribə, mü.....alifət, mü.....afizə, sə...avət, .....anın, pa.....lava, ......amam, ......əkim, ta....ıl, .....açı, psi.....oloq, Mə.....əmməd, Me......riban, ba.....ın, qor....u, Ə....məd.




**Dilçilik elminin şöbələri:**
Azərbaycan dilçiliyinin əsas şöbələri aşağıdakılardır:

**Fonetika: (phonetixs)** – Fonetika dilçiliyin bir bölməsidir. Fone – səs deməkdir. Fonetika bölməsində – dilin səs sistemindən bəhs edilir.

**Leksikologiya (lexesology)** – Dilçiliyin lüğət tərkibindən bəhs edən bölməsi leksikologiya adlanır.

**Qrammatika (grammer)** – Qrammatika 2 yerə bölünür: **Morfologiya (morfology) morfoloji** – Yunan dilindən tərcümədə morfem forma, logos – elm deməkdir. Morfologiya nitq hissələrindən bəhs edir; **Sintaksis (sintaxis) –** birləşmə deməkdir.




***Tapşırıq 1***. Suallara yalnız "bəli" və ya "xeyr" sözləri ilə cavab yazın.

1. Sən Azərbaycan dilini yaxşı öyrənmək istəyirsənmi?
2. Dərslərdən geri qalırsanmı?
3. Verilən tapşırıqları vaxtında yerinə yetirirsən?
4. Müəllim səndən narazıdırmı?
5. Müəllimin sizə öyrətdiklərini başa düşürsənmi?
6. Tərcümələrdə çətinliyin var?
7. Bu dərslik sənə Azərbaycan dilini öyrənməkdə kömək edirmi?

| *b)* | Bu, düzdür, ya səhvdir? | | Hə | Yox |
|---|---|---|---|---|
| 1. | Kompüter | Bu, tərəqqidir. | | |
| 2. | Makaron – | Bu, pəhrizdir. | | |
| 3. | Viza – | Bu, möhürdür. | | |
| 4. | Monoloq – | Bu, roldur. | | |
| 5. | Fasilə – | Bu, tənəffüsdür. | | |
| 6. | İnstinkt – | Bu, reaksiyadır. | | |
| 7. | Prezident – | Bu, siyasətçidir. | | |
| 8. | Cırcırama – | Bu, quşdur. | | |
| 9. | Memar – | Bu, inşaatçıdır. | | |
| 10. | İtburnu – | Bu, çiçəkdir. | | |
| 11. | Məktəbli – | Bu, tələbədir. | | |

| | | | | |
|---|---|---|---|---|
| 12.<br>13.<br>14.<br>15. | Təlxək –<br>Eynşteyn –<br>Peşmançılıq –<br>Əlli – | Bu, aktyordur.<br>Bu, dahidir.<br>Bu, məyusluqdur.<br>Bu, saydır. | | |

## Fonetika (səslər)

**Sait səslər:** a, ı, o, u – qalın
e, ə, i, ö, ü – incə

A — Ayna, alma, Aqil, ada, Azərbaycan, alışqan, alim, alın
I — Bakı, altı, qıfıl, qış, işıq, yaşlı, yaşıl, pıçıltı
O — Odun, od, oyun, oxşar, oğul, Orxan, naxoş, qol
U — Usta, un, uca, uydurma, ucuz, uşaq, soyuq, quzu
E — Elçi, elm, etibar, eşq, evlənmək, demək, tez, Günel
Ə — Əlbir, ət, əmi, əvvəl, əvəz, əjdaha, əziz, əzmək, əzbərləmək
İ — İmla, inam, ilik, il, iynə, iki, iyirminci, indi
Ö — Övlad, ömür, özgə, ölkə, ördək, söyüd, dözüm, göl
Ü — Lüğət, üzük, güclü, ürək, üzbəüz, tütək, üç, gürzə




**Samit səslər:**
Samitlər: kar – cingiltili
Kar samitlər — [p], [t], [f], [s], [ş], [ç], [k], [x], [h]
Cingiltili samitlər — [b], [v], [d], [z], [j], [c], [ğ], [y], [q], [g]

Sonor samitlər — [n], [m], [l], [r].

***Sinif işi.*** Aşağıdakı sözləri oxuyun, *ə* səsinin tələffüzünə diqqət edin.

Ələk, əlcək, kələk, külək, səbət, dəmir, gələcək, zənbil, dədə, nənə, nəticə, səhər, gəlin, məna, ləzzət, qələm, dələ, kələm, mələk, kəpənək, sərin, çiçək, göbələk, ləçək, pəncərə, şüşə, istək, dərin, gəmi, zəmi, əlli, əmanət, dəyanət. əmtəə, qəhrəman, müstəntiq, dünən, zəhər, bələk, dəllək, cərgə, tənbəl, təndir.

***Sinif işi.*** Aşağıdakı sözləri oxuyun, *x* səsinin tələffüzünə diqqət edin.

Xurma, xizək, xəmir, axır, xəstə, axmaq, toxucu, daxil, xırda, xahiş, xəzinə, əxlaq, Xəzər, xəta, xəlbir, xəyal, Xəyyam, xəncər, xüsusi, Qax, Qazax, taxmaq, yaxma, çox, yaxşı, səxavət, baxış, xəyanət, xurcun, oxumaq, Xədicə, sıx, tıxac, soxulcan, tox, yox, noxud.

***Sinif işi.*** Aşağıdakı sözləri oxuyun, *q* səsinin tələffüzünə diqqət edin.

Qatıq, qaşıq, qalmaq, qarmaq, qüssə, dəqiq, diqqət, qazmaq, qurtuluş, qurban, əqiq, əqidə, aqıl, qısqanc, qurğuşun, qalstuk, qüdrətli, qoşa, qoçaq, qurbağa, qonaq, qanad, quru, qaba, qabar, topuq, çapıq.

***Tapşırıq 2.*** Verilmiş cümlələrdəki saitləri incə və qalınlığına görə qruplaşdırın.

1. Bəstəkar möhtəşəm opera bəstələdi.
2.Yaxşı musiqini dinləməyi sevirəm.
3.Üzeyir Hacıbəyli dahi bəstəkardır.
4. Tar, kamança milli musiqi alətlərimizdir.
5. “Yeddi gözəl” baletinin musiqisini Qara Qarayev bəstələyib.

***Tapşırıq 3.*** Spesifik səsli sözləri düzgün tələffüz edib dəftərinizə yazın.

Qurbağa, qurğu, doğma, ağ, ağac, ağıl, buğda, vağzal.
Əbədiyyət, ədəbiyyat, əziz, əxlaq, əhali, əcnəbi, əmək.
Gavalı, geyim, gecə, gəlin, gənc, gəmi, gözəl, gül, göz.
Övlad, ömür, ömürlük, örnək, ördək, özgə, öyrənmək, ögey.
Ütü, üz, üzgüçü, üzük, üzüm, ümid, ünvan, ürək, ünsiyyət.
Hava, habelə, hazır, hakim, hamam, hara, hansı, həzz
Cümlə, cücə, cinayət, cümə, corab, cərrah, cərgə.

## 3. Rəqəmlər.

***Tapşırıq 4.*** Oxuyun.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | bir | 11 | on bir | 66 | altmış altı | 200 | iki yüz |
| 2 | iki | 20 | iyirmi | 70 | yetmiş | 278 | iki yüz yetmiş səkkiz |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3 | üç | 22 | iyirmi iki | 77 | yetmiş yeddi | 300 | üç yüz |
| 4 | dörd | 30 | otuz | 80 | səksən | 1000 | min |
| 5 | beş | 33 | otuz üç | 88 | səksən səkkiz | 1015 | min on beş |
| 6 | altı | 40 | qırx | 90 | doxsan | 1125 | min yüz iyirmi beş |
| 7 | yeddi | 44 | qırx dörd | 99 | doxsan doqquz | 10000 | on min |
| 8 | səkkiz | 50 | əlli | 100 | yüz | 100 000 | yüz min |
| 9 | doqquz | 55 | əlli beş | 104 | yüz dörd | 1000000 | milyon |
| 10 | on | 60 | altmış | 115 | yüz on beş | 0 | sıfır |

***Tapşırıq 5.***Tamamlayın.

19 on____________
57 _____________ yeddi
248 _______________ qırx __________
763 yeddi __________ __________üç
4009 ___________ doqquz
7386__________ ______________ _________ ___________ altı
32.000 __________ iki__________
75.038 yetmiş ____________ min ___________ ___________
8.000000 _____________ ______________________

***Tapşırıq 6.*** Rəqəmlə yazın.

Otuz doqquz __________________________________________
İyirmi altı __________________________________________
Üç yüz əlli beş __________________________________________
Min yeddi yüz qırx üç __________________________________________
Üç min səksən altı __________________________________________
Min beş yüz __________________________________________
Üç min dörd yüz iyirmi beş __________________________________________
Yetmiş min __________________________________________

***Tapşırıq 7.*** Rəqəmləri sözlə yazın.

| | | | |
|---|---|---|---|
| 59 | 948 | 2098 | 1582 |
| 2019 | 15984 | 245082 | 2020 |

***Tapşırıq 8.*** Telefon nömrələrini oxuyun.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 502 | 43 | 66 | | | | | |
| 055 | 780 | 69 | 46 | 070 | 829 | 53 | 38 |
| 050 | 748 | 46 | 18 | 050 | 407 | 64 | 01 |
| 070 | 690 | 85 | 74 | 055 | 710 | 20 | 08 |

***Tapşırıq 9.*** Tarixləri söyləyin.

12.09.2020 ……………………….
20.03.2020………………………..
05.02.2020………………………..
13.08.2020………………………..

**4. Mətn.**

**Azərbaycan dövləti**

Azərbaycan Cənubi Qafqazda yerləşən üç respublikadan biridir. Paytaxtı Bakı şəhəridir.

Rusiya, Almaniya, Fransa, İngiltərə, Yunanıstan və s. ölkələr Avropadadır. Azərbaycan Avropa ilə Asiyanın birləşdiyi yerdədir. Bakı Azərbaycanın paytaxtıdır.

İran, İraq, Pakistan, Əfqanıstan islam ölkələridir. İran və Azərbaycan qonşu ölkələrdir. İranın paytaxtı Tehrandır. Təbriz azərbaycanlıların İranda yaşadığı ən böyük şəhərdir. Türkiyə isə Azərbaycanın Cənubdan qonşusudur. Türkiyənin paytaxtı Ankara şəhəridir. Ankara Türkiyənin Mərkəzi Anadolu bölgəsində yerləşən çoxmillətli paytaxtıdır.

Rusiya Azərbaycanın Şimal qonşusudur. Rusiyanın paytaxtı Moskva şəhəridir. O, böyük və gözəl şəhərdir.

## QARABAĞ AZƏRBAYCANDIR!

***Səməd Vurğun***

**“AZƏRBAYCAN”**

“Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan!
Eşitmişəm uzaqlardan
Sakit axan arazları,
Sınamışam dostu, yarı...

*** * ***

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

*** * ***

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan;
Axşam üstü qoy uzaqdan

Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

* * *

Gözəl Vətən! Mənan dərin,
Beşiyisən gözəllərin
Aşıq deyər sərin-sərin,
Sən günəşin qucağısan,
Şeir, sənət ocağısan.

* * *

Bir dön bizım Bakıya bax,
Sahilləri çıraq-çıraq,
Buruqları hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə.”

**Mənbə:** Bakı: “Şərq-Qərb”, 2005, s.176-179

## 5. Dialoq.

| | | |
|---|---|---|
| - Salam. | - Здравствуйте. | - Hello. |
| - Xoş gəlmisiniz. | - Добро пожаловать. | - You are welcome. |
| - Necəsiniz? | - Как вы? | - How are you? |
| - Yaxşı/Pis. | - Хорошо/плохо | - I am well. I am ok. I am - bad. |
| - Sağ olun (xudahafiz) | -До свидания. | - Good bye. |

## 2-ci dərs

1. Şəxs əvəzlikləri.
2. Xəbərlik kateqoriyası.
3. İmla. “Metro”.
4. Mətn. Bakı.
5. Dialoq.

**1. Şəxs əvəzlikləri.**

**Qeyd:** *Şəxs əvəzlikləri ismin yerində işlənir, kim? nə? sualına cavab verir və hallanır.*

| Şəxs əvəzlikləri | Tək | Cəm | Sualı |
|---|---|---|---|
| I şəxs (danışanı) | Mən | Biz | Kim? |
| II şəxs (dinləyəni) | Sən | Siz | Kim? |
| III şəxs (haqqında danışılanı bildirir) | O | Onlar | Kim? Nə? |

***Tapşırıq 10.***

| | | | |
|---|---|---|---|
| Mən → | türkəm<br>vətəndaşam<br>anayam<br>aliməm | Biz → | türkük<br>vətəndaşıq<br>anayıq<br>alimik |
| Sən → | müəllimsən<br>oğulsan<br>bağbansan<br>türksən | Siz → | müəllimsiniz<br>oğulsunuz<br>bağbansınız<br>türksünüz |
| O → | toxucudur<br>atadır<br>tələbədir<br>türkdür | Onlar → | toxucudurlar<br>atadırlar<br>tələbədirlər<br>türkdürlər |

***Tapşırıq 11.*** Şəxs əvəzlikləri əlavə edib, yazın.

1. ……….ingilisəm. 2………..xəstəsən. 3……..cavansınız. 4………tərcüməçiyik. 5…..…mühəndisdir.6……....memardırlar.7……....dostuq.8………rəssamsınız 9……..sürücüyəm. 10………müəllimsən. 11………jurnalistdirlər. 12. …………azərbaycanlıdır.

***Tapşırıq 12.*** Suallara cavab yazın.
*Nümunə:* 1) – Siz parkda nə edirsiniz?

– Biz parkda gəzirik.

2) – Siz kitabxanaya nə üçün gəlmisiniz?

– Biz kitabxanaya kitab götürmək üçün gəlmişik.

1) – Kafedə nə edirlər? .....
2) – Teatrda hansı tamaşa göstərilir? .....
3) – Hansı restoranda daha gözəl yemək verirlər? .....
4) – Hansı muzeyləri tanıyırsınız?.....
5) – Mətbəədə nə işlə məşğul olurlar? ....

***Tapşırıq 13.*** Ad günlərində, bayramlarda valideynlərinizi, yaxınlarınızı, dostlarınızı təbrik etməyi unutmayın. Təbrik üçün aşağıdakı sözlərdən istifadə edin. Şəxs əvəzliklərinin altından xətt çəkin.

Sizi ad gününüz münasibəti ilə ürəkdən təbrik edirəm!
Sizə uzun ömür, can sağlığı, işlərinizdə uğurlar arzulayıram!
Siz daha gözəl sözlərə layiqsiniz!
Mən sizin hamınızın Novruz bayramını təbrik edirəm!
Onlar da sizi təbrik edirlər!

***Tapşırıq 14.*** Nöqtələrin yerinə şəxs əvəzliklərini yazın.

1. ... ... dinləyirəm. 2. ... ... tanıyırsınız? ... Əhmədəm. 3. ... adı Aqşindir.4. ... nə danışırlar? 5. ... onları tanımıram. 6. ... müdirdir. 7. ... bilmirəm, ... adı nədir? 8. ... ... nə soruşursunuz.

**(I) Dialoqlar.**

– Salam!
– Salam!
– Bağışlayın, sizin adınız nədir?
– Mənim adım Sonadır. Bəs sizin?
– Mənim adım Orxandır.
– Çox gözəl.

---

**(II)** – Salam! Mən sizin yadınızdayam?
– Bəli, mən sizi tanıyıram. Siz Orxansınız.
– Bəli, mən Orxanam. Siz tələsirsiniz?
– Xeyr, mən tələsmirəm.
– Onda kafeyə gedib qəhvə içək.

---

**(III)** – Bağışlayın, sizin adınız nədir?
– Mənim adım Qumrudur.
– Mənim adım isə İradədir.
– Mən müəlliməm. Bəs sən?

– Mən tələbəyəm.
– Sizinlə tanış olmağıma şadam.

**2. Xəbrlik kateqoriyası.**

| Əvəzlik | Adlar | Şəkilçi | Nümunə |
|---|---|---|---|
| mən | həkim | -am/əm | həkiməm |
| sən | rəssam | -san/sən | rəssamsan |
| o | sürücü | -dır/dir/dur/dür | sürücüdür |
| biz | tələbə | -ıq/ik/uq/ük | tələbəyik |
| siz | türk | -sınız/siniz/sunuz/sünüz | türksünüz |
| onlar | futbolçu | -dırlar/dirlər/durlar/dürlər | futbolçudurlar |

***Tapşırıq 15. Xəbərlik şəkilçilərini əlavə edib, tamamlayın.***

1**.** Bu, qələm.......... 2**.** Bunlar dəftər.............3. Bu, yaxşı kitab...........
4. Bu kişi müəllim............ 5. Bu, əla............6. Kitab maraqlı.............
7. Bu otaq geniş ................8. Bu, maşın........... 9. Bu maşın qara..........
10. O, ev ............11**.** Həmin ev böyük............12**.** Sevda ağıllı.............

***Tapşırıq 16.*** Xəbərlik şəkilçiləri əlavə edin.

1. Mən pilot…….2. Sən ərəb…….3. Biz yaxşı……4. O, müğənni…….5. Onlar gənc……...6. Siz aşpaz……..

***Tapşırıq 17.*** Xəbərlik şəkilçilərini əlavə edib inkarda yazın.

1. Mən tələbə........ 2. Sən fransız ……3. Biz ac…...... 4. Siz gözəl…… 5. O, ingilis…….6. Biz xoşbəxt……… 7. Mən azərbaycanlı…….. 8. Biz tərcüməçi…… 9. Onlar qonşu……….10. O, xəstə……....11. Biz mühəndis…...... 12. Siz cavan...... 13. Sən müəllim………14. Onlar məşğul…….. Bu, qələm..........15. Biz gənc........ 16. Biz müəllim...........17. Sən ağıllı........18. Biz dost........ 19. Biz tələbə......... 20. Siz həkim...........21. Bunlar gözəl....... 22. Biz yaxşı.......... 23. Maraqlı........... 24. Soyuq......... 25. İsti ..........26. Otaq geniş......27. Film maraqlı..........28. Qadın yorğun......... 29. Qapı bağlı...........30. Qapı açıq..........31. Tort dadlı...........32. Alma şirin........... 33. Dərman acı......... 34. Yemək ləzzətli........35. Bu kişi.............. .

***Tapşırıq 18.*** Aşağıdakı cümlələrdə buraxılmış xəbərlik şəkilçilərini yazın.

1. Mən Azərbaycan vətəndaşı .... .
2. Sizin ananız müəllim ... .
3. Bizim işimiz çətin ... .
4. Sən onun bacısı ... . ?

5. Əhməd diş həkimi ... .
6. Onlar Qoşqarın uşaqları ... .
7. Biz müəllim ... .
8. Mən ailəli ... .
9. Sən üç uşaq anası ... .
10. O çox gözəl qız ... .

***Tapşırıq 19.*** Xəbərlik kateqoriyasına aid suallara cavab yazın (təsdiq və inkarda).

Leyla →
- həkimdir?
- müəllimdir?
- rəssamdır?
- mühəndisdir?
- yazıçıdır?

Dəniz →
- dərindir?
- dayazdır?
- dalğalıdır?

Ağac →
- verimlidir?
- yaşıldır?
- yaşlıdır?

**3. İmla.**

**Metro**

Bakıda çoxlu metro stansiyaları var. Bakı metrosu 1967-ci ildən işə düşüb.

Metroya yeraltı yol da deyilir. Şəhərin harasına istəsən, metro ilə gedə bilərsən.

***İşlək ifadələr***

***Maraqlıdır***
***Lap yaxşı***
***Çox yaxşı***
***Əla***

## 4. Mətn.

### Bakı

Bakı Azərbaycan Respublikasının paytaxtıdır. O bütün regionun ən iri sənaye, elm və mədəniyyət mərkəzidir. Bakı Xəzər dənizinin qərb sahilində, Abşeron yarımadasının cənub hissəsində yerləşən iri limanlardan biridir.



Bakı gediş-gəlişli və çox maraqlı şəhərdir: burada həyat heç gecələr də səngiməк bilmir. Son on il ərzində Bakı çox inkişaf etmişdir: ticarət mərkəzlərinin, mehman-xanaların və bankların yeni salınan çoxmərtəbəli binaları qədim tikililərlə çox uyuşur. Bakı on bir inzibati rayona bölünür. Bakı gecələri lap gözəldir. Bakını gözəlliyinə görə İtaliyanın Neapol, Türkiyənin İzmir şəhərinə oxşadırlar.

***Tapşırıq 20.*** Şeiri intonasiya ilə oxuyun.

**Bakı**

"Adın gəzir dodaqlarda,
Yaxınlarda, uzaqlarda.
Şöhrətin var hər diyarda,
Gözəl Bakı, Gözəl Bakı!

Buruqların gəlməz saya
Ucalırsan günə, aya.
Səs salırsan bu dünyaya,
Gözəl Bakı, gözəl Bakı".

**Mənbə:** Zeynal Cabbarzadə,
Şeirlər, Bakı: "Uşaqgənc nəşr", 1950, s.20

## 5. Dialoq.

| | | |
|---|---|---|
| – Mən razıyam | – Я согласен | – I agree |
| – Mən razı deyiləm | – Я не согласен | – I disagree |
| –Bu kimdir? | – Кто это? | – Who is he (she)? |
| – Bu səfirdir | – Это посол | – This is an ambassador |
| – O haradandır? | – Откудо он? | – Where is he from? |
| – O, Almaniyadandır | – Он из Германин | – He's from Germany |
| – O, almandır? | – Он немец? | – Is he a german? |
| – Bəli, o, almandır | – Да он немец | – Yes he's a german |
| – Bəs bu qız kimdir? | – А кто эта девушка? | – And who is this girl? |
| – Bu qız katibədir | – Эта девушка секрета! | – This girl is a sekretary |
| – O çox gəncdir | – Она очень молода | – She's very young |

## 3-cü dərs

1. İşarə əvəzlikləri.
2. Sinonim, antonimlər və omonimlər.
3. İmla.
4. Mətn. Soyadlar.
5. Dialoq.

### <u>1. İşarə əvəzlikləri.</u>

***Qeyd:*** *O, bu, həmin işarə əvəzlikləri, çox vaxt əsasən, sifətin yerində işlənir və hansı? sualına cavab verir: Bu (hansı?) kitab. Elə, belə işarə əvəzliyi isə həm sifətin, həm də zərfin yerində işlənə bilər: Elə yaz ki, oxunsun. Elə kitab ələ düşməz. Bu, o əvəzliyi əşyanı göstərmək üçün işlənir. Bu zaman isimləşir, kim? nə? sualına cavab verir.*

***Tapşırıq 21.*** *O, bu* əvəzliklərinin hansı nitq hissəsinin yerində işlənməsinə fikir verin.

Bu (hansı?) gül bağlarda bitir. Bu (nə?) atamın kitabıdır.Bu (hansı?) kitab atamındır. Bu (hansı?) uşaqdan muğayat olun. Bu, (nə?) Azərbaycan bayrağıdır. Bu, (nə?) maraqlı əsərdir. O (nə?) nar ağacıdır. O (hansı?) uşaq dəcəldir. O (hansı?) tələbəylə işiniz olmasın. O (kim?) bizim fəxrimizdir.

***Tapşırıq 22.*** Aşağıda verilmiş cümlələrdəki “elə” “belə” işarə əvəzlikləri hansı suala cavab verir.

1. Belə paltar ələ düşməz. 2. Elə əsər yaz ki, oxunsun. 3. Belə günləri unutmaq olmaz. 4. Belə oğullara qayğı ilə yanaşın. 5. Belə oxumaqla istəyinə nail ola bilməzsən. 6. Elə yolla getməklə mənzil başına çatmaq olmaz. 7. Belə tədbirlər tez-tez keçirilməlidir. 8. Elə söz de ki, hamı başa düşsün. 9. Belə havada evdə oturmazlar. 10. Elə işlərdən xoşum gəlmir.

***Tapşırıq 23.*** Sxemdə yazılmış işarə əvəzliklərinə suallara uyğun sözlər əlavə edin və cümlədə işlədin.






***Tapşırıq 24.*** İçərisində işarə əvəzlikləri olan 10 cümlə yazın.

**2. Sinonim, antonimlər və omonimlər.**

*Eyni anlayışı müxtəlif cür adlandıran, məzmunca bir-birinə yaxın məna ifadə edən sözlərə sinonim deyilir. Sinonim yunan sözüdür, mənası eyni adlı deməkdir. Bədii ədəbiyyatda hər hansı bir ifadənin təsirini, bədii gözəlliyini artırmaq üçün sinonim sözlərdən geniş istifadə olunur.* ***Sinonim sözlər eyni nitq hissəsinə aid olur****. Məsələn:*

*Amma, ancaq, lakin, fəqət - bağlayıcı*
*Gözəl, qəşəng, göyçək - sifət*
*Nə vaxt, nə zaman, haçan - əvəzlik*
*Qəm, kədər, qüssə* - isim
*Ürək, könül, qəlb* – isim
*Hündür, uca, yüksək - sifət*
*Qulaq asmaq, dinləmək* - fel
*Qaçmaq, yüyürmək* - fel
*Tərəf, sarı - qoşma*
*Kimi, qədər, çən, dək - qoşma*

***Antonimlər*** *bir-birinə əks, zidd mənalar bildirən sözlərə deyilir. Antonim sözü yunanca "anti" - əks və "onuma" - ad sözlərindən düzəlib. Antonimləri təşkil edən sözlər müxtəlif fonetik tərkibə malik olur. Məsələn: yaxşı - pis, acı - şirin,* ağ - qara, *isti - soyuq, gülmək - ağlamaq, yatmaq -* durmaq, almaq *-vermək, çox* - az.

*Antonimlər dilin lüğət tərkibinin zənginləşməsində müəyyən rol oynayır. Mürəkkəb sözlərin bir hissəsi antonim sözlərin birləşməsindən düzəlir: alt-üst,* var-*yox,* sual-cavab, *əvvəl-axır, baş-ayaq və s.*

*Antonim sözlər bədii ədəbiyyatda, xüsusilə şeirdə çox işlənir.*

***Tapşırıq 25.*** Verilmiş sözlərin qarşısında antonimlərini yazın:

| | | |
|---|---|---|
| a) Şərq - | e) açıq - | ğ) geri - |
| b) Şimal - | ə) şor - | j) dərə - |
| c) düşmən | f) çox - | h) zəif - |
| ç) qalib | g) dar - | x) ac - |

*__Qeyd:__ Sözün ilkin əsas mənası onun həqiqi mənasıdır. Məs., şirin çay. Sözün sonradan qazandığı törəmə mənası isə onun məcazi mənasıdır. Məs., şirin uşaq.*

***Tapşırıq 26.*** Verilmiş sözlərə "çəkmək" feilini artırmaqla çox mənalı sözlər düzəldib yazın və onları cümlələrdə işlədin.

Əl, qol, söz, dərd, qəm, qüssə, bəlalar, fikir, ah, şirə, rütubət, nəm, əzab, gülab, burun, ayaq, zəhmət, aclıq, korluq, həsrət, sürmə, yol, su, arx, diş, xətt, növbə, xərc, hesab, qayğı, baş, hücum, xörək, qorxu, özünü, ad, şəkil, plan, telefon, hasar, qeyrət, qəriblik.

***Tapşırıq 27.*** Aşağıda verilmiş çoxmənalı sözləri müxtəlif cümlələrdə işlədin.

Baş, çəkmək, düşmək, göz, qol, ayaq, boğaz, əl, bel.

***Tapşırıq 28.*** Aşağıda verilmiş sinonimlərin mənalarına fikir verin, onları söz birləşməsi daxilində işlədin.

Məslək – ideya
Üz – sifət
Fərasət – bacarıq – qabiliyyət – məharət
Aydın – aşkar – məlum – bəlli
Girdə – yumru – dəyirmi – yuvarlaq
Məharət – istedad – bacarıq – fərasət
Devirmək – yıxmaq – dağıtmaq – uçurmaq
Füsunkar – məlahətli – cazibəli
Təmtəraq – dəbdəbə – dəm-dəsgah
Qəmli – məyus – pərişan – kədərli

***Tapşırıq 29.*** Verilmiş sözlərə sinonim sözlər tapıb yazın.

| | |
|---|---|
| 1) igid - | 6) düşünmək - |
| 2) ordu - | 7) əfv etmək - |
| 3) dünya - | 8) ağ - |
| 4) ideya - | 9) əyləşmək - |
| 5)azad - | 10) qulaq asmaq - |

**Sözlərin sinonimini tapın, yerlərinə yazın**




<u>I. Yuxarıdan aşağıya:</u>
<u>1</u>. Simic
2. Yaşlı qadın
3. Düşüncə
4. Fərasət
5. Çəlimsiz
6. Sifət (üz)
7. Yurd
8. Balıq toru
9. Dünya, kainat
10. Çarə
11. Musiqi yazısı
12. Toqqa
13. Göy üzü
14. Məktub
15. Həkim
16. Bərbər
17. Bostanda sıra
18. Onluq
19. Sadə

<u>II. Soldan saga:</u>
1. Kiçik, narın
3. Bacarıq, qabiliyyət
4. Kiçik
13. Dözüm
15. Yalqız, tənha
20. Ün, avaz
21. Yuxu
22. Qarabəniz, qarabuğdayı
22. Gənc
23. Yaşlı, ixtiyar
24. Yer
25. Mərifət, həya
26. Moda
27. Kit
28. Balina

***Tapşırıq 30.*** Verilmiş sinonim sözləri cümlələrdə işlədin.

Yaz, bahar; gül, çiçək; igid, qəhrəman, cəsur; oturmaq, əyləşmək; qalxmaq, durmaq.

***Tapşırıq 31.*** Şeir parçalarını oxuyun, sinonimləri tapın.

1.Sənin çiçəyinə, gülünə qurban,
Mənə qardaş deyən dilinə qurban.

2. Silinsin könüldən, ürəkdən ağrı
Bir də tapdanmasın vətənin bağrı!

3.Alınsın düşməndən intiqam, qisas,
Torpaq nəfəs alıb dincəlsin bir az!

4. Dünyanın dərdini, qəmini hər an,
Mənə bir baxışla unutdurursan.

*Qeyd: Omonim – yazılışı eyni, mənası müxtəlif olan sözlərə deyilir.*

***Tapşırıq 32.*** Aşağıdakı sözlərin (omonimlərin) məna fərqini izah edin və cümlədə işlədin.

yaz-yaz, qaz-qaz, qala-qala, buruq -buruq, dağ- dağ.

***Tapşırıq 33.*** Cümlələri köçürün, sinonimlərin altından xətt çəkin.

1. Quş qanadla uçar, insan diləklə
Yatır hər ürəkdə min-min arzular.

2. Yaman günün ömrü az olar.
Pis günün ömrü az olar.

3. Hər dağın uca zirvəsi var.
Hündür dağın zirvəsinə çıxdıq.

4. Anar xəbəri eşidən kimi evə qaçdı.
Həyətdə topun dalınca yüyürdü.

5. Qumru fikirləşib xəyala daldı.
Kişi düşüncələrə qərq oldu.

***Tapşırıq 34.*** Aşağıdakı sözlərə antonim sözlər tapıb yazın.

| | |
|---|---|
| hündür ... | qaranlıq ... |
| dərin ... | xeyir ... |
| qoca ... | yaxşı ... |

| | |
|---|---|
| ağlağan ... | axşam ... |
| gözəl ... | eniş ... |
| qara ... | ağır ... |
| soyuq ... | tez ... |
| şirin ... | arıq ... |
| aşağı ... | ağ ... |

***Tapşırıq 35.*** Köçürün antonimlərin altından xətt çəkin.

1.Ağ gün ağardar, qara gün qaraldar.2. Üz verəndə astar istəyir. 3.Əvvəl evini, sonra bayırı. 4.Yağış isladar, gün qurudar. 5.Küsmək barışmağa yoldur. 6.Gec gəldi, tez öyrəndi. 7.Nağdını qoyub nisyənin dalınca düşmə. 8.Yazıya pozu yoxdur.9. Cənnətin yazlığı, cəhənnəmin payızlığı. 10.Şər deməsən, xeyir gəlməz. 11. Qocanın biliyi, cavanın biləyi. 12.Kor nə istər, iki göz, biri əyri, biri düz. 13.Alçaq uçan ucaya qonar. 14. Dünya nərdivandır, biri çıxır, biri düşür.

***Tapşırıq 36.*** Antonim cütlükləri tapın.

| | | | |
|---|---|---|---|
| 1. | Dolu | □ | alçaq |
| 2. | Bərk | □ | çalışqan |
| 3. | Qalın | □ | şirin |
| 4. | Çətin | □ | uzaq |
| 5. | Acı | □ | əyri |
| 6. | Hündür | □ | boş |
| 7. | Düz | □ | yüngül |
| 8. | Tənbəl | □ | asan |
| 9. | Yaxın | □ | yumşaq |
| 10. | Ağır | □ | nazik |

***Tapşırıq 37.*** Boşluqları doldurun.

1. Soyad bir şəxsin aid olduğu….adıdır.
2. Soyad insana …. keçir.
3. Azərbaycan dilində soyad daha çox…. yaranır.
4. Son illərə qədər soyad… adlanmışdır.

## 3. İmla.

Azərbaycanın paytaxtı Bakı şəhəridir. Azərbaycanın rəsmi dili Azərbaycan dilidir. Burada yaşayan etnik qruplar Azərbaycan vətəndaşlarıdır. Azərbaycanın prezidenti İlham Əliyevdir. Azərbaycan Respublikası iki dəfə müstəqillik qazanıb: I dəfə 1918-ci il 28 mayda. Bu, 23 ay davam edib: II dəfə 1991-ci ilin oktyabrın 18-də SSRİ-nin tərkibindən çıxmış, yenidən müstəqilliyə qovuşmuşdur. Hazırda

Azərbaycanın ümumi ərazisi 86 600 kv.km.-dir. Əhalinin təxmini sayı 10 milyondan çoxdur. Azərbaycanın pul vahidi Azərbaycan manatıdır. Azərbaycanın telefon kodu +994-dür.

**4. Mətn.**

## Soyadlar

Hər bir adamın adı olduğu kimi soyadı da var. Soyad son illərə qədər «familiya» adlanmışdır. Soyad bir şəxsin aid olduğu nəsil adıdır. O, insana atadan keçir. Azərbaycan dilində soyad daha çox kişi adı əsasında yaranır. Bəzi müasir kişi adı əsasında soyad yaranmır. Məsələn, Yaşar, Elçin, Elxan, Elşən, İlqar, İlham, Nizami və s. Bəzi soyadlara ancaq bir ərazidə rast gəlmək olur.

Soyadlar müəyyən mənaya malikdir. Soyad, baba və ya ulu babanın adı, tayfa, qəbilə, yer adları, zoonimlər və s. əsasında yaranır. Məsələn, Babanlı, Kərimli, Kəngərli, Bəktaşi, Aslanlı, Gəncəvi və s.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - Bu kimdir? | - Кто это?<br>- | - Who is she? This |
| - Bu Esterdir? | - Это Эстер? | - This is Ester. |
| - Ester kimdir? | - Кто Эстер? | - Who is Ester? |
| - Ester Tomun xanımıdır. | - Эстер супруга Тома. | - Ester is a wife Tom |
| - Onlar haradandır? | Откуда они? | - Where are they from? |
| - Onlar Amerikanın Texas ştatındandır. | - Они из штата Техас Америки | - They are from USA, Texas. |
| - Bəs o balaca qızlar kimindir? | - А те маленькие девочки чьи? | - And who are those small girls? |
| - Onlar mənim qızlarımdır. | Они мои дочери. | - They are my girls. |
| - Onlar məktəblidirlər? | - Они школьницы? | - Are they schoolgirls? |
| - Bəli, böyük qızım beşinci, balaca qızım ikinci sinifdə oxuyur. | - Да, старшая дочка учится в пятом, а младшая дочь во втором классе. | - Yes, they are. My elder daughter is in the fifth form and the smaller da-gther is in the second form. |

## 4-cü dərs

1. Heca, vurğu.
2.Nitq etiketləri.
3.İntonasiya, sual-cavab.
4.Mətn. Kömək.
5. Dialoq.

### 1. Heca, vurğu.

***Qeyd:*** *Azərbaycan dilində sözdə nə qədər sait varsa, o qədər də heca var. Azərbaycan sözlərində hecanın quruluşu belədir: bir səsdən ibarət heca (o, a-na); iki səsli heca (ba-ba, at, ot, bu, su); üç səsli hecalar (mən qar-daş, alt-mış, stə-kan); dördsəsli hecalar (kənd-li, qənd).*

***Tapşırıq 38.*** Verilmiş sözləri hecalarla düzgün oxuyun.

ya-şa-maq, sa-mit, he-ca, mey-dan, o-xu-maq, mək-təb, o-caq, yad-daş, gün-düz, gü-nəş, mü-ra-ci-ət, mü-rək-kəb, nə-ti-cə, nöm-rə, nöq-tə, öv-lad, öl-kə, pay-taxt.

***Tapşırıq 39.*** Azərbaycan haqqında məlumatı (mətni hecalarla) oxuyun, öyrənin.

*Nümunə:*

1. Azərbaycanın paytaxtı hansı şəhəridir? (Bakı)
2. Azərbaycanın rəsmi dili hansı dildir? (Azərbaycan)
3. Burada yaşayan etnik qruplar hara vətəndaşlarıdır? (Azərbaycan)
4. Azərbaycanın prezidenti kimdir? (İlham Əliyev)
5. Azərbaycan Respublikası neçə dəfə müstəqillik qazanıb? İlk dəfə neçənci ildə və hansı ayda? Bu, necə davam edib? II dəfə 1991-ci ilin oktyabrın 18-də SSRİ-nin tərkibindən çıxmış, yenidən müstəqilliyə qovuşmuşdur.
6. Hansı dövlətin ümumi ərazisi 86 600 kv.km.-dir?
7. Əhalinin təxmini sayı neçə nəfərdir? (9411800)
8. Azərbaycanın pul vahidi hansı pul vahididir? (Azərbaycan manatı).
9. Azərbaycanın telefon kodu neçədir? ( +994).

***Tapşırıq 40.*** İmla. Mətndəki sözləri hecaların miqdarına görə qruplaşdırın.

Bu gün də yamacda oturduğu dəqiqədən Pəri xalanın gözləri palçıq daxmada və kiçik həyətdəki alma ağaclarında idi. O qədər diqqətlə onun seyrinə dalmışdı ki, sarı düyənin naxırdan ayrıldığını belə görmədi. Ancaq onu gördü ki, suvağı tökülmüş, ağardılmamış palçıq evin dal divarını yağışlar yumağa başlamışdır.

**Mənbə:** M.İbrahimov

*Nümunə:*

| Tək hecalı | 2 hecalı | 3 hecalı | 4 hecalı | 5 hecalı |
|---|---|---|---|---|
| gün | Pə-ri | ya-mac-da | o-tur-du-ğu | a-ğac-la-rın-da |

***Tapşırıq 41.*** Sxemə uyğun sözlər yazın.

| Tək hecalı | 2 hecalı | 3 hecalı | 4 hecalı | 5 hecalı |
|---|---|---|---|---|

***Tapşırıq 42.*** Atalar sözlərini hecalara bölün.

Çörəyi ver çörəkçiyə, birini də üstəlik.
Tək əldən səs çıxmaz.
Güc birlikdədir.
Dağ dağa rast gəlməz, insan insana rast gələr.
Aslanın erkəyi, dişisi olmaz.
Əldən qalan əlli il qalar.
Su gələn arxa bir də gələr.
El gücü sel gücü.
Oğul pirdir, qız isə sirdir.
Uşağım əziz, tərbiyəsi ondan da əziz.
Qələm qılıncdan itidir.
Tülkü tülkünü buyurar, tülkü də quyruğunu.

## Vurğu.

***Qeyd:*** *Azərbaycan dilində vurğu, əsasən, sözün sonuncu hecası üzərinə düşür. Bəzi hallarda vurğunun yeri dəyişdikdə, sözün mənası da dəyişir.Söz şəkilçi qəbul etdikdə vurğu şəkilçinin üzərinə keçir. Lakin bəzi şəkilçilər vurğu qəbul etməz: -ma/mə;-ın$^4$-ca$^2$, xəbərlik kateqoriyası şəkilçiləri, madan/mədən; -mı$^4$ və s.*

***Tapşırıq 43***. Yazılışı eyni, mənaları fərqli olan sözlərin vurğusuna diqqət yetirin və sözləri cümlələrdə işlədin.

*Nümunə:* 1. Gülsüm xala quzu ətindən ləzzətli soyutma bişirdi.
2.Oğlum, yeməyini soyutma.

| | | |
|---|---|---|
| alín | (лоб) | forhead |
| álın | покупайте | buy |
| ağartmá | побелка | whitening |
| ağártma | не переувеличевай | don’t exaggerate |
| almá | яблоко | apple |
| álma | не покупай | don’t buy |

| | | |
|---|---|---|
| vurmá | таблица умножения | multiply |
| vúrma | не бей | don’t hit |
| qazmá | шахта, бурение | mine; drilling |
| qázma | не копай | don’t bark |
| qalín | толстый | thick |
| qálın | останьтесь | stay |
| qırmá | дробь | fraction |
| qírma | не ломай | don’t break |
| qurmá | построение, постройка | building |
| qúrma | не построй | don’t build |
| tarlá | поле, плантация | field |
| tárla | с таром | nith tar |
| güldǘr | посмеши | laugh |
| gǘldür | это цветок | it’s flower |
| çəkmə́ | ботинок, сапог | boots |
| çə́kmə | не тяни | don’t pull |
| bağlamá | (посылка) | package |
| bağláma | не завязывай | don’t tie |
| basdırmá | басдурма; перед приготовлением азербайджанского национального блюда оставить мяса в луковом соке | boving the meat in onion juice for making Azerb.food |
| basdírma | не закапывай | don’t bony |
| dolamá | зигзаг | zig-zag |
| doláma | не обматывай | don’t wrap |
| əyín | одежда | cloth |
| ə́yin | сгибайте | bend |
| əkiǹ | пашня | tillage |
| ə́kin | сажайте | sow |
| yaymá | раскатывание | rolling out |
| yáyma | не распространяй | don’t distribute |
| gəlmə́ | приезжий | new come |
| gə́lmə | не приходи | don’t come |
| gəlín | невеста | bride |
| gə́lin | приходите | come |
| sərín | прохлодно | chilly |
| sə́rin | вешайте | hang up |
| səpín | посев | sowing |
| sə́pin | разбрасывайте | scatter |
| soyutmá | варенное мясо | boiled meat |
| soyútma | не остынь | don’t chill |

## 2. Nitq etiketləri.

*Nitq etiketləri insanların səmərəli ünsiyyət qurmasına kömək edən qaydalar və prinsiplərdir.*

***Qeyd:*** *Nitq etiketləri xalqın milli təfəkkürünə uyğun olur və nitq mədəniyyətinin mühüm göstəricisi sayılır.*

*1. Müraciət etiketləri: Bağışlayın, xahiş edirəm, zəhmət olmasa, lütfən, cənab nazir, cənab rəis, əzizim və s.*
*2. Görüşmə etiketləri: Salam, xoş gördük, sabahınız xeyir, xoş gəlmisiniz, axşamınız xeyir, sizi görməyə şadam və s.*
*3.Ayrılma etiketləri: Xudahafiz, əlvida, sağ olun, salamat qalın, uğur olsun, yaxşı yol, görüşənədək, sabaha qədər, gecəniz xeyrə qalsın, allah amanında, uğurlu yol və s.*
*4. Təbrik etiketləri: Təbrik edirəm, gözünüz aydın, mübarəkdir, sağlığınıza qismət, bayramınız mübarək, ad gününüz mübarək, yeni iliniz mübarək və s.*
*5. Alqışlar (xeyir dualar). Allah köməyiniz olsun, həmişə ayaq üstə, allah rəhmət eləsin, yastığın yüngül olsun, can sağlığı, xoşbəxtlik, müvəffəqiyyət arzu edirəm və s.*

## 3. İntonasiya, sual və cavab.

***Qeyd:*** *Azərbaycan dili intonasiya cəhətdən çox zəngindir. Nitq intonasiyası kompleks dil hadisəsidir. İntonasiya tələffüzün dörd elementini – fasilə, vurğu, melodiya və sürəti özündə birləşdirir.*

***Tapşırıq 44.*** Verilmiş sözlərə sual yazıb intonasiya ilə səsləndirin.

Kitab, dəniz, sinif, ata, müəllim, fəhlə, pəncərə, masa, çanta, kişi, ailə, tələbə, ev, məktub, gecə, günəş, ağac, ana, dayı, əmi, ayı, qız, bibi, xala

**Lüğət:**

kitab – книга – book
dəniz – море – sea
sinif – класс – class
ata – папа, отец – father
müəllim – учитель – techer
fəhlə – рабочий – worker
pəncərə – окно – window
masa – стол – table
çanta – сумка – bag
kişi – мужчина – man

tələbə – студент – student
ev – дом – home
məktub – письмо – letter
gecə – ночь – knight
günəş – солнце – sun
ağac – дерево – tree
ana – мама, мать – mother
dayı, əmi – дядя – uncle
ayı – медведь – bear
qız – девушка – girl

| | |
|---|---|
| ailə – семья – family | bibi, xala – тётя – aunt |

***Tapşırıq 45.*** Sual-cavabı oxuyun. Sağ tərəfdəki sözləri *kim? nə?* suallarına cavab verən sözlərin yerində işlədin.

| | |
|---|---|
| **a)** 1. –Hə, bəli – xeyr, yox<br>– O, Əhməddir?<br>– Hə, o, Əhməddir. | **kim?** Aynur / Mədinə |
| 2. – O, Həsəndir?<br>– Yox, o, Həsən deyil.<br>– Bəs o kimdir?<br>– O, Malikdir. | **kim?** Mehman / Nadir<br>Arif / Rauf<br>Rəna / Aytən |
| 3. – Bu, ayrandır?<br>– Xeyr, bu ayran deyil.<br>– Bəs o nədir?<br>– O, süddür. | **Nə?** qəhvə / çay<br>keks / biskvit |
| **b)** 1. – O, həkimdir?<br>– Bəli. O, həkimdir.<br>– Yod – dərmandır?<br>– Hə, o, dərmandır. | **kim?** Cərrah / müəllim<br>**Nə?** kitab / dəftər |

***Tapşırıq 46***. Sual – cavab.

*a) Nümunə:* – Münaqişə harmoniyadır, ya konflikt?
– Münaqişə – konfliktdir.

1. Borş şorbadır, ya sousdur? 2. Tanqo idmandır, ya rəqsdir? 3. Traktor bu alətdir, ya maşındır? 4. Bakı dövlətdir, ya şəhər? 5. Qızıl metaldır, ya plastik? 6. Banan tərəvəzdir, ya meyvədir? 7. Üzeyir Hacıbəyli bəstəkardır, ya şair? 8. Kant rəssamdır, ya filosofdur?

| *b)* | Bu, düzdür, ya səhvdir? | | Hə | Yox |
|---|---|---|---|---|
| 1. | Kompüter | Bu, tərəqqidir. | | |
| 2. | Makaron – | Bu, pəhrizdir. | | |
| 3. | Viza – | Bu, möhürdür. | | |
| 4. | Monoloq – | Bu, roldur. | | |
| 5. | Fasilə – | Bu, tənəffüsdür. | | |
| 6. | İnstinkt – | Bu, reaksiyadır. | | |
| 7. | Prezident – | Bu, siyasətçidir. | | |
| 8. | Cırcırama – | Bu, quşdur. | | |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Memar – | Bu, inşaatçıdır. | | |
| 10. | İtburnu – | Bu, çiçəkdir. | | |
| 11. | Məktəbli – | Bu, tələbədir. | | |
| 12. | Təlxək – | Bu, aktyordur. | | |
| 13. | Eynşteyn – | Bu, dahidir. | | |
| 14. | Peşmançılıq – | Bu, məyusluqdur. | | |
| 15. | Əlli – | Bu, saydır. | | |

## 4. Mətn.

### Kömək

Günel Səlimli universitet tələbəsidir. O $7^{30}$-da yuxudan durur, lakin universitetə getmir. Günel Sürəyya xanımın evinə gedir və onlar birlikdə səhər yeməyi yeyirlər. Sürəyya xanımın 77 yaşı var və ev işlərində ona kömək lazımdır, lakin onun ünsiyyətə daha çox ehtiyacı var. Günel yaşlı adamlara könüllü olaraq kömək edir. «Mən Sürəyya xanıma yemək hazırlayıram, ev işlərinin bir hissəsini görürəm. Onunla söhbət edirik, ya da parka gedirik. Parkda mən Sürəyya xanıma gəzməyə kömək edirəm» – Günel söyləyir.

Həftə ərzində Günel öz dostları ilə görüşə bilmir. İşini qurtaran kimi universitetə gedir. O, axşam 8-də evə qayıdır və sonra dərs çalışır. Günel bütün günü məşğuldur. O, həftəsonu dostları ilə görüşür.

***Tapşırıq 47.*** Təkrar oxuyun və doğru cavab üçün D (doğru), səhv cavab üçün Y (yanlış) yazın.

1. Günel Universitetə səhər tezdən gedir. □

2.Günel Sürəyya xanımla səhər yeməyi yeyir. □

3.Günel Sürəyya xanıma kömək edir. □

4.Günel hər gün Sürəyya xanımla parka gedir. □

5.Günel həftə sonları dostları ilə gəzməyə çıxır. □

## 5. Dialoq.

| | | |
|---|---|---|
| - Zəhmət olmasa deyin, kitabxana haradadır? | - Скажите пожалуйста где библиотека? | - Please, teel me, where is a liberary? |
| - Kitabxana yuxarı mərtəbədədir. | - Библиотека на верхнем этаже. | - The liberary is on the upper flour. |

| | | |
|---|---|---|
| - Oraya necə getmək olar? | - Как туда можно пройти? | - How can 1 go there? |
| - Bu pilləkənlə qalxın, sonra sağa dönün. | - Поднимайтесь по этой лестнице, потом заверните на право. | - Rise this staircase and then turn right. |
| - Bəs oxu zalı haradadır? | - А где читальный зал? | - Where is a reading-room? |
| - Oxu zalı kitabxananın yanındadır. | - Читальный зал рядом с библиоте-кой. | - The reading-room is near he library. |
| - Təşəkkür edirəm. | - Благодарю. | -Thank you. |

**5-ci dərs**

1. Fonetik hadisələr.
2. Bəxtiyar Vahabzadə. "Azərbaycan-Türkiyə" şeiri.
3. Qoşasaitli və qoşasamitli sözlər.
4. Mətn. Qobustan.
5. Dialoq.

## 1.Fonetik hadisələr.

*Azərbaycan ədəbi tələffüzündə bir sıra fonetik hadisələr özünü göstərir və düzgün danısıq orfoqrafiya qaydalarına xidmət edir. Bunlardan bəzilərini nəzərdən keçirək.*

*a)* ***Assimilyasiya sözdə səslərin bir-birinə uyğunlaşması, yaxınlaşmasıdır.*** *Assimilyasiya tam və ya natamam olur. Tam assimilyasiya: oğlanlar - [oğlannar], anlamaq -[annamaq], ondan -[onnan], rusca - [rucca], gəlirlər - [gəlillər], çıxırlar - [çıxıllar], səndən -[ sənnən].*

*Natamam assimilyasiya: qızlar - [qızdar], gözlər - [gözdər], otlar - [otdar]. Natamam assimilyasiya da, tam assimilyasiyadan fərqli olaraq, bir səs başqa səslə eyniləşmir, yalnız ona yaxınlaşır.*

*Assimilyasiya hadisəsi* ***ancaq tələffüzdə özünü göstərir.***

*b)* ***Proteza sözə səs artırılmasıdır****. Bəzi alınma sözləri Azərbaycan dilinin tələffüzünə uyğunlaşdırmaq üçün səslər artırılır. Alınma sözlərdəki bu hadisə şifahi nitqdə özünü göstərir. Məsələn, qram - [qıram], sədr - [sədir], stəkan - [istəkan], Rza - [İrza], qrup - [qurup], dövr - [dövür].*

*Azərbaycan dili sözlərində, bir qayda olaraq,* ***iki sait yanaşı işlənmir****. Onların arasına bitişdirici samitlərdən uyğun olanı* ***(n, y, s)*** *artırılır. Saitlə bitən söz saitlə başlanan şəkilçi qəbul edəndə iki sait arasına bitişdirici samit artırılır. Məsələn, nənə**n**i, nənə**y**ə, nənə**s**i, onun, ona, oxuyur, oxuyacaq və s. Belə hal yazıda da özünü göstərir.*

*c)* ***Eliziya qanunu sözdə səsin düşməsidir. Bəzi sözlər hallanarkən, mənsubiyyət şəkilçisi qəbul edərkən, saitlə başlanan qoşma (ilə) qəbul edərkən, idi və imiş köməkçi felləri ilə işlənərkən, sonunda qoşa samit olan sözlər samitlə başlanan şəkilçi qəbul edərkən, indiki zaman felləri inkarlıq şəkilçisi qəbul*** *edərkən eliziya qanunu özünü göstərir. Məsələn, fikir - fıkrin, fıkrə, fıkri; şəkil - şəklin, şəklə, şəkli; sinif - sinfin, sinfə, sinfi; atam ilə - atamla, qələm ilə - qələmlə; alır idi - alırdı, gülür idi - gülürdü, yazır imiş - yazırmış, görür imiş-görürmüş; fənn - fənlər, həzz - həzlər, haqq - haqdan; bilməyir - bilmir, baxmayır - baxmır.*

*Bunlar həm yazıda, həm də şifahi nitqdə özünü göstərir.*

*Həmçinin «burada, orada, harada» sözlərinin ikinci hecasındakı sait tələffüz zamanı düşərək «burda, orda, harda» formasında deyilir. Bu, yazıda özünü göstərir.*

***Tapşırıq 48.*** Gedir, yazır, gülür; gedən, yazan, gülən, qız, kənd, baş sözlərinə -lar, -lər şəkilçisini artırın. Assimilyasiya hadisəsinə fikir verin.

***Tapşırıq 49.*** Verilmiş cümlələrdə oğul və könül sözlərini düzgün formada işlədin.

1. Onun (oğul) tələbədir. 2. Sevdanın (könül) zərifdir. 3. Sizin (oğul) neçənci kursdadır? 4. Mənim (oğul) kiçikdir. 5. (Könül) qırmaq olmaz. 6. Leylanın (oğul) həkimdir. 7. Onların (oğul) xəstə deyil. 8. Sənin (oğul) indi haradadır?

***Tapşırıq 50.*** Qara hərflərlə verilmiş sözlərdə hansı fonetik hadisə baş verir? Assimilyasiyaya uğrayan sözlərin transkripsiyasını yazın.

1. Hamı **səndən** razıdır. 2. **Qızlar buradadır**. 3. Onun **atası** sədrdir. 3. **Anaya, ataya** hörmət et. 4. Tələbələr **yazırlar.** 5. **Şəkli** evə apar. 6. Sənin **fikrin haradadır?** 7. O, **rusca** yaxşı danışır. 8. **Oğlumun gözləri** qaradır. 9. **Orada insanlar xoşbəxtdir.**

***Tapşırıq 51.*** Aşağıdakı cümlələrdə assimilyasiya və səsartırma hadisəsinə məruz qalan sözləri göstərin.

1. Mən indi anlayıram ki, sənin dediklərində həqiqət çox imiş. 2. Müəllim elə gözəl danışırdı ki, tələbələr onu diqqətlə dinləyirdilər. 3. Krandan aramsız axan suyun səsindən yatmaq mümkün deyildi. 4. Dostlar, bu yeni gələn bizimlə işləyəcək. 5. Onun heç bir günahı yoxdur, təqsirkar mənəm.6. Bakının işıqları onun gözəlliyini daha da artırır. 7. Sözün doğrusu, Akifin atası pis adama oxşamır.

***Tapşırıq 52.*** Aşağıdakı cümlələrdə səsdüşümü hadisəsinə məruz qalan sözləri göstərin.

1. Könlüm keçir Qarabağdan, Gah bu dağdan, gah o dağdan *(S.Vurğun).* 2. Keçmişdə burda bir ev yerləşirdi, indi onun izini tapmaq mümkün deyil. 3. Kiçicik bir sudur Yer üzündə Kür, Baxsan bu dünyanın xəritəsinə *(S.Vurğun).* 4. Səninlə keçirdiyim günlər xəyalımdan silinmir. 5. Mən burda elə bir böyük problem görmürəm. 6. Sirlərlə dolu dünyada hələ öyrənilməmiş çox şey vardır. 7. Yeri gəlmişkən bir söz soruşacam; siz bu adamın nəyi olursuz?

***Tapşırıq 53.*** *Könül* sözünə şəkilçilər artırıb yazın. Hansı fonetik hadisə baş verir.

**2. Bətiyar Vahabzadə- "Azərbaycan-Türkiyə" şeiri.**



“Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət
Hər ikisi Cümhuriyyət
Azərbaycan-Türkiyə.
Bir ananın iki oğlu
Bir ağacın iki qolu
O da ulu, bu da ulu
Azərbaycan-Türkiyə.
Ana yurdda yuva qurdum
Ata yurda könül verdim
Ana yurdum, ata yurdum
Azərbaycan-Türkiyə.
Birdir bizim hər halımız
Diləyimiz, amalımız
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.
Dinimiz bir, dilimiz bir
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə”.

**Mənbə:** B.Vahabzadə. Seçilmiş əsərləri.
Bakı: “Ender” nəşriyyatı, 2004, s.319

## 3. Qoşasaitli və qoşasamitli sözlər.

**Qeyd:** *Azərbaycan dilində elə sözlər var ki, onlarda iki sait yanaşı gəlir. Belə sözlər qoşasaitli sözlər adlanır. Belə sözlər əsil Azərbaycan sözləri deyil ya ərəb ya da Avropa mənşəlidir.*

***Tapşırıq 54.*** Qoşasaitli sözləri cümlədə işlədin.

zootexnik, zoomağaza, zoologiya, maarif, maaş, camaat, saat, təəssüf, təəccüb, saatsaz, inşaat, teleekran, bədii, əmtəə, mətbəə, təbii, təəssürat.

***Tapşırıq 55.*** Aşağıda verilmiş cümlələri tərcümə edin.

1. Müəllim uşaqları zooparka apardı.
2. Heyvanlara peyvənd etmək üçün kəndə zootexnik gəlmişdi.
3. Fermerlər yaxşı mənfəət əldə etdilər.
3. Şəlalə xanım kitabı götürmək üçün mətbəəyə getdi.
5. Şagirdlər zoomağazadan tutuquşu aldılar.
6. Zooloqun mühazirəsi çox maraqlı idi.
7. Onun hərəkətlərindən hamı mütəəssir oldu.

8. Rauf eşitdiklərinə təəccüb etdi.
9. Təbii bitkilərdən müalicə məqsədilə istifadə edilir.
10.Yeni gələn fəhlələr maaş aldılar.

***Qeyd: Eynicinsli qoşa kk, pp və tt hərfləri ilə yazılan sözlərdə kar samitlərdən*** *biri, onun cingiltili qarşılığı* ***kimi tələffüz olunur.Məs., səkkiz*** *- [səkgiz], mürəkkəb - [mürəkgəb], tappıltı -* ***[tapbıltı],*** *hoppanmaq - [hopbanmaq], əlbəttə - [əlbətdə],* ***Səttar - [Sətdar].***

***Tapşırıq 56.*** Qoşasamitli sözləri oxuyun.

Zəvvar, ziddiyyət, iddia, illik, illüstrasiya, innab, ittifaq, ittiham, yaddaş, yallı, yeddi, kəmiyyət, klassik, kollektiv, könüllü, güllə, müəllif, müəllim, mürəbbə, müttəhim, müfəttiş, maddi, niyyət, professor, saqqız, toqqa, hakimiyyət, hətta, ətriyyat, saqqal, çəllək, cəmiyyət, şəxsiyyət, addım, Allah, əlli, bənna, qulluq, qüssə, dəllal, doqquz, effekt, ədəbiyyat, əvvəl, ədviyyat, əziyyət və s.

*Azərbaycan dilində* ***sözün ortasında, bəzən də sonunda eyni saitin qoşa*** *işlənməsinə rast gəlmək olur.* ***Bunlar yerindən asılı olaraq müxtəlif çalarlıqda*** *tələffüz edilir. Məsələn:*

*1. aa: maaş [ma:ş]; saat [sa:t]; camaat [cama:t]*
*2. əə: təəccüb [tə:cüb]; təəssüf [tə:süf]; əmtəə [əmtə:]*
*3. İi: bədii [bədi:]; təbii [təbi:]*

*Bəzi hallarda tələffüz zamanı iki sait arasına «y» samiti artırılır. Məsələn: ailə [a:yilə], xain [xa:yin], zəif [zəyif], müdafiə [müdafiyə], təbiət [təbiyət], radio [radiyo] və s.*

*Qoşasamitli sözlər də müxtəlif cür tələffüz edilir. Məsələn: səkkiz [səkgiz], doqquz [dokquz], çaqqal [çakqal], saqqal [sakqal], ədəbiyyat [ədəbiyat], riyaziyyat [riyaziyat].*

*Bir sıra qoşasamitli sözlərə cəm şəkilçisi artırdıqda eyni samitin biri düşür.*
*Xətt+lər - xətlər*
*Sirr+lər - sirlər*
*Fənn+lər -fənlər*

***Tapşırıq 57***. Oxuyun, sözlərin transkripsiyasını yazın.

Faciə, zəif, teatr, ateist, aid, poema, Nailə, dairə, poetika, aerobika, dovşan, tövbə, tövlə, növbə, təbiət

***Tapşırıq 58.*** Qoşasamitli sözləri oxuyun, transkripsiyasını yazın.

Mədəniyyət, əməliyyat, tərəqqi, təfəkkür, zərrə, dərrakə, məşğuliyyət, təsərrüfat, hiss, bələdiyyə, fəaliyyət, Məkkə, sərrast, kəllə, hərrac, ehtiyac, saniyə, bəşəriyyət, nəqliyyat, təfərrüat, iqtisadiyyat, təəssürat, təxəyyül.

**Şəkil üzrə iş. Neft daşları.**



## 4. Mətn.

### Qobustan

Qobustan – Azərbaycanın ən qədim yaşayış məskənidir. İnzibati rayon kimi 1990-cı ildə yaranıb. Alçaq dağlıq sahə, Böyük Qafqazın cənub-şərq qurtaracağındadır. Qobustanın iqlimi çox qurudur, yayı çox isti və quraq, qışı mülayim keçir. Bitki örtüyü və heyvanat aləmi kasıbdır. Yalnız yaz və payız yağışlarından sonra təbiət canlanır, ağaclar çiçək açır, ərazisi yaşıllaşır. Ağac və çoxillik kollar, əsasən qayalar arasında bitir.

Ərazidə Daş dövründən orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar var.

Qobustanda Mezolit-Neolit dövrlərində ovçu və balıqçı, Tunc dövründə isə əkinçi və maldar qəbilələrin yaşadığı aydın olur. Qədim qayaüstü təsvirlər 1940-cı illərdən elmə məlumdur. Təsvirlər əsasən insanların həyat tərzi, məişəti ilə əlaqədardır. Kollektiv əmək, ov prosesi, məhsul yığımı, yallı oynamaq, heyvan rəsmləri, ocaq başında onun yeyilməsi, bişirilməsi, qadın və kişi rəsmləri və s.




Qavaldaşı ən qədim musiqi alətidir. Qeyri-adi çalğı alətində hər daşın öz tembri olduğuna görə onlara qavaldaşı deyilir.

Böyükdaşda qeydə alınmış 2 ədəd Qavaldaş qədim qobustanlıların həyatı ilə bağlı maraq doğuran abidələrdəndir. Qavaldaşının müxtəlif yerlərinə daşla

vurmaqla müxtəlif səslər çıxır ki, bu tonlardan istifadə edərək həmin daşda dəyişik melodiyalar ifa etmək olar.

Tarixin möcüzəsi olan Qobustan qayalarının hələ nə qədər açılmamış sirləri var. Onu ən qiymətli tarixi dəyərlərimiz kimi qorumaq və öyrənmək isə hər birimizin vətəndaşlıq borcudur.

**Atalar sözləri.**

| | | |
|---|---|---|
| İşləməyən dişləməz | Кто не работает, тот не ест | |
| Ayağını yorğanına görə uzat | По одежде протягивай ножки | stretchones legaccording to the coverlet |
| Tək əldən səs çıxmaz | Один в поле не воин | ones as good as none |

**5. Dialoq.**

| | | |
|---|---|---|
| – Nərgiz, axşamın xeyir. | – Добрый вечер, Наргиз. | – Good evening, Nargiz. |
| – Axşamın xeyr, Leyla. | – Добрый вечер, Лейла. | – Hi, Leyla. |
| – Necəsən, məşğələyə hazırlaşmısan? | – Как ты, готова к семинару? | – Haw are you? are you ready for lesson? |
| – Bəli, Leyla, hazırlaş-mışam. | – Да, Лейла, я готова. | – Yes, Leyla, I’m ready. |
| – Dərs saat neçədə başla-yacaq, Nərgiz? | – А урок во сколько начинается, Наргиз? | – When does lesson starts? |
| – Saat $10^{15}$-də başlayacaq, Leyla. | – В $10^{15}$, Лейла | – At $10^{15}$, Leyla. |
| – Onda o zaman univer-sitetdə görüşərik. | – Тогда увидимся в университете. | – Okay, see you at University. |
| – Mütləq. | – Обязательно. | – See. |
| – Gecən xeyrə qalsın, Nərgiz. | – Спокойной ночи, Наргиз. | – Good night, Nargiz. |
| – Gecən xeyrə, Leyla. | – Спокойной ночи, Лейла. | – Good night, Leyla. |

## 6-cı dərs

1. İsmin hal kateqoriyası.
2. İlin fəsilləri, aylar, günlər.
3. Var/yoxdur sözlərinin işlədilməsi.
4. Mətn. Bakının gəzməli və görməli yerləri.
5. Dialoq.

### 1. İsmin hal kateqoriyası.

| İsmin halları | İsmin hal şəkilçiləri | İsmin hallarının sualları |
|---|---|---|
| Adlıq hal | -------- | Kim? Nə? Hara? |
| Yiyəlik hal | -ın, -in, un, -ün (-nın$^4$) | Kimin? Nəyin? Haranın? |
| Yönlük hal | -a, -ə, (-ya$^2$) | Kimə? Nəyə? Haraya? |
| Təsirlik hal | -ı, - i, -u, -ü, (-nı$^4$) | Kimi? Nəyi? Haranı? |
| Yerlik hal | -da, -də | Kimdə? Nədə? Harada? |
| Çıxışlıq hal | -dan, - dən | Kimdən? Nədən? Haradan? |

***Tapşırıq 59.*** Nöqtələrin yerinə müvafiq hal şəkilçilərini yazın.

*Ad*. Quyu ... dərindir.
*Yiy*. Quyu... suyu sərindir.
*Yön*. Quyu ... vedrə salladıq.
*Təs*. Quyu ... təmizlədilər.
*Yer*. Quyu ... su qurumuşdu.
*Çıx*. Quyu... su çəkdilər.

*Ad*. Kitabxana ...
*Yiy*. Kitabxana ...
*Yön*. Kitabxana ...
*Təs*. Kitabxana ...
*Yer*. Kitabxana ...
*Çıx*. Kitabxana ...

*Ad*. Zaur ...
*Yiy*. Zaur ...
*Yön*. Zaur ...
*Təs*. Zaur...
*Yer*. Zaur ...
*Çıx*. Zaur ...

***Tapşırıq 60.*** *Otaq, hüquq, bulaq, türk, ürək, bank, köynək, üfüq, əmək* isimlərini hallandırın. Yiyəlik, yönlük, təsirlik hallarında "q" və "k" samitlərini hansı samitə çevrildiyinə fikir verib yadda saxlayın.

*Nümunə:*

| | | |
|---|---|---|
| *A.* | yarpaq | çörək |
| *Yiy.* | yarpağın | çörəyin |
| *Yön.* | yarpağa | çörəyə |
| *Təs.* | yarpağı | çörəyi |
| *Yer.* | yarpaqda | çörəkdə |
| *Çıx.* | yarpaqdan | çörəkdən |

***Tapşırıq 61.*** Nöqtələrin yerinə hal şəkilçiləri yazın.

1. Kitab bilik mənbəyidir. Kitab ... (nəyin?) səhifələrinə ləkə salmaq olmaz. 2. Böyük şəhər ... (haranı?) gəzmək mənə də nəsib oldu. 3. Dülgər ... (kimin?) düzəltdiyi masa hamının xoşuna gəldi.4. Fəhlə ... (kimə?) verilən mükafat hamını

qane etdi. 5. Vətən ... (haraya?) olan borcumuz sonsuzdur. 6. Vətən ... (haranın?) torpağın ... (nəyə?) xor baxanın gözləri ...(nəyə?) qan damar. 7. C.Cabbarlı ... (kimin?) “Sevil” əsəri ... (nəyə?) tamaşa etdik. 8. Bakı ... (harada?) olan yeniliklər gələn turistlər ... (kimin?) diqqətini çəkir. 9. Təhsil nazirliyin ... (harada?) yeni fərmanlar imzalandı. 10. Mən babam ... (kimdən?), atam ... (kimdən?) eşitdiyim hər kəlmə ... (nəyi?) heç vaxt unutmayacam.

***Tapşırıq 62.*** *Blank, dialoq, irq, ittifaq, üfüq, kinooçerk* sözlərini hallandırın.

***Tapşırıq 63.*** *Bayraq, nitq, külək, mayak, qonaq, şəfəq, yemək, dialoq, üzümlük* sözlərini hallandırın və hərf fərqinə fikir verin.

## 2. İlin fəsilləri, aylar, günlər.

Bir ildə dörd fəsil var: yaz, yay, payız, qış.

### İmla

Yazda — Çəmənlər yaşıllaşır, rəngarəng çiçəklər açılır. Quşlar cəh-cəhlə ötüşür, yuva tikirlər. Çiyələk, alça, ərik, tut, gilas yetişir. Novruz bayramı olur.

Yayda — Günəş yeri qızdırır. Uşaqlar dənizdə çimirlər. İyun, iyul, avqust – yay aylarıdır. Hamı istirahətə gedir.

Payıza — Qızıl payız deyirlər. Bol məhsul fəslidir. Bir çox meyvələr yetişir. Bağlar yarpaq tökümünə başlayır. Quşlar isti ölkələrə uçub gedir.

Qış — İlin qarlı-boranlı soyuq fəslidir. Qışda bütün aləm qar örtüyünə bürünür. İl dəyişir. Yeni il gəlir. Boz sərçələr, sığırçınlar, qara qarğalar qışa vəfalı quşlardır.

Hər bir fəslin öz gözəlliyi var.

**Aylar:** Yanvar, fevral, mart, aprel, may, iyun, iyul, avqust, sentyabr, oktyabr, noyabr, dekabr.

**Günlər:** Bazar ertəsi, Çərşənbə axşamı, Çərşənbə, Cümə axşamı, Cümə, Şənbə, Bazar (istirahət günü)

***Tapşırıq 64***. Dialoqu oxuyun.

Müəllim: – Uşaqlar, kim deyər ilin neçə fəsli var?
Mehman: – İlin 4 fəsli var: yaz, yay, payız, qış.
Müəllim: –Bəs ilin neçə ayı var?
Aytən: – Müəllim, ilin 12 ayı var.
Müəllim: – Kim adlarını söyləyər?
Sona: – Yanvar, fevral, mart, aprel, may, iyun, iyul, avqust, sentyabr, oktyabr, noyabr, dekabr.
Müəllim: – Çox gözəl. Bəs kim deyər bir ildə neçə gün var?

Elturan: – Müəllim, bir ildə 365 gün var.
Müəllim: – Kim həftənin günlərinin adlarını çəkər?
Gülnur: – Bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar.
Müəllim: – Çox sağ olun, uşaqlar, siz ilin fəsillərinin ayların, günlərin adlarını əla öyrənmisiniz. Mən sizdən çox razı qaldım.

***Tapşırıq 65.*** Fəsillərə uyğun şəkil üzrə iş.



*Payız fəsli*



*Qış fəsli*



*Yay fəsli*



*Yaz fəsli*

## 3. Var/yox sözlərinin işlədilməsi.

| Ad | Şəkilçi | Ad | + | - | Nümunə |
|---|---|---|---|---|---|
| ev | - da/də | kim | var | | Evdə kim var? |
| arzu | - da | lüğət | var | | Arzuda lüğət var. |
| dərs | -da/də | kim | | yoxdur? | Dərsdə kim yoxdur? |
| otaq | -da | heç kim | | yoxdur | Otaqda heç kim yoxdur. |

| Ad | Şəkilçi | Ad | Şəkilçi | + | - | Nümunə |
|---|---|---|---|---|---|---|
| mən | -im | kitab | -ım/im/um/üm/m | var | | Mənim kitabım var. |
| | | | | | | Mənim vaxtım yoxdur |
| sən | - in | pul | -ın/in/un/ün/n | var | | Sənin pulun var? |
| O | -nun | maşın | - ı/i/u/ü/sı/si/su/sü | | yoxdur | Onun maşını yoxdur. |
| biz | - im | bilet | -mız/miz/muz/müz | var | | Bizim biletimiz var. |
| siz | -in | xəbər | -nız/niz/nuz/nüz | | yoxdur | Sizin xəbəriniz |
| onlar | - ın | qələm | -ları/ləri | var | | Onların qələmləri var. |
| Sevda | -nın | viza | -sı | | yoxdur | Sevdanın vizası |

***Tapşırıq 66.*** Suallara cavab verin.

a) Sinifdə nələr var?
b) Marketdə nələr var?
c) Otaqda kim var?

***Tapşırıq 67.*** Sözləri yerinə qoyun.

*Fransada / Yunanıstanda / İçəri Şəhərdə / Azərbaycan əlifbasında / İndoneziyada / ildə / Dubayda*

1.........508 ada var.
2...........32 hərf var.
3.............Bir 31 557 600 saniyə var
4...............6 mindən çox muzey var.
5............. qədim məbədlər var.
6................ süni adalar var.
7............... Miniatür kitablar muzeyi var.

***Tapşırıq 68.*** Lazım olan şəkilçiləri əlavə edib, yazın.

1O..........çox az vaxt............var. 2. Sən......... yaxşı dostlar........və gözəl ailə...... var.3.O.......pişik.........var.4. Biz.......... üçotaqlı mənzıl.........var. 5. Siz........çox gözəl yaddaşınız.........var. 6.Onun.........qardaş....... yoxdur.7.Bakı....... qədim tarixi.......var. 8. Bu gün mən......... heç vaxt........ yoxdur. 9. Yapon evləri....... fərqli quruluş......... var. 10. Bu gün hətta kiçik uşaqlar.........da telefon......... var.

**Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 69.*** Söz və ifadələri yerinə qoyub, dialoqdakı boşluqları doldurun.
*bəs / tərəfdədir / hansı / neçəyədir / fransızca/ sizdə.*

A. Sizdə ...........qəzet var?
B. Bəli, var.
A. Qəzetlər ........ tərəfdədir?
B. Fransızca qəzetlər ................
B. 50 qəpik
A. Bəs................ fransızca jurnal var?
B. Fransızca jurnallar da var.

***Tapşırıq 70.*** Şəkilçiləri əlavə edib, tamamlayın.

1. Quba Azərbaycanın şəhərlərindən bir.........dir.
2. Quba Bakı............. yaxındır.

3. Quba Azərbaycan………… şımalındadır.
4. Quba................çoxlu şəlalə və çay var.

***Tapşırıq 71.*** Boşluqları söz və ifadələrlə tamamlayın.
l. Siz ______________.
Mən_______________.
2.__________nədir?
Adım______________.
3.____________adı nədir?
Onun adı_______________.
4. ____________bacının_________ nədir?
Fidandır.
5._______________
Jurnalistdir.
6._____________________
______________________
7._________________
Xeyr, subaydır.

***Tapşırıq 72.*** Oxuyun və yoldaşınızla belə bir mövzuda dialoq qurun.

**A.** Sənin bacın, qardaşın var?
**B.** Sənin kimin, var? 29 yaşında bir qardaşım, 25 yaşında bir bacım. Qardaşımın 2 yaşında bir qızı var. Bacım isə subaydır.

| | |
|---|---|
| Çantanın | içində |
| Məktəbin | yanında |
| Stolun | üstündə |
| Parkın | ortasında |
| Binanın | qarşısında |
| Məktəbin | arxasında |
| Evlə məktəbin | arasında |
| Ağacların | arasında |
| Stolla stulun | arasında |
| Tələbələrin | arasında |

***Tapşırıq 73.*** Tamamlayın.

1. Kompyuter hardadır? Kompyuter stol........................
2. Stadion hardadır? Stadion məktəb.................qarşı............
3. Pişik hardadır? Stul...........alt...................
4. Sən indi hardasan? Mən indi universitet....................arxa.................
5. Qələm hardadır? Kitab...............ara............................
6.Açar hardadır? Qəzet...................alt....................

7. Tələbələr................ ara.............. amerikalı çoxdur?
8. Çantam hardadır? Şkaf..............iç................

***Tapşırıq 74.*** Oxuyun.

**A.** Salam.
**B.** Salam. Pomidor var?
**A.** Var. Neçə kilo lazımdır?
**B.** 1 kilo. Xiyar da var?
**A.** Var. Nə qədər istəyirsən?
**B**. Xiyarın kilosu neçəyədir?
**A.**1 manata
**B.** Xiyar da 1 kilo verin. Kələm var?
**A.** Kələm yoxdur, başqa bir şey lazımdır?
**B.** Yox. Pomidor da 1 manatadır?
**A.** Hə, pomidor da 1 manatadır.
**B.** Buyurun, bu da sizin pulunuz.
**A.** Çox sağ olun. Həmişə gəlin.

***Tapşırıq 75***. Dialoqu tamamlayın.

**A**. Salam.
**B** …………………………………...
**A**. Var.
**B** ........................................................
**A**. 2 manata. Nə qədər lazımdır?
**B.** .......................................................
**A**. Çiyələk yoxdur. Başqa nə lazımdır?
**B** .................................. .. .................

***Tapşırıq 76.*** Lazım olan şəkilçiləri əlavə edib yazın.

1. Müəlliminiz ………. adı nədir?
2. Biz işimiz………….. razıyıq.
3. Bizim otelimiz universitet………... yaxındır.
4. Bu otağın pəncərəsi………... dənizi görmək mümkündür.
5. Hovuz bura................. uzaq deyil.
6. Leyla…………neçə yaşı var?
7. Sənin əlın...............nə var?
8. Konfrans zalı binanın axırıncı mərtəbəsi............ dir.

***Tapşırıq 77.*** Səhvləri düzəldin.

1. Onun lüğəti mənim lazımdır.
2. Sənin bacın adı Səadətdir.
3. Bizim mənzilimiz neçənci mərtəbədir.
4. Onun qonşusu aşpazdırlar.
5. Bakı Azərbaycan paytaxt.
6. Biz yaxşı dostam.
7. Sən indi haradansan?

***Tapşırıq 78.*** Özünüz haqqında yazın.

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

***Tapşırıq 79.*** Dostunuzdan soruşun və yazın.

Adı……………………………………………………
Yaşı…………………………………………………..
İxtisası………………………………………………
İş yeri………………………………………………..
Ailə vəziyyəti………………………………………
Əlaqə telefonu………………………………………
Ünvanı……………………………………………….

***Tapşırıq 80.*** Oxuyun.

**A.** Salam
**B.** Salam. Vəfa xanım lazımdır.
**A.** İndi o, burda yoxdur.
**B.** Nə vaxt olacaq?
**A.** Saat 2-dən sonra.
**B.** Təşəkkür edirəm. Çox sağ olun.
**A.** Dəyməz.

## 4. Mətn.

### Bakının gəzməli və görməli yerləri

15-ci əsrə aid Şirvanşahlar sarayı Bakıdadır. Burada bir çox tarixi abidələr var. Bu ərazı Xəzərin incisi və Azərbaycanın tarixi panoraması da adlanır.

Qız qalası da Bakıdadır. Bu qala 12-ci əsrə aiddir. Bu qala haqqında çoxlu rəvayətlər var. Bakıda muzeylər çoxdur. Bunlardan biri Tarix muzeyidir. Muzey Qafqazın ən böyük muzeylərindən biri hesab olunur. Burada 36 zalda 2500-dən çox eksponat var.

Bakıda gəzməli və görməli bir çox turizm obyektləri var. Məsələn, Azadlıq meydanı, idman kompleksləri, kafelər, restoranlar, əyləncə mərkəzləri, teatrlar, kino mərkəzləri, gözəl çimərlik və istirahət mərkəzləri.

Restoranlar çoxçeşidlidir. Bu restoranlarda müxtəlif ölkələrin mətbəxinə rast gəlmək mümkündür.

Azərbaycan Odlar yurdu da adlanır. Bu ölkə İpək yolunun üzərindədir. Bu yol Şərqlə Qərbi ticarət sahəsində birləşdirir. Bu mövqe çox əlverişlidir. Azərbaycan Zaqafqaziya regionunun şərq hissəsində yerləşir, şimaldan Rusiya, şimal-qərbdən

Gürcüstan, cənub-qərbdən Ermənistan, cənubdan isə İran və Türkiyə ilə həmsərhəddir.

**Mətnə aid suallar:**

1. Şirvanşahlar sarayı neçənci əsrə aiddir?
2. Qız qalası hansı əsrə aiddir?
3. Qafqazın ən böyük muzeylərindən biri hansıdır?
4. Restoranlarda yalnız Azərbaycan yeməkləri yemək mümkündür?

**5. Dialoq.**

**Azərbaycanca bilirsiniz?**

| | | |
|---|---|---|
| **Aqşin:** Bağışlayın, siz Azərbaycanca bilirsiniz? | **A.:** Извините, вы знаете Азербайджанский язык? | **A.:** Excuse me, do you know Azerbaijani? |
| **Nigar:** Bəli, Azərbaycan dilini yaxşı bilirəm. | **Н.:** Да, я хорошо знаю Азербайджанский язык. | **N.:** Yes, know the Azerbaijani language very well. |
| **Aqşin:** Rusca bilirsiniz? | **A.:** Вы знайте русский? | **A.:** Do you know Russian? |
| **Nigar:** Bir qədər zəif bilirəm. | **Н.:** Знаю, но слабо. | **N.:** I know it a little. |
| **Aqşin:** Siz ingiliscə danışa bilirsiniz? | **A.:** Вы можете говорить по-английски. | **A.:** Can you speak English? |
| **Nigar:** Xeyir danışa bilmirəm. Mənim qar-daşım ingiliscə bilir. Bəs siz hansı dillərdə danışa bilirsiniz? | **Н.:** Не могу. Мой брат, знает по- английски. На каких языках вы можете говорить. | **N.:** No, I can't speak it. My brother knows English. What languages can you speak? |
| **Aqşin:** Mən bir az türkcə danışıram. | **A.:** Я немного говоря по-турецки. | **A.:** I speak a little Turkish. |

## 7-ci dərs

1. İsmin mənsubiyyət kateqoriyası.
2. Sual əvəzlikləri.
3. İmla.
4. Mətn. Alim və qayıqçı.
5. Dialoq.

### 1. İsmin mənsubiyyət kateqoriyası.

Mənsubiyyətin üç forması var:
1) Şəxs və əşya arasında - kitabım
2) Şəxslər arasında – qardaşım
3) Əşyalar arasında – kitabın səhifəsi

***Qeyd:*** *- in şəkilçisi - şəxsə aid mənsubiyyət şəkilçisini qəbul edən isim əşyanın həm insana, həm də cansız varlıqlara mənsubluğunu ifadə edir.*

| Şəxslər | Sahib şəxs | Mənsub olan şey | Mənsubiyyət şəkilçiləri |
|---|---|---|---|
| I şəxs tək<br>cəm | mənim<br>bizim | ev-im, qapı-m<br>ev-imiz, qapı-mız | -ım$^4$; - m<br>- ımız$^4$; - mız$^4$ |
| II şəxs tək<br>cəm | sənin<br>sizin | ev-in, qapı-n<br>ev-iniz, qapı-nız | -in$^4$; - n<br>- ınız$^4$; - nız$^4$ |
| III şəxs tək<br>cəm<br>Əlinin<br>Qonşunun<br>Evin | onun<br>onların | ev-i, qapı-sı<br>ev-i, qapı-sı<br>kitab-ı; yazı-sı<br>dəftər-i; quzu-su<br>dam-ı; pəncərə-si | -ı$^4$; - sı<br>- ı$^4$; - sı$^4$<br>-ı$^4$; - sı<br>- ı$^4$; - sı$^4$<br>- ı$^4$; - sı$^4$ |

***Tapşırıq 81.*** *Qonşu, bacı, oğul, ana, qələm, eynək, saat, çanta, at* sözlərinə mənsubiyyət şəkilçisi artırıb cümlədə işlədin.

***Qeyd:*** *Bəzi saitlə bitən sözlər mənsubiyyət şəkilçisi qəbul edərkən "y" birləşdirici samiti əlavə edilir. Məs.: taleyim, taleyin, taleyimiz.*

***Tapşırıq 82***. Oxuyun, mənsubiyyət şəkilçilərini tapın, hansı şəxsə aid olduğunu bildirin.

Dənizin havası, onların maşını, sizin məqsədiniz, mənim anam, İradənin qələmi, "Anamın kitabı", həyətin qapısı, şagirdin çantası, sənin arzun, mənim məktəbim, bizim rayonumuz.

***Tapşırıq 83***. Verilmiş sözlərə mənsubiyyət şəkilçiləri artırın, fərqləri deyin.
Nənə, qonşu, mənşə, tale, dost, kürk, mənafe.

***Tapşırıq 84.*** *Ata, ana, baba, nənə, dayı, bibi, xala, bacı, qardaş, oğul, qız, nəvə* sözlərini mənsubiyyətə görə dəyişdirin.

*Nümunə:*

| | |
|---|---|
| Mənim anam | Bizim anamız |
| Sənin anan | Sizin ananız |
| Onun anası | Onların anası |

***Tapşırıq 85.*** Dialoqu oxuyun, mənsubiyyət şəkilçisi qəbul etmiş sözləri göstərin.

– Bu qız sənin nəyindir? Bacındır, yoxsa rəfiqən?
– O mənim böyük bacımdır.
– O harada oxuyur?
– O mənim oxuduğum universitetdə oxuyur, yəni BDU-da.
– Sən neçənci kursda oxuyursan?
– Mən III kursda oxuyuram.Bacım isə dördüncü kursda oxuyur.
– Sənin qiymətlərin necədir?
– Bütün fənlərdən mənim qiymətim əladır.
– Bəs sənin bacının qiymətləri necədir?
– Onun qiymətləri də əladır. İlin sonunda ona diplomu rektor təntənə ilə təqdim edəcək.
Mən öz bacımla fəxr edirəm.

## 2.Sual əvəzlikləri.

**Qeyd:** *Kim? Nə? Hara? Necə? Hansı? Neçə? Neçənci? Niyə? və s. ən çox işlənən sual əvəzlikləridir. Sual əvəzlikləri bəzi nitq hissələrinin yerində işlənir.*

***Tapşırıq 86.*** Sualların əsasında cümlələri tamamla.

1. Müəllim soruşdu (Nəyi? Niyə? Nə vaxt? Kimdən?)
2. Təyyarəyə mindi (Kim? Nə vaxt? Nə məqsədlə?)
3.Atı oğurladılar (Kim? Niyə? Nə vaxt?)
4.Zooparka getdi (Kim? Nə zaman? Kiminlə? Nə üçün?)
5.Qonaqlıq etdi (Kim? Kimgildə? Nə üçün? Nə zaman?)
6. Qumru oxuyur (Harada? Hansı məktəbdə? Kiminlə? Neçənci sinifdə?)
7.Muzeydə işləyir (Kim? Haradakı? Hansı?)
8.Həkimə getdi (Kim? Nə səbəbdən? Nə vaxt? Haraya?)
9.Bakıya qonaq gəldi (Kim? Haradan? Nə zaman? Nə məqsədlə?)
10.Alim mühazirə söylədi (Hansı alim? Nə vaxt? Nə barədə?)

***Tapşırıq 87.*** Krossvord Suallar. Nöqtələrin yerinə hansı sual əvəzliyi uyğun gəlir? Yazın və krossvordda göstərin.




I. Yuxarıdan aşağıya:
1. Zəng ............ vurulacaq?
2. Sən ............ binanın qarşısında durubsan?
3. Bazardan ............ almalıyam?
4. ............ bu işin sonu belə oldu?
5. Sabah gəzintiyə ............ gedəcək?

II. Soldan sağa:
6. Siz ............ gedirsiniz?
7. Onlar ............ yaşayırlar?
8. Bacın ............ sinifdə oxuyur?

***Tapşırıq 88.*** Verilmiş sözlərə uyğun sual cümlələri yazın.

Xəzər, Azərbaycan, idman, universitet, qəhrəman, şəhidlər, Novruz bayramı, Xocalı faciəsi, arzum, fəsil, neft, şəhər, ailə, vətən, müəllim.

***Tapşırıq 89.*** Suallara cavab yazın.

– Siz harada işləyirsiniz?
– Saat neçədə işə gedirsiniz?
– İşiniz nədən ibarətdir?
– Siz harada nahar edirsiniz?
– Boş vaxtınızda nə işlə məşğul olursunuz?
– İşdən evə nə vaxt gəlirsiniz?
– Hansı idman növü ilə məşğul olursunuz?

Bakı ... →
- necə şəhərdir?
- haranın paytaxtıdır?
- hansı dənizlə əhatə olunur?
- hansı yarımadada yerləşir?

Universitet ... →
- hansı universitetdə oxuyursan?
- harada yerləşir?
- hansı fakültədə təhsil alırsan?
- qrupunuzda neçə tələbə var?

Ekskursiya ... → haraya getdiniz?
→ orada nələr gördünüz?
→ neçə tələbə iştirak edirdi?
→ kim rəhbərlik edirdi?

***Tapşırıq 90.*** Suallara cavab verin.

1.Sənin rəfiqən kimdir?................................
2.Mətanətin rəfiqəsi kimdir?.........................
3.Sənin rəfiqənin dostu kimdir?.....................
4.Onun rəfiqəsi kimdir?................................

1.Aynurun neşə qardaşı var?.........................
2. Kimin bir qardaşı var?.............................
3.Qardaşı olan kimdir?.................................

1.Əkiz bacıları olan kimdir?.........................
2.Aynurun bacıları kimdir?............................
3. Aynurun əkiz bacılarının adı nədir?.............

1. Bu kimin albomudur?..................................
2.Bu albom kimindir?.......................................
3. Aytənin bacısı kimdir?.................................
4.Bu nədir?.....................................................
5.Kimin albomu vardı?....................................
6.Bu albom kimə aiddir?.................................
7.Masadakı nədir?...........................................
8.Neçə albomu var?........................................

***Tapşırıq 91.*** Fikirlərin doğru və ya səhv olduğunu müəyyənləşdirin.

| | **D** | **S** |
|---|---|---|
| Aynurun bir qardaşı var | □ | □ |
| Aynurun bacıları əkizdir. | □ | □ |
| Aytənin qardaşları əkizdir. | □ | □ |
| Bu albom Aytənin bacısının albomudur. | □ | □ |

***Tapşırıq 92.*** Mənsubiyyət şəkilçilərini əlavə edin.

***a)***

Tanış olun.

Bu, mənim ana......... dır.

Bu Şəhla – bacı..........dır

Mətanət – in yaxın rəfıqə..........dir.

***b)***

**A.** Bu , mənim albom........dur.
Bunlar, bizim şəkil......... dir.
Bu, mənim böyük qardaş..........
Bu isə, mənim kiçik qardaş...........

**B.** Bu qadınlar sənin qohum............dır?
**A.** Hə, bunlar qohum..........dır.
**B.** Aynur, ana.......... hansıdır?
**A.** Sarısaç qadın ana..... Bu, xala.........
**B**. Uzunsaç qadın kimdir?
**A.** O, bibi.........dir. Bura bizim ev......dir. Bu şəkildə ana....... ortadadır. Bacı....... əkizdir. Nərgiz sol tərəfdə, Sevinc isə sağ tərəfdədir.

***Tapşırıq 93.*** Cümlələri tamamlayın.

1. Anamın anası mənim............................
2. Anamın bacısı mənim............................
3. Atanın bacısı sənin..............................
4. Atamın qardaşı bizim............................
5. Atamın atası mənim...............................
6. Anamın qardaşı mənim............................
7. Onun ərinin anası onun............................
8. Onun ərinin atası onun............................
9. Ərinin bacısı onun..................................
10. Ərinin qardaşı onun............................

***Tapşırıq 94.*** Oxuyun.

Onun adı Arzu, soyadı Məmmədovadır. Azərbaycanlıdır. Tələbədir. 19 yaşı var. Ailəsi dörd nəfərdən ibarətdir. Atasının 39 anasının 32 yaşı var. Qardaşının 18 yaşı var. Atası memardır. Anası dərzidir. Qardaşı da tələbədir. Onların mənzili şəhərin mərkəzindədir.

***Tapşırıq 95***. Fikirlərin doğru və ya səhv olduğunu müəyyənləşdirin.

1. Arzunun soyadı Quliyevadır
2. Arzu tələbədir.
3. Onun iyirmi yaşı var.
4. Arzunun ailəsi 5 nəfərdən ibarətdir.
5. Onun atasının 39 yaşı var.
6. Arzunun qardaşı tələbə deyil.
7. Onların mənzili şəhər kənarındadır.

***Tapşırıq 96.*** Sual və ya cavab cümlələri yazın.

1.Arzunun ailəsi neçə nəfərdən ibarətdir? .
2..............................................................................................................
1.............................................................................................................
2.Azərbaycanlıdır.
1.Onun atasının peşəsi nədir?
2..............................................................................................................
1.............................................................................................................
2. Atasının 39 yaşı yar.
1.............................................................................................................
2. Onun anası dərzidir 1
1. Ailədə ən kiçik kimdir?
2..............................................................................................................
.............................................................................................................

***Tapşırıq 97.*** Özünüz haqqında bir az məlumat verin.

***Tapşırıq 98***. Məlumatlardan istifadə edib, danışın.

1.Rəfıqəmin adı ?
2. Onun neçə yaşı var?
3. Onun atasının adı nədir?
4. O kimdir?
5. Onun neçə yaşı var?
6. Onun anasının neçə yaşı var?
7. O kimdir? Onun neçə yaşı var?
8. Onların evi haradadır?
9. Babasının evi haradadır?

***Tapşırıq 99.*** Suallara cavab verin.

1. Kimin ailəsi 3 nəfərdən ibarətdir?
2. Kimin 44 yaşı var?
3. Kim rəqqasədir?
4. Kimin evi Qubadadır?
5. Günelin anası atasından neçə yaş kiçikdir?
6. Anarla Sevda kimdir?

***Tapşırıq 100.*** Oxuyun.

**a)** Fərid – Lalə, siz neçə uşaqsınız?
Lalə – İki bacı, bir qardaş. Bəs siz?
Fərid – Biz 2 qardaşıq.

**b)** – Aılədə neçə nəfərsiniz?
– Atam, anam, bacım və mən.

Lalə – Bacın yoxdur?
Fərid – Yox.

## 3. İmla.

### Babanın böyük ürəyi

“Ötən gün səhər iş yenicə başlamışdı ki, bir Hikmət baba yaxınlaşdı «Asan xidmət» mərkəzinə. Hansı xidmətə gəldiyini soruşdum, dedi ki, cəbhədəki əsgərlərimizə yardım etməyə gəlmişəm, 180 manat pulum var, bunu onlara vermək istəyirəm. Donuq ifadə ilə ağsaqqal kişinin üzünə baxırdım ki, qayıtdı ki, azdı? Dedim, ay baba, sənin ürəyinə qurban olum, az deyil, dünya qədərdi bu….

Növbəsini götürüb xidmət pəncərəsinə yaxınlaşanda onun ayağındakı ayaqqabıları görüb ürəyim dağlandı… . Hər iki ayaqqabısı ortadan bölünmüşdü. Amma nə qədər böyük ürəyi vardı ki, yağışlı, soyuq havada ayağına ayaqqabı almağa qıymayıb əsgər balalarına ianə göndərirdi.

Sonda Əsgərə məktub da yazıb evə getdi. Pulu ödədikdən sonra babanın üzündəki qüruru görməyə dəyərdi” Onu da qeyd etmək istəyirəm ki, Hikmət Mirzəyev “Yaşad” fonduna ilk yardım edənlərdən birincisi idi. Qələbədən sonra 28 noyabr, 2021-ci ilə Hikmət Mirzəyevin Şuşaya səfəri təşkil olunub. Onun 70 yaşı Azərbaycanın qüruru olan Şuşada qeyd olunub”.

**Mənbə**: Mətbuat, Tarixi faktlar

## 4. Mətn.

### Alim və qayıqçı

Bir gün məğrur bir dilçi alim sahildə duran qayığa minib qarşıdakı sahilə keçmək istəyir. Müştəri gözləyən qayıqçılardan birini səsləyir. Qayıq yaxınlaşır, alim qayığa minir. Bir az yol gedəndən sonra alim qayıqçıdan soruşur:

- Sən qrammatikanı bilirsən?
- Xeyr, mən savadsız bir qayıqçıyam, haradan bilim?
- Vay-vay!? Bu nə pis oldu. Sənin yarı ömrün hədər getmişdir, - deyə alim təəssüflə qayıqçıya baxır. Elə bu zaman fırtına qopur. Qayıq dənizin ortasında yırğalanmağa başlayır. Qayıqçı var gücü ilə təhlükəni aradan qaldırmağa çalışır. Lakin fırtına getdikcə şiddətlənir. Qayıq batmaq üzrədir. Bu vaxt qayıqçı qarşısında titrəyən alimə:
- Ey hər şeyi bilən dostum, üzmək də bilirsənmi?
- Xeyr, bilmirəm.
- Vay-vay! Sən bütün ömrünü hədər keçirmisən.

Çünki bir azdan qayıq batacaq və sən üzmək bilmədiyin üçün həyatını itirəcəksən.

**Müəllif:** Xəyyam Ağa, Facebook, 9 iyul, 2015, Bakı

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - Mənim pasportum budur. Mənim vizam tranzitdir. | - Вот мой паспорт У меня транзитная виза. | Here is my passport. I have a transit visa. |
| - Sizin adınız nədir? | Как вас зовут? | - What is your name? |
| - Mənim adım Condur. | Меня зовут Джон. | - My name is Jon. |
| - Sizin nə qədər valyutanız var? | Сколько у вас валюты? | -How much foreign currency do you have? |
| - Çox deyil.<br>- Bu çantanı zəhmət olmasa, açın. | Немного.<br>Откройте, пожалуйста, эту сумку. | - Not much.<br>- Open this bag, please. |
| Bunlar mənim ancaq şəxsi əşyalarımdır. | Это мои только личные вещи. | - I have only personal things. |
| - Siz əminsiniz? | Вы уверены? | - Are you sure? |
| - Bəli, əminəm<br>- Özünüz baqajınızı bağlamısınız? | Да, уверен.<br>Вы сами упаковали свой багаж? | - Yes, I'm.<br>- Have you packed your lugage yourself? |
| - Əlbəttə. | Конечно. | - Of course. |
| - Sizə xoş istirahət arzulayıram! | Желаю вам хорошего отдыха! | - Have a good time! |

## Çiçəklər



*Xarı Bülbül*



*Qızılgül*



## *Çobanyastığı*




## *Lalə*



*Nərgiz*



*Yasəmən*

## 8-ci dərs

1. Əsl Azərbaycan sözlərinin xüsusiyyətləri.
2. Gündəlik məşğuliyyətimiz.
3. Ahəng qanunu.
4. Mətn. S. S.Axundov “Qaraca qız”.
5. Dialoq.

## 1. Əsl Azərbaycan sözlərinin xüsusiyyətləri

***Qeyd:*** *a) Əsasən təkhecalıdır; b) Ahəng qanununa tabe olur; c) Bəzi mürəkkəb sözlər də vardır ki, ahəng qanununa tabe olmasalar da, əsil Azərbaycan sözləridir; d) Bu sözlərdə vurğu, əsasən son hecanın üzərinə düşür.*

*İsimlərin müəyyən hissəsi, sifətlərin, əvəzliklərin demək olar hamısı, sayların çoxu, feillərin, zərflərin hamısı əsil Azərbaycan sözləridir.*

***Tapşırıq 101.*** Əsl Azərbaycan sözləri ilə cümlə qurun.

İldırım, ilxı, işıq, ikiayaqlı, əlüzyuyan, Daşdəmir, Daşkəsən, ikicanlı, suiti, Qarabağ, Qaradağ.

***Tapşırıq 102.*** Cümlələri dəftərinizə köçürün, əsil Azərbaycan sözlərinin altından xətt çəkin.

Bacım balacadır. Onun adı Lalədir. Lalə ikinci sinifdə oxuyur. Lalə yaxşı şəkillər çəkir.

Bu gün atam ona çoxlu rəngli qələmlər aldı. Rəngli rəqəmlər qırmızı, qara, sarı, mavi, qəhvəyi və yaşıldır. Mən isə albom aldım.

İndi saat üçdür. Biz çay içirik. Lalə şəkil çəkir. O, iki at şəkli çəkdi. Çəkdiyi at su içir və ot yeyir. O öz çəkdiyi şəklə baxıb sevinir. Biz də onun rəsmlərinə baxırıq. Masanın üzərində çoxlu şəkil var.

***Tapşırıq 103.*** Atalar sözlərini oxuyun, əsl Azərbaycan sözlərinə fikir verin.

1.Az ye, həmişə ye. 2.Ata olmayan, ata qədri bilməz. 3.At igidin yoldaşıdır. 4.Ac qurd balasını yeyər. 5.Bal tutan barmaq yalar. 6.Baş bədənin tacıdır. 7.Bir qız bir oğlanındı. 8.Bir əli yağda, bir əli balda. 9.Bir gün bizdə, bir gün sizdə. 10.Daş qayaya rast gəlib. 11.İt-it əti yeməz. 12.Yay yetirir, qış itirir.

## 2. Gündəlik məşğuliyyətimiz.

***Tapşırıq 104.*** Nöqtələrin yerinə uyğun gələn sözü əlavə edib, yazın.

*adətən/ bəzən/ çoxdan/ çox vaxt/ tez-tez/ hərdənbir/ heç vaxt*
1. Biz teatra............. birlikdə gedirik.
2. Mən onunla...............dostluq edirəm. O, mənim uşaqlıq dostumdur.
3. Sən səhər saat neçədə oyanırsan?............... saat 7-də oyanıram.
4. O, mənə............. zəng edir, çünki o, bütün gün işləyir.
5. Bakı küləklər şəhəridir, Bakıda .................. külək əsir.
6. Sevinc, ................dərsə gecikmir, həmişə vaxtında gəlir.
7. Mən idman zalına çərşənbə və şənbə günləri gedirəm. ...........isə çərşənbə axşamı və cümə günləri gedirəm.

***Tapşırıq 105.*** Boş vaxtlarında nə ilə məşğul olursan?

| | Bəzən | Adətən | Heç vaxt |
|---|---|---|---|
| Televizora baxmaq | | | — |
| Radioya qulaq asmaq | — | | |
| Yemək bişirmək/hazırlamaq | | — | |
| Kitab oxumaq | | — | |
| Musiqiyə qulaq asmaq | | | |
| Idman etmək | — | | |
| Yatmaq | — | — | |
| Heç nə etmək | — | | |
| Idman proqramlarına baxmaq | | | — |
| Kinoya, teatra, konsertə getmək | | | — |
| Qəzet oxumaq | | | — |
| Internetdə olmaq | — | | |

***Tapşırıq 106.*** Suallara cavab verin.

8. Nəyi heç vaxt etmirsən?
9. Axşamlar bəzən nə edirsən?
10. Həftəsonu tez-tez nə edirsən?
11. Adətən, səhərlər nə edirsən?
12. Bazar günü həmişə nə edirsən?

***Tapşırıq 107.*** Oxuyun.

a) Sona turizm agentliyində işləyir. O, işini çox sevir. Onun rəfiqəsi də burda işləyir. Onlar şənbə və bazar günləri işləmirlər.

b) Ziya idmançıdır. O, hər gün idman zalına gedir, orda məşq edir. Tez-tez yarışlarda olur və xarici ölkələrə gedir.

c) Fidan tələbədir. O, universitetdə oxuyur. Lalə xarici dil öyrənir. O, iki xarici dil bilir. O həm də gözəl şəkillər çəkir.

***Tapşırıq 108.*** Mətndən istifadə edib, suallara cavab verin.

1. Kim həftəsonu işləmir?
2. Kim tez-tez xarici ölkələrə gedir?
4. Ziya harada məşq edir?
5. Sona harda işləyır?
6. Fidan harda oxuyur?
7. Sonanın rəfıqəsi harda işləyir?
8. Ziya idman zalına nə vaxt gedir?
9. Kim gözəl şəkillər çəkir?

***Tapşırıq 109***. Qrup yoldaşlarından soruş, və yaz.

1. İşləyirsən? Oxuyursan?
2. Harda işləyirsən/ oxuyursan?
3. Azərbaycanca bilirsən?
4. Səyahət etməyi xoşlayırsan?
5. Dərsə nə ilə gəlirsən?
6. Kiminlə dostluq edirsən?

***Tapşırıq 110.*** İfadələri öyrənin və cümlələrdə işlədin.

*dərsə getmək/ işə getmək/ yemək hazırlamaq/ nahar etmək/ şam etmək/ dincəlmək/istirahət etmək/ yatmaq/ avtobus gözləmək/ avtobusa minmək/ maşınla getmək/ televizora baxmaq/ evə qayıtmaq/ kafedə nahar etmək/ alış-veriş etmək/çay içmək*

## 3. Ahəng qanunu.

*Sözdə eynicinsli səslərin biri-birini izləməsinə ahəng qanunu deyilir. Ahəng qanununun 3 tipi var: 1. Saitlərin ahəngi; 2.Samitlərin ahəngi; 3.Saitlərlə samitlərin ahəngi.*

*I.Saitləririn ahəngi*

*A) qalın saitlərin ahəngi: Ba-kı-h-lar, a-na-lar*

*B) incə saitlərin ahəngi: nə-nə-lər, me-şə-lər.*

*C) dodaqlanan saitlərin ahəngi: or-du, u-zun, o-yun, ü-zük, üz-üm, kör-pü.*

*II. Samitlərin ahəngi:*

*A)Samitlərin ahəngi: çiçək, şeçki, toxu, kəş.*

*B) cingiltili samitlərin ahəngi: qarğı, gərgin, vergi, vurğu.*

*III. İncə saitlərlə incə samitlər, qalın saitlərlə qalın samitlər bir-birini izləyir.*

*A) gəl, göz, köz.*

*B) qal, qaç, qol.*

*Birinci növbədə saitlərin ahəngi nəzərdə tutulur. Ahəng qanununa tabe*

*olmayan sözlər alınma sözlərdir: ki-tab, a-lim, radi-o və s.*

*Sözə artırılan şəkilçi sonuncu hecanın ahənginə tabe olur: uşaq-lar, böyük-lər, baba-lar, nənə-lər, üzüm-çü, odun-çu.*

***Tapşırıq 111***. Oxuyun, ahəng qanununa tabe olmayan sözləri seçib ayrıca yazın.

Kitab, məktub, katib, həyat, könül, musiqi, nazir, küçə, universitet, tələbə, alıcı, satıcı, çörək, təzə, Gülarə, Günay, Leyla, Aytən, Ülvi, Zakir, Aygün, mağaza, ərzaq, günəş.

***Tapşırıq 112.*** Sözlərə ahəng qanununa uyğun xəbərlik şəkilçilərini artırıb yazın.

Bu, Zakir... . O, gənc... . O, həkim... . Onun xalatı ağ... . O hələ tələbə... . Bəs siz kim...? Mən bu idarənin mühasibi... . Bura mənim otağım... . Otaq çox böyük və işıqlı... . Mühasibat işi maraqlı və çətin... . Bufet orada..., birinci mərtəbədə... . İndi nahar vaxtı... . Hamı orada....

***Tapşırıq 113.*** Ahəng qanununa tabe olan sözləri seçib yazın.

Uzun, dünən, düyü, qapıçı, quzu, gözəl, Rusiya, üzümçü, kürk, kürü, qoşun, qoyun, Tutu, Könül, Nurcan, Nuridə, küçük, boru, Qobustan, cücə.

**4. Mətn. S. S.Axundov "Qaraca qız" (hekayədən bir parça)**

Birdən vaqon fit verdi. - Hə, anamgil getdi. Bir də axşam gələcəklər, indi gedim Qaraca qızı dustaqdan xilas edim, - bunu deyib, Ağca xanım cəld geyindi və Baba otağına tərəf getdi. Oraya çatanda gördü ki, otağın qapısı açıqdır. Yavaşca içəri girdi. Gördü ki, atası divanın üstündə uzanıb siqara çəkir və ondan başqa otaqda kimsə yoxdur.

Ağca xanım atasının qucağına atıldı. Sonra divanın altına baxdı və Qaraca qızı orada görməyib mat qaldı. Atası soruşdu:

- Qızım, nə var, nə yox, nə üçün mat qalmısan?

Ağca xanım soruşdu:

- Ata, sən çoxdanmı buradasan?
- Nahardan sonra gəldim, qızım.
- Sən gələndə qapı açıq idimi?
- Yox, mən özüm açdım.
- İçəridə kim vardı?
- İçəridə bax, bu xallı pişik vardı - deyə Hüseynqulu ağa pişiyi ona göstərdi.

**Mənbə**: Bakı: "Şərq-Qərb", 2005, s.379-411

**5. Dialoq.**

| | | | |
|---|---|---|---|
| **Türkan:** | Salam, Şahin, çoxdan səni görmürəm, haralardasan? | Привет, Шахин, давно тебя не видела, где был? | Hi Shahin, haven't see you in a while, where you been? |
| **Şahin:** | Bilmirsən, işə düzəlmişəm. | Я на работу устроился, ты не знала? | I got a job, didn't you know? |
| **Türkan:** | Harada işləyirsən? | Где работаешь? | Where are you working? |
| **Şahin:** | Mehmanxanada. | В гостинице. | In hotel. |
| **Türkan:** | Vəzifən nədir? | На какой должность? | In what position do you work in? |
| **Şahin:** | Qəbul şöbəsində işləyirəm. | В приемном отделе работаю. | I work in the Reseption Departament |
| **Türkan:** | İşin saat neçədə başlayır? | В сколько начинается работа? | What time does your work start? |
| **Şahin:** | Axşam doqquzda. | В девять вечера. | At 9 pm. |
| **Türkan:** | Bəs nə vaxt qurtarır? | А во сколько заканчивается? | What time does it ends? |
| **Şahin:** | Səhər beşdə. Bu gecə işidir. | В пять утра. Это ночная работа. | At 5 am. It's night work. |
| **Türkan:** | Hə, başa düşdüm. Sən işini sevirsənmi? | Да, я поняла. Любишь свою работу? | Yeah, I got it. Do you like your job? |
| **Şahin:** | Bir az. | Немного. | A little. |
| **Türkan:** | Uğur olsun. | Удачи. | Good luck. |

## 9-ci dərs

1. Əlamət bildirən sifətlər.
2. Frazeoloji söz birləşmələri.
3. Saat neçədir?
4. Mətn. Gəncə.
5. Dialoq.

**1. Əlamət bildirən sifətlər.**

***Qeyd:*** *Əşyanın əlamət və keyfiyyətini bildirən əsas nitq hissəsinə sifət deyilir, necə? nə cür? hansı? suallarından birinə cavab verir.*
*Əlamət bildirən sifətlər əşyanın zahiri görkəmini, keyfiyyət bildirən sifətlər isə onun daxili xüsusiyyətini bildirir. Məs., nurani, yaşlı, kök və s. əşyanın həcmi, uzun, qısa, böyük, kiçik və s. onun əlamətidir.*

***Tapşırıq 114.*** -dakı/dəki, -kı/ki/kü şəkilçilərindən uyğun olanını yazın.

Həyət, ev, dünən, axşam, küçə, əlim, çoxdan, London, qarşı, sol, sağ, kitab, bacım, meydan, əvvəl, srağagün, sabah.

**Dakı/dəki; kı/ki/ku/kü şəkilçili sifətlər**

| Ad | Şəkilçi | Nümunə |
|---|---|---|
| kitab | -dakı/dəki | kitabdakı |
| ev | -dəki | evdəki |
| küçəmiz | -dəki | küçəmizdəki |

| Söz | Şəkilçi | Nümunə |
|---|---|---|
| axşam | -kı/ki/kü | axşamkı |
| dünən | -ki | dünənki |
| bu gün | -kü | bugünkü |

***Tapşırıq 115.*** Nümunəyə uyğun yazın.

*Əlimdə qələm var. O, kimindir? Əlimdəki qələm kimindir?*

1. Körpünün yanında ev var. O, çox gözəldir.

..........................................................................

2.Səndə kitab var. O kitab mənimdir.

......................................................................

3. Bu gün film var. Azərbaycan haqqındadır.

.......................................................................

4. Onun otağında mebel var. O, çox qədimdir.

...........................................................................
5. Stolun üstündə qəzet var. O, azərbaycancadır.
.............................................................................
6. Binanın qarşısında park var. Biz axşamlar ora gedirik.
.......................................................................................

***Tapşırıq 116.*** Nöqtələrin yerinə uyğun gələn sifətləri yazın.

1. Biz Azərbaycan dilində ... kitablar oxuyuruq.
2.Xosrov əmi oğluna ... kostyum aldı.
3. Qumru ... şagirddir.
4. Usta şagirdləri ... bir emalatxanaya gətirdi.
5. Uşaqlar ... nəğmə oxuyurlar.
6. Biz ... mənzilə köçəcəyik.
*İstifadə olunan sözlər:* gözəl, əlaçı, yeni, təzə, böyük, maraqlı.

***Tapşırıq 117.*** Verilmiş sifətlərin sinonimini yazın və cümlədə işlədin.

Uca (dağ), kiçik (qardaş), qüvvətli (oğlan), cəsur (adam), gözəl (şəhər), xoşbəxt (həyat), qoca (müəllim), sərin (su)

***Tapşırıq 118.*** Aşağıda verilmiş sifətlərin antonimini yazın.

Cavan, soyuq, yüngül, acı, qara, dadsız, alçaq, dar, pis, qısa, balaca, uzaq, əyri, kök, qəşəng, işıqlı.

***Tapşırıq 119.*** Aşağıdakı sözləri sxem əsasında yazın.

Göy, gavalı, qara, qərənfil, gilas, mavi, narıncı, yaşıl, gilas, albalı, ağ, qızılgül, çiyələk, nərgiz, nar, boz, qırmızı, lalə, ərik, əncir, bənövşə, göyəm, yasəmən, çəhrayı

| Rənglər | Meyvələr | Güllər |
|---|---|---|
| | | |

**2. Frazeoloji söz birləşmələri.**

***Qeyd:*** *Frazeoloji birləşmələr nitqə ifadəlilik, obrazlılıq gətirən, fikir ifadə edən dil vahidlərindəndir. Frazeoloji birləşmələr məcazi mənada olur. Məs., gözdən düşmək, qəlbinə dəymək, özündən çıxmaq və s.*

***Tapşırıq 120.*** Aşağıdakı frazeoloji birləşmələri izah edin və cümlədə işlədin.

Canını qurtarmaq, şirin söhbət etmək, təsir bağışlamaq, aman vermək, diqqəti dağıtmaq, qəşş etmək, silaha sarılmaq, kələk gəlmək, həlak olmaq, göz dikmək, canını almaq, həngamə qoparmaq, hərbə–zorba gəlmək, salamını kəsmək, işə salmaq.

***Tapşırıq 121.*** Verilmiş cümlələrdəki frazeoloji birləşmələri seçin.

1. Deyəsən, mənim dediklərimi qulaq ardına vurursan *(İ.Şıxlı).*
2.İgid gərək ehtiyatı əldən verməsin *(S.Rəhimov).*
3.Mən elə dərd çəkirəm, elin qız-gəlinini əliaçıq görəndə mənim ürəyim cızıldayır, tüstüm təpəmdən çıxır *(S.Rəhimov).*
4. Ancaq bunların heç birisi qoluma qüvvət, ürəyimə təpər, gözlərimə işıq vermirdi *(Ə.Vəliyev).*
5.Qorxudan Salatının ürəyi uçurdu *(İ.Şıxlı).*
6. Sözü dağınıq adama Qaragilə nə cavab versin? – deyə Şamo düşünürdü *(S.Rəhimov).*
7. Belə misal var: Ağır otur, batman gəl *(Atalar sözü).*
8. Belə deyirlər: Balıq başından iylənir *(Atalar sözü).*
9. Atalar sözüdür ki, açıq qapını döyməzlər.
10. Qızdırmadan bədəninə üşütmə düşmüşdü.

***Tapşırıq 122.*** Verilmiş frazeoloji birləşmələrin qarşısında uyğun gələn feilləri yazın.

Özünü itirmək –
Gözü yol çəkmək –
Ağzına su alıb oturmaq –
Ağlı azmaq –
Dil açmaq –
Ələ düşmək –
Qol çəkmək –
Ayaq açmaq –
Zarafat eləmək –
Əl açmaq –
Əldən düşmək –
Üz-göz olmaq –

***Frazeoloji ifadələr*** *məcazi mənalı söz birləşmələridir. Azərbaycan dilində çoxlu sayda frazeoloji ifadələr var. Frazeoloji birləşmələr başqa dillərə olduğu kimi tərcümə olunmur.*

| | | |
|---|---|---|
| Əldən düşmək - | устать | -to be tired |
| Gözdən düşmək | потерять доверие | -to lose smb's confdence |
| Həvəsdən düşmək | потерять охоту | -to lose smb.s desire to do |
| Yada salmaq | вспомнить | -remember, recall |
| Razı salmaq | удовлетворить | -to satisty |
| Razı qalmaq | остаться довольным | -content |
| Dərd çəkmək | горевать | -to grieve (for) |
| Qol çəkmək | подписать | -tosign |
| Fikir çəkmək | переживать | -to suffer, be worry |
| Qulaq asmaq | слушать | -to listen |
| Göz vurmaq | подмигивать | -to give a wink (to) |
| Ürəyi getmək | потерять сознание | -to lose consciousness. |

***Tapşırıq 123.*** Frazeoloji ifadələrə - $(mış)^4$ və ya $(ıb)^4$ şəkilçilərini artırıb cümləri tamamlayın

1. İdarənin müdiri sənədlərə qol çək...
2. Nənəm gəncliyini yada sal...
3. Xədicə bütün günü evi yığışdırdığı üçün əldən düş..:
4. Professor onun cavabından razı qal...
5. Dünən tələbələr mühazirəyə diqqətlə qulaq as..., bu gün isə onlar həvəsdən düş...
6. Oğlunun yolunu gözləyən ana bir həftə fıkir çək...
7. Sən nə üçün həvəsdən düş...
8. Yalan danışdığı üçün Leyla rəfiqələrinin gözündən düş...
9. Mən dünənki cəsarətimdən razı qal...

***Tapşırıq 124.*** Sözlərin həqiqi və məcazı mənalarını ayırın.

1. Qələm yerə düşdü. Qorxudan ürəyim düşdü.
2. Uşaqlar həyətdə ipi çəkirlər. Dərd çəkmək insanı qocaldır.
3. Anam yaş paltarları asır. Tələbələr professora diqqətlə qulaq asırlar.
4. Boksçu son anlarda rəqibinə zərbə vurdu.

***Tapşırıq 125.*** Qara hərflərlə verilmiş ifadələrə fıkir verin. Onların ana dilinizdə qarşılığı necədir?

1. Bu xəbərdən onun **gözünə qaranlıq çökdü.**
2. Tamaşaçıların gülməkdən **nəfəsi kəsilirdi**.
3. Hər kəs müqəddəs bildiyi hisslərini **göz bəbəyi kimi qorumalıdır.**
4. Otaqda hamı danışırdı, amma Rüstəm **ağzına su alıb oturmuşdu.**

5. Ruhdan düşən insan heç bir **iş görə bilməz.**
6. Dostunun dediyi sözləri Zaur **qulaq ardına vurdu.**
7. Yalançı insanların hamısı **bir bezin qırağıdır.**
8. Ara qızışdıran adamlar heç vaxt **xeyir tapmaz.**

## 3. Saat neçədir?

***Tapşırıq 126.*** Vaxtın saatla göstərilməsi.




***Tapşırıq 127.*** Aşağıdakı vaxtlara uyğun şəkillər çəkin.

Saat 10 tamamdır. Saat on ikiyə 10 dəqiqə işləyib. Saat 5 tamamdır. Saat 2-nin yarısıdır. Saat ikiyə 20 dəqiqə işləyib.

Saat neçədir?

Saat on birə on dəqiqə işləyir. $10^{10}$

Saat üçün yarısıdır. $14^{30}$

Saat üçə beş dəqiqə qalır. $14^{55}$

Saat üçdür (saat 3-dür). $15^{00}$

**3.Saat neçədir?**

10.05 - On birə beş dəqiqə işləyir.
10.20 - On birə iyirmi dəqiqə işləyir.
10.30 - On birin yarısıdır.
10.40 - On birə iyirmi dəqiqə qalır.
10.45 - On birə on beş dəqiqə qalır.
11.00 - Saat on birdir/On bir tamamdır.

**Dərs neçədə başlayır?**

Dərs ikidə (14:00) başlayır.
Dərs üçün yarısında (14:30) başlayır.
Dərs üçə 15 dəqiqə işləmiş (14:15) başlayır.
Dərs üçə 15 dəqiqə qalmış (14:45) başlayır.

***Tapşırıq 128.*** Suallara cavab verin.

| | | | |
|---|---|---|---|
| 1. Saat | | Saat (16:10) | ................................................... |
| 2. Saat | | Saat (14:25) | .................................................... |
| 3. Saat | | Saat (12:30) | .................................................... |
| 4. Saat | **neçədir?** | Saat (11:30) | ..................................................... |
| 5. Saat | | Saat (20:40) | .......................................................... |
| 6. Saat | | Saat (18:55) | ............................................................ |
| 7. Saat | | Saat(19:00) | ........................................................... |
| 8. Saat | | Saat (24:00) | ............................................................ |

***Tapşırıq 129.*** Suala cavab verin.

Futbol nə vaxt başlayır?

1. (18:00) ..............................................................................
2. (20:00) .............................................................................
3. (18:20) ..............................................................................
4. (19:45) .............................................................................
5. (16:35) .............................................................................
6. (18:30) .............................................................................
7. (19:30) .............................................................................

***Tapşırıq 130.*** Saat neçədir? Aşağıdakı nümunə şəklində dialoqlar qurun.

*Nümunə*: – Ana, indi saat neçədir?
– İndi saat dörddür?
– Bir saat əvvəl saat neçə idi?

– Bir saat əvvəl saat üç olub.
– Bəs bir saat sonra saat neçə olacaq?
– Bir saat sonra beş olacaq.

***Vaxtı saatla göstərmək üçün miqdar saylarından istifadə olunur. Miqdar sayının (bir, iki, beş, on) sonuna xəbərlik şəkilçisi - (dır)*** $^4$ ***artırılır.*** *Məsələn,*
*- Saat neçədir?*
*- Saat ikidir (üçdür, altıdır, doqquzdur);*
$8^{30}$ *- doqquzun yarısıdır;*
$20^{30}$ *(axşam) doqquzun yarısıdır;*
$7^{15}$ *- səkkizə on beş dəqiqə işləyib;*
$8^{20}$ *- doqquza iyirmi dəqiqə işləyib;*
$12^{25}$ *- (günorta) birə iyirmi beş dəqiqə işləyib;*
$13^{40}$ *- ikiyə iyirmi dəqiqə qalıb;*
$15^{45}$ *- dördə on beş dəqiqə qalıb;*
$22^{50}$ *- (gecə) on birə on dəqiqə qalıb;*
$24^{00}$ *(gecə) on iki tamamdır.*

***Tapşırıq 131.*** Əqrəblərin göstərdiyi vaxtı deyin.



## 4. Mətn.

### Gəncə

Gəncə Azərbaycanın ikinci böyük şəhəridir. 1804-cü ildən 1918-ci ilədək Yelizavetpol adlandırılmış, 1918-ci ildə Gəncə adı yenidən bərpa edilsə də, 22 fevral 1935-ci ildə dəyişdirilərək Kirovabad adını almışdır. Daha sonra 1989-cu ildə şəhərin Gəncə adı yenidən qaytarılmış və indiyədək də şəhər bu adı daşıyır.

Gəncə zəngin təbiətə, mədəni və tarixi irsə malikdir.
Buranın çoxlu meşələri, üzümlükləri, göl, çay və bağları vardır. Rayon bir çox mineral bulaqla və unikal müalicəvi neftlə – naftalanla məşhurdur. "Naftalan" müalicə kompleksi Azərbaycanın qədim paytaxtının yaxınlığında yerləşmişdir. Regionda Azərbaycan ərazisində ilk qoruq olan məşhur Göygöl qoruğu yerləşir. Göygöl dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşir. Ağsu çayının mənzərəli dayaz dərəsindəki bu gölün suları çox gözəldir, akvariuma bənzəyir. Məs., burada nadir göl foreli yaşayır. Suyun rəngi və təmizliyi son dərəcə heyranedicidir. Meşədə maral, vəhşi qaban, ayı, canavar, çöl pişiyi və digər vəhşi

heyvanlar var. Bu ərazi çimmək, gəzmək, səyahət etmək, ailəvi gəzintiyə çıxmaq üçün ideal yer sayılır.




Gəncə dahi Nizaminin vətənidir. Gəncədə olub, qarşısında mərmərdən 20 metr hündürlüyündə monumental abidəsi olan dahi şairin məqbərəsini ziyarət etməmək olmaz. Qədim mədəniyyət şəhəri Gəncə çoxlu sayda memarlıq abidələri olan gözəl şəhər obrazını qoruyub saxlamışdır.

Yerli möcüzə – təxminən 50 000 şüşə butulkadan inşa edilmiş ikimərtəbəli bina – butulka evdir. Onu İbrahim Cəfərov Böyük Vətən müharibəsi cəbhəsində itkin düşmüş qardaşının şərəfinə 1966-cı ildə yaratmışdır.

Gəncədə çoxlu sayda park və mənzərəli bağ mövcuddur, onlardan ən böyüyü və gözəli Cavad xanın hakimiyyəti dövründə (1748-1803) adlandırılmış Xan bağıdır.

Bu gözəl şəhərin gözəl aurası var. Gəncəni ziyarət edin və ola bilsin ki, bundan sonra bir daha buraya geri dönmək istəyəcəksiniz.

**Mənbə:** Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutunun kitabxanasından

## Mətnə aid suallar:

1. Gəncə əvvəllər necə adlandırılırdı?
2. Neçənci ildə Gəncə öz adını bərpa edib?
3. Gəncənin təbiəti haqqında nə söyləyə bilərsən?
4. Gəncədə hansı müalicəvi sanatoriya var?
5. Azərbaycan ərazisində ilk qoruq hansıdır?
6. Göygöl hansı çayın üzərində yerləşib?
7. Göygöl haqqında bildiklərinizi danışın.
8. Gəncə hansı dahinin vətənidir?
9. Gəncədə hansı bağ və parklar mövcuddur?

***Tapşırıq 132.*** Suallar əsasında ifadə yaz.

## 5. Dialoq.

— Siz səhər neçədə oyanırsınız? ($6^{30}$).
— Saat neçədə səhər yeməyinizi yeyirsiniz? ($6^{50}$).
— Evdən neçədə çıxırsınız? ($7^{15}$).
— Neçə dəqiqə avtobus gözləyirsiniz? (5 dəqiqə)
— Saat neçədə işə çatırsınız? ($7^{40}$).
— Nahar fasiləniz neçədə başlayır ($13^{00}$) və nə qədər davam edir? (30 dəqiqə).

– İşiniz axşam saat neçədə qurtarır? ($19^{30}$).

– Во сколько часов вы просыпаетесь утром? ($6^{30}$)
– Во сколько часов вы завтракаете? ($6^{50}$)
– Во сколько часов вы  выходите из дома? ($7^{15}$)
– Сколько минут ждете автобус? (5 минут)
– В сколько часов вы  даезжаете на работу ($7^{40}$)
– Когда начинается обеденный перерыв ($13^{00}$) и сколько он продолжается (30 минут)
– Во сколько часов закончивается ваша работа ($19^{30}$)

–When do you wake up? ($6^{30}$)
– When do you have your breakfast? ($6^{50}$)
– When do you leave your house? ($7^{15}$)
– How many minutes you're waiting for bus? (5 minutes)
– When do you get to work? ($7^{40}$)
– When does the lunch break start ($13^{00}$)  and how long it lasts? (30 minutes)
– When does your work end? ($19^{30}$)

## 10-cu dərs

1. İsmin kəmiyyət kateqoriyası.
2. Saylar. Miqdar və sıra sayları.
3. Xüsusi və ümumi isimlər.
4. Arayış.
5. Mətn. Sumqayıt əfsanəsi.

### 1. İsmin kəmiyyət kateqoriyası.

***Qeyd:*** *Kəmiyyətcə isimlər tək və cəm olur. İsmin ifadə etdiyi əşya iki və ya daha artıq olsa, o zaman* - lar, - lər *şəkilçisi qəbul edir. Məs.: şəhər – şəhərlər; adam – adamlar*

***Tapşırıq 133.*** Aşağıda verilmiş isimləri cəmdə cümlədə işlədin.

Tələbə, qəhrəman, müəllim, məktub, qadın, ailə, ana, paltar, masa, qatar, yarpaq, cücə, nar, çay, söz, ağac.

***Tapşırıq 134.*** Tək isimləri cəm halda oxuyun.

| | | |
|---|---|---|
| Qarşımda → | hündür bina / iri pəncərə / dəmir qapı | → var |
| Mən → | hündür bina / iri pəncərə / dəmir qapı | → qarşısında durmuşam |
| Sən → | hündür bina / iri pəncərə / dəmir qapı | → yanına yaxınlaşırsan |
| O → | hündür bina / iri pəncərə / dəmir qapı | → baxır |
| Biz → | hündür bina / iri pəncərə / dəmir qapı | → yanında durmuşuq |
| Siz → | hündür bina / iri pəncərə / dəmir qapı | → üstündə elan asmışdınız |

***Yadda saxla!*** *Topluluq bildirən isimlər qrammatik cəhətdən tək isimlərdir. Toplu isimlər də cəm şəkilçisi qəbul edə bilər. İstisna olaraq camaat, əhali sözləri cəm şəkilçisi qəbul etmir.*

***Tapşırıq 135.*** *Xalq, tayfa, ordu, sürü, ilxı, qoşun* toplu isimlərini cümlədə işlədin.

*Nümunə:* Qoşun hücuma keçir.

***Qeyd:*** *Belə isimlər cümlədə mübtəda vəzifəsində işlənərkən cümlənin xəbəri cəm şəkilçisi qəbul etmir.*

## 2. Saylar. Miqdar və sıra sayları.

***Qeyd:*** *Əşyanın sırasını və ya miqdarını bildirən əsas nitq hissəsinə say deyilir. Neçə? neçənci? nə qədər? suallarından birinə cavab olur. Məs.: üç, üçüncü, beşdə iki*

***Tapşırıq 136.*** Verilmiş sadə saylardan istifadə etməklə 7 müxtəlif say birləşməsi düzəldin.

İki, yeddi, doqquz, min, yüz, altmış

*Nümunə:* İki min doqquz yüz altmış yeddi.

***Tapşırıq 137.*** Sual cümlələrinə cavab yazın.

1. Sən neçənci ildə, ayın neçəsində və harada doğulmusan, neçə yaşında məktəbə getmisən? 2. Neçənci ildə məktəbi bitirmisən, neçənci ildə universitetə qəbul olunmusan? 3. Neçənci ildə universiteti bitirmisən? Siz neçənci mərtəbədə dərs keçirsiniz? 4. Neçə nömrəli mənzildə yaşayırsan? 5. Neçənci mərtəbədə yaşayırsan? 6. Sənin və ailə üzvlərinin yaşı neçədir? 7. Metroda neçə stansiya var? 8. Bakıda neçə rayon var? 9. Neçə rayon işğaldan azad olunubdur?

***Qeyd:*** *Miqdar saylarının üç növü var: 1) Müəyyən miqdar sayları; 2) qeyri-müəyyən miqdar sayları; 3) kəsr sayları.*
*Müəyyən miqdar sayları neçə? nə qədər? sualına cavab verir. Dilimizdə 23 sadə miqdar sayı var. Məs.: bir, iki üç....*

***Tapşırıq 138.*** 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 20, 30, 40, 50, 60, 70, 80, 90, 100, 1000 rəqəmlərini sözlə ifadə edin.

***Qeyd:*** *Müəyyən miqdar sayları ilə isim arasında çox vaxt numerativ sözlər işlənir.*

***Tapşırıq 139.*** Aşağıdakı numerativ sözləri cümlədə işlədin.

Nəfər, göz, tikə, parça, dəstə, nüsxə, cild, qətrə, qəlib.

| | | |
|---|---|---|
| Baş | on baş öküz<br>yüz baş qoyun<br>iki baş keçi | satdım |
| Dənə və ya ədəd | bir ədəd dəftər<br>beş dənə qələm<br>altı ədəd kitab | aldım |
| Cüt və ya dəst | bir cüt corab<br>iki dəst kostyum<br>üç dəst çəngəl, qaşıq | aldım |

***Qeyd:*** *Qeyri - müəyyən miqdar sayları əşyanın dəqiq olmayan miqdarını bildirir v nə qədər? sualına cavab verir.*

***Qeyd:*** *Kəsr sayları tam və ya tamın müəyyən hissəsini bildirir və nə qədər? neçə hissə? suallarına cavab verir. Məs.: beşdə üç (5/3), iki tam onda beş (2, 5)*

***Qeyd:*** *Sıra sayları: Əşyanın sırasını bildirir, neçənci? sualına cavab verir, -ıncı*$^{4}$ *- şəkilçisi vasitəsilə düzəlir altıncı, yeddinci, qırxıncı. beşinci. doqquzuncu, üçüncü. İki və daha artıq sözdən ibarət olan sıra sayları ayrı yazılır: on birinci, əlli beşinci, yüz yetmiş ikinci və s.*

*Sıra sayları rəqəmlə yazılanda saydan sonra, şəkilçidən əvvəl defis (-) işarəsi yazılır. Rəqəmlə yazılmış sıra sayları ahəngə uyğun olaraq - cı -ci, - cu, - cü şəkilçilərindən birini qəbul edir. Məsələn, 6-cı, 1-ci, 10-cu, 3-cü.*

*Roma rəqəmləri dilimizdə ancaq sıra saylarını bildirir. Buna görə də həmin rəqəmlərdən sonra şəkilçi işlədilmir və defis qoyulmur. Məsələn, XX əsr, II kurs, V mərtəbə və s. Roma rəqəmləri 7 işarə ilə göstərilir: I, V, X, L, C,D, M; I-1-ci; V-5-ci; X-10-cu; L-50-ci; C-100-cü; D-500-cü; M-1000-ci; XL-40-cı; LX-60-cı.*

***Tapşırıq 140.*** Oxuyun, sıra saylarını rəqəmlə yazın.

Yüzüncü, doqquzuncu, iyirmi altıncı, qırx birinci, min doqquz yüz doxsan beşinci, on dördüncü, üç yüz altmış altıncı.

***Tapşırıq 141.*** Oxuyun, nöqtələrin yerinə uyğun gələn sıra saylarmı rəqəmlə yazın.

Mən ... ildə anadan olmuşam. ... ildə məktəbə, ... ildə universitetə qəbul olmuşam. İndi... kursda oxuyuram. Fakültəmiz ... mərtəbədə yerləşir. Həftənin ...

günü biz oxumuruq. Bu qız ... kursda oxuyur. Mən onu tez-tez ... mərtəbədə görürəm. O, tələbələr arasında keçirilən şahmat turnirində ... yeri tutub.

***Tapşırıq 142.*** Sözlə verilmiş sıra saylarını rəqəmlə yazın.

"Əsrin müqaviləsi" adlanan neft müqaviləsi min doqquz yüz doxsan dördüncü ildə imzalanmışdır.
1. Cəfər Cabbarlı min səkkiz yüz doxsan doqquzuncu ildə Xızıda doğulmuşdur.
2. Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi on ikinci əsrdə yaşamışdır.
3. Min doqquz yüz altmış birinci il aprelin on ikisində Yuri Qaqarin birinci dəfə kosmosa uçmuşdur.
4. İkinci dünya müharibəsi min doqquz yüz otuz doqquzuncu ildə başlamış, min doqquz yüz qırx beşinci ildə qurtarmışdır.

***Tapşırıq 143.*** Verilmiş sıra saylarmı sözlə yazın.

16-cı, 21-ci, 114-cü, 199-cu, 5-ci, 18-ci.

***Tapşırıq 144.*** Suallara cavab verin və yazın.

1. Sənin neçə qardaşın və bacın var?
2. Sizin neçə yaşınız var?
3. Eviniz neçənci mərtəbədə yerləşir?
4. Qardaşın (bacın) neçənci kursda oxuyur?
5. Ailəniz neçə nəfərdən ibarətdir?
6. Türkiyə (Rusiya, Amerika) səfirliyi harada yerləşir?
7. Sən neçənci otaqda oturursan?
8. Maaşın nə qədərdir?
9. Ofisinizin neçə işçisi var?
10. Mühasibat neçənci mərtəbədədir?

**Sinif işi. Həftənin günləri.**

| | | |
|---|---|---|
| Bazar ertəsi..... | Cümə axşamı...... | Bazar....... |
| Çərşənbə axşamı.... | Cümə...... | |
| Çərşənbə..... | Şənbə....... | |

## 3. Xüsusi və ümumi isimlər.

***Qeyd:*** *Əşyanın ümumi adını bildirən isimlərə ümumi isimlər deyilir. Məs.: adam, kitab, eynək, yuxu və s. Eynicinsli əşyaların birini digərindən fərqləndirmək üçün verilmiş adlara isə xüsusi isimlər deyilir. Məs.: Adil, Bayramlı, Bakı, "Ulduz" jurnalı, Mars, BDU və s.*

# Ev heyvanları

Xoruz
Cock • [kɒk]
Петух



Pişik
Cat • [kæt]
Кошка



Ördək balası
Duckling • [ˈdʌklɪŋ]
Утёнок



Dovşan
Rabbit • [ˈræbɪt]
Кролик



Qatır
Mule • [mju:l]
Мул



Küçük
Puppy • [ˈpʌpi]
Щенок



***Tapşırıq 145.*** Xüsusi isimlərə aid nümunələr yazın.

1) Qız adları.....
2) Oğlan adları....
3) Ölkə adları....
4) şəhər adları....
5) çay adları........
6) kitab adları....
7) göl adları....
8) dəniz adları.....
9) qəzet, kitab adlari....
10) idarə, təşkilat adlari....
11) dağ adları........

***Tapşırıq 146.*** Mətni oxuyun, isimlərə sual verin. Xüsusi isimlərin altından xətt çəkin.

1. Araz çayı dərin dərələrdən, geniş düzlərdən keçərək Azərbaycan torpağına çatır burada Kür çayına qovuşaraq Xəzər dənizinə tökülür. 2. Bakıda ilk teatr binasını Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə tikdirib. Qarabağ torpağı Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski kimi musiqiçilər yetişdirib. 3.Bakı şəhəri Abşeron yarmadasında yerləşir.

**4. Arayış.**

Verilir Həsənli İlkin Malik oğluna ondan ötrü ki, o, həqiqətən, H.Cavid prospekti 128, mənzil 92-də yaşayır. Arayış Bakı Dövlət Universitetinə təqdim olunmaq üçün verilir.

52 saylı MİK-in sədri ____________

11 mart 2021-ci il

**5. Mətn.**

### Sumqayıt əfsanəsi

Səhra – ucsuz - bucaqsız, küləklər – şiddətli, günəş də amansız idi, lap tale kimi. Sahil boyu qumsallıqda iz qoya - qoya karvan gedirdi.

Dəniz çırpınırdı. Ağ ləpələr qəzəblə qayalara çırpılıb minlərlə büllur zərrələrə çevrilirdi.

Quru dilləri ilə çatlamış dodaqlarını yalayaraq gedən insanların susuzluq ümidlərini öldürür, ürəklərini əzablı ölüm qorxusu ilə doldururdu. İnsanlar geri dönmürdü. Bu qəddar, məğlubolunmaz səhra qantökən düşmən qoşunundan müdafiə üçün yeganə yer idi. Onların arasında bahadır cüssəli oğlan və incəbel, alagöz qız vardı. Gənclər yanaşı gedirdilər, nə susuzluq, nə də yorğunluq hiss etmirdilər. Onların ürəyi daha böyük yanğı ilə dolu idi, məhəbbət yanğısı ilə. Məhəbbət yolu sonsuz idi, ona görə də getdikləri yol onları qorxutmurdu.

İradəsi zəifləmiş insanlar yerə yıxılıb qumu dırnaqları ilə qazaraq su axtarmağa başladılar. Günəşin isitdiyi qum onların əlini yandıraraq hey tökülür, torpaqda dayaz çalalar yaradırdı.

Bunu görən gənc əlinin işarəsi ilə fəryad edən insanları dayandırdı: Su olacaq!. Qəhrəman oğlanın nəyə qadir olduğunu duyan yorğun üzlərdən dəhşət kölgəsi yox oldu. Gənc getdi. Sevgilisinə kədər və qərar dolu nəzər salaraq getdi. Qız inildədi: “Sum, qayıt!”, “Əlvida, Ceyran!” Dağlar da əks - səda ilə təkrar etdi: Ceyran!.

Gənc üfüqlərdə qərq oldu. İnsanlar nəfəslərini dərib gözləyirdilər. Görəsən, o, axar suyun yolunu tutmuş zalım qüvvələrin sehrini qıra biləcəkmi?! İnsanlar inamla gözləyirdi. Onlar öz dərdlərini belə unutmuşdular. Qız isə kənarda oturub kədər dolu gözləri ilə Sumun getdiyi uzaq yola baxırdı. Birdən qışqırtı eşidildi. Bu səsdən insanların tükü ürpəşdi. Bu səs zalım ruhun səsi idi, o, gəncin qılıncından yaralanmışdı. İnsanlar gözləyirdi. Gözlərdə ümid, ürəklərdə həyəcan gözləyirdi. Qəfil eşidilən göy gurultusunun səsi səhralığı bürüdü. Bu səsdən sanki hamının ürəyi dayandı. Cəsur oğlan çaya gedən suyun yolunu kəsmiş qayalığı dağıtmışdı... İnsanlar köpüklənən, səhraya tələsən suyu görüb sevindilər. Suya həsrət torpaq da insanlarla bahəm doyunca su içdi. Bir anlıq sevinc kədərə çevrildi. Özünü fəda etmiş gəncin yalnız əlləri qalmışdı. Qız öz sevgilisinin itkisinə dözmədi, özünü çaya atdı. Elə o vaxtdan bu yer Sumqayıt, qızın boğulduğu yer isə Ceyranbatan adlanır. Görünən dağ, zirvəsindəki beş barmağa oxşayan görünüşü ilə Beşbarmaq kimi tanınır.

**Mənbə:** Nağıllar və əfsanələr

## Mətnə aid suallar:

1. Əfsanədə sahilboyu səhra necə təsvir olunurdu?
2. İnsanların arasında bu susuzluğu hiss etməyən kimlər idi?
3. Susuzluqdan ümidləri kəsilmiş insanları kim suyun olacağına inandırdı?
4. Gənc qız Sumun bu qərarından sonra hansı hissləri keçirirdi?
5. Gənc oğlan suyun yolunu kəsmiş qayanı necə yardı və suyu görən insanlar hansı sevinci yaşadılar?
6. O vaxtdan bu yerlər necə adlanır?

## Dialoq.

| | | |
|---|---|---|
| -Siz harada işləyirsiniz? | –Где вы работаете? | – Where do you work? |
| -Nə qədər maaş alırsınız? | –Сколько вы заробатываете? | –How much do you pay? |
| -Mən fermada işləyirəm. | –Я работаю на ферме. | – I work on the farm. |
| -Mən kənd təsərrüfatı ilə məşğulam. | –Я занимаюсь сельским хозяйством. | –I am engegend in agriculture. |
| -Mənim həyat yoldaşım müəllimdir (mühəndis-dir, tələbədir). | –Моя жена учитель-ница (инженер, студент-ка). | – Mu husband is a teacher (engineer, stude-nt). |

## 11-ci dərs

1. Feilin indiki zamanı.
2. Keyfiyyət bildirən sifətlər.
3. Sənət - peşə adları.
4. Mətn. Dəniz kənarında qoca bir şəhər.
5. Dialoq.

### 1. Feilin indiki zamanı.

> ***Qeyd:*** *İndiki zaman, iş və hərəkətin danışılan zaman baş verdiyini bildirir -ir*$^{4}$ *şəkilçisi ilə düzəlir. Məs.: al+ır, gəl+ir, oxu+yur, gül+ür.*

***Tapşırıq 147.*** *İşləmək, görmək, almaq, qurmaq, bilmək, vermək, oxumaq, yazmaq, vurmaq* feillərini indiki zamanda şəxslər üzrə dəyişin.

*Nümunə:*

| Şəxs | Təkdə | Cəmdə |
|---|---|---|
| I | alıram | alırıq |
| II | alırsan | alırsınız |
| III | alır | alırlar |

***Tapşırıq 148.*** Nöqtələrin yerinə feilləri indiki zamanda yazın.

1. Mən dənizdə ... (çimmək).
2. Ədalət sazda ... (çalmaq).
3.Tələbələr ekskursiyaya ... (getmək).
4. Aşpaz dadlı xörək ... (bişirmək).
5.Əminə Yusif qızı maraqlı şeir... (söyləmək).
6. Ördək göldə ... (üzmək).
7. Xanımlar gözəl xalça ... (toxumaq).
8.Aytən məktub ... (yazmaq).
9. Çöldə yağış ... (yağmaq).

***Tapşırıq 149.*** *Yazmaq, yaşamaq, almaq, təmizləmək, yığmaq, qorumaq, çağırmaq-* feillərini feilin indiki zamanında işlədin.

*Nümunə:*

O yazır →
- məktub
- əsər, roman, şeir, hekayə və s.
- yazı
- ərizə, tərcümeyi-hal, izahat, hesabat və s.

O baxır →
- uşağa, qocaya
- evə, binaya
- həyətə, bağa, bostana, tarlaya
- kinoya, teatra, konsertə.

**Qeyd:** *Hərəkətin icra olunmamasını, feilin inkar formasını bildirən feillər vurğu qəbul etməyən* - ma; - *mə şəkilçisi ilə düzəlir. Məs.: oxu-ma, dinlə-mə.*

***Tapşırıq 150.*** Feilləri inkar formada işlədin, cümləni genişləndirin.

Mən baxıram — baxmıram. Mən şəkilə baxıram (baxmıram)
Sən baxırsan —
O baxır —
Biz baxırıq —
Siz baxırsınız —
Onlar baxırlar —
Mən içirəm —
Sən içirsən —
O içir —
Biz içirik —
Siz içirsiniz —
Onlar içirlər —
Mən sürürəm —
Sən sürürsən —
O sürür —
Biz sürürük —
Siz sürürsünüz —
Onlar sürürlər —

***Tapşırıq 151***. Cümlələrdəki feilləri inkar formada işlədin.

1. Bu gün külək əsir, dolu yağır.
2. Mən tələsirəm.
3. Tələbələr gecikir.
4. Bacım oxuyur.
5. Mən qəhvə içirəm.
6. Biz müharibə istəyirik.
7. Uşaqlar dənizdə çimir.
8. Xadimə otağı təmizləyir.

***Tapşırıq 152.*** Dəvət etmək, məşğul olmaq, dəyişmək fellərini indiki zamanda həm təsdiq, həm də inkar formada təsrif edib yazın.

***Tapşırıq 153.*** Nöqtələrin yerinə müvafiq zaman və şəxs sonluğunu təsdiq və ya inkar formada) artırın.

1. Ülvi, sən qəzet oxu.....?
   - Yox, mən qəzet oxu..., mən kitab oxu.....
2. Aygün, sən səhərlər çay iç.....?
   -Yox, səhərlər mən çay, qəhvə iç....., bir stəkan kök və ya portağal şirəsi iç..... .
3. Məkkəyə avtobusla get...?
   - Yox, avtobusla get....., təyyarə ilə get...
4. Universitetə öz maşınınla get....., avtobusla?
   - Yox, öz maşınımla get..., metro ilə get.....
5. Sona alma ye.....?
   - Yox, Sona alma ye....., o, nar ye.....

**2. Keyfiyyət bildirən sifətlər.**

***Tapşırıq 154.*** *Mərd, müdrik qoca, qoçaq, bərk, sadiq, mehriban, bacarıqlı*- keyfiyyət bildirən sifətləri cümlədə işlədin.

***Tapşırıq 155.*** Əlamət və keyfiyyət bildirən sözləri fərqləndirin.

uzun
mərd
qırmızı
oval
bərk
sadiq
mehriban
kiçik
armudu
bacarıqlı
igid




***Tapşırıq 156.*** İnsana aid müsbət keyfiyyətlərin adını sağ sütuna, mənfi keyfiyyətlərini sol sütuna yazın.



*Nümunə:*

| | |
|---|---|
| nəzakətli | kobud |
| əliaçıq | xəsis |
| mehriban | paxıl |
| etibarlı | tənbəl |
| tərbiyəli | tərbiyəsiz |

***Tapşırıq 157.*** Aşağıdakı sifətləri və isimləşmiş sifətləri öyrənin və cümlələrdə işlədin.

Cavan, qoca, yaxşı, dəli, ağıllı, isti, soyuq, pis, gənc.

*Nümunə:* Qoca (necə?) adam mənə məktub verdi.
Qocalara (kimə?) hörmət hər bir gəncin borcudur.

***Tapşırıq 158.*** Buraxılmış nöqtələrin yerinə aşağıdakı keyfiyyət bildirən sifətləri əlavə edin.

1. Əhməd ... oğlandır. 2. Vətən ... əsgərləri ilə fəxr edir. 3. ... oğul dayısına oxşar. 4. ... əsgərlər bu döyüşdə də qalib çıxdılar. 5. Aydan ... qızdır. 6. ... pəhləvan yarışda qalib gəldi. 7. O öz peşəsində ... insandır. 8. ... qızlar rəqs edirdilər.

*İstifadə olunan sözlər:* yaxşı, ağır çəkili, qoçaq, çalışqan, incəbelli, igid, tənbəl, sədaqətli.

***Tapşırıq 159.*** Cümlə qurun.

| | | |
|---|---|---|
| Mən istəyirəm<br>Mən alıram<br>Mən axtarıram | ağ<br>qırmızı<br>mavi<br>qara<br>sarı<br>göy<br>boz<br>çəhrayı<br>qəhvəyi<br>yaşıl<br>bənövşəyi<br>narıncı | ev<br>maşın<br>kürk<br>köynək<br>çanta<br>paltar<br>xəz (şuba)<br>şalvar |

***Rəng adları.*** *Rəng bildirən sözlər - sifətlər isimlərdən əvvəl işlənir, necə? hansı? suallarına cavab verir.*

Azərbaycan dilində sadə quruluşlu rəng adları bunlardır:

| | | |
|---|---|---|
| Ağ, bəyaz | белый | white |
| Qırmızı | красный | red |
| Qara | черный | black |
| Yaşıl | зеленый | green |
| Sarı | желтый | yellow |
| Mavi | голубой | navy-blue |
| Göy | синий | blue |

Qalan rənglər və rəng çalarları aşağıdakı yolla əmələ gəlir. Meyvə, gül, qiymətli daş və metallara, həmçinin digər sözlərə şəkilçi (-1, -i, -u, -ü) və (y) bitişdirici samiti artırmaqla düzəlir.

| | | |
|---|---|---|
| Boz | серый | grey |
| Zoğalı | бордовый | claret-coloured, vinous |
| Şabalıdı | темно коричневый | dark-brown |
| Narıncı | оранжевый | orange |
| Noxudu | цвет спелого гороха (светло желтый) | light-yellow |
| Yasəməni | сиреневый | lilac |
| Bənövşəyi | фиолетовый | violet |
| Qızılı | золотистый | golden |
| Gümüşü | серебристый | silvery |
| Lacivərdi | лазурный | azure |
| Çəhrayı | розовый | pink |
| Qəhvəyi | коричневый | brown |
| Sürməyi | тёмно-синий | dark-blue |
| Abı | цвет воды (светло голубой) | poll-blue, pale blue |

***Tapşırıq 160.*** Verilmiş isimlərə lazım bildiyiniz rəngləri artırın.

............. kostyum, ......... ayaqqabı, ..........otaq,..........papaq,..........əlcək, ..........don, ............. corab, ...............köynək, ...............qalstuk,...........jaket, .........kofta, yubka, şərf,.............. palto,..............şuba,........... gödəkcə,.............uzunboğaz çəkmə, ................şalvar,.................şlyapa.

Rəng bildirən sözlər ismin yerində işlənə bilir, bu vaxt hal, mənsubiyyət, kəmiyyət və xəbərlik şəkilçiləri qəbul edir.

## <u>3. Sənət - peşə adları.</u>

***Sadə sözlər:*** *müəllim, həkim, rəssam, aşpaz, müğənni, aktyor*



*Müəllim*



*Həkim*



*Aşpaz*



*Aktyor*



*Rəssam*



*Müğənni*

***Düzəltmə sözlər:*** a) – *çı*$^4$ *şəkilçisi ilə isimlərdən peşə mənalı sözlər düzəlir: yazıçı, futbolçu, üzgüçü, pambıqçı, traktorçu, balıqçı, ovçu, qayıqçı, dənizçi;* b) *feillərə - ıcı*$^4$ *- şəkilçisi artırmaqla – sürücü, sağıcı*

**4. Mətn.**

## Dəniz kənarında qoca bir şəhər

Canımız, gözümüzün nuru, güvəncimiz Bakı – şəhərlərin ən istəklisi, əzizi...Bakı bir yaşayış məskəni olaraq tarixdən əvvəlki zamanların yadigarıdır.



Bakının ən azı 2 min ildən çox yaşı var...

Dəniz yaxasında qoca bir şəhər... Köpüklü dalğalar altında bu şəhərin nə qədər sirri gizlənir görəsən? Bakını görüb bu qeyri-adi şəhərin gözəlliyinə heyrətlənməmək mümkünmü? Çox insanlar gördü Bakını. Bakı da çox insanları gördü. Hamısı heyranlıqla söz açdı, hamı sevdi Bakını ... Sevməmək mümkünmü? Qara kölgəsi Xəzərin ayna sularında bitən Qız qalası xalqımızın ləyaqəti adına ucalmış abidədir, saflıq və təmizlik heykəlidir.

Diş-diş qala divarları ...Bu keçilməz sədd Bakıya xoş niyyətlə gələn hər kəsə yüz yerindən yol verib, qapı açıb. Möhtəşəm qala qapıları qonağa ehtiram və məhəbbət nişanəsidir.

Hər daşında, hər tinində, döngəsində tarixin acı və şirin xatirələri var. Bakı Şərqin şəhəridir.

Bakı yer üzünün dörd bir guşəsinə səpələnmiş 55 milyonluq soydaşımızın ümid çırağıdır.

Bakı bu gün yaşıl meydanlar, geniş və işıqlı küçələr, parklar, universitetlər şəhəridir.

Bakı Vətən yolunda şəhid olmuş igidləri üçün öz qoynunda ən uca yer ayırmışdır. Şəhidlər Xiyabanı ziyarətgahdır. Bu əziz şəhər tarix boyu ağır, acı günlər də görüb, işğalçı qoşunlarla döyüşə girib və həmişə də azadlıq savaşından ləyaqətlə çıxıb, sınmayıb, varlığını qoruyub.

### Mətnə aid suallar:

1.Bakı bizim üçün nədir?
2.Bakının təqribi neçə yaşı var?
3.Bakı harada yerləşir?
4.Bakının gözəlliyi haqqında nə deyə bilərsən?
5.Bakının ləyaqət simvolu haradır?
6.Bakı qonaqları necə qarşılayır?
7.Bakı 55 milyonluq soydaşımız üçün nədir?
8.Bakının küçələri, parkları, universitetləri haqqında nə deyə bilərsən?
9.Vətən yolunda canından keçmiş şəhidlər Bakı üçün kimdir?
10.Şəhidlər Xiyabanı insanlar üçün nədir?

***Tapşırıq 161.*** Mətnin sualları əsasında ifadə yazı yazmaq.

**<u>5. Dialoq.</u>**

Dialoqu oxuyun, indiki zamanda verilən feilləri tapın. Sözü kök şəkilçiyə ayırın.

| | | |
|---|---|---|
| – Salam. | – Привет. | –Hi. |
| – Salam. | – Привет. | –Hi. |
| – Siz harada işləyirsiniz? | – В где работаете? | –Where do you work? |
| – Biz maşınqayırma zavodunda işləyirik. | – Мы работаем в машинострaительном заводе. | –We are working at engineering plant. |
| – Zavodda nə edirsiniz? | – Что вы делаете на забоде? | –What are you doing at work? |
| – Zavodda maşın hissələri düzəldirik. | – Готовим запчасти машин, на заводе. | –Puparing spari parts. |
| – Zavodda iş neçədə başlayır? | – Во сколько начинается работа на заводе? | –When does yore work starts? |
| – Saat səkkizdə. | – В восемь. | –At 8 am. |
| – İş saatı neçədə qurtarır? | – Во сколько закан-чивается работе? | –When does it end? |
| – İş saatı 6-da qurtarır. | – Работе закончивается в шесть. | at 6 pm. |

## 12-ci dərs

1. Feilin keçmiş zamanı. Şühudi keçmiş zaman.
2. Şəxs adları bildirən mürəkkəb sözlərin yazılışı.
3. Şəkil üzrə iş.
4. Mətn. Bülbül.
5. Dialoq.

### 1. Feilin keçmiş zamanı.

***Qeyd:*** *Feilin keçmiş zamanı iki yerə ayrılır, şühudi və nəqli keçmiş. Şühudi keçmiş zaman iş və hərəkətin keçmişdə icrasının nəticəsini bildirir, -dı⁴- şəkilçisi ilə düzəlir.*

***Tapşırıq 162.*** *Danışmaq, oturmaq, sevinmək, gəzmək, oxumaq, baxmaq* feillərini şühudi keçmiş zamanda şəxslər üzrə dəyişin.

*Nümunə:* Mən yazdım, Sən yazdın, O yazdı.
Biz yazdıq, Siz yazdınız, Onlar yazdılar

***Tapşırıq 163.*** Aşağıdakı cümlələrdəki feillərə fikir verin və düzgün tələffüz edin.
1. Saat səkkiz otuzda iş başladı. 2. Tələbələr universitetdə görüşdülər. 3. Zaur tərcümeyi-halını müdirə göndərdi. 4. Atam marketdən tərəvəz aldı. 5. Almaları ağacdan topladıq. 6. Akif olimpiadada qalib gəldi. 7. O, mükafat aldı. 8.Leyla özündən kiçiklərə qayğı göstərdi. 9.Uşaqlar Novruz bayramına hazırlaşdılar. 10.Elçin tar çaldı.

***Qeyd:*** *Keçmiş zamanın inkar forması - ma; - mə şəkilçisi vasitəsilə düzəlir. Məs.: almadım, getmədim və s.*

***Tapşırıq 164.*** Yuxarıdakı mətnə aid suallar qurub yazın.

**Şühudi keçmiş zaman**

| **Əvəzlik** | **Fel** | **Şəkilçi** | **Şəkilçi** | **Nümunə** |
|---|---|---|---|---|
| mən | al | -dı/di/du/dü | -m | aldım |
| sən | get | -di | -n | getdin |
| O | oxu | -du | — | oxudu |
| biz | gül | -dü | -q/k | güldük |
| siz | al | -dı | -mz/niz/nuz/nüz | aldınız |
| onlar | de | -di | -lar/lər | dedilər |

Dünən nə etdiniz? Sərgiyə getdim. Şahmat oynadım.

| | | | | |
|---|---|---|---|---|
| al | -ma/mə | -ı/di/du/dü | -m | almadım |
| et | -mə | -di | -n | getmədin |
| oxu | -ma | -dı | | oxumadı |
| gül | -mə | -di | -q/k | gülmədik |
| qal | -ma | -dı | -z/niz/nuz/nüz | qalmadınız |
| de | -mə | -di | -lar/lər | demədilər |

***Tapşırıq 165.*** *Baxdım, gözlədim, durdum, görüşdüm, içdim* feillərini inkar formasında işlədib cümlə qurun.

***Tapşırıq 166.*** Mətndə olan şühudi keçmiş zaman feillərini həm təsdiq, həm də inkarda işlədin.

Padşah Məlik Məmmədə bir qədər də qoşun verib, o biri oğlanları ilə birgə yola **saldı**. Az getdilər, çox getdilər, bir quyuya rast **gəldilər**. Bildilər ki, div bu quyuya giribdir. Oğlanlar istədilər quyunun ağzındakı daşı götürüb içəri girsinlər. Əvvəl böyük oğlan daşa **yapışdı**, nə qədər **çalışdı**, yerindən tərpədə **bilmədi**. Ortancıl oğlan çalışdı, daşa gücü çatmadı. Növbə Məlik Məmmədə **yetişdi**. O, daşdan **tutdu**, bir dəfə güc verib daşı **götürdü**, kənara **atdı**.

**Mənbə:** ("Məlik Məmməd" Azərbaycan xalq nağılından bir parça)

***Tapşırıq 167.*** Felləri keçmiş şühudi zamanda deyin.

Dünən nə etdin?
- oyanmaq
- duş qəbul etmək
- səhər yeməyini yemək
- kursa getmək
- dərs oxumaq
- dostlarla görüşmək
- nahar etmək
- idman zalına getmək
- voleybol oynamaq
- evə qayıtmaq
- axşam yeməyi hazırlamaq
- şam etmək
- televizora baxmaq
- yatmaq

***Tapşırıq 168.*** Cümlələri keçmiş zamanda yazın.

1. Siz məni düz başa düşmürsünüz.
2. O, hər şeyi tez unudur.
3. Sən niyə gec qayıdırsan?
4. Biz sizi gözləmirik.
5. O, mənim təklifimi qəbul etmir.
6. Onlar kitab oxumurlar.
7. Yağış yağmır.
8. Müəllim dərsi izah edir.
9. O yaxşı tərcümə edir.
10. Leyla musiqiyə qulaq asır.
11. Mən onu tanımıram.
12. Məmməd dərsə gecikir.
13. Konfrans başlayır.
14. Hamı onu tərifləyir.

## 2. Şəxs adları bildirən mürəkkəb sözlərin yazılışı.

***Qeyd:*** *Mürəkkəb sözlər, mürəkkəb şəxs adları müxtəlif formada yazılır:*
*1) Bitişik yazılır:*
*a) İnsan adları: iki sözün birləşməsindən əmələ gələnlər: Məs., Gülçöhrə, Elxan, Qızqayıt, Güloğlan, Elşən.*
*b) Əgər söz şah,* ***sultan, ağa, bəyim, xan, mirzə Hacı, seyid, xanım****, bəy və s.* ***ləqəb****, titul bildirmirsə bitişik yazılır. Məs., Həsənağa, Ağəli, Ağabacı, Hacıməmməd, Xanhüseyn, Şahsənəm.*
*2) Ayrı yazılan mürəkkəb adlar: əgər bitişik yazılmırlarsa onda titul, ləqəb bildirir. Məs., Mirzə Cəlil, Şah İsmayıl, Abbasqulu ağa, Hacı Əhməd.*

***Tapşırıq 169.*** Aşağıdakı verilmiş mürəkkəb adları ayırın, sadə isimlərlə mənalarını izah edib yazın.

Gülbadam, Əliqulu, Balakişi, Baloğlan, Xoşqədəm, Gülbacı, Balaxanım
*Nümunə*: Gülbadam – gül, badam

***Tapşırıq 170***. Mürəkkəb şəxs adlarını cümlədə işlədin.

Şahsənəm, Balabəy, Xanmurad, Vəlixan, Mirbaba, Hüseynağa, Mirqasım, Əlisoltan

***Tapşırıq 171.*** Aşağıda verilən mürəkkəb şəxs adlarının bitişik yazılmamaq şərtini izah edib cümlədə işlədin.

Seyid Əzim, Nadir Şah, Sultan Mahmud, Fətəli xan, Heyran xanım, Mirzə Fətəli, Hacı Qara, Nəsrullah, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli

### *İşlək ifadələr*

1.Hesabı gətirin.
2.Kassaya ödəyin.
3.Pulun qalığını götürün.
4.Nə qədər ödəyəcəyəm?

***Tapşırıq 172.*** Menyuya baxaraq, sifariş verin.

| | | | |
|---|---|---|---|
| | | ***MENYU*** | |
| Tərəvəz şorbası | 2,00 AZN | ***ŞORBALAR*** | |
| Əriştə | 3,00 AZN | Düşbərə | 3,00 AZ |
| Göbələk şorbası | 3,00 AZN | Toyuq şorbası | 3,00 AZN |
| ***SALATLAR*** | | | |
| Paytaxt salatı | 3,00 AZN | Çoban salatı | 3,00 AZN |
| Göbələk salatı yağda | 3,00 AZN | Toyuq salatı yağda | 3,00 AZN |
| | | Tərəvəz salatı . | 4,00 AZN |
| QUTAB | | | |
| Ət, göyərti | 0,80 AZN | | |
| ***KABABLAR*** | | | |
| Quzu kababı | 5,00 AZN | Toyuq kababı | 4,00 AZN |
| Balıq kababı | 15,00 AZN | Lülə kabab | 5,00 AZN |
| Tərəvəz dolması | 5,00 AZN | Yarpaq dolması | 4,00 AZN |
| ***IÇKILƏR*** | | | |
| Mineral su | 0,50 AZN | Coca-cola | 1,00 AZN |
| Ayran | 0,50 AZN | Limonad | 2,00 AZN |
| Portağal şirəsi | 1,00 AZN | Alma şirəsi | 1,00 AZN |
| | | Nar şirəsi | 1,00 AZN |
| Paxlava | 1,00 AZN | ***DESERT*** | |
| | | Dondurma | 2,00 AZN |

***Tapşırıq 173.*** Dialoqları tamamlayın.

O. Alo. Salam.
M. ........................................................................
O. Necə pitsa istəyirsiniz? Necə olsun?
M
O. İçməyə nə istəyirsiniz?
M. ........................................................................
O. Başqa bir şey də istəyirsinizmi?
M. ........................................................................
O. 6 manat 50 qəpik. Ünvanınızı deyin, zəhmət olmasa.

M. ........................................................................
O. Oldu. Saat 1-də sifarişiniz orda olacaq.
M. ........................................................................
O. Nuş olsun.
O. .......................................................................
M. Mən sendviç sifariş vermək istəyirəm.
O. .......................................................................
M. 1 pendirli sendviç, 1 dənə də toyuq sendviçi.
O. .......................................................................
M. 2 dənə də kola qoyun, zəhmət olmasa.
O.......................................................................
M. Nə qədər ödəyəcəyəm?
O. ......................................................................
M. 28 May küçəsi, 56, 3-cü mərtəbə, otaq 22.
O. ......................................................................
M. Çalışın, yarım saat ərzində göndərin.
O. ......................................................................
M. Təşəkkürlər
O......................................................................

**3. Şəkil üzrə iş.Fyodor Reşetnikovun əsəri. Yenə də iki (tablosu).**



***Tapşırıq 174.*** Oxuyun.

A. Süfrəyə yaxın oturun, özünüzü evinizdəki kimi hiss edin.
B. Çox sağ olun.
A. Bu tortun dadına baxın, çox dadlıdır, meyvəli tortdur.
B. Mənə çox kiçik dilim verin.
A. Sizə yenə çay süzüm?

B. Zəhmət olmasa.
A. Buyurun. Nuş olsun.

***Tapşırıq 175.*** Suallara cavab verin.

1. Adətən, siz səhərlər nə yeyirsiniz?
2. Adətən, siz naharda nə yeyirsiniz?
3. Adətən, axşam yeməyində nə yeyirsiniz?
4. Daha çox hansı mətbəxi sevirsiniz?
5. Sizin sevimli yeməyiniz hansıdır?
6. Hansı qidalar sağlamlıq üçün faydalıdır, hansı qidalar sağlamlıq üçün zərərlidir?
7. Sağlam qida nədir?

***Tapşırıq 176.*** Suallara cavab verin.
1. Gündə nə qədər su içirsiniz?
2. Gündə neçə fincan qəhvə və ya çay içirsiniz?
3. Qəhvəni şəkərli xoşlayırsınız?
4. Ət yeməklərini sevirsiniz?
5. Tərəvəz yeməklərini sevirsiniz?
6. Hər gün tərəvəz yeyirsiniz?
7. Hər gün meyvə yeyirsiniz? Hansı meyvələri xoşlayırsınız?
8. Şokolad xoşlayırsınız?
9. Hər gün şirniyyat yeyirsiniz?

## 4. Mətn.

### Bülbül



Azərbaycanın məşhur xalq müğənnisi Murtuza Məşədi Rza oğlu Məmmədov 1897-ci ilin iyun ayında Şuşa şəhərində anadan olmuşdur. Onun uşaqlıqdan məharətlə Sarı bülbülləri təqlid etməsini görən həmyerliləri istetadlı gənc Murtuzaya Bülbül adı vermişdi.

Gənc yaşlarından məclislərdə çalıb-oxuyan Bülbül xanəndə kimi məşhurlaşmışdı. 1920-ci ildə Bakıda Azərbaycan Dövlət Konservatoriyası açıldı. Azərbaycan şöbəsinin ilk azərbaycanlı tələbəsi Bülbül Məmmədov idi. O, konservatoriyada həvəslə təhsil alırdı. Bülbül Azərbaycan milli musiqisinin bütün sahələrində fəaliyyət göstərirdi. Şərq konsertlərində, opera tamaşalarında öz gözəl səsi ilə hamını valeh edirdi.

Bülbül 1927-1931-ci illərdə öz ixtisasını artırmaq məqsədi ilə müğənnilər vətəni Italiyada təhsil almışdır. O, Italiyada Anselma, Delliponti və Rafael Qrani

kimi məşhur musiqi xadimlərindən dərs almış, vokal musiqi məktəbinin ən istedadlı şagirdlərindən biri olmuşdur.

1937-ci ildə U.Hacıbəyovun «Koroğlu» operası tamaşaya qoyuldu. Bu əsər musiqi mədəniyyəti tarixində böyük hadisə idi. Baş rolun ifaçısı Bülbül idi.
Bülbül yalnız öz vokal sənəti ilə məşhur deyildi. O, görkəmli müəllim milli musiqini dərindən bilən alim idi. Bülbül uzun illər boyu Azərbaycan Dövlət Konservatoriyasının professoru olmuş, bir çox istedadlı müğənnilər yetişdirmişdir.

Azərbaycan xalqının iftixarı olan Bülbül 1961-ci ildə vəfat etmişdir.

**Mənbə:** Femina. Azərbaycan xəbər portalı, 22.06.2016

**5. Dialoq.**

| | | |
|---|---|---|
| **O.** Xoş gəlmisiniz. Nə sifariş edəcəksiniz? | **О.** Добро пожаловать. Что вы будете заказывать? | Welcome. What will you order? |
| **M.** Bizə bir toyuq salatı, bir tərəvəz salatı, bir də balıq gətirin. | **К.** Нам салат из курицы, овощной салат, а также жаренную рыбу. | We would like chicken salad, vegetable salad and also fish. |
| **O.** Oldu, bəs içməyə? | **О.** А что будете пить? | Okay, what about drinks? |
| **M.** Bir şüşə limonad, bir şüşə ananas şirəsi, zəhmət olmasa. Amma çox soyuq olmasın. | **К.** Одна бутылка лимонада, ананасовый сок пожалуйста принесите. | A bottle of lemonade, a bottle of pineapple juice, please. But not cold. |
| **O.** Oldu. Başqa bir şey olacaqmı? | **О.** Будет ли что-то еще? | Okay, what else? |
| **M.** Hələlik bunları gətirin. | **К.** Пока принесите их. | Nothing for now. |
| **O.** Oldu. | **О.** Хорошо. | Okay |
| **M.** Təşəkkürlər. | **К.** Спасибо. | Thank you. |
| **O.** Buyurun. | **О.** Пажалуста | Thanks. |
| **M.** Biz desert istəyirik. Hansı deserti təklif edirsiniz? | **К.** Мы хотим десерт. Какой десерт вы нам предлагаете. | We want something for desert. What do you recommend? |

| | | |
|---|---|---|
| **O.** Bizim bütün desertlərimiz çox dadlı olur. Paxlava çox dadlı olur. | **О.** У нас все десерты очень вкусные. Пахлава бывает очень вкусной. | Pachlava is very delicious. |
| **M.** Bilirik. Xoşumuza gəlir. Adətən, paxlava yeyirik. Amma indi başqa desertin dadına baxmaq istəyirik. | **К.** Знаем. Нам нравится. Обычно мы едим пахлаву. Но сегодня мы хотим попробовать другой десерт. | Yeah, we know. We like if, but now we want something different. |
| **O.** Onda mən sizə şokoladlı pirojna təklif edirəm. Çox gözəldir. | **О.** Тогда я предлагая вам шоколадные пирожное. | Then I recommend you chocolate desert. |
| **M.** Yaxşı, sizə inanırıq, həmin pirojnadan iki dənə gətirin. Çay da. | **К.** Хорошо, мы верим вам, принесите два этих пирога также чай. | Okay, we believe you, bring us two of it, and tea. |
| **O.** Təşəkkürlər. Əminəm ki, bunu bəyənəcəksiniz. | **О.** Спасибо. Уверен вам это понравится. | Thank you, you will like it. |
| **M.** Təşəkkürlər. | **К.** Спасибо. | Thank you. |

**13-cü dərs**

1. Feilin nəqli keçmiş zamanı.
2. İmla.
3. Feilin əmr şəkli.
4. Mətn. Şəki Xan Sarayı.
5. Dialoq.

**1. Feilin nəqli keçmiş zamanı.**

| **Əvəzlik** | **Feil** | **Şəkilçi** | **Şəkilçi** | **Nümunə** |
|---|---|---|---|---|
| mən | yaz | -mış/miş/muş/müş | -am\əm | yazmışam |
| sən | get | -miş | -san/sən | getmişsən |
| o | oxu | -muş | -dır/dir/dur/dür | oxumuşdur |
| biz | gül | -müş | -ıq/ik/uq/ük | gülmüşük |
| siz | gəl | -miş | -smız/siniz/sunuz/sünüz | gəlmisiniz |
| onlar | bax | -mış | -lar/lər | baxmışlar |

| | | | | |
|---|---|---|---|---|
| yaz | -ma/mə | -mış/miş | -am/əm | yazmamışam |
| gəl | -mə | -miş | -san/sən | gəlməmisən |
| oxu | -ma | -mış | -dır/dir | oxumamışdır |
| gül | -mə | -miş | -ıq/ik | gülməmişik |
| get | -mə | -miş | -sınız/siniz | getməmisiniz |
| bax | -ma | -mış | -lar/lər | baxmamışlar |

| **Əvəzlik** | **Fel** | **Şəkilçi** | **Şəkilçi** | **Nümunə** |
|---|---|---|---|---|
| sən | yaz | -ıb/ib/ub/üb | -san/sən | yazıbsan |
| sən | gəl | -ib | -sən | gəlibsən |
| siz | yaz | -ıb/ib/ub/üb | -sınız/siniz/sunuz/sünüz | yazıbsınız |
| siz | gəl | -ib | -siniz | gəlibsiniz |
| o | gəl | -ıb/ib/ub/üb | -dır/dir/dur/dür | gəlib(dir) |
| o | yaz | -ıb | -dır | yazıb(dır) |
| onlar | get | -ıb/ib/ub\üb | -lar/lər | gediblər |
| onlar | yaz | -ıb | -lar | yazıblar |

| | | | | |
|---|---|---|---|---|
| yaz | -ma/mə | -(y)ıb/ib | -san | yazmayıbsan |
| gəl | -mə | ¯(y)ib | -sən | gəlməyibsən |
| oxu | -ma | -(y)ib/ib | -sınız/sifiiz | oxumayıbsınız |
| gəl | -mə | -(y)ib | -siniz | gəlməyibsiniz |
| yaz | -ma | -(y) ıb | -dır/dir | yazmayıb(dır) |
| gəl | -mə | -(y) ib | -dir | gəlməyib(dir) |
| bax | -ma | -(y) | -lar/lər | baxmayıblar |
| gör | -mə | -(yj) ib | -lər | görməyiblər |

***Tapşırıq 177.*** Nəqli keçmiş zaman şəkilçilərini əlavə edib, yazın.

1. Mən kitabı hələ oxu................ .
2. Biz heç vaxt bu muzeylərdə ol............. .
3. Mən üç sifariş al............. .(+)
4. O, heç vaxt öz xalasını gör .................... .
5. Biz iki saat bundan əvvəl görüş.................... .
6. Mən bütün sənədləri artıq gətir.................... .
7. Onlar bu qeydləri başa düş.................. .(+)
8. Sən bu gün səhər yeməyini ye?...................... . (+)
9. Mənə elə gəlir ki, o, dərsi başa düş........................... (-)
10. Biz bu kitabları heç vaxt oxu.......................... .
11. Mən ölkənin 2 böyük şəhərində ol........................... (+)
12. O, mənə hər şeyi de........................... (-)
13. Keçən həftədən sonra mən onu gör.....................(-)
14. Ləman mənə dedi ki, sən dostunla barış .......................(+)
15. O, dünən gedib , hələ qayıt.................................
16. Vaxt keçir, amma hələ siz hazırlaş............................
17. Uşaq bu gün heç nə ye..................................
18. Biz hələ onlarla tanış ol
19. Siz əvvəllər burda ol ...........................? (+)
20. O, bizdən küs.............................(+)
21. Siz nə vaxt qayıt .........................?
22. Siz yəqin ki, artıq onu gör........................
23. Siz bunları çoxdan unut..............................
24. Mən bu kitabı 3 il əvvəl oxu............................
25. Siz artıq işinizi qurtar ............................?
26. Biz əvvəllər bu küçədə yaşa................................(-)
27. Sən ondan niyə küs..................................... ?
28. Sənin gözlərin qızar , ...............ağla ....................?
29. Sən bu kinoya bax........................? (-)
30. O nə vaxt nahar et.......................... ?
31. Onun ailəsi bir il bundan əvvəl bu şəhərə köç......................
32. Termometri Qalileo 1607-ci ildə hazırla ...............................
33. Lupanı 1250-ci ildə ingiltərəli Beykon icad et....................
34. Qayçını Da Vinçi ixtira et................................
35. İlk analoq kompyuteri 1931-ci ildə Vannevar Buş yarat........................
36. Saxara səhrasına ilk və son dəfə qar 18 Fevral 1979-cu ildə yağ........................
37. İlk kino 1830-cu illərdə Avropada çəkil..............................
38. Səadət sarayının binası fransız qotik üslubunda inşa edil ..........., ancaq daxili interyerində isə 3 müxtəlif üslubdan istifadə edil................ klassik, qotik və rokoko.
39. Ölkənin müxtəlif vilayətlərində neftin qiyməti 70 sentdən 90 sentə yüksəl........
40. İlk dəfə küçədə işıqforu 1868-ci ildə Londonda ingilis mühəndisi

Nayt fikirləş................................
41. Bütün tarix boyu Nil çayı iki dəfə - IX və XI əsrlərdə don...................
42. İlk eynək dükanı isə 1783-cü ildə Filadelfıyada açıl..........................
43. İlk metal pullar e. ə. 8-ci əsrdə Midiyada və Liviyada hazırlan......... .
44. Təyyarədən paraşütlə ilk dəfə 1912-ci ildə ABŞ təyyarəçisi Berri uğurla tullan.....................
45. Ən uzun müddət yuxusuz qalma rekordu 1965-ci ildə R. Qardner qır...... və o, 11gün yuxusuz qal................ .
46. Oskar mükafatının ən gənc ulduzu 1934-cu ildə 6 yaşlı Şirli Tempil ol.......... .

***Tapşırıq 178.*** Suallara cavab verin.

a)
1. Axırıncı dəfə nə vaxt konsertə/kinoteatra getmisən?
2. Axırıncı dəfə nə vaxt kitab oxumusan?
3. Axırıncı dəfə nə vaxt DVD almısan?
4. Axırıncı dəfə hansı kitabı oxumusan?
5. Axırıncı dəfə hansı filmə baxmısan?

b)
1. Bu gün neçə adama zəng etmisən?
2. Sonuncu dəfə hansı xarici ölkədə olmusan?
3. Dünən kimdən e-mail almısan?
4. Sonuncu dəfə kimə e-mail göndərmisən?
5. Sonuncu dəfə hansı ölkədə olmusan?
6. Bu gün sənə neçə adam zəng edib?
7. Sonuncu dəfə hansı mahnıya qulaq asmısan?

***Qeyd:*** *Nəqli keçmiş zaman iş və hərəkətin keçmişdəki icrasının nəticəsini, bildirir -mış$^4$ şəkilçisi ilə düzəlir. Məs., al+mış+am, al+mış+dır və s. Həmçinin II və III şəxsdə - ıb$^4$ şəkilçisi ilə düzəlir: al+ıb+san, al+ıb+lar. Nə etmişdir? sualına cavab verir.*

***Tapşırıq 179.***Cümlələrin sonuna nəqli keçmiş zaman feillərin şəkilçilərini artırın.

1. Səməd Vurğunun "Vaqif" dramı Molla Pənah Vaqifə həsr olun ...2. Bacım əvvəllər məktəbdə işlə ... 3. Bağçada çiçəklər aç ... 4. Əhəd müəllim Böyük Vətən müharibəsində iştirak et ... 5. Mən bu gün maraqlı tamaşaya bax ... 6. Səttar Bəhlulzadə öz peyzajlarının çoxunu Abşeronda çək ... 7. Dahi Azərbaycan şairi Füzuli XVI əsrdə yaşa ... 8. Gülnaz Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitir ... .9. Bəsti xala gözəl xalça toxu ... .10. Mən kinoteatrda "Xoca" filminə tamaşa et ... .

***Tapşırıq 180.*** Verilən suallara cavab verin.

*Nümunə:* – Sən dünən axşam nə etmisən?
– Dünən kitab oxumuşam.

1.Sən dünən axşam nə etmisən? 2. Siz harada dincəlmisiniz? 3. Ananız hansı xəstəxanada yatıb? 4. Siz dünən bizə neçədə gəlmisiniz? 5. Axırıncı dəfə hansı kitabı oxuyubsunuz? 6. Sən neçənci sırada oturubsan?7.Dünənki xəbəri eşitmişsiniz? 8.Kamran necə çıxış etmişdir? 9.İclasımız neçədə başlamışdır? 10. Sən neçə kilo alma alıbsan?

***Tapşırıq 181.*** *Danışır, əsir, gülür, qaçır, yaşayır, saxlayır* feillərini nəqli keçmiş zamanda şəxslər üzrə dəyişin.

***Tapşırıq 182.*** Aşağıdakı cümlələrdəki nəqli keçmiş zamanda verilmiş feillərə diqqət edin.

1. Biz keçən həftə hara ekskursiyaya getmişdik?
   Biz keçən həftə Qubaya ekskursiyaya getmişdik.
2. On birincilər bu il imtahanı necə veriblər?
   On birincilər bu il imtahanları yüksək səviyyədə veriblər.
3. Universitetin həyətində necə bağ salınmışdır?
   Universitetin həyətində gözəl bağ salınmışdır.
4. Rəhim haradan qayıtmışdır?
   Rəhim məktəbdən qayıtmışdır.
5. Qumru, Sona, İradə hara çimməyə gediblər?
   Qumru, Sona, İradə dənizə çimməyə gediblər.

## 2. İmla.

### Qəzetlər

Qəzetlərin birinci səhifələrində, əsasən, siyasi xəbərlər olur. Bunlar həm də günün ən vacib xəbərləridir. Bəzi insanlar daha çox idman xəbərləri ilə maraqlanırlar. İdman xəbərləri isə, adətən, qəzetlərin son səhifələrində olur. Qəzetin iç səhifələrində iqtisadi, mədəni və s. xəbərlər olur. Qadınların çoxu isə dəb və maqazin xəbərləri ilə maraqlanırlar. Dünyanın müxtəlif ölkələrində hər gün yüzlərlə qəzet nəşr olunur. Qəzetlər, adətən, səhərlər çıxır. Qəzetlərin qiymətləri, demək olar ki, hər yerdə eynidir.

## 3. Feilin əmr şəkli.

| Əvəzlik | Fel | Şəkilçi | Nümunə |
|---|---|---|---|
| mən | yaz | -ım/im/um/üm | Mən yazım. |
| sən | get | | Sən get. |
| O | oxu | -sın/sin/sun/sün | O oxusun. |
| Biz | get | -aq/ək | Biz gedək. |
| Siz | gəl | - (y) ın/in/un/ün | Siz gəlin. |

| | | | |
|---|---|---|---|
| Onlar | de | -sın/sin/sun/sün+ lar/lər | Onlar desinlər. |

| Əvəzlik | Feil | Şəkilçi | Şəkilçi | Nümunə |
|---|---|---|---|---|
| mən | get | -ma/mə | -yım/yim | Mən getməyim. |
| sən | yaz | -ma | | Sən yazma. |
| o | ver | -mə | -sin | O verməsin. |
| biz | get | -mə | -yaq/yək | Biz getməyək. |
| siz | bax | -ma | -yın | Siz baxmayın. |
| onlar | de | -mə | -sinlər | Onlar deməsinlər. |

***İşlək ifadələr***

Kitablarınızı açın.
Mənə diqqətlə qulaq asın.
Bu tapşırıqları yazın.
Diqqətlə baxın. Diqqətli olun.
Suallara cavab verin.
Əyləşin.
Təkrar edin.

***Tapşırıq 183.*** Əmr formasında olan fellər əlavə edərək, cümlələri tamamlayın

**SİZ**

1. Sağa.......................................................................
2. İrəli.......................................................................
3. İkinci mərtəbəyə....................................................
4. Avtobusa................................................................
5. Aşağı......................................................................
6. Bu kresloda.............................................................
7. İsığı........................................................................
8. Binanın qarşısında...................................................
9. Telefona..................................................................
10. Qapını....................................................................
11. Yuxarı...................................................................

***Tapşırıq 184.*** Əmr şəklində olan fellər əlavə edib, tamamlayın.

**SƏN**

1. Dərsə.....................................................................
2. Kinoya...................................................................
3. Yeni sözləri............................................................
4. Beşinci səhifəni ......................................................
5. Adını mənə.............................................................
6. Yeni paltarını..........................................................

7. Məni.................................................................
8. Qabları masa üstünə..........................................
9. Xəritədə Qafqazı................................................
10. Bugünkü qəzetləri.............................................
11. Pəncərəni........................................................
12. Mənim suallarıma..............................................
13. O, yalan danışır, ona..........................................
14. Axşam mənə.....................................................

**4. Mətn.**

**Şəki Xan sarayı**

Azərbaycanın Şəki şəhərində yerləşən Şəki xanlarının keçmiş iqamətgahı divanxana adlandırılırdı. İndi bu muzey Yuxarı baş dövlət tarix-memarlıq qoruğunun tərkibinə daxil olan dünya əhəmiyyətli tarix və mədəniyyət abidəsidir. Şəki xan sarayı Məmmədhəsən xan tərəfindən tikilmişdir.

XVIII əsrdə fars üslubunda tikilmiş sarayın binası şəhərin yüksək şimal-şərq hissəsində, qapalı istehkam divarları ərazisində yerləşir.



Təxminən 30 metr uzunluqda olan binanın ümumi sahəsi təqribən 300 $m^{2}$-dir. İki mərtəbən ibarət olan saray 6 otaq, 4 dəhliz və 2 güzgülü eyvandan ibarətdir.

Sarayın fasadı ov və müharibə səhnələrini əks etdirən süjet rəsmləri, həmçinin həndəsi və bitki naxışları ilə rənglənib.

Sarayın çoxrəngli şüşə mozaikadan hazırlanmış nəhəng vitraj pəncərəsi var. Sarayın pəncərələri rəngli şüşə parçalarından yığılıb və açıq işlənmiş daş qəfəslərlə örtülüb.

Sarayın tikintisində mismar və yapışqanlardan istifadə edilməmişdi. Ağac və şüşə parçaları bir-birinə geyindirilmişdi.

Xalq yaşayış memarlığına xas olan xüsusiyyətləri özündə əks etdirən saray Qafqazda XVIII əsr saray memarlığının ən gözəl nümunələrindən hesab edilir.

Dünya şöhrətli türk şairi Nazim Hikmət saraya baxdıqdan sonra belə yazmışdır: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan sarayını göstərmək bəs edərdi".

**Mətnə aid suallar:**

1. Şəki Xan sarayı hansı siyahıya daxil edilib?
2. Xan sarayı əvvəllər necə adlandırılıb?
3. Binanın inşasına nə qədər pul xərclənib?
4. Sarayın memarı kim olub?
5. Şəki Xan sarayının fasadı necə tikilmişdir?

6. Hansı fiqurlardan istifadə olunub?
7. Saraya necə naxışlar vurulmuşdu?
8. Nazim Hikmət Şəki Xan sarayı haqqında hansı sözləri demişdi?

**5. Dialoq.**

| | | |
|---|---|---|
| Diana - Azər, şəhər mərkəzinə necə gedə bilərəm? | Диана - Азер, как я могу поехать в центр города? | - Diana - Azer, how can I go to the centre of the town? |
| Azər - Diana, sən ora av-tobusla gedə bilərsən. | Азер - Диана, ты мо-жешь поехать туда на автобусе. | Azer - Diana, you can go there by bus. |
| D. - Şəhər mərkəzinə buradan hansı avtobuslar gedir? Mən şəhəri görmək istəyirəm. | Д. - Какой автобус от-сюда едет в центр горо-да? Я хочу город тоже увидеть. | D. - Which bus goy there from here? I want to see the city from the bus too. |
| A. - Şəhər mərkəzinə buradan 96, 302, 5 nömrəli avtobuslarla gedə bilərsən. | А. - Ты можешь поехать в центр города на автобусах №96, 302 и 5. | A. - You can go to the city centre by buses N°5, 96 and 302. |
| D. - Avtobus dayanacağı haradadır? | Д. - А где автобусная остановка? | D. - But, where is the bus station? |
| A. - Bu küçə ilə düz get, sonra sol (sağ) tərəfə dön, görəcəksən. | А. - Иди прямо по этой улице, затем заверни налево (направо), там увидишь. | A. - Go ahead this street, then turn to the left (right) and you will see it. |
| D. - Azər, çox sağ ol. | Д. - Азер, спасибо большое. | D. - Azer, thank you very much. |
| A. - Buyur (Dəyməz). Istəsən, səni ötürə bilərəm. | А. – Пожалуйста (неза-что). Если хочешь, я мо-гу тебя проводить | A. - Not at all (You're welcome), I can acco-mpany you, if you want. |
| D. - Bu çox yaxşı olar. Həm də məni şəhərinizlə tanış edərsən. | Д. - Это будет очень хорошо. Ты также ознакомишь меня с городом. | D. - It would be great! You will acquaint me with your city too. |

## 14-cü dərs

1. Keçmiş zamanın inkar forması
2. Xəbərlik kateqoriyası keçmiş zamanda.
3. Dinləmə materialı.
4. Mətn. Küləklər.
5. Dialoq.

### 1. Keçmiş zamanın inkar forması.

***Qeyd:*** *İnkar feillər hərəkətin edilmədiyini bildirir. Feilin kökünə, yaxud başlanğıc formasına vurğu qəbul etməyən – ma$^{2}$ şəkilçisi artırmaqla yaranır. məs. danışmamışıq, etməmişik, oxutdurmayıblar hissəciyi ilə düzəlir.*

***Tapşırıq 185.*** *İşləmək, çəkmək, almaq, yaşamaq, baxma*q feillərini nəqli keçmiş zamanda həm təsdiq, həm də inkar formada cədvəldə şəxslər üzrə dəyişin.

| Şəxs | Təkdə | Cəmdə |
|---|---|---|
| I<br>II<br>III | durmuşam<br>durmuşsan<br>durmuşdur | durmuşuq<br>durmuşsunuz<br>durmuşlar |
| | İnkarda | |
| I<br>II<br>III | durmamışam<br>durmamışsan<br>durmamışdır | durmamışıq<br>durmamışsınız<br>durmamışlar |

***Tapşırıq 186.*** *Baxdım, gözlədim, durdum, görüşdüm, içdim* feillərini inkar formasında işlədib cümlə qurun.

***Tapşırıq 187.*** Mətndə olan şühudi keçmiş zaman feillərini həm təsdiq, həm də inkarda işlədin.

Padşah Məlik Məmmədə bir qədər də qoşun verib, o biri oğlanları ilə birgə yola saldı. Az getdilər, çox getdilər, bir quyuya rast gəldilər. Bildilər ki, div bu quyuya giribdir. Oğlanlar istədilər quyunun ağzındakı daşı götürüb içəri girsinlər. Əvvəl böyük oğlan daşa yapışdı, nə qədər çalışdı, yerindən tərpədə bilmədi. Ortancıl oğlan çalışdı, daşa gücü çatmadı.

Növbə Məlik Məmmədə yetişdi. O, daşdan tutdu, bir dəfə güc verib daşı götürdü, kənara atdı.

**Mənbə:** ("Məlik Məmməd" Azərbaycan xalq nağılından)

### 2. Xəbərlik kateqoriyası keçmiş zamanda.

| Əvəzlik | Adlar | İdi | Şəkilçi | Nümunə |
|---|---|---|---|---|
| mən | tələbə | idi | -m | Mən tələbə idim. |
| sən | xoşbəxt | idi | -n | Sən xoşbəxt idin. |
| o | birinci | idi | — | O, birinci idi. |
| Biz | burda | idi | -k | Biz burda idik. |
| Siz | razı | idi | -niz | Siz razı idiniz. |
| Onlar | tənbəl | idi | -lər | Onlar tənbəl idilər. |

| | | | | |
|---|---|---|---|---|
| yorğun | deyil | di | -m | Mən yorğun deyildim. |
| burda | deyil | di | -n | Sən burda deyildin. |
| çalışqan | deyil | di | — | O, çalışqan deyildi. |
| əsəbi | deyil | di | -k | Biz əsəbi deyildik. |
| mehriban | deyil | di | -niz | Siz mehriban deyildiniz. |
| evdə | deyil | di | -lər | Onlar evdə deyildilər. |

***Tapşırıq 188.*** **O**xuyun, mətnə aid suallar qurub yazın.

**Əcəmi Əbubəkr oğlu Naxçıvani**

Əcəmi orta əsr Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi olub. Əcəmi yaşadığı dövrün qabil ustad sənə karlarından sayılırdı. O, Naxçıvanda bir neçə bina inşa edib. Bunlardan ən məşhuru «Möminəxatun türbəsi» (1186), «Yusif ibn Küseyir türbəsi» (1162), «Qoşa minarəli baştağ» (1187) bu gün də insanı heyran edir.

Əcəminin yaratdığı «Möminəxatun türbəsi» XII əsrdə yaşamış Naxçıvan hökmdarı Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə xatunun xatirəsini əbədiləşdirmək üçün tikilmişdir.

Onun inşa etdiyi memarlıq abidələri öz kamilliyi ilə memarlıq sənətinin inkişafına təkan verib.

Əcəmi Naxçıvaninin adı Azərbaycan mədəniyyətinin yüksəliş dövründə (XII əsrdə) yaşayıb yaratmış böyük sənətkarlardan - Nizami, Xaqani, Fələki Şirvani, Mücirəddin Beyləqani və s. ilə bir sırada yad edilir.

***Tapşırıq 189.*** *İzlədim, çimdim, yatdım, sağollaşdım* feillərini inkar formasında işlədib cümlə qurun.

**3. Dinləmə materialı.**

**İmla.** Ə.Məmmədxanlı "Buz heykəl" əsərindən bir hissə
Mətndəki feillərin hansı zaman və şəxsə aid olduğunu müəyyən edin.

"Budur qarşıda iki qara kölgə vardır. Onlar qoşa qayın ağaclarıdır. Ana ağaclara söykənib dayanır. Artıq onda qüvvət qalmamışdır. Şaxta buzlu bir alov dili ilə onun üzünü yalayır. Ananın ürəyi qorxulu bir mahnı oxuyur. Uşaq

donacaqdır. O, bu şaxtaya davam gətirə bilməyəcəkdir. Lakin ana dərhal – yox, yox – deyə bu fikrə etiraz edir. O, düşmən əlindən qaçırtdığı körpəsini şaxtaya təslim etməyəcəkdir. Bütün dünya donsa da, bütün həyat buz bağlasa belə, o, ürəyini məşəl edib, körpəsini isidəcəkdir".

**Mənbə:** Ə.Məmmədxanlı, Seçilmiş əsərlər, "AVRASİYA PRESS", Bakı, 2005, s.80-83

***Tapırıq 190.*** Suallara cavab verin.

1. Sən keçən il qişda harda idin?
2. Onlar dünən günorta harda idilər?
3. Sən dünən səhər harda idin?
4. Sən iki gün əvvəl harda idin?
5. Siz dünən axşam haraya getmişdiniz?
6. Sən dünən saat 5-də harda idin?
7. Sən keçən payız harda idin?

***Tapşırıq 191***. "İdi" hissəciyini və xəbərlik şəkilçilərini əlavə edib, yazin.

1. Sən razı...................... (-)
2. Siz 3 gün əvvəl Bakida................(-)
3. Biz iki il bundan əvvəl qonşu.............(-)
4. Mən məktəbdə çalışqan şagird................(-)
5. Onlar tərcüməçi (-)...........,onlar rəssam.....
6. Onun babası ən varli adamlardan biri. .............(-)

***Tapşırıq 192.*** "idi"-nin təsdiq və ya inkarda lazım olduğunu müəyyənləşdirib, yazin.

1 .Dünən hava gözəl ...........
2.Onun əlindəki jurnal mənim..........
3. Dünən ayın neçəsi......?
4. Onların yanındakı qız dostum ........
5. Pəncərənin qarşısındakı müəllim kim………..?
6.Mən 1 həftə əvvəl teatrda.......
7. Siz dünən axşam harada ........ ?
8. Biz buna əmin ...........
9. Bu, onun fikri..........
10. Siz bizdən çox geridə...........
11. Mən 1 ay əvvəl belə xoşbəxt..... (-)
12. Onlar universitetdə............
13. Zalda heç kim yox .........
14. Masanın üstündə nə var...........?
15. O çox əsəbi……..
16. Biz olduqca narahat…..
17. Sizin ananız nədən narazı….?
18. O, həmişə mənim tərəfimdə…..
19. O, da ədalətli və haqlı………..
20. Sənin işin mənim işimdən daha yaxşı……
21. Bu, ən doğru fikir………..
22. İki gün əvvəl biz onlarda……..
23. Mən simpoziumda yox…….
24. Sən harada……
25. Biz keçən ay Antalyada……
26. O, mənim ən sevimli müəllimim………….

***Tapşırıq 193.*** "idi" hissəciyini inkarda yazın.

1. Biz keçən qış Qusarda.....
2. Siz 3 ay əvvəl belə kök .....
3. Sən dünən çox yorğun.....
4. Axşamkı xörək duzlu......
5. Bayaq bu qapı bağlı.........
6. Mən bir saat əvvəl tox ......
7. Keçən həftəki test asan.....
8. Qardaşım uşaqlıqda tənbəl.....

**3. Dinləmə materialı.**

**Şeiri əzbərləyin. Aşıq Ələsgər "Düşdü".**

"Çərşənbə günündə, çeşmə başında
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun keçdi sinəmdən,
Cadu qəmzələri canıma düşdü.

İşarət eylədim dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli-dildi,
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.

Ələsgərəm hər elmdən halıyam,
Gözəl, sən təbibsən, mən yaralıyam,
Dedi nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü".

**Mənbə:** A.Ələsgər. Əsərləri, "Şərq-Qərb", Bakı, 2004, s.44

***Tapşırıq194.*** İmla.

Amerika dünyaya riyaziyyatçılardan çox görkəmli ixtiraçı və eksperimentçi bəxş etmişdir. «Tipik» amerikalılardan biri də qeyri-adi istedada malik dahi fizik - Robert Vuddur. Robert Vud uzun və mənalı ömür sürmüşdür. O həmişə ürəyinə yatan işlə məşğul olmuşdur. Həyat ona gözəl qadın, yaxşı uşaqlar, vəfalı dostlar, istedadlı tələbələr bəxş etmişdir. O heç vaxt səhhətindən şikayət etməmiş, maddi çətinlik çəkməmişdir. Bütün həyatı boyu Roberti bir şey narahat etmişdir - hər şeylə maraqlanmaq. Bu narahatçılıq onu ən böyük mükafatla - ixtira ilə təmin etmişdir.

**4. Mətn.**

**Küləklər**

Azərbaycanın Xəzər sahilindəki ərazilərində Şimaldan əsən küləyə el arasında «xəzri» deyirlər. Xəzrisiz yay günlərində Abşeronda, xüsusilə Bakıda hava çox bürkülüdür. Xəzri əsəndə isə özü ilə sərinlik gətirir və havanın temperaturu aşağı düşür. Bəzən küləyin sürəti saniyədə 35-40 metrə çatır.

Cənub-Şərqdən əsən küləyə isə «gilavar» deyilir. Bu, isti küləkdir. Yay aylarında gilavar arzulanmazdır. Qışda isə o, Abşeronda mülayim hava şəraiti yaradır. Dağlıq rayonlarda ilin soyuq aylarında quru küləklər əsdikdə, güclü dağ-dərə küləkləri əmələ gəlir. İsti aylarda buna az təsadüf olunur.

***Tapşırıq 195.*** Mətnə dair suallar yazın və mətni danışın.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - İradə, sabah bazar günüdür, nə edəcəksən? | Ирада, завтра воскресенье что ты будешь делать | Irada, tomorrow it is Sunday, what are you going to do? |
| -Nadir, həmişəkindən gec duracağam, saat 10-da. | Надыр встану позже обычного, в 10 часов. | Nadir, I'll get up later usually, at 10. o'clock |
| - Əvvəlcə əl-üzümü yuyacağam və səhər yeməyini yeyəcəyəm. | Сперва умоюсь и позавтракаю. | |
| - Sən səhər yeməyini harada yeyəcəksən? | Где ты будешь завтракать? | Where will you have your breakfast? |
| - Bizim yataqxanada mətbəx var. | У нас в общежитии есть кухня. | At our hostel there's a kitchen. |
| - Qayğanaq bişirəcəyəm, çay dəmləyəcəyəm. | Я пожарю яичницу, заварю чай. | I'll bake eggs, make brew tea |
| Sonra nə edəcəksən? | Потом что ты будешь делать? | What will you be doing then? |
| - Bəlkə, sərgiyə gedək? | Может пойдем на выставку? | Maybe we'll go to an exibition? |
| O nə sərgidir? | Что это за выставка? | What kind of exibition? |

| | | |
|---|---|---|
| -Türk sərgisi. Orada yüngül sənaye malları göstərilir. | Турецкая выставка, там представлена продукция легкой промышленности. | A Turkish exibition, a production of light industry is presented there |
| -Yaxşı, saat on ikinin yarısında məni Dənizkənarı bulvarda gözlə | Хорошо, жди меня в половине двенадцатого на Приморском бульваре. | Ok, wait for me at half past 11 on the seaside bulevard Ward. |
| - Sabaha qədər. | До завтра. | See you. |

## 15-ci dərs

1. Feilin qəti gələcək zamanı
2. Feildən və isimdən düzələn sifətlər.
3. N.Xəzrinin "Baharlı yurdum" şeiri. "Azərbaycan" sözünün şaxələnməsi.
4. Mətn. Dədə Qorqud.
5. Dialoq.

### 1. Feilin qəti gələcək zamanı.

***Qeyd:*** *Feilin gələcək zamanı iki yerə bölünür: 1. Qəti gələcək zaman; 2) Qeyri-qəti gələcək zaman.*
*Qəti gələcək zaman – iş və hərəkətin gələcəkdə icra olunacağını qəti şəkildə bildirir : - acaq; - əcək şəkilçisi vasitəsilə düzəlir. Məs., alacağam, satacağam, əkəcəkdir. Nə olacaq? nə edəcək? sualına cavab olur.*

***Tapşırıq 196.*** *Üzmək, silmək, oturmaq, yazmaq* feillərini qəti gələcək zamanda şəxslərə görə dəyişin.

*Nümunə:*

| Şəxs | Təkdə | Cəmdə |
|---|---|---|
| I | gələcəyəm, oxuyacağam | gələcəyik, oxuyacağıq |
| II | gələcəksən, oxuyacaqsan | gələcəksiniz, oxuyacaqsınız |
| III | gələcək, oxuyacaq | gələcəklər, oxuyacaqlar |

**İnkarda göstərmək**

| Şəxs | Təkdə | Cəmdə |
|---|---|---|
| I | oxumayacağam, getməyəcəyəm | oxumayacağıq, getməyəcəyik |
| II | oxumayacaqsan, getməyəcəksən | oxumayacaqsınız, getməyəcəksiniz |
| III | oxumayacaq, getməyəcək | oxumayacaqlar, getməyəcəklər |

*Gələcək zaman feilləri I şəxsin tək və cəmində işlənilərkən -acaq şəkilçisinin sonundakı "q" səsi, "ğ" səsinə, -əcək şəkilçisinin sonundakı "k" samiti "y" samitinə keçir.*

***Tapşırıq 197.*** Nöqtələrin yerinə qəti gələcək zaman feillərini yazın.

1. Müğənni konsertdə gözəl mahnılar ... .
   Müğənni konsertdə nə edəcək?
2. Nənə nəvəsi üçün dadlı yemək ... .
   Nənə nəvəsi üçün nə edəcək?
3. İclasın qərarını Anar ... .
   Anar nə edəcək?
4. Günay dərsini evdə ... .
   Günay dərsini nə edəcək?
5. Aysel Turalla birgə birinci sinfə ... .
   Aysel Turalla birgə nə edəcək?
6. Siniflərin hamısı ...
   Siniflərin hamısı nə ediləcək?
7. Kamil onun sözlərinə ... .
   Kamil onun sözlərinə nə edəcək?
8. Şagirdlər ev tapşırıqlarını ... .
   Şagirdlər nə edəcəklər?
9. Bu xəbərdən ana çox ...
   Ana nə edəcək?

***Tapşırıq 198.*** Aşağıdakı felləri qəti gələcək zamanda həm təsdiq, həm də inkar formada şəxslər üzrə dəyişin.

Soruşmaq, cavab vermək, dincəlmək, qalmaq, gözləmək.

***Tapşırıq 199.*** Nöqtələrin yerinə qəti gələcək zaman və uyğun şəxs şəkilçiləri artırıb oxuyun.

1. a. Avqust ayında burada olacaqsan?
   b. Xeyr, avqust ayında burada ol,.........., amma iyul ayında burada ol................

2. a. Bu gün dəniz kənarına çıxacağıq?
   b. Xeyr, dəniz kənarına çıx,............, hava soyuq olduğu üçün evdə otur............

3. a. Bu yay Nabrana gedəcəksiniz?
   b. Bəli, get,............., amma çox qal..................

4. a. Həbibə xanım, çay  içəcəksinizmi?
   b. Yox, çay iç,................ qəhvə iç.....................

5. a. Artıq 2 saatdır gözləyirik, görəsən, yenə gözləyəcəyik?
   b. Xeyr, gözlə, ................həkim bir azdan burada ol....................

6. a. Fransızcanı bu il öyrənəcəksən?
   b. Yox bu il fransızca öyrən, ................, almanca öyrən....................

7. a. Cəmilə xanımla saat 5-də görüşəcəyik?
   b. Xeyr, 5-də görüş,.............. 4-də görüş.............

8. a. Bu gecə futbola baxacaqsan?
   b. Bəli, bax................., çünki bu çox maraqlı oyun ol..............

## 2. İsimdən düzələn sifətlər.

***Qeyd:*** *Bu növ düzəltmə sifətlər isimlərin sonuna leksik şəkilçi artırmaqla düzəlir. Məs.:-lı; -li;-lu;- lü şəkilçiləri ilə məs.: ağıllı, - sız*$^{4}$ *şəkilçisi ilə, məs.: günahsız; -cıl*$^{4}$ *şəkilçisi ilə, məs.: zarafatcıl; - dakı; kitab-dakı;- a;-bi sözönü şəkilçisi ilə a-normal, bi-savad, tarixi- i, ədəbi -i*

***Tapşırıq 200.*** *-lı,-li, -lu,- lü* şəkilçisi ilə *ürək, günəş, qəm, gövdə, şaxta, dalğa* isimlərindən sifət düzəldin və onları cümlədə işlədin.

*Nümunə:* Şaxtalı bir qış gecəsi idi.

***Tapşırıq 201.*** Aşağıdakı söz birləşmələrindəki isimlərə müvafiq şəkilçi artırıb cümlədə işlədin.

| | | | |
|---|---|---|---|
| ağıl ...<br>kamal ...<br>səliqə ... | adam | bağ ...<br>məktəb ...<br>bağça ... | uşaq |
| dad ...<br>duz ...<br>yağ ... | yemək | zarafat ...<br>kef ...<br>qohum ... | kişi |
| tarix ...<br>inqilab ...<br>hüquq ... | kitab | qar ...<br>şaxta ...<br>günəş ... | hava |

***Tapşırıq 202.*** Verilmiş isimləri şəkilçilərin köməyi ilə düzəltmə sifətlərə çevirib cümlədə işlədin.

Gümüş, qızıl, məktəb, kitab, ağıl, fərasət, bacarıq, günah, ölüm, yara, duz, su.

***Tapşırıq 203.*** Cümlələri köçürün, isimdən düzələn sifətlərin altından xətt çəkin.

1. Məktəbin bağçasındakı ağ, çəhrayı çiçəkli ağacların xüsusi gözəlliyi vardı. 2. Uşaqlar müəllimsiz içəri daxil olmadılar. 3. Nəcəf çox savadlı, ağıllı, bilikli oğlan idi. 4. Mən tarixi kitabları oxumağı sevirəm. 5. Valideynsiz qalan Qədir atalı, analı uşaqlardan seçilirdi. 6. Onun qızılı saçları, badamı gözləri var idi. 7.

Universitetdə bisavad tələbələrə yer yoxdur. 8. Ədilə xala dadsız, duzsuz yemək bişirmişdi. 9. Pənah dəhşətli döyüşdə yaralanmışdı. 10. Birdən bazardakı adamlar bir-birinə dəydilər.

***Tapşırıq 204.*** *-sız, -siz, -suz, -süz* şəkilçisi ilə isimlərdən sifət düzəldin və cümlədə işlədin.

***Tapşırıq 205.*** *-cıl,- cil,-cul,- cül* şəkilçisi ilə isimlərdən sifət düzəldin və cümlədə işlədin.

*Nümunə:* İsgəndər kefcil adam idi.

**<u>Feildən düzələn sifətlər.</u>** *–ıq$^4$ - ağan/əyən, -qan/- kən*

Qırıq boşqabı evdə saxlamazlar. Ağlağandır, ağlağan uşaq, satqınları cəzalandırdılar.

| | | |
|---|---|---|
| **ağan** | güləyən | ağlağan |
| **ıncı** | qorxunc | gülünc |
| **uq, ik** | buruq | kəsik |
| **ma** | burma | döymə |
| **ğın** | azğın | yorğun |
| **qın** | tutqun, kəskin | qaçqın |
| **kən, qan** | çalışqan | sürüşkən |
| **ar** | qaynar | açar |
| **acı** | kəsici | üzücü |

***Tapşırıq 206.*** Bu feilləri kök və şəkilçiyə ayırın.

Sürüşkən yol, küsəyən uşaq, güləyən qız, yorğun şagird, ağlağan körpə, qaçağan at

***Tapşırıq 207.*** Aşağıdakı söz birləşmələrinə aid cümlə qurun.

qorxaq ← | quş
ürkək ←
titrək ←

çalışqan ← | oğlan
dalaşqan ← | uşaq
döyüşkən ← | adam

dalğın ← | at
yorğun ← | baxış
solğun ← | insan

yatağan ← | körpə
ağlağan ←
güləyən ←

kəskin ← | adam
satqın ←
küskün ←

açıq ← | hava
tutqun ←

***Tapşırıq 208.*** Verilmiş feilləri şəkilçilərin köməyi ilə düzəltmə sifətlərə çevirib cümlədə işlədin.

gülmək, ağlamaq, yarmaq, azmaq, açmaq, qorxmaq, satmaq, küsmək, sürüşmək, dalmaq.

güləyən, ağlağan, yorğun, azğın, açıq, açır, qorxunc, satqın, küsgün, sürüşkən, dalğın.

***Tapşırıq 209.*** Verilmiş sifətləri cümlədə işlədin.

yorğun, satqın, güləyən, gülünc, qorxunc

***Tapşırıq 210 .*** *Küsəyən, çalışqan, açıq, uçuq, sürüşkən, ağlağan, güləyən, yandırıcı, üzücü* sifətlərini cümlələrdə işlədin.

## 3. N.Xəzrinin "Baharlı yurdum" şeiri.

***Tapşırıq 211.*** Hisslərinizi daha yaxşı anlatmaq üçün N.Xəzrinin "Baharlı yurdum" şeirini oxuyarkən səs tonunuzdan düzgün istifadə edin. "Azərbaycan" sözünün şaxələnməsi qrafik əsasında verilmişdir.

"Baharlı yurdum, Azərbaycan,
Çinarlı yurdum, Azərbaycan.
Ömrümün mənasısan, Azərbaycan!
Qardaşlıq dünyasısan, Azərbaycan!
Anamın anasısan, Azərbaycan!
Azərbaycan!
Ey əziz anam, Azərbaycan!
Sənə bağlıyam, Azərbaycan!
Qəlbimə, gəl, qulaq as, Azərbaycan!
Qanadındır Kür, Araz,
Azərbaycan!
Ey şanlı torpaq, Azərbaycan!
Gəl, qucaqlaşaq, Azərbaycan!
Sənsən eşqim, zəfərim, Azərbaycan!
Günəşli al səhərim,
Azərbaycan!"

**Mənbə:** Nəbi Xəzri. Seçilmiş əsərləri, 2-ci cild, Bakı, 1983, s.306




**4. Mətn.**

### Kitabi-Dədə Qorqud

Bu dastan Azərbaycan, eləcə də türk xalqlarının dastanıdır. Dastanın baş qəhrəmanı Qazan xandır. Dədə Qorqud dastanda elin ağsaqqalı, bilicisi kimi göstərilib. Dastanın yaranma tarixi dəqiq məlum deyil. Bəzi mənbələr dastanın islamdan əvvəlki dövrə aid olduğunu deyirlər. Bütün dünya xalqları bu dastana böyük maraq göstərir. Bakıda dastanın 1300 illik yubileyi YUNESKO xətti ilə qeyd edilmişdi.



Dastanın əlyazmaları Vatikan və Drezden kitabxanalarında saxlanır. Dastandakı hadisələr Azərbaycan və Türkiyə ərazisində baş vermişdir. Yazıçı Anar dastandan, oradakı boylardan istifadə edərək kinossenari yazmışdır. Onun əsasında eyniadlı film - «Dədə Qorqud» çəkilmişdir. Dastanın hər boyu gənclərdə vətənpərvərlik, vətənə, doğma yurda, anaya məhəbbət və qəhrəmanlıq hissləri oyadır.

**Mənbə:** Şifahi xalq ədəbiyyatından nümunə

***Tapşırıq 212.*** Mətnə sual tərtib edib, ifadə yazmaq.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| **İ.** Bu gün ayın neçəsidir? | Сегодня какое число месяца? | What's the date today? |
| **M.** Bu gün yanvarın səkkizidir. | Сегодня восьмого января. | Today is the $7^{th}$ of Yanuary. |
| **İ.** Bu gün hansı gündür? | Какой сегодня день? | What day is it today? |
| **M.** Bu gün cümədir. | Сегодня пятница. | Today is Friday. |

## 16-cı dərs

1. Feilin qeyri-qəti gələcək zamanı.
2. Qeyri –müəyyən miqdar sayı.
3. İnşa. Mənim arzum.
4. Mətn. Xəzər dənizi.
5. Dialoq.

### 1. Feilin qeyri-qəti gələcək zamanı.

***Qeyd:*** *Qeyri-qəti gələcək zaman iş və hərəkətin gələcəkdə icra olunacağını qeyri-qəti şəkildə bildirir: -ar; - ər şəkilçisi ilə düzəlir. Məs., gələrəm, oxuyaram, danışaram və nə edər? sualına cavab verir.*

***Tapşırıq 213.*** *Əzizlə, sev, poz, danış* feillərini qeyri- qəti gələcək zamanda şəxslər üzrə dəyişin.

***Təsdiq formasında***

*Nümunə:*

| Şəxs | Təkdə | Cəmdə |
|---|---|---|
| I | süpürərəm, oxuyaram | süpürərik, oxuyarıq |
| II | süpürərsən, oxuyarsan | süpürərsiniz, oxuyarsınız |
| III | süpürər, oxuyar | süpürərlər, oxuyarlar |

***İnkar formasında***

Qeyri-qəti gələcək zamanın inkarı fərqlidir. I şəxsdə iki sait yanaşı gələrsə saitlərdən biri düşür – mən yazmaram, biz yazmarıq. II və III şəxslərin təki və cəmində qeyri-qəti gələcək zaman şəkilçisindəki "r" samiti "z" samiti ilə əvəz olunur: sən olmazsan, siz olmazsınız, o olmaz, onlar olmazlar – şəklində olur.

***Tapşırıq 214.*** *Deyər, qaçar, gülər, vurar, dayanar, tapar, işləyər, tutar, tikər, saxlayar* qeyri-qəti gələcək zaman feillərini cümlədə işlədin və sual verin.

*Nümunə:* – O, son sözünü sabah sənə deyər.
– O, son sözünü sənə nə vaxt deyər?

***Tapşırıq 215.*** Maşın, iş, problem, pul, ev, restoran, dərs, istedad, fikir sözlərini nümunədə göstərildiyi kimi cümlələrdə işlədin.

*Nümunə:* a) – Sənin maşının var?
– Əlbəttə! Mənim həmişə maşınım olub, var və olacaq!
b) – Sənin maşının var?
– Yox, amma tezliklə olacaq//Yox, amma əvvəllər vardı.

***Tapşırıq 216.*** *Yaz, oxu, bax* feillərini qeyri-qəti gələcək zamanda *mən* və *biz* əvəzliklərinə aid xəbər kimi cümlədə işlədin.

***Tapşırıq 217.*** *Danış, söndür* feillərini bütün şəxslərdə feilin zamanları üzrə dəyişin.

***Tapşırıq 218.*** Feilləri qeyri-qəti gələcək zamanda işlədin.

Sabah hava yaxşı ol.....
Dəmiri isti-isti döy.............
Ac toyuq yuxusunda darı gör............
Nə ək.....sən, onu biç...... sən.
Dama-dama göl ol..........
Quyuya su tökməklə quyu sulu olm.........
Yada düş....... xatirələr.
Çox əyilmə, bas..... lar, çox dikəlmə, as..... lar.
Özü yıxılan ağlam......
Yıxılanı vurm...... lar.
İnsan həyata ağlaya-ağlaya gəl..., gülə-gülə ged...

***Tapşırıq 219.*** Qəti gələcək zaman şəkilçisini qeyri-qəti gələcək zaman şəkilçisi ilə əvəz edin.

Zakir sabah ərzaq dükanına gedəcək. Mən ona bəzi şeyləri almağı tapşıracağam. İki gündən sonra qızım Səbinənin ad günüdür. Ad gününə bizə çoxlu qonaqlar gələcək: Səbinənin nənəsi, babaları, dayısı, xalası, bibiləri, əmiləri, qonşumuz və iki rəfiqəsi bizə gələcək. Mən dadlı aş bişirəcəyəm. Bunun üçün Zakir dükandan düyü, ət, kərə yağı, şabalıd, soğan və zəfəran alacaq.

Aş yeməklərin şahıdır, masanın bəzəyidir. Azərbaycan mətbəxində aşın onlarla növü var.

***Tapşırıq 220.*** Cümlələrə uyğun gələn feil artırın. Feilləri əvvəl qəti, sonra isə qeyri-qəti gələcək zamanda işlədin.

Mən kitab.................
Nənəm bizə maraqlı nağıl.............
Sürücü maşını sürətlə..................
Anam dadlı aş..................
Professor qısa mühazirə...........
Sevil özünə təzə don.............
Sabah biz qonaq.................
Teatr saat yeddidə............
Rəssam yeni şəkil............
Sabah yağış yağ.........., külək əs...... .

***Tapşırıq 221.*** Suallara həm təsdiqdə, həm də inkarda cavab verin.

1. Sabah siz mənimlə operaya gedərsiniz?
Bəli,.......................................................
Xeyr.........................................................
2. Dünənki filmin məzmununu mənə danışarsınız?
Bəli,......................................................................
Xeyr...................................................................

3. Fatimə səni ad gününə dəvət edib?
Bəli,..............................................................
Xeyr...........................................................

4. Onlar bu mətni tərcümə edə biləcəklər?
Bəli.........................................................
Xeyr,..........................................................

5. Yeni sözləri mənə öyrədərsən?
Bəli,....................................................
Xeyr,...............................................

6. Onlar sabah buraya gələrlər?
Bəli,..........................................
Xeyr,.........................................

7. Siz mənimlə bir fincan çay içərsiniz?
Bəli,..................................................
Xeyr,..................................................

8. Dünən teatrda Mədinəni gördün?
Bəli,.............................................
Xeyr,............................................

9. Onlar avtobusa çatarlar?
Bəli,...........................................
Xeyr,...........................................

10. Vaqif sənə zəng vurmuşdur?
Bəli,.........................................
Xeyr,.......................................

**2. Qeyri –müəyyən miqdar sayı.**

*"Miqdar" anlayışı sayın leksik məzmununda olur. Neçə? Nə qədər? sayın*

*özünəməxsus sualıdır. Konkret miqdar bildirən saylara sinonim kimi hər iki sualı vermək olar. Məsələn: qrupumuzda 10 tələbə var (neçə tələbə? Nə qədər tələbə?).*

*Dilin lüğət tərkibinə daxil olub əşyanın miqdarını bildirən sözlər kəmiyyətcə azdır - cəmi 23 söz vardır; bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, iyirmi, otuz, qırx, əlli, altmış, yetmiş, səksən, doxsan, yüz, min, milyon, milyard,* trilyon.

*Bu sözlərin iyirmisi öz dilimizə məxsusdur. Üçü isə (milyon, milyard, trilyon) beynəlxalq sözlərdir.*

*a) Qeyri-müəyyən miqdar sayları: az, çox, xeyli, onlarla, yüzlərlə və s.*

*b) Kəsr saylan - 1/2; 3/5; 1,5 və s.*

*Müəyyən miqdar sayları əşyanın konkret miqdarını bildirir. Rus və ingilis dilindən fərqli olaraq, Azərbaycan dilində say qəbul etmiş isim cəm şəkilçisi ilə işlənmir. Məsələn: beş tələbə, on qələm və s.*

*Qeyri-müəyyən miqdar sayları əşyanın dəqiq olmayan miqdarmı bildirir: daha çox nə qədər? sualına cavab verir. Əsasən: az, çox, xeyli, bir qədər, bir neçə, bir az və s. leksik vahidlərlə ifadə olunur. Az, çox sözləri ədatlarla da işlənə bilir: ən az, ən çox, lap az, lap çox, daha az, daha çox və s.*

*Qeyri-müəyyən miqdar sayları bəzi hallarda cəmdə işlənən müəyyən miqdar saylarına -la, -lə, -ca, -cə şəkilçilərinin artırılması ilə də düzəlir. Məsələn: onlarla, onlarca, yüzlərlə, yüzlərcə və s.*

*Az sayından sonra gələn isim təkdə - az adam, çox sayından sonra gələn isim həm təkdə, həm də cəmdə işlənə bilər. Məsələn: çox uşaq, çox uşaqlar.*

*Kəsr sayları miqdar saylarından sintaktik yolla əmələ gəlir - da, -də şəkilçisi ilə işlənir, nə qədər? sualına cavab verir: 3/5 - beşdə üç; 2,5 - iki tam onda beş.*

***Tapşırıq 222.*** Oxuyun, əvvəl müəyyən, sonra qeyri-müəyyən miqdar saylarını aid olduğu isimlərlə birgə yazın.

1. Bir əsr yüz ildir. Bir ildə on iki ay var. Bir ayda 30, ya da 31 gün var. Bir il 366 gündən ibarətdir. Bir gün 24 saatdır. Bir saat 60 dəqiqədən ibarətdir, bir dəqiqə 60 saniyədir. 2. Meydançada az oyunçu qalmışdı. 3. Ailəmiz 4 nəfərdən ibarətdir. 4. Orxanın 2 qardaşı, 3 bacısı var. 5. Keçinin 3 balası var idi: Şəngülüm, Şüngülüm, Məngülüm. Az danışmaq gümüşdur, danışmamaq qızıl.

***Tapşırıq 223.*** Cümlələrdəki qeyri-müəyyən sayları tapıb tərcümə edin.

1.«Titanik» gəmisində minlərlə sərnişin vardı.2.Akademik Y. Məmmədəliyevin 30 illik elmi fəaliyyəti xeyli əsərdə - 200-dən çox elmi əsərdə və 6 monoqrafiyada əks edilmişdir. 3. Meydanda yüzlərlə adam toplaşmışdı. 4. Bu, milyonların fıkridir. 5. Tarlada xeyli açılmış pambıq vardı.

***Tapşırıq 224.*** Suallara cavab verin.

1. Sən neçənci ildə, ayın neçəsində ailə həyatı qurmusan? 2. İlk övladın neçənci ildə və harada anadan olub? 3. O neçə yaşında və neçənci ildə məktəbə gedib? 4. Məktəbi bitirdikdən sonra neçənci ildə BDU-ya qəbul olub? 5. Neçənci kurs tələbəsidir? 6. Neçənci ildə BDU-nu bitirəcək? 7. BDU harada yerləşir? 8. BDU-da hansı fakültələr var?

***Tapşırıq 225.*** İmla. "Dünyada nə qədər azərbaycanlı var".

Keçmiş SSRİ-də iki yüz yetmiş altı milyon nəfər adam yaşayırdı. Onun yeddi milyona qədəri azərbaycanlı idi. Azərbaycanlıların on milyon nəfəri Azərbaycan Respublikasındadır. Xarici ölkələrdə də çoxlu azərbaycanlı vardır. Məsələn: İranda 45 milyon, Türkiyədə bir milyon beş yüz min, İraqda beş yüz min, Almaniyada yüz səksən min, Amerikada yüz əlli min, Fransada yetmiş min, İngiltərədə altmış min, Avstriyada on beş min, Hindistan və Pakistanda otuz min, Avstriya və Yaponiyada iki min beş yüz nəfər azərbaycanlı yaşayır. Beləliklə, bütün dünyada 60 milyondan çox azərbaycanlı yaşayır.

***Tapşırıq 226.*** Aşağıdakı cümlələrdə verilmiş qeyri-müəyyən sayların altından xətt çəkin.
1. Qəbul imtahanları üç-dörd gündən sonra başlamalıdır. 2. Onlarla uşaq olimpiyada da iştirak etdi. 3. Sabahkı iclasda beş-altı çıxış olacaq. 4. Bu gün dərsə çox uşaq gəlməmişdi.5.Sahədən az məhsul toplandı. 6. Burada vur-tut iki- üç günlük iş var. 7. Yüzlərlə göz ona baxırdı. 8. Son zəngə xeyli valideyn gəlmişdi.

***Tapşırıq 227.*** Kəsr saylarının oxunuşuna fikir verin.

1. Əhməd almanın üçdə bir (3/1) hissəsini qardaşına verdi. 2. O, kitabın ikidə bir (2/1) hissəsini oxumuşdu. 3. Güclü tufan məhsulun dörddə birini (4/1) məhv etdi. 4. Pambığın beşdə dörd (5/4)hissəsi birinci növdür. 5. Uşaqların üçdə biri (3/1) dərsə gəlibdir. 6. Fəhlələr illik planın yüzdə doxsan (100/90) faizini yerinə yetirdilər.

**3. İnşa. Mənim arzum.**

**4. Mətn.**

**Xəzər dənizi**

Respublikamız Şərqdən Xəzər dənizi ilə əhatə olunmuşdur. Okeanla əlaqəsi olmadığına görə Xəzər, əslində dünyanın ən böyük gölüdür. Ərazisi çox böyük olduğuna və dənizə aid bir çox xüsusiyyətlərinə görə onu dəniz adlandırırlar.

Qədim zamanlarda Xəzərı müxtəlif adlarla adlandırmışlar. Kaspi də Xəzərin tarixi adlarından biridir. Bu adların hər ikisi uzaq keçmişdə onun sahilində yaşamış qədim tayfaların adı ilə bağlıdır.

Azərbaycanın xəritəsində Xəzərin içərilərinə doğru uzanan Abşeron yarımadası aydın görünür. Bakı şəhəri bu yarımadada yerləşir.

Azərbaycanın ərazisindən axan Kür, Samur çayları Xəzər dənizinə tökülür. Xəzərə tökülən ən böyük çay Rusiyanın ərazısından axan Volqa çayıdır.

Xəzər dənizində suyun səviyyəsi daim dəyişir. Bir vaxtlar Xəzərin suları Qız qalasına qədər çatırmış. İndi isə dəniz Qız qalasından xeyli aralanıb.

Xəzərdə çoxlu ada var. Pirallahı Xəzərin ən böyük adasıdır.

Xəzərin özünəməxsus canlıları var. Müxtəlif növ balıqlar, sahillərindəki qayalıqlarda çoxlu quş yaşayır.

Xəzərin sularında suitilər də yaşayır. Ancaq sayının azaldığına görə Abşeron Milli Parkında qorunur.

Xəzərdən neft çıxarılır. Bu zaman dənizin sularına xeyli neft qarışıb onu çirkləndırir. Üstəlik Volqa və Kür çayları da özləri ilə şəhərlərin, zavod və fabriklərin çirkab sularını gətirib Xəzərə tökür. Xəzəri qorumasaq, onun heyvan və bitki aləmi məhv olacaqdır.

**Mənbə:** M.Abdullayev "Sərbəst mövzular və ədəbi əsərlər üzrə inşalar", Bakı, 2009

**5. Dialoq.**

| | | |
|---|---|---|
| Diana - Sən azərbaycan-lısan? | Диана – ты азербайджанка? | Diana - Are you Azeri? |
| Aygün - Hə, azərbaycan-lıyam, sən də ingilissən, eləmi? | Айгюн - Да, азербайджанка, а ты англичанка, не так ли? | Aygun - Yes, I'm Azeri, and you are English-woman, aren't you? |
| D. - Yox, mən ingilis deyiləm, amerikalıyam. | Д. - Нет, я не англичанка, а американка. | D. - No, I'm not Englishwoman, I'm American. |
| A. - Diana, Bakıda oxu-yursan, ya işləyirsən? | А. - Диана, ты учишься или работаешь в Баку? | A. - Diana, are you studying, or working in Baku? |
| D. - Həm oxuyuram, həm də işləyirəm. | Д. - Я и работаю и учусь. | D. - I'm both, studying and Azeri? |
| A. - Azərbaycan dilini öyrənmək istəyirsənmi? | А. - Ты хочешь учить Азербайджанский язык? | A. - Do you want to study azeri? |
| D. - Əlbəttə, bu mənim ən böyük arzumdur. Ancaq bunu harada öyrənmək olar? Sən | Д. - Конечно, это моя самая большая мечта. Только где можно это сделать? Ты мне помо- | D. - Of course, it is my biggest dream. But, where can we do this? Will you help me? |

| | | |
|---|---|---|
| mənə kömək edərsən? | жешь? | |
| A. - Məmnuniyyətlə kömək edərəm, Diana. Sənin boş vaxtın çox olurmu? | А. - Я с удовольствием помогу тебе, Диана. У тебя много свободного времени? | A. - I'll help you with great pleasure, Diana. Do you have free time? |
| D. - Çox yox, amma iş-dən sonra boş oluram. Sən mənimlə işdən sonra görüşmək istəyirsən? Biz bir-iki saat gəzişər, söhbət edərik. | Д. - Не много, но после работы бывает. Ты хо-чешь встречаться со мной после работы? Мы погуляем несколько часов и поговорим. | D. - Not much, but I'm free after work. Do you want to meet with me after work? We will walk one or two hours, and tall a liltle. |
| A. Olar. Onda zəngləşərik və görüşərik. | А. - Хорошо. Тогда созвонимся и встретимся. | A. - Sure, we'll ring up and then meet. |
| D. - Çox sağ ol Aygün, sən yaxşı dostsan. | Д. - Спасибо, Айгюн. Ты очень хорошая подруга. | D. - Thank you very much, Aygun. You are the best friend |

## 17-ci dərs

1. Hikmətli sözlər.
2. "Xoş gəlmək", "xoşuna gəlmək", "xoşlamaq", "acığı gəlmək" feillərinin işlənməsi.
3. İmla. Azərbaycan mətbəxi.
4. Mətn. Universitetimiz.
5. Dialoq.

### 1. Hikmətli sözlər

Atalar sözləri və məsəllərdən fərqli olaraq, hikmətli sözlər müəllifı məlum olan didaktik ifadələrdir. Aforizmlər, hikmətli sözlər böyük həyati həqiqətləri, əxlaqi-tərbiyəvi düşüncələri yığcam şəkildə, sözə qənaətlə, dolğun, mənalı, həm də məcazi tərzdə ifadə etdiyinə görə həmişə dərin təsir gücünə malik olur. Onlar məhz bu keyfıyyətlərinə görə insanın ürəyinə, şüuruna tez və asan yol tapır. Dünya ədəbiyyatının tarixi təcrübələri göstərir ki, söz üzərində gərgin yaradıcılıq zəhməti sərf edən şəxsiyyətlər həyatın bütün sahələrinə aid aforizmlər yaratmışlar. Azərbaycanın Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Aşıq Ələsgər, M.F. Axundov, A.Bakıxanov, Zakir, Seyid Əzim Şirvani, Sabir, Ü.Hacıbəyov kimi söz ustalarının xalq dühasına, onun zəngin yaradıcılıq xəzinəsinə, mədəni sərvətlərinə arxalanıb yaratdıqları klassik ədəbi irs tarixin keşməkeşlərindən keçərək insanlara humanizm ideyaları, azadlığa, xalqa, əməyə dərin məhəbbət, dostluq, ədalət, mərdlik kimi gözəl mənəvi keyfiyyətlər aşılayır. Onlarda riyakarlığa, ikiüzlülüyə, acgözlüyə, tamahkarlığa dərin nifrət, zülmə ədalətsizliyə şiddətli etiraz motivləri ön plandadır. Böyük sənətkarların qabaqcıl ideyalarını əks etdirən kəlamlar bu gün də öz həyati əhəmiyyətini, həqiqət gücünü saxlamaqdadır. Bunlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Böyük adamların xətaları günəş tutulmasına bənzəyir. Onları hamı görür.
2. Boş zaman yoxdur, boşa keçən zaman var.
3. Keçmişimizə daş atmayaq ki, gələcəyimiz bizi topa tutmasın.
4. Dil sümükdən olmasa da, çox sümükləri sındırır.
5. Heç vaxt ona verdiyin qiyməti sənə verməyənlə dost olma.
6. Çarəsiz qaldığınızda bilin ki, yenə tək çarə özünüzsünüz.
7. Dinləməyi öyrən. Bəzi fürsətlər qapını yavaşca tıqqıldadır.

1. Bir şam digər bir şamı alovlandırmaqla, işığından bir şey itirməz *(Mövlanə).*

2. Hər bir faciə dəfələrlə təkrarlandıqdan sonra komediyaya çevrilir. *(E.M.Remark).*

3.Uşaqlarınızla öz yaşınıza görə deyil, onların yaşına görə davranın *(Həzrət Əli).*
4. Fərsiz övlad 6-cı barmaq kimidir. Saxlasan səni eybəcər göstərər, kəssən incidər *(Hz. Məhəmməd).*

5. Kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətlidir.
Bütün varlıq insanın vücudundadır. *(Nəsimi)*

6. Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan. *(Nizami)*

7. Düzlüklə pəhrizkarlıq birləşəndə əsl insanlıq cilvələnər. Gəlin hamımız üz tutub bu səmtə yollanaq. *(Zərdüşt)*

8. ... Yüksəl, fəqət insanlığa pis gözlə baxanlar
Dünyada bir ad qoysa, insan ola bilməz. *(Səməd Vurğun)*

9. Kimsəyə işıq verməyən günəş, kimsəyə görsənməyən gözəllik kimə və nəyə lazımdır? *(Cəfər Cabbarlı*)

10. Dəli o şəxsdir ki, dünya varım
Çox sevib bərkidir ev hasarını. *(Nizami)*

11. Elm ilə, ədəblə tapılar şərəf,
Mirvari olmasa, nə lazım sədəf? *(Füzuli)*

12. Bilməmək kimsənin qiymətini əksiltməz. Ancaq öyrənməmək eyibdir. *(Şəhriyar)*

13. Bir adam ki, qoya hiylə binası,
Aqibət özünə dəyər xətası *(Zakir).*

14. Nakam yaşasa da şüurlu insan,
Yaxşıdır xoşbəxt bir nadan olmaqdan *(A.Bakıxanov)*

15. Gər aqilsən, cahil ilə durma, oturma *(Nəsimi).*

16. Daxili gözəlliyi olmayan heç bir xarici gözəllik tam hesab edilə bilməz (*Viktor Hüqo).*

17. Qaranlığı lənətləməkdənsə, bir şam yandır *(Konfutsi).*

18. Əgər insanların sizə yalan danışmağını istəmirsinizsə, sual verməyin *(Traven).*

19. Zəngin olmayan adam, adam olmayan zəngindən üstündür *(Plutarks).*

20. Bizim biləcəyimiz ən yaxşı maska – bizim öz üzümüzdür *(F.Nitşe).*

21. Yaxşı dostu olanın aynaya ehtiyacı yoxdur *(Mövlanə).*

**Mənbə:** Aforizmlər və hikmətli sözlər,
Bakı, 2012

**2. *Xoşu gəlmək, xoşuna gəlmək, xoşlamaq* fellərinin işlənməsi.**

| Söz | Şəkilçi | Fel | Nümunə |
|---|---|---|---|
| Azərbaycan mətbəxi | -ı/i/u/ü | xoşlayıram | Azərbaycan mətbəxini xoşlayıram. |
| Azərbaycan mətbəxi | | xoşuma gəlir | Azərbaycan mətbəxi xoşuma gəlir. |

| | | | |
|---|---|---|---|
| Azərbaycan mətbəxi | -dan/dən | xoşum gəlir | Azərbaycan mətbəxindən xoşum gəlir. |

***Tapşırıq 228.*** Sözləri lazım olan formada yazın.

1. Bu otağın dizaynı .............xoşun gəlir?
2. Mənim geyimim...........xoşu gəlmir.
3. Düşbərə................. sizin xoşunuza gəlir?
4. Hansı rəng................ daha çox xoşlayırsan?
5. Tənbəl adamlar...........xoşum gəlmir.
6. Yağışlı havada gəzmək........xoşum gəlir.
7. Qatarla səyahət etmək.........xoşlayırsınızmı?
8. Lətifə danışmaq............xoşuna gəlir.
9. Bilirəm ki, mənim xasiyyətim.......... onun xoşu gəlmir.
10. Nə.........xoşun gəlir?
11. Bu ölkədə nə............ daha çox xoşuna gəlir?
12. Hansı meyvə...............daha çox xoşlayırsan?

***Tapşırıq 229.*** Düzgün variantı seçin.

1. Bu əsər mənim xoşuma gəlir/xoşum gəlir.
2. Dəniz sahilində dincəlmək onun xoşuna gəlir/xoşu gəlir.
3. Bu ölkədə yaşamaq bizim xoşumuza /xoşumuz gəlir.
4. Sənin qışdan xoşun gəlir /xoşuna gəlir?
5. Bu maşın onların xoşlarına gəlir /xoşuna gəlir.
6. Bu paltardan Nigarın xoşu gəlir /xoşuna gəlir.
7. Həftəsonu Şamaxıda dincəlmək Muradın xoşuna gəlir /xoşu gəlir.

***\Tapşırıq 230.*** *İfadələri yadda saxlayın.*

***üzük taxmaq, papaq qoymaq, səliqəli geyinmək, saat taxmaq, zövqsüz geyinmək, zövqlə geyinmək, idman üslubunda geyinmək, eynək taxmaq, sırğa taxmaq, cins geyinmək, şalvar geyinmək, kofta geyinmək, yaxşı geyinmək, çanta götürmək***

***Tapşırıq 231***. Cümlə qurun.

1. çox /o /geyinir/ /adətən/ gözəl.
2. gözəl / geyinirsiniz/ siz / həmişə.
3. optik/ həmişə /taxırsan/ sən / eynək?
4. idman / həmişə / geyinirsiniz / üslubunda / siz?
5. xoşlayırsan / qoymağı / papaq?

***Tapşırıq 232.*** Sözləri yerinə qoyaraq, tamamlayın.

ayaqqabılarda/ əşyalarından/ əşyalarını/ kostyumlardır/ muncuq/ bütün/ üsluba/ şalvar

a) Bacım geyimlərdə klassik (1)________ üstünlük verir. (2)__________ rəngləri xoşlayır. İri bəzək (3)_______ xoşlamır. İncə (4)______ taxmaqdan xoşu gəlir.

b) Mənim rəfiqəmi hündür daban (5)_________ görmək çox çətin məsələdir. O, adətən, pencək və (6)_______ geyinir. Onun seçimi ağ və qara rəngli (7) _________Bəzək (8)___________az istifadə edir.

***Tapşırıq 233***. Hal şəkilçilərini əlavə edib yazın.

1. Siz... hansı ölçüdə ayaqqabı lazımdır? 2. Bu paltar siz... çox yaraşır. 3. Bu rəng siz... yaraşmır. 4. Bu paltar siz... əyninizdə çox gözəl görünür. 5. Sənin... ayaqqabı rəngi ilə paltarının rəngi tutmur. 6. Bu kofta o... böyükdür. 7. Bu köynək mən... dardır. 8. Bu ayaqqabılar mən... balacadır. 9. Bu kostyum... xoşum gəlir. 10. Mən... bundan bir ölçü kiçik kostyum lazımdır.

## 3. İmla.

### "Azərbaycan mətbəxi"

Azərbaycan mətbəxində şorbaların, salatların, isti və soyuq qəlyanaltıların, kababların, ət və toyuq xörəklərinin növləri çoxdur. Plovlar və dolmalar Azərbaycan süfrəsinin bəzəyidir. Təkcə plovun 200-ə yaxın növü var.

Azərbaycan mətbəxində balıq və xəmir xörəklərinin müxtəlif növləri var.

Azərbaycan mətbəxi müxtəlif göyərti və tərəvəzlərlə zəngindir.

Azərbaycanlılar dondurulmuş ətdən çox istifadə etmirlər, əsasən, təzə ətdən yemək hazırlayırlar.

Zəfəran, tərxun, reyhan, kəklikotu yeməklərin ləzzətini artırır. Zəfəran çox az ölkədə yetişir. Bu ölkələrdən biri də Azərbaycandır.

Limon, zeytun, sirkə, narşərab, nar, zoğal, sumaqdan və s. Azərbaycan mətbəxində tez-tez istifadə olunur.

Yeməyin sonunda "çərəz" (meyvələr, quru meyvələr, qoz, fındıq və s.) və şirniyyat verilir. Çay azərbaycanlıların sevimli içkisidir. Azərbaycan süfrəsini çaysız təsəvvür etmək mümkün deyil.

Azərbaycan mətbəxi ləzzətli xörəklərlə, gözəl içkilərlə, meyvələrlə zəngindir. Azərbaycanlılar qonağa çox böyük hörmətlə yanaşırlar. Süfrə arxasında azərbaycanlılar üçün əsas məsələ qonağa qulluqdur.

**Milli yeməklər.**

### Düşbərə

Lavaş yayıb kəsirsən,
Qiyməylə bükülürsən.
Bişib nanə səpəndə,

İştahla yeyilirsən

**Tikə kabab**

İştahı açır adı,
Bel qabırğa kababı.
Soğan doğra sumaq səp,
Ye xumar etsin dadı.

**Piti**

Noxud quyruq, duz, əti,
Dopuya doldur gəti.
Pəsdayısı qatılıb,
Dəminən bişir piti.

**Bozbaş**

Qazanda su, döş boyun,
Ocağın üstə qoyun.
Kartof, soğan, noxudla
Bişsin siz yeyin doyun.

**Dovğa**

Ayran, düyü un bula,
Göyərtisi bol ola.
Dədəli çiyilinin
Dadı damaqda qala.

**Küftə**

Əti bol soğanı az,
Düyü qatmasan olmaz.
Ədva noxud gavalı,
Girdələnib edən naz.

**Övrəştə**

Ətin bişir duzun at,
Soğan qovur ətə qat.
Qora suyunu tök ki,
Övrəştəyə versin dad.

**Narqovurma**

Qaynat əti, soğanı,
Şabalıd, zəfəranı,
Qovur dənə narı tök,
Bişir narqovurmanı.

**Kükü**

Alanı doğra narın,
Yumurta çırpıb salın,
Qozla istiot vurub,
Yağda qəşəng qızardın.

***Tapşırıq 234.*** Fikirlərin doğru və ya səhv olduğunu müəyyənləşdirin.

| | | D | S |
|---|---|---|---|
| 1. | Dolmanın 200-ə yaxın növü var. | □ | □ |
| 2. | Azərbaycanlılar göyərti və tərəvəzlərdən çox az istifadə edirlər. | □ | □ |
| 3. | Azərbaycanlılar daha çox təzə ətdən istifadə edirlər. | □ | □ |
| 4. | Azərbaycanlıların sevimli içkisi çaydır. | □ | □ |
| 5. | Zəfəran yalnız Azərbaycanda yetişir. | □ | □ |

***Tapşırıq 235.*** Suallara cavab verin.

1. Hansı yeməyin 200-ə yaxın növü var?
2. Azərbaycanlılar balığı sevirlərmi?
3. Azərbaycanlılar, adətən, necə ətdən istifadə edirlər?
4. Zəfəran yalnız Azərbaycanda yetişir?
5. Yeməklərin ləzzətini nə artırır?
6. Azərbaycanlıların sevimli içkisi nədir?
7. Azərbaycanlılar üçün süfrə arxasında əsas məsələ nədir?

***Tapşırıq 236.*** Siz də öz mətbəxiniz haqqında məlumat verin.

***Tapşırıq 237.*** İfadələrin mənasını izah edin.
dadına baxmaq doyunca yemək ayaqüstü yemək pəhriz saxlamaq sağlam qidalanmaq

**Atalar sözləri**
İştaha diş altındadır.
Azacıq aşım, ağrımaz başım.
Varlı da, kasıb da eyni iştaha ilə acır.

***Tapşırıq 238.*** Oxuyun.

*Sağlam yaşamaq, cavan qalmaq üçün düzgün qidalanmaq lazımdır.*

1. Hər gün 3 litr çiy su için. 45 gün müddətində hər yarım saatdan bir 30 q çiy su için.
2. Xəstə və yorğun olanda, yüksək qızdırma zamanı qida qəbul etməyin. Bu zaman qidadan imtina edin.
3. Yalnız aclıq hiss edəndə yeyin. Yeməkdən 10-15 dəqiqə əvvəl 200 q. çiy su için.
4. Yemək zamanı su içməyin.
5. Çox isti çay içməyin və çox isti xörək yeməyin.
6. Xörəkləri qarışdırmayın. Bir neçə xörəyi eyni vaxtda yeməyin.
7. Səhər yeməyi zamanı şirəli meyvə yeyin.
8. Gün ərzində azı bir qab tərəvəz salatı yemək lazımdır. Salatlarda kələm, xiyar, turp, soğan, pomidor, cəfəri, sarımsaq və s. tərəvəzlərdən çox istifadə edin.

9. Yağlardan çox az istifadə edin.
10. Bütün yeməkləri mümkün qədər çox çeynəyin.
11. Orqanizminizə vaxtaşırı istirahət verin.
12. Az yeməyə çalışın, çox yemək orqanizm üçün ağır yükdür.
13. Qidada duzun miqdarmı azaldın.

**4. Mətn.**

## Universitetimiz

Bakıda universitet və institutlar çoxdur. Məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Tibb Universiteti, Texniki Universitet, İncəsənət Akademiyası, Neft Akademiyası, Azərbaycan Diplomatiya Akademiyası, Azərbaycan Dövlət Konservatoriyası və s.

BDU Z.Xəlilov küçəsində yerləşir. Bakı Dövlət Universiteti 1919-cu ildə yaranıb. Universitetin 4 tədris binası var. Tələbələr dərsə metro ilə, ya da avtobusla gəlirlər.Universitetdə filologiya, tarix, hüquq, beynəlxalq münasibətlər, sosiologiya, psixologiya, jurnalistika, kitabxanaçılıq, şərqşünaslıq (ərəb, fars, türk, ivrid, yapon, çin, hind dilləri), ilahiyyat, kimya, biologiya, fızika, coğrafiya və başqa fakültələr var. Universitetdə 20 minə yaxın tələbə oxuyur. Tələbələr hər gün dərsə gəlir və gündə 6 saat məşğul olurlar. Xarici tələbələrin bəziləri Azərbaycan, bəziləri də rus dilini öyrənirlər. Evi olmayan tələbələr yataqxanada yaşayırlar. Universitetin poliklinikası da var. Tələbələrə təqaüd verilir. Universitetin böyük fundamental kitabxanası və oxu zalı, stadionu var.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - Siz kimsiniz? | - Кто вы? | - What do yo do? |
| - Mən tələbəyəm, bəs siz kimsiniz? | - Я студент, а вы кто? | - I'm a student. And, what do yo do? |
| - Mən də tələbəyəm. Siz harada oxuyursunuz? | И я студент. А где вы учитесь? | - I'm also a student. Where do you study? |
| - Mən Bakı Dövlət Universitetində oxuyuram, bəs siz? | - Я учусь в Бакинском Государственном Университете, а вы где? | - I study at Baku State University, and you? |
| - Mən Tibb Universitetində oxuyuram. Siz hansı fakültədə oxuyursunuz? | - Я учусь в Медицинском Университете. А на каком факультете вы учитесь? | - I study at Medical University. In which faculty do you study? |

| | | |
|---|---|---|
| - Tarix fakültəsində. | - На историческом. | - The faculty of history. |
| - Universitetdə başqa hansı fakültələr var? | - А какие еще у вас есть факультеты в университете? | - Which faculties at the university do you have else? |
| - Universitetdə fakültələr çoxdur. | - В Университете много факультетов. | - There are a lot of them at the University. |
| - Tarix fakültəsində hansı dərslər tədris olunur? | - Каким предметам обучают на историческом факультете? | - Which lessons do you study in history faculty |
| - Azərbaycan tarixi, Şərq və Qərb ölkələri tarixi, Dünya tarixi, fəlsəfə, etika, estetika, pedaqogika, psixologiya, bədən tərbiyəsi, informatika, rus və xarici dillər (fars, ərəb, türk, alman, ingilis, fransız dillərindən biri). | - История Азербайджана, история стран Запада и Востока, мировая история, философия, этика, эстетика, педагогика, психология, физическая культура, информатика, русский и иностранные языки (один из языков персидский, арабский, турецкий, немецкий, английский, французский). | Azerbaijan history, Philosophy, Ethics, Ahteties, Pedagogy, Psychology, Gymnastics, Information sciences, Russian and other foreign languages (persian, Arab, Turkish, German, English, French). |
| - Universiteti qurtarandan sonra nə işlə məşğul olmaq istəyirsiniz? | - После окончания университета, чем ты хочешь занятся? | - What will you do, after graduating from the University? |
| - Magistraturada təhsilimi davam etmək istəyirəm. | - Хочу продолжить обучение в магистратуре. | -I'want to continue my studying and take mastel degree. |
| - Bəs siz hansı ixtisası seçirsiniz? | - После окончания университета, чем ты хочешь занятся? | - And, which proffesion do you chose? |
| - Mən stomatologiya fakültəsində oxuyuram. Qurtarandan sonra Quba- | - Я учусь на стоматологическом факультете. По окончанию, я буду | I study on dentist, and after finishing the University, |

| | | |
|---|---|---|
| da diş həkimi işləyəcə-yəm. Bu mənim ən bö-yük arzumdur. Gəlin dost olaq. | работать стоматологом в Кубе. Это моя самая большая мечта. Давай дружить. | I will go to Quba, to work there, as a dentist. It is my biggest dream. Let's be frends. |
| - Olaq, amma yaxşı dost olaq. Bir-birimizi heç vaxt unutmayaq. | - Давай, только будем хорошими друзьями. Никогда не забудем друг- друг | - Ok, but let's be good friends, and never forget each other. |

## 18-ci Dərs

1. Sözün tərkibi (kök və şəkilçi).
2. Azərbaycan dilində eyniköklü sözlər.
3. Mücərrəd və konkret isimlər.
4. Mətn. Azərbaycan Respublikasının gerbi.
5. Dialoq.

### 1. Sözün tərkibi (kök və şəkilçi).

***Qeyd:*** *Sözün ayrılıqda işlənə bilən və leksik mənası olan hissəsinə kök deyilir. Sözün formasını və ya mənasını dəyişən hissəsinə şəkilçi deyilir. Şəkilçilər iki yerə bölünürlər. Sözdüzəldici şəkilçilər qoşulduqda yeni söz düzəldirlər. Məs.: dəniz-dənizçi, balıq-balıqçı. Sözdəyişdirici şəkilçilər qrammatik şəkilçilər adlanır. Onlar ancaq formanı dəyişirlər.*

***Tapşırıq 239.*** Aşağıdakı sözlərə -çı$^4$; -lı$^4$; -daş şəkilçiləri artırıb cümlə qurun.

Kömür, dəmir, dəniz, balıq, şəkər, ağıl, yağ, sirr, vətən, duz, yer, baş, günəş, bəzək, dəyər, kənd.

***Tapşırıq 240.*** Cümlələri oxuyun, sözdüzəldici şəkilçilər əsasında əmələ gəlmiş sözləri seçib yazın.

1. Kazım sevinc ifadə edən gözləri ilə dostuna baxırdı. 2.Tut ağacının altında zərif toxunuşlu xalçalar salınmış, məxmər döşəkcələr düzülmüşdü. 3. Vidadi ortaboylu, ağsaqqal, arıq, vicdanlı və nurani- simalı bir kişi idi. 4. Gözlüyü taxdı gözünə və başladı alçaqdan oxumağa.5. Qaraqaşlı, uzunkirpikli, dolğun bir adam idi. 6. Əlini atıb döşəkcənin altından iri, güllü bir dəsmal çıxartdı, gözünü sildi. 7. Divarların üzəri qartal və şahin kimi yırtıcı quşların şəkilləri ilə dolu idi. 8. Oğlum, deyir – bir qayda var: evdəki ağbirçəyi sayarlar.

*(Y.V.Çəmənzəminli).*

***Tapşırıq 241.*** Aşağıdakı kəlmələrə sözdüzəldici şəkilçilər artırmaqla müxtəlif sözlər düzəldin.

*Nümunə:* ağaclıq, ağaclı, ağacsız.
Bəzək, ağac, bəxt, şəkər, iş, baş, xoş, vətən.

***Tapşırıq 242.*** Aşağıda verilmiş sözləri həm xüsusi, həm də ümumi isim kimi cümlələrdə işlədin.

*Nümunə*: nəsib (nəsib olmaq) – Nəsib kişi adı.
İradə, aydın, mətanət, mehriban, vəfa, adil, vüqar, ziya, sevinc, ümid.

*Tapşırıq 243.* Aşağıdakı sözlərin kökünü tapın.

Yazlıq, döşəmə, süzmə, qayalıq, durğunluq, çəkməçi, vətəndaş, ayrılıq, göydəki, səbrli, dözümlü, yazıçılıq.

## 2. Azərbaycan dilində eyniköklü sözlər.

***Qeyd:*** *Eyniköklü sözlər– görmək, görüşmək, görünmək, görsətmək, görsənmək, görməmiş sözləri, gör – feilindən əmələ gəlmişdir. Belə sözlərə eyniköklü sözlər deyilir.*

***Tapşırıq 244***. Aşağıdakı eyniköklü sözlərin hər birinə aid cümlə qurun və yazın.

a) Əl, əlcək, əlbir, əlverişli.
b) işçi, işgüzar, işsiz, işlək.
c) dik,dikbaş, dikdaban, dikəlmək.
d) ev, evdar, evyıxan, evlənmək.
e) əziz, əzizləmə, əziz- xələf, əzizlənmək.
ə) itibuynuz, itidilli, itibucaq, itiləmək.

***Tapşırıq 245.*** Verilmiş sözləri diqqətlə oxuyun, onlara eyniköklü sözləri tapın və qruplaşdırıb sütunlarda yazın.

Günəşli, yaz, sahə, silah, ov, naxış, yekə, daşlıq, gülbəniz, gəmi, yelləncək, yemək, enli, ağ, sarı.

***Tapşırıq 246.*** On eyniköklü söz yazın və bunların əlaqələrini aydınlaşdırın.

***Tapşırıq 247.*** Sxemdə verilmiş sözlərə uyğun sözlər əlavə edib cümlədə işlədin.



Qoca → qocaman, qocalıq, qocafəndi | ixtiyar //ahıl

Yurd → yurdçu, yurdsevər, yurdsuz | el //oba

**Bunu bilməlisiniz!**

**Milli ornamentimiz Buta**

Buta Azərbaycan xalçalarında və milli geyimlərimizdə ən çox istifadə olunan naxışlardan biridir. Maraqlıdır ki, xalq arasında üz-üzə əks olunmuş butalara «sevgili buta», arxa-arxaya dayanmış butalara isə «küsülü buta» deyilir. Butanın yaranma tarixi və mənası ilə bağlı alimlər müxtəlif fıkirlər söyləyirlər.

«Buta» sözünün başqa bir mənası da «qönçə»dir. Həqiqətən, bir çox xalça naxışları kimi, buta da qönçəni, gül ləçəyini xatırladır.

Çox tədqiqatçı alov diliminə bənzədiyinə görə butanı od, alov rəmzi kimi qəbul edir. Bəziləri isə butanı tovuz quşunun təsviri ilə bağlayırlar.

Belə bir fıkir də var ki, buta 9 rəqəmindən yaranmışdır. Bu rəqəmi istənilən başqa rəqəmə vurduqda alınmış ədədin rəqəmlərinin cəmi doqquza bərabər olur: 9·3 = 27 (2+7=9); 9-7=63 (6+3=9); 9-4=36 (3+6=9); 9-5=45 (4+5=9); 9-2=18 (1+8=9); 9-10= 90 (9+0=9); 9-6=54 (5+4=9). Doqquz yeganə belə rəqəmdir, buna görə də bir çoxları onu müqəddəs rəqəm hesab edirlər.

Hazırda üzərində buta təsviri olan yüzlərlə Azərbaycanın xalçası dünyanın məşhur muzeylərinin salonlarını bəzəyir.

## 3. Mücərrəd və konkret isimlər.

**Qeyd:** *Konkret isimlər – gözlə görünə bilən əşyalardır. Məs.: dağ, çiçək, qoyun, insan. Mücərrəd isimlər isə gözlə görünə bilməyən əşyalardır. Məs.: arzu, xəyal, yuxu, məqsəd və s.*

***Tapşırıq 248.*** Verilmiş cümlələrdəki mücərrəd isimlərə diqqət edin.

1. Yuxu ölümün qardaşıdır.
2. Ac toyuq yuxusunda darı görər.
3. Dostluqla tutur, düşmənliklə yıxır.
4. Alimlərin söylədikləri fikir çox maraqlı idi.
5. Yuxumda çəkilir göyə, xəyala çevrilir o illər,
   Ümid bir şimşəkdir bulud içində *(N.Xəzri).*
6.Mənəvi saflığı olmayanların nə səmimiyyəti, nə də ədaləti olmaz.
7. Düzlük ən yaxşı siyasətdir.
8. İnsanın məqsədi özü olmasıdır, özünün məqsədi isə insan olmasıdır.

9. Arzularımız şirin olmasaydı, əlimizdən alıb qaçmazdılar.
10. Gənclik həmişə yüksək və təmiz xəyalların düzlük və səadətin mücəssəməsidir *(M.İbrahimov).*
11. Səndən mənə ancaq qüssə, qəm, kədər qaldı.
12. İndi məni yaşadır səndən qalan acı, şirin, xatirələr.
13. Azər ömrünün son günlərinə qədər Xalidə ümidi ilə yaşayırdı.
14. Fikir vermə düzələr.
15. Bir arzum var ürəyimdə; ümid gəlsin sevənlərin qismətinə *(C.Mehmanlı).*

**Oxu. Məhsəti Gəncəvinin rübailəri.**

"Məni kam almağa qoymadı zaman,
Gücü çatan qədər eylədi divan.
Deyəsən əhd etmiş, dolandıqca hey,
Məni də özüylə hərlətsin dövran.

Dün kaşı kuzəni daşlara çaldım,
Sərxoşdum, bilmədim, əlimdən saldım.
Kuzə dilə gəldi, dedi ki, mən də
Sənin kimi idim, bu günə qaldım".

**Mənbə:** Dünya şöhrətli rübailər ustası Məhsəti Gəncəvi. Metodik vəsait, Bakı: 2013

***Tapşırıq 249***. İmla. Aşağıdakı mətndə konkret və mücərrəd isimləri ayırın.

**Yazın son ayı**

İlin gənclik fəsli olan yaz iyun ayında başa çatır, yay fəsli başlanır. İyun ayından başlayaraq şagirdlərin xəyalları, arzuları baş qaldırır. Bu ay son sinif şagirdləri üçün həm sevindirici, həm də kədərləndiricidir. Ona görə sevindiricidir ki, şagirdlər on bir illik təhsilə yekun vururlar, həyata atılırlar. Kimi ali məktəbə daxil olmaq arzusu ilə yaşayır, kimi iş haqqında düşünür. Ona görə kədərlidir ki, gənclər doğma məktəbdən, sevimli müəllimlərindən, dostluq etdikləri sinif yoldaşlarından ayrılırlar. Şirin gülüşlərlə göz yaşları bir-birinə qarışır. Nəsillər bir-birini əvəz edir. Məktəb böyük ümidlə pərvazlandırdığı məzunlarının arxasınca baxır, onlara yaxşı yol, xoşbəxt həyat arzulayır.

***Tapşırıq 250.*** *Fikir, xatirə, ümid, saflıq, düzlük, dostluq, xəyal, arzu, məqsəd, yuxu* mücərrəd isimlərini cümlələrdə işlədin.

## 4. Mətn.

### Azərbaycan Respublikasının gerbi



Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqillik rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir.

Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Qalxan – Şərq xalqlarında milli döyüş alətlərindən biri olub, qəhrəmanlıq simvoludur.

Qərbdəkilərdən fərqli olaraq, Şərq qalxanı dairəvi formadadır. Dövlət gerbinin həmin qalxan üzərində təsvir edilməsi Azərbaycanın Şərq dövləti olduğunu, Şərq sivilizasiyasına mənsubluğunu, xalqın şərqliliyini bildirməyə xidmət edir. Qalxanın ortasında yerləşən səkkizguşəli ulduz günəşin simvoludur. Günəş (eləcə də Ay) dünya heraldika sənətində "əbədi, daimi, sonsuz həyat" mənasındadır. Günəş simvolunun ağ rənglə verilməsi isə "əmin-amanlıq, sülhsevərlik, barış" mənalarını verir. Günəşin mərkəzində alov təsviri "Odlar Yurdu"nu – Azərbaycanı simvolizə edir.

Ümumiyyətlə, alov gerbşünaslıqda tərəqqi, inkişaf rəmzi sayılır.

Sarı rənglə verilmiş sünbüllər bolluq rəmzidir.

Yaşıl Palıd budaqları uzunömürlülük rəmzidir.

**Mənbə:**AR Konstitusiyası

### Mətnə aid suallar:

1. Azərbaycan gerbi nəyin rəmzidir?
2. Dövlət gerbi nədən ibarətdir?
3. Qalxanın üstündə nə təsvir edilib?
4. Qalxan nədir?
5. Qalxan nəyə xidmət edir?
6. Heraldika sənətində "günəş və ay" nə mənadadır?
7. Niyə günəş ağ rənglə verilib?

## 5. Dialoq.

| | | |
|---|---|---|
| - Mən... görmək istərdim. | - Я хотел бы видеть... | - I'd like to see.... |
| - Bağışlayın, ancaq o, məş-ğuldur. | -Простите, но он занят. | - I'm sorry, but he is busy. |
| - Ümidvaram, yarım saata boşalar. | - Надеюсь, он освобо-дится через полчаса. | - I think he'll be free in half an hour. |

| | | |
|---|---|---|
| - Siz mənə bir neçə dəqiqə ayıra bilərdinizmı? | - Не могли бы вы уделить мне несколько минут? | - Could you spare me a mo ment? |
| - Mən sizi çox saxlama-yaçağam. | - Я вас долго не задержу. | - I won’t keep you long. |
| - Sizinlə müqavilə haq-qında danışa bilərəmmi? | - Могу ли я погово-рить с вами о контрак-те? | - Can I have talk to you about the contract? |
| - Siz nə vaxt sənədləri bizə verə bilərsiniz? | - Когда вы сможете передать нам докумен-ты? | - When can you give us the documents? |
| - Gəlişimin məqsədi zəruri sənədləri təqdim etməkdir. | - Цель моего визита - представить необхо-димые документы. | - The purpose of my visit, is to present required documents. |

## 19-cu dərs

1. Təyin əvəzlikləri.
2. Təsirli və təsirsiz feillər.
3. Mətn. Lənkəran.
4. Dialoq.

### 1. Təyin əvəzlikləri.

***Qeyd:*** *Əşyanı ümumi şəkildə təyin etmək üçün işlədilir. Hər, bütün, filan, öz, eyni, bəzi sözlərindən ibarətdir. Təyini əvəzliklər hansı? sualına cavab verir və cümlədə təyin olur. Məs.: Hər çiçəyin öz ətri var. Turalın bütün qiymətləri beşdir.*

***Tapşırıq 251.*** Köçürün, mötərizədə verilmiş *öz* qayıdış əvəzliyinə uyğun gələn mənsubiyyət şəkilçilərini artırıb, ismin müvafiq halında işlədin.

1. Ətrafdakılar bir ağızdan dilləndilər - öz - (öz)lə yarışacağıq.
2. (Öz) də bir yaxşı insandır.
3. Siz (öz) məni universitetə oxumağa göndərirsiniz?
4. Uşaqlarının gələcəyini də mənim (öz) tapşırın.
5. Bunda (öz) dünyaya tanıtmaq qabiliyyəti vardır.
6. Siz (öz) müdafıə etmək istəyirsiniz.
7. O (öz) bir cəsarət duydu və siz (Öz) danışın dedi.
8. Onun (öz) fıkirləri mənə aydın deyildi.
9. Qızım, heç siz (öz) bu haqda düşünürsünüz?
10.Siz (öz) zəmanət verirsiniz ki, bu zirək qızdır?

***Tapşırıq 252.*** Köçürün, nöqtələrin yerinə müvafiq gələn təyin əvəzliklərini yazın.

1. Gecə meyxanadan düşərkən yola
   Sözünə baxmayır ... ayaqların *(S.Rüstəm)*
2. Məni ömrüm boyu qanadlandıran
   ... alın tərimdir,... zəhmətimdir *(S.Rüstəm)*
3. ... gecə qar yağdı.
4. O ... səhər əkdiyi ağacın yanma gələrdi.
5. Bu işdən ... kənd əhalisi xəbər tutdu.
6. ... gülün ... ətri var.
7. ... gözündə tiri görməz, özgə gözündə qıl axtarar.
8. Yamyaşıl palmalar bəzəyəcəkdir
   O tək abidənı... kölgəsində *(N.Xəzri)*
10. ...gün bir yeni nəğmə, ...gün bir yeni ilham.
Yazaydım səhər - axşam *(M.Müşfiq)*

***Tapşırıq 253.*** Aşağıdakı mətni köçürün. Əvəzliklərin növlərini göstərin.

**Qeybət**

Bir adam müdrik qocanın yanma gəlib deyir:
- Filankəs sənin haqqında pis sözlər dedi.
- Nə vaxt?
- Bu gün.
- Harada?
- Öz evində.
- Sən onun evində nə edirdin?
- Ziyafət verirdi. Məni də dəvət etmişdi.
- Nə yedin?
- Səkkiz növ yemək var idi. Hamısından yedim.

Qoca deyir:
- Səkkiz növ yeməyi qarnına sığışdırmısan. Bu bir sözü niyə qarnında saxlaya bilmədin? *(Akif Mehmet)*

***Tapşırıq 254.*** *Öz* və *filan* əvəzliklərinin hər birinə aid beş cümlə yazın.

***Tapşırıq 255.*** *Hər* və *bütün* təyin əvəzliklərinin hər birinə aid beş cümlə yazın.

***Tapşırıq 256.*** Köçürün, nöqtələrin yerinə müvafiq gələn təyin əvəzliklərini yazın.

1) Ən dadlı meyvə ancaq
Sənin ... zəhmətinlə.
Yetirdiyin meyvədir! *(M.Rzaquluzadə).*
2) Kəsməyir bir an o, layla səsini,
Anadır bəsləyir ... körpəsini *(Ə.Dilbazi).*
3) Qocalar ... gün nəvədən başqa söhbət dillərinə gətirmirlər *(M.Paşayev).*
4) Deməli, balaca uşaq ... tələbi ilə gələcək yolunu müəyyənləşdirir *(M.Paşayev).*
5) O, ... səhər yasəmən ağacının yanına gəlirdi *(İ.Əfəndiyev).*
6) ... çiçəyin ... ətri var.
7) Qızcığaz ölməyib sağ düşmüş yerə
Yayılmış bu xəbər ... ellərə *(S.Vurğun).*
8. Artdı suların səsi,
Sevindirdi ... kəsi *(S.Vurğun).*
9) Çalış ... xalqının işinə yara
Geysin əməlinlə dünya zərxara *(N.Gəncəvi).*
10) Gördükcə ... zaman duakar məni,
Saxlar sayəsində, qoruyar məni *(M.Müşfiq).*

## <u>2. Təsirli və təsirsiz feillər.</u>

***Qeyd:*** *Azərbaycan dilində fellər təsirli və təsirsiz olaraq 2 qismə ayrılır. Fellərin bir qismi subyektin obyektə təsirini bildirir. Belə fellər həmişə özünə* ***ismin təsirlik*** *halında olan və* ***kimi? nəyi? nə?*** *suallarından birinə cavab verən müstəqim obyekt (vasitəsiz tamamlıq) tələb edir. Bu cür fellər təsirli fellərdir. Məs., yaz, oxu, gözlə, bil, eşit, de, təmizlə və s.*

*Təsirsiz fellərdə subyektlə obyekt arasında belə təsir münasibəti baş vermir, çünki subyektin işi heç bir obyekt tələb etmir. Məsələn, yat, otur, qaç, gəl, get, çalış və s.*

*Bəzi fellərin təsirli və ya təsirsiz olması onların leksik mənası ilə bağlıdır. Məsələn: O, məktəbdə işləyir - cümləsində «işləyir» feli təsirsiz, O, işi (nəyi?) işləyir - cümləsində isə təsirlidir. Soruşmaq, vermək və s. fellər bu qəbildəndir.*

*Bəzi təsirsiz-fellərə şəkilçi artırmaqla təsirli fel düzəltmək olar. Məsələn, -t (oxşa-oxşat, bənzə-bənzət, yaşa-yaşat), -ar$^2$ (çıx-çıxar, qop-qopar), -ır$^4$ (qaç-qaçır, uç-uçur, köç-köçür), -dır$^4$ (çaş-çaşdır, öl-öldür, utan-utandır), -dar$^2$ (dön-döndər), -ız$^4$ (çim-çimizdir, qorx-qorxuz).*

***Tapşırıq 257.*** Təsirli fellərin qarşısına müstəqim obyekt əlavə edin.

1. Bacım (nəyi?)... maraqla oxuyur. 2. Pilot (nəyi?)... yerə endirdi. 3. Tələbələr (nəyi?)...müvəffəqiyyətlə verdilər və tətilə çıxdılar. 4. Biz (nəyi?)... axşam saat 8-də yeyirik. 5. Sürücü (kimi?) ... görüb maşını saxladı. 6. Qonaqlar (nəyi?)... görmək üçün İçərişəhərə yollandılar. 7. Mən (kimi?)... çox sevirəm. 8. Arxeoloqlar (nəyi?)... dayandırıblar. 9. Rektor (kimləri?) ... təbrik etdi və onlara (nə?) ... təqdim etdi. 10. Hər bir insan (nəyi?)... sevir və (nəyi?)... qorumağa çalışır.

***Tapşırıq 258.*** Təsirsiz fellərə (-t, -ar$^2$, -dır$^4$, -ır$^4$) şəkilçilərindən uyğun gələnini artırmaqla təsirli fellər düzəldin...

insana oxşamaq — (kimi?) insanı...
həyatda yaşamaq — (nəyi?) həyatı...
anasına bənzəmək — (kimi?) anasını...
qışdan çıxmaq — (nəyi?) qışı...
uşaq çaşdı — (kimi?) uşağı...
divardan qopmaq — (nəyi?) divarı...
dərsdən qaçmaq — (kimi?) gəlini...
ev uçdu — (nəyi?) evi...
qonşu köçdü — (kimi?) qonşunu...
dostunla barış — (kimi?) dostunu...
qoca at öldü — (nəyi?) qoca atı...
qonaq utanır — (kimi?) qonağı...

***Tapşırıq 259.*** Verilmiş felləri müstəqim obyektləri ilə işlədin.
*Nümunə: oxumaq - romanı oxumaq*

bilmək, ütüləmək, kəsmək, qoparmaq, oxumaq, yazmaq, göndərmək, içmək, bağlamaq, qaldırmaq, endirmək, tikmək, sökmək, ölçmək, uzatmaq, gətirmək, aparmaq, örtmək, açmaq.

***Tapşırıq 260.*** Yuxarıdakı feillərdən üçünü bütün zamanlarda şəxslər üzrə dəyişin. Cümlələrdə işlədin.

***Tapşırıq 261.*** Soruşmaq, vermək, danışmaq, sözlərini cümlədə həm təsirli, həm də təsirsiz fiel kimi işlədin.

***Tapşırıq 262.*** *Soruş, görüş, öyrən, qaç* feillərini təsirli və ya təsirsiz olduğunu müəyyənləşdirin və cümlə qurun.

*Nümunə:* danış- danışma
Sən dərsini danış. Sən artıq söz danışma.

***Tapşırıq 263.*** Səməd Vurğunun "Xəyyam" poemasından "Ana" şeirini əzbərləyin.

"Ana! Mənası var bu böyük adın,
Dahilər yaradır bu ana qadın.
Südilə bəsləyir, böyüdür bizi,
Gözlərilə çəkir keşiyimizi.
Lakin qurtarmasa qadın zillətdən,
Nə azad ana var, nə azad Vətən.
Ana müqəddəsdir, ana doğmadır,
Ən böyük məhəbbət yalnız onadır.
Vətəndə yaranmış böyük bir ana,
Bütün bəşəriyyət borcludur ona.
Yoxsa da dünyanın ucu-bucağı,
Hər yerdən istidir ana qucağı…
O, girir körpənin hər qılığına,
İçək anamızın can sağlığına!"

**Mənbə:** S.Vurğun əsərləri, 4-cü cild, "Xəyyam" poeması, Bakı: Elm, 1988

***Tapşırıq 264.*** Aşağıda verilmiş cümlələrdəki feillərin təsirli və ya təsirsiz olduğunu tapın.

*Nümunə:* Adil Antalyada dincəldi. O, Bodrumda dincəlmədi.

1. Adil Antalyada dincəldi. 2. Pişik damda gəzir. 3. Uşaqlar parkda gəzirlər. 4.Oğlanlar futbol meydançasında futbol oynayırlar. 5. Jurnalistlər radioda işləyirlər. 6. Siz dünən teatra getdiniz? 7. Meyvələr masanın üstünə qoyulub. 8.

Maşını küçədə qoydum. 8.Mənim dostlarım institutda işləyirlər. 9.İdarəyə yeni kompüterlər gətirdilər.

***Tapşırıq 265.*** *Oxu, toxu, öyrən, gəl, gör* feillərini cümlədə təsirli və təsirsiz formalarında cümlədə işlədin.

**4. Mətn.**

## Lənkəran

Azərbaycanın Cənub-şərq hissəsindədir. Bura respublikanın ən parlaq və gözəl şəhərlərindən biridir. Nəfis memarlıq, gözəl iqlim və heyranedici təbiət landşaftları bu şəhərin fərqli xüsusiyyətləridir. Münbit torpaq kənd təsərrüfatının inkişaf etməsinə səbəb olur. Termal bulaqların varlığı turistləri və öz sağlamlığını qaydasına salmaq istəyən insanları cəlb edir, tarixi və mədəni görməli yerlərin bol olması qədim zamandan pərəstişkarlarını laqeyd qoymur.



Lənkəranda iki muzey, dram teatrı, kitabxana, 87 mədəniyyət təşkilatı, 2 uşaq musiqi və rəssamlıq məktəbləri, mədəniyyət və istirahət parkı var. Lənkəran ərazisində 20 respublika əhəmiyyətli arxeoloji abidə, 2 daş heykəltəraşlıq və s. abidələr mövcuddur.

Şübhəsiz ki, Lənkəran ilin istənilən vaxtı istirahət etmək üçün turistləri qəbul etməyə hazırdır.

Rayonda Hirkan milli parkı və Qızılağac dövlət təbiət qoruğu var. Hirkan milli parkında təbiətin ən qədim və nadir bitki və ağac növləri bitir. Burada cüyür, qaban, xallı maral və başqa meşə heyvanları yaşayır. Park bitkilərlə zəngindir.

Hər bölgənin öz spesifik şeyləri olduğu kimi, bu bölgənin adı gələndə ilk öncə ləvəngi və limon düşür yadımıza. Amma ona baxmayaraq, bu bölgənin mətbəxi çox zəngindir. Bunlardan "Süzmə plov, paxla plov, boranı plov, lərgə plov, mərci plov" və s. plovlar məşhurdur. Bu bölgədə balıq yeməkləri çox gözəldir.

"Balıq sırdağı, qovurma balıq, şor balıq" və s.

Kükülər: Qozlu kükü, balıqlı kükü, səbzə kükü, kartof küküsü, badımcan küküsü, ət küküsü və s.

Qazan xörəklərindən: Taskababı, turşu kabab, qiymə, badımcan sırdağı, yelpənək dolması, mərci şorbası, bozbaş və s. Bunları sadalamaqla bitirmək olmaz. Ona görə sizi Lənkərana gəzməyə, istirahət etməyə və gözəl nemətlərindən dadmağa dəvət edirik.

**Mətnə aid suallar:**

1. Lənkəran harada yerləşir?
2. Oranın təbiəti barədə nə deyə bilərsiz?
3. Lənkəran hansı dənizin sahilində yerləşmişdir?
4. Bura turistləri özünə necə cəlb edir?
5. Lənkəranın tarixi yerləri haqqında nə deyilir?
6. Burada hansı park və qoruqdan söhbət gedir?
7. Hansı heyvan və bitkilər vardır?
8. Lənkəran mətbəxinə xas olan yeməklər hansılardır?

***Tapşırıq 266.*** Mətnə aid ifadə yazmaq.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - Siz Bakıdan başqa Azərbaycanın daha hansı şəhərlərində olmusunuz? | -Кроме Баку, вы еще в каких городах Азербайджана побывали? | -Which towns of Azerbaijan have you been, except Baku? |
| Keçən həftə məni Sumqayıta aparmışdılar. Sumqayıt gənc şəhərdir. | -На прошлой неделе меня взяли в Сумгаит. Сумгаит молодой город. | - Last week I was taken to Sumgait. Sumgait is a young city. |
| - Bəs Gəncəyə getmək istərdiniz? | - А хотели бы поехать в Гянджу? | -Would you like to go to Ganja? |
| - Əlbəttə. Mən bilirəm ki, Gəncə Nizami Gəncəvinin və Məhsəti Gəncəvinin vətənidir. Bunu mənə Azərbaycan dili müəllimi deyib. | - Конечно. Я знаю, что Гянджа родина Низами Гянджеви и Мехсети Гянджеви. Это мне сказала учительница по азербайджанскому языку. | - Of course. I know that Ganja is the birthplace of Nizami and Mekhseti. My teacher of Azeri language told this to me. |
| - Siz Qobustanda olmusunuz? | - Вы были в Кобустане? | - Have you been to Gobustan? |
| - Yox, mən heç bu barədə eşitməmişəm. | - Нет, даже об этом не слышал. | -I even didn’t hear about it. |
| - Qobustan ən qədim insanların yaşadığı ərazilərdəndir. Burada eramızdan neçə min il əvvəl yaşamış insanların yaradıcılığı - qayaüstü | - Кобустан одна из территорий, где жили древние люди. Здесь сохранились наскальные рисунки - творчество людей живших несколь- | - Gobustan is one of the territoties which was settled by ancient people. The Rock Pictures - the creation of people who lived there. Now this |

| | | |
|---|---|---|
| rəsmləri qorunub saxlanılır. Bura indi açıq muzeydir. | ко тысяч лет назад до нашей эры. Сейчас это место -открытый музей. | place is a museum in open air. |
| Necə maraqlıdır?! Mən oraya getmək istəyirəm. | - Как интересно?! Я хочу поехать туда. | -How interesting?! I'd like to go there. |
| Gələn həftə gedərik. | - На следующей неделе поедем. | We'll go there next week |
| Danışdıq. | - Договорились. | Agreed. (It's a ded) |

## 20-ci dərs

1. Qeyri-müəyyən əvəzliklər.
2. Söz birləşmələrinin bir sözlə ifadəsi.
3. Sadə cümlədə söz sırası.
4. Mətn. S.Vurğun (həyatı).
5. Dialoq.

### 1. Qeyri-müəyyən əvəzliklər.

***Qeyd:*** *İsmin yerində işlənir və qeyri - müəyyən şəxsi və ya əşyanı bildirir. Ən çox işlənən qeyri-müəyyən əvəzliklər bunlardır: biri, kimi, kimsə, nə isə, hamı, bəzisi, hərə. Qeyri-müəyyən əvəzliklər kim? və nə? sualına cavab verir.*

***Tapşırıq 267.*** Cümlələri köçürün, nöqtələrin yerinə aşağıda verilmiş qeyri-müəyyən əvəzlikləri əlavə edin.

*(M.Paşayev "Bir gəncin manifesti").*

...demək istədi, deyə bilmədi. ...qızıl verib ... mal-qara, ... mülki-maaş. ... onların müqəddəratını soruşmur, xatirəsini saxlamır. ... nahara oturanda, ona bir parça çörək verdilər. Piyadalardan ... qoltuğunda boxça, ... çiynində heybə, ... dalında bir şələ odun, ... qucağında samovar aparır. ... yarım put kəpəkli un alacaq, ... pulunu yarmaya verəcək, ... hisdən qurtulmaq üçün yeddilik lampasına şüşə alacaq. ... alacağı şeyi dönə-dönə xəyalından keçirir. ... "Yusif və Züleyxa" - xalçasına baxırdı. ... xalçanın qiymətini soruşur, ... hara malı olduğunu soruşurdu..

O baxdıqca ... da maraq artırdı. ... maraqla Sonaya baxırdı.

*(biri, kimi, kimsə, nə isə, hamı, bəzisi, hərə)*

***Tapşırıq 268.*** *Heç nə, biri, birisi, kimi, kimisi* qeyri müəyyən əvəzlikləri ismin hallarına görə dəyişin və cümlələr düzəldin.

***Tapşırıq 269.*** *Kimsə, biri, hamı, filankəs əvəzliklərini* qeyri-müəyyən əvəzliklərini hallandırın. Nümunə:

*A.* hamı
*Y.* hamının
*Yön.* hamıya
*T.* hamını
*Yer.* hamıda
*Çıx.* hamıdan

***Tapşırıq 270.*** *Hamı, bəzisi* qeyri-müəyyən əvəzliklərinin hər birinə beş cümlə qurun.

***Tapşırıq 271.*** *Biri, kimi* qeyri-müəyyən əvəzliklərinin hər birinə üç cümlə qurub dəftərinizə yazın.

## 2. Söz birləşmələrinin bir sözlə ifadəsi.

> ***Qeyd:*** *Söz birləşməsi iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Məs.: Diqqəti dağıtmaq, qəşş etmək, ağlı çaşmaq.*

***Tapşırıq 272.*** Verilmiş cümlələrdəki söz birləşmələrinin altından xətt çəkin.

1. Sinfi səliqəyə salmaq üçün şagirdlər iməcilik təşkil etdilər. 2. Tacirlər xərcə düşməkdən qorxurdular.3.İclasa tələbələrin imtahan sessiyasının nəticələri barədə məsələ qoydular.4. Məsələnin həlli üçün baş işlətmək lazım idi.5. Bəzi adamların ipini yığmaq lazımdır. 6. Yalandan bir-birimizin üzünə gülmək lazım deyil.7. O, bir payız səhəri Aygünə rast gəldi. 8. Hər bir uşağa ana qayğısı hava və su kimi vacibdir. 9. Gözüm səndən su içmir, yaxşı adama oxşamırsan.

***Tapşırıq 273.*** *Vicdan, təkan, ürəyim, əzabı, dikbaşlıq, vermək, danmaq, etmək, dilini tutmaq, açığı, kəsmək* sözlərinin bir-biri ilə uyğun gələnini birləşdirib cümlədə işlədin.

***Tapşırıq 274***. Verilmiş sabit söz birləşmələrini bir sözlə ifadə edin.

| | |
|---|---|
| Başa çatdırmaq- | Acığı tutmaq – |
| Abrını almaq – | Göz zilləmək – |
| Bağrına basmaq – | Fikir yürütmək – |
| Əldən salmaq – | Göz yaşı axıtmaq – |
| Dövrü keçmək – | Qulaqburması vermək – |
| Kələk qurmaq – | Qulaq asmaq – |
| Dünyaya gəlmək – | Vaxt keçirmək – |
| Yuxuya getmək – | Ağzına su almaq – |
| Ətə-cana gəlmək – | Böhtan atmaq – |

***Tapşırıq 275.*** Aşağıdakı söz birləşmələrinin mənasını anlamağa çalışın və cümlədə işlədib müqayisə edin.

1) çarəsiz qalmaq; 2) cəza vermək; 3) üzünə gülmək; 4) hörmət bəsləmək; 5) yeri deyil; 6) ürəyini boşaltmaq; 7) əliaçıq olmaq; 8) razılığa gəlmək; 9) dilini tapmaq; 10) dağ havası.

***Tapşırıq 276.*** Verilmiş krossvordda sabit söz birləşmələrini bir sözlə ifadə edin.



<u>Yuxarıdan aşağıya</u>:
1. Yuxuya getmək –
3. Ayağına tüpürmək –
5.Xəbər vermək –
7.Qulaq asmaq –

<u>Soldan sağa:</u>
2. Ömür sürmək –
4. Cana gəlmək –
6.Söz açmaq –
8.Ətə -cana gəlmək –

**Şeiri əzbərləyin. N.Kəsəmənli “Biri vardı, biri yox”**

“Olan olub keçən keçib bəlkə də,
İndi daha kövrəlməyin yeri yox.
Ömrüm boyu belə gəlib mənimki;
Əvvəlindən biri vardı, biri yox.
*****
Gözlərimə doldurmuşam yağışı,
Bir köynəkdə çıxarmışam mən qışı,
Şalvar, köynək geyinirdi tay- tuşum
Bizim evdə biri vardı, biri yox.
*****
Mən orduya nələr qoyub getmişdim,
Ürək alıb, ürək qoyub getmişdim,
İki qıza könül verib getmişdim,
Qayıdanda biri vardı, biri yox”.

**Mənbə:** N.Kəsəmənli. Seçilmiş əsərləri. Bakı: “Şərq-Qərb”, 2004, s.175

## 3. Sadə cümlədə söz sırası.

***Qeyd:*** *Azərbaycan dilində cümlədə söz sırasına ciddi nəzarət edilir. Adətən*

*cümlənin əvvəli isim (mübtəda), sonu isə feillə (xəbərlə) bitir. Məs.: Səməd Vurğun "Vaqif" dramını yazmışdır. Biz YUNİSEF-in işini dəstəkləyirik.*

***Tapşırıq 277.*** Aşağıdakı sözlərdən sadə cümlələr düzəldin və söz sırasına diqqət yetirin.

1. Oxuyurdu, Qumru, yazıb, dərslərini.
2. Sürünü, çobanlar, apardı, dağlara bu gün.
3. Xoşuna, toxuduğu, Sonanın, xalça, gəldi, hamının.
4. Dayandı, maşın, yarı, yolda.
5. Gül, həyətdən, topladı, İradə.
6. Getdi,bu, il, Tofiq, əsgərliyə, Orxan, və.
7. Dağın, qartallar, uçurdu, ətrafında.
8. Taxdı, eynəyi, Ayxan, gözünə.
9. Oğluna, Səlim, etdi, toy.
10. Zəng, telefon, çaldı.

***Tapşırıq 278.*** "Azərbaycan", "əbədiləşdirmək" sözlərindəki hərflərdən istifadə etməklə yeni sözlər yaradın.

*Nümunə*: Azərbaycan: az, Azər, Araz, aran, zər ....
Əbədiləşdirmək: bələd, bərk, bilək, dəmir, dil ...

## 4. Mətn.

### Səməd Vurğun (həyatı)

Səməd Yusif oğlu Vəkilov 1906-cı il martın 21-də Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olmuşdur. Səməd 12 yaşına qədər doğma kənddə yaşayıb, onun təbiətinə qəlbən bağlanmışdı.

1918-24-cü illərdə Qazax müəllimlər seminariyasında oxuyub. Əvvəlcə Qubada, sonra Gəncədə müəllimlik edib. 1929-cu ildə Moskva Dövlət Universitetinin dil və ədəbiyyat fakültəsinə daxil olub, iki il orada oxuduqdan sonra Bakıya qayıtmış və aspiranturada təhsilini davam etdirmişdir. O, 1930-cu ildən başlayaraq şeirlərlə yanaşı bir sıra poemalar da yazmışdır. Onun «Komsomol poeması», «Zəncinin arzuları», «Aygün», «Muğan» və s. poemaları Azərbaycan ədəbiyyatının incilərindəndir.

S .Vurğun Azərbaycan ədəbiyyatı tarixində bir dramaturq kimi də görkəmli yer tutur. Onun «Vaqif», «Xanlar», «Fərhad və Şirin», «İnsan» pyesləri məşhurdur.

Səməd Vurğun tərcümə sahəsində də böyük işlər görmüşdür. O, A.S.Puşkinin «Yevgeni Onegin» mənzum romanmı, M.Qorkinin «Qız və ölüm» poemasını, Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poemasını Azərbaycan dilinə tərcümə etmişdir.

Azərbaycan torpağını və təbiətini ürəkdən sevdiyinə və ona vurğun olduğuna görə Səməd özünə Vurğun təxəllüsü götürmüşdür.

S.Vurğun görkəmli sənətkar olmaqla bərabər, həm də elm xadimi idi. O, 1954-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Bundan başqa o, Azərbaycan Yazıçılar İttifaqının sədri, Respublika Elmlər Akademiyasının vitse-prezidenti, SSRİ Ali Sovetinin deputatı olmuşdur.

Xalq şairi Səməd Vurğun 1956-cı ildə Bakıda ürək xəstəliyindən vəfat etmişdir.

**Mənbə:** S.Vurğunun əsərləri, I c.

***Tapşırıq 279.*** Suallar əsasında ifadə yazmaq.

**5.Dialoq.**

| | | |
|---|---|---|
| - Camaşırxana (kimyəvi-təmizləmə) haradadır? | - Где находится прачечная (химчистка)? | -Where is the laundry (dry cleaner's)? |
| - Mən bunu kimyəvi təmizləməyə vermək istərdim. | -Я хотел бы сдать это в химчистку. | - I would like this dry cleaned |
| - Zəhmət olmasa, köynəklərə nişasta vurmayın. | - Не крахмальте рубашки, пожалуйста. | - No starch on the shirts, please. |
| - Nə vaxt hazır olacaq? | - Когда будет готово? | - When will it be ready? |
| - Mən şeyləri cümə günü günorta götürmək istərdim. Bu mümkündür? | - Я хотел бы забрать вещи в пятницу днем. Это возможно? | I would like to have it Friday afternoon. Is it possible? |
| - Bir yükləmə paltarın təxmini çəkisi nə qədər olmalıdır? | - Какой приблизительный вес одной загрузки белья? | - How much is a load? |
| - Bağışlayın, bu paltaryuyan maşım necə idarə etmək olar? | - Простите, как управлять этой стиральной машиной? | - Excuse me. How do operate this washing machine? |
| - Bir yükləməyə nə qədər sabun (yuyucu toz) lazımdır? | - Сколько мыла (порошка) нужно на одну загрузку? | - How much soap (detergent) should you use for one load? |
| -Nə vaxt sabun əlavə etmək lazımdır? | - Когда добавлять мыло? | - When do you add soap? |
| - Hansı yuyucu tozdan istifadə edirsiniz? | - Каким порошком вы пользуетесь? | - What detergent do you use? |
| - Bu nə qədər vaxt aparar? | - Сколько это займет времени? | -How long will it take? |

## 21-ci dərs

1. Feilin məlum və məchul növü.
2. Rəsmi sənədlərin yazılış qaydası (izahat, arayış).
3.İmla. Tar.
4.Mətn. Çövkən.
5. Dialoq

### 1.Feilin məlum növü və feilin məchul növü.

**Qeyd:** *Məlum növdə iş görən məlumdur. Özünəməxsus şəkilçisi yoxdur. Məs.: Ədilə otağı süpürdü. Bu cümlədə süpürdü feili məlum növdədir. Feillər təsirli və təsirsiz ola bilər.*

**Qeyd:** *İş və hərəkəti icra edən qrammatik cəhətdən məlum olmur. Təsirli feillərə - ıl$^4$, - ın$^4$ şəkilçiləri qoşulmaqla düzəlir. Məs.: süzdü-süzüldü, sildi-silindi və s.*

***Tapşırıq 280.*** Mətni oxuyun. Məlum növdə olan feilləri dəftərinizə yazın.

### Çay dəstgahı

"Qapı açıldı, Zəminə əlində podnos içəri girdi. Podnosu stolun üstünə qoydu, içində nə vardısa, iri çayniki, büllur vazdakı mürəbbəni, armudu stəkanları yerbəyer elədi. Sonra stəkanlara çay süzdü, birini Berqmanın, birini də ərinin qabağına qoydu. Özü divar boyu sıralanmış parusin çexollu nahar stullarından birini altına çəkib, ərinin yanında, Berqmanla üzbəüz əyləşdi. Jurnal stolu alçaq olduğundan dizləri stolun qırağına dirəndi...

Berqman stəkanın qırağından tutub burnuna yaxınlaşdırdı və çayı iyləyə-iyləyə dedi:

– Bəh, bəh. Buna deyərəm çay. Əla. Vallah, nə qədər orda-burda çay içmişəm, amma Zəminə xanımın dəmlədiyi çaydan görməmişəm. Belə çayı gündə mənə versələr, ömrümdə xəstələnib eləmərəm".

**Mənbə:**C.Məmmədquluzadə, Bak: "Öndər" nəşriyyatı, 2004, s.357-371

***Tapşırıq 281.*** Feilləri məlum növdə olan atalar sözlərini öyrənin.

Yanan yerdən tüstü çıxar.
Yanğından qalanı alov apardı.
Yay yetirir, qış itirir.
Göz gördü, könül sevdi.

***Tapşırıq 282.*** Verilmiş feilləri məlum növdə cümlələrdə işlədin.
süz, apar, öyrən, göndər, oxu, yaz, soruş, bil, ək, tut.

***Tapşırıq 283.*** N.Xəzrinin "Ana dili" şeirindəki məlum növ feillərini seçib yeni cümlələr qurun.

"Səni şəfəq bildim bu cahanda mən,
Bəzən şimşək olub qəzəblə çaxdın.
İlk dəfə dünyaya göz açanda mən,
Qəlbimə günəşin özüylə axdın.

Ana gözlərindən süzən nur kimi
Hopdun ürəyimə sən gilə-gilə.
Hər sözün, hər kəlmən bəzənməyibmi,
Mehriban anamın təbəssümüylə.

Ucalır bağçadan bülbülün səsi,
Çay susur, əsməyir çəməndə yel də.
Nə qədər doğmadır onun nəğməsi,
Bülbül də elə bil ötür bu dildə".

**Mənbə:** Seçilmiş əsərlər, 2 cild, I c., Bakı: "Lider" nəşriyyatı, 2004

***Tapşırıq 284.*** Cümlələrdəki məlum növdə verilmiş felləri məchul növə çevirib oxuyun, məna fərqlərinə diqqət edin.

**-ıl, -il, -ul, -ül**

1. Müəllim qapını açdı. Qapı...
2. Fərid bəy məktubu yazdı. Məktub...
3. Poçtalyon məktubu ünvanına çatdırdı. Məktub...
4. Polislər oğrunu tutdular. Oğru...
5. Həkim xəstənin dişini çəkdi. Xəstənin dişi...
6. Bu evi 8 aya tikdik. Ev...

**-ın, -in, -un, -ün**

1. İnsanlar gəmini gördü. Gəmi...
2. Ayna kitabı oxudu. Kitab...
3. Hakim hökmü oxudu. Hökm...
4. Səməd evə bir saat aldı. Evə bir saat...
5. Tələbə yazı taxtasını sildi. Yazı taxtası...

***Tapşırıq 285***. Nöqtələrin yerinə müvafiq felləri yazın.

1. Yeni mövzu müəllim tərəfindən...
2. Neft yataqlarında dərin quyular qazmaq üçün yeni və müasir alətlər...
3. Bilik oxumaq yolu ilə...
4. Xəstə... və vaxtından əvvəl evə...
5. Səfir geri...
6. Top qapıdan...
7. Məktub vaxtında ünvanına...

8. Bu gözəl tablolar gənc rəssam Rəşad Cabbarov tərəfindən...
9. C.Cabbarlının hekayə və dramları maraqla...
10. H.Cavidin dram əsərləri hələ öz sağlığında tamaşaya...
İstifadə etmək üçün fellər - qoyulurdu, çatdırıldı, izah edilir, əldə edilir, kəşf edilmişdir, çağırırdı, müalicə olundu, göndərildi, oxunur, keçirildi, çəkilmişdir.

**2. Rəsmi sənədlərin yazılış qaydası.**

***Qeyd:** Rəsmi münasibətləri bildirmək üçün yazılmış sənədlərə ərizə, protokol, arayış, qərar, qətnamə və s. aiddir. Bu sənədlərdə fikir aydın, qısa, konkret izah olunur.*

Bakı Dövlət Universitetinin rektoru
cənab E.Babayevə
Filologiya fakültəsinin IV kurs tələbəsi
Məmmədli Gülnazdan

**İZAHAT**

Qəfil xəstəlik üzündən 12.04.2021-cü il tarixində "Azərbaycan tarixi" fənnindən olan imtahana gələ bilməmişəm. Xəstəxanadan arayışım da var.

Xahiş edirəm, imtahanda iştirak etməməyimi üzrlü hesab edəsiniz.

**İmza:** **Məmmədli Gülnaz**
**15.04.2021**

**ARAYIŞ**

Verilir Əlizadə Rəhim Arif oğluna ondan ötrü ki, o həqiqətən, Babək prospekti 153$^{A}$, mənzil 15-də yaşayır.

**25 saylı MİK bələdiyyəsinin sədri:** **A.E.Məmmədov**
**11 mart 2021-ci il**

**3.İmla.**

**"Tar"**

Tar, kamança, zurna və qaval bizim qədim milli musiqi alətlərimizdir.

Məşhur tarzən Mirzə Sadıqcan 1846-cı ildə anadan olmuşdur. Virtuoz tarzən kimi Qafqazda və İranda geniş şöhrət qazanmışdır. Tarı məhz o təkmilləşdirmişdir. O, tara kök simləri əlavə etmiş, onların sayını beşdən on birə çatdırmışdır. Əvvəllər tarı diz üstündə çalardılar. Sadıqcan ilk dəfə tarı sinədə çalmağa başlamışdır. Onun təkmilləşdirdiyi tar Qafqazda və Orta Asiyada geniş yayılmış və Azərbaycanın musiqi simvoluna çevrilmişdir. 1996-cı ildə Bakıda musiqisevərlər və ictimaiyyət Sadıqcanın 150 illik yubileyini təntənə ilə qeyd etmişdir.

**Bunları bilməlisiniz!**

Ay - Yer planetinin yeganə təbii peykidir və Yerə ən yaxın olan göy cismi Yer və Ayın mərkəzləri arasındakı məsafə orta hesabla 384 467 km-dir. Ayın Yer ətrafında bir tam dövrü 27 gün, 7 saat, 44 dəqiqə və 2803 saniyədir. Saatda 3679 km yolu qət edir.

Bizim planetin ətrafında 4 milyard ildir ki, fırlanır. Ay Yerdən təxminən 4 dəfə kiçik olan daş kürədir. Hər iki planet qarşılıqlı cazibə qüvvəsi hesabına öz orbitlərində dayanır.

Yerdən Ayın ancaq bir yarımkürəsi görünür. Ayın Yer ətrafına fırlanma orbiti tam çevrə deyil. Odur ki, Ay Yerə bəzən yaxınlaşır, bəzən isə uzaqlaşır.

Göydə olan ən parlaq obyekt Aydır. Ay, o öz-özünə işıq saçmır. Ay işığı - Günəş şüalarının əksidir.

2009-cu il iyulun 20-də insanın Ay səthinə ilk dəfə ayaq basdığı gündən 52 il keçir.

52 il əvvəl 1969-cu il iyulun 20-də insan ilk dəfə Ayın səthinə ayaq basıb. NSA-nın Apolla 11 kosmik gəmisi üç astronavtdan ibarət ekipajla SSRİ və ABŞ-ın kosmik yarışındı Aya ilk  çatan ekipaj olub.

**Dinləmə materialı.**

**<u>4. Mətn.</u>**

**Çövkən**

“Çövkən” Azərbaycanda milli atüstü oyun növlərindən biridir.

Komanda oyun növü olan “Çövkən” yarışları eramızın birinci minilliyinin ortalarında formalaşmışdır. Arxeoloji qazıntılardan,Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərindən, “Kitabi-Dədə Qorqud” boylarından məlum olur ki, Azərbaycanda “Çövkən” in tarixi hətta VI - VII əsrlərə gedib çıxır. Azərbaycanda “Çövkən” oyununda həm kişilər, həm də qadınlar iştirak edirdilər.



“Çövkən”, yaxud, “çoğan” sözü Azərbaycanda “ağaccıq” kimi işlədilmişdir. “Çövkən” oyununun da adı bu sözdən götürülmüşdür. Oyunçu bir əli ilə çövkən ağacı vasitəsilə topu vurur, digər əli ilə atı idarə edir - onu sağa, sola, geriyə döndərir, qəfildən dayandırır və ya irəli çapır. Oyun musiqinin müşayiəti ilə keçirilir. Atlılar iki dəstəyə bölünür. Əsas məqsəd topu çövkənlə rəqib qapısından keçirməkdir. Qarabağ atları “Çövkən” oyunu üçün ən ideal atlardır.

XIX əsrdə Hindistandan İngiltərəyə gətirilən bu oyun “Polo” adı ilə ilk dəfə 1900-cü ildə Parisdə II Olimpiya Oyunlarının proqramına daxil edilmişdir.

"Çövkən" milli Azərbaycan oyunu kimi YUNESKO-nun Mədəni İrs Siyahısına salınmışdır. Bu oyun cəsurluq, qəhrəmanlıq və çeviklik rəmzidir.

**Mənbə:** Vikipediya, UNESCO-nun Qeyri-maddi irsinə 2013-cü ildə daxil olub

## 5. Dialoq.

| | | |
|---|---|---|
| Oleq, Sandi, Ira, Tom və Orxan bazar günü teatra getmək istəyirlər. | Олег, Санди, Ира, Том и Орхан хотят пойти в воскресенье в театр. | Oleg, Sandy, Ira, Tom and Orkhan want to go to the theatre on Sunday. |
| Orxan - Uşaqlar, artıq bir neçə aydır ki, Bakıdasınız, ancaq hələ opera teatrına getməmisiz. Gəlin, opera və balet teatrına gedək. | Орхан - Ребята, уже почти месяц вы в Баку, а пока в Оперном театре не были. Давайте, пойдем в театр оперы и балета. | Orkhan -Friends, you have been to Baku for a months already, but you haven't been to opera theatre. Let's go to the theatre of Opera and Ballet. |
| İra - Orxan, düz deyirsən, biz teatra getməmişik. Bu, çox pisdir. Biz heç bilmirik ki, Bakıda daha hansı teatrlar var? | Ира - Орхан, правильно, мы не были в театре. Это очень плохо. Мы даже не знаем какие ещё есть театры в Баку. | Ira — You're right, we haven't been to the theatre. It's very bad. We don't even know what other theatres are there ip Baku? |
| Orxan - Bakıda Azərbaycan Dövlət Dram teatrı, Rus Dram teatrı, Musiqili Komediya teatrı, Uşaq və Gənclər teatrı, Opera və Balet teatrı, Kukla teatrı, Pantomima teatrı və başqa kiçik teatrlar var. | Орхан - В Баку есть Азербайджанский государственный драматический театр, Русский драматический театр, Театр музыкальной комедии, Театр юного зрителя, Театр оперы и балета, Кукольный театр, Театр пантомимы и ещё есть другие маленькие театры. | Orkhan - There are Azerbaijan State Drama Theatre, Russian Drama Theatre, Musical Comedy Theatre, Theatre of Young people, Theatre of Opera and Ballet, Puppet's theatre, Theatre of Dumb Show and others in Baku. |
| Tom - Gəlin ayda bir dəfə - bazar günü birinə gedək. | Том - Давайте, один раз в месяц, по воскресеньям, будем ходить в один из театров. | Tom - Let's go once a month, on Sunday to one of these theatres. |

## 22-ci dərs

1. Feilin qayıdış növü.
2.Vergülün işlənməsi.
3. Aşıq Ələsgər "Dağlar" şeiri.
4.Mətn. SOCAR.
5. Dialoq.

### 1. Feilin qayıdış növü.

***Qeyd:*** *Qayıdış növdə iş görən məlum olur, iş subyektin öz üzərində görülür, əsasən, -ıl*[4]*, - in*[4] *(n) şəkilçiləri vasitəsilə düzəlir. Məs.: Gül açıldı, uşaq yuyundu, darandı. Qayıdış növ feilləri əsasən, təsirli feillərdən düzəlir və təsirsiz olur. Məchul feillərdə iş görən məlum olmur, qayıdış növdə iş görən məlumdur.*

***Tapşırıq 286.*** Aşağıdakı feillərin kökünə *-ıl*[4]*, - in*[4] sözdüzəldici şəkilçilər artırıb feillər düzəldin və cümlədə işlədin.

*Nümunə:* sıxılmaq, sevinmək və s.

Sıx (maq), gör (mək), aç (maq), sər (mək), bur (maq), say (maq), sil (mək) qız (maq), sev (mək), vur (maq).

***Tapşırıq 287.*** Qayıdış feillərinə diqqət yetirin, dəftərinizə yazın.

Duman çəkildi, üzü tutuldu, gül açıldı, uşaq yuyundu, su duruldu, ana sevindi, adam dilləndi, qıza vuruldu, irəli atıldı, kölgə göründü, rəngi açıldı.

***Tapşırıq 288.*** *Çəkilmək, durulmaq, qırılmaq, yuyunmaq* feillərini cümlədə xəbər kimi işlədin.

***Tapşırıq 289.*** Verilmiş cümlələri məchul və qayıdış növlərə ayırıb izah edin.

1. Hava tutuldu, yağış yağdı. 2. Qapı qəflətən açıldı. 3. Günəş çıxdı, səhər açıldı. 4.Şəhərdə yollar genişləndirilir. 5. Tarlada yer əkildi. 6. Uşaqlar üçün nağıl oxundu. 7. Quş qanadlandı, uçdu. 8. Top meydana atıldı. 9. Əsgərlər meşədə göründü. 10. Şəkillər çəkildi, divara asıldı.

***Tapşırıq 290.*** Yu, sər, yay, al, suz sözlərini əvvəlcə məchul, sonra qayıdış növü kimi cümlələrdə işlədin.

### 2. Durğu işarələri (" , "). Vergüllərin işlənmə qaydası.

*Vergül (,) sözləri, birləşmələri və cümlələri sərhədləşdirmək üçün işlədilən durğu işarəsidir. Bu işarədən aşağıdakı məqamlarda istifadə olunur:*

*a) Cümlələrin həmcins üzvləri və sadalanan sözlər arasında;*
*Məs.: Yer, göy, dəniz, udduğumuz bu hava....*
*b) Tabeli və tabesiz mürəkkəb cümlələrinin arasında;*
*Məs.: Gələn gəldi, gedən getdi; Özüm belə dedim ki, məni qınamasınlar.*
*c) Cümlələrdə əlavə və xüsusiləşmələri ayırmaq üçün;*
*Məs.: Süfrəyə pendir qoyuldu, əsl motal pendiri*
*ç) Cümlə üzvləri ilə qrammatik cəhətdən bağlanmayan sözləri ayırmaq üçün; Xitab və ara sözlər. Məs.: Bu xəbər məni sevindirdi, uşaqlar. Deməli, sən bu işdən heç bir nəticə çıxarmadın.*
*d) "O" şəxs əvəzliyindən sonra isim, sifət, say, modal sözlər gəlirsə, vergül qoyulur. Məs.: O, gözəl qızdır. "O" şəxs əvəzliyindən sonra feil, əvəzlik və köməkçi nitq hissələri gəlirsə, vergül qoyulmur. Məs.: O gəldi. O da bunu bilirdi.*

***Tapşırıq 291***. Şeir parçalarında buraxılmış vergülləri yerinə yazın.

Oxu tar oxu tar!
Səni kim unudar!
Ey geniş kütlənin acısı şərbəti
Alovlu sənəti!... *(M.Müşfiq).*

*****

Get, oğlum, get sənə uğurlar olsun
Taleyin qüvvətli eşqin var olsun!
Döyüş meydanında ürəyi daş ol!
Xainə rəhm etmə haqqa yoldaş ol! (*S.Vurğun).*

*****

Nə duman çəkilir başımdan nə çən
Tufanlı boranlı bağam mən nəyəm?!
Nə bilim dünyada mən öz əlimdən
Bəlkə də birinci şikayətçiyəm *(N.Həsənzadə).*

***Tapşırıq 292.*** Aşağıda verilmiş cümlələrdə vergüllərin qoyulma yerinə fikir verin.
1. Adam gah dincəlir, gah xəyala gedir, gah qulağı səsə düşür, gah da sakit və qaranlıq yerə batıb qalır *(M.Cəlal).*
2. Tatar da, gürcü də, rus da, türkmən də,
Ehtiram saxlayır bu böyük ada *(S.Vurğun).*
3. Həsən kişi elmin faydasını anlamaq istəyirdi, ancaq ifadə edə bilmirdi *(S.S.Axundov*)
4. Ay qız, Cavahir, gəl bu qab-qacağı oraya apar *(C.Cabbarlı).*
5. Mən özüm, yoldaşlar, bu kənddənəm *(C.Cabbarlı).*
6. Yaz səhəri idi, quşlar oxuyur, çiçəklər gülür, hamı şad idi.
7. Dan yeri yavaş-yavaş ağarırdı, kəskin soyuq hiss edilirdi.
8. Siz tələbələr, üzərinizə düşən vəzifələri şərəflə yerinə yetirməlisiniz.
9. Yaxşı, mən getdim.

10. O, kitab oxuyur.

**Sinif işi.** **“**İsaak Nyuton” mövzusunda ifadə yazın.

Başına alma düşəndən sonra Yerin cazibə qanununu kəşf eləmiş Nyutonu kim tanımır ki...

İsaak Nyuton İngiltərədə Orantem yaxınlığında fermer ailəsində doğulub. Nyuton atasının ölümündən 3 ay sonra dünyaya gəlib. 3 yaşına çatanda ana Xanna keşiş Smitə ərə gedib qonşu kəndə köçəndən sonra onu nənəsi tərbiyə edib. Amma İsaak anasını çox sevir və onu atmasına baxmayaraq ona çox bağlı idi. Atalığından isə zəhləsi gedirdi.

Atalığı öləndən sonra Nyuton yenidən ailəsiylə birgə yaşamağa başladı. Uşaqlıqda, müasirlərinin xatirələrinə görə, Nyuton qapalı həyata, tənhalığa üstünlük verən idi, çoxlu kitab oxuyur və hərəkətli oyuncaqlar — saat, dəyirman düzəltməyi sevirdi. Kolleci bitirəndə Nyuton bakalavr rütbəsini aldı.

İsaak Nyuton ingilis riyaziyyatçısı, mexanik və fiziki, astronom və astroloqu, müasir fizikanın banilərindən biri olub. Nyuton mexanikanın əsas qanunlarını formalaşdırıb, bütün fiziki hadisələrin təsvirinin vahid fiziki proqramını yaradıb.

Günlərin bir günü Nyuton bir alma ağacının altında əyləşdiyi zaman bir almanın ağacdan yerə düşdüyünü gördü. Bu kiçik və adi hadisə Nyutonun diqqətini çəkdi, o, illərlə bunun necə bas verdiyini düsündü: «alma ağacdan qopduqda nə üçün göyə yox, məhz yerə düşdü?». Nəhayət, neçə ildən sonra yerin cazibə qüvvəsi haqqında qanunu kəşf edib belə nəticəyə gəldi: Yer kürəsində cazibə qüvvəsi mövcuddur. Elə bu səbəbdən də hər şey yerə düşür. Nyutondan qabaq heç kim cazibə qanununu kamil surətdə kəşf etməmişdi. O, Ümumdünya cazibə qanununu kəşf edib, planetlərin Günəş ətrafında və Ayın Yer ətrafında hərəkətinin, habelə okeanlarda qabarma və çəkilmənin izahını verib.

***Tapşırıq 293.*** *“*Bərabərlik”, “xoşbəxtlik” sözlərindəki hərflərdən istifadə etməklə yeni
sözlər yaradın və cümlədə işlədin.

*Nümunə:* Bərabərlik: – il, ar, bərabər,  ilk, ərik, ər, bar
Xoşbəxtlik – bəxt, ət, ilk, il, bol, əl, it, kəl, şəkil

**3. Aşıq Ələsgər “Dağlar” şeiri.**

“Bahar fəsli yaz ayları gələndə,
Süsənli sünbüllü lalalı dağlar.
Yoxsulu ərbabı şahı gədanı
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır laləzar olur,

Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti məlalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar".

**Mənbə:** A.Ələsgər. Əsərləri. Bakı: "Şərq-Qərb", 2004, s.35-36

**4. Mətn.**

## SOCAR

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) - dünyada tanınmış milli neft şirkətlərindən biridir. O, neftin çıxarılması, daşınması, emalı, o cümlədən elmi-tədqiqat və layihə işlərini yerinə yetirir. Şirkət müasir texnologiyalardan istifadə edir, ekoloji təhlükəsizliyi nəzərə alır. SOCAR Azərbaycanda təhsilin inkişafı üçün böyük işlər görür. Şirkətin nəzdində "Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi" İctimai Birliyi yaradılmışdır. Birliyin məqsədi uşaqlara, yeniyetmələrə və gənclərə beynəlxalq standartlara uyğun təhsil vermək, Azərbaycanda beynəlxalq təhsil sistemlərini tətbiq etmək, Avropanın aparıcı təhsil standartlarına inteqrasiya etməkdir. Birlik təhsil müəssisələri yaratmaq, xeyriyyə, maarifləndirmə tədbirləri keçirmək və s. hüquqlara malikdir. Onun nəzdində Bakı İstedadlar Təhsil Kompleksi, Bakı Fransız Liseyi Təhsil Kompleksi, eləcə də Qafqaz Universiteti fəaliyyət göstərir. Bu məktəblərdə yerli və əcnəbi vətəndaşlar məktəbəqədər, ümumi və ali təhsil alır.

**Mənbə:** Vikipediya

### Mətnə aid suallar:

1. SOCAR nə deməkdir?
2. O, hansı işləri yerinə yetirir?
3. Azərbaycan Beynəlxalq Təhsil Mərkəzinin məqsədi nədir?
4. Onun nəzdində hansı məktəblər var?

***Tapşırıq 294.*** "SOCAR" mətninin əsasında ifadə yazmaq.

## Vəhşi heyvanlar

**Şir**
**Lion** • [ˈlaɪən]
**Лев**



**Canavar**
**Wolf** • [wʊlf]
**Волк**



**Tülkü**
**Fox** • [fɒks]
**Лиса**



**Fil**
**Elephant** • [ˈelɪfənt]
**Слон**



**Zürafə**
**Giraffe** • [dʒəˈrɑ:f]
**Жираф**



**Çaqqal**
**Jackal** • [ˈdʒækl]
**Шакал**



**5. Dialoq.**

| | | |
|---|---|---|
| Rəşad qoşalüləsini götürüb kəndin kənarına yola düşdü. Dostu Fərid qarşısına çıxdı. | Рашад, взяв двухствол-ку, отправился на край деревни. На встречу ему вышел друг Фарид: | Rashad took his double-barrelledgun and went to the edge of the village. On the way he met his friend Farid. |
| F. - Hara belə, Rəşad? | Ф. - Куда это ты, Рашад? | F. -Where are you going, Rashad? |
| R. - Ova. | Р. - На охоту. | R. - Hunting. |
| F.- Nə vurmaq istəyir-sən? | Ф. - Кого ты хочешь убить? | F. -What do you want to catch there? |
| R. - İstəməyinə çox şey istəyirəm, amma nə olur-olsun, əli-boş qayıtma-yım. | Р. - Много чего хочу, но что бы ни случилось, с пустыми руками не вер-нусь. | R. - I want a lot of to catch, but one I know I’m not going to return with empty hands. |
| F. - Ovu harada etmək istəyirsən? | Ф. - Где ты хочешь поохититься? | F. - Where would you like to go hunting? |
| R. - Kəndin kənarında - meşədə, ya da bir az da yuxarılarda, çay qırağında. | Р. - На окраине деревни - в лесу, или где нибудь вдалеке, около реки. | R. - At the edge of the village - in the forest, or somewhere far away, near the river. |
| F. - Meşə qoruqdur. Ora-da icazə vermirlər. Çay qırağına mən də səninlə gedərəm. Səni ova tək buraxa bilmərəm. | Ф.-Лес-заповедник. Там не разрешают. Я тоже с тобой пойду к речке. Я не могу пустить тебя одного. | F. - Forest is the reserve. It’s not allowen to hunt there. I’ll go with you to the river. I can’t allow you to go there alone. |
| R. - Torun varsa, götür, balıq da tutarıq. Sən ba-lıq tut, mən də quş vur-um. Axşam ailəliklə bir yerdə oturub şam edərik. | Р - Если есть у тебя сеть, возьми, и рыбу поймаем. Ты лови рыбу, а я буду стрелять в птиц. Вечером вместе в семейной обстановке посидим, поужинаем. | R. - If you have got a net, take it with you, we’ll go fishing too. You’ll catch the fish, and I’ll shoot the birds. And in the evening we’ll have dinner together with our family. |
| F. - Sən hələ ov etməmiş yeməkdən danışırsan. | Ф. - Ты не поохотив-шись, говоришь об обе- | F. -You are talking about dinner, but you haven’t |

| | | |
|---|---|---|
| Adam deyər «İnşallah». | де. Нужно говорить «İnşallah!» | gone hunting yet. Say «İnşallah!». |
| R. - Əlbəttə, orası elədir. Ümid edirəm ki, hər halda ya quş, ya da balıq olacaq. | Р. - Конечно, это так. Но я надеюсь, в любом случае поймаем птицу или рыбу. | R. - Of course, it is. I hope, that we'll catch either bird or fish. |
| F. - Gedək, dostum. | Ф. - Пойдём, друг. | F. - Let's go, my friend. |

## 23-cü dərs

1. Kimi, qədər, üçün qoşmaları.
2. Defisin işlənmə qaydası (“-”).
3. M.Füzuli “Məni candan usandırdı”.
4. Mətn. Odlar yurdu.
5. Dialoq.

### 1. Kimi, qədər, üçün qoşmaları.

***Qeyd:*** *İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çaları yaradan köməkçi nitq hissəsinə qoşma deyilir.*

*Digər köməkçi nitq hissələrindən fərqli olaraq qoşma qoşulduğu sözlə birlikdə cümlə üzvüdür. Məs., Arif ilə, şair haqqında, onun üçün, mənim qədər, evə tərəf, sənə görə, səndən sonra, ondan başqa və s.*

**Bənzətmə**

| **Adlar** | **Şəkilçi** | **Qoşma** | **Nümunə** |
|---|---|---|---|
| Leyla | — | kimi | Leyla kimi |
| bacım | — | kimi | bacım kimi |
| mən | -im | kimi | mənim kimi |
| sən | -in | kimi | sənin kimi |
| o | -nun | kimi | onun kimi |
| biz | -im | kimi | bizim kimi |
| siz | - in | kimi | sizin kimi |
| onlar | — | kimi | onlar kimi |
| hamı | — | kimi | hamı kimi |

O, mənim kimi danışmır.
Hamı kimi mən də səninlə razıyam.
Sən onun kimi ucaboy deyilsən.
Sizin kimi mən də yorğunam.
Bu gün hava dünənki kimi soyuq deyil.

Onun evi bizım evimiz kimi rahat deyil.
Onun evi bizimki kimi rahat deyil.

Həmişəki kimi
Dünənki kimi
Axşamkı kimi

### Qarşılaşdırma

| Adlar | Şəkilçi | Qoşma | Nümunə |
|---|---|---|---|
| Leyla | — | qədər | Leyla qədər |
| bacim | — | qədər | bacım qədər |
| mən | -im | qədər | mənim qədər |
| sən | -in | qədər | sənin qədər |
| o | -nun | qədər | onun qədər |
| biz | -im | qədər | bizim qədər |
| siz | -in | qədər | sizin qədər |
| onlar | — | qədər | onlar qədər |
| dostum | — | qədər | dostum qədər |

Mən sizin qədər işləmirəm
Qızılgülün yüzə qədər növü var.

### "Üçün" qoşması

| | | | |
|---|---|---|---|
| mən | -im | üçün | mənim üçün |
| sən | -in | üçün | sənin üçün |
| o | -nun | üçün | onun üçün |
| biz | -im | üçün | bizim üçün |
| siz | -in | üçün | sizin üçün |
| onlar | — | üçün | onlar üçün |
| bu | -nun | üçün | bunun üçün |
| tələbə | — | üçün | tələbə üçün |
| kim | -in | üçün | kimin üçün |

***Tapşırıq 295.*** Tağı Sidqinin "Cəsur ürəkli uşaq" hekayəsini oxuyub danışın.

"İnsaniyyət üçün lazım olan keyfiyyətlərdən birisi də cəsarət və şücaətdir. Şücaət qəlbin qüvvəti və mərdanəliyin zinətidir. Şücaətdən məqsədimiz vurub-yıxmaq, basıb-kəsmək deyil. Cəsarətdən muradımız ürəkli olmaqdır.

Cəsur uşaqlar… Hər boş və bekara fikirlər ilə öz-özünü qorxutmaz. Məsələn, it belə getdi, qurd belə getdi…Damdabaca, xuxu, qaraqulaq kimi sözlərdən, söhbətlərdən əsla ehtiyat etməz. Su kənarından, ağac dibindən, xarabə və qaranlıq yerlərdən, qəbiristandan və sair bu məsəlli məkanlardan keçəndə xəyalın dağıdıb, əhvalını pozmaz".

Cəsarətli uşaqlar məktəbdə dərs oxuyanda və müəllimə cavab verəndə rəngi qızarıb, dili dolaşmaz. Məktəbə bir şəxs gələndə onlara cavab verməkdə və ya nitq söyləməkdə ürəyi titrəyib, əl və ayağı əsməz….

Keçən günlərdə bir uşaq öz qapılarında yoldaşları ilə oynamaqla məşğul idi. mən ondan soruşdum:

- Oğlum, atan evdədirmi?

Bu sözü eşitcək oyundan əl çəkib, gəlib mənim qabağımda durdu və dedi:

-Bəli, atam evdədir, amma mən gələndə yatmışdı. Siz buyurun, əyləşin otaqda, mən atama xəbər verərəm. Çünki mən onun yuxudan duran vaxtını bilirəm.

Belə ürəkli, ədəbli və qəlbi qüvvətli uşaqlara afərin.

**Mənbə:** Məmməd Tağı Sidqinin əsərləri. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2004, s.96

***Tapşırıq 296.*** Ötrü, sarı, savayı, cən, tərəf, doğru, görə, kimi qoşmalarını cümlələrdə işlədin və dəftərinizə yazın.

**Qeyd:** *Bəzi qoşmalar sözlərlə birgə yazılır: can, cən, dək*

***Tapşırıq 297.*** Cümlələri köçürün, mötərizədə verilmiş qoşmalardan uyğun gələnini nöqtələrin yerinə artırın (əvvəl, başqa, bəri, əsasən, öncə, sonra, qədər, tərəf, kimi, ilə)

1. O özünü böyük ... aparırdı. 2. Dərsdən … kitab mağazasına getdim. 3. İnsan izdihamı meydana … axışdı. 4. Nümayiş axşama … davam etdi. 5. Universiteti bitirdikdən … o, doktoranturaya qəbul oldu. 6. Biz gəmi … gəzintiyə getdik. 7. O, Əlidən …. işə gəlmişdi. 8. Qərara … onu işdən azad etdilər. 9. Dünəndən … hava istidir. 10. Cırtdandan … hamı yatmışdı.

***Tapşırıq 298.*** üçün, qarşı, əlavə, ilə, qabaq, qeyri qoşmalarını cümlələrdə işlədin və dəftərinizə yazın.

**Dinləmə materialı.**

**2.Defisin işlənmə qaydası (-).**

**Qeyd:** *Müxtəlif şəkildə təkrar edilən və bir məna bildirən, mürəkkəb antonim (əksmənalı), ikinci tərəfi leksik mənaya malik olmayan sözlər arasında və ya söz hecalarını sətirdən- sətrə keçirəndə onların arasına kiçik xətt, yəni defis qoyulur.*
*a) Eyni sözlərin təkrarı ilə yazılanlar. Məs.: tez-tez, bir-bir.*
*b) Mənaca bir-birinə yaxın və zidd olan ayrı-ayrı sözlərdən düzələnlər. Məs.: ata-baba, əl-ayaq, gec-tez.*
*c) Ayrılıqda məna verməyən və ya başqa məna verən sözlərdən düzələnlər.*

*Məs.: kol-kos, sir-sifət, kələ-kötür.*
*d) Eyni sözün əvvəlinə ya -m gətirməklə, ya damaq saitini dodaq saitinə çevirməklə və ya əvvəlinci samitini -m ilə əvəz etməklə düzələnlər.Məs.: az-maz, sıx-mıx, quru-muru.*

***Tapşırıq 299.*** Eyni sözlərin təkrarı ilə yazılan sözləri cümlədə işlədin.

*Nümunə:* Mehdi tez-tez yeməyini yeyib dərsə getdi.
Üç-üç, parça-parça, gülə-gülə yavaş-yavaş, baş-başa, birdən-birə, diz-dizə, yan-yana, tez-tez.

***Tapşırıq 300.*** Bir-birinə yaxın mənalarda olan və ya arasına "və" bağlayıcısı qoymaq mümkün olan defislə yazılan sözlərdən cümlə qurun.

*Nümunə:* Ayişənin susuzluqdan dili-dodağı qurumuşdu.
Qol-budaq, qohum-qardaş, ata-bala, arvad-uşaq, əl-ayaq, dil-ədəbiyyat, dil-dodaq, ana-bala.

***Tapşırıq 301.*** Bir-birinə zidd olan, defislə yazılan sözlərdən cümlə qurun.

*Nümunə:* Həkim otağına gələr-gəlməz xəstələr gəlməyə başladı.
Gələr-gəlməz, Şərq-Qərb, yazar-yazmaz, yaxşı-yaman, gec-tez, var-yox, alqı-satqı, gecə-gündüz.

***Tapşırıq 302.*** Bir tərəfi və ya hər iki tərəfi ayrılıqda məna verməyən və başqa məna verən sözlərdən cümlə qurub dəftərə yazın.

*Nümunə:* Uşaqlar meşədən kol-kos topladılar.
Kol-kos, sir-sifət, kələ-kötür, qır-qırtı, adda-budda, çör-çöp, gül-mül.

***Tapşırıq 303.*** Eyni sözün əvvəlinə hərf artırmaqla və ya səsin dəyişməsi ilə əmələ gələn sözlərin defislə yazılışına aid nümunələri cümlələrdə işlədin.

*Nümunə:* Nə haray- huray salmısınız?
Az-maz, ət-mət, ağıl-mağıl, azar-bezar, uşaq-muşaq, qırış-quruş, kağız-kuğuz, təhər-töhür.

***Tapşırıq 304.*** Cəhətlər arasını anladan mürəkkəb sözlərin defislə yazılışına fikir verin və cümlələrdə işlədin.
Şimal-Şərq, Cənub-Şərq, Şimal-Qərb, Cənub-Qərb.

***Tapşırıq 305.*** Müstəqil işlənən iki isimdən və müxtəlif ad bildirən sözlərdən yaranıb məna bildirən xüsusi coğrafi adların defislə və böyük hərflə yazılışına diqqət edin və cümlədə işlədin.

Alma-Ata, Göy-Göl, Sankt-Peterburq

**3. M.Füzuli "Məni candan usandırdı".**

"Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan.
Neçin qılmaz mənə dərman, məni bimar sanmazmı?

Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən
Desəm, o bivəfa bilməm, inanarmı, inanmazmı?

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Degildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil səni görcək utanmazmı?

Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?"

**Mənbə:** M.Füzuli. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2005, s.290

**4. Mətn.**

## Odlar yurdu

"Odlar Yurdu" — maraqlıdır, bu ifadəni eşidəndə insanda hansı düşüncələr yaranır? Yəqin ki, ölkənin rəngarəngliyi, işıqlı binalar, şəhərlər və s. barədə... Lakin biz burada hər hansı bir Avropa ölkəsi haqqında yox, Şərqdə, daha dəqiq desək, Qafqazda yerləşən ölkə haqqında söhbət açacağıq. Onun adı Azərbaycandır. "Odlar Yurdu" adlanması da təsadüfi deyil. Hələ qədimlərdə Azərbaycan təbii sərvətləri, atəşpərəstlik məbədləri ilə zəngin olmuşdur. Bu da dünyanın hər yerindən bir çox insanı buraya cəlb etmişdir. Gəlin onunla bir qədər yaxından tanış olaq.

Azərbaycan Respublikası Cənubi Qafqazda dövlətdir, Xəzər dənizi hövzəsində yerləşir. Ərazisi 86,6 min km$^2$-dir. Əhalisi 10 milyon nəfərdir. Paytaxtı Bakı şəhəridir. Abşeron yarımadasının cənubunda yerləşir. Rəsmi dövlət dili Azərbaycan dilidir.

Şimalda Böyük Qafqaz dağları silsiləsi, qərb və cənub- qərbdə Kiçik Qafqaz dağları yerləşir. Dəniz səviyyəsindən ən yüksək nöqtə Bazardüzü zirvəsi (4480 m), ən aşağı nöqtə isə (28 m) Neftçala ərazisindədir.

Xəzər dünyanın ən böyük gölüdür. Onun sahəsi adalarla birlikdə 394 min km-ə çatır. Suyunun ümumi həcmi 77 min $m^{3-}$dır. Sahil xəttinin uzunluğu 6380 km-dir. Avropa ilə Asiyanın sərhədindədir.

Kür Azərbaycanın ən uzun çayıdır. Azərbaycanda ən geniş düzənlik Muğan düzüdür. Azərbaycanda bir çox göl vardır. Göygöl okean səviyyəsindən 1600 m hündürlükdədir. Onu "göllər şahı" adlandırırlar.

***Tapşırıq 306.*** Mətnə aid suallar tərtib edin.

**<u>5. Dialoq.</u>**

| | | |
|---|---|---|
| -Mən ... baş çəkmək istəyirəm. | - Я хочу посетить... | - I would like to visit... |
| -Müasir incəsənət muzeyinə. | - Музей современного искусства. | - The museum of modem art. |
| -Tarix muzeyinə, şəkil qalereyasına | -Исторический музей, картинную галерею. | - Museum of history. |
| -İndi hansı sərgilər açılıb? | - Какие галереи открыты сейчас? | - Picture gallery. What exibitions are on now? |
| - Muzey hər gün açıqdır? | Музей открыт каждый день? | - Is the museum open every day? |
| - Bilet neçəyədir? | Сколько стоит билет? | - How much is admission? |
| - Fotoşəkil çəkmək olarmı? | Фотографировать мож-но? | -Is it permitted to take photographs? |
| - Sizdə impressionistlərin şəkilləri var? | - Есть ли у вас картины импрессионистов? | - Do you have paintings by the impressionists? |
| - Məni rəngkarlıq maraqlandırır. | Меня интересует живопись. | - I am interested in painting. |
| - İtaliya rəngkarlığı zalı haradadır? | - Где зал итальянской живописи? | -Where are the Italians paintings? |
| - Bu (kompozisiya) mənim xoşuma gəlir. | - Мне нравится эта композиция. | I like this composition. |

| | | |
|---|---|---|
| - Bu kimın əsəridir? | Чья это работа? | Whose work is this? |
| -Mən teatr muzeyinə (xəstəyə, işə, ofisə) baş çəkmək istəyirəm | - Я хочу посетить театральный музей (больного, работу, офис) | I would like to visit a museum (patient, work, office) |

**24-cü dərs**

1. Sifətin quruluşca növləri.
2. Dırnaq işarəsi.
3. N.Gəncəvi “Ay üzlü nigarım”.
4. Mətn. Səadət Sarayı.
5. Dialoq.

**1. Sifətin quruluşca növləri.**

***Qeyd:*** *Sifət əşyanın əlamətini bildirən əsas nitq hissəsidir. Necə, nə cür? hansı? suallarından birinə cavab verir. Sifət nitqdə ismə aid olur və ondan əvvəl gəlir. Məs., sarışın qız, şirin üzüm.*

*1. Sifətlər quruluşca sadə (gözəl, yaxşı, pis), düzəltmə (ağıllı, günahkar, günahsız, qaçağan, dalğın), mürəkkəb olur. Mürəkkəb sifətlər, əsasən, iki sözün birləşməsindən əmələ gəlir. Məs., göygöz, açıqqəlbli, üçtelli və s.*

*Mürəkkəb siftələr iki cür yazılır:*

*1. Bitişik yazılanlar: Məs., dikbaş, qaragöz, gözütox, ucaboylu və s.*

*2. Defislə yazılanlar: Məs., adlı-sanlı, ala-bəzək, elmi-kütləvi, ətli-canlı və s.*

***Tapşırıq 307.*** Köçürün, sadə sifətlərin altından xətt çəkin.

Qırmızı güllədən ölənlərin
Qərənfil örtmüşdü buz əllərini.
Analar yolurdu birçəklərini,
Gözü yaşlı vətən, bağışla məni.

*(Həcər Qəbələ)*

Ay köynəyi ipək lalə,
Zərif, qəşəng, göyçək lalə,
Yanağında xalın qara,
Şən düzlərə, şiş dağlara
Yamaclara yaraşıqsan,
İlk bahara çox aşıqsan.

*(M.Rahim).*

***Tapşırıq 308.*** Ağıllı, iradəli, duzlu, dadsız, ölümcül, qohumcul, bağdakı, armudu, tarixi, sürməyi düzəltmə sifətlərindən aid olduqları isimlə birlikdə cümlələr qurun.

***Tapşırıq 309.*** İki sözün birləşməsindən əmələ gəlmiş mürəkkəb sifətlərdən cümlələr qurun.

Şirindil uşaq, qaraqaş oğlan, açıqqəlbli insan, soyuqqanlı əsgər, çoxhecalı söz, stolüstü oyun, dadlı-dadlı meyvələr, bağlı-bağatlı kənd, irili-xırdalı evlər, sərin-sərin bulaqlar, üçtelli durna.

***Tapşırıq 310.*** İmla.

**"Nəriman Nərimanov"**

"N.Nərimanov 1870-ci ildə anadan olmuşdur. O, Qori müəllimlər seminariyasını, sonra isə Odessa universitetinin tibb fakültəsini bitirmişdi. O bir neçə il Bakıda həkim işləmişdi. Nərimanov yalnız həkimlik etməmiş, müəllim, yazıçı, alim, böyük inqilabçı, dövlət xadimi olmuşdur.

N.Nərimanov 1925-ci ilin mart ayında vəfat etmişdir. O, Qızıl meydanda Kreml divarları yanında dəfn edilmişdir".

***Tapşırıq 311.*** Sifətləri kök və şəkilçiyə ayırın, əvvəlcə söz kökünə, sonra sifətə sual verin.

maraqsız, güllü, duzsuz, duzlu, indiki, həmişəki, uçuq, universitetdəki, solğun, bahalı

## 2. Dırnaqların işlənmə qaydası (" ") .

*Dırnaq qoşa işlədilən işarədir. Əlyazısında („ ") dırnaq işarəsi sətrin aşağısında, yəni hərfin aşağı hissəsində açılır və yuxarıda bağlanır.*

*Dırnaqlar aşağıdakı hallarda işlədilir:*

*I. Vasitəsiz nitq dırnaqlar arasına alınır və onun birinci sözünün ilk hərfi böyük yazılır. Məs.: Qatar bələdçisi təəccüblə soruşdu: "Siz Bakıda doğulub, boya-başa çatmısınız?".*

*II. Cümlə içərisində öz həqiqi mənasında olmayan, bəzən əks mənada və bəzən də istehza ilə işlədilən sözlər dırnaqlar içərisinə alınır. Məs.: Siz mənə demədinizmi ki: "Haramzada, bax. Buranı döy, özü də möhkəm döy"? İndi bu "qapı" haradan çıxdı.*

*III. Əsər, jurnal, qəzet, gəmi, kitab və bu kimi adlar dırnaqlar içərisinə alınır: Məs.: 1. M.F.Axundovun "Aldanmış Kəvakib", "Müsyo Jordan və Dərviş Məstəli şah", "Hacı Qara" əsərlərinə səhnədə tamaşa etmişik. 2. M.Ə.Sabir, Ə.Haqverdiyev, C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında hekayələr çap etdirmişdilər. 3. "Əkinçi" qəzetini Həsənbəy Zərdabi yaradıb. 4. Partlayış baş verən gəmi "PİS -225 Mərdəkan" gəmisidir və s.*

***Tapşırıq 312.*** Verilmiş cümlələrdə dırnaq işarələrinin hansı məqamlarda işləndiyini göstərin.

1. 1941-1945-ci illərdə Bakıda "Katyuşa" raketi; "Sparkin pulemyotu" istehsal edilir, "Yak-3" qırıcı təyyarəsi yığılırdı.

2. Azərbaycanlılardan təşkil olunmuş 7 min nəfərdən çox döyüşçüsü olan “Aslan”, “Dönməz”, “Qafqaz”, “Vətən” və b. hərbi dəstələr də bu döyüşlərdə iştirak etmişdir.
3. “Horatsio, məktubumu oxuduqdan sonra, bunu sənə çatdıran adamları kralın yanına aparmağa çalış. Krala məktub verəcəklər... Onlardan sənə ayrıca danışacağam. Əlvida, həmişə səninlə olduğuna şübhə etmədiyin – Hamlet”. *(Şekspir Hamlet).*
4. “Nə imiş gəlməyəcək şey xoşuna?
Mən deyirkən bizə məhrəm bu adam,
Bizə bir vasitə olmuşdu müdam”..!*(Otello).*
5. “Səni sevdim” – nə demək, söylə bu nə?”
6. Bəs nə üçün məni damğalayırlar? Bic, vələduzna! Qanunsuz
*(Şekspir “Kral Lir”).*
7.Mən onu qorxudub dedim: “Sənin yaramaz fikirlərinin üstünü açaram”
*(Şekspir “Kral Lir”).*
8. 1906-cı il aprelin 7-də “Molla Nəsrəddin” jurnalının ilk sayı işıq üzü görüb.
9.Bu jurnalın təsiri altında Azərbaycanda “Bəhlul” (1907), “Zənbur” (1909-1910), “An” (1910-1911), “Lək-lək” (1914), “Tuti” (1914-1917), “Şeypur” (1918-1919), “Zənbur” (1919), “Məşəl” (1919-1920) kimi satirik jurnallar Azərbaycan dilində nəşr olunmuşdur.
10. Hamı televiziya qarşısına toplaşıb “Fəryad” filmini seyr edirdi.

**Sinifdə iş.** Aşağıdakı suallar əsasında inşa yazın.

**“Dost – dosta tən gərək, tən olmasa gen gərək”**

1)Sən kimi sədaqətli dost hesab edirsən? Nə üçün?
2) Dostların sədaqəti necə sınağa çəkilir?
3) Dost dosta kömək edə bilməsə də, onun köməyinə tələsir? Nə üçün?
4) Dostlar özlərini təhlükəyə atmaqda haqlıdırmı?
5) Dosta aid atalar sözləri söyləyin.

## 3. N.Gəncəvi “Ayüzlü nigarım”.

“Ay üzlü nigarım, kimə mehman olacaqsan?
Bir söylə, kimin şəninə şayan olacaqsan?

Şahlıq çətiri var başın üstündə bu axşam,
Ənbər çətirinlə kimə sultan olacaqsan?

Şəkkər demərəm mən sənə, ondan da şirinsən,
Dilbər, necə bir bəxtəvərə can olacaqsan?

Zülmət gecə, sən nurlu çıraq, bəd gözə gəlmə,

Ey abi-həyat, sən kimə canan olacaqsan?

Getdin, necə bəs tab eləsin hicrə Nizami,
O xəstə ikən, sən kimə dərman olacaqsan?”

**Mənbə:** Nizami Gəncəvi. Lirika. Bakı: “Lider” nəşriyyatı, 2004, s.23

***Tapşırıq 313.*** “Qız”a aid olan aşağıdakı əlamət bildirən sözlər əsasında cümlələr düzəldin.

**QIZ**

gözəl, sadiq, qayğıkeş, qorxmaz
qaradinməz, qədirbilən, əlaçı
əliaçıq, əməksevər, igid, girdəsifət
ahu gözlü, orta boylu, ala gözlü
mavi gözlü, şirindil, uzunsaç
ucaboy, sarıbəniz, sarısaç, gülərüz
göyçək, ağıllı

***Tapşırıq 314.*** “Yol” sözünün iştirakı ilə mətn danışın.

**YOL**

asfalt, böyük, dar, daşlı
daşlı-kəsəkli, əyri, kələ-kötür
geniş, palçıqlı, rahat, şose, hamar
torpaq, tozlu, səsli-küylü

***Tapşırıq 315.*** “Hava” sözündən şaxələnmə yolu ilə yazılan sözləri cümlədə işlədin.

**HAVA**

ayaz, buludlu, quru, ılıq, küləkli
qarlı, şaxtalı, təmiz, soyuq, sakit
yağmurlu, günəşli, isti

## 4. Mətn.

### Səadət sarayı

Bakının mərkəzində məşhur bir bina var. Bu, Səadət sarayıdır. Onun tikintisi məhəbbət əhvalatı ilə bağlıdır. Məşhur milyonçu Murtuza Muxtarov və həyat yoldaşı Liza xanımla birlikdə tez-tez Avropaya səyahət edirdilər. Venesiyada olanda onlar çox gözəl bina görürlər. Xanım binanı görəndə heyran olur. Əri heç nə demir, sakitcə baxır. Onlar Bakıya qayıdırlar. Xanımın əri Venesiyaya adam göndərir. Həmin adam o binanın eskizini hazırlayır. Sonra belə bir bina Bakıda tikilir. 1912-ci ildə bina hazır olur. Bir gün həmin milyonçu

xanımı ilə gəzintiyə çıxır, onu binanın qarşısına gətirir və deyir ki, bunu sənə hədiyyə edirəm. Qadın bunu eşidəndə çox sevinir. Bu bina çox gözəldir.

**Mənbə:** Mətbuat

## 5. Dialoq.

| | | |
|---|---|---|
| - Mən... görmək istərdim. | - Я хотел бы видеть... | -I'd like to see.... |
| - Bağışlayın, ancaq o, məşğuldur. | -Простите, но он занят. | -I'm sorry, but he is busy. |
| - Ümidvaram, yarım saata boşalar. | -Надеюсь, он освободится через полчаса. | -I think he'll be free in half hour. |
| - Siz mənə bir neçə dəqiqə ayıra bilərdinizmi? | - Не могли бы вы уделить мне несколько минут? | - Could you spare meam ment? |
| - Mən sizi çox saxlamayacağam. | -Я вас долго не задержу. | -I won't keep you long. |
| - Sizinlə müqavilə haqqında danışa bilərəmmi? | - Могу ли я поговорить с вами о контракте? | - Can I have talk to you about the contract? |
| - Nə vaxt sənədləri bizə verə bilərsiniz? | - Когда вы сможете передать нам документы? | - When can you give us the documents? |
| -Gəlişimin məqsədi zəruri sənədləri təqdim etməkdir. | - Цель моего визита - представить необходимые документы. | -The purpose of my visit, is to present required documents. |

## 25-ci dərs

1. Felin icbar növü.
2. Üç nöqtənin işlənməsi.
3. Mətn. 44 günlük Vətən müharibəsi.
4. Zəlimxan Yaqubun "Ordun varsa, yurdun var" şeiri.
5. Dialoq.

### 1. Feilin icbar növü.

***Qeyd:*** *İcbar növ feillərdə iş və hərəkət birinin təhriki ilə 3 subyekt tərəfindən yerinə yetirilir. Məs.: Pəncərəni sildirdim. Dəftəri köçürtdürdü. Feilin bu növü – -dır⁴ və -t şəkilçisi ilə düzəlir. Məs., oxut, yazdırt və s.*

***Tapşırıq 316.*** Feillərə -dır⁴ və -t sözdüzəldici şəkilçilərini artırmaqla icbar növ feillər düzəldin və onları cümlədə işlədin.

Tik, çək, poz, süz, oxu, qaz, bil, sil, as.

***Tapşırıq 317.*** Feilləri məlum növdən icbar növə çevirin.

1. Təranə paltarları ütülədi. 2. Ağacdakı almaları yığdım. 3. Müəllim lövhədə tapşırığı yazdı. 4. Sevil xala oğluna məktub yazır. 5. Mən anam üçün aldığım hədiyyəni bağladım. 6. Sənubər ad gününə özü üçün yeni don tikdi. 7. Qəsəbəmizə yeni su kəməri çəkdilər. 8. Xadimə dəhlizi süpürdü. 9. Balaca Salman dərsini yazmadı. 10. Rəna otaqları yudu.

***Tapşırıq 318.*** Suallara cavab verin.

1. Sən məktubu kimə yazdırdın? 2. Xörəyi kimə bişirtdin? 3. Kitabı kimə oxutdun? 4. Mənzilinizi kimə təmizlətdirirsiniz? 5. İtmiş üzüyü kimə axtartdırdın? 6. Nə üçün meyvələri kal yığdırırsan? 7. Şeiri kimə dedirtdin? 8. Bağı kimə bellətdin? 9. Evinə bəzi şeyləri nə vaxt aldırtdın? 10. Nə üçün bağa meyvə ağacları əkdirmirsən?

***Tapşırıq 319.*** Aşağıdakı qarşı-qarşıya duran feillərin mənalarını izah edib cümlədə işlədin.

Yığ – yığdır// yığdırt, kəs – kəsdir// kəsdirt, al – aldır// aldırt, tut – tutdur/ tutdurt, sil – sildir / sildirt, qaz – qazdır/qazdırt, qoş – qoşdur//qoşdurt, ək – əkdir // əkdirt, qır – qırdır//qırdırt, tik – tikdir // tikdirt.

***Tapşırıq 320.*** Köçürün, nöqtələrin yerinə icbar şəkilçiləri artırın.

1. Qardaşım dişini müalicə et...di. 2. Atam çəkməsini sil ...di. 3. Mən ağrıyan dişimi çək...dim. 4. Müəllim uşaqların siyahısını yaz ...dı. 5. Rəhbərlik gözəl bir mədəniyyət sarayı tik...di. 6. Direktor məktəbə kömpüterlər gətir...di. 7. Müəllim lövhəni sil...di. 8. Nəcibənin əli ağrıyırdı, o paltarmı yoldaşına ütülə...di. 9. Gənc oğlan yaşlı qadına kömək edib əyləş...di. 10. Gəlin otağını döşət...di.

***Tapşırıq 321.*** Dil, nitq və söz haqqında görkəmli şəxsiyyətlərin fıkirləri verilmişdir. Bu fellərə diqqət edin.

***(Böyük öndər Heydər Əliyevin kəlamı)***

"Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dılimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

**Müəllif: S**.Xəlilova

***Tapşırıq 322.*** Mətni köçürün. İcbar növ feillərinin altından xətt çəkin.

"Keçmiş zamanlarda bir şah vardı. Şah həmişə bir neçə qüvvətli köpəyi zəncirdə saxlatdırardı. Şahın bir adama acığı tutanda onu itlərə atdırardı. İtlər də həmin adamı parçalayıb yeyərdilər.

Şahın bir cavan xidmətçisi vardı. Cavan oğlan fikirləşirdi: "Zülmkar şah bir gün qəzəblənib məni də itlərə atdıracaq".

O, itlərə baxan adamla dost oldu. Hər dəfə itlərə bir qoyun atırdı. Buna görə də itlər oğlana öyrəşdilər.

Bir gün şahın oğlana acığı tutdu. O, oğlanı itlərə atdırdı. Bu hadisədən bir neçə gün keçdi. İtlər oğlana toxunmadılar.

Şah əmr verib oğlanı yanına gətirtdi və soruşdu:

– Ey cavan, sən itlərin dişindən necə qurtardın?

Cavan oğlan cavab verdi:

– Mən itlərə tez-tez ət atıb onları özümə öyrəşdirdim, onlar da mənim yaxşılığımı itirmədilər".

**Mənbə:** Nizami Gəncəvi. "Sirlər xəzinəsi" poemasından bir parça

## 2. Üç nöqtənin işlənmə qaydası (...).

*Çox nöqtə adətən üç nöqtə adlanır. Sitatlarda özgəsinin nitqi kəsildiyi yerdə üç nöqtə qoyulur. Cümlənin ortasında və ya sonunda qoyulan üç nöqtə fikrin bitmədiyini bildirir. Fikrin bitməməsi müxtəlif səbəblərdən ola bilir: ... onu davam etdirməyi ya müəllif lazım bilmir, ya gizli saxlamaq məqsədilə demir; ya da elə sözlər olur ki, onun deyilməsi cəmiyyət üçün məqbul deyildir, ya yaddan çıxır, ya fikir başqası tərəfindən kəsilir, ya da danışan həyəcanlı olduğu üçün fasilələrlə danışır. Məs.: Bu qatarla ... biz ali təhsil üçün Bakıya ... gedəcəydik!*

*Mən tibb universitetinə ...- Qız dərindən ah çəkdi.*

***Tapşırıq 323.*** Ə.Əbulhəsənin "Tamaşa qarının nəvələri" hekayəsindən çox nöqtəli sitatları oxuyun.

1. Ax, bir də ... – Qız heyrətini ifadə edəcək sözlər tapmaqda çətinlik çəkib duruxdu, sonra oğlanın qırxılmış başına baxıb əlavə etdi. Belə zehinli oğlan, özü də yaxşı riyaziyyat bilirsən. Birdən-birə ...
2. Gəl-gəl, gedək içəri ... – Qaratel yenə özünü unudaraq İkramın qolundan tutub dartdı ...
3. Vəli də gedib aləmi gəzəcək avara-avara ... Əl – küt, baş – daş, gəlib mənim üçün işə can yandıracaq?!...
4. O vaxta qədər Məmməd də imtahandan çıxıb gələr, bərabər fizikanı hazırlayardılar...
5. Rüşvət yeyir ... Bu nə deməkdir, sənin fikrincə?... Yəni qazanmadığını yeyir. Hə?..
6. Nə baxırsan? İkram, burax... Cəhənnəm olsun rüşvət verənlər də, rüşvət alanlar da.
7. Hə balam ... – gülməli surətdə İkram Məmmədə qoşuldu.
8. O ki qaldı oxumaq ... Mənimki elə oxumaqdır.
9. Amma indi ... mən evə qayıdıram.
10. Ağayarın indi dərdi bircə Ağazal idi. Ağazal isə susur, susurdu...
11. Nəbadə geyib onun gözü qabağında gəzişəsiniz ha!..
12. Tanışlardan qohumlardan utanırdım...
13.Orda məni tanıyan olmayacaq, gücüm gəldikcə işləyəcəyəm...
14. ... O vaxt gələcəyəm ki, tənbəl, tüfeyli adı tamam üstümdən götürülsün.

**Mənbə:** Ə.Əbdülhəsən. Fatma qarının nəvələri (povest) II Bakı, 1984, 276 s.

***Tapşırıq 324.*** Hər hansı bədii əsərdən çoxnöqtəli cümlələri seçin, dəftərinizə yazın.

***Tapşırıq 325.*** "İl", "ək", "ar", "ad" sözlərinin əvvəlinə hərflər artırmaqla yeni sözlər seçin, yaradıb cümlədə işlədin.

*Nümunə:*

| | |
|---|---|
| kəs ... | |
| bəb ... | |
| biçm ... | |
| kül ... | ƏK |
| ç... | |
| çiç ... | |

köt ...
t ...
xər ...
əl ...
l ...

*Tapşırıq 326.* Venn diaqramına uyğun olaraq "Vətən" sözünün şaxələnməsi tapşırığını yerinə yetirin.

| | | |
|---|---|---|
| hər gün yeniləşən kəndlərimiz, | | havadır |
| şəhərlərimizdir | | keçmişdir |
| bağlı, laləli, güllü-çiçəkli | | gələcəkdir |
| düzlərimizdir | | dilimizdir |
| müqəddəsdir | **VƏTƏN** | mənəvi dəyərimizdir |
| bizim varlığımızdır | | kökümüz, soyumuzdur |
| anadır | | başı qarlı dağlarımızdır |
| buz kimi bulaqlarımızdır | | axan çaylarımızdır |
| günəşdir | | sərin meşələrimizdir |
| torpaqdır | | ailədir |

**3. Mətn.**

**44 günlük Vətən müharibəsi**

"Azərbaycan Ordusu 44 günlük müharibədə tarixi Qələbə əldə etdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı.



Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükurataz yüksəkləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.

Azərbaycan Böyük Qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi".

**Mənbə:** Tarixi resurslar əsasında yazılıb

**Ev tapşırığı inşa. "Qarabağ bizimdir!"**

**Rütbələr üzrə şəhidlərin siyahı**

| **Rütbəsi** | **Şəhid sayı** |
|---|---|
| Polkovnik | 3 nəfər |
| Polkovnik - leytenant | 23 nəfər |
| Mayor | 49 nəfər |
| Kapitan | 54* nəfər |
| Baş leytenant | 103 nəfər |
| Leytenant | 118 nəfər |
| Kiçik leytenant | 5 nəfər |
| Baş gizir | 33** nəfər |
| Gizir | 183*** nəfər |
| Kiçik gizir | 58** nəfər |
| Baş çavuş | 25 nəfər |
| Çavuş | 69 nəfər |
| Kiçik çavuş | 92 nəfər |
| Baş əsgər | 7 nəfər |
| Əsgər | 1898*** nəfər |
| Mülkü qulluqçu | 3 nəfər |
| Cəmi | 2904 (yenilənir) nəfər |
| O cümlədən | *1 kapitan-leytenant |
| Baş miçman | ** 1 nəfər |
| Miçman | *5 nəfər |
| Matros | ***1 nəfər |

## 4. Zəlimxan Yaqubun "Ordun varsa, yurdun var" şeiri.

"Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi.
Mənə ordu gərəkdir, sarsılmaz cahan kimi.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Düşmənin yuvasını əlimlə pozmalıyam.
Səngəri dırnağımla, dişimlə qazmalıyam.

Tarixi qələmlə yox, qanımla yazmalıyam,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Gözlər od, əllər silah, canlar sipər olmalı,
Kirpiyimiz sıxılmış yurda çəpər olmalı,
Damarda qan coşmalı, canda təpər olmalı,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Bizə od vuranları yandırıb-yaxan gərək.
Torpağı gözümüz tək qoruyub baxan gərək
Qəzəb dolu tüfəngəm, çaxmağı çaxan gərək
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Torpağa sahib olub yer üstə yerləşməsək,
Bir canda, bir ürəkdə, bir ruhda birləşməsək,
Millətin taleyini dürüst fikirləşməsək,
Özgələrdən bizlərə dırnaq qədər yardım yox.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
İnamsız bir qartalın qanadları gərilməz,
Döyüşsüz azadlığın meyvələri dərilməz,
Şəhidsiz bir millətin vətən ruhu dirilməz,
Oğullar ola-ola, necə deyim mərdim yox.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!”

**Mənbə:** Z.Yaqub. XIIIc., külliyyatı, Bakı: “Şərq-Qərb” nəşriyyatı, 2011, s.351-354

**5. Dialoq.**

| | | |
|---|---|---|
| **Pərvin:** Mənə taksi lazımdır. Bu taksi boşdurmu? | **П.** Мне нужно такси. Это такси свободно? | I need a taxi. Is this taxi free? |
| **Sürücü:** Bəli boşdur. hara getmək istəyirsiniz? | **Т.** Да. Куда вам надо ехать? | Yes, it is. Where would you like to go? |
| **Pərvin:** Məni aeroporta apara bilərsiz? | **П.** Можете меня довести до аэропорта? | Can you take me to the airport? |
| **Sürücü:** Bəli, buyurun, əyləşin. | **Т.** Да, пожалуйста, присаживайтесь. | Yes, please get in. |
| **Pərvin:** Zəhmət olmasa biraz bərk sürün. | **П.** Пажалуста, езжайте быстрее. | Please go faster. |

| | | |
|---|---|---|
| **Pərvin:** Burada bir dəqiqə dayanın zəhmət olmasa. Məni burada gözləyin. | **П.** Можете пожалуйста остановится тут и подождать меня минуту? | Please stop just a minute and wait here for me? |
| **Pərvin:** Nə qədər verməliyəm? | **П.** Сколько я должна вам заплатить? | How much do I owe you? |
| **Sürücü:** Doqquz manat. | **Т.**9 манат. | 9 manat. |

**26-cı dərs**

1. Feilin şərt şəkli.
2. İnşa. Mən kiçik olanda...
3. Arxaizm və neologizmlər.
4. Mətn. Naxçıvan Muxtar Respublikası.
5. Dialoq.

**1. Feilin şərt şəkli.**

**Qeyd:** *Feilin şərt şəkli hərəkətin müəyyən şərtlə bağlılığını bildirir, -sa, -sə şəkilçisi ilə düzəlir. Məs., ağlasa, yağsa, gözləsə və s. Şərt şəkli şəxsə və kəmiyyətə görə dəyişir. Feilin şərt formasından sonra gələn cümlənin feili gələcək zamanda və ya əmr şəklində olur.*
*Şərt şəklinin inkarı -ma/mə şəkilçisi ilə düzəlir.*

| | *Feili Tək* | | *Təsdiqi Cəm* |
|---|---|---|---|
| I | çalışsam | I | çalışsaq |
| II | çalışsan | II | çalışsanız |
| III | çalışsa | III | çalışsalar |

I gözləməsəm, yazmasam, gözləməsək, yazmasaq
II gözləməsən, yazmasan, gözləməsəniz, yazmasanız
III gözləməsə, yazmasa, gözləməsələr, yazmasalar

*Feilin şərt formasında olan feildən sonra mütləq vergül qoyulmalıdır. Məsələn: işini qurtarsan, bizə gəl.*

***Tapşırıq 327.*** Aşağıdakı feilləri şərt şəklində bütün şəxslər üzrə dəyişin.

Yığışdırmaq, kədərlənmək, sevinmək, yarışmaq, dadmaq, köçmək, ölçmək, qaçmaq, qışqırmaq, üzmək.

***Tapşırıq 328.*** Şərt şəklində olan feilləri cümlələrdə işlədin.

*Nümunə:* Ağlasa, ürəyi boşalar.
Yaşasa, gülsə, başlasa, alqışlasa, əssə, gəlsə, yağsa, danışsa, oxusa, ağlasa.

***Tapşırıq 329.*** Köçürün, nöqtələrin yerinə şərt şəklinin şəkilçisini yazın. Feillərin şəxsini göstərin.

1. İşini vaxtında gör ..., ona töhmət verməzlər. 2. Əgər axıra qədər belə oxu ..., medal alarsan. 3. Ona söylə, bazara get ..., alma alsın. 4. Dərsinə çox çalış ..., imtahanları uğurla verərəm. 5. Təyyarə saat 10-da uç ..., $12^{30}$-da Moskvaya çatarıq.

6. Sən teatra bilet al ..., biz də gedərik. 7. Müdir bizi qəbul et ..., sözümüzü deyərik. 8. Müəllim icazə ver ..., evə gedərsən.

***Tapşırıq 330.*** Xəbər şəklində verilmiş feilləri şərt şəklində işlədin.

Aldı, almış, alır, alacaq, alar, güldü, gülmüş, gülür, güləcək, gülər, bildi, bilmiş, bilir, biləcək, bilər, gəldi, gəlmiş, gəlir, gələcək, gələr.

***Tapşırıq 331.*** Şeiri intonasiya ilə oxuyub əzbərləyin.

*Musuqisi: Fərid Kərimli*
*Sözləri: Nəriman Abbaszadə*

**Vətən oğlu**

"Sən, uca bir zirvəsən
Heydərinin fəxrisən
Sən, xalqının evladı
Azərbaycanın İlhamı

Bu elin oğlusan
Torpağımın qüruru
Babəki, Koroğlusu

Sənə bağlıdır bu can
Gülər üzlü Mehriban
Yaşasın Azərbaycan
İlhamlı Azərbaycan

Ey vətən oğlu
Ey vətən oğlu
Xilaskarı Azərbaycanın

Odlar yurdu vətənin
Döyünən ürəyisən
Ey xalqımın İlhamı"

***Tapşırıq 332.*** Cümlələri tamamlayın.

1. Dərsini oxusa, ... .2. Ağacları sulasa, ... .3. Evi yığışdırsan, ... .4. Külək əssə ... . 5. Beşi beşə vursan, ... .6. Müharibə olmasa, ... . 7. Az yesən, ... .8. Xəstə həkimə qulaq assa, ... .9. Bir də qismət olsa, ... . 10. Dostum kitab alsa, ... .

**2. İnşa. Mən kiçik olanda.**

## 3. Arxaizm və neologizmlər.

***Qeyd:*** *Köhnəlmiş, yaxud istifadədən çıxmış söz, ifadə formasıdır. Arxaizmlər xalq dilində indi də işlənir. Məs., təknə, darğa, yasavul.*

***Tapşırıq 333.*** Aşağıdakı məişət tərzi ilə bağlı köhnəlmiş sözləri cümlədə işlədin.

*Nümunə:* Anam güyümün (iri mis qab) içinə düyü tökdü.

Dəbilqə (dəmir papaq), çarıq (gön ayaqqabı), daqqa (dəri papaq), toppuz (başı girdə çomaq, qədim silah növü), güyüm (iri mis qab), girvənkə (çəki vahidi), xurcun (iki gözlü heybə-torba), kəndxuda (kəndin başçısı), baqqal (ərzaq malları satan dükançı).

***Tapşırıq 334.*** Aşağıda verilmiş arxaizmləri oxuyun.

*Nümunə:* Hakim işin düzgün keçməsi üçün tanığı (şahid) içəri çağırdı.

Ayıtmaq (demək, söyləmək), tanıq (şahid), sayru (xəstə), güz (payız), us (ağıl), əsən (sağ-salamat), ün (səs), nəsnə (şey), arı (təmiz), suç (günah), danla (sabah), duş (yuxu), ayaq (qədəh).

***Qeyd:*** *Yeni yaranan sözlərə neologizm deyilir. Məs., kompüter, printer, fotoprint, fizioterapiya və s.Neologizm sözü tapmaq, törətmək, gətirmək mənalarını bildirir. Dildə yeni yaranan sözləri öyrənən elmə Neologiya deyilir.*

***Tapşırıq 335.*** Aşağıdakı neologizmləri cümlədə işlədin.

*Nümunə:* Rusiyada bizim çoxlu soydaşlarımız yaşayır.

Çağdaş, cangüdən, durum, soydaş, soyad, açıqca, yayım, soykökü, iş birliyi, nəfəslik.

***Tapşırıq 336.*** Başqa dillərdən alınmış sözlərin əsasında cümlələr qurun.

*Nümunə:* Spiker Milli Məclisin işini açıq elan etdi.

İnvestisiya, spiker, birja, kompüter, mer, faks, menecer, biznesmen, ekologiya, internet.

***Tapşırıq 337.*** Dilimizdəki ümumişlək sözlərdən cümlələr qurun.

*Nümunə:* Qapı birdən açıldı, Rəhim içəri daxil oldu.

Tozsoran, çimərlik, çalışqan, qarğıdalı, dəsmal, qəfildən, transfer.

**4. Mətn.**

### Naxçıvan Muxtar Respublikas

“Naxçıvan Respublikası inzibati cəhətdən altı rayona bölünmüşdür. Həmin rayonlar Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurdur.

Naxçıvan Muxtar Respublikasının 4 şəhəri, 4 şəhər tipli qəsəbəsi və 207 kəndi vardır.

Araz üzərində salınmış körpü Naxçıvanın beynəlxalq ticarət yolları Uzaq və Yaxın Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək yolu ilə bağlayırdı. Memar Əcəmi Naxçıvaninin başçılığı ilə Möminə Xatun türbəsinin yerləşdiyi ərazidə Atabəylər Memarlıq Kompleksi yaradılmışdır. Kompleksə Atabəylər sarayı, Cümə məscidi, mədrəsə, dövlətxana, Möminə xatun türbəsi, qoşa minarəli başdağ və sair abidələr daxildir.



Son illər Naxçıvan şəhərindəki memarlıq abidələrinin bir qismi bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Naxçıvan şəhəri baş plana əsasən genişləndirilmiş, boş sahələrdə yeni yaşayış massivləri salınmış və yenidənqurma işləri aparılmışdır.

Naxçıvanın tanınmış adamlarından bir neçəsini sayaq: Həsən Abdullayev – Azərbaycanın görkəmli fiziki Az.EA-nın həqiqi üzvü, Əmiraslan Əliyev – Azərbaycanın Milli Qəhrəmanı; Heydər Əliyev – Azərbaycanın görkəmli xadimi, Azərbaycan Respublikasının üçüncü prezidenti; Əcəmi Naxçıvani – XIII əsr Azərbaycan memarı; Məhəmməd Naxçıvani XIII əsr Azərbaycan tarixçisi; Nəcməddin Naxçıvani - XIII əsr Azərbaycan filosofu; Bəhruz Kəngərli – Azərbaycan rəssamı; Hüseyn Cavid – Azərbaycan şairi, yazıçı və dramaturqu; Məmməd Araz – Azərbaycanın xalq şairi; Cəlil Məmmədquluzadə – yazıçı, dramaturq və s. bu kimi məşhur şəxsiyyətlərin adlarını sadalamaqla qurtarmaz.

Naxçıvan diyarı hələ qədim zamanlardan sənətkarları ilə Yaxın Şərqdə tanınmışdır. Qədim xalq sənəti sahələri olan dulusçuluq, metal işləmə, misgərlik, daşişləmə, ağac işləmə, toxuculuq, zərgərlik və s. Naxçıvanda inkişaf etmişdi. Naxçıvanın əsas görkəmli yerləri məqbərə və qalalarını – Yusif İbn Kuseyr məqbərəsi, Nuh məqbərəsi, Əlincə qalası, Xan sarayı, Asəfi Kəfi ziyarət etməyə dəvət edirik”.

### Mətnə aid suallar:

1. Naxçıvan Muxtar Respublikası neçənci ildə yaradılıb?
2. Naxçıvan Muxtar Respublikası inzibati cəhətdən neçə rayona ayrılıb?
3. Naxçıvan Muxtar Respublikasının neçə şəhəri və kəndi var?
4. Naxçıvan Muxtar Respublikasında hansı komplekslər mövcuddur?

5. Naxçıvan Muxtar Respublikasının tanınmış adamları haqqında nə söyləyə bilərsiz?
6. Naxçıvan Muxtar Respublikasında hansı xalq sənəti sahələri mövcuddur?
7.Naxçıvanın əsas görməli yerləri haqqında öz fikir və mülahizələrinizi söyləyin.

## 5. Dialoq. Nə edirlər?

| | | |
|---|---|---|
| **Q.** Nə oxuyursan? | Что вы читайте? | What are you reading? |
| **A.** Kitab oxuyuram (hekayə, məktub) | Я читаю книги (рассказ письмо). | I’m reading a book (story, letter) |
| **Q.** O nə yazır? | Что он пишет? | What is S/he writing? |
| **A.** O məktub yazır (məqalə). | Он пишет письмо (статьи). | S/he is wring a letter (anartichle) |
| **Q.** Hara gedirsiniz? | Куда вы идете? | Where are you going? |
| **A.** Mən məktəbə gedirəm (kitabxanaya, parka, mağazaya) | Я иду в школу (в библиотеку, в парк, в магазин). | I’m going to school (to the library, to the pare, to the. to the store. |
| **Q.** Siz nə alırsınız? | Что вы покупаете? | What are you buying? |
| **A.** Mən paltar alıram (kitab, bilet). | Я покупаю одежду (книгу, билет). | I am buying a dress (book, ticket). |

## 27-ci dərs

1. Feili sifət. Feilin sifətə aid xüsusiyyətləri.
2. Feilin qarşılıq birgəlik növü.
3. Şeir. A.Səhhət "Vətən".
4. Mətn. 20 yanvar şəhidləri unudulmur.
5. Dialoq.

**1. Feili sifətin sifətə aid xüsusiyyətləri.**

*Azərbaycan dilində işlənən **feili sifətlər** fel köklərinin üzərinə müəyyən sözdüzəldici şəkilçilər artırmaqla əmələ gəlir.*
*-an, -ən; yazan (adam), bilən (insan), oxuyan (qız), düşünən (alim).*
*-mış, -miş, -muş, -müş: yeyilmiş (xörək), yazılmış (məktub), düzülmüş (badələr), uçmuş (ev)*
*-acaq, -əcək: oxunacaq (əsər), gələcək (gün).*
*-malı, -məli: yaşanmalı (günlər), bişirilməli (xörək).*
*-asi, -əsi: deyiləsi (söz), yazılası (məqalə).*
*-dıq, -dik, -duq, -dük + (mənsubiyyət şəkilçisi): qazdığım (quyu), əkdiyim (ağac), qoyduğum (kitab), gördüyümüz (adam).*
*-acaq, -əcək + (mənsubiyyət şəkilçisi): axtaracağım (gül), gedəcəyimiz (yer)*

***Qeyd:***
*1. İsmin əvvəlində gəlib əşyanın əlamətini bildirir: üzən adam.*
*2. Sifətin suallarına: necə, nə cür? hansı?cavab verir: əkilən ağac (hansı?)*
*3. Sifət kimi cümlədə təyin olur. Qələbə çalan uşaqların gülüşü ətrafı bürümüşdü.*
*4. Feili sifət cümlədə mübtəda, tamamlıq, təyin, ismi xəbər olur.*

***Tapşırıq 338.*** Aşağıda verilmiş feillərin qarşısına isimlər yazıb feili sifət birləşmələri düzəldin.

| | |
|---|---|
| Yığılmış – | yanmış – |
| danışan – | oxunan – |
| işləyən – | yazılan – |
| sulanan – | döyüşən – |
| üzən – | geyinilmiş – |

***Tapşırıq 339.*** Sözlərə suallar verib feili sifətləri müəyyən edin.

1. Oxuyan tələbə yaxşı qiymət alar. 2. Yazılası mövzularımız hələ çoxdur. 3.Bağban qurumuş budaqları kəsdi. 4. Qumru həyətdəki yetişən meyvələri səbətə yığdı. 5. Tikilən bina tamamlanmaq üzrə idi. 6.Biz qaçan ata tamaşa edirdik.

7.Vuruşan əsgərlərdən on yeddisi şəhid oldu. 8. Ovçu uçan quşu göydə vurdu.9.Üzən balıq tora düşdü. 10.Açılan güllərə tamaşa edirdik.

***Tapşırıq 340.*** Aşağıdakı nümunələrdən feili sifətləri seçib dəftərinizə köçürün.

1. İlbizlər oxuyur, susur bağça -bağ.
   Ucalan qovaqlar göylərə çatır.

2. Gecikmiş arzular aşıb- daşanda
   Baxaram, könlümdən al qanlar axar....

3. Mən baxan dağlara, ay mənsiz baxan,
   Sən baxan dənizə sənsiz baxıram.

4. Qoca balıqçının susan ürəyi
   Çağlayan Xəzərin köksündə vurdu.

5. Arzumuz doğulur aydın səhərlə,
   Oxşarı çağlayan çaylarla olur *(N.Xəzri).*

**2.Feilin qarşılıq birgəlik növü.**

***Qeyd:*** *Qarşılıq növ iş və hərəkətin ya qarşı-qarşıya, ya da birgə icrasını bildirir, -ış$^4$ (ş) şəkilçisi ilə düzəlir. Bu şəkilçilər təsirli, həm də təsirsiz feillərə qoşularaq, təsirsiz feillər əmələ gətirir. Məs.: Dostlar görüşdülər. Əsgərlər düşmənlə döyüşdülər.*

***Tapşırıq 341.*** Verilmiş sözlərə qarşılıq növ şəkilçilərini əlavə edib yazın və cümlədə işlədin.

*Nümunə:* qucaqla- qucaqlaş
Qucaqla, vur, gəz, salamla, gül, ula, ağla, tut, bax, dağıl.

***Tapşırıq 342.*** Mətndə qarşılıq növdə olan feilləri tapıb izahını verin.

Aişə, Elvin, Qumru, Gülnür, Elturan, İradə dostlaşmışdılar. Onlar həmişə dərslərinə hazırlaşmamış oynamağa getməzdilər. Dərslərini yerinə yetirdikdən sonra bir-birləri ilə söhbətləşirdilər. Müəllimlər onlardan çox razı idi. Yay fəsli yetişdi. Uşaqlar tətilə çıxdılar. Onlar müəllimləri ilə qucaqlaşıb, öpüşüb ayrıldılar. Yay fəslində hərə bir tərəfə dağılışdı. Bu uşaqlar da öz valideynləri ilə birlikdə istirahətə getdilər. İstirahətdə olmaqlarına baxmayaraq, uşaqlar bir-birləri ilə mesajlaşırdılar. Tətilin bitməsini səbirsizliklə gözləyirdilər. Günlər, həftələr keçdi, vaxt yetişdi. Sentyabr ayının 15-i hamı məktəbə gəldi. Dostlar iki ay idi ki,

görüşməmişdilər. Onlar görüşdülər, qucaqlaşdılar, gülüşdülər və yay sərgüzəştlərini bir-biri ilə bölüşdülər. Onlar ayrılmaz dostlardır. Allah onları qorusun və həmişə mehriban etsin.

***Tapşırıq 343.*** Yuxarıdakı mətnə aid suallara cavab yazın. Cavablarınızı geniş yazın və cümlələrdə feilləri qarşılıq növdə işlətməyə çalışın.

1. Tərbiyəli adam necə olur və sən bunu necə izah edə bilərsən?
2. Düzgün tərbiyə kimdən asılıdır?
3. İnsan özünü necə aparmalıdır?
4. Həyatda qarşına çıxan müxtəlif hadisələrə hazırsan?
5. Həyatdakı çətinliklərə qarşı özündə güc hiss edirsənmi?
6. Sənin fikrincə, necə insan tərbiyəli sayılır. Subyektiv fikrini yaz.
7. Hərəkətlərinizə müxtəlif yerlərdə – evdə, universitetdə nəzarət edirsinizmi? Sinifdə, dərs zamanı, küçədə, yoxsa hər məkanda və situasiyada eyni şəkildə özünüzü aparırsınız?

***Tapşırıq 344.*** Aşağıdakı feilləri qarşılıq-birgəlik növə çevirib cümlələrdə işlədin.

Öpmək, görmək, döymək, sevmək, küsmək.

***Tapşırıq 345.*** Verilmiş sözləri cümlədə isim kimi işlədin.

Görüş, vuruş, öpüş, döyüş, söyüş.

***Tapşırıq 346.*** Oxuyun, feillərin hansı məna növündə - məlum, məchul və ya qarşılıq-birgəlik növdə olduğunu müəyyənləşdirin.

1. Qatardan düşən dostunu Pərvin o saat tanıdı, ona yaxınlaşdı, qucaqlaşıb öpüşdülər. 2. Xədicəni bu qiyafədə görən kimi hamı gülüşdü və bir-birilə pıçıldaşmağa başladılar. 3. Sabah İstanbula getsəm, orada onunla görüşərəm. 4. Qızım, Məryəmlə yenə küsüşmüsüz? 5. Onlar xeyli vuruşdular, Məlik Məhəmməd divi yerə yıxdı. 6. Əlvida, yoldaşlar! Qorxmayın, vuruşun! Biz qalib gələcəyik. 7. Onlar bu quyunun başındaca sevişmiş, bir-birinin əlindən su alıb içmişdilər. 8. Bağda bülbüllər ötüşür, cəh-cəh vururdular.

***Tapşırıq 347.*** İmla.

**Dəmirağac**

"Dəmirağacın fevral-mart aylarında çiçəkləyir. Meyvələri isə avqust-sentyabr aylarında yetişir. Payızda ilk yarpağı saralan dəmirağacdır. Yarpaqlarının rəngi həm sarı, həm də narıncı olur. Bu da təbiətə xüsusi gözəllik verir. Dəmirağac əsasən Talış meşələrində bitir. Lənkəran, Balakən-Şəki şəhərlərində də dəmirağacın meşələri var. Onun oduncağı çox ağırdır. Ondan əsasən, telefon və elektrik dirəkləri üçün istifadə edirlər. O dekorativ ağacdır".

**Mənbə:** Daxili baza

## 3. Şeir. Abbas Səhhət

### Vətən

“Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Vətənim verdi mənə nanü nəmək,
Vətəni məncə unutmaq nə demək?!

Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə səni.
Südüdür ki, dolanıb qanım olub,
O mənim sevgili cananım olub.

Saxlaram gözlərim üstə onu mən,
Ölərəm, əldən əgər getsə vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.

Vətən – əcdadımızın mədfənidir,
Vətən – övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz,
Olsa, o şəxsdə vicdan olmaz”.

**Mənbə:** Seçilmiş əsərləri, Bakı: “Lider” nəşriyyatı, 2005, s.48

## 4. Mətn.

### 20 Yanvar şəhidləri unudulmur

“1990-cı il, yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış sovet ordusu, erməni quldur dəstələri ilə birlikdə Azərbaycan xalqına qarşı terror aktı keçirdi. Bu insan qırğını öz canını vətən yolunda qurban verənləri cənnətə, Azərbaycanı isə müstəqilliyə qovuşdurdu. Bir gecə ərzində Bakıda 137 nəfər öldürüldü, 700-dək insan yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş bu tarix Azərbaycanda misli görünməmiş faciəyə səbəb oldu.

B faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər”.




Azərbaycan xalqı öz şəhidlərini heç vaxt unutmayacaq. 20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Çünki vətən və torpaq şəhidləri ilə ucalır".

**Mənbə:** Mətbuat

## Mətnə aid suallar:

1. 1990-cı il, yanvarın 19-dan 20-nə keçən gecə kimlər Azərbaycana qarşı terror aktı həyata keçirdi?
2. Neçə adam öldürüldü, yaralandı və həbs edildi?
3. Bu tarixi hadisə Azərbaycana nə verdi?
4. Mərd Vətən övladları torpaq uğrunda canlarından keçərək hansı zirvəyə ucaldılar?
5. 20 yanar Azərbaycan üçün necə gündür?

## <u>5. Dialoq.</u>

| | | |
|---|---|---|
| - Sizdə hansı ətirlər var? | - Какие у вас есть духи? | - Which perfumes do you have? |
| -Bizdə bütün ətirlər var. | - У нас есть все. | - We have all perfumes. |
| Sizdə Dior (Lankom, Şanel) fırmasının ətri varmı? | -У вас есть духи фирмы Диор (Ланком, Шанель) ? | - Do you have Dior (Lancome, Chanel) perfumes? |
| - Əlbəttə. | -Конечно. | - Of course. |
| - Bu ətir neçəyədir? | -Сколько стоят эти духи? | - How much is this perfume? |

| | | |
|---|---|---|
| - Əlli dollar. | -Пятьдесять долларов. | - 50 dollars. |
| - Bu ətrin iyi çox gözəldir! | Запах этих духов прекрасен! | - The smell of this perfume is excellent! |
| - Zəhmət olmasa, onu bükün. | -Упакуйте, пожалуйста. | - Pack it up, please. |
| - Təşəkkür edirəm. | -Благодарю. | - Thank you. |

## 28-ci dərs

1. Feili sifətin feilə aid xüsusiyyətləri.
2. İki nöqtənin işlənməsi.
3.N.Gəncəvi "Eşqdir mehrabı uca göylərin".
4. Mətn. Ü.Hacıbəyli "Həmsöhbətim".
5. Dialoq.

### 1. Feili sifətin feilə aid xüsusiyyətləri.

***Qeyd:***
*1.Feilin kökü və feili sifətin kökü eyni leksik mənaya malik olur. Məs., gör – gördüyüm, al – alan, oxu – oxumuş.*
*2. Təsdiq və inkarda olur: Məs., qaçan – qaçmayan, götürməli – götürməməli, oxuduğum – oxumadığın, deyəcəyin – deməyəcəyin*
*3. Təsirli və təsirsiz olur: Məs., oturan, yazan, qaçmış, yuyan.*
*4. Ətrafına söz toplayır və tərkib əmələ gətirir. Məs., gündəlik dərslərə yaxşı hazırlaşan, payızda əkilən.*

***Tapşırıq 348.*** Verilmiş feli sifət birləşmələrini cümlələrdə işlədin.

Dağlardan əsən, dərslərini hazırlayan,köməyə gələn, yerdə sürünən, göydən yerə enən, kənddə tikilən, ruhumu oxşayan, yazda yetişən.

***Tapşırıq 349.*** Verilmiş feli sifətlərdən feli sifət birləşməsi düzəldib, cümlə içərisində yazın.

*Nümunə:* Dərilmiş- ağacdan dərilmiş və s. Qubanın meyvə bağlarından ağacdan dərilmiş almaları uşaq evlərinə göndərdilər.

Dərilmiş, sağılmış, axan, oxuyan, ağlayan, tikilmiş, qazılmış, dənləyən, uçan, sökülən və s.

***Tapşırıq 350.*** İndiki zaman fellərini nümunədə olduğu kimi indiki zaman feli sifətlərinə çevirib yazın.

*Nümunə:* At qaçır - qaçan at

Quş uçur, dəniz dalğalanır, külək əsir, taxıl biçilir, Rasim şəkil çəkir, çay axır, gəmi üzür, xurma yetişir, yağış yağır.

***Tapşırıq 351.*** Fellərə əvvəl - *acaq*$^2$*, sonra -ası*$^2$ *və -malı*$^2$ şəkilçilərini artırıb, feli sifətlər düzəldin. Onları cümlədə işlədin.

*Nümunə:* Göndəriləcək məktub, göndərilləsi məktub, göndərilməli məktub

Qurulmaq, dağılmaq, qorunmaq, əkilmək, çəkilmək, uçmaq, sağalmaq, döyülmək, göndərilmək

***Tapşırıq 352.*** Aşağıdakı atalar sözlərində feili sifətlərin altından xətt çəkin.

1. Başlanmış iş yarı olmaq deməkdir.
2. Bişmiş toyuğun gülməyi gəlir.
3. Qurumuş ağacı odunluğa doğrarlar.
4. İslanmış toyuğa dönüb.
5. İşlənmiş dəmir paslanmaz.
6. Çağırılmamış qonaq süpürülməmiş yerdə oturar.
7. Çağırılan yerə ar eləmə
   Çağırılmayan yeri dar.

***Tapşırıq 353.*** *-acaq, -əcək* şəkilçisi ilə feili sifətə aid beş misal yazın, cümlədə işlədin.

***Tapşırıq 354.*** Köçürün, feili sifətləri feilin lazım şəkli ilə müqayisə edib, yeni cümlələr qurun.

Əkiləsi ağac – Ağac əkiləsidir. Oxunası əsər – Bu əsər oxunasıdır.
Silinəsi pəncərə – Pəncərə silinəsidir. Qaldırılası yük – Yük qaldırılasıdır.
Paslanmış açar – Açar paslanmışdır. Çəkiləsi şəkil – Bu şəkil çəkiləsidir.

***Tapşırıq 355.*** Feilin vacib şəklində olan cümlələri feili sifət kimi işlədin.

*Nümunə:* Yeyilməli alma
Alma yeyilməlidir. Təzə yol çəkilməlidir. İşlər görülməlidir. Tarla şumlanmalıdır. Lövhə təmizlənməlidir. İclas keçirilməlidir. Paltar ütülənməlidir. Stadion tikilməlidir. Mahnı oxunmalıdır.

**Məktubun yazılmasına aid nümunə.**

Salam, əziz anam və atam!
Siz bildiyiniz kimi, mən indi Bakıda Azərbaycan dilini öyrənirəm. Oxuduğum Bakı Dövlət Universiteti çox gözəl və möhtəşəmdir. Biz dərslərdə Azərbaycan dilində çoxlu danışır, oxuyur və yazı yazırıq. Müəllimlər bizi Bakının gözəl məkanlarından olan Abşeron yarımadasındakı Qala kəndində - açıq havada olan muzeyə və Şüvəlandakı «Mir Mövsüm ağanın ziyarətgahı»na apardılar. Gəzintimiz çox maraqlı oldu. Müəllimlər bizə çox gözəl gün yaşatdılar. Artıq biz Azərbaycan dilində yaxşı başa düşür, bəzi terminləri və onların yazılışını yavaş-yavaş öyrənirik. Düzdür, burada bizi başa düşürlər, çünki dilimizdə oxşarlıq çoxdur. Bizim çox yaxşı müəllimimiz var. O bizə anamızı əvəz edir.

Mənim yaşadığım ev universitetə yaxındır. Axşamlar mən şəhəri gəzirəm. Bakı gecələri çox gözəldir. Ümumiyyətlə, şəhər çox möhtəşəmdir. Burada gözəl evlər, klublar, körpülər, muzeylər, teatrlar, Dənizkənarı park, Şəhidlər xiyabanı var. Biz Şəhidlər xiyabanında və Nizami muzeyində olduq. Şəhidlər xiyabanında türk əsgərlərinin şərəfinə abidə ucalıb. Ümumiyyətlə, mən burada çox yaxşı yaşayıram. Siz məndən nigaran qalmayın. Mən sizi çox sevirəm, mənim əzizlərim. Tətildə yanınıza gələcəyəm. Öpürəm sizi.

**2.İki nöqtənin işlənmə qaydası.**

***Qeyd:*** *: Nöqtə*
*1. Yazıda təsnifat mətnindən sonra əlavə edilən bölgüdən sonra qoyulur. Məs., İsimlər quruluşca üç yerə bölünür: sadə, düzəltmə, mürəkkəb.*
*2. Müəllifin sözündən sonra qoyulur. Məs., Peyğəmbərimiz demişdir(müəllif sözü) : "İnsan beşikdən məzara qədər öyrənməlidir" (vasitəsiz nitq).*
*3.Qəzet və jurnal başlıqlarında. Məs., Dilçilik: problemlər və mülahizələr.*
*4. Hər hansı bir məsələnin izahını vermək üçün. Məs., O alınan şeyləri yerləşdirdi: geyimləri şkafa, ərzaqları soyuducuya yığdı.*

***Tapşırıq 356***. Aşağıdakı cümlələri köçürün və müəllifin sözlərindən sonra gələn vasitəsiz nitqdən əvvəl iki nöqtə qoyulmasına diqqət yetirin.
1. Məmməd ötkəm bir səslə:
– Gedirik, doktor! – deyə cavab verdi və addımladı *(C.Cabbarlı).*
2. Molla deyir: – Yenə də siyahıda sənin adın qalacaq *(Molla Nəsrəddin "Lətifə").*
3.Hərdən bir deyir: – Ağa Rüstəm, bəri dur!
4.Hacı üzünü usta Həsənə tutub dedi:
– Usta Həsən! Allah sənin evini bərbad eləsin, məni yaxşı həkim yanına gətirdin.
*(Ə.Haqverdiyev "Diş ağrısı").*

**3. N.Gəncəvi "Eşqdir mehrabı uca göylərin".**

"Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?!
Eşqin qulu ol кi, doğru yol budur,
Ariflər yanında, bil, eşq uludur.
Bu dünya eşqdir, qalan fırıldaq,
Eşqdən başqa şey boş bir oyuncaq.
Eşqsiz olsaydı xilqətin canı
Diriliк sarmazdı böyüк cahanı.
Eşqsiz bir adam bir neydir - qırıq,
Yüz canı olsa da, ölüdür artıq".

**Mənbə:** N.Gəcəvi ("Xosrov və Şirin" əsərindən), Bakı: "Lider" nəşriyyatı, 2004, s.8

*Tapşırıq 357.* İmla.

**İtirilmiş durğu işarələri (Romantika və düşüncələr)**

"Bir gün insan vergülü itirdi. O zaman fikirləri bir-birinə qarışdı, mürəkkəb cümlələr qurmaqdan qorxdu. Bəsit cümlələr qurmağa başladı. Cümlələri bəsitləşdikcə fikirləri də bəsitləşdi.

Nöqtəni itirdi ... Fikirləri uzandıqca uzandı. İfadə edə bilmədi özünü.

Başqa bir gün nidanı itirdi. Səs tonunu dəyişdirmədən danışmağa başladı, monotonlaşdı. Ətrafda baş verən heç bir şey onda kiçik bir həyəcan belə doğura bilmədi. Sevincini, qəzəbini – bütün duyğularını itirdi.

Sual işarəsini itirdiyi andan sual verməyi unutdu. Hər şeyi olduğu kimi qəbul etməyə başladı, nə dünya, nə insanlar, nə də həyat onu maraqlandırmadı.

İki nöqtəni itirdi və heç nəyi aydınlaşdırmaq ehtiyacı duymadı.

Ömrünün sonunda əlində ancaq dırnaq işarəsi qalmışdı, onun da içində başqalarının fikirləri".

**Mənbə:** Kayzen. Romantika və düşüncələr, 28 iyun, 2014 (maraqlı məlumatlar)

**5. Mətn.**

**Həmsöhbətim**
***(Felyeton)***

Oxucularımızdan biri ilə söhbət edirik. Dedi ki, qəzetinizdə bir çox sözlər olur ki, adam oxuyanda başa düşmür.

Dedim: – Lüğətə bax, mənasını öyrən.

Dedi: – Hanı lüğət?

Dedim: – Qəzet oxucuları üçün bir lüğət nəşr olunub. Amma sən deyirsən hanı lüğət?

Həmsöhbətim məhcub olub (utanıb) dedi: – Xeyr, – sözlərdən başqa, bir də qəzetinizdə elə şeylər olur ki, adam ha fikir edir, başa düşmür.

Soruşdum ki, məsələn?

Dedi: – Məsələn, Serbiya ilə Avstriya əhvalatı. Mən oxuyub anlamışam ki, bəli, Avstriya Osmanlının Bosniya Herseqovina adlı yerini tutubdur. Yaxşı, bəs Serbiyaya nə düşübdür ki, çığır-bağır eləyir, Avstriyaya acığı tutur.

Dedim: – Tarix oxumusan?

Dedi: – Oxumuşam.

Dedim: – Orada Serbiya haqqında nə yazıbdır?

Rəfiqim bir az fikir elədi və dedi:

– "Tarixi – Nadir"də Serbiya haqqında bir söz yoxdur. Amma Əfqanıstan barəsində çox şeylər yazılıbdır.

Dedim: – "Tarixi – Nadir"i demirəm. Tarixi ümumi deyirəm..

Dedi: – Onu oxumamışam.

Dedim: – Coğrafiya oxumusan?

Dedi: – Oxumuşam.

Dedim: – Orada Serbiya və Avstriya haqqında nə yazılıbdır?

Dedi: – "Cameyi-Abbas"da Serbiya və Avstriya barəsində bir şey yoxdur.

Dedim: – "Cameyi-Abbas"ı demirəm. Coğrafiya deyirəm.

Dedi: – Onu oxumamışam.

Dedim: – Elə olanda, əlbəttə, bilməzsən ki, neyçün Serbiyanın Avstriyaya acığı tutur!

Rəfiqim çox razı oldu və özünə də acığı tutdu.

**Mənbə:** Ü.Hacıbəyov. Seçilmiş əsərləri, 2 cilddə. Publisistik əsərlər (Felyetonlar). Bakı, 2005

## 5. Dialoq.

| | | |
|---|---|---|
| - Mənim dişim ağrıyır. | - У меня болит зуб. | İ have a toothache. |
| - Damağım şişib. | - Опухла десна. | -My gum is tumour. |
| - Damağım qanayır. | - Кровоточит десна. | -Gums bleeding. |
| - Dişim sınıb. | - Сломался зуб. | -My tooth is broken. |
| -Plombum düşüb. | - У меня выпала пломба. | -A filling has come out. |
| - Zəhmət olmasa, (plomb qoyun, bu dişimi çıxarın, ağrını sakitlləşdirin). | -Пожалуйста, (поставьте пломбу, удалите этот зуб, успокойте боль). | Please, (put in filling, pull this tooth, do something for the pain). |

## 29-cu dərs

1. İş feilləri.
2. Məsdər.
3. Dinləmə materialı əsasında ifadə.
4. Mətn. Bakı 2015 Avropa oyunları.
5. Dialoq.

### 1. İş feilləri.

***Qeyd**: Adından göründüyü kimi, bu feillərdə hərəkət vardır. Feillər leksik mənaca bir neçə yerə bölünür. Onlardan biri də iş feilləridir.*

***Tapşırıq 358.*** İş feilləri sırasını göstərin.

1. Getmək, qaçmaq, görmək, dırmaşmaq, sevinmək.
2. Söyləmək, danışmaq, demək, oxumaq, qışqırmaq.
3. Tikmək, sökmək, kəsmək, yağlamaq, rəngləmək.
4. Anlamaq, fikirləşmək, arzulamaq, ağarmaq.

***Tapşırıq 359.*** Mirzə İbrahimovun "Qoca meynə" hekayəsində iş feillərinin altından xətt çəkin.

Kamranın atası eyvanda oturub çay içirdi. Birdən gözləri eyvanın yanındakı qoca meynəyə sataşdı. O, oğlu Kamranı çağırıb dedi:

– Kamran, oğlum, gəl bu qoca meynəni dirildək, cavanlaşdıraq. Elə edək ki, o bizə şirin üzüm versin.

Bu zaman Kamranın məktəb yoldaşı Sadıq da gəldi. Hər üçü birlikdə eyvandan həyətə düşdülər.

Kamranın atası meynənin dibini açdı, kötükdə olan çürümüş yerləri, artıq çubuqları mişarla kəsdi. Yalnız bir çubuq saxladı. Sonra meynənin ətrafında lək düzəltdi. Uşaqlar isə həyətin ətrafındakı daşları yığıb, ləkin qıraqlarına düzdülər. Atanın göstərişi ilə Kamrangil meyvənin dibinə su tökdülər. Sonra onlar talvar düzəltməyə başladılar.

Talvar hazır olanda ata çubuğu qaldırıb məftilə ilişdirdi. Meynənin ağzını yuxarı verdi və üzünü uşaqlara tutub dedi:

– Çox sağ olun, balalarım, gərək əməyimiz hədər getməsin. Bu meynə bir neçə ilə bütün həyəti basacaq, həm kölgə salıb, bizi yayın istisindən qoruyacaq, həm də bizi dadlı şanıya qonaq edəcək.

Doğrudan da, yaz açılanda, meynə qol-budaq atdı. Çox keçməmiş talvarı tutdu. Onun yamyaşıl və iri yarpaqları həyəti örtüb günəşin yandırıcı şüalarını aşağı buraxmadı. İyul ayının ortalarında isə noxud boyda gilələrlə dolu salxımlar talvardan aşağı sallandı.

***Tapşırıq 360.*** Aşağıdakı iş feillərini cümlədə işlədin.

Yumaq, yazmaq, yaymaq, toxumaq, açmaq.

**Oxu. İlyas Əfəndiyev "Bahar suları"** ***(bir parça)***

**Sədəf.** Nə olub, əmioğlu, gözümə qəmgin dəyirsən?
**Xanmıurad.** Əksinə, çox şadam. Özüm də şad xəbər gətirmişəm.
**Sədəf.** Doğrudan? Kimə?
**Xanmurad.** Sənə!
**Sədəf.** Ah, əmioğlu, bir tez de görüm, nə olub?
**Xanmurad.** Yox, muştuluğumu verməsən, deməm.
**Turac.** Yaxsı. Bir cüt qotazlı corab. De görək, nə olub?
**Xanmurad.** Sən bir dayan, corabı neyləyirəm, nənəm gündə birini toxuyur.
**Sədəf** (həyəcanla).Bir gözəl yaylıq. Tez de görüm.
**Xanmurad.** Yaylıq ayrılıqdır. Bir tikməli köynək. Bu şərtlə ki, öz əlinlə tikəsən...
**Sədəf.** Yaxşı, di tez ol!
**Xanmurad.** Onda deyim... Ancaq, əminəvəsi, bir məsəl var, deyərlər: «Təzə ay çıxanda köhnəsini doğrayıb ulduz edərlər».
**Turac.** Ay qız, bəri gəl, sən allah. Xanmuraddır da... Yenə şitliyi tutub.
**Xanmurad** (Turaca). Heç ömründə bir adam sevmisən?
**Turac.** Dərdim qurtarmışdı! Mən niyə sevirəm? Əgər lazımdır qoy məni sevsinlər.
**Sədəf.** Ey əmioğlu! Daha məndə səbr qalmadı.
**Xanmurad.** Bilirsən, Uğur gəlir!
**Turac.** Sağ ol, Xanmurad. Sağsağan kimi həmişə xeyir xəbər gətirir.
**Sədəf.** Ax, Turac. Görəsən doğrudur?! Bu beş ildə mən onu ancaq yuxumda görməyə o qədər adət etmişəm ki, indi aşkarda görəcəyimə heç inana bilmirəm.
**Turac.** Ay Sədəf, sən allah, bircə de görüm, bir belə vaxt keçəndən sonra sən onu yenə də istəyirsən?
**Sədəf.** O nə sözdür, Turac? Sən onu soruş ki, heç bir gün, bir saat yadından çıxan dəqiqə olub? O gedəndə mənim on yeddi yaşım vardı. İndi isə iyirmi üçə keçirəm. İki il könlümü onun məktublarına bağladım. Axırda onlardan da əlim üzüldü. Dörd il bilirsən ki, ondan heç bir xəbər olmadı. Mən onun iyini ayağı dəyən yerlərdən aldım. Hər açılan sabahda, hər gələn baharda onu gördüm. Uzun qış gecələrində onun xəyalilə diz-dizə oturub sevinc və dərdlərimdən danışdım...
**Turac.** Ay qız, sən həmişə belə danışanda mənim ürəyim bir təhər olur...
**Sədəf.** Eh, Turac! Bu beş ildə etdiyim hər şey onun adı ilə bağlı olub. Müharibəyə getdiyi gün mən ona, bax, o söyüdün altında rast gəldim. Atının başını çəkib dayandı. Biz xeyli vaxt heç nə danışa bilmədik. Axırda o dedi ki, «Sağ ol, Sədəf, məni unutma!» Sonralar mən onun bu sözlərini gündə yüz dəfə öz-özümə təkrar edirdim: «Məni unutma».
**Turac.** Sən igid qızsan, Sədəf.

**Mənbə:** İ.Əfəndiyev. "Bahar suları". Bakı: Azərnəşr, 1955, s.76

## 2. Məsdər.

*Qeyd: Məsdər də isim kimi ad bildirir. İsim əşyanın adını, məsdər isə hərəkətin adını bildirir. Məsdər - maq, - mək şəkilçisi ilə düzəlir. -maq, - mək şəkilçisi məsdərin əlaməti hesab olunur. Feillər lüğətlərdə məsdər formasında yazılır. Məs., oturmaq, qayıtmaq, çimmək, əkmək və s.*

***Tapşırıq 361.*** Aşağıda verilmiş atalar sözlərindəki məsdərləri kök və şəkilçiyə ayırın.

Qulaq eşitmək üçündür.
Qurda rəhm etmək, quzuya zülm etmək deməkdir.
Danışmaq – gümüş, susmaq – qızıldır.
Demək – asandır, yerinə yetirmək – çətin.
El ağzını bağlamaq olmaz.
Yalan ilə dünyanı gəzmək olar, amma qayıtmaq olmaz.
Yeməklə doymayan, yalamaqla doymaz.
Küləyi tutmaq olmaz.

***Tapşırıq 362.*** *Addımlamaq, almaq, bağışlamaq, yaşamaq, eşitmək, dəyişdirmək, enmək, əkmək, çağırmaq* məsdərlərini cümlələrdə işlədin.

*Nümunə:* Yaşamaq yanmaqdır, yanasan gərək.

***Tapşırıq 363.*** Cümlələrdə nöqtələrin yerinə uyğun gələn məsdərləri əlavə edin.

*(getmək, keçmək, qaçmaq, qazandırmaq, danışmaq, almaq, qaldırmaq, çatmaq, etmək, yandırmaq, baş açmaq).*

1. Burada baş verənlərdən ..... çox çətindir.2.Dünya ictimaiyyətinin gözündə Xocalıdakı cinayətkarlığa heç nə ilə haqq ..... olmaz.3.Azərbaycan şəhərinin dinc əhalisi erməni silahlı birləşmələrinin güclü atəşi altından çıxıb Ağdama ..... istəyən və yaxın məsafədən güllələnmiş uşaqlar, qadınlar, qocalar idi *(Rori Patriks, jurnalist, İngiltərə).* 4.Daşbulağın yanındakı bataqlıqdan ..... üçün meyidlərdən körpü düzəltdik. Mən cəsədlərin üstü ilə ..... istəmədim *(Beyrut, "Əş-Şərq" nəşriyyatı, "Xaç naminə" kitabının müəllifi Dand Xeyriyan. səh.19-76. Xocalı uğrunda döyüşdə olan).*5.Qarşıya qoyulan məqsədə ..... üçün əsas vəzifələrdən biri münaqişə zonasında kəşfiyyat şəbəkəsinin genişləndirilməsi idi. 6.Ermənilər öldürülmüş azərbaycanlıların cəsədlərini ..... üçün "02-19 MM" nömrəli kamaza yığıb böyük bir tonqal qaladılar. 7.To De Val deyirdi: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat ..... olar. 8.Onlar elə fikirləşirdilər ki, biz mülki vətəndaşlara qarşı silah ..... imkanına malik deyilik. 9.Hərbi qurumun başçısının söylədiyi bu çıxışın qarşısını ..... məqsədilə Xocalı qırğınına münasibətdə xüsusi beynəlxalq tribunalın vacibliyini təsdiq edir.

***Tapşırıq 364.*** Məsdərlərin felə aid xüsusiyyətlərini göstərin (təsdiq və ya inkarda, təsirli-təsirsiz, növ kateqoriyalarında olmalarını).

1. Ürəyi xəstə olan adamlara siqaret çəkmək olmaz. 2. Məğlub olmamaq üçün rəqib qapısına top vurmalısınız. 3. Gündə ən azı 8 saat yatmaq vacibdir. 4.Xəstələr çox gözləməmək üçün həkimin qəbuluna yazılmalıdırlar. 5. Ali məktəbə daxil olmaq hər bir şagirdin arzusudur. 6. Səhhətinizi qorumaq üçün siqaret çəkməyi azaltmalısınız. 7. Vaxtı öldürmək, intihar etmək deməkdir. 8. Bu sözləri eşidəndən sonra o, ruhani olmaqdan imtina edir.

***Tapşırıq 365.*** Sözləri elə düzün ki, düzgün cümlə alınsın.

1. Bişirmək dadlı Sevda yemək çalışır.
2. Nənəm xalça başlayıb yaşlarından toxumağa gənc.
3. Hansı oxumaq kitabları istəyirsniz?
4. Bacarırıq da işləməyi də biz oxumağı.
5. Edir işləmək insanı yenilməz.

## 3. Dinləmə materialı əsasında ifadə.

**Sinif işi.** Şeiri oxuyun. Bəxtiyar Vahabzadə. "Yıxılıb öyrənirik" şeiri.

"Yıxıldın?
Qalx! İnləmə!
Nə çıxar inləməkdən –
Ah çəkib, uf deməkdən?!

Yıxılmaq ayıb deyil.
Hamı yıxılıb durur...
Yıxılmağın cəbrini
Yerimək unutdurur.
Yıxılıb öyrənirik.
Ayaq üstə durmağı
Gözümüzü açandan...
Bir təzə fənd öyrənir
Yıxılanda pəhləvan...
Danışmaq öyrənirik
Dil topuq çala-şala
Yerimək öyrənirik
Biz yıxıla-yıxıla".

**Mənbə:** B.Vahabzadə. Seçilmiş əsərləri, I cild.
Bakı: "Öndər" nəşriyyatı, 2004, 328 s.

**Rənglər və onların bir-biri ilə müqayisəsi**



**4.Mətn.**

## Bakı - 2015 Avropa Oyunları

2015-ci ilin iyununda Azərbaycanın paytaxtı Bakıda keçirilməsi planlaşdırılan bir çox innovativ idman növlərini özündə birləşdirən ilk Avropa oyunlarıdır.




Oyunlar Avropanın 50 Milli Olimpiya təşkilatı tərəfindən təşkil edilmişdir. 12-28 iyun tarixləri arasında təşkil olunan oyunlarda 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançı iştirak etmişdir. Oyunların proqramına 28 yay olimpiya idman növündən 15-i həmçinin 2 qeyri-olimpiya idman növü daxil edilmişdir.

Bu günə qədər beynəlxalq həndbol, voleybol, reqbi, boks, cüdo, biatlon, atçılıq, badminton, taekvando, kamandan oxatma, qılınc oynatma, kanoe, stolüstü tennis və güləş federasiyaları Bakıda keçirilən Avropa Oyunlarında iştiraklarını təsdiq etdilər.

### Mətnə aid suallar:

1. 2015-ci ildə hansı beynəlxalq tədbir Bakıda keçirildi?
2. Bu tədbir hansı təşkilat tərəfindən təyin edilmişdir?
3. Oyunlar hansı ayda və neçəsində baş tutub?
4. Neçə idman növü bura daxil idi?

**5. Dialoq.**

| | | | |
|---|---|---|---|
| **Q.** | Əzizim saat neçədir? | Дорогой, который час? | Greatest. time is Nec? |
| **K.** | Doqquza 10 dəqiqə işlə-yir? | Без десяти восемь. | Works for nine to 10 minutes. |
| **Q.** | Bir qədər tezdir mağaza 20 dəqiqəyə açılacaq. | Немного рано. Мага-зин откроется через 20 минут. | A little sooner, the store will open in 20 minutes |
| **K.** | Onda gəl yaxınlıqdakı parkda duraq. | Тогда давай сядем в парке рядом. | Then let's stop at the park near the lake. |
| **Q.** | Yox, mən parkda oturmaq istəmirəm, gəzmək istəyi-rəm. | Нет, я не хочу сидеть, я хочу гулять. | No, I do not want to sit in the park, I want to walk. |
| **K.** | Sonra deyəcəksən ayaq-larım ağrıdı, oturmaq, din- | Потом будешь гово-рить, что ноги устали. | Then you will say that my tatter ached, it is |

| | | | |
|---|---|---|---|
| | cəlmək, yaxşıdır. | Лучше посидеть и отдохнуть. | bettor to sit down and rest. |
| **Q.** | Əksinə, həkim deyir ki, çox gəzmək ayaqlar üçün xeyirlidir amma sən idman ayaqqabılarını geyinməmişsən, olmaz. | Наоборот, врач сказать, что много гулять – это полезно. | On the contrary, the doctor says that walking too much is good for the legs. |
| **K.** | Bəlkə evə qayıdaq, ayaqqabılarını dəyiş, o vaxta mağaza da açılar. Sonra gəzərik. | Давай вернемся домой, ты переоденешь обувь. Как раз магазин откроется до этого времени. Потом погуляем. | But you did not wear sneakers, you can not. |
| **Q.** | Sən zarafat edirsən? | Ты шутишь? | You are superstitious habit? |
| **K.** | Yox, zarafat niyə, tam ciddi deyirəm. | Нет, я на полном серьёзе говорю. | No superstitious habit why, I say strictly in full. |
| **Q.** | Yaxşı, sən deyən olsun, gedək. | Хорошо, пусть будет как ты скажешь. | Well, let’s go. |

## 30-cu dərs

1. Nitq feilləri.
2. Nəqli və sual cümləsi.
3.”Əsgər marşı şeiri”
4. Mətn. Atəşgah.
5. Dialoq.

**1. Nitq feilləri.**

***Qeyd:*** *Nitq feilləri nitq prosesi ilə bağlı yaranan feillərdir.*

***Tapşırıq 366.*** Aşağıdakı nitq feillərini cümlələrdə işlədin.

Söhbət etmək, mübahisə etmək, sual vermək, cavab vermək, bağırmaq, izah etmək, şeir söyləmək.

***Tapşırıq 367.*** Nöqtələrin yerinə uyğun gələn nitq feillərini əlavə edin.

1.İclasda hamı növbə ilə .... 2.Onun .... mahnını Rəhim diqqətlə dinləyirdi.3.Tələbə biletin suallarına .... 4. Ata oğlunu .... .5. Artist Hamletin monoloqunu .... .6.Şagird maraqlı şeir .... .7. Tələbə dərsi .... .8.Əsgərlər birlikdə ....

***Tapşırıq 368.*** Nitq feillərindən istifadə edərək beş cümlə yazın.

***Tapşırıq 369.*** Nitq feillərinə aid krossvordu həll edin.



Yuxarıdan aşağı:
1. O telefona ....
6.Əhməd Rasimin  qulağına ....
9. Müəllim dərsi .....
Soldan sağa:
2. Ana oğluna nağıl ...
3. Müəllim dəftəri cırdığına görə Musanı ...
4. Nənə çox iş gördüyü üçün.....
5. Professor məclisdə ......
7. Novruz bayramına həsr olunmuş gecədə tələbə gözəl .....
8. O qorxudan .....
11. Ana körpəsinə lay-lay ....

***Tapşırıq 370.*** Bayatıları əzbərləyin.

"Əzizim gül üşüdü,
Şeh düşdü gül üşüdü.
Güldün əqlim apadın,
Bu necə gülüş idi?

Qızılgülü bişmişəm,
Üstündə and işmişəm.
Yüz gözəlin içindən
Təkcə səni seçmişəm.

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Dünya cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Bu yoldan ötən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə Vətən yaxşı".

**Mənbə:** Şifahi xalq ədəbiyyatı nümunələri

## 2. Nəqli cümlələr.

***Qeyd:*** *Nəqli cümlələr sözsırası və intonasiyanın köməyi ilə düzəlir. Nəqli cümlələr başqa cümlə növlərinə görə daha çox işlənir. cümlənin sonunda (.) işarəsi qoyulur. Nəqli cümlələrdən daha çox publisistikada və dərsliklərdə istifadə olunur. Qarabağ Azərbaycanın ən dilbər guşəsidir. Uzaqdan ocaq tüstülənir.("Vaqif" S.Vurğun).*

*Nəqli cümlənin sonunda nöqtə qoyulur.*

***Tapşırıq 371***. Aşağıdakı mətndə nəqli cümlələrin xəbərinin ifadə vasitələrini göstərin.

**Yazın son ayı**

"İlin gənclik fəsli olan yaz iyun ayında başa çatır, yay fəsli başlanır. İyun ayından başlayaraq şagirdlərin xəyalları, arzuları baş qaldırır. Bu ay son sinif şagirdləri üçün həm sevindirici, həm də kədərləndiricidir. Ona görə sevindiricidir ki, şagirdlər on bir illik təhsilə yekun vururlar, həyata atılırlar. Kimi ali məktəbə daxil olmaq arzusu ilə yaşayır, kimi iş haqqında düşünür. Ona görə kədərlidir ki, gənclər doğma məktəbdən, sevimli müəllimlərindən, dostluq etdikləri sinif yoldaşlarından ayrılırlar. Şirin gülüşlərlə göz yaşları bir-birinə qarışır. Nəsillər bir-birini əvəz edir. Məktəb böyük ümidlə pərvazlandırdığı məzunlarının arxasınca baxır, onlara yaxşı yol, xoşbəxt həyat arzulayır".

***Tapşırıq 372.*** Nəqli cümləyə aid 10 nümunə yazın.

**Sual cümləsi.**

***Qeyd:*** *Sual cümlələrinin üç növü var:*
*1) Sual əvəzliklərinin köməyi ilə yaranan sual cümlələri. Məs.: Sən hansı ünvanda yaşayırsan? Bu dili öyrənməkdə məqsədin nədir? Mən Azərbaycan dilini neçə aya öyrənərəm?*
*2)-mı, -mi, -mu,-mü sual ədatlarının köməyi ilə əmələ gələn sual cümlələri. Məs.: Ağacdan məhsul götürə bildinmi? Sabah nə edəcəyini heç fikirləşdinmi?*
*3) Sual intonasiyasının köməyi ilə əmələ gələn sual cümlələri. Məs.: - Çörək yeyəcəksən, yoxsa çay verim? Kimin gənclikdə buna bənzər əhvalatları olmamışdı?*
*Cümlələrin sonunda sual işarəsi qoyulur.*
*Ritorik sual cümlələrində cavab tələb olunmur, daha çox belə cümlələr şeirlərdə işlənir. Məsələn: Ayrılarmı,könül candan?!*

***Tapşırıq 373.*** Sual cümlələrinin hər növünə aid beş misal yazın.

***Tapşırıq 374.*** Aşağıdakı cümlələrdə verilmiş hansı fikirlər doğru deyil?

1. Əvvəlcə uşaqlar Azərbaycan dilini öyrənirlər, sonra Azərbaycan dilində danışırlar. 2. Əvvəlcə əcnəbilər (xaricilər) Azərbaycan dilində danışırlar, sonra o dili öyrənirlər 3.Əvvəlcə mətni başa düşürük, sonra oxuyuruq. 4.Əvvəlcə mart ayı, sonra yanvar ayı gəlir. 5. Əvvəlcə dünən, sonra bu gün.6.İnsanlar əvvəlcə cavab verir, sonra sual verir. 7. Əvvəlcə nəticə, sonra iş. 8.Əvvəlcə tələbəyik, sonra mütəxəssis.

***Tapşırıq 375.*** Cütlərlə işləyin. Biriniz sual verin, o biriniz cavab yazın.

Kim Azərbaycan dili öyrənir? Kim artıq yaxşı oxuyur? Müəllim sual verəndə sualları kim yaxşı başa düşür. Müəllim sizə sual verəndə, siz sualları başa düşürsünüz? Sözü bilməyəndə Vüqar nə deyir? Mişelin xarici olduğunu başa düşəndə, insanlar nə edirlər? Mişel ev tapşırığını yerinə yetirir? Bəs siz ev tapşırığını edirsiz?

***Tapşırıq 376.*** Krossvord "Suallar". Nöqtələrin yerinə hansı sual əvəzliyi uyğun gəlir? Yazın və krossvordda göstərin.




I. Yuxarıdan aşağıya:
1. Zəng ............ vurulacaq?
2. Sən ............ binanın qarşısında durubsan?
3. Bazardan ............ almalıyam?
4. ............ bu işin sonu belə oldu?
5. Sabah gəzintiyə ............ gedəcək?

II. Soldan sağa:
6. Siz ............ gedirsiniz?
7. Onlar ............ yaşayırlar?
8. Bacın ............ sinifdə oxuyur?

***Tapşırıq 377.*** İntonasiyanın köməyi ilə nəqli cümləlləri sual cümləsi kimi işlədin.

1. Artıq Anna Azərbaycan dilində yaxşı bilir. 2. Onun qardaşı var, adı Pərvizdir. 3. Əhəd Azərbaycan dilində yaxşı başa düşür. 4. Onda fotoaparat var. 5. Anna tələbədir. 6. Onun qardaşı ilə dostu birlikdə maşın düzəldirlər.

**3." Əsgər marşı" şeirini intonasiya ilə oxumaq və əzbərləmək.**

***Musiqisi:*** *Cavanşir Quliyevin,*
***Sözləri:*** *Əli Kaminindir. (Türk şairi)*




Vətən məni yetişdirib
Bu ellərə yolladı,
Bu torpağa qurban deyib
Allaha ismarladı.
"Boş oturma, çalış, - dedi, -
Xidmət eylə Vətənə.
Südüm sənə halal olmaz,
Sən baş əysən düşmənə".

Marş irəli! Marş irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri
Azərbaycan əsgəri!

Yastığımız Vətən daşı,
Yorğanımız qar olsun.
Biz bu yoldan dönər olsaq,
Namus bizə ar olsun!
Nə gözəldir ölmək bizə
Sevimli Vətən üçün,
Yanar ürək yurd eşqilə
Daima için-için.

Marş irəli! Marş irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri
Azərbaycan əsgəri!

**Mənbə:** "Alay marşı"na istinadən hazırlanmışdır. Bu mahnı Laçın alayında (1992) yaranmışdı.

***Tapşırıq 378.*** Kim nə edir? Suallara cavab verin.

a) Mühəndis nə edir? Arxitektor nə edir? Müəllim ... nə edir? Bənna nə edir? Həkim nə edir? Dizayner ... nə edir? Aşpaz nə edir? Tələbə nə edir? Meteoroloq nə edir? Sürücü nə edir?

b)

| | |
|---|---|
| şagird, xarrat, bağban, ana, masajist, cərrah, jurnalist, aktyor, xadimə, polis, müğənni, müəllim, nənə, vəkil | əməliyyat, ağaclara qulluq, nağıl, müdafiə, masaj, ev tapşırığı, layla, rol, mühazirə, məqalə, süpürür, mahnı, taxta |

**Dinləmə materialı.**

**<u>4. Mətn.</u>**

## Atəşgah



Atəşgah qədim mənbələrdə Azərbaycanda, xüsusilə də Bakı bölgəsində əbədi odların yandığı yer kimi qeyd edilib.

Od məbədi olan "Atəşgah" Bakının 30 kilometrliyində Abşeron yarımadasının Suraxanı qəsəbəsində yerləşir. "Atəşgah" XVII – XVIII əsrlərdə inşa edilmiş od məbədidir. Məbədin ən erkən tikilişi 1713-cü ilə aiddir, mərkəzi məbəd – səcdəgahı isə 1810-cu ildə tacir Kançanaqaranın vəsaiti ilə tikilmişdir.

Atəşgah səyyahların, yazıçıların, rəssamların, alimlərin nəzər diqqətini xüsusilə cəlb edirdi. Möcüzəni görmək üçün Atəşgaha Mendeleyev, Veraşşağin, Düma ata, İndira Qandi və bir çox səyyahlar gəlib.

Xüsusilə Aleksandr Düma "Qafqaz səfəri" adlı əsərində Suraxanıdakı Atəşgahı çox gözəl təsvir edib. O yazırdı: "Bakıdan atəşpərəstlərin müqəddəs məbədi Atəşgaha gedəndə yolun yarıdan çoxu dəniz qırağı ilə uzanırdı. Təpəliyə qalxanda qarşıda təsəvvürə gəlməyən qəribə bir mənzərə açıldı. Onun dövrəsindəki binalar tüstü və alov sovuran yüzlərlə irili-xırdalı ağaclar ovuc içi kimi görünürdü.Külək əsdikcə alov zolaqları, dilləri sanki qəribə rəqslər edir, gah bulaq kimi qaynayır, gah da dalğa tək yan-yörəyə hücum edib şahə qalxır, gah da gözlənilmədən ucalırdı. Elə bil təsəvvür oyadırdı ki, külək alovla oynayır, onlar bir-birinə sarılır, sonra bir-biri ilə əlbəyaxa olurlar. Külək nə qədər cəhd edirsə, odu alovu söndürə bilmirdi".

**Mənbə:** Daxili baza

### Mətnə aid suallar:

1. Atəşgah deyəndə hansı yer nəzərdə tutulur?
2. Atəşgah harada yerləşir?
3. Məbəd neçənci ildə tikilib?
5. A.Düma hansı əsərində Atəşgahı təsvir edib?
6. A.Düma Atəşgah haqqında nə yazırdı?

***Tapşırıq 379.*** Mətnin sualları əsasında ifadə yazın.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| **Aydan:** Siz nəçisiniz? | Кем вы работаете? | What is your occupation? |
| **Ziya:** Mən müəllimətəm. | Я работаю учителем. | I’m a teacher. |
| **Aydan:** Xanımınız nəçidir? | Кем работает ваша жена? | What is your spouse’s occupation? |
| **Ziya:** Yoldaşım tarixçidir. | Моя жена – историк. | My spouse is a historian. |
| **Aydan:** O, universitetdəmi işləyir? | Она работает в университете? | Does she work at the university? |
| **Ziya:** Xeyir, o, məktəbdə işləyir. | Нет, она работает в школе. | No, she works at the school. |

## 31-ci dərs

1. Hal-vəziyyət feilləri.
2. Xitab.
3. Atalar sözləri və məsəllər.
4. Mətn. Azərbaycan Milli Tarix Muzeyi.
5. Dialoq.

### 1. Hal-vəziyyət feilləri.

***Qeyd:*** *Bütün feillərdə hərəkət vardır, lakin onların bəzilərində iş və hərəkət digərində isə təfəkkür, hal-vəziyyət və s. daha qabarıq şəkildə özünü göstərir.*

***Tapşırıq 380.*** Sevinmək, ağlamaq, gülmək, gözəlləşmək, utanmaq, qızarmaq feillərini cümlədə işlədib hal-vəziyyətini izah edin.

***Tapşırıq 381.*** Aşağıdakı cümlələrdə hal-vəziyyətin formasını izah edin.

1. Nərminə onun hərəkətlərindən bərk incimişdi. 2. Ana öz körpəsini əzizləyib sığallayırdı. 3. Anar imtahandan kəsildiyi üçün çox kədərlənmişdi. 4. İdmançılar oyunda qalib gəldilər. 5. Ən ümdəsi hər bir insanın əməyini qiymətləndirməkdir. 6.Allaha ibadət etdikcə, insan ruhu cavanlaşır. 7. Kök adamlar arıqlamağı arzulayır. 8. Əhməd tutduğu işə görə dostlarının yanında lovğalanırdı. 9. Oqtayın qızdırması çox olduğundan ağrıyır, nəfəs ala bilmirdi. 10. Ağa öz qullarını istismar edirdi.

***Tapşırıq 382.*** Verilmiş sözlərdəki hərflərdən istifadə etməklə məna bildirən söz düzəldib cümlədə işlədin.

1.Vətənpərvərlik – nümunə: vətən, ər, ərik, ...
2.Konstitusiya – nümunə: at, ot, sitat, ...

### 2. Xitab.

***Qeyd:*** *Cümlədə müraciət bildirən sözlərə xitab deyilir. Xitab adətən insana aid sözlərlə ifadə olunur. Məsələn, Lalə, bu gün axşam bizə gələ bilərsən? Xitab əşyalara və başqa canlılara da aid ola bilər. Belə xitablar, adətən, şeirdə olur. Xitab ismin adlıq halında olur. Xüsusi intonasiya ilə deyilir. Xitab cümlənin əvvəlində gələndə ondan sonra, və ya nida ortasında gələndə hər iki tərəfində vergül,, axırında gələndə ondan əvvəl vergül, nida və ya sual işarəsi qoyulur. Xitab söz birləşməsilə də ifadə oluna bilər. Məsələn: Haydi, marş irəli, Azərbaycan əsgəri! Xitablar ey, ay, a kimi köməkçi vasitələrlə də işlənir. Məsələn: A dostlar, a yoldaşlar, əlvida!*

***Tapşırıq 383.*** Şeir parçasındakı xitabları tapın, izah edin.

1. Qaranlıq gecədə səni gözləyib.
Durmaqdan yoruldum, ey dan ulduzu!
Uzaq üfüqlərə göz gəzdirməkdən,
Az qala kor oldum, ey dan ulduzu *(C.Cabbarlı)*

2. Oxu, bülbül, bəlkə yarım oyansın... *(C.Cabbarlı).*

3. Oxşa məni, yeni tanrım, sevindir!...
Çıx könlümdən, əski dünya, sonundur!... (*C.Cabbarlı*).

4. Durnalar, durnalar, bizdən dübarə
Turan ellərinə salam söyləyin (*C.Cabbarlı*).

5. "Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal!" (*M.Araz*).

***Tapşırıq 384.*** Xitabları cümlənin həm ortasında, həm də sonunda işlətməklə cümlələri dəyişib yazın.

1. Müəllim, bu məsələ barədə sizin fikriniz nədir?
2. Qızım, onların qanadları həmişəlik deyil, töküləcəklər.
3. Ana, mən kəndə getmək istəmirəm.
4. Baba, bax nə gözəl pişik balasıdır, onu evimizə aparacağam.
5. Xanım, nə üçün öz vəzifənizi unudursunuz.

***Tapşırıq 385.*** Bədii ədəbiyyatdan tərkibində xitab olan on cümlə seçib yazın, ifadə vasitələrini göstərin.

***Tapşırıq 386.*** Aşağıda verilən bayatılarda xitabları tapın, işlənmə yerini göstərin.

"Araz, Araz, can Araz!
Mən sənə qurban, Araz!
Zaman məni yandırdı,
Sən də alış, yan, Araz!

Ucadır başın, Kəpəz,
Ağarıb qaşın, Kəpəz.
De bir nədən qaralıb
Sənin sol daşın, Kəpəz?

Ceyran, çölə bir də gəl,
Ördək, gölə bir də gəl.

Bir gəlmisən, getmisən
İl dolansın bir də gəl!”

***Tapşırıq 387.*** Laylalarda xitabları tapın.

“Lay-lay, əməyim, balam,
Duzum, çörəyim, bala
Gözləyirəm böyü sən,
Görüm köməyin, bala.

Lay-lay dedim, yat, bala.
Yuxuna şəkər qat, bala
Ümidim bircə sənsən,
Boya-başa çat, bala”.

**Mənbə:** Şifahi xalq ədəbiyyatından nümunələr

## 3. Atalar sözləri və məsəllər.

***Qeyd:*** *Atalar sözü – yığcam, hikmətli nəsihətlər, həyat- məişət haqqında, insan xasiyyəti, vərdişi haqqında qənaət, bəzən də məcazi mənada işlənən dolğun ifadələrdir. Atalar sözlərində fikir bitkin və tam olur.*

*Məsəllər – hər hansı bir hadisə və ya əsərdəki əhvalatla əlaqədar yaranır. Hadisə və əhvalatı bilməyən adam məsəldəki mənanı anlaya bilməz. Məs., “Sən çaldın”, (“Molla Nəsrəddin”), “Babalı Sərvərin boynuna” (“O olmasın, bu olsun”), “Dava yorğan davasıdır” (“Molla Nəsrəddin”), “Sənə əjdaha lazımdır?” (“Bəyin oğurlanması”).*

***Tapşırıq 388.*** Həyat-məişət haqqında olan atalar sözlərini oxuyun.

1. El gücü, sel gücü.
2. Qonşu qonşu olsa, kor qız ərə gedər.
3. Ağlamayan uşağa süd verməzlər.
4. Dəmiri isti-isti döyərlər.
5. Dərd ağladar, eşq güldürər.
6. Yüz ölç, bir biç.
7. Əldən qalan əlli il qalır.

***Tapşırıq 389.*** Elm, bilik və ağıl haqqında olan atalar sözlərini oxuyun.

1. Ağac bar verəndə başını aşağı əyər.
2. Ağıl-ağıldan üstün olar.
3. Ağıl yaşda olmaz, başda olar.
4. Bilməmək eyib deyil, soruşmamaq eyibdir.

5. Göz görmək üçün, ağıl bilmək üçün.
6. Qələm əyri yonulsa da düz yazar.
7. Savadsız adam kor kimidir.

***Tapşırıq 390.*** Mərdlik və igidlik haqqında olan atalar sözlərini oxuyun.

1. Ağac əyildi, sındı, igid əyildi, öldü.
2. Alıcı quş dimdiyindən bilinər.
3. Aslanın erkəyi, dişisi olmaz.
4. At ölər – nalı qalar, igid ölər – adı qalar.
5. Bir qorxaq bir ordunu bada verər.
6. Qorxaq gündə yüz yol ölər, igid bir yol.
7. İgid ağzını açmaz, əlini açar.
8. Yanında igid olsun, kol dibi evin olsun.

**Dinləmə materialı üzrə iş.**

***Tapşırıq 391***. İmla.

**Od baba**

"Odu tapandan Oğuz oğlunun işi irəli getdi. Əvvəlcə onu əzizlədi. Sonra başladı oda baş əyməyə. Od insanın babası oldu. Bir gün insan oğlu xəstələndi. Nə qədər dava-dərman elədilər, faydası olmadı.

Oğuz oğlunu Od babanın yanına apardılar. Oğuz oğlu dedi:

– Ümidim sənədir. Od baba! Mənə kömək elə!

– Mənə ümid edən, hüzurumdan nakam qayıtmaz.

Od baba ağacdan bir kösöv götürüb verdi Oğuz oğluna. Dedi:

– Bunu yandırıb od elə! Sonra dəmir qaba qoyub əski ilə bük. Yaralarının üstünə qoy. Oğuz oğlu Od babanın sözünə əməl elədi. Üç gündən sonra Oğuz oğlunun yaraları sağaldı".

**<u>4. Mətn.</u>**

**Azərbaycan Milli Tarix Muzeyi**



İtalyan renessansı üslubunda tikilmiş binada yerləşən Azərbaycan Milli Tarix Muzeyi Bakının ən böyük muzeyidir. Əsas eksponatlar məftunedici sikkə kolleksiyası, mis bəzək sərgisi və zərif arxeoloji şöbədən ibarətdir. 250 mindən artıq eksponatdan ibarət kolleksiya, yalnız kitabxanada yerləşən 80 mindən çox kitabla Azərbaycan tarixinin bütün dövrlərini əks etdirir. Bakının ən gözəl tikililərindən olan bu bina nadir eksponatlar əlavə edilməklə

2007-ci ildə əsaslı təmir olunub. Neft maqnatı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyəti bir zamanlar onun şəxsi mülkü, yaşayış yeri olmuş bu binanın on otağında sərgilənir.

**Mətnə aid suallar:**

1. Azərbaycan Milli Tarix Muzeyində nə vardır?
2.Binanı kim tikdirib?
3.Bina nə vaxt əsaslı təmir olunub?

**5. Dialoq.**

| | | | |
|---|---|---|---|
| **Devid:** | Kənan, atam və anam sabah Bakıya gələcək, münasib mehmanxanalar hansılardır? Mənə kömək edə bilərsən? | Кянан, мои родители завтра приезжают в баку. Знаешь хорошие гостиницы? Можешь мне помочь? | Kenan, my parents are arrivningin Baku tomorrow. Do you know a good hotel? Can you help me? |
| **Kənan:** | Əlbəttə edərəm. Bakıda yaxşı mehmanxana çoxdur. Onlar neçə gün qalacaqlar. | Конечно могу. В Баку много хороших гостиниц. Сколько они будут в Баку? | Sure, will. There are a lot of good hotels in Baku. How long will. Hey be here? |
| **Devid:** | 15 gün qalacaqlar. Onlar üçün gözəl və rahat yer sifariş vermək istəyirəm. Sən haranı məsləhət görürsən. | 15 дней. Хочу выбрать для них красивое место. Что ты советуешь? | 15 days. I want to order beautiful and comfortable place for them. What do you recommend? |
| **Kənan:** | Məncə «Azərbaycan» mehmanxanası daha münasibdir. Şəhərin mərkəzindədir. | По-моему гостиница «Азербайджан» самая подходящая. В центре города. | In my opinion “Azerbaijan” is a good hotel. It is in dauntoun. |
| **Devid:** | Onda gəl elə indi gedək və 2 nəfərlik lüks nömrə götürək. | Давай прям сейчас закажем номер на двоих? | Let’s go and order lux for 2 person. |
| **Kənan:** | Gedək. | Давай. | Let’s go. |
| **Xidmətçi:** | Buyurun, xoş gəlibsi- | Здравствуйте, добро | Welcome, how can |

| | | | |
|---|---|---|---|
| | niz, sizə nə lazımdır? | пожаловать. Что вам было нужно? | help you? |
| **Devid:** | 2 nəfər üçün lüks nömrə istəyirəm. Boş nömrəniz varmı? | Люкс комната на двоих. У вас есть свободный номер? | I want to order lux for 2 person. Do you have any free room? |
| **Xidmətçi:** | 12-ci mərtəbədə bir boş nömrə var. Çox rahatdır, dənizə pəncərəsi var, bulvar lap yaxşı görünür. | На 12 этаже есть одна. С видом на море, очень удобно и красиво. | On 12th floor we have a free room. It's very confortable and beautiful. It has vice to the sea. |
| **Devid:** | Bir gün üçün lüks nömrənin qiyməti nə qədərdir? Mənə 15 günlük lazımdır. | Сколько стоит проживание 1 день? Мне нужно на 15 дней. | How much does it costs for one day? I want for 15 days. |
| **Xidmətçi:** | 120 dollardır. Buyurun, bu blankı doldurun. | 120 $. заполните бланк, пожалуйста. | 120 $. Fill out the form, please. |
| **Devid:** | Sabah günorta təyyarə Bakıya gəlir. Onları qarşılayıb, buraya gətirəcəyəm. | Завтра днем самолет приземлится. Я их встречу и приведу сюда. | A plane lands tomorrow afternoon. I'll meet them and bring them here. |
| **Xidmətçi:** | Buyurun gəlin. | Приезжайте. | Okay. |

## 32-ci dərs

1. Məsdərin ismə aid xüsusiyyətləri.
2. Mötərizənin işlənmə qaydası.
3. Slayd izləmək.
4. Mətn. Xocalı soyqırımı.
5. Dialoq.

**1.Məsdərin ismə aid xüsusiyyətləri.**

***Qeyd:***
*1. Məsdər nə? sualına cavab verir.*
*2. İsim kimi hallanır.*
*3.Mənsubiyyət şəkilçilərini qəbul edir –im$^4$, -mız$^4$, -ın$^4$, -nız$^4$;-ı$^4$*
*4. Cümlədə mübtəda, tamamlıq ola bilər.*
*5. Qoşmalarla işlənə bilər. Məs., oxumaq üçün, oxumağa görə.*

***Tapşırıq 392.*** Aşağıdakı cümlələrə sual verib yazın.

1. Oxumaq tələbənin gələcəyidir. 2. Murad alma dərmək üçün bağa getdi. 3. Yalan danışmaq olmaz. 4. Yaşamaq gözəldir. 5.Əlləri yumaq lazımdır. 6.Balıqları tutmaq üçün tor atmaq qərarına gəldilər.

***Tapşırıq 393***. *Yaşamaq, toxumaq, deyinmək*, məsdərlərini hallandırıb cümlədə işlədin.

*Nümunə:* Mən əl-üzümü yumağa getdim.

| | |
|---|---|
| **Adlıq** | yumaq |
| **Yiyəlik** | yumağın |
| **Yönlük** | yumağa |
| **Təsirlik** | yumağı |
| **Yerlik** | yumaqda |
| **Çıxışlıq** | yumaqdan |

***Qeyd:*** *bişirmək məsdərinin şəxslər üzrə mənsubiyyət şəkilçisi qəbul etməyinə diqqət verin:*

| | *Tək* | | *Cəm* |
|---|---|---|---|
| *I* | *Bişirməyim* | *I* | *Bişirməyimiz* |
| *II* | *Bişirməyin* | *II* | *Bişirməyiniz* |
| *III* | *Bişirməyi* | *III* | *Bişirməyi* |

***Tapşırıq 394***. Cümlələrdə olan məsdərlərin hansı halda olduğunu müəyyən edin.

1. İgidlər at çapmaqda, ov qovmaqda, tüfəng atmaqda bir-birindən geri qalmazdılar. 2. Qadın silahlanıb at belində ərini axtarmağa gedir. 3. Onun qaçmaqdan başqa əlacı yox idi. 4. Mən görürəm ki, siz Naxçıvanda məşhur olan el havasını eşitməyə gəlmisiniz. 5. Əziyyət çəkən xəstə həmin ilanın zəhər qarışıq qusduğu südü içib bu əziyyətdən birdəfəlik qurtarmaq istəyir.

***Tapşırıq 395.*** Aşağıdakı cümlələrdəki məsdərlərin hansı şəxsdə mənsubiyyət şəkilçisi qəbul etdiyini müəyyən edin.

1. Bu gün paltarları yumağım lazım gələcək. 2. Oğul, əvvəla sənin hələ öyrənməyin lazımdır. 3. Aydanın bağdan meyvə yığmağını xoşlayıram. 4. Bizim iməciliyə getməyimiz vacibdir. 5. Sizin tamaşaya baxmağınız üçün bilet aldım.

## 2. Mötərizənin işlənmə qaydası [( )].

***Qeyd:****Mötərizə aşağıdakı hallarda işlədilir.:*
*1. Cümlə üzvləri ilə heç bir sintaktik əlaqəsi olmayan ara cümlələr hər iki tərəfdən mötərizə ilə ayrılır. Məs.,1907-ci ildə F.Xoyski II Dövlət Dumasının Yelizavetpol (indiki Gəncə) quberniyasından) deputat seçilmişdir*
*2. Cümlə içərisində bir sözün mənasını izah etmək üçün və ya haqqında danışılanın kim olduğunu, vəzifəsini göstərmək üçün işlədilən söz və ya söz qrupu mötərizə içərisində yazılır. Məs., Qanlı yanvar gecəsi (yanvarın 19-dan 20-nə keçən gecə) şəhid olan yüzdən artıq adamın cənazəsini Dağüstü parkda torpağa tapşırdılar.*

***Tapşırıq 396.*** Aşağıdakı cümlələrdə mötərizənin işlənmə qaydasına fikir verin.
1. Aradan müəyyən bir müddət keçəndən sonra bu atların (madyanların) hərəsi bir erkək qulun doğur *("Koroğlu" dastanı).*
2. Adə, görəsən, mənim yoldaşım harada oturubdur (Birdən gözü arvadına sataşır) *(S.S. Axundov. "Şahsənəm və Gülpəri").*
3. Buyurun içəri, əyləşin! (Bəylər dükana girib otururlar) *(M.F.Axundov. "Hacı Qara").*
4. Arvad, çəkil, get, adamlar gəlir! (Tükəz tez uzaqlaşıb qapının dalından qulaq asır) *(M.F.Axundov. "Hacı Qara").*
5. Yaxşı, di gedin! (Heydər bəy qeyzlə ayağını yerə çırpıb) Tez-tez gedin! *(M.F.Axundov. "Hacı Qara").*
6. Yaxşı, vallah, tüfəngi bu saat ürəyinizin başına boşaldaram! (Ermənilər başlayırlar qorxmağa) *(M.F.Axundov. "Hacı Qara").*
7. (Şkafdan pulları çıxarır, göstərir). Bax görürsən, bu pulların hamısı bizimdir *(C.Cabbarlı. "Sevil").*
8. Sən, mən – (şəhadət barmağı ilə göstərir) dva qardaş! *(M.Paşayev. "Bir gəncin manifesti").*

***Tapşırıq 397.*** Şeiri əzbərləyin

**Layla, Xocalim, Layla**

“Duz basdılar yarama,
Layla, Xocalım, layla.
Düşdün gülləborana,
Layla, Xocalım, layla.

Namərdi kim çağırdı?
Göydən ölüm yağırdı.
Dilnən demək ağırdı,
Layla, Xocalım, layla.

Daş üstə daşmı qaldı,
Salamat başmı qaldı,
Gözümdə yaşmı qaldı,
Layla, Xocalım, layla.

Yara sarıyan hanı?
Haqdan yarıyan hanı?
Yurdu qoruyan hanı?
Layla, Xocalım, layla.

Dünya darmı görəsən?
Qulaq karmı görəsən?
Allah varmı görəsən?
Layla, Xocalım, layla”.

**Mənbə:** Z.Yaqub. Seçilmiş əsərləri. 2 cilddə. Bakı: “Şərq-Qərb” nəşriyyatı, 2006, s.87-89

**<u>3. Slayd izləmək.</u>**

**İfadə.**

**«Əkinçi» qəzeti haqqında**

«Dünyada baş verən hadisələr haqqında məlumat almağın müxtəlif yollan var - internet, radio, televiziya və s. Bütün bunlar informasiya vasitələri adlanır. Bir vaxtlar qəzet yeganə informasiya vasitəsi idi, çünki nə televiziya kəşf edilmişdi, nə də kompüter texnikası var idi.

Azərbaycanda ilk qəzetin əsasını Həsən bəy Zərdabi qoymuşdur. Bu qəzet «Əkinçi» adlanırdı. Qəzetin cəmi 56 nömrəsi işıq üzü görsə də, Azərbaycan xalqının savadlanmasında böyük rol oynamışdır.

Həsən bəy Zərdabi Azərbaycanda ilk ali təhsilli müəllim və təbiətşünas alim olmuşdur. Həsən bəy Zərdabi bütün ömrü boyu Azərbaycan xalqının maariflənməsinə çalışmışdı.

Bir gün Mirzə Fətəli Axundov eşidir ki, yaxın dostu Həsən bəy Zərdabi qəzet çıxarmaq istəyir. Qələm-kağız götürüb dostuna belə bir məktub yazır; «Həsən bəy, Azərbaycanda elmsizlik, savadsızlıq baş alıb gedir. İnsanlar yazıb-oxumaq bilmir, öyrənməyə də həvəs göstərmirlər. Bir halda ki, camaatımız oxumaq bilmir, sən o qəzeti kimin üçün çıxarırsan?».

**Mənbə:** Mətbuat. Tarixi faktlar

**5. Mətn.**

**Xocalı soyqırımı**

Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl fevralın 25-i axşam şəhər, toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-sı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130-u valideynlərindən birini itirdi. Düşmən gülləsilə yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vurulmuşdur.




Bu hadisə Azərbaycanda və qardaş Türkiyədə "Xocalı qətliamı", "Xocalı soyqırımı" kimi anılır. Ermənistanda isə bu əməliyyat "Xocalı döyüşü", "Xocalı hadisəsi" sözləri ilə ifadə olunur. Qərb və dünya mətbuatı "Xocalı qətliamı" ifadəsindən istifadə etməyə üstünlük verir.

**Mənbə:** Mətbuat. Tarixi faktlar əsasında yazılmışdır

## Mətnə aid suallar:

1. Neçənci ildə Xocalı faciəsi baş verdi?
2. Nankor ermənilər kimin köməyindən istifadə etdilər?
3. Düşmənlərimiz ayın neçəsi hücuma keçdi?
4. Dinc əhalidən neçə nəfər qətlə yetirildi?
5. Qətlə yetirilən insanların günahı nə idi?
6. Neçə nəfər əsir və itkin düşmüşdü?
7. Ermənilər dövlətin və əhalinin əmlakına nə qədər ziyan vurmuşdu?
8. Soyqırıma verilən adları sadalaya bilərsiz?

***Tapşırıq 398.*** Mətnə aid sualların tərtibi. Danışmaq.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| Bu gün hansı bayramdır? | -Какой сегодня праздник? | -What holiday is it today? |
| - Bu gün Novruz bayramıdır. | -Сегодня праздник Новруз. | - Today is Novruz - holiday. |
| - Novruz nə deməkdir? | - Что означает Новруз? | - What does Novruz means? |
| Müsəlman xalqlarında Novruz Yeni il bayramıdır. | -У мусульман Новруз означает Новый год. | Novruz means a New year at muslims. |
| Bu gün nə vaxt qeyd olunur? | -Когда отмечается этот день? | When is this day celebrated? |
| Martın 21-də | 21 Марта | - On the 21st of March. |
| -Siz bu bayramı necə qarşılayırsınız? | -Как вы встречаете этот праздник? | How do you celebrate this holiday? |
| -Evlərdə milli şirniyyat-şəkərbura, paxlava, şəkərçörək, qoğal bişirilir. Səməni qoyulur - yaşıl təbiətin simvolu. Şam yandırırlar, yumurta boyayırlar, aş bişirirlər. | В домах пекутся национальные сладости - шекербура, пахлава, шекерчурек, гогал. Ставят семени-символ зеленой приоды. Зажигают свечи, красят яйца, готовят плов. | The families bake national sweets - shakharbura, pakhlava, shakharchurek, qoqal. They put semeni as a symbol of the green nature. They burn candles, colour eggs, |

| | | |
|---|---|---|
| | | cook plov. |
| -Yəqin, bu çox gözəl bayramdır | Наверное, это очень красивый праздник | Probably it is a very nice holiday. |
| - Bəli, azərbaycanlıların ən sevimli bayramıdır. | Да, самый любимый праздник азербайджан-цев. | Yes, it is the favourite holiday of Azeri people. |

**33-cü dərs**

1. Feili bağlama. Feili bağlamanın feilə aid xüsusiyyətləri.
2. Venn diaqramı üzrə iş. Məsdər, feili sifət, feili bağlama.
3. "Novruz" mövzusunda slayd izləmək.
4. Mətn. Novruz bayramı.
5. Dialoq.

**1. Feili bağlama. Feili bağlamanın feilə aid xüsusiyyətləri.**

***Qeyd:*** *Feili bağlama həm feilin, həm də zərfin xüsusiyyətlərini daşıyır. Feili bağlamanın şəkilçiləri bunlardır: -ıb, -ib, -ub, -üb; -araq, -ərək; - anda, -əndə; -arkan, -ərkən; - madan, - mədən; - dıqda, -dikdə, -duqda, -dükdə; -ınca, -incə, -unca, -üncə;-alı, -əli;-a-a; -ə-ə; -ar-maz, -ər -məz. Məs., alıb, alaraq, alanda, alarkən,, almadan, aldıqda, alınca, aldıqca, alar- almaz, ala-ala.*
*Feili bağlamanın feilə aid xüsusiyyətləri:*
*I.Təsirli və ya təsirsiz olur: yazıb (təsirli); gülərək (təsirsiz)*
*II. Növ şəkilçiləri ilə işlənir: yuyub, yuyulub, yudurdub.*
*III. Təsdiq və inkarda ola bilir: danışıb, danışmayıb*
*IV. Ətrafına söz toplaya bilər: Biz kitabı oxuyanda.*

***Tapşırıq 399.*** Cümlələri yazın, təsirli və təsirsiz feili bağlamaları müəyyən edin.

1. Əhməd Mələyə baxanda güldü. 2. Qonşumuz təzə binaya köçəndən sonra, bizdən uzaqlaşaraq getdi. 3. Ana məktubu yazıb, mətbəxə keçdi. 4. Mehdi baba əlini üzünə qoyub bir qıraqda oturmuşdu.5.Ana körpəsini bağrına basıb lay-lay deyirdi.6. Müəllim başını aşağı salaraq nə isə yazırdı. 7. Anar dayanmadan yoluna davam edirdi. 8. Qəmər yuxudan oyananda artıq saat onu keçmişdi.

***Tapşırıq 400.*** Oxuyun, feili bağlamaları seçib göstərin.

1. İsmayıl ilə Əli gəlib bizə yaxınlaşdı. Əhməd də gəldi. 2. Bu hadisədən sonra Həsənzadə qolumdan tutdu və əlindəki işlərini buraxaraq mənimlə gəzməyə başladı. 3. Geri döndükdə Həsənzadəyə bir də rast gəldim. 4. Bir az keçmədən restoranın müdiri gəlib bizi hər cür nemət düzülmüş şam süfrəsinin yanma apardı. 5. Aydın da gələr - gəlməz onlarla tez-tez görüşməyimi xahiş etdi. 6. İclasda danışmaq növbəsi mənə yetişəndə Həsənzadə mənim nə cür danışacağımla maraqlandı.

***Tapşırıq 401.*** Aşağıdakı feillərə feili bağlama şəkilçiləri artırıb cümlədə işlədin.

Unut, döyüş, ağla, deyin, mələ, küs, bəzən, qaç, vur, çalış, anla.

***Tapşırıq 402.*** Aşağıdakı feili bağlamaları inkarda işlədib, cümlə qurub müqayisə edin.

Qaçaraq, bilərək, gülərək, gedərək, yataraq, baxaraq, gəzərək, soruşaraq, yağaraq.

***Tapşırıq 403.*** Verilmiş cümlələrdə nöqtələrin yerinə uyğun gələn feili bağlama şəkilçilərini əlavə edib yazın.

1. Qışın şaxtalı olacağını eşit ... (-dikcə, -incə) tez qış tədarükünü gördü. 2.Orxan səhər əsgəri xidmətə yola düşər (-kən,-ək) sevgilisindən mesaj alıb kədərləndi. 3. Yağan yağış get ... (-dikcə, -incə) artırdı. 4.Tofiq məzuniyyətə çıx. ... (-ınca,-a-a) dayısıgilə getdi. 5.Fermerlər öz sahələrindən bol məhsul yığ ... (-ınca,-madan) çox sevindilər. 6.Onlar bir-birindən yapış ...(-ıb, -ə, -ə) körpünü keçdilər. 7.Əminə xala marketdən alma al ... (-ınca, - dıqca) işıqlar söndü. 8. Vağzala çat ... (-ar-maz,-dıqca) qatar yola düşdü. 9. ANS-çilər Azərbaycan bayrağını yüksəkliklərə qaldır ... (-alı,- araq) Himn oxudular. 10. Müəllim dayan ... (-dıqda, -madan) mühazirə söyləyirdi.

***Tapşırıq 404.*** *-anda, -əndə; -yanda, -yəndə* şəkilçisi ilə dörd cümlə qurub yazın.

***Tapşırıq 405.*** "Məktəbin bağında" adlı imla yazın.

"Məktəbimizin ətrafında gözəl bir bağ var. Hər gün bura çoxlu məktəbli gəlir. Onlar burada həvəslə işləyirlər. Sinfimizin şagirdləri bağda meyvə ağaclarına qulluq edirlər. Onlar ağacların dibini boşaldır, sulayır və qurumuş budaqları kəsirlər. Sinif yoldaşımız Aydının atası bağbandır. O bizə kömək edir, faydalı məsləhətlər verir.

Məktəbimizin bağından hər il çoxlu məhsul toplayırlar".

***Tapşırıq 406.*** Suallara cavab verin.

1. Yeni ili siz kiminlə keçirmişsiniz? (ana, ata, qardaş, bacı).
2. Sizin qızınız nə işlə məşğul olur? (musiqi və ədəbiyyat).
3. Oğlunuz hansı peşəni seçib? (rejissor).
4. Sizin işlədiyiniz şirkət nə işlə məşğuldur? (iqtisadiyyat).
5. Aqşin nə ilə məşğuldur? (siyasət).
6. Uşaqlıqda kim olmaq arzusunda idin? (təyyarəçi).
7. Qardaşınız nə ilə məşğuldur? (futbol).
8. O, kiminlə görüşmək istəmir? (jurnalistlə).
9. Hansı səbəbdən sən məni təbrik edirsən? (Novruz bayramı münasibəti ilə).
10. Parkda kiminlə söhbət edirdiniz? (qonşularla).

***Tapşırıq 407.*** "Ata və oğul" hekayəsini oxuyun, oğulun və atanın həyatlarını müqayisə edib kimin düz, kimin səhv olduğunu müəyyən edin.

"Cavan bir oğlanın ad gününə çox az qalmışdı. O, atasının yanına gəlib dedi: "Ata, bilirsən də, bir neçə gün sonra 20 yaşım tamam olacaq, bu il maşınımı alarsan yəqin ki".

Atası: "Oğlum? bağışla, amma deyəsən bu il də ala bilməyəcəm, maddi durumumuz buna imkan vermir. İnşallah, gələn dəfə".

Oğlan: "Ehhh, bu nədi e. 18 yaşımdan bu yana hər il söz verirsən, amma almırsan, elə bil uşaq başı aldadırsan. Yəni mənim bir maşın qədər dəyərim yoxdu? Nç-nç-nç? belə atadansa...".

Atası: "Oğlum, dayan hara?" – deyə dalısıyca qışqırsa da, oğlan artıq getmişdi. Fikirli-fikirli yolu keçən oğlanı maşın vurur və sürücü onu dərhal xəstəxanaya çatdırır. Oğlanın atasına xəbər verirlər. Həkim tez bir zaman ərzində oğlana uyğun bir ürək tapılmazsa, onun öləcəyini söyləyir. Atası dəhşətə gəlir. Bu necə ola bilər, gözümün ağı-qarası bircə oğlunu itirə bilməz. Yox, o buna dözə bilməz, nəsə bir şey etməlidir.

Bir həftə sonra oğlanı yaxın qohumlarından biri xəstəxanadan çıxarır. Oğlan evə gəlincə bütün qohum-əqrəbasının burada olduğunu, hamının ağladığını görür.

Oğlan: "Yaxşı, bəsdirin, görürsüz ki, salamatam, niyə ağlayırsız axı? Atam hanı bəs? Heç gör bir dəfə də olsun yanıma gəldimi? Camaat mənə ürək verir, bu isə doğma oğlunun yanına gəlməyə belə ərinir. Yəqin maddi durumunun ağırlığına görədir, avtobusa verəcəyi 20 qəpik də yoxdur".

Bu vaxt nənəsi ona yaxınlaşır və oğlana məktub uzadır. "Al, oxu, atandandır".

Məktubda yazılmışdı:

"Əziz oğlum, sənə ad günündə maşın ala bilməyəcəyimə görə məni bağışla. Demişdin ki, sənin üçün dəyərim yoxdu? Yox, var dəyərin, həm də sənə ürəyimi verəcək qədər çox. Canım oğlum, özünə və ürəyinə yaxşı bax. Əlvida, o dünyada görüşərik".

**Mənbə:** Mətbuatdan. Fasbook, Düşündürücü hekayə

***Tapşırıq 408.*** Məmməd Rahim "Bahar gəlsin" şeirini əzbərləyin.

"Gözəl bahar, gözəl bahar,
Yurdumuza tez gəl bahar.
Gəl, oyansın sıx meşələr,
Yasəmənlər, bənövşələr.

Gəlişinə ətir saçsın
Alma, armud çiçək açsın
Bu düzlərdə, bu bağlarda,
Yaşıl donlu budaqlarda.

Quşlar şirin nəğmə desin.

Həyat versin xoş nəfəsin.
Bərəkətli torpaqlara,
Mehribansan insanlara".

**Mənbə:** Məmməd Rahim. Seçilmiş əsərləri,

***Tapşırıq 409***. Şeirə aid suallar tərtib edin.

**2. Venn diaqramı üzrə iş.**

***Tapşırıq 410.*** Məsdər, feili sifət və feili bağlama üçün ortaq və fərqli cəhətləri verilmiş diaqram əsasında yazın.




**3. "Novruz" mövzusunda slayd izləmək.**

**İmla.**

"Y.V.Çəmənzəminli Azərbaycan ədəbiyyatı tarixində ən məhsuldar şəxsiyyətlərdən biri olmuşdur. Yaradıcılığı onu XX əsr ədəbiyyatı ilə sıx bağlayır. Təkcə hekayələrini götürsək, 80-ə yaxın əsər yazmış olduğunu görərik. Buraya onun «Studentlər», «Qızlar bulağı», «Vaqif» romanlarını, «Cənnətin qəbzi» povesti kimi iri həcmli əsərlərini də daxil edirik. Bundan başqa, Azərbaycan ədəbiyyatı və tarixinə, dil və folklorumuza, təbabətə, siyasətə, coğrafiyaya aid yazılarını, məktublarını, xatirələrini, tərcümələrini də saysaq zəngin bir ədəbi irs alarıq. Ailəsi böyük qayğı ilə mühafizə etdiyi arxivi Respublika Əlyazmaları Fonduna vermişdir".

**4.Mətn.**

### Novruz bayramı

Novruz nikbinlik rəmzidir, təbiətin oyanması, ağacların çiçəklənməsi bayramıdır. Bu günə kimi də Novruz bayramı ən populyar bayram olaraq qalır. 2009-cu ildə Novruz YUNECKO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni irsinin siyahısına daxil edilmişdi.



Bu bayramın tarixi qədim dövrlərə gedib çıxır. Novruz bayramı e.ə. 505-ci ildə yaradılıb. Ancaq buna baxmayaraq, hər bir Azərbaycan ailəsi qədim ənənələrə sadiq qalaraq bu bayramı qeyd edir. Novruz Azərbaycan xalqının milli bayramı kimi 1967-ci ildə dövlət səviyyəsində keçirilmişdir.

Novruzun əsas atributlarından biri də səmənidir. Novruz bayramında süfrədə Azərbaycanın milli şirniyyatlarından paxlava, şəkərbura, badambura, şəkərçörəyi, qoğal və s. şirniyyatlar qoyulur.

Bundan başqa, qovurğa qoyulur və müxtəlif şərbətlər, milli içkilərə yer verilir. Adətə görə süfrəyə “s” hərfi ilə başlayan 7 növ ərzaq qoyulur. Su, süd, səməni, sünbül, sucuq, siyənək balığı, süzmə və sairə də bayram süfrəsinin bəzəyi olur. Bayram süfrəsində müxtəlif rənglərdə boyanmış yumurtalar da süfrəyə xüsusi bəzək verir.

**Mənbə:** Azad Nəbiyev, Azərbaycanda Novruz. Bakı: “Çıraq”, 2012, 272 s.

**Mətnə aid suallar:**

1. Novruz Azərbaycan xalqının milli bayramı kimi neçənci ildə dövlət səviyyəsində keçirilib?
2. Novruz süfrəsinin əsas atributları hansılardır?
3. Adətə görə süfrəyə neçə cür ərzaq qoyulur?

**5. Dialoq. Siz hara gedirsiz?**

| | | |
|---|---|---|
| **Z.** Siz hara gedirsiz? | Куда вы едете? | Where are you going? |
| **Ə.** Bakıya. | В Баку. | To Baku. |
| **Z.** Bakıya nə ilə gedirsiniz? | Как вы едете в Баку? | How are you going to Baku? |
| **Ə.** Mən Bakıya qatarla gedirəm. Dəmiryol vağzalı haradadır? | Я еду в Баку на поезде. Где находится железнодорожный вокзал. | I am going to Baku by train. Where is the railway station? |
| **Z.** Şəhərin mərkəzidə. | В центре города. | In downtown. |
| Ə. Azərbaycan mehmanxanası haradadır? | Где находится гостиница «Азерджан»? | Where is the Azerbaijan hotel? |
| **Z.** Səməd Vurğun küçə- | На улице Самеда | On Samed Vurghun |

| | | |
|---|---|---|
| sində. | Вургуна. | Street. |
| **Ə.** Ora avtobus ilə getmək olar? | Туда можно добраться на автобусе? | Can go there buy bus? |
| **Z.** Bəli. | Да. | Yes. |
| **Ə.** Çox sağ olun. | Спасибо. | Thank you very much. |

## 34-cü dərs

1. Feili bağlamanın zərfə aid xüsusiyyətləri.
2. Yoxlayıcı tapşırıqlar.
3. Zərf və feili bağlama üçün ortaq və fərqli əlamətlər.
4. Mətn. Novruz adətləri. Mətnə dair sual-cavab yazmaq, danışmaq.
5. Dialoq.

### 1. Feili bağlamanın zərfə aid xüsusiyyətləri.

***Qeyd:***
*1. Feili bağlama da zərf kimi, feilə aid olub hərəkəti izah edir. Məs., Oxuyub bitirdikdən sonra qaytararam.*
*2. -ıb$^{4}$, - yıb$^{4}$, araq$^{2}$, - madan$^{4}$, -anda$^{2}$, -dıqda$^{4}$, -arkən$^{2}$, - dıqca$^{4}$, -ınca$^{4}$, -ar, -maz$^{2}$. Məs., yazıb, oxumadan, danışaraq, gedəndə, danışanda, verdikdə, yardıqda, baxarkən, döyər-döyməz.*
*3. Feili bağlama da zərf kimi, cümlədə zərflik olur.*
*Məs., O, çatar-çatmaz telefona əl atdı. Kitab oxuyanda onu yuxu tutur.*
*4. Zərfin suallarına cavab verir: necə? nə zaman? nə vaxt? və s. Məs., Yolçu tələsərək yola düşdü; Elvin yüyürərək qardaşına çatdı.*

***Tapşırıq 411.*** Aşağıdakı sözlərə şəkilçilər artırmaqla feili bağlamalar düzəldib, cümlələr qurun.

Açılmaq, danışmaq, bilmək, getmək, gözləmək, başlamaq, işləmək, oturmaq, qaçmaq.

***Tapşırıq 412.*** Verilmiş cümlələrdə nöqtələrin yerinə uyğun gələn feili bağlama şəkilçilərini əlavə edib yazın.

1. Gün bat … (-anda, -yanda) hava sərinləşir. 2. Onun hərarəti art (-dıqda, -dıqca) vəziyyəti pisləşirdi.3.Müəllim jurnalı götür (-ərkən, -üb) getdi. 4. Bulağın sərin suyundan doy (-unca, -ub) içdik. 5. Yaz gəl (-ə-ə;-incə) hava düzəlir. 6. Yazıl (-acaq; -dıqda) məqalə barədə hərə öz fikrini dedi. 7. Sürücü maşını sür (-üb; -əndə) getdi.

***Tapşırıq 413.*** Hansı cümlədə feili bağlamadan sonra vergül olmalıdır?

1. Ana əlini üzünə qoyub bir qıraqda oturmuşdu. 2. Ana körpəni bağrına basıb lay-lay deyirdi. 3. Ana başını aşağı salıb nə isə yazırdı. 4. Ana kənarda səssizcə dayanaraq durmuşdu. 5. Ana oğlunu görəndə çox sevindi.

**Bunları bilmək maraqlıdır.**

## Bankların yaranması haqqında

“Bank insanların və təşkilatların pul saxladıqları və ya faizlə pul götürdükləri yerdir. Müasir həyatı banksız təsəvvür etmək olmur.

Orta əsrlərdə əhali, əsasən, qızıl və gümüş pullardan istifadə edirdilər. Bu isə təhlükəli idi, bu pullan hər zaman oğurlaya bilərdilər. Alış-verişi təhlükəsiz və rahat etmək üçün insanlar öz metal pullarını yerli zərgərə verir və bunun əvəzində ondan qəbz alırdılar. Tacirlər bu qəbzləri ödəniş vasitəsi kimi qəbul edirdilər, çünki onlar həmin qəbzləri istənilən vaxt zərgərin mağazasında qızıl pula dəyişə bilirdilər. Zaman keçdıkcə bu cür qəbzlər tacirlər və səyyahlar arasında geniş yayıldı, çünki onlar böyük miqdarda metal pul daşımaqdan azad olurdular.

Bəzən zərgərlərdə çoxlu pul yığılıb qalırdı. Onlar saxlanılan qızılın bir hissəsini başqa adamlara faizlə borc verirdilər. Bu isə müasir bank işinin başlanğıcı idi. «Pul pul gətirər» məsəli də elə o vaxtdan yaranıb”.

## 2. Yoxlayıcı tapşırıqlar.

***Tapşırıq 414.*** Düzgün sözləri dairəyə alın.

1. Musiqiçilər səhnəyə / alboma çıxanda tamaşaçılar çox sevindilər.
2. Sən mənə öz kameranı apara / verə bilərsənmi?
3. Mən məktəb şənliyinə dəvət / görüş almamışam.
4. Sonuncu imtahanımız çərşənbə axşamıdır və məzun günü/ etiraz aksiyası iyunun 20-dir.
5. Mən yeni filmin mükafatım / afişasını gördüm.
6. Mənim paltarlarımı həkimdən / quru təmizləmədən götürə bilərsənmi?

***Tapşırıq 415.*** Düzgün variantı seçin.

**Fariz:** Hə, Ümid, şam yeməyinə Hikmətlə restorana (1)........................?
**Ümid:** Təəssüf ki, şam yeməyi üçün başqa yer.............................(2)
**Fariz:** Niyə?
**Ümid:** Restoranda yer yoxdur.
**Fariz:** Bəs indi nə edək? Hikmət saat yarımdan sonra orada (3)...................
**Ümid:** Bulvardakı yeni restorana getsək, (4)...............................?
Sən oranın telefon nömrəsini internetdən (5)..................?
**Fariz:** Yox. Mən çox acam. (6).................tez Hikmətə zəng vuraq və deyək ki, restoranın qarşısında bizi gözləsin.
**Ümid:** Bu gün şənbədir. Biz əvvəlcə zəng vurmalıyıq.
**Fariz:** Yaxşı. Bir dəqiqə gözlə. (7)................ kompütərə baxım.

1. a) gedirikmi b) gedirlərmi c) gedirmi

| | | |
|---|---|---|
| 2. a) axtaraq | b) axtardıq | c) axtarmalıyıq |
| 3. a) gələsidir | b) olasıdır | c) gedəsidir |
| 4. a) yaxşıdır | b) necə olar | c) elə deyilmi |
| 5. a) verə bilərsən | b) soruşa bilərsən | c) tapa bilərsən |
| 6. a) bax | b) gəl | c) gör |
| 7. a) qoy | b) görək | c) bax |

***Tapşırıq 416.*** Düzgün sözləri dairəyə alın.

**Araz:** Salam, Fəxri. Sən nə edirsən?
**Fəxri:** Mən elan hazırlayıram.
**Araz:** Nə barədə?
**Fəxri:** Universitetimizdəki əcnəbi tələbələrin konserti haqqında.
**Araz:** Heç nə / heç kim bu barədə mənə deməyib. Konsert nə vaxtdır?
**Fəxri:** Bir həftədən sonra.
**Araz:** Sənə necə / niyə kömək edə bilərəm?
**Fəxri:** Reklam vərəqələrini hamıya / heç kimə payla.

***Tapşırıq 417.*** Dialoqdakı cümlələri düzgün sıralayın.

Çox sağ ol. □
Mən işə getməliyəm, tez qayıdacağam. □
Qızım Fidan sənin yanında qala bilərmi? □
Əlbəttə, nə lazımdır? □
Mən necə “yox” deyə bilərəm? Mən Fidanı çox sevirəm. □
Səndən bir şey xahiş edə bilərəmmi? □
Narahat olma, biz vaxtımızı maraqlı keçirəcəyik. □

***Tapşırıq 418.*** Aşağıdakı situasiyalarda siz nə deyərdiniz? Mötərizədəki sözlərdən istifadə edin.

1. Sənin dostun xəstələnib və xəstəxanadadır...............................(...yüngül olsun) ..........................................................................................................
2. Sənin dostun səni ad gününə dəvət edir, lakin sən gedə bilmirsən......(Qorxuram ki,.......) ..........................................................................................................
3. Dostların gəzməyə çıxmaq istəyir, ancaq sənin ev tapşırıqların var.........(.......etməliyəm)..........................................................................
4. İstəyirsən ki, rəfiqən sənin uşaqlarını məktəbdən gətirsin.......(gətirə bilmək) ..........................................................................................................

***Tapşırıq 419***. Dialoq. «Kitab mağazasında».

**Hakan:** - Bağışlayın, sizdə Azərbaycan haqqında kitab var?
**Satıcı:** - Bəli, sizi nə maraqlandırır? Bizdə Azərbaycan haqqında müxtəlif kitablar var.
**Hakan:** - Məni fotoalbom maraqlandırır.
**Satıcı:** - Buyurun, bu da fotoalbom, çox maraqlıdır.
**Engin:** - Hakan, sən indi hansı kitabı oxuyursan?
**Hakan:** - Azərbaycan tarixini. Ümumiyyətlə, tarixi kitabları oxumağı xoşlayıram.
**Engin:** - Mən isə hal-hazırda Füzulinin «Leyli və Məcnun» poemasını oxuyuram.
**Hakan:** - Çox yaxşı, insan nə qədər çox kitab oxusa, bir o qədər dünyagörüşü geniş olar. Azərbaycan ədəbiyyatı çox zəngin və maraqlıdır.
**Engin:** - Hakan, nə yaxşı oldu ki, biz kitab mağazasında görüşdük və düşüncələrimizi bölüşdürdük. Gəl gedək bizə, Kübra çox şad olar.

**3. Zərf və feili bağlama üçün ortaq və fərqli əlamətlər.Venn diaqramı.**

***Tapşırıq 420.*** Zərf və feili bağlama üçün ortaq və fərqli əlamətləri verilən diaqram əsasında yazın.




**4. Novruz adətləri. Mətnə dair sual-cavab yazmaq, danışmaq.**

Novruz bayramında əsasən bu adətlər yerinə yetirilir:

**Novruz xonçasının düzəldilməsi.** Xonçaya milli şirniyyatlar, çərəzlər, səməni və şam qoyulur.

**Papaq atmaq**. Qapıya atılan papağı boş qaytarmazlar.

Qulaq falına çıxmaq. Əgər gizlin dinlənən evdən xoş söhbət eşidilərsə, bu arzunun yerinə yetəcəyinə işarədir.

**Tonqaldan tullanmaq**. Tonqaldan tullanarkən bu ifadə deyilir: “Ağırlığım-uğurluğum odda yansın”.

**Üzük falına baxmaq.** Qızlar üzüyü sapa bərkidib su ilə dolu stəkanın üstündə saxlayarlar. Üzük stəkana neçə dəfə dəysə, bu həmin qızın o yaşda ərə gedəcəyinə işarədir.



**<u>Səməni yetişdirmək.</u>** Bu yazın gəlişinə və təbiətin oyanmasına işarədir. Səməni xonçaları bəzəmək adətdəndir.

**<u>Yumurta döyüşdürmək</u>**. Oyunun nəticəsində uduzan tərəf digərinin tələblərini yerinə yetirir.

**<u>Qonaq getmək.</u>** Novruzda qohumların və qonşuların evinə qonaq gedərlər, onlara Novruz payı aparарlar.

**<u>Şam yandırmaq.</u>** Novruzda ailə üzvlərinin sayı qədər şam yandırarlar.

Küsülülərin barışması. Novruzda heç kim küsülü qalmamalıdır. Bütün küsülülər barışmalıdır.

**<u>Yallı getmək.</u>** Azərbaycan xalqının qədim dövrdən bəri ifa etdiyi rəqsdir. Bunun mənası insanların birliyidir.

**<u>Xoruz döyüşdürmək.</u>** Bunun üçün xüsusi döyüş xoruzları böyüdülür.

**<u>Novruz oyunları oynamaq</u>**. Məsələn, ənzəli.

**Mənbə:** Azad Nəbiyev, Azərbaycanda Novruz. Bakı: "Çıraq", 2012, 272 s.

## Mətnə aid suallar:

1. Novruz adətləri hansılardır?
2. Papaq atma, qulaq falına baxmaq, tonqaldan tullanmaq, səməni yetişdirmə adətlərinin mənası nədir?
3. Üzük falına baxmaq, yumurta döyüşdürmək, qonaq getmək, şam yandırmaq, yallı getmək kimi adətləri açıqlayın.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - Bu gün hansı bayram-dır? | -Какой праздник сегод-ня? | -When holiday is? |
| - Bu gün Novruz bayramı-dır. | -Сегодня праздник Новруз? | -It’s Novruz. |
| - Novruz nə deməkdir? | -Что означает Новруз? | -What does Novruz mean? |
| - Novruz yeni gün demək-dir. Bəzi müsəlman xalq-larında Novruz yeni il bayramıdır. | -Слово Новруз означает Новый день. У некото-рых мусульманских народов Новруз – новый год. | -It means new day. Novruz is new year for muslims. |
| - Bu gün nə vaxt qeyd olunur? | -Когда отмечается этот день? | -When it celebrates? |
| - Martın 21-də. | -21-го Марта | -March 21$^{st}$. |
| - Siz bu bayramı necə qarşılayırsınız? | -Как вы встречаете этот праздник? | -How do you celebrate Novruz? |
| - Milli şirniyyatlar bişi-rilir, səməni qoyulur, yu-murta boyanır, plov bişiri-lir, şam yandırılır. | -Готовиться националь-ные сладости- плов, выращивают семени, красят яйца, зажигают свечи. | -On this day we cook national sweets, grow se-meni. paint eggs, cooking plov and lighting candles. |
| - Yəqin bu çox maraqlı bayramdır, hə? | -Наверное это очень ин-тересный праздник. | -I guess it is very beautiful holiday, isn’t it? |
| - Bəli, bu, biz azərbaycan-lıların ən sevimli bayra-mıdır. Hamı çalışır həmin gün təzə paltar geyinsin. Bayram bir neçə gün da-vam edir: yaşlı qohumları təbrik etməyə gedirlər. Hamı bir-birini təbrik edir. | -Да, это любимый праз-дник азербайджанцев. В этот день все носят но-вую одежду. Праздник длится несколько дней. Люди поздравляют по-жилых родственников. Все поздравляют друг-друга. | -Yes, it’s Azerbaijani favorite holiday, Every-one is wearing new clot-hes. This holiday lasts few days. People congra-tulate their elderly relati-ves. Everyone congrats each others. |

## 35-ci dərs

1. Feilin arzu şəkli.
2. Yoxlayıcı tapşırıqlar.
3. Şeir. S. Vurğun "Şair nə tez qocaldın sən".
4. Mətn. Nar bayramı.
5. Dialoq.

### 1. Feilin arzu şəkli.

***Qeyd:***
*1. Feilin arzu şəklində hərəkətin icrası arzu olunur, -a,- ə- şəkilçisi ilə düzəlir.*
*2. Arzu şəklində çox vaxt gərək, kaş sözləri işlənir. Məs., gərək alam, gərək gələm, kaş ala, kaş gələ.*
*3. Arzu şəkli zaman şəkilçisi qəbul etmir və zamanlar üzrə dəyişmir.*
*4. Arzu şəkli şəxslərə görə dəyişir. Məs., gərək istəyəm, gərək işləyək, gərək işləyəsən, gərək işləyəsiniz, gərək işləyə, gərək işləyələr.*

***Tapşırıq 421***. Feilləri arzu şəklində bütün şəxslərə görə dəyişib yazın.

İçmək, yazmaq, qurmaq, gəzmək, başlamaq, qorumaq, işləmək, bürümək.

***Tapşırıq 422.*** Cümlələri köçürün, arzu şəklində olan feillərin altından xətt çəkin.

1. Rübabə o qədər ədəbli və tərbiyəli bir qızdır ki, hər kəs onu görsə "kaş mənim də belə bir qızım olaydı", – deyib arzu edir *(M.T.Sidqi).* 2. Kaş mən də ora gedəydim, onu tək qoymayaydım.3. Kaş ki, anam sağ olaydı, mənə lay-lay deyəydi. 4. Gərək quşun evciyini uçurmayaydın. 5. İclasın qərarını kaş ki, Anar oxumaya.

***Tapşırıq 423.*** Aşağıdakı feilləri arzu şəklində işlədib cümlə qurun.

Pozulmamaq, dayanmaq, görüşə bilmək, təşkil etmək, çalmaq, ütüləmək, qovuşmaq.
*Nümunə:* Kaş ki, onlar qovuşalar.

***Tapşırıq 424.*** Azərbaycan dilindən öz dilinizə tərcümə edin.

Dilin təmizliyi, məna dəqiqliyi və onun kəskinliyi uğrunda mübarizə mədəniyyət silahı uğrunda aparılan mübarizədir. Bu silah nə qədər kəskin olsa və nə qədər düzgün istiqamətdə olsa, bir o qədər qiymətli olar.

*A.M.Qorki*

***Tapşırıq 425.*** Səhv düşən sözləri tapın. Düzgün hərfi yazın.

Zəhər üfüqdən gül boylanırdı, (s, n)
Qızıl alov kimi şəfəq yanırdı. (a) *(M.Seyidzadə).*

Uşaqlar göz verib dedi – Babacan. (s)
Qol ağac əkərik hər yan dağ olsun, (b, b)
Yurdumuz vəfalı bir daylaq olsun. (s, y) *(N.Xəzri).*

Onun kaman kimi əyilmiş yaşı, (q)
Zurna baxışları, şirin söhbəti, (d)
O gözəl xilqətin xan təbiəti, (ş).
Gəzib dolaşardı, ağızda, çildə. (d) *(S.Vurğun).*

Qışda yağlar ağ geyinər, yaz tara, (d, q)
Sən dəstinlə ac kağıza qaz qara, (ğ, y)

**Dinləmə materialı.**

**<u>2. Yoxlayıcı tapşırıqlar.</u>**

**LÜĞƏT**

***Tapşırıq 426.*** Hər iki sütundakı sözləri uyğunlaşdırın.

| | | | |
|---|---|---|---|
| **1.** | qonaq | a) | qalereyası |
| **2.** | incəsənət | b) | maşın |
| **3.** | şəhər | c) | sürücüsü |
| **4.** | avtobus | d) | otağı |
| **5.** | qabyuyan | e) | mərkəzi |

***Tapşırıq 427.*** Verilmiş sözlərdən istifadə edərək cümlələri tamamlayın.

stadion, dayı, buludlu, bacıoğlu, yeşik

1. Bu ______________nə var?
2. Sabah ___________futbol oyunu keçiriləcək
3. Ənvər _____________və Solmaz xala hər yay Qubada dincəlirlər.
4. Yağış yağmır, ancaq hava ____________.
5. Əli Solmaz xalanın _____________.

***Tapşırıq 428.*** Düzgün sözləri dairəyə alın.

1. Çingizin evi çox yararsızdır/ *rahatdır, çünki metro stansiyasının yaxınlığındadır.*

2. Bu gün hava günəşlidir, ancaq havanın temperaturu 6 dərəcədir, ona görə də bir qədər sərindir / *şaxtalıdır.*
3. Mənim qızım rəfiqələrini görəndə çox sevinir / *düşünür.*
4. Azərbaycan Tarixi muzeyinin binası təzədir / *qədimdir.*
5. Mən Bakının yazını çox sevirəm, çünki yağmurlu / *çiçəkli olur.*

## QRAMMATİKA

***Tapşırıq 429.*** Düzgün variantı seçin.

1. Bu gödəkcə       deyil. O, səninkidir?
**a)** bizimki  **b)** mənim  **c)** sənin
**2. A:** Kompüter__________?
**B:** Mehparəninkidir.
**a)** kimindir  **b)** nədir  **c)** necədir
3. Rəfiqənin tezliklə toyu olacaq.
Bu gəlinlik_________.
**a)** mənimdir  **b)** onlarındır  **c)** onunkudur

***Tapşırıq 430.*** Mötərizədəki feilləri indiki zamanda işlədin.

**1.**
**A:** Sən bu filmə__________(baxmaq)?
**B:** Yox.
**A:** Onda gəl futbola baxaq. "Qarabağ" komandası _________(oynamaq).
2.
**A:** Mən yataq otağındakı mebelin yerini dəyişmək ______(istəmək). Mənə kömək edə bilərsənmi?
**B:** Bağışla, mən______(tələsmək).
Sonra dəyişərik.
**A:** Bu gün dərsin varmı?
**B:** Yox, amma müəllim imtahan suallarmı verəcək.

***Tapşırıq 431.*** Aşağıdakı ifadələr üzrə dialoq qurun.

**a)** Dəvətin üçün sağ ol.
**b)** Eybi yox.
**c)** Çoxdandır görünmürsən.
**d)** Nə yaxşı!
**e)** Narahat olma.

**A:** Fuad,______. Bakıda deyildin?
**B:** A... Xoş gördük. İşlər necə gedir?
**A:** Əla! Bura bax, axşamkı konsertə artıq biletim var. Mənimlə getmək istəyirsənmi?

**B:** ________. Ancaq gələ bilməyəcəyəm.
Axşam vağzala getməliyəm.
**A:** Niyə?
**B:** Anamı qarşılayacağam.
**A:______.**
**B:** Bir də təşəkkür edirəm
**A:_______**. Bəlkə, başqa vaxt.
**B:** Əlbəttə.

***Tapşırıq 432.*** Düzgün sözü seçin.

1. Mənim evim böyük parkın (altındadır, qarşısındadır).
2. Bu portreti yataq otağındakı divarın (üstündə, yanında, qarşısında) asmaq lazımdır.
3. Kitab dolabı yataq otağında çarpayının (altında, yanında, qarşısında).
4. Nizami Gəncəvinin portreti sinif otağında pəncərə ilə divarın (altında, yanında, arasında) asılmışdır.
5. Divar sobası kitab dolabının (üstündə, altında, yanında) yerləşir.

***Tapşırıq 433.*** Suallara cavab verin.

1. Sizin eviniz dəmiryol vağzalının arxasında yerləşir?
2. Onun maşını evinin qarşısındadır, ya məktəbin?
3. Paltar dolabı çarpayı ilə kitab dolabının arasındadır, yoxsa qarşısındadır?
4. Ayaqqabılar dolabın altındadır, ya üstündə?
5. Biz masanın arxasında oturmuşuq, ya üstündə?
6. Evinizdəki güzgünü harada asmısınız?

## 3. Şeir. S. Vurğun "Şair nə tez qocaldın sən".

"Nemətsə də gözəl şer,
Şair olan qəm də yeyir.
Ömrü keçir bu adətlə,
Uğurlu bir səadətlə.
Görən məni nədir deyir:
Saçlarına düşən bu dən?
Şair, nə tez qocaldın sən!

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də
Gözlərində min bir sual
Heykəl kimi dayandı lal…
O bəxtəvər gözəlin də
Mən oxudum gözlərindən:

Şair, nə tez qocaldın sən!

Ovçuluğa meyil saldım,
Gecə – gündüz çöldə qaldım,
Dağ başından enib düzə
Bir ox kimi süzə – süzə
Neçə ceyran nişan aldım;
Cavab gəldi güllələrdən:
Şair, nə tez qocaldın sən?

Bəzən uca, bəzən asta,
Ötür sazım min sim üstə.
Andı yalan, eşqi yalan,
Dostluğu da rüşvət olan,
Ürək yıxan bir iblis də
Üzəvari deyir hərdən:
Şair, nə tez qocaldın sən!

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm…
Bilirəm ki, deməyəcək
Bir sevgilim , bir də Vətən:
-Şair, nə tez qocaldın sən!"

**Mənbə:** S.Vurğun. Seçilmiş əsərləri, II cild, bakı: 2005, s.136

**4. Mətn.**

**Nar bayram"**

Azərbaycanın Nar bayramı YUNECKO-nun Mədəni irs siyahısına daxil edilib. Ölkədə keçirilən Nar festifalları 2006-cı ildən noyabrın əvvəllərində ölkədə bu meyvənin yığımının çatdığı gün keçirilir.



Azərbaycan yeganə ölkədir ki, burada bütün nar növləri yetişir. Bu tədbirdə dövlət xadimləri, səfirlər, xarici ölkələrdən gələn turistlər, Azərbaycanın bütün bölgələrindən gələn insanlar iştirak edirlər. Burada gələn qonaqları Göyçay rayonunun ayrı-ayrı kəndlərində yetişən nar növləri və onlardan hazırlanmış məhsullara qonaq edirlər.

Göyçay şəhər mərkəzində at yarışlarına gələn qonaqlar konsert proqramlarına, idmançıların çıxışlarına tamaşa edirlər.

Dünyada analoqu olmayan Göyçay narı Azərbaycanın simvoluna çevrilmişdir.

### Mətnə aid suallar:

1. Nar bayramı ilk dəfə hansı qurumların təşəbbüsü ilə hansı rayonda keçirilib?
2. Tədbirdə kimlər iştirak edirdi?
3. Sərgidə Göyçayın mərkəzi meydanında qonaqlara nə təklif olunur?
4. Bu bayramın keçirilməsində məqsəd nədir?
5. Dünyada məşhur olan Göyçay narı haqqında nə bilirsiniz?

**<u>5. Dialoq.</u>**

| | | |
|---|---|---|
| - Kəmalə xanım – Gündə neçə qutu siqaret çəkirsiniz? | - Кямаля ханум – Сколько пачек сигарет вы выкуриваете за день? | Kamalia-How many packs of sigarettes do you smoke a day? |
| - Ceyhun bəy - Gündə iki qutu. | -Джейхун - За день, 2 (две) пачки. | - Jeyhun - Two packs a day. |
| K,- Çox deyilmi? | К. - Не много ли? | K. - Isn't it much? |
| C. - Bir həkim dostum belə məsləhət görüb. | Д.- Один мой друг - врач посоветовал так. | J. - A friend of mine what is a doctor advised it to me. |
| K. - Həkim bunu necə deyə bilər? | К. - Как может такое сказать врач? | K. - How could a doctor advise such a thing? |
| C.- Məndən gündə neçə qutu siqaret çəkməmi soruşdu. 4 qutu - dedim. O da bunu yarıya salmağımı söylədi. Mən də məsləhət üçün ona «sağ ol» dedim. | Д.- Он спросил у меня, сколько я курю в день пачек сигарет. На мой ответ- 4 пачки, он посоветовал поделить их пополам. За совет я поблагодарил его, сказав «спасибо». | J. - He asked me, how many packs of cigarettes I smoke a day. To my answer four packs he said to divide it by two. And I thanked him for it. |
| K.- Deməli, həkim sizi 4 qutu zəhərdən xilas edib. | К - Таким образом, врач спас вас от четырех пачек яда. | K. - So, the doctor saved you from 4 packs of poison. |
| C. -Mən əslində elə 2 qutu çəkirəm. Həkimə özüm belə dedim. Onlar başqa- | Д. - На самом деле, я курю две пачки. Я сам сказал так врачу. Они | J. - Actually I'smoke 2 packs of cigarettes. I said that myself. They advise |

| | | |
|---|---|---|
| larına deyirlər- Siqaret çəkməyin,- özləri çəkirlər. Əgər 2 qutu desəydim, deyəcəkdi yarıya sal. | другим говорят - Не курите,- а сами курят. Если бы я сказал две пачки, то он сказал бы поделить пополам. | to others not to smoke, but they smoke themselves. If I that said I smoke 2 packs of cigarettes, he would say to divide it by two. |
| K. - Amma siz özünüzü aldadırsınız. Siqaretin ziyanını hamı bilir. Təəssüf ki, bəzi qadınlar da siqaret çəkməyə başlayıblar. Siqareti atmaq (tərgitmək) barədə heç fikirləşirsiniz? | К. -Только вы обманываете сами себя. О вреде сигарет знают все. К сожалению, и некоторые женщины начали курить. Вы хоть думаете о том, чтобы бросить курить? | K. - But, you are cheating yourself. Everybody knows about the harm of cigarettes. Unfortunately, some women began smoking too. Don’t you think about geting rid of the smoking? |
| C. - Əlbəttə, fıkirləşirəm. Özüm biokimya laboratoriyasında işləyirəm. Siqaretin ziyanını bilirəm. Amma mən siqaretdən əl çəkirəm, o əl çəkmir. | Д. - Конечно, думаю. Я сам работаю в лаборатории биохимии. Знаю о вреде сигарет. Я отстаю от сигарет, а они нет. | J. - Of course, I think. I work in the laboratory of biochemisttry. And I know about the harm of cigarettes. I hold back from cigarettes, but they don’t. |
| K. - Siz həkim – psixoloqa müraciət edin. O sizə siqaret atmağın yollarım deyər. | К. - Вы обратитесь к врачу - психологу. Он подскажет вам путь, как бросить курить. | K. - Turn to a doctor-psycholo gist then. He’ll show you the way of getting rid of cigarettes. |
| C.- Məsləhət üçün çox sağ olun. Hayat yoldaşım həkim-psixoloqdur. Ona söz vermişəm gündə 1 sigaret azaldım. Beləliklə, tədricən tərgidəcəyəm. | Д. - Спасибо за совет. Моя жена врач-психолог. Я ей дал слово уменьшить сигареты по одной штуке в день. Итак, постепенно брошу. | J. -Thank you for the advice. My wife is a doctor-psychologist. I have promised her to reduce per one cigarette a day. In this way, I’ll get rid of smoking little by little. |

## 36-cı dərs

1. Feilin vacib şəkli.
2. Yoxlayıcı tapşırıqlar.
3. Süleyman Rüstəm "Müəllim" şeiri.
4. Mətn. Qız qalası.
5. Dialoq.

### 1. Feilin vacib şəkli.

***Qeyd:*** *Feilin vacib şəkli hərəkətin icrasının zəruriliyini bildirir, -malı, -məli şəkilçiləri vasitəsilə düzəlir. Məs., yazmalı, pozmalı, görüşməli və s.*
*Feillərin başqa şəkilləri kimi vacib şəkli də şəxsə və kəmiyyətə görə dəyişir, zamana görə dəyişmir.*

***Tapşırıq 434.*** *Almaq, qurmaq, gəzmək və saxlamaq* feillərini vacib şəklində bütün şəxslər üzrə dəyişib cədvələ yazın.

| I Şəxs | | II Şəxs | | III Şəxs | |
|---|---|---|---|---|---|
| Tək | Cəm | Tək | Cəm | Tək | Cəm |
| oxumalıyam<br>almalıyam<br>qurmalıyam<br>gəzməliyəm<br>saxlamalıyam | oxumalıyıq | oxumalısan | oxumalısınız | oxumalıdır | oxumalıdırlar |

***Tapşırıq 435.*** *Gülmək, bilmək, yazmaq, qalmaq, gəzmək* feillərini feilin vacib şəklində cümlələrdə işlədin.

***Qeyd:*** *Bu şəklin inkarı -ma, -mə şəkilçisi ilə düzəlir. məs., oxu-ma-malı-yam.*

***Tapşırıq 436.*** Tutmaq, göstərmək, bağışlamaq, çəkmək feillərini feilin vacib formasında inkarda şəxslər üzrə dəyişin.

**Sinif işi.** Mətni oxuyun, vacib şəklində olan felləri müəyyənləşdirin.

Firudin: - Dostlarım, - dedi, bizim hər yerdə etibarlı və cəsur adamlarımız olmalıdır, biz heçdən bir şey yaratmalı, yalın əllərlə zindanları, zəncirləri qırmalıyıq. Biz ancaq ruhən, fitrətən qəhrəman doğulmuş insanları aramıza almalıyıq. Ona görə də xalqdan bir dəqiqə də olsa əlaqəni kəsməməliyik. Fəhlələrin, kəndlilərin, bütün xalqın içində bizim etibarlı adamlarımız olmalıdır.

*(M.İbrahimov)*

**Dinləmə materialı.**

**2. Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 437.*** Oxuyun və cümlələri xahiş formasında yazın.

*Nümunə:*
Mənim üçün qələm al.
Mənim üçün qələm ala bilərsənmi?
1. Mən qab-qacaq yumalıyam, ancaq çox məşğulam.
..........................................................................................................
2. Noutbukunu mənə ver.
..........................................................................................................
3. Məni bankın meneceri ilə görüşdür.
..........................................................................................................
4. Mən sənin telefonundan istifadə etməliyəm.
..........................................................................................................

***Tapşırıq 438.*** Feilləri vacib şəklində işlədib, cümlələri düzəldin.

1. Biz / almaq / biletlər / konsert
..........................................................................................................
2. İdmançılar / çox / məşq etmək
..........................................................................................................
3. Yalçın /tapmaq / iş
..........................................................................................................
4. Oqtay / sabah / durmaq / 8.00
..........................................................................................................
5. Məlahət və Aynur / ticarət mərkəzi / getmək / günorta
..........................................................................................................

***Tapşırıq 439.*** Sağ sütundakı cümlələrdən istifadə edib, dialoqu tamamlayın.

| | | |
|---|---|---|
| **Nihad:** | Salam, Rəvan | |
| **Rəvan:** | Əlbəttə. Nə lazımdır? | a) Səndən bir şey xahiş edə bilərəm? |
| **Nihad:** | Sabah qardaşımı hava limanından gətirə bilərsənmi? | b) Saat 8-ə qədər sizdə qala bilərmi? |
| | | c) Narahat olma, gətirərəm. |
| **Rəvan** : | O nə vaxt gəlib çatacaq? | d) Mən 17:30-da orada olmalıyam. |
| **Nihad:** | Axşam saat 5-də. | |
| | | e) Başqa bir şey lazımdırmı? |
| **Rəvan:** | Oldu | |

**Nihad :** .................................

**Rəvan:** Niyə? Sən hara getməlisən?

**Nihad:** Həkimə.

**Rəvan:** Yaxşı. İşini qurtaran kimi zəng elə.
**Nihad:** Çox sağ ol, Rəvan.

***Tapşırıq 440.*** Verilmiş sözlərdən istifadə edib cümlələri düzəldin.
*qalibi yarışçılar yarışda tamaşaçı sürətlə*

1. ......................kim qalib gəldi?
2. ...........................1200 m üzməlidirlər.
3. Bu maşın saatda 250 km............................gedə bilir.
4 .İnşa müsabiqəsinin...........................mükafat aldı.
5. Təxminən 50000....................futbol oyununu izlədi.

***Tapşırıq 441***. "Nəsə", "heç nə", "heç kim", "harasa", "hər yer", "heç yerdə" sözlərindən istifadə edib, dialoqları tamamlayın.

**1. Fuad** Nicat, sən.................eşidə bilirsən?
**Nicat** Yox,.....................eşitmirəm.
**Fuad** Sinifdə kimsə var. Deyəsən, burada dərs gedir.
**Nicat** Burada.....................yoxdur.

**2. Firuzə** Gülnaz, mənim çantam hanı? Mən onu ......................tapa bilmirəm.
**Gülnaz** Qonaq otağına baxdınmı?
**Firuzə** Mən....................baxdım!
**Gülnaz** Bəlkə, maşında qalıb?

**3. Ayan** Keçən......................gecə getdin?
**Banu** Bəli. Mən Yasəmənə baxmağa getdim. O, musiqi yarışmasında iştirak etdi.
**Ayan** O,................qazandı?
**Banu** Yox, qazanmadı.

**3. Süleyman Rüstəm "Müəllim" şeiri (oxu üçün tapşırıq).**

"Müəllimlik müqəddəs bir sənətdir həyatda,
Müəllimin hər sözü həqiqətdir həyatda.
Üz-gözü, pal-paltarı mürəkkəbli körpələr,
Çırpınan ürəkləri xoş mətləbli körpələr,
İlkin vətən sözünü müəllimdən öyrənir,

Mənliyini, özünü müəllimdən öyrənir,
Başım ağarıbsa da, deyilsəm də mən cavan,
Yanımda bir müəllim adı çəkilən zaman
Tez ayağa qalxıram bir məktəbli uşaqtək, –
Müəllimə həmişə, hər yerdə hörmət gərək.
Müəllim də anadan müəllim doğulmayıb,
Müəllimin özü də müəllimsiz olmayıb.
Deyirəm, kaş təzədən bir məktəbli olaydım,
Barmaqları ömürlük mürəkkəbli olaydım".

**Mənbə:** S.Rüstəm. Seçilmiş əsərləri, I cild, Bakı: "Şərq-Qərb" nəşriyyatı, s.30

***Tapşırıq 442.*** İmla.

### Göygöl

"Göygöl Azərbaycanın ən gözəl göllərindən biridir. Azərbaycanın qərbində yerləşən bu göl eyniadlı milli parkın bir hissəsidir. Burada ətraf flora və faunanın zənginliyinə yalnız həsəd aparmaq olar. "Göygöl" mavi göl kimi tərcümə olunur. Gölün suyu gözəl rəngdədir. Gölün ətrafında 423 növ ağac və kol, həmçinin dərman bitkiləri bitir. Bu meşələrdə yaşayan maral və cüyür, ayı, qaban canavar, tülkü, dağ keçisi, çaqqal, meşə pişiyi, oxlu kirpi kimi heyvanlara rast gəlmək olar. Gölün özündə xallı balıqlar yaşayır".

## 4.Mətn.

### Qız qalası



Qız qalası – "köhnə şəhər"in sahil boyu hissəsində İçəri Şəhər adlanan qədim qala tikilisidir. Qız qalası XII əsrə aiddir. Qalanın hündürlüyü 28 metr, diametri isə I mərtəbədə 16, 5 metrdir.

1964-cü ildə Qız Qalası muzeyə çevrilmiş, 2000-ci ildə isə YUNECKO-nun Dünya irs siyahısına daxil edilmişdir. Sonuncu dəfə qala 2012-2013-cü illərdə bərpa olunub.

Qalanın adının etimologiyası ilə bağlı müxtəlif fikirlər olsa da, əslində heç vaxt düşmənlər tərəfindən fəth edilmədiyindən xalq arasında bakirəlik rəmzi kimi Qız qalası adlandırılmışdır. Qız qalası vaxtilə suyun içində tikilmiş, zaman keçdikcə Xəzərin suları geri çəkilmiş və quruda qalmışdır.

Digər versiyaya görə isə qala əvvəllər "Göz qalası" adlandırılmış (buradan göz qoyulurmuş, yəni baxılırmış), get-gedə bu ad dəyişərək xalq tərəfindən "Qız qalası" adlanmışdır.

Ümumiyyətlə, son dövrlərdə alimlərin fikirlərinə görə, bu qalanın kosmosla, başqa planetlərlə əlaqəsi olduğu ehtimal edilir. Qalanın kiçik pəncərələri elə bir şəkildə tikilmişdir ki, birbaşa səmaya baxmaq mümkündür. Özü də bu pəncərə yerləri tam dəqiqliklə, müəyyən koordinasiyalara uyğun şəkildədir.

**Mətnə aid suallar:**

1. "Qız qalası" abidəsi harada yerləşir?
2. Qalanın hündürlük və diametri nə qədərdir?
3.Qala neçənci ildən muzey kimi fəaliyyət göstərir?
4.Neçənci ildə YUNESCO-nun siyahısına salınmışdır?
5. "Qız qalası"nın etimologiyası haqqında hansı fikirlər vardır?
6. Hansı versiyalara görə adı "Qız qalası"dır?

***Tapşırıq 443.*** Mətnə dair suallara cavab yazıb danışmaq və slayd izləmək.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| **P.** Bağışlayın, bu avtobus hara gedir? | Извините, куда едет этот автобус? | Excuse me, where does this bus go? |
| **V.** Bu avtobus vağzala gedir. | Этот автобус едет на вокзал. | It goes to the railway station. |
| **P.** Bəs o biri avtobus hara gedir? | А куда едет тот автобус? | Where does the other one go? |
| **V.** O biri avtobus Nizami metrosuna gedir? Siz hara getmək istəyirsiniz? | Тот автобус едет на метро Низами? куда вы хотите поехать? | The other bus goes to the Nizami subway station? Where do you want to go? |
| **P.** Mən "Abşeron" meh-manxanasına getmək istə-yirəm. | Я хочу поехать на отель «Апшерон». | Want to go to the "Absheron" hotel. |
| **V.** Siz 2 nömrəli avtobusa minin. | Вы садитесь на автобус под номерам 2. | Take the number 2 bus. |
| **P.** Çox sağ olun. | Спасибо. | Thank you very much. |
| **V.** Dəyməz. | Не за что. | You are welcome. |

## 37-ci Dərs

1. Zərf haqqında məlumat.
2. Yoxlayıcı tapşırıqlar.
3. Tərcümə (ingilis, rus, türk) dilindən Azərbaycan dilinə.
4. Şeir. H.Cavidin "Qız məktəbində" şeiri.
5. Mətn. Qəbələ rayonu.

### 1. Zərf haqqında məlumat.

**Qeyd:** *Hərəkətin tərzini, zamanını, yerini, miqdarını və s. bildirən əsas nitq hissəsinə zərf deyilir. Məs., Əsgərlər cəsarətlə addımlayırdılar.*
*Zərf quruluşca sadə, düzəltmə və mürəkkəb olur.*
*Sadə zərflər bir kökdən ibarət olur: tez, gec, yuxarı və s.*
*Düzəltmə zərflər əsasən, aşağıdakı şəkilçilərlə düzəlir: -ca-cə- yavaşca, yüngülcə; -dan, -dən – ucadan, ürəkdən; - casına,-cəsinə- dostcasına, igidcəsinə; -la, -lə- zorla, güclə:-aq, -ək- qaçaraq, içərək.*
*Mürəkkəb zərflər iki sözün birləşməsindən əmələ gəlir. Məs., tez-tez, üst-üstə, tək-tənha, anbaan, dalbadal.*

***Tapşırıq 444.*** Bir kökdən ibarət olan *tez, gec, yuxarı, aşağı, geri,* sadə zərfləri cümlədə işlədin.

***Tapşırıq 445.*** *Sakitcə, yüngülcə, saymazyana, ucadan, həyəcanla, diqqətlə, çaparaq* düzəltmə zərfləri cümlədə işlədin.

***Tapşırıq 446.*** Suallara cavab yazıb zərfləri göstərin.

1. Siz pianonu necə çalırsınız?
2. Siz nə qədər işləyirsiniz?
3. Azərbaycanca siz necə danışırsınız?
4. Siz nə vaxt yuxudan oyanırsınız?
5. Siz haraya gedirsiniz?
6. Siz məruzə vaxtı nə qədər danışdınız?
7. Siz nə vaxtdan gözləyirsiniz?
8. Siz haçan bura gəldiniz?
9. Qatar necə hərəkət edirdi?

***Tapşırıq 447.*** Zərflərə uyğun gələn sualı verin

1. Maşınlarımız yanaşı gedirdi. 2. Atlar əvvəl dağın başına qalxdı, sonra aşağı düşdü. 3. Biz dəhşətli Xocalı faciəsini heç vaxt unutmayacağıq. 4. Öyrənmək heç vaxt gec deyil. 5. Cəmilə həmişə dərsinə yaxşı çalışırdı. 6. Dinləyicilər Səməd Vurğunun şeirlərini maraqla dinlədilər. 7. Dünəndən səni görmək istəyirəm. 8. Biz

müqəddəs torpaqlarımızı göz bəbəyi kimi qorumalıyıq. 9. Hava tamamilə qaralmışdı.

***Tapşırıq 448.*** Verilmiş qoşa sözlərdən mürəkkəb zərflər düzəldib cümlədə işlədin.

Ara, bir; əl, bir; söz, bir; can, bir; qəlb, bir; addım başı; göz, altı; dodaq, ucu; at, üstü; tək, tənha; əvvəl, axır; az, çox.

***Tapşırıq 449.*** Yavaş-yavaş, birdən –birə, dinməz –söyləməz, az-çox, adbaad, üzbəüz, arabir mürəkkəb zərfləri cümlələrdə işlədin.

***Tapşırıq 450.*** Yaxşı, təmiz, gözəl, maraqlı sözlərini cümlələrdə sifət və zərf kimi işlədin.

***Tapşırıq 451.*** *Xeyli, çox, az* sözlərini cümlədə say və zərf kimi işlədin.

## 2. Yoxlayıcı tapşırıqlar.

**Qeyd:** *Bəzi alınma sözlərdə isimlər hallanarkən "q" samiti "ğ","k" samiti "y" samitinə keçmir. Olduğu kimi qalır. Məs.: Rafiq, Afaq, kinooçerk, elastik və s.*

**Sinif işi.** İlyas Əfəndiyev "Daş hasar" *(hekayədən bir parça)*

"Firəngizi heç bir şey, təzə bir pyesin premyerası, ya tərifi yayılmış təzə bir roman, ya yeni açılmış bir rəsm sərgisi qədər maraqlandırmırdı. Belə hadisələr həmişə onda bir bayram əhvalı yaradırdı. O, məşhur kino artistlərinin, məşhur rəssamların, dəbdə olan yazıçıların adlarını, tərcümeyi-hallarını əzbər bilirdi. Xüsusən də müasirlərin.

Lakin orta məktəbin son sinfində qız dərk elədi ki, ondan nə rəssam olar, nə bəstəkar, nə yazıçı. Bəlkə...bəlkə artist olardı. O, ata-anasının narazılığına baxmayaraq, İncəsənət İnstitutunun aktyorluq fakültəsinə ərizə verdi və... kəsildi".

**Mənbə:** İ.Əfəndiyev. Seçilmiş əsərləri. I cild,
Bakı: "AVRASİYA PRESS", s.129-138

***Tapşırıq 452.*** *Vərəq, aptek, fabrik, Şərq, Lerik, məntiq* sözlərini sxemlər əsasında yazın və "q" "k" hərflərinə fikir verin.

*Nümunə:*

Məntiq ... → fəlsəfi elmdir
→ xeyri çoxdur
→ çox fikir verirəm
→ dərindən öyrənməlisən
→ çoxmənalı fikirlər ola bilər
→ çox faydalanıram

Lerik ... → qədim rayondur.
→ tarixi haqqında məlumat aldıq.
→ gəzməyə getdik.
→ qarış-qarış gəzdik.
→ bir gün qaldıq
→ Lənkərana getdik.

***Tapşırıq 453.*** *Yarpaq, bayraq, çıraq, dalaq, qulaq, önlük, gözlük, meşəlik, üzümlük, kölgəlik* isimlərini hallandırın. Yiyəlik, yönlük, təsirlik hallarında «q» və «k» samitlərinin hansı samitə çevrildiyini göstərin.

***Tapşırıq 454 .*** "Q" samiti ilə bitən isimləri hallandırıb cədvəldə yazın.

*Bulaq, bayraq, üfüq, şəfəq, Afaq, yarpaq*

| **İsmin halları** | **"Q" samiti ilə bitən isimlər** |
|---|---|
| | |

***Tapşırıq 455.*** *Çiçək, çörək, ürək, ördək, örpək* isimlərinin hallandırıb cədvəldə yazın.

| **İsmin halları** | **"K" samiti ilə bitən isimlər** |
|---|---|
| | |

**<u>3. Tərcümə </u>**(ingilis, rus, türk dilindən) azərbaycan dilinə.

These people are not in the war zone. They were civilians, children. Reace-loving world, silence! We are locking for you, international human rights organizations! Armenian terror must be stopped!

Эти люди не в зоне боевых действий. Эти были мирные жители, дети. Миролюбивый мир, тишина!. Мы ищем вас, международные правозащитные организации! Армянский террор должен быть остановлен!

Bu insanlar savaş bölgesinde değil. Onlar sivillerdi, çocuklar. Barış seven dünya, sessizlik! Sizi arıyoruz, uluslararası insan hakları örgütlüri! Ermeni terroru durdurulmalı!

**Bunu bilmək maraqlıdır.**

**Psixologiya haqqında**

Psixologiya həm çox qədim, həm də çox gənc elmdir. Onun müstəqil elm kimi mövcudluğu yalnız onilliklərlə hesablanır.

Psixologiya elmi tarix boyu müxtəlif istiqamətlər baxımından fərqlidir. Müasir psixologiya üçün bu fənnin axtarışı hələ də aktual olaraq qalır.

Psixologiya ilk dəfə eramızdan əvvəl IV əsrdə Aristotelin "Ruh haqqında" məşhur əsərində əks olunmuşdur.

Mütəxəssislərin əksəriyyəti belə fikirləşdilər ki, hazırda psixologiya müxtəlif faktların, nəzəriyyələrin, ehtimalların, metodologiyaların və məqsədlərin cəmləşməsindən ibarətdir.

Psixologiya – psixi proseslərin, psixi vəziyyətlərin və insanın psixi xüsusiyyətlərinin, yəni psixikanın xüsusiyyətlərini və qanunauyğunluqlarını tədqiq edən elmi bilik sahəsidir.

**4. H.Cavidin "Qız məktəbində" şeiri.**

"— Quzum, yavrum! Adın nədir?
— Gülbahar.
— Pəki, sənin anan, baban varmı?
— Var.
— Nasıl, zənginmidir baban?
— Əvət, zəngin, bəyzadə...
— Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
— Var əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
— Çox doğru söz... Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisən?
— Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
— Sonra kimlər?
— Sonra onun göndərdiyi elçilər.
— Başqa sevdiklərin nasıl, yoxmu?
— Var...
— Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar..."

**Mənbə:** H.Cavid. Əsərləri, I cild, Bakı: "Lider" nəşriyyatı, 2005, s.49

**5. Mətn.**

## Qəbələ rayonu

Azərbaycanın Şımal-Qərb hissəsində, Şəki-Zaqatala zonasının ərazisində, Dağıstan və Gürcüstan sərhədində yerləşir. Bu region çox qədim tarixə malikdir. Hələ neolit dövründə burada insanlar yaşamışdır. Qəbələ bir müddət Qafqaz Albaniyasının mərkəzi olmuş, sonra isə Şirvanşahlar dövlətinin və Şəki xanlığının tərkibinə daxil olmuşdur. Rayonun ərazisindən Dəmiraparan çayı, Vəndam çayı, Bum çayı, Tikanlı çayı və başqa çaylar axır.



Qəbələ rayonu qoz-fındıq və şabalıd bağları ilə ad çıxarmışdır. Dağ yamaclarında, dəniz səviyyəsindən 1000 m yüksəklikdə məşhur şabalıd meşəsi yerləşir. Baharda şabalıd ağaclarının çiçək açması ecazkar mənzərə yaradır. Bu meşədəki ağaclar çox qədimdir. Onların hər birinin orta yaşı 500 ildən çoxdur.

Bu ağaclardan bəziləri dövlət tərəfindən mühafizə olunan təbii abidələr siyahısına daxil edilmişdir. Burada ceyran, cüyür, ayı, canavar, dovşan və yerli faunanı təmsil edən digər heyvanları ovlamaq olar. Respublikanın ən uca zirvəsinə Bazardüzü dağına (dəniz səviyyəsindən 4466 m yüksəklikdə) gedən alpinist marşrutlarından biri bu rayondan keçir.

Qəbələ-Bakı şose yolundan 216 km aralıda, Nohur gölünün sahilində yerləşir. Turistlər şəlalələrin yanına, meşəyə, tarixi abidələrin yanına səfər edə bilərlər.

### Mətnə aid suallar:

1. Qəbələ rayonu Azərbaycanın hansı hissəsində yerləşir?
2. Qəbələ hansı tərkiblərə daxil olmuşdur?
3. Qəbələ rayonu hansı bağları ilə məşhurdur?
4. Qəbələ rayonunda respublikanın ən uca dağının adı nədir və hansı yüksəklikdədir?

***Tapşırıq 456.*** Mətnə dair suallara cavab yazıb danışmaq.

## 38-ci dərs

1. Feilin lazım şəkli.
2. Yoxlayıcı tapşırıqlar.
3. Bayatılar.
4. Mətn. Damcılı bulaq.
5. Dialoq.

**1. Feilin lazım şəkli.**

***Qeyd:*** *Feilin lazım şəkli hərəkətin icrasının lazım olduğunu bildirir. İnkar forması "deyil" sözü ilə işlənir. Feilin lazım şəkli -ası, -əsi şəkilçisi vasitəsilə düzəlir. Məs., oxuyasıdır- oxuyası deyil.*

***Tapşırıq 457.*** Verilmiş feillərə lazım şəklinin şəkilçilərini artırıb cümlələrdə işlədin.

Gör, sür, qoru, al, gəl, vur, danış.

***Tapşırıq 458.*** Verilmiş məsdərləri feilin lazım şəklinə çevirin. Sözləri əvvəlcə təsdiq, sonra inkar şəklində II şəxsin tək və cəmində işlədin.

Bilmək, əkmək, yazmaq, söyləmək, köçmək.

***Tapşırıq 459.*** Aşağıdakı feilləri lazım şəklində əvvəlcə təsdiq, sonra inkar formada şəxslərə görə dəyişin.

Gəz, saxla, danış, gözlə, çək, çağır, düşün, ək.

*Nümunə:*

| I şəxs<br>tək | I şəxs<br>cəm |
|---|---|
| Mən danışasıyam. | Biz danışasıyıq. |
| Mən danışası deyiləm. | Biz danışası deyilik. |

| II şəxs<br>tək | II şəxs<br>cəm |
|---|---|
| Sən danışasısan. | Siz danışasısınız. |
| Sən danışası deyilsən. | Siz danışası deyilsiniz. |

| III şəxs<br>tək | III şəxs<br>cəm |
|---|---|
| O danışasıdır. | Onlar danışasıdırlar. |
| O danışası deyil. | Onlar danışası deyillər. |

***Tapşırıq 460.*** Köçürün, nöqtələrin yerinə uyğun gələn lazım şəklində olan feilləri əlavə edin.

*Çəkəsi, düzüləsi, təmizləyəsi, gələsi, durası, gedəsi, dönəsi.*

Mən kənarda ... deyiləm. O, mütləq dərsə ... . Sən evləri ... . O, bu il birinci sinfə ... . Natiq işini bitirib evə ... . Süfrəyə çəngəl-bıçaq ... . O, dünən şəkil ... idi.

**2. Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 461.*** Aşağıdakı situasiyalarla tanış olun və suallar verin.
l. Siz kiməsə zəng etməlisiniz, ancaq telefonu götürməmisiniz. Dostunuzdan telefon istəyin.
..............................................................................................................(...bilərəm?)
2. Siz imtahana hazırlaşa bilmirsiniz. Dostunuzdan kömək istəyin.
.............................................................................................................(...bilərsən?)

3. Harasa getmək üçün sizə maşın lazımdır. Dostunuzdan xahiş edin sizi aparsın.
.............................................................................................................(...bilərsən?)
4. Bayırda yağış yağır, çətiriniz yoxdur. Dostunuzdan çətir istəyin.
.............................................................................................................(...bilərəm?)

***Tapşırıq 462.*** Sözləri düzgün sıralayıb cümlə düzəldin. Feilləri vacib formasında işlədin.

1. tələbələr / dərsdə / saat 8.30-da / olmalıdır / hər gün
2. məşq / idmançılar / hər gün / etməlidir
3. mən / etməliyəm / ev / kömək / anama / işlərində
4. həftəsonu/ getməlidir / uşaqlar / düşərgəyə
5. dostu ilə / Hikmət / görüşməlidir / 19.30-da

***Tapşırıq 463.*** Düzgün sözləri dairəyə alın.

**1. Fatimə** Evdə kimsə / hamı var?
**Nicat** Nə olub?
**Fatimə** Mən gecikirəm və istəyirəm ki, kimsə / nəsə məni işə aparsın.
**Nicat** Narahat olma. Mən sizin ofisin yaxınlığında hər yerə / bir yerə getməliyəm, səni apara bilərəm.

**2. Murad** Həftəsonu heç yerə / harasa gedəsisən?
**Ramin** Heç yerə / bir yerə. Mənim işim var. Bəs sən?
**Murad** Mən harasa / heç yerə getmək istəyirəm, lakin nəsə / heç kəs mənimlə gedə bilmir.

*Tapşırıq 464 .* Verilmiş feilləri lazım şəklində işlədin.

*getmək, təşkil etmək, zəng vurmaq, keçirilmək, iştirak etmək*

1. Konsert harada............................?
2. Fəridə gələn həftə həkimə...........................
3. Uşaqlar yarışda..................... deyillər.
4. Biz etiraz yürüşü......................
5. Sən Rüfətə.........................?

*Tapşırıq 465.* Boşluqların yerinə hansı ədatı yazmaq lazımdır?

**Hüseyn** Mən darıxıram.................bu axşam bir yerə gedək.
**Orxan** Yaxşı! Kinoya gedək?
**Hüseyn** Yox! Mən kinoteatra getməyi xoşlamıram.
...........................yaxınlıqdakı yeni italyan restoranına gedək.
**Orxan** Bilirsən, mən italyan yeməklərini sevmirəm....................mərkəzdəki türk restoranına gedək.
**Hüseyn** Bu, yaxşı fikirdir!
**Orxan** Bəlkə, Cavidi də dəvət edək?
**Hüseyn** Mən ona zəng vura bilərəm.

*Tapşırıq 466.* Tərcümə (ingilis, rus, türk dilindən) azərbaycan dilinə.

Мы живем в деревне. Наша деревня большая. Недалеко от деревни лес. Каждый труженик в нашем селе имеет свой огород. В огородах растет картофель, помидоры, морковь, капуста. В нашей деревне много садов. В этих садах растут яблоки, груши, вишни, гранат, айва, инжир, виноград и другие фрукты. Я очень люблю свою родную деревню.

Hello good morning. I am France. My name is Pierre. I am from Paris. This is my friend Paol. He is Italian. Paolo is my neighbor. Are you French? No, I am American. What is your occupation? I am an engineer. What is your brother’s occupation on? He is a doctor. What is this? This is a book. Is this your book? Yes, it is my book. Whose brother is this man?

Kuvvetli imanı kazanan herhangi bir şahsın cesaret ve celadeti, şuur ve hayat anlayışı o kadar üstün ve seviyeli ki, dini felaketlerden başka, hiçbir bela onu korkutamaz. Hiçbir dünyevi zorluk hayatının zevk ve huzurunu bozamaz. Yeter ki o imandaki bu kemale ermiş olsun.

***Tapşırıq 467.*** İmla.

**Meşədə**

“Nurəddin meşədə iki saata qədər yol getdikdən sonra bir çaya rast gəldi. Gecə güclü yağış yağdığından çayda su çox idi. Uzun bir ağac sınıb, körpü kimi çayın üstünə düşmüşdü. Nurəddin bu ağacın üstü ilə çayın o biri sahilinə keçmək istədi. Lakin ayağı sürüşüb çaya düşdü. Bura çayın dərin yerlərindən biri idi. Ağacın əyilmiş şaxı Nurəddinin əlinə keçdi. O, bu şaxdan tutub, birtəhər kənara çıxdı. Bir az rahat olduqdan sonra paltarını soyunub sıxdı və qurutmaq üçün günün qabağına sərdi.

Hava yavaş-yavaş qaralırdı. Lakin Nurəddin yolu tapa bilmədi. Axırda bir ağacın üstünə çıxıb orada yatdı”.

**3. Bayatılar.**

“Əziziyəm bir də mən,
Doldur içim bir də mən
Ömür keçdi, gün keçdi
Cavan olmam bir də mən.

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Əzizim, bala dağı,
Bağ dağı, bala dağı.
Hər dərddən betər olar.
Anaya bala dağı” .

**Mənbə:** Şifahi xalq ədəbiyyatından nümunələr

**Slayd izləmək.**

**4. Mətn.**

**Damcılı bulaq**

Damcılı bulaq Azərbaycanın Qazax ərazisində yerləşir. Təbii çatlardan su damcıladığına görə bura damcılı adlandırılmışdır.

Damcılı bulağın ümumi hündürlüyü min metrə çatır. Nəhəng qayalardan süzülən saf və duru, buz kimi yerə soyuq su damcı-damcı tökülür. Aşağıdakı təbii ovucda yığılaraq bulaq olur.

Azərbaycan şairi Səməd Vurğun deyirdi: “Damcılı dünyanın 8-ci, Azərbaycanın 1-ci möcüzəsidir”. Bura Qazax rayonunun əsas istirahət yeri, piknik

mərkəzidir. Yay mövsümündə Qazax əhalisi istirahət etmək üçün bura gəlir. Qonaqlar üçün bu yer görməli yerlər marşrutunda olur. Avey dağının aşağısında yerləşən Damcılı mağarası çox mənzərəli yerdə yerləşir.

Damcılı mağarasının yerləşdiyi ərazidə ilkin arxeoloji tədqiqatlar 1953-cü ildə aparılıb. Tədqiqat zamanı Damcılı mağarasında ibtidai insanların hazırladıqları müxtəlif çeşidli daş alətlər və ov heyvanlarının yarı yanmış sümüklərinin qalıqları aşkar edilib. Alimlər mağaradan tapılan bu daş alətləri öz forma və hazırlanma texnikasına görə orta paleolit dövrünə, yuxarı paleolit və neolitə aid edirlər.

Burada yerləşən Damcılı bulaqdan başqa mağaranın yerləşdiyi Avey dağı müxtəlif tarixi dövrlərə təsadüf edən maddi-mədəniyyət, arxeologiya və memarlıq abidələri ilə zəngindir. Bəhs edilən ərazidə 8 məbəd, 2 qədim yaşayış yeri, ilk orta əsrlərə aid qəbirstanlıq, müdafiə divarları və bürcləri olan 2 qala qalığı, 30-a qədər mağara, yel dəyirmanı, müxtəlif quruluşlu su anbarları qeyd olunub.

**Mənbə:** Azərbaycan Ensiklopediya Fondu

## Mətnə aid suallar:

1. Damcılı bulaq haradadır?
2.Nəyə görə bu bulaq “Damcılı” adlanır?
3.S.Vurğun bu haqda nə deyib?
4. Tədqiqat zamanı nə aşkar edilmişdir?
5. Bu ərazidə başqa nə vardır?

***Tapşırıq 468.*** Mətnə dair suallara cavab yazıb danışmaq.

**5.Dialoq.**

| | | |
|---|---|---|
| **Araz** – Salam, Fəxri, sən nə edirsən? | -Привет, Фахри, что ты делаешь? | -Hi Fahri, what is you doing? |
| **Fəxri** – Mən indi elan hazırlayıram. | -Я сейчас готовлю объявление. | -I’m preparing annoucments |
| **Araz** – Nə barədə? | -О чем. | -About what? |
| **Fəxri** – Universitetimizdəki əcnəbi tələbələrin konserti haqqında. | -О концерте иностранных студентов в нашем университете. | -About concret of foreign students. |
| **Araz** – Bu barədə heç kim mənə bir söz deməyib. Konsert nə vaxt olacaq? | -Никто не сказал мне ни слова. Когда состоится концерт? | -No one fold me about it. When is the concert? |

| | | |
|---|---|---|
| **Fəxri** – Bir həftədən sonra. | -Через неделю. | -A week later. |
| **Araz** – Sənə necə kömək edə bilərəm? | -Как я могу тебе помоч? | -Haw can I help you? |
| **Fəxri** – Reklam vərəqələrini hazırla, dəvətnamələri paylamaqda mənə kömək et. | -Подготовьте рекламные листы, помогите мне с распространением приглашений. | -Pupare flyers. and help me to hand out invitatious. |
| **Araz** – dəvətlilər çoxdur? | -Приглашенных много? | -Many invitees? |
| **Fəxri** – Universitetdə oxuyan bütün xarici tələbələr, hazırlıqda oxuyanlar və qonaqlar. | -Все иностранные студенты, в настоящее время обучаюшиеся в университете и гости. | -Everyone who studies here, and same guests. |
| **Araz** – Qonaqlar haradandırlar? | -Откуда гости? | -Where the guest are? |
| **Fəxri** – Xarici səfirliklərdən nümayəndələr və universitetin rəhbərləri. | -Представители зарубежных посольств и руководители университета. | -Representative of foreign embassies and heads of universities |
| **Araz** – Nə yaxşı! | -Как хорошо! | -Good! |

**39-cu dərs**

1. Feilin bacarıq şəkli.
2. Maraqlı məlumatlar. Bilirsinizmi?
3. Slayd izləmək.
4. "Neft daşları" mətni ifadə şəklində yazmaq.
5. Dialoq.

**1.Feilin bacarıq şəkli.**

«Bilmək» feli dilimizdə həm müstəqil, həm də köməkçi feil kimi işlənir. Məsələn: O, hər şeyi lap çoxdan bilirdi. İçəri girə bilərəmmi? - Nümunələrin birincisində «bilmək» feli müstəqil, ikincisində köməkçi fel kimi işlənib. Köməkçi fel kimi işlənəndə bacarıq tərzini yaradır. İş hal-vəziyyət və hərəkəti icra edənin imkanını nəzərə çarpdırır. Bacarıq formasının aşağıdakı xüsusiyyətləri var:

a) Əsas felə -a/-ə şəkilçisi artırılandan sonra «bilmək» feli əlavə edilir: danışa bilirəm, gedə bilərsiniz.

b) Quruluşuna görə bacarıq forması mürəkkəb fel hesab edilir.

c) İnkarlıq, zaman və şəxs şəkilçiləri birinci tərəfə deyil, ikinci tərəfə - yəni «bilmək» felinə artırılır: deyə bilərəm, deyə bilməyəcəyəm.

ç) Bacarıq forması əmr (yaza bilsin), xəbər (yaza bilirəm), arzu (kaş yaza biləm), vacib (yaza bilməliyəm), şərt (əgər yaza bilsəm) şəkillərində işlənir.

| **Şəxs** | **Fel** | **Şəkilçi** | **Fel** | **Zaman** | **Şəxs sonluğu** | **Nümunə** |
|---|---|---|---|---|---|---|
| mən | yaz | -a\ə(ya/yə) | bil | -ir | -əm | yaza bilirəm |
| sən | gör | -ə | bil | -di | -n | görə bildin |
| O | oxu | -ya | bil | -ir | - | oxuya bilir |
| biz | de | -a- | bil | -əcək | -ık | deyə biləcəyik |
| siz | bax | -a | bil | -ər | -siniz | baxa bilərsiniz |
| onlar | soruş | -a | bil | -di | -lər | soruşa bildilər |

***Tapşırıq 469.*** Felləri lazım olan formada yazın.

1. Sən rəqs et..... bilirsən?
2. O, yemək bişir .......... bilir?
3. Onlar üz...... bilirlər?
4. Mən nə et..... bilərəm?
5. Sizinlə danış...... bilərəm?

***Tapşırıq 470.*** "bilmək" felini lazım olan zamanlarda işlədib, tamamlayın.

1. Mənim beş yaşım olanda mən oxuya ................................

2. Bacımın altı yaşı olanda ingiliscə danışa ............................(-)
3. Rənanın dörd yaşı olanda yaza.........................................(-)
4. Sənin bacının yeddi yaşı olanda üzə ................................
5. Əlinin yeddi yaşı olanda kompyuterdən istifadə edə......................
6. Mənim doqquz yaşım olanda yemək bişirə.................................. (-)

***Tapşırıq 471***. Bilmək feilini lazım olan zamanlarda işlədib, cümlələri tamamlayın.

1. Sənə nə olub, bir problemin var? Mən sənə kömək edə bil............ ?
2. Onu görmək üçün mən nə vaxt gələ bil............ ?
3. Sizin köməyinizə ehtiyacım var. Mən sizdən bir şey soruşa bil............ ?
4. Bu kitab mənə də lazımdır. Siz kitabı nə vaxt qaytara bil............ ?
5. Mən bilirəm ki, siz azərbaycanca danışa bil............ .
6. Onlar zəng etdilər və dedilər ki, sabah bizimlə görüşə bil......... .
7. Mənim çox az vaxtım var. Siz bu mətni 1 saat ərzində tərcümə edə bil......... ?
8. Çox heyf ki, mən dünən sizinlə operaya gedə bil ...............
9. Təəssüf ki, siz onunla tanış ola bil ..........(-)
10. Bütün gün bu sözləri təkrar edirəm, amma yenə də yadımda saxlaya bil........
11. Afərin, sizə! 3 saata hər şeyi hazırlaya bil ........... .
12. Mən onun sualını başa düşdüm, amma cavab verə bil....
13. Mən haradan suvenir ala bil............... ?
14. Çox üzr istəyirəm. Həyəcandan vaxtında təşəkkür edə bil........ .
15. San çox xoşbəxtsən, çünki öz sevimli işinlə məşğul ola bil......... .
16. Saçı tez-tez rəngləmək orqanizmdə ciddi problemlər yarada bil.......... .
17. Siz burada həm alış-veriş edə bil .......... , həm də maraqlı gəzinti də həyata keçirə........

***Tapşırıq 472*** .“bilmək” felindən istifadə edib, cümlələri tamamlayın.

1. Sən azərbaycanca .......................................................
2. O, fransızca.............................................................
3. Mənim suallarıma kim ............................................
4. Mən belə bir kitabdan haradan.....................................
5. Sizə bir neçə sual.......................... ........... .............
6. Otaqdan ...................................................................
7. Sənin anan hansı dillərdə ..............................................
8. Mən pəncərəni.................................................................
9. Sən saat doqquzda burda..................................................
10. Siz mənə ........................................................................

**2. Maraqlı məlumatlar. “Bilirsinizmi?”**

**Bunları bilməlisiniz.**

**Danışma bacarığı**

Danışma - bildiklərimizi, düşündiiklərimizi və hisslərimizi başqalarına çatdırmağın yollarından ibarətdir.

Gündəlik ünsiyyət zamanı biz salamlaşırıq, sağollaşırıq, təşəkkür edirik, təbrik edirik... Bu zaman bir sıra ifadələr var ki, onlardan yerində istifadə etməyi bacarmalıyıq. Bu ifadələrə nitq etiketləri deyilir.

Bəzən isə dərslərdə və ya tədbirlərdə müəyyən mövzuda məruzə edirik və ya müzakirələrdə çıxış edirik. Mövzu ilə bağlı danışmaq üçün öncədən hazırlaşmalıyıq.

Müəyyən qaydalar var ki, danışarkən onlara əməl etməliyik.

1. Dinləyənlərin rahat eşidə biləcəyi səslə danışmalıyıq.
2. Sözləri yerli-yerində, öz mənasına uyğun işlətməliyik.
3. Dinləyənlərin gözlərinə baxmalıyıq.
4. Yeri gəldikcə mimika və jestlərdən istifadə etməli, lakin lazımsız hərəkətlərə yol verməməliyik.
5. Hisslərimizi daha yaxşı anlatmaq üçün səs tonumuzdan düzgün istifadə etməliyik.
6. Müəyyən bır mövzuda danışarkən həmin mövzudan kənara çıxmamalıyıq.
7. Danışığımızda «adı nədir...», «şey...» kimi yersiz sözlərə yol verməməliyik.

***Tapşırıq 473.*** Oxuyun.

*Bilirsinizmi?*

1. Zürafələr üzə bilmir.
2. Qarışqalar yata bilmir.
3. Atlar 1 aya qədər ayaq üstə dayana bilirlər.
4. Kenqurular geriyə doğru gəzə bilmirlər.
5. Ayılar da atlar qədər sürətlə qaça bilir.
6. Dəvə 1 dəfəyə 250 litr su içə bilir.
7. Bir ilan 3 il yata bilir.
8. Qarışqa 2 həftə su altında yaşaya bilir.
9. Timsahlar dillərini bayıra çıxara bilmirlər.
10. Bir köstəbək bir gecədə 90 m. tunel qaza bilir.
11. Qarışqa öz ağırlığının 50 qatını daşıya bilir.
12. Siçan bir dəvədən daha çox susuz qala bilir.
13. Pişiklər şəkər dadını ayırd edə bilmirlər.
14. İlanlar eşidə bilmirlər.
15. Donuzlar başlarını yuxarı qaldıra bilmirlər.
16. Pişiklər ultrason səslərini eşidə bilirlər.
17. İlbizlər 3 il yata bilirlər.

***Tapşırıq 474.*** Suallara cavab verin.

1. Şahmat oynaya bilirsiniz? ..................................................................
2. Şəkil çəkə bilirsiniz? ......................................................................
3. Rəqs edə bilirsiniz? ........................................................................
4. Hansı dillərdə danışa bilirsiniz? ............................................................
5. İnsanları güldürə bilirsiniz? ..................................................................
6. Uşaqlarla oynaya bilirsiniz? ..................................................................
7. Maşın sürə bilirsiniz? .......................................................................
8. Çox pul qazana bilirsiniz? ....................................................................
9. Piano çala bilirsiniz? ........................................................................
10. Maşın təmır edə bilirsiniz? ..................................................................
11. Hekayə yaza bilirsiniz? .......................................................................
12. Mahnı oxuya bilirsiniz? ......................................................................

**3. Slayd izləmək. "Neft daşları".**

**4. "Neft daşları" mətni ifadə şəklində yazmaq.**

### Neft daşları

Neft daşlarına dünyanın 8-ci möcüzəsi də deyilir. Bütün dünyada bu cür şəhər – platforması mövcud deyil. Təməli 1947-ci ildə qoyulub. Neft daşları Xəzər dənizində Qara qayaların ətrafında tikilmişdir. Burada 2000-dən çox quyu qazılıb. Neft daşları ilk platforma kimi "Ginesin rekordlar kitabına" daxil olub. İlk dəfə burada neftçilərin yaşayışı, qazma işlərinin aparılması üçün istismardan çıxarılmış 7 gəmi batırılaraq onlar üçün şərait yaradılıb. O zamanlar Neft daşlarını "Yeddi gəmi adası" adı ilə adlandırmışdılar.

Bu gün Neft daşları 4000-ə yaxın insanın iş yeridir.

***Tapşırıq 475.*** İfadəli oxu.

### Neftçiyik biz

"Neft çıxarmaq bəxt yazımız,
Başa tacdı, neft, qazımız,
Yaxınlaşır bayramımız,
Çətin, məsul var peşəmiz.
Şan, şöhrətli, neftçiyik biz!

Asan deyil əsla peşə,
Neftçi dözər tək bu işə,
Duyar onu vuran dişə,
Danılmazdı zəmanəmiz.
Şan, şöhrətli nefçiyik biz!

Neft dünyanın köhlən atı,

Dörd nal çapar kainatı,
Payızdadı toy, büsatı,
Sevinc yayır, şən çöhrəmiz.
Şan, şöhrətli, neftçiyik biz!

Cənnət olub bu gün dörd yan,
Fəxrimizdir Bakı-Ceyhan,
Məğrur dayan Azərbaycan!
Qoynunda bol sərvətimiz.
Şan, şöhrətli, neftçiyik biz!”

**5. Dialoq.**

| | | |
|---|---|---|
| **Həsən:** Bu gün hava necədir? | Какая погода сегодня? | How is the weather today? |
| **Nəzakət:** Bu gün hava yaxşıdır. | Сегодня погода хорошая. | The weather is nice today. |
| **Həsən:** Bu gün havanın hərarəti necədir? | Какая температура сегодня? | What is the temperature today. |
| **Nəzakət:** On səkkiz dərəcə istidir. | Восемнадцать градусов тепла. | It is eighteen degrees. |
| **Həsən:** Sabah hava necə olacaq? | Как будет погода завтра? | How will the weather be tomorrow? |
| **Nəzakət:** Günəşli olacaq. | Будет солнечно. | It will be sunny tomorrow. |
| **Həsən:** Dünən hava necə idi? | Как была погода вчера? | How was the weather yesterday. |
| **Nəzakət:** Soyuq idi. | Было холодно. | It was cold. |

## 40-cı dərs

1. Sifətin dərəcələri.
2. Tapmacalar.
3. Yoxlayıcı tapşırıqlar.
4. C.Cabbarlı "Tellər oynadı"şeiri.
5. Mətn. S.Vurğunun "Vaqif" dramı (Qacarla Vaqifın deyişməsi).

### <u>1.Sifətin dərəcələri.</u>

***Qeyd:*** *Əlamət və keyfiyyətin dərəcəsini bildirmək üçün sifətin düşdüyü şəkillərə sifətin dərəcələri deyilir. Sifətin 3 dərəcəsi vardır: adi, azaltma, çoxaltma.*

| | |
|---|---|
| Adi dərəcə → | ağ, göy, qara, şirin |
| Azaltma dərəcəsi və şəkilçiləri -ımtıl, -imtil, -umtul,-ümtül,-sov,-raq, -rək,-ımtıraq → | ağımtıl, göyümtül, ağımtıraq, göyümsov, uzunsov, gödərək, bozumtul, arıqraq, bozumsov |
| Çoxaltma dərəcəsi sifətin ilk hecasının samiti **m, p, r, s** samitlərindən biri ilə əvəz edilir və eyni sifətin əvvəlinə artırılır. → | qı –p =qıp +qırmızı<br>gö+m = göm+göy =gömgöy<br>tə +r = tər +təmiz = tərtəmiz<br>ma+s = mas+mavi=masmavi və s. |

*Sifətin əvvəlinə <u>daha</u>, <u>ən</u>, <u>lap</u>, <u>çox</u> ədatlarını, <u>tünd</u> sözü və <u>düm</u> hissəciyini artırmaqla əlamətin çoxluğunu bildirmək olur. Məs., ən gözəl, lap yaxşı, tünd yaşıl, dümağ və s.*

***Tapşırıq 476.*** Verilmiş atalar sözlərindən sifətləri seçib cümlədə işlədin.

Abad məclis aşığından bəllidir.
Ac adam özünü oda vurar.
Dostsuz insan qanadsız quş kimidir.
Dadlı söz – can arzusu, dadsız söz – baş ağrısı.
Acı sözdən öz dilini dişlərsən.
Sözün zahiri zərif, batini lətif olmalıdır.
Şirin dil ilanı yuvasından çıxarır.

Papaqçının papağı yırtıq olar.

***Tapşırıq 477.*** *-ımtıl, -imtil, -umtul, -ümtül* şəkilçilərinin köməyi ilə düzəltmə sifətlər yazıb cümlədə işlədin.

***Tapşırıq 478***. Buraxılmış nöqtələrin yerinə aşağıdakı sifətləri əlavə edin.

Şaxtalı, qırmızı, dahi, maraqlı, xoş, kobud, yaxşı, geniş, böyük, mavi.

1. Bu … küçədir. 2. Onun yazdığı məktub Aydına … təsir etdi. 3. Üzeyir Hacıbəyli … bəstəkardır. 4. Mehdi … kitab yazdı. 5. Otağın … pəncərələri var. 6.Əhədin … maşını var idi. 7. Sizə …xəbərim var. 8. Fikrət polisə qarşı … hərəkət etdi. 9. Bu gün … hava idi. 10. Onun … gözləri var.

***Tapşırıq 479.*** Aşağıdakı cümlələrdəki sifətlərin hansı dərəcəyə aid olduğunu müəyyən edin.

1. Balaca uşaq anasına yaxınlaşdı. 2. Süfrəyə körpəcə xiyarlar qoyulmuşdu. 3.Göy paltardan xoşum gəlir. 4. Çalışqan insan öz zəhmətinin bəhrəsini görür. 5.Babam gümrah idi. 6. Sənubər ucaboy, qarayanız, gözəl bir qızdır. 7. Onun yorğun üzü var. 8. Məzarın üstündə tər çiçəklər var idi. 9. Oğlanın yaşılımtıl gözləri uzunsov sifətinə çox yaraşırdı. 10. Fərhad qapqara əllərini ağ süfrəyə vurub çirklətdi.

## 2. Tapmacalar.

Tapmaca — uşaqların zehni inkişafında mühüm rol oynayan folklor nümunəsidir. Tapmaca uzun inkişaf yolu keçmiş, xalqın həyat və məişətinin mühüm sahələrində istifadə olunmuşdur. Tapmacaların əksəriyyəti sual şəklində qurulur.

O nədir ki, yemişdim,
Yeməsəydim ölmüşdüm.
Daha indi yemirəm.
Yemirəm də ölmürəm.

***

Bir meyvəm var al olur,
Yetişir, xal-xal olur.
Yeyirsən turşməzədir,
Qaynadırsan, bal olur.

Yatanda yumru yatar,
Ətin dərmantək satar.
Hər kəs istəsə tutsun,
Tikanı əlinə batar.

***

Ağaca çıxır adamla,
Bir nəlbəki badamla,
Nə dili var, nə ağzı
Hey danışar adamla

***Tapşırıq 480.*** Öz xalqımıza aid tapmacaları Azərbaycan dilinə çevirib sinifdə deyin.

***Tapşırıq 481.*** İfadə yazı.

### 31 dekabr – dünya azərbaycanlılarının həmrəylik günüdür

"Hər il dekabr ayının son gününün Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması taleyin gərdişi üzündən dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın tarixi Vətənlə – müstəqil Azərbaycanla əlaqələrinin möhkəmlənməsinə, həmçinin onların bir-birləri ilə sıx ünsiyyət qurmalarına, milli-mənəvi dəyərlərimizin, ənənələrimizin qorunub saxlanılmasına xidmət edir.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dekabrın 31-də qeyd olunması təsadüfi deyildir. Ötən əsrin 80-ci illərinin axırlarında keçmiş ittifaq məkanında gedən proseslər Azərbaycanda milli oyanış hərəkatının geniş vüsət almasına gətirib çıxartdı. 1989-cu ilin soyuq, şaxtalı qış günündə minlərlə soydaşımız tarixin ədalətsiz hökmünə – təxminən 200 il bundan əvvəl bağlanmış Türkmənçay və Gülüstan müqavilələrinin şərtlərinə etiraz əlaməti olaraq Araz çayının sahilinə toplaşdılar, doğma Azərbaycanı ikiyə bölən tikanlı məftilləri dağıtdılar. Beləliklə, 31 dekabr Azərbaycanın tarixinə Milli Həmrəylik Günü kimi daxil oldu.

Bu tarixin rəsmiləşdirilməsi isə ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 2001-ci il noyabr ayının 9-10-da Bakıda dünya azərbaycanlılarının 1 qurultayı keçirildi. Qurultay dünya azərbaycanlılarının birləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində mühüm hadisəyə çevrildi. Tədbirdə 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən artıq təşkilatın 406 nümayəndəsi və 63 qonaq iştirak edirdi. Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından sonra dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində daha məqsədyönlü iş aparılır" .

**Mənbə:** M.Abdullayev

## 3. Yoxlayıcı tapşırıqlar.

***Tapşırıq 482.*** Dialoqun cümlələrini düzgün sıralayın.

Mən hər yerə maşınla gedirəm. Bu, çox rahatdır. □
Bağışlayın, suallarımıza cavab verə bilərsinizmi? □
Deməli, avtobusdan istifadə etməyi xoşlamırsınız. □
Siz adətən, hansı nəqliyyat növündən istifadə edirsiniz? □
Bəli, əlbəttə. □
Doğrusu, yox. O, yavaş gedir və həmişə dolu olur. □

***Tapşırıq 483.*** Düzgün sözləri dairəyə alın.

1. Bankın yanından / içindən keç və sağa dön.
2. Bax! O maşın bizə ətrafında / tərəf gəlir.
3. Uşaq geyimləri üçün eskalatorla yuxarı / içəri qalxın.
4. Dünən mən evdən şəhər mərkəzinə qədər / aşağı piyada getdim.

***Tapşırıq 484.*** Oxuyun və verilmiş sifətləri üstünlük dərəcəsində işlədin.
*tənbəl qədim gənc yaşlı/qoca isti baha soyuq çox*

1. Yer kürəsinin ...................yeri Afrikadakı Əl-Əzizə bölgəsidir. 13 sentyabr 1922-ci ildə burada temperatur 57,8° C olmuşdur.
2. Allan Stüart 1915-ci ildə anadan olmuş, 7 oktyabr 2006-cı ildə vəfat etmişdir. O, dünyanın .........................adamıdır.
3. Aktrisa Şirli Templ beş yaşında Oskar mükafatım almışdır. O, dünyada ..................Oskar mükafatçısıdır.
4. Dünyada ..................çəkmə 14.000 dollardır.
5. Dünyada ..................heyvan koaladır. O, gündə 22 saat yatır.
6. Uşaqlar ......................yaz fəslində boy atırlar.
7. Yer kürəsinin .......................yeri Antarktikadakı “Vostok” (Rusiya) bölgəsidir (-88,3 dərəcə).
8. Dünyanın .....................universiteti 989-cu ildə açılmış Əl-Əzhər Universitetidir.

1. kiçik / ölkə / dünya
*Məncə,........................dünyada ən kiçik ölkədir.*
2. sürətli / heyvan / dünya
..........................................................................................................................
3. hündür / şəxs / dünya
.........................................................................................................................
4. böyük / ölkə / dünya
..........................................................................................................................
5. ağır / heyvan / dünya
..............................................................................................................................
**Cavablar**: *Robert Perşinq, mavi balina, Vatikan, Rusiya, gepard.*

***Tapşırıq 485.*** Üstünlük dərəcəsindən istifadə edib, cümlələri nümunədəki kimi yazın. Sonra cavablarınızı yoxlayın.

***Tapşırıq 486.*** Özünüzlə dostlardan və ya ailə üzvlərindən birini müqayisə etmək üçün bir neçə cümlə yazın. Verilmiş sifətlərdən istifadə edin.

*uca, qısa, gözəl, arıq, uzun, yaraşıqlı, gənc, qoca, buruq, düz, dalğalı*
..............................................................................................................................
..............................................................................................................................
..............................................................................................................................
..............................................................................................................................
..............................................................................................................................
..............................................................................................................................

**4. Şeiri oxumaq. C.Cabbarlı "Tellər oynadı".**

"Bir mən idim, bir sən idin, bir də yamaclar…
Meşə yolu, yarpaq dolu yaşıl ağaclar.
Onda ki, ağ umuzlara töküldü saçlar,
Əsdi yarpaq, coşdu irmaq, güllər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı.

Bir biz idik, bir düz idi, bir də al boya…
Dağ başında ucan quşlar endilər çaya.
Sən dedin ki: "Bütün dünya qoy dönsün toya!"
Çaldı qaval, uzaq kənddə ellər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı".

Bu şeirə mahnı bəstələnib, onu dinləmək tövsiyə olunur.

**Mənbə:** C.Cabbarlı. Əsərləri, I cild, Bakı: "Şərq-Qərb" nəşriyyatı, s.75-76

**5.Mətn. S.Vurğunun "Vaqif" dramı (Qacarla Vaqifın deyişməsi).**

"**Qacar** ─ Aha, baş əyməyir hüzurumda bu.
**Vəzir** ─ Yoxdur vicdanında qanun qorxusu.
**Qacar** ─ Şair. hökmdarın hüzurdasan.
**Vaqif** ─ Bunu sizsiz belə düşünürəm mən.
**Qacar** ─ Bəs, baş əymədiniz.
**Vaqif** ─ Əymədim, bəli.
Əyilməz vicdanın böyük heykəli.
**Qacar** ─ Qılınclar toqquşub qan tökən zaman.
Neylər dediyiniz quru bir vicdan.
**Vaqif** ─ Vicdan dedikləri bir həqiqətdir.
Beşiyi, məzarı əbədiyyətdir.
**Qacar** ─ Bəs, zindan necədir? Qaranlıq zindan
**Vaqif** ─ Soyuq məzara da zinətdir insan.
**Qacar** ─ Yenə göylərdədir şair xəyalın?
**Vaqif** ─ Əzəldən hüdudu yoxdur kamalın.
**Qacar** ─ Aha... sınayırdım idrakınızı,
Doğurdan bir şair görürəm sizi,
Xoşbəxt xəlq eyləmiş sizi yaradan!
**Vaqif** ─ Dünyada qalacaq yalnız yaradan...
─ Çox gözəl, çox gözəl, inanın ki, mən
Sizin ruhunuzu sevdim ürəkdən.
Bu dövlət, bu cəlal, bu şanlı saray
Göylərin busatı o ulduz, o ay
Sizə tapşırılsın bu gündən gərək,

Ancaq bir şərtim var.
**Vaqif —** Buyurun görək!
**Qacar —** Gərək fars dilində yazsın sənətkar.
**Vaqif —** Farsın öz qüdrətli şairləri var,
Nə çoxdur onlarda böyük sənətkar.
Bizim bu dağların oğluyam mən də,
Az-az uydururam yeri gələndə.
**Qacar —** Yaxşı, gəl əl götür bu inadından.
Bu qədər naşükür olmasın insan!
**Vaqif —** Aldada bilməmiş dünyanın varı
Bir məslək eşqiylə yaradanları!
Mən ellər bağında azad bir quşam,
Mənsəbə, şöhrətə satılmamışam".

**Mənbə:** S.Vurğun. Seçilmiş əsərləri.
"Vaqif" dramından bir hissə. Bakı:
"Şərq-Qərb" nəşriyyatı, 2005, s.7-135

***Tapşırıq 487.*** Mətnə dair suallara cavab yazıb danışmaq.

**Dialoq.**

| | | |
|---|---|---|
| **Sona:** İstəyirəm bu gün bazarlıq edim. | Я хочу сегодня найти за покупками. | I want to go shopping today. |
| **Rəhim:** Haraya gedəcək-siniz? | Куда вы пойдете. | Where will you go? |
| **Sona:** Mən paltar mağazasına gedəcəyəm. | Я пойди магазин одежды. | I will go to a clothing store. |
| **Rəhim:** Oradan nə alacaqsınız? | Что вы будете оттуда покупать. | What will you buy there? |
| **Sona:** İstəyirəm təzə köy-nək alım. | Хочу купить новую рубашку. | I would like to buy a new shirt. |
| Rəhim: Yaxşı gedək. | Ну, давайте пойдет. | Going well. |
| **Sona:** Çox təşəkkür edir-əm. | Большое спасибо. | Thank you very much. |

## 41-ci dərs

1. Tərzi-hərəkət və zaman zərfləri.
2. İfadə “Burla Xatun” dastanı.
3. Hikmət Ziya “Qarabağ” şeiri.
4. Mətn. Azərbaycan Respublikasının Konstitusiyası.
5. Dialoq.

### 1. Tərzi-hərəkət və zaman zərfləri.

**Qeyd:** *Tərzi-hərəkət zərfi hərəkətin icra tərzini bildirir, necə? və nə cür? suallarına cavab verir. Məs.,Əkinçilər sahələri təmizləməyə yaxşı hazırlaşmışlar. Qapı yavaş-yavaş bağlandı.*

***Tapşırıq 488.*** Nəsihətləri oxuyun, mətndəki zərfləri müəyyən edib yeni cümlədə işlədib yazın.

Ey fikri, dili və əməli yaxşı olmayan! Əmin ol ki, elədiyin hər bir yamanlıq özünə qayıdacaq.

Yalan axırda dünyanı kor qoya bilər. Çalışın öz düzlüyünüzlə bu dünyanı abad eləyin.

Doğru düşünüb danışanlara qulaq asın. Onlar həyatın mənəvi həkimləridir.

Doğrucul adamlar əyrilərdən gözəl yaşamalıdır. Belə olmasa, əyrilik düzlüyü məhv edər.

Pis fikirli adam günəşin də adını pisliyə çəkər.

***Zərdüşt***

***Tapşırıq 489.*** Tərzi-hərəkət zərflərini cümlələrdə işlədin.

Üzbəüz, tez-tez, yanaşı, dinməzcə, inamla, dərhal, qəflətən, sürətlə, ucadan, yavaş-yavaş.

***Tapşırıq 490.*** Aşağıdakı tərzi-hərəkət zərflərinə uyğun gələn feilləri yazıb yanaşı işlədin. Cümlə qurun.

Ürəkdən, dərindən, bərkdən, yanaşı, qəfildən, birdən.

*Nümunə:*

| | | |
|---|---|---|
| getmək ← | | O durub qəfildən getdi. |
| oxumaq ← | | Aydın qəfildən oxumağa başladı. |
| qışqırmaq ← | qəfildən | Mənzər qəfildən qışqırdı. |
| danışmaq ← | | Diktor qəfildən danışdı. |

***Tapşırıq 491.*** Aşağıdakı cümlələrdəki zərflərdən biri tərzi-hərəkət zərfi deyil. Onu tapın

1. Qoca həyəcanla danışırdı. 2. Qoca vüqarla dayanmışdı. 3. Qoca ağacla yeriyirdi. 4. Qoca təəccüblə baxırdı. 5. Qoca kədərlə gülümsədi. 6. Qoca yavaş-yavaş getdi.

***Tapşırıq 492.*** Suallara cavab yazın. Zaman zərflərini göstərin.

1. Sən idmanı nə zaman edirsən? 2. Qatar nə vaxt yola düşür? 3. Onlar nə vaxt gəzməyə çıxır? 4. Kitabxanaya nə zaman gedirsiz? 5. Kinoteatra nə vaxt gedək? 6. Avtobuslar nə vaxt işləyir? 7. İmtahanlarınız nə vaxt bitir? 8. Biz səninlə haçan və harada görüşək?

***Qeyd**: Zaman zərfi hərəkətin nə zaman icra olunduğunu bildirir, nə zaman? nə vaxt? haçan? suallarına cavab verir. Məs., İstirahət mərkəzinə sabah gedəcəyik.*

***Tapşırıq 493.*** Aşağıdakı cümlələrə sual verib zaman zərflərini müəyyən edin.

1. Evə axşam çatdıq. 2. Bu barədə səninlə sonra danışarıq. 3. Dünəndən hava soyuyub. 4. Bayaq dostumla görüşdüm. 5. Qışda qar yağır. 6. Yayda məhsul bol olur. 7. Dərsə sabah gedirsən? 8. İndi qeyrət zamanıdır. 9. Sabah çıxışım var. 10. Bu işin yaxşı qurtarmayacağını əvvəldən sənə demişdim.

***Tapşırıq 494.*** Zaman zərflərini cümlələrdə işlədin.

Dərhal, əvvəl, sonra, çoxdan, tez-gec, indicə, həmişə, sabah, dünən, indi, səhər, tezdən.

***Tapşırıq 495.*** Aşağıdakı cümlələrdən zaman zərfinə aid olmayanı göstərin.

1. Bu gülləri indicə dəriblər. 2. Qonaq yenicə kənddən gəlibdir. 3. Uçaq təzəcə dil açırdı. 4. Yuvada körpəcə quşlar civildəşirdi. 5. Konsertdə əvvəlcə tələbələr çıxış edəcəklər.

***Tapşırıq 496.*** Aşağıdakı cümlələrdə "gün" və "çox" sözlərinin hansı nitq hissəsinə aid olduğunu müəyyən edin.

1. Gündə durma, kölgəyə keç. 2. Gündə bizə bir söz deyir. 3. Səhər tezdən gün çıxdı. 4. Çoxdan çox pay düşər, azdan az. 5. Çoxdan səni buralarda görmürəm. 6. İclasda çox adam vardı. 7. Sən niyə məni gündə zəng vurub narahat edirsən? 8.Səhər tezdən çox qar yağmışdı. 9. Bu il çox məhsul yığıldı. 10. Avtobusu çox gözləmədik.

## 2. İfadə. “Burla Xatunun dastanı”.

“Bir gün Salur Qazan böyük qonaqlıq düzəltmişdi. Yenicə on beş yaşma girmiş oğlu Uruz məclisdə idi.

Qazan oğlu Uruzu da götürüb ova çıxdı. Düşmənin casusu bunu bilib Məliyə xəbər verdi. Məlik on altı min atlı ilə hücuma keçdi.

Salur Qazan düşmən qoşununu görüb, qızmış aslan kimi meydana atıldı. Döyüşdə basılıb qaçan düşmənlərdən biri qəfil dönüb Uruzu nişan aldı, onun atını oxla vurdu. Uruz atdan yıxıldı. Düşmənlər onu dövrəyə aldılar. Düşmən sel kimi axıb gəldi, Uruzu tutdular. Uruzun qırx igid dostu bu döyüşdə şəhid oldu.

Oğlunun tutulmasından Qazanın xəbəri yox idi. Elə bildi ki, Uruz evə gedib. O, atını mahmızladı, evə tərəf yola düzəldi.

Burla xatun gələnlərin içərisində oğlu Uruzu görməyib qəhərləndi. Oğlunun evə gəlmədiyini görən Salur Qazan geri döndü. Düşmənlərin izinə düşüb onlara çatdı. Qazan düşmən ordusuna hücum çəkdi, qılınc çaldı. Xeyli düşməni məhv elədi. Qəfildən gözünə qılınc toxundu. Qan gözünü torladı. O, atdan yıxıldı.

Burla xatun Qazan xan gedəndən sonra qırx incə-belli qızla silahlanıb yola düşdü. O, özünü onda yetirdi ki, Qazan atdan yera yıxılmışdır. Burla xatun qılıncını sıyırıb düşmən səflərini dağıtdı. Bu vaxt Oğuz igidləri də özlərini yetirdilər. Burla xatun neçə-neçə düşməni qılınclayıb atından yerə saldı. Düşmən basıldı.

Qazan xan ilə Burla xatun oğulları Uruzun yanına gəldi. Ata ilə oğul qucaqlaşdı. Anası Uruzu bağrına basdı.

Yeddi gün, yeddi gecə el şənlik elədi” .

**Mənbə:** “Dədə- Qorqud” eposundan

## 3. Hikmət Ziya “Qarabağ” şeiri.

“Xarı bağıdır dünyanın
Hər bağın, hər aranın,
Nəğməkar və şairlər
Binəsidir Qarabağ.

Bizim elin, obanın
Üzeyir tək babanın
Bülbülün, Natavanın,
Nəğməsidir Qarabağ.

Şuşanın seyrinə gəl,
Cıdır düzündə dincəl,
Azərbaycanın gözəl,
Guşəsidir Qarabağ”.



***Tapşırıq 497***. Antonimlərə aid krossvord.

Verilmiş sözlərin antonimini tapın, yerlərinə yazın.



<u>I. Soldan sağa:</u>

1. Bürkü, isti
2. Boş
3. Getmək
4. Böyük
5. Təzə
6. Aşağı
7. Oturmaq
8. Quru
9. Fani, müvəqqəti
10. Geniş
11. Geri

<u>II. Yuxarıdan aşağıya:</u>

12. Sevinc
13. Alçaq
3. Ağlamaq
14. Balaca, xırda
15. Sağ
16. bağla
17. Asan
18. Arıq
6. Yaxşı
19. Həqiqi, orijinal
7. Dayaz
20. Sonra
21. Ağ
22. Ölü
23. Qabaq, qənşər

**<u>4.Mətn.</u>**

**Azərbaycan Respublikasının Konstitusiyası**




Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır.
Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. Azərbaycanın yeni Konstitusiyası 5 böl-

mədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

2009-cu il martın 18-də keçirilən referendumda isə Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur. Ölkəmizdə 12 noyabr Azərbaycan Respublikasının Konstitusiyası günü kimi qeyd olunur.

**Mənbə:** Daxili baza, Yenilənib 05.04.2021, yaradılıb 24.012018

**Mətnə aid suallar:**

1.Azərbaycanın ilk Konstitusiyası neçənci ildə olub?
2. Azərbaycanın yeni Konstitusiyası neçə bölmədən, fəsil və maddədən ibarətdir.
3. Konstitusiyaya əlavə dəyişikliklər neçənci ildə olub?
4. Azərbaycanda 12 noyabr hansı gün kimi qeyd olunur?

## 5. Dialoq.

| Göz həkiminin qəbulunda | На приеме у окулиста | At the oculist's |
|---|---|---|
| Gülər xanım son zamanlar çox işləyirdi. Gecə-gündüz oxuyurdu. Gah kitab yazır, gah məqalələr çapa verir. O, elmi işlə ciddi məşğul olur. Bir gün yenə həmişəki kimi Gülər xanım kitabxanaya gedir. Elə yenicə oxumağa başlamışdı ki, gözünü ovuşdurmağa başladı. Bir neçə dəqiqə gözlədi. Hərflər gözləri önündən qaçırdı. O, tez kitabı örtdü. Kitabxanadan birbaşa poliklinikaya getdi. Göz həkimi Gülər xanımı diqqətlə dinləyərək müayinəyə başladı. O, Gülər xanıma suallar verməyə başladı. | Последнее время Гюляр ханум работала много. Читала днем и ночью. То книгу пишет, то готовит к печати статьи. Она серьезно занимается научной работой. Однажды по-прежнему Гюляр ханум опять идет в библиотеку. Только начала читать, как увидела, что перед глазами темнеет, кружится голова. Она начала руками тереть глаза. Несколько минут подождала. Буквы разбегались перед глазами. Она быстро закрыла книгу. Из библиотеки сразу направилась в поликлинику. Внимательно выслушав Гюляр ханум, окулист стал ее обследовать. Он | Gular khanum was working very much. Recently she was reading day and night. Sometimes she was writing or she was preparing her articles for publication. She was seriously engaged in her research. One day she went to the Library as always. As soon as she began reading she noticed that her right was diming and felt giddiness. She began rubbing her eyes and waited for some minutes. Letters were scattering in front of her eyes. She immediately closed the book and went to the policlinic right from the library. The oculist began to examine her after he listened to her. He began asking her |

| | | |
|---|---|---|
| | стал задавать Гюляр ханум вопросы. | questions. |
| Həkim: Gözlük taxırsınızmı? | Врач: Носите ли вы очки? | Doctor: do you wear glasses? |
| Gülər xanım: Yox, taxmıram. | Гюляр ханым: Нет, не ношу. | Gular khanum: No, I don’t. |
| Həkim: Lütfən, bu hərfləri oxuyun. Görə bilirsinizmi? İndi bunları oxuyun. | Врач: Пожалуйста, прочтите эти буквы. Можете ли видеть? А теперь прочтите эти. | Doctor: Read these letters, please! Can you see them? And now read these ones. |
| Gülər xanım: Həkim, ikinci sıradan hərfləri aydın görə bilmirəm, hərflər gözümdən qaçır. | Гюляр ханым: Доктор, буквы на втором ряду я ясно не могу видеть. Буквы разбегаются перед глазами. | Gular khanum: Doctor, I’can’t see the letters in the second line clearly. They are scattering. |
| Həkim: Gözləriniz çox zəifləyib. Əvvəllər heç göz həkiminə müraciət etmişsiniz? | Врач: Ваше зрение очень ослаблено. Раньше вы обращались к окулисту? | Doctor: Your sight has dimmed very much. Have you ever been to oculist’s before? |
| Gülər xanım: Müraciət etmişəm. Mənə eynək taxmağı məsləhət görmüşdü. | Гюляр ханым: Обращалась. Мне посоветовал носить очки. | Gular khanum: Yes, I have.<br>He advised me to wear glasses. |
| Həkim: Bəs nə üçün eynək taxmırsınız? | Врач: Почему не носите? | Doctor: And why don’t you wear them? |
| Gülər xanım: Gözlük taxmağı heç xoşlamıram. Həm də adamı bir az yaşlı göstərir. | Гюляр ханым: Я совсем не люблю носить очки. Так же человек выглядеть взросло. | Gular khanum: I don’t like to wear glasses at all. You look older with them. |
| Həkim: -Vaxtında eynək taxsaydınız, indi gözləriniz qaralmaz, başınız hərlənməzdi. Məncə, sizin gözlərinizin də təzyiqi yüksəkdir. Lütfən, burada uzanın, | Врач: Если во-время носили бы очки, то сейчас в глазах не потемнело бы, и не зак-ружилась бы голова. По моему давление глаз у вас высокое. | Doctor: If you wore glasses, in time you shouldn’t feel giddiness and diming in the sight. I think you have a high eye pressure. Lie on your back, please, i will drop |

| | | |
|---|---|---|
| indi gözünüzə dərman damızdıracağam. Siz gözlərinizi açıq saxlayın, qırpmayın. Artıq qalxa bilərsiniz. | Пожалуйста, ложитесь здесь, сейчас я вам капну лекарство. Оставьте открытыми глаза, не моргайте. Уже можете встать. | medicine. Leave your eyes open. Don't blink. Now you can stand up. |
| Gülər xanım: Eynək əvəzinə optik linza taxa bilərəmmi? | Гюляр ханым: Могу ли вместо очков надеть оптические линзы? | Gular khanum: Doctor, may I wear optical lenses instead of glasses? |
| Həkim: Əlbəttə, mən sizə gözlük də yazaram. Gözlüyünüz olsa yaxşıdır. Amma bizdə optik linzalar da var. | Врач: Конечно. Я вам пропишу очки. Лучше иметь очки. Но у нас оптические линзы тоже имеются. | Doctor: Of course. I'll prescribe you glasses at any case. You'd better have them. But we also have optical lenses. |
| Gülər xanım: Çox sağ olun, həkim. | Гюляр ханым: Спасибо, доктор. | Gular khanum: Thank you very much doctor. |
| Həkim: Dəyməz. Gözlərinizi qoruyun. | Врач: Не стоит. Берегите глаза. | Doctor: You are welcome! Take care of your eyes. |

## 42-ci dərs

1. Qoşma.
2. Nida.
3. İfadə "Aslan və dovşan".
4. Mətn. Azərbaycan xalq çalğı alətlərinin təsnifatı.
5. Dialoq.

**1. Qoşma.**

***Qeyd:*** *İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çaları yaradan köməkçi nitq hissəsinə qoşma deyilir.*

*Digər köməkçi nitq hissələrindən fərqli olaraq qoşma qoşulduğu sözlə birlikdə cümlə üzvüdür. Məs., Arif ilə, şair haqqında, onun üçün, mənim qədər, evə tərəf, sənə görə, səndən sonra, ondan başqa və s.*

***Tapşırıq 498.*** Ötrü, sarı, savayı, cən, tərəf, doğru, görə, kimi qoşmalarını cümlələrdə işlədin və dəftərinizə yazın.

***Qeyd:*** *Bəzi qoşmalar sözlərlə birgə yazılır: can, cən, dək, tək*

***Tapşırıq 499.*** Cümlələri köçürün, mötərizədə verilmiş qoşmalardan uyğun gələnini nöqtələrin yerinə artırın (əvvəl, başqa, bəri, əsasən, öncə, sonra, qədər, tərəf, kimi, ilə)

1. O özünü böyük ... aparırdı. 2. Dərsdən … kitab mağazasına getdim. 3. İnsan izdihamı meydana … axışdı. 4. Nümayiş axşama … davam etdi. 5. Universiteti bitirdikdən … o, doktoranturaya qəbul oldu. 6. Biz gəmi … gəzintiyə getdik. 7. O, Əlidən …. işə gəlmişdi. 8. Qərara … onu işdən azad etdilər. 9. Dünəndən … hava istidir. 10. Cırtdandan … hamı yatmışdı.

***Tapşırıq 500.*** Köçürün, nöqtələrin yerinə hal şəkilçisini yazın. Qoşmaların altından xətt çəkin, bunların ismin hansı halı ilə işləndiyini izah edin.

1. Yola düşən ... qədər uşaqlar şəhəri gəzməyi qərara aldılar. 2. Böyük salonda bir müdir ... qeyri adam yox idi. 3. Bu gecə səhər ... cən yağış yağdı. 4. Axşam yağış yağdığı ... görə bu gün hava sərindir. 5. Yaxşı işlədiyi ... görə dostum mükafat aldı.

***Tapşırıq 501.*** Köçürün, mötərizədə verilmiş qoşmalardan uyğun gələnini nöqtələrin yerinə artırım.
*üçün, görə, -cən, ötrü, ilə, başqa, sonra*

1. Valideynlər hər zaman övladları ... çalışırlar. 2. Universiteti bitirdikdən ... o, kəndə işləməyə getdi. 3. Mən dostumu evə ... ötürdüm. 4. İlyas Əfəndiyev ədəbiyyatımızda daha çox dram əsərləri... tanınır. 5. O, əhvalatı dostuna danışmaq ... tələsirdi. 6. Əlinin anasından və nənəsindən ... heç kəsi yox idi. 7. İbrahim anasından ... darıxmışdı. 8. Əla oxuduğuna ... Səliməyə fərqlənmə diplomu verdilər.

***Tapşırıq 502.*** Verilmiş sinonim qoşmaların hər birini ayrıca bir cümlədə işlədin.

*Üçün, ötrü; qədər, kimi, dək; tərəf, doğru, san; tək, kimi.*

## 2. Nida.

***Qeyd:*** *Danışanın hiss və həyəcanını bildirən əsas nitq hissəsinə nida deyilir. Nidanın aşağıdakı məna növləri vardır:*

*1. Sevinc, heyranlıq bildirənlər: bəh-bəh, ay can-ay can, ura, of, paho və s.*

*2. Kədər, narahatlıq, qorxu bildirənlər: ay aman, ah, vay-vay, ox, uf, ay, dad aman və s.*

*3. Çağırış bildirənlər: ay, ya, hey, a və s.*

*4. Təəccüb bildirənlər: ah, vay, a, bıy və s.*

*5. Nifrət, ikrah bildirənlər: tfu, xa-xa-xa, xox, bah və s.*

*Nidalar cümlənin əvvəlində gəldikdə ondan sonra, ortada gəldikdə hər iki tərəfdən, axırda gəldikdə ondan əvvəl vergül qoyulur.*

*A, mən niyə bunu söylədim?!.*

*Bu gün, ah, nə gözəl hava var!*

*Yaz gəldi, bəh-bəh-bəh!*

***Tapşırıq 503.*** Şeksprin "Şıltaq qızın yumşalması" əsərindən verilmiş cümlələrdə nidanın hansı məna növünə aid olduğunu müəyyən edin.

1. Ay haray, ağam dəli olub! 2. Ay, aman, köməyə gəlin, məni öldürürlər! 3.Aha, budur gəldi Petruçço, nə durmusan başla. 4. Oh... Qumru quşu! 5. Ah, qapıda bir adam da yoxdur ki, üzəngidən tutsun, atın cilovunu əlimdən alsın!. 6.Qadınlara məxsus hərdəmxəyallıq, qadın məkri, qadın xəyanəti! 7. Ah, bir baxın öpüşə, lütfi nəvazişə! 8. Tfu, necə də sarılır ona, nifrət! 9. Ey, Biondella, mənə qulaq as! 10.İşə bax, ha! 11. Paho, başqasının adını mənimsəmək! 12. Ah, mənim oğlum, mənim oğlum! 13. Ey, Luçensio hardadır, söylə! 14. Of, yırtıcı canavar! 15.Vay, işimiz bitdi! Bax odur! 16.Ay Allah hələ ki, belə axmaqlığa çatmamı-şam!.17.Ox, bir tufan!

***Tapşırıq 504.*** Sevinc, heyranlıq bildirən *bəh-bəh, ay can-ay can, ura, paho* sözlərini cümlədə işlədin.

*Nümunə:* Can-ay can, biz sabah yola düşürük!

***Tapşırıq 505.*** Kədər, narahatlıq, qorxu bildirən nidalardan beş cümlə qurun.

***Tapşırıq 506.*** *Ey, ay, ya, hey, a* çağırış nidalarından cümlələr qurun.

*Nümunə:* Ay gözümün nuru, söylə, hardasan?

***Tapşırıq 507.*** Təəccüb bildirən nidalardan (*ah, vay, a, bıy*) cümlələr qurun.

*Nümunə:* Bıy, ömrüm-günüm, nə vaxt gəldin?

***Tapşırıq 508.*** *Tfu, xa-xa, xox bah* nifrət bildirən nidalardan cümlələr qurun.

*Nümunə:* Tfu, biabırçılıqdır!

***Tapşırıq 509.*** Cümlələri köçürün, nidaların altından xətt çəkin.

1. Paho, məgər dost deyilik? 2. Ah! Nə üçün dostluğa, sədaqətə xain çıxanlara cəza tədbiri yoxdur? 3. Of! Bilsən ürəyim necə darıxır?! 4. Oy, niyə belə ağırdır. 5. A kişi, nə belə gec gəldin? Yorulmadın ki? 6. Eh! Mən bu dağları, obaları gəzə-gəzə şair oldum. 7. Bıy, ömrüm-günüm, nə vaxt gəldin?

***Tapşırıq 510.*** Köçürün, ayrı yazılan nidaların altından bir xətt, defislə yazılan nidaların altından iki xətt çəkin.

1. Pəh-pəh! Necə də gözəldir? 2. Ay aman, Heydər bəy, bu iş də xatalı işə bənzəyir. 3. Ay-ay-ay, güllər əzildi. 4. Vay-vay! nə yaman müşkülə düşdü işim? 5. Ay haray, ay aman, kömək edin, dadıma çatın. 6. Vay-vay, su kəsildi ki!

***Tapşırıq 511.*** Oxuyun, nidaları göstərin.

1. Ah! Deyəsən düzülüblər...Əhsən! Əhsən! 2. Eh, kim olursa-olsun, bizi incitməsin. 3. A, nə yaxşı! Mənim də adım Sədəfdir. 4. Ay gözümün nuru, söylə, hardasan? 5. Oho ... lap vaxtında gəlmisiniz. 6. Of, nə qədər də çətindir!

## 3. İfadə "Aslan və dovşan".

"Bir aslan meşədəki heyvanlara olmazın zülmlər edib onları əsla rahat qoymurdu. Rast gələn çöl heyvanlarını tələf edib yeyirdi. Meşə heyvanları bunun əlindən təngə gəldikləri üçün bir gün bir yerə yığılıb bu barədə məsləhət etdilər. Məsləhətdən sonra aslanın yanma gedib dedilər:

– Sən bizim böyüyümüz və padşahımızsan! Halbuki hər gün çox zəhmət ilə bizdən şikar edib yeyirsən. Biz isə sənin qorxundan bayıra çıxa bilməyib ac qalırıq. Ona görə biz belə məsləhət etmişik ki, hər gün nahar vaxtı öz aramızdan bir heyvan ayırıb padşahımıza gətirək. Belə olan surətdə həm sənin zəhmətin az və

həm də biz rahat və asudə olarıq. Aslan buna razı oldu. Ondan sonra meşə heyvanları öz aralarında püşk atıb püşkə çıxan heyvanı padşahın hüzuruna aparırdılar.

Bir gün püşk bir dovşanın adına çıxdı. Dovşan öz yoldaşına dedi:

Əgər səbr edib məni öz halıma qoyarsınız, mən birdəfəlik sizi bu aslanın zülmündən xilas edərəm.

Dovşanın yoldaşları buna razı oldular. Odur ki, dovşan nahar vaxtına dayanıb getmədi. Aslan isə acından dişlərini bir-birinə sürtürdü. Nahar vaxtı dovşan yavaş-yavaş aslanın yanına gəlib salam verdi.

Aslan:

- Hardan gəlirsən? - deyə sual etdi.

Dovşan dedi ki:

Padşahın naharından ötrü hüzurunuza bir dovşan gətirirdim. Yolda bir aslan rast gəlib dovşanı əlimdən aldı. Mən nə qədər dedim ki, bu padşahındır, yenə eşitmədi. Az qalmışdı ki, məni də tutub yesin. Amma mən qaçıb sizin qulluğunuza gəldim. Aslan bu işdən qəzəblənib dedi:

Aslan haradadır, onu mənə xəbər ver! Mən öz intiqamımı ondan alım!

Dovşan:

-Yüyürünüz gedək, - deyə aslanın qabağına düşüb bir quyunun başına yetişdilər. Dovşan dedi:

- Ey padşah, o aslan bu quyunun içindədir. Amma mən onu göstərməyə qorxuram. Əgər siz məni dişinizə tutub saxlasanız, o vaxt da mən düşməninizi sizə göstərərəm.

Aslan dovşanın dediyi kimi onu dişinə tutub quyuya baxdı. Suda öz əksini görüb xəyal eylədi ki, sudakı başqa aslan olub onun naharını dişinə tutmuşdur. Ona görə dərhal dovşanı kənara qoyub quyudakı aslanı öldürmək üçün acığından özünü quyunun içinə atdı və oradaca boğuldu. Dovşan isə salamat qayıdıb əhvalatı öz yoldaşlarına xəbər verdi. Ondan sonra heyvanlar dovşandan razılıq edib asudə yaşadılar".

**Mənbə:** «Məktəb» jurnalı, 1913, №7

***Tapşırıq 512.*** Əsas və köməkçi nitq hissələrinin fərqli və oxşar cəhətlərini müəyyən edin. Venn diaqramı.



## 4.Mətn.

### Azərbaycan xalq çalğı alətlərinin təsnifatı

Azərbaycanın çalğı alətləri, Azərbaycanın xalq musiqisinin ifasında istifadə olunan alətlərdir. Azərbaycan musiqi alətləri üç əsas qrupa bölünür: simli, zərb alətləri, nəfəs alətləri.



Simli alətlər – dedikdə söylənən saz aləti olur. Ən qədim alətdir. Saz xalq poeziyasında "şirin səs" kimi tərənnüm edilir.

Tar – muğamların ifasında xanəndənin məcburi alətidir. Tar maddi mədəni irs siyahısına daxil edilmişdir.

Kamançada simli musiqi alətidir. Kamança tar və sazdan fərqli olaraq onu çalanda dizin üstündə dik tutaraq çalınır.

Nəfəs alətləri – balaban, zurna, tütək, ney və tulumdur.

Zərb alətləri – qaval, qoşa nağara və nağaradır.

Muğam üçlüyü: qaval, tar və kamançadan ibarətdir.

### Mətnə aid suallar:

1. Azərbaycan çalğı alətləri neçə hissəyə bölünür?
2. Müasir dövrümüzə qədər gəlib çıxan musiqi alətləri hansılardır?
3. Simli musiqi alətləri hansılardır?
4. Nəfəsli musiqi alətləri hansılardır?
5. Zərb alətləri hansılardır?

## 5. Dialoq.

| | | |
|---|---|---|
| Universitetin yataqxanasında azərbaycanlı tələbələrlə yanaşı, xarici tələbələr də qalır. Onlar şənbə və ya bazar günü alış-veriş məqsədilə bazara gedirlər. Ülvi, Nataşa, Tom və Nikol çox mehriban dostlardır. Onlar bazara həmişə birlikdə gedirlər. | В университетском общежитии, наряду с азербайджанскими студентами живут и иностранные. Они, с целью покупки, в субботу или воскресенье идут на базар. Ульви, Наташа, Том и Николь очень хорошие друзья. Они всегда идут вместе на базар. | In the University's hostel along with Azeri students, also live foreign students. At the Week -End (Sunday) they go to bazaar for shooping. Ulvi, Natasha, Tom and Nikol are very good friends. They always go to bazaar together. |
| Nataşa - Uşaqlar, bu gün | Наташа - Ребята, сего- | Natasha - Friends, today |

| | | |
|---|---|---|
| mən sizə rus borşu bişirəcəyəm. Bunun üçün mal əti, kələm, kök, çuğundur, kartof, soğan və cəfəri almalıyıq. | дня я приготовлю вам русский борщ. Для этого нужно купить говядину, капусту, морковь, свёклу, картофель, лук и петрушку. | I'll prepare for you Russian Borsh. We should to buy the following: beef, cabbage, carrots, beetroot, potatoes, onion and parcsley. |
| Ülvi - Əti yataqxananın yanındakı ət dükanından alarıq. Oraya hər gün təzə mal (dana, quzu) əti gətirirlər. Tərəvəz üçün gəlin Təzə bazara gedək. Orada hər şey bol və ucuzdur. | Ульви - Мясо купим в магазине около общежития. Каждый день туда привозят свежее говяжее (баранье) мясо. А за овощами пойдём на Новый базар. Там всего много и дёшево. | Ulvi-We'll buy meat in the market near the hostel. Every day, the fresh meat is delivered there. And for the vegetables let's go to Taza Bazaar. There is everything , and it is very cheap. |
| Nataşa-Bakıda həmişə təzə tərəvəz və göyərti almaq olur. Bu çox yaxşıdır. Başqa tərəvəz də alarıq və salat hazırlarıq. | Н. - В Баку всегда можно купить свежие овощи и зелень. Это очень хорошо. Купим еще другие овощи и сделаем салат. | N. - You can always buy fresh vegetables and greens in Baku. That's very good. We'll buy other vegetables too and make a salad. |
| Nikol - Düzdür, salat çox xeyirlidir və vitaminlərlə zəngindir. Mən sizə dadlı bir salat resepti verərəm. Bunun üçün bizə kahı, xiyar, pomidor, turp, göy soğan, yumurta və xama lazımdır. | Николь - Правильно, салат очень полезен и богат витаминами. Я вам дам рецепт вкусного салата. Для этого нам требуется листья салата, огурцы, помидоры, редька, зелёный лук, яйца и сметана. | Nikol - You're right. A salad is very useful and full of vitamins. I'll give you a good salad recipe. We need lettuce, cucumber, tomatos, black radish, spring onion, eggs and sour cream. |

## 43-cü dərs

1. Bağlayicılar (tabelilik və tabesizlik).
2. İfadə "Dostlar səfərdə".
3. Rəsul Rza "Çinar" şeiri.
4. Mətn. Ad gününün tarixçəsi.
5. Dialoq.

### 1. Bağlayıcı (tabelilik və tabesizlik).

***Qeyd:*** *Sözləri və cümlələri bir-birinə bağlayan köməkçi nitq hissəsinə bağlayıcı deyilir. Sintaktik vəzifəsinə görə bağlayıcıların iki növü vardır:*
*1. Tabelilik bağlayıcıları – tabeli mürəkkəb cümləni təşkil edir, və sadə cümləları bir-birinə bağlayır. Məs., Həsən bilirdi ki, Aynur bura gələcək.*
*2. Tabesizlik bağlayıcıları – həmcins üzvləri və tabesiz mürəkkəb cümlənin tərəflərini bağlayır. Məs., "Tahir və Zöhrə", O, içəriyə girdi və hamı ayağa qalxdı.*

***Tapşırıq 512.*** *Və, ya da, gah, da, istər, lakin, fəqət, həm, halbuki, isə, o cümlədən* tabesizlik bağlayıcılarından istifadə edərək cümlələr qurun.

***Tapşırıq 513.*** *Çünki, ona görə ki, onun üçün ki, ondan ötrü, buna görə də, əgər, indi ki, madam ki, hərçənd ki* tabelilik bağlayıcılarından istifadə edərək cümlələr qurun.

***Tapşırıq 514.*** Aşağıdakı cümlələrdə nöqtələrin yerinə uyğun gələn bağlayıcıları əlavə edin (*və, ki, lakin, həm, həm də, görə, amma, əgər).*

1. O ayağa qalxdı, … danışmadı. 2. Qardaşım … işləyir… oxuyur. 3. Müəllim …, valideyn …, şagird …, çalışır. 4. Ata inanırdı … oğlu verdiyi sözü tutacaq. 5. … vaxtında həkimə getsəydim, indi halım yaxşı olardı. 6. Əşrəf ….Gülçin beşinci sinifdə oxuyurlar.

***Tapşırıq 515.*** Mətni oxuyun, bağlayıcıları göstərin.

### Yaylaq qonşumuz

…Xala ilə Zərif xanım – ana-bala səhərdən axşama qədər yeməklə məşğul olurdular…Ya yemək barədə danışır, ya da yemək hazırlayırdılar. Lakin ana ilə qızın xasiyyəti xeyli fərqli idi. Zərif xanım xala kimi hər şeylə maraqlanan, söhbətcil deyildi.

Yeməkdən azad vaxtlarında (belə vaxtlar çox az olurdu) onun kök və çəhrayı üzü hər şeyə biganə bir ifadə alırdı. Söhbətlərə qulaq asırdısa da, heç bir fəal

münasibət göstərmirdi. Ya ağacın altında qılçalarını uzadıb oturaraq çöplə qəşəng, yaraşıqlı dişlərini qurdalayır, ya şəkilli kulinar kitabını varaqlayaraq baxır, ya da bir əlində balaca güzgü tutaraq o biri əli ilə kömür kimi qara saçlarını darayırdı. Elə bil ki, Zərif xanım yeməkdən ayrıldıqda bütün həyatdan, cəmiyyətdən ayrılırdı.

*İ.Əfəndiyev*

***Tapşırıq 516.*** Köçürün, bağlayıcıların altıdan xətt çəkin.

1. Gülər həm işləyir, həm də institutda qiyabi təhsil alırdı. 2. Qızılgül ətrinə, gözəlliyinə və faydalılığına görə güllərin şahıdır. 3. Ya sən durub onlara getməlisən, ya da onlardan birisi sənin evinə gələcək. 3. Aslan gah yeriyir, gah da geriyə baxırdı. 4. Otaqda çox adam var idi, amma heç kim danışmırdı. 5. Hava tutuldu, lakin yağış yağmadı. 6. O, yaxın dostu İmranın da əvəzinə cavab verdi. 7. Kür və Araz Azərbaycanın ən böyük çaylarıdır. 8. Nə Həmid dillənirdi, nə də Nərmin onu içəri dəvət edirdi.

***Tapşırıq 517.*** Cümlələri tamamlayın. Lazım olan yerdə vergül işarəsi qoyun.

1. Dünən gəzintiyə çıxa bilmədik (çünki) — .2. Onlar görüşdülər (və) —
Mən Türkiyəyə həm təyyarə ilə uçmuşam (həm də) —.4. Adil yaxşı qaçırdı (lakin) —.5. Mən bu sənəti öyrəndim (ki) —.6. Bərk qar yağdı (ona görə)— 7. Aşıqlar həm dastan qoşur (həm də) —. 8. Nə Əzim bu gün dərsə gəldi (nə də) —.

***Tapşırıq 518.*** Cümlələri köçürün, mötərizədə verilmiş *-da, -də* -nin bağlayıcı və ya yerlik hal şəkilçisi olduğunu müəyyənləşdirin.

1. Sənəm (də), Surxay (da) bu gün konfransda çıxış edəcəklər. 2. Bu dağlar (da), dərələr (də) müxtəlif heyvanlar yaşayır. 3. Ağıl yaş (da) yox, baş (da) olar. 4. Bu məsələ atamı (da), anamı (da) çox həyəcanlandırırdı. 5. Onlar (da) sənətə, sənətkara qarşı böyük bir məhəbbət var idi. 6. Yaradıcı əmək olan yer (də) xoşbəxt həyat (da) var.

***Tapşırıq 519.*** Cümlələrə *gah-gah da, həm- həm də, nə -nə də, da, də* bağlayıcılarından uyğun gələnini yazın.

1. Uğur ... rusca, ... ingiliscə yaxşı bilir. 2. Mələk ... gülür, ... ciddi bir görkəm alırdı. 3. İmtahanda ... Əli, ... Oqtay öz cavabları ilə başqalarından seçildi. 5. Bu axşam ev sahibi qonaqlar ... çox şən görünürdülər. 6. ... özün rayona gəlirsən, ... məktub yazırsan. 7. Gəlsən,... görərsən,... lazımi nəticə çıxararsan.

***Tapşırıq 520.*** Cümlələrin arasına *ki, çünki* bağlayıcılarından uyğun olanını yazın.
1. Mən gördüm..., balaca Nazlı kitab oxuyur. 2. Atam dedi..., sabah babam sizə gələcək. 3. Tamaşaçılar narazı idilər, ... aktyorlar pis oynayırdılar. 4. Fazil söz

verdi..., axşam bizi nişanlısı ilə tanış edəcək. 5. Mən Nailəni tanımadım, o, çox qocalıb. 6. Anna Bakıdan getmək istəmir, ... bura onun xoşuna gəlir. 7. Kamran səmimi oğlandır, ... onun qəlbi təmizdir. 8. Sabah çox qonağımız olacaq, ... Ülvinin ad günüdür. 9. Dekan elan etdi... sabah şairlərlə görüş olacaq. 10. O, dediyi sözlərdən utandı, ... başa düşdü..., düz danışmır.

***Tapşırıq 521.*** Cümlələrə *və, amma, ancaq, lakin* bağlayıcılarından uyğun olanını artırın.

1. Sevda çox yorulub, ... səsini çıxarmır. 2. Hər şey hazır idi, ... qonaqlar gəlmədi. 3. Yaz gəldi... havalar istiləşdi. 4. Hamı dincəlmək üçün dəniz kənarına gedəcək,... Samir şəhərdə qalacaq, çünki onun işi çoxdur. 5. Qışda havalar çox soyuq olur... adamlar isti paltarlar geyinir. 6. Tətil bitdi... uşaqlar dərsə başladılar. 7. Zəng vuruldu... müəllim içəri girdi.

***Tapşırıq 522.*** Cümlələrə *isə, yəni* bağlayıcılarından uyğun gələnini yazın.

1. Balaca Ayxan babasını çox sevir, Həbibə... nənəsini. 2. Zakir heyva mürəbbəsini xoşlayır, Ülvi... ərik mürəbbəsini. 3. Babam məni danladı, ... bacımı incitdiyimə görə mənə açıqlandı. 4. İnsanlar bir-birinə qarşı diqqətli olmalıdır, ... onlar humanizmi unutmamalıdırlar. 5. Mahir universitetdə oxuyur, bacısı... məktəbdə. 6. Mən günəşli havanı sevirəm, qardaşım ... yağışlı havanı. 7. Salman kobud adamdır, ... insanlarla həmişə sərt danışır.

**2. İfadə "Dostlar səfərdə".**

"Tülkü, Qunduz və Qaban bir yerdə səfərə çıxmağı qərara aldılar. Onlar yığışdılar və yola düşdülər.

Getdilər, getdilər, qarşılarına bir çay çıxdı. Çayın üstündən dar bir körpü keçirdi. Üçü də birdən bu körpüdən keçə bilməzdilər. Bir-bir keçmək lazım idi.

Qaban Qunduza dedi:

– Sən birinci keç. Yol böyüyündür.

– Düzdür, qoy birinci Qunduz keçsin, – deyə Tülkü razılaşdı.

Qunduz ayağını körpüyə qoydu. Bir-iki addım getmişdi ki, körpünün çürümüş taxtaları sındı. Qunduz suya düşdü.

– Ay aman! Fəlakət! – deyə Tülkü qışqırdı.

– Qaban, suya atıl, Qunduzu xilas et. Yoxsa bizim Qunduz batacaq. Tez ol! Tez ol!

– Mən atılardım, – Qaban dedi. Amma su soyuqdur. Qorxuram xəstələnəm. Bəlkə sən atılasan?

– Nə danışırsan?! Mən quyruğumu yenicə daramışam. Bu zaman körpünün altından Qunduzun səsi gəldi:

– Sağ olun. Özüm bir təhər çıxaram.

Qunduz sahilə çıxdı. Tülkü və Qaban sevindilər:

– Nə yaxşı oldu! Gəlin yolumuza davam edək. Qunduz onlara baxıb dedi:
– Yox, mən getmirəm. Sizinlə yoldaş olan yolda qalar”.

***Tapşırıq 523.*** Krossvord üzərində iş. “Millətlər”.

**I. Yuxarıdan aşağıya:**
1. İsraildə yaşayan
2. Polşada yaşayan
3. İtaliyada yaşayan
4. Macarıstanda yaşayan
5. Ərəbistanda yaşayan
6. İngiltərədə yaşayan
7. Finlandiyada yaşayan
8. Latviyada yaşayan
9. Kanadada yaşayan
10. Amerikada yaşayan
11. Belçikada yaşayan
12. Hindistanda yaşayan

**II. Soldan sağa:**
1. Yaponiyada yaşayan
3. İspaniyada yaşayan
13. Bolqarıstanda yaşayan
14. Almaniyada yaşayan
15. Azərbaycanda yaşayan
16. Belorusiyada yaşayan
17. Türkiyədə yaşayan
18. Rusiyada yaşayan




**3. Rəsul Rza “Çinar” şeiri.**

“Gecə keçmiş. Ulduzlar ağ, göy qara!
Söykənmişəm qocaman bir çinara...
Gecə qara, durdum, düşündüm bir az
Dedim nədən ulu çinar yıxılmaz?

Birdən çinar dilə gəldi, dedi: bax!
Bu torpaqda dərindən kök salaraq,
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürüyüb sağ-solumu.
Belə məğrur dayanmağa haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam".

**Mənbə:** R.Rza. Seçilmiş əsərləri, I cild, Bakı: "Öndər" nəşriyyatı, 2005, s.27

## 4. Mətn.

### Ad gününün tarixçəsi

Hər il səbirsizliklə gözlədiyimiz günlərdən biri də ad günümüzdür. Həmin gün sevdiyimiz insanları qonaq çağırır, əylənir, çoxlu hədiyyə alır və ən sonda arzu tutub tortun üzərindəki şamları söndürürük. Bəs necə olub ki, doğum günləri qeyd olunmağa başlayıb? İlk doğum gününü kim qeyd edib? Niyə tort kəsirik? Şamlar nə məna verir? Bu barədə heç düşünmüsünüzmü?

Əvvəllər ad gününü yalnız fironlar və onların oğulları keçirirmiş. İlk ad günləri Misirdə, sonra da Babilistanda qeyd olunmağa başlayıb. İlk doğum günü yığıncağını miladdan 3000 il əvvəl yaşamış bir Misir fironu keçirib. Bu cür tədbirlərdə ailə, dostlar, xidmətçilər, hətta kölələr də iştirak edirmişlər.

Daha sonra doğum günü adəti yunanlara keçib. Burada həmin adətə tort kəsmə də əlavə olunub. Ayın və ov tanrısı Artemisin yenidən doğulması şərəfinə hər ayın altıncı günü üzərində şamlar olan tort kəsilirmiş. Yunanlar sadəcə kişilərin ad gününü qeyd ediblər.

Bizim bildiyimiz tortlar XIII əsrdə Almaniyada yaranıb. Almanlar uşaqların ad günlərini az qala festival kimi keçirirmişlər. Uşağa həmin gün çoxlu hədiyyələr gələr, ən sevdiyi yeməklər bişirilərmiş. Tort üzərindəki şamları üfürərkən arzu tutmaq və onu heç kimə söyləməmək adəti də almanlardan qalmadır.

***Tapşırıq 524.*** Mətni oxuyun. Suallar tərtib edin və cavablandırın.

## 5.Dialoq.

| | | |
|---|---|---|
| Bakıda suvenir və əntiq əşyalar satılan dükanların əksəriyyəti İçəri Şəhərdədir. Xaricilər belə dükanlardan nə isə almaq istəyirlər. Tom Finlandi-yadan gəlib. O, İçərişəhərdəki suvenir dükanına girir. | В Баку большинство сувенирных и антикварных магазинов находятся в Старом городе. Иностранцы хотят что-то купить. Том приехал из Финляндии. Он заходит в сувенирный магазин старого города. | Most of the antique and souvenir shops' of Baku are situated in the Old City. Foreigners often want to buy something from such shops. Tom is from Finland. He enteres the souvenir shop in the Old Sity. |

| | | |
|---|---|---|
| Tom: Burada münasib qiymətə hansı suvenirləri almaq olar? | Том: Какие сувениры здесь можно приобрести за приеемлемую цену? | Tom - What can I buy here for a suitable price? |
| Satıcı: Bizdə kiçik xalılar, xalça məmulatlarından pul kisələri, çanta, eynək üçün futlyar və gördüyünüz digər suvenirləri ala bilərsiniz. | Продавец: Вы можете купить у нас маленькие ковры, ковровые изделия –кошельки, сумки, футляры для очков, также другие сувениры, которые вы видите. | Seller: - Here, we have little carpets, purses, bags, cases for spectacles made from carpet material and other souvenirs you've seen. |
| Tom: Mənə milli paltarda gəlincik də lazımdır. Qızım gəlincikləri çox sevir. Mən hansı ölkədə oluramsa, həmin ölkənin milli paltarında olan gəlincikləri alıram. | Том: Мне также нужна кукла в национальной одежде. Моя дочка очень любит куклы. В каких бы странах я ни был, оттуда я привожу куклы в национальных платьях. | Tom: - I need a doll in nationnal dress. My daughter likes dolls very much. When I go abroad, I always buy dolls in national dresses. |
| Satıcı: Bizim dükanda gelincik yoxdur. Siz onu qonşu dükandan ala bilərsiniz. | Продавец: В нашем магазине нет кукол. Вы можете их купить в соседнем магазине. | Seller: - We haven't got any doll in our shop. You can buy it in next - door shop. |
| Tom: Xahiş edirəm, bu kiçik xalçanı, 2 dənə pul kisəsini, qadın çantasını bükün və qiyməti nə qədərdir, deyin. | Том: Пожалуйста, упакуйте этот маленький коврик, 2 кошелька, женскую сумку, и скажите сколько это будет стоить. | Tom - Please, wrap up this little carpet, 2 (two) purses and bag for woman, and tell me the prices. |
| Satıcı: Kiçik suvenir xalçanın qiyməti 50 manat, pul kisəsi 25 manat, çanta 40 manatdır. Cəmi 115 manat verməlisiniz. | Продавец: Цена коврика 50 манатов, кошёлек 25 манатов, сумка 40 манатов. В сумме вы должны дать 115 манатов. | Seller: - The prise of the little carpet is 50 manat, of purse is 25 m. and of bag is 40 m. Total prise is 115 m. |
| Tom: Buyurun, 115 manat. Çox sağ olun. | Том: Пожалуйста, 115 манатов. Большое спасибо. | Tom - Here you are, 115 m. Thank you very much. |
| Satıcı: Siz də sağ olun. Hər vaxt dükanımıza gələ bılərsiniz. Cibiniz dolu olsun. | Продавец: - И вам спасибо. Можете прийти в наш магазин в любое время. | Seller: Thank you too. You can come to us whenever you want. |

**44-cü dərs**

1. Ədat.
2. Dinləmə materialı.
3. Azərbaycan dilində Söz ehtiyatını zənginləşdirmək.
"Moruq" mətni əsasında şaxələnmə.
4. Mətn. H.Əliyev Fondu.
5. Dialoq.

**1.Ədat.**

***Qeyd:*** *Sözlərin və cümlələrin təsir gücünü artıran köməkçi nitq hissəsinə ədat deyilir. Ədatların məna növləri aşağıdakılardır:*
*1. Qüvvətləndirici ədatlar: ən, lap, daha, axı, hətta, necə, nə, artıq, da, də, ha, düz.Məs., Nə soyuq otaqdır. Danış da. Mən daha ona inanmıram.*
*2. Dəqiqləşdirici ədatlar: elə, məhz, əsl. Məs., Elə mən də onu düşünürdüm. Məhz sənə inanıram.*
*3. Məhdudlaşdırıcı ədatlar: yalnız, ancaq, tək, təkcə, bir, bircə. Məs., Bircə o gəlsəydi. Əhmədin harada olmasını təkcə Musa bilir.*
*4. Sual ədatları: məgər, yəni, bəs, ki, -mı, -mi, -mu, - mü. Məs., Sən hələ geyinməmisən? Sən onu yaxşı düşündünmü?*
*5.Əmr ədatları: bax, baxsana, gəl, gəlsənə qoy, -sana,-sənə, ha, di.*
*Məs., Gəlsənə həkimə birlikdə gedək. Məktubu tez oxusana. Di tərpən. Bax ha.*
*6. Arzu ədatları: kaş, kaş ki, təki, barı. Məs., Kaş ki, gözəl olmayaydım. Təki müharibə tez bitsin.*
*7. Təsdiq və inkar ədatları: hə, bəli, xeyr,yox, heç. Məs., Bəli, mən hər şeyi olduğu kimi eşitdim. Xeyr, mən bu gün gəlməyəcəm.*
*Ədatlar sözlərdən ayrı yazılır. Məs., Gör ha! Di gəl! Ədatlardan yalnız -mı$^4$ və -sana$^2$ sözlərə bitişik yazılır.*

***Tapşırıq 525.*** *Ən, lap, artıq, hətta, axı* qüvvətləndirici ədatların iştirakı ilə cümlələr yazın.

***Tapşırıq 526.*** *Elə, məhz, əsl* dəqiqləşdirici ədatların köməyi ilə cümlələr qurun.

***Tapşırıq 527.*** Məhdudlaşdırıcı ədatların: *yalnız, ancaq, təkcə, bircə, tək* kəlmələrinin iştirakı ilə cümlələr söyləyin.

***Tapşırıq 528.*** Sual və əmr ədatlarına aid altı cümlə yazın.

***Tapşırıq 529.*** *Kaş, bəli, təki, xeyr, yox, kaş ki, heç* ədatlarının hansı məna növünə aid olduğunu müəyyən edib cümlələrdə işlədin.

*Tapşırıq 530.* Köçürün, ədatların altından xətt çəkin.

1. Ay Rüstəm, bundan sonra daha od olub məni də yandırmayacaqsan ki *(M.İbrahimov)*. 2. Eşitdiyi xəbər onu lap özündən çıxartdı. 3. İnsanın ən müqəddəs borcu vətəni qorumaqdır. 4.Sən danışacaqsanmı? 5.Di get, gözümə görünmə! 6.Gəlsənə sənə hər şeyi olduğu kimi danışam?! 7.Kaş ki, hamı bir-birini anlaya biləydi. 8.Mən səni xəbərdar edirəm ha, bir də bu hərəkət təkrarlanmasın. 9.Ən maraqlı kitab hansıdır? 10. Tez yığışın da, sizi gözləyirik.

***Tapşırıq 531.*** Cümlələri köçürün, verilmiş ədatlardan uyğun gələnini artırın.
*ən, lap, bəs, məgər, axı*

1. Rəsul Rza XIX əsr Azərbaycan şeirinin ... görkəmli sənətkarlarından biridir. 2. Azərbaycan ... qədimdən qəhrəmanlar yurdu olmuşdur. 3. ... müəllim tələbələrini azmı sevir? 4. ... sağlamlığına ümid yoxdur? 5. Bu xəbər onu ... özündən çıxartdı. 6.... bilmirəm sənə nə dedi? 7.... Elşad bizə gəlməsin?

***Tapşırıq 532.*** Aşağıdakı sözləri göstərilən mənalarda cümlələrdə işlədin.

- da, -də, - bağlayıcı, ədat
gör -fel, ədat
belə -əvəzlik, ədat
bir - say, ədat
qoy - feil, ədat

***Tapşırıq 533.*** Köçürün, nöqtələrin yerinə *da, də, sana, sənə* ədatlarından uyğun gələnini yazın.

1. Mən bir söz demirəm, qoy gəlsin ... 2. Dərslərini oxu ... . 3. Di danış ..., gül ..., niyə dinməz durmusan? 4. Tez ol, gəl ..., səni gözləyirik. 5. Ev işlərində anana kömək et....

***Tapşırıq 534.*** Təsdiq və inkar ədatlarının altından xətt çəkin.

1. Yox, biz bu işi belə qoymarıq. 2. Bəli, səni görmək üçün gəlmişəm. 3. Hə, mən bu işi görməkdə çox böyük səhv etmişəm. 4. Bəli, doğru deyirsən, adam gərək qorxaq olmaya, ehtiyatını əldən qoymaya! 5. Yox, arvadım və balaca bacım haqqında kimsə bir şey bilmir. 6. Xeyr, müəllim, yaxşı olar ki, elə sabah çıxış edim.

***Tapşırıq 535.* Dialoq «Mehmanxanada».**

**Müştəri:** - Xahiş edirəm, deyin növbətçi haradadır?
**Növbətçi:** - Sizə nə lazımdır?

**Müştəri:** - Boş nömrəniz varmı?
**Növbətçi:** - Bəli, bizim ayrıca otaqlarımız var.
**Müştəri:** - Bizə iki nəfərlik otaq lazımdır.
**Növbətçi:** - İkinci mərtəbədə var, istəyirsinizmi?
**Müştəri:** - Nömrənin bir günü neçə manatdır?
**Növbətçi:** - Nömrənin qiyməti yüz manatdır. Zəhmət olmasa, bu vərəqi doldurun.
**Müştəri:** - Mənim otağımın açarını verin.

***Tapşırıq 536.*** Mətni tərcümə edin.

**Ögey ana**

Biri varmış, biri yoxmuş. Bir padşahın gözəl bir qızı varmış. Qızın adı Dünya Gözəli imiş. Bir gün soltan xanım ölür, qızı isə yetim qalır. Padşah da başqa bir qadınla evlənir.

Saraya gələn yeni qadın ögey qızını qısqanmağa başlayır. Nəhayət onu öldürməyi qərara alır. Bir kələkbaz qadın çağırır və ona bir kisə qızıl verib qızı öldürməyi söyləyir.

Qadın bir gün Dünya Gözəlinin yanına gəlir və ona gəzməyə çıxmağı təklif edir. Dünya gözəli və qadın bir dağın başına qalxırlar. Qadın ona «Qızım», ögey anan səni öldürmək istəyir. Bu işi mənə həvalə edib. Mən səni bura qədər gətirdim, amma heç nə etməyəcəyəm. Burdan hara istəyirsən get, amma evə dönmə.

**2. Dinləmə materialı.**

***Tapşırıq 537.*** İmla.

**Hökumət evi**

"Bakıda yerləşən möhtəşəm tarixi binalardan biridir. Azərbaycanda sovet hakimiyyəti illərində hökumət işçilərinin çalışması üçün nəzərdə tutulmuşdur. Memarlar Lev Rudnev və Vladimir Munts tərəfindən 1924-1952-ci illərdə tikilmişdir. 13 mərtəbəlidir. Memarların qarşısında böyük sosialist dövlətinin qüdrətini əks etdirən bir bina inşa etmək vəzifəsi qoyulmuşdu. Bina «Qotik» memarlıq üslubundadır".

**Mənbə:** Daxili baza

**3. Azərbaycan dilində Söz ehtiyatını zənginləşdirmək "Moruq" mətni əsasında şaxələnmə.**

Bitkilərin müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. Həmin müalicə üsulları zamanın sınağından uğurla çıxıb və bu gün də öz aktuallığını qoruyub saxlayır. Qeyd etmək lazımdır ki, bitkilərdən hazırlanan dərmanlar heç vaxt fəsad törətmir.

Moruq da bu qəbildən olan dərman bitkilərinə aiddir. Ölkəmizin ərazisində geniş yayılıb, əsasən 15 növü var. Moruğun kimyəvi tərkibi növündən, becərmə şəraitindən asılı olaraq müxtəlifdir. Meyvələrinin tərkibində C, V, E vitamini, karotin, şəkərlər, üzvi turşular, efir yağları və bir sıra aktiv maddələr vardır. Ona görə də böyük müalicəvi xüsusiyyətə malikdir. Bu baxımdan da xalq təbabətində ondan geniş istifadə olunur. Soyuqdəymə zamanı əmələ gələn xəstəliklərdə onun qurudulmuş meyvələrinin çayından, eləcə də mürəbbəsindən istifadə edilir. Çünki onun tərkibi insan orqanizminə lazım olan maddələrlə zəngindir.




**4.Mətn.**

## Heydər Əliyev Fondu

Heydər Əliyev Fondu qeyri-hökumət, qeyri-kommersiya təşkilatıdır. Fond Heydər Əliyevin xatirəsinə yaradılmışdır. Onun prezidenti Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Heydər Əliyev Fondunun loqosu səkkizguşəli ulduzdur. Ulduzun içərisində Heydər Əliyev - "H.Ə." inisialı var. Loqonun rəngləri göy və qızılıdır. Göy rəng səmanı, demokratiyanı, düzlüyü, təmizliyi, dincliyi, etibarlılığı, səmimiliyi, milliliyi göstərir. Qızılı rəng günəş, sülh, inkişaf, işıqlı gələcək simvoludur.

Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan insanlara hər cür kömək edir, Azərbaycanda və xarici ölkələrdə sosial layihələr həyata keçirir. Fondun köməyi ilə minlərlə insan müxtəlif tibb müəssisələrində müalicə və əməliyyat edilir, xəstəxanalar tikilir və ya təmir olunur. Fondun "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihələri səhiyyə sahəsinə aiddir.

Təhsil sisteminin inkişafı üçün Heydər Əliyev Fondu elm və təhsil sahəsində "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı, "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələrini həyata keçirir.

Fond Azərbaycanda və xarici ölkələrdə tarixi mədəniyyət abidələrinin bərpası və yeni mədəniyyət obyektlərinin inşası ilə də məşğul olur. Onun təşəbbüsü ilə

Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalları, “Muğam aləmi” və Qəbələ Beynəlxalq Musiqi Festivalları keçirilir. Heydər Əliyev Fondu bir sıra incəsənət festivalları və sərgilərinin təşkilatçısıdır. O, Azərbaycanın dünyada tanıdılması üçün müxtəlif tədbirlər təşkil edir.

Heydər Əliyev Fondu ətraf mühitin mühafizəsi və ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə bir sıra aksiyalar həyata keçirir.

**Mənbə:** //heydar-aliyev-foundation.org

***Tapşırıq 538.*** Mətni oxuyun. Suallar tərtib edin və cavablandırın.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| - Bilet neçəyədir? | -Сколько стоит билет? | -How much is admission? |
| -Fotoşəkil çəkmək olarmı? | -Фотографировать можно? | -Is it permitted to take photographs? |
| -Sizdə impressionistlərin şəkilləri var? | -Есть ли у вас картины импрессионистов? | -Do you have paintings by the impressionists? |
| Məni rəngkarlıq maraqlandırır. | -Меня интересует живопись. | - I am interested in painting. |
| - Rəngkarlıq zalı haradadır? | -Где зал итальянской живописи? | - Where are the Italians paintings? |
| -Bu (kompozisiya) mənim xoşuma gəlir. | -Мне нравится эта композиция. | -I like this composition. |
| -Bu kimin əsəridir? | - Чья это работа? | - Whose work is this? |
| -Mən teatr muzeyinə (xəstəyə, işə, ofisə) baş çəkmək istəyirəm. | -Я хочу посетить театральный музей (больного, работу, офис) | -I would like to visit a museum (patient, work, Office). |

## 45-ci dərs

1. Modal sözlər.
2. Sintaqmlar.
3. Yoxlayıcı tapşırıqlar.
4. Mətn. İlk dəfə Azərbaycanda.
5. Dialoq.

**1.Modal sözlər.**

***Qeyd:*** *Modal sözlər danışanın nitqə subyektiv-modal münasibətini göstərir. Cümlə üzvlərindən fasilə və xüsusi intonasiya ilə ayrılır. Cümlənin əvvəlində gəlirsə, özündən sonra vergül, ortada gəlirsə, hər iki tərəfində vergül, sonda gələrsə, ondan əvvəl vergül qoyulur.*
*Ən çox işlənən modal sözlər bunlardır: birincisi, əlbəttə, həqiqətən, doğrusu, sözün doğrusu, beləcə, adətən, təbii, guya, deməli, şübhəsiz, xülasə, nəhayət. Bəzi modal sözlər əsas nitq hissələrindən yaranır. Bəzi modal sözləri leksik mənalı sözlərlə qarşılaşdırmaq olmaz. Xoşbəxtlikdən, bədbəxtlikdən, görünür, deyəsən, təbii, birincisi və s.*

***Tapşırıq 539.*** Cümlələrdə modal sözləri tapın.

1. Əlbəttə, biz sizinlə razıyıq. 2. Yəqin, sabah hava yaxşı olacaq və biz Şirvanşahlar sarayına gedə bilərik. 3. Deyəsən, sizi bayırda çağırırlar. 4. Nəhayət, gedənlər qayıtdılar. 5. Şübhəsiz, sizi mükafat gözləyir. 6. Doğrudan da, ağıllı insanlarla söhbət etmək maraqlı və xeyirlidir. 7. Qəribədir ki, heç kəs itmiş ayının aqibəti ilə maraqlanmadı. 8. Bir sözlə, gələn həftədən məşğələlərə başlayırıq. 9. Həqiqətən, bütün hadisələrin sonunda Xeyir Şərə qalib gəlir. 10.Məncə, mavi paltar və ağ çəkmələr sizə çox yaraşır. 11. Müxtəsər, nağılm sonunda sevgililər bir-birinə qovuşur. 12. Əvvələn, mən sizdən əvvəl gəlmişəm, İkincisi, mən sizdən böyüyəm. 13. Bu hadisə, təxminən, iki əsr bundan əvvəl baş verib. 14. Rüstəm kişi, adətən, tez yuxuya gedir, səhər tezdən saat 6- da ayağa qalxır və həyətdəki gülləri sulayır, samovara od qoyur, hamı durana qədər çayı dəmləyirdi.

***Tapşırıq 540.*** *Bizcə, yəqin ki, doğrudan da, əlbəttə, şübhəsiz,* sözlərini cümlələrdə işlədin, tərcümə edin.

***Tapşınq 541.*** Cümlələrdəki oxşar sözləri müqayisə edin, modal sözləri tapın.

1. Deyəsən, havalar yavaş-yavaş soyuyur. Gərək bu sözü ona deyəsən. 2. Şübhəsiz, bu işdə onun zəhməti çoxdur. Onun bu hadisədə iştiraki şübhəsizdir. 3. Hər sözü üzə demək olmaz. Demək, razılığa gəldik. 4. Müxtəsər, küsülüləri barışdırdıq. O, hər şeyi müxtəsər danışdı. 5. Təbii, iştahası olan çox yeyər. Azərbaycanın təbii sərvətləri çoxdur. 6. Bir sözlə, qabaqda işlərimiz var. Sevda keçirdiyi hissləri bir

sözlə anlatdı. 7. Deməli, xəstənin vəziyyəti düzəlir. O, sənə çox şey deməlidir.

***Tapşırıq 542.*** Nöqtələrin yerinə uyğun gələn modal sözləri artırın (*Bəlkə, təxminən, həqiqətən, deməli, nəhayət, adətən, güman ki, məncə, şübhəsiz)*.

....., bu gün gəzməyə getməyək? 2. ..., sizin gözəl gözləriniz var. 3. ..., hava xarablaşır. 4. ..., sözləşdik, sabah Qız qalasına gedirik. 5. ..., Ramiz dərslərini axşam yazır. 6. ..., 3 il əvvəl biz bir yerdə dincəlmişdik. 7. ..., onlar arzularına çatdılar. 8. ..., bu gün yağış yağar. 9. ..., bu söhbətə qayıtmayaq? 10. ..., sizin çıxışınız hamının xoşuna gəlib. 11. ..., bu pomada sizə yaraşmır.

## 2. Sintaqmlar.

Sintaqmlar sintaksisin ən bəsit vahididir. Sintaqma verilmiş kontekstdə məna və intonasiya vahidliyi təşkil edən bir, iki və daha çox sözdən ibarət birləşmədir, nitq parçasıdır. Nitqdə özünü göstərən sintaqmlar bir-birindən fasilə ilə ayrılır. Düzgün fərqləndirilən sintaqmlar nitqin daha aydın və anlaşıqlı olmasına xidmət edir. Məsələn, Dekan /1 kurs tələbələrini / təbrik etdi. - Bu cümlədə üç sintaqm var. Hər sintaqm qalxan intonasiya ilə deyilir, cümlənin sonunda intonasiya düşür.

Məktəb direktoru / əlaçı şagirdlərə / fəxri fərman verdi. Opera və balet teatrında/ «Leyli və Məcnun» operası/ gedir.

Sual intonasiyası ilə əmələ gələn cümlələrin sonu qalxan intonasiya ilə tələffüz olunur. Bu gün/ hava / soyuqdur? Siz Bakıda / çox qalacaqsmız?

***Tapşırıq 543.*** Mətnləri oxuyun. Sintaqmlara fikir verin.

1. Pişik tükü/ elektriklə zəngindir. Onu tumarlayanda /insan/ sanki əlində/ qığılcım hiss edir. Ancaq /bu cərəyanın gücü/ çox zəifdir. İngiltərə mütəxəssisləri/ hesablamışlar ki, 15 vatt lampanı yandırmaq üçün /eyni vaxtda/ 15 milyon pişiyi/ tumarlamaq lazımdır.
2. Müasir Bakının Bayıl hissəsi ilk orta əsrlərə dair mənbələrdə «Səbail» adı ib xatırlanır. Səbail dağ ətəyindən tutmuş dənizin sahillərinə qədər uzanırdı. XIII əsrin axırları XIV əsrin əvvəlində bərk istilər düşür. Böyük Qafqaz sıra dağlarının buzlaqlarınm əriməsi nəticəsində Xəzər dənizinin səviyyəsi xeyli qalxır. Səbailin sahillərinin xarabalıqları dənizin altındadır. Bu şəhərə aid dənizin dibindən tapılmış daş yazılar Şirvanşahlar sarayının yanında saxlanılır.

## 3. Yoxlayıcı tapşırıqlar.

***Tapşırıq 544.*** Verilmiş sözlərdən istifadə edərək cümlələri tamamlayın.

*hərdən həmişə bəzən indi heç vaxt sabah dünən*

1. Sən heç tennis oynayırsanmı?
Bəli,.................... Arzunun vaxtı olanda ..................tennis oynayır.

2. Anama nə vaxt zəng vuracaqsan?
............................................................
3. Sən kinoya tək gedirsən?
Yox, mən kinoya....................... getmirəm.
4. Dostlarınla tez-tezmi görüşürsən?
Yox, vaxtım olmur. ............görüşürük. Elə..............dostlarımla bir yerdə idim.
5. Arzu xalası qızı ilə nə vaxt görüşəcək?
.........................................................

***Tapşırıq 545.*** Yardımçı sözlərdən istifadə etməklə suallara cavab verin.

*aptek elektrik malları dükanı qəzet köşkü ət mağazası supermarket*

1. Qəzet və jurnalı haradan almaq olar?....................................
2. Dərmanlar harada satılır? ....................................
3. Əti, adətən, siz haradan alırsınız? ....................................
4. Kompüter, telefon və planşeti haradan almaq olar? ....................................
5. Paltar, ayaqqabı və çanta hansı mağazada satılır? ....................................

***Tapşırıq 546.*** Mötərizədəki feilləri indiki zamanda işlədin.

1. Mən gecələr ...................(yata bilməmək) və inanıram ki, bunun səbəbi stressdir.
2. Bu otaq yaxşı............(görünməmək). Məncə, divarları açıq-mavi rənglə boyamaq lazımdır.
3. Müşfiqin kompüteri yaxşı................(işləməmək) və o, heç bir imeyli qəbul edə bilmir.
4. Onlar evimizin yanında yeni ticarət mərkəzi tikmək................(istəmək), amma bu fikir heç (xoşuma gəlməmək).
5. Qardaşım maşınını..................(satmaq). Sən onu almaq...................... (istəmək)?

***Tapşırıq 547.*** Düzgün sözləri dairəyə alın.

**Cahangir:** Sən özünü pis hiss edirsən?
**Rüfət:** Dişim çox ağrıyır və məndə bəzi / heç bir ağrıkəsici yoxdur.
**Cahangir:** Məndə bir / heç ağrıkəsici var. Götür onu / onları iç.
**Rüfət:** Çox təşəkkür edirəm.
**Cahangir:** Sənə bir neçə / bir az su gətirim?
**Rüfət:** Zəhmət olmasa, gətir. Mənim başım da ağrıyır. Neyləyim, Nadir də bizi /onları gözləyir.
**Cahangir:** Narahat olma! Sən evdə qalıb dincəl. Mən onlara / ona zəng vurub deyərəm ki, sən özünü yaxşı hiss etmirsən.
**Rüfət:** Çox sağ ol.

***Tapşırıq 548.*** Mötərizədəki feilləri lazım olan zaman formalarında işlədin.
*Nümunə:*
**1.** Novruz bayramında nənəm və babam bizə......................(gəlmək).
Kaş bu il də nənəm və babam bizə....................................(gəlmək).
Bu Novruz bayramında da nənəmlə babam bizə................(gəlmək).

2. Yayda atam və anam Nabrana dincəlməyə.........................(getmək).
3. Mən qardaşımla metronun qarşısında.............................(görüşmək).
4. Dünən Azadla idman zalında tennis................................(oynamaq).
5. Metro.....................................(işləmək).
6. Qışda əcnəbi tələbələr Azərbaycan dili fənnindən................(imtahan vermək).

***Tapşırıq 549.*** *"Nə qədər", "neçə", "çox", "azca", "az"* saylarım uyğun yerdə yazın.

**1. Aytən** Deyin görüm, uşaq evi üçün ................pul yığmaq lazımdır?
**Pərvin** Dəqiq deyə bilmərəm. Ancaq orada kimsəsiz uşaq çoxdur və onlara bizim köməyimiz lazımdır.
2. **Aynur** Elnarə, bu salata................kartof doğramısan?
**Elnarə** Mən, adətən, salata ................kartof doğrayıram – 2 və ya 3 dənə.
**3. Ayna** Mən toyuq şorbası bişirmək istəyirəm, ancaq soyuducuda............toyuq qalıb. Mən supermarketə gedib bazarlıq etmək istəyirəm.
**Sona** Mən də səninlə gedirəm.
**4. Ayan** Mən............süd içmirəm. Sən necə?
**Ayxan** Mən də....................... içirəm. Yalnız gündə 1 stəkan.

***Tapşırıq 550.*** İfadə.

**Nəbi və Tahir**

"Bir kənddə Nəbi adlı igid bir oğlan yaşayırdı. Onun gözəl bir atı vardı. At Nəbiyə, Nəbi də ata yaraşırdı.

Tahir adlı bir nəfərin Nəbinin atına gözü düşmüşdü. Tahir bu atı ələ keçirmək fikrinə düşdü. Amma bilirdi ki, atı Nəbinin əlindən zorla ala bilməz. Buna görə də hiyləyə əl atdı.

Tahir gəlib Nəbinin yolu üstündə uzandı. Nəbi yaxınlaşanda bərkdən zarımağa başladı. Nəbi atdan düşüb ona yaxınlaşdı:

- Nə olub, qardaşım? Sənə necə kömək edim?

- Xəstəyəm, qardaş, yeriyə bilmirəm. Məni tez kəndə çatdır, - deyə Tahir inildədi.

Nəbi onu qucağına alıb ata mindirdi. Özü də tərkinə minmək istəyirdi ki, birdən Tahir onu itələyib atı irəli sürdü. Bir az uzaqlaşıb dayandı, Nəbiyə sarı dönüb dedi:

- Salamat qal, Nəbi. Sənin atına gözüm düşmüşdü. Ona görə də əlindən aldım. Sən isə öz başına çarə qıl.

Nəbi onun dalınca qışqırdı:

- Bircə dəqiqə ayaq saxla. Eşit, gör nə deyirəm. O atı sənə bağışladım. Sağlığına qismət olsun. Amma səndən bir xahişim var. Atı məndən bu yolla aldığını heç kimə demə.

- Niyə? - deyə Tahir soruşdu.

Çünki insanlar bundan sonra bir-birinə inanmazlar. Çətinə düşənə heç kim yardım etməz".

**Mənbə:** Rəşid bəy Əfəndiyev. Seçilmiş əsərləri.
Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2006, s.81-82

**4. Mətn.**

## İlk dəfə Azərbaycanda

Azərbaycan bütün dünyada qədim neft diyarı kimi tanınır.

1798-1803-cü illərdə dünyada ilk dəfə olaraq Bibiheybət buxtasında, sahildən 18 metr və 30 metr aralıda iki quyudan neft çıxarılmışdır.

1837-ci ildə dünyada ilk dəfə olaraq Balaxanı kəndində neftayırma zavodu fəaliyyətə başlamışdır.

1847-ci ildə dünyada mexaniki üsulla ilk neft quyusunun qazılması başa çatmışdır.

1877-ci ildə Lüdviq Nobelin sifarişi ilə tikilən "Zoroastr" (Zaratuştra-Zərdüşt) adlı dünyanın ilk neft tankeri istifadəyə verilmişdir.

1881 -ci ildə dünyada ilk dəfə olaraq dəmiryol sisternləri vasitəsilə neft və neft məhsulları daşınmışdır.

1897-ci ildə dünyanın ən böyük Bakı - Batum kerosin boru kəmərinin tikintisinə başlanılmışdır.

Nobel qardaşları Bakıya gələn ilk xarici neft sənayeçiləridir.

**Mənbə:** Mətbuat orqanları, daxili baza

***Tapşırıq 551.*** Mətni oxuyun. Suallar tərtib edin və cavablandırın.

**5. Dialoq.**

| | | |
|---|---|---|
| Sabah Marinanın anadan olduğu gündür. Dostları və rəfiqələri onu təbrik etmək üçün gül almaq istəyirlər. Bu məqsədlə onlar gül mağazasına gəlirlər. | Завтра день рождения Марины. Друзья и подруги, чтобы поздравить ее, хотят купить цветы. С этой целью они приходят в цветочный магазин. | Tomorrow is Marina's birthday. Her friends and girl-friends want to buy her flowers as a present. That's why they come to the flowers shop. |
| Satıcı: -Xoş gəlibsiniz, buyurun, hansı çiçəkləri istəyirsiniz? | Продавец: - Добро пожаловать, пожалуйста, какие цветы | Seller: -Welcome, which flowers do you want? |

| | | |
|---|---|---|
| | хотите? | |
| Fərid: - Bizə gənc xanım üçün gül dəstəsi lazımdır. | Фарид: -Нам нужен букет для молодой барышни. | Farid: -We need a bouquet of flowers for a young lady. |
| Satıcı: - Bizdə yerli çiçəklər də var, Hollandiyadan, Çindən, Türkiyədən gətirilmiş güllərimiz də var. Görürsünüz, bu qızılgüllər Hollandiyadandır, sağdakılar isə yerli növdür. Hər rəng qızılgülümüz var. Zanbaq və qladioluslar Çindən gətirilib. | Продавец: - У нас есть и местные цветы, и привезенные из Голландии, Китая, Турции. Видите, эти розы из Голландии, те, что справа – местный сорт. Есть у нас розы разных цветов. Тюльпаны и гладиолусы привезены из Китая. | Seller:- We have our local flowers and flowers imported from, Holland, China and Turkey. Look, these roses are from Holland, and those in the right side are local kind. We have roses of different colours. Tulips and gladioluses are brought from China. |
| Fərid: -Sizdə çöl çiçəkləri də olurmu? | Фарид: -Бывают ли у вас полевые цветы? | Farid:- Do you have wild flowers? |
| Satıcı: - Əlbəttə, olur. Çobanyastığı, bənövşə, lalə - onlar tez solur, onlar mövsümi çiçəklərdir Mən gənc xanıma layiq gözəl dəstə bağlayaram. | Продавец: -Конечно, бывают. Ромашки, фиалки, маки - они быстро вянут, они сезонные цветы. Я подберу красивый букет, достойный молодой девушки. | Seller:- Sure, we have. Camomiles, violets, poppies - they fade very fast, and they are season flowers. I'll select a beautiful bouquet, deserving a young lady. |
| Fərid: - Çox sağ olun. Belə buketə görə sizə nə qədər verməliyəm? | Фарид: - Спасибо. Сколько я должен вам заплатить за такой букет? | Farid:- Thank you. And How much should 1 pay you for it? |
| Satıcı: - 25 manat verəcəksiniz. Biz gül dəstəsini istədiyiniz ünvana çatdıra bilərik. Bu xidmət pulsuzdur. | Продавец: - Заплатите 25 манатов. Мы можем доставить букет в нужный адрес. Эта услуга бесплатная. | Seller-Pay me only 25 manat. We can deliver the bouquet in necessary adress. This servise is free. |
| Fərid: - Sağ olun, ehtiyac yoxdur. | Фарид: - Спасибо. Нет нужды. | Farid:- Thanks, but we needn't. |

## 46-cı dərs

1. Miqdar zərfləri.
2. Yoxlayıcı tapşırıqlar.
3. M.Ə.Sabir. "Millət necə tarac olur olsun, nə işim var?!" şeiri.
4. Mətn. Füsunkar təbiət abidəsi –Batabat.
5. Dialoq.

### 1. Miqdar zərfləri.

***Qeyd:*** *Miqdar zərfləri hərəkətin miqdarını və ya dərəcəsini bildirir. Nə qədər? sualına cavab verir az, çox, xeyli, qismən, az-az, çox-çox, bir qədər, az-çox, az-maz, bir az.*
*Məs., Müəllim bir qədər dincəldi və mühazirəsinə davam etdi. Tələbələr çox çalışdılar.*

***Tapşırıq 552.*** Miqdar zərflərini cümlədə işlədin (nə qədər? neçə-neçə?)

Çox, az, xeyli, bir az, cüt-cüt, tək-tək, bir-bir.

***Tapşırıq 553.*** Aşağıdakı cümlələrdə miqdar zərflərinin altından xətt çəkin.

1. Qiymətlər birə-beş artdı. 2. Bir az dincəlin. 3. Bu sözü ondan dəfələrlə eşitmişik. 4. İnsanlar da bu məsələləri az-çox bilirlər. 5. Tələbələr orada bir qədər dincəldilər. 6. Müəllim bu dərsi bizə dəfələrlə başa salmışdı. 7. Qoca bir qədər düşünüb, getdi.

***Tapşırıq 554.*** Cümlələri oxuyun, miqdar zərflərini tapıb onlara suallar verin.

1. Uşaqlar meşədə xeyli gəzəndən sonra evə gəldilər. 2. Məhəmməd bir qədər irəli getdi. 3. Yol çox təhlükəli idi. 4. Həkim diqqətlə uşağa baxıb, xeyli fıkrə getdi. 5. Şəhərdə əsgər paltarı geymiş adamların sayı bir qədər artmışdı. 6. Çox keçmişəm bu dağlardan, Durna gözlü bulaqlardan. 7. Nə qədər yaraşır insana gülmək? 8. Yüksək qiymət almaq üçün çox çalışmaq lazımdır.

***Tapşırıq 555.*** Boş yerlərə uyğun gələn zərfləri artırıb oxuyun.

1. Dostumun xəbəri yoxdur ki, mən də ... rusca danışa bilirəm.
2. Sabah gəl bizə... söhbət edək.
3. Mən ... arzu edirdim ki, bizdə də belə teatrlar olsun.
4. Vaqifin də könlü ... edər pərvaz.
   Hərdən sizin ilə gəzə, durnalar! *(M.P.Vaqif)*
5. Bizim bu dağların oğluyam mən də,
   .....uydururam yeri gələndə. *(S.Vurğun)*
6. Gənclər dedektiv janrda olan əsərləri... sevirlər.

7. Biz hər gün ....işləyirdik.
8. Lift.....qalxır, aşağı düşür, qapısı isə açılmırdı.
9. Körpə....addımlayıb yıxıldı.
10. Peterburqdan uçan təyyarə.....gecikir.

***Tapşırıq 556.*** İmla.

**Koroğlu daşı**

"Deyirlər ki, Koroğlu hara gedir getsin, Çənlibeldən özü ilə bir daş apararmış. Yatanda başının altına qoyarmış. Bu daş Koroğlunun həyanı, vətən daşı, yoldaşı olarmış. Ağ rəngdə olan bu daş balaca olmağına baxmayaraq çox ağır idi

Bundan başqa Koroğlu dəliləri bir yerə göndərəndə özü gizlənərmiş, amma harada olduğunu bu daşla bildirərmiş. Dəlilər üstü nişanlı olan bu daşı yaxşı tanıyarmışlar.

Deyilənə görə, Koroğlu öz dəliləri ilə Zəngəzur dağlarına ova çıxır. Hərə bir tərəfə dağılır, hamı bir-birindən aralı düşür. Koroğlu dəliləri bir yerə yığmaq üçün Çənlibel daşını Zəngəzur dağının arasından keçən yola qoyur. Bunu görən dəlilər bir yerə toplaşırlar.

Koroğlu daşı yerindən tərpətmir. Deyir: - Qoy bu daş bizdən yadigar qalsın.

O vaxtdan bu daşa «Koroğlu daşı» deyirlər".

**Mənbə:** "Koroğlu dastanı"ndan bir parça

**<u>2.Yoxlayıcı tapşırıqlar.</u>**

***Tapşırıq 557.*** Qulaq asın və oxuyun. Cəmil və Güllü nə barədə danışır?

**Cəmil** Güllü, salam. Dünən niyə gəlməmişdin?!
**Güllü** Haraya?
**Cəmil** Məktəbin 1996-cı il məzunlarının görüşünə.
**Güllü** Ay, mən bunu tamam unutmuşam.
**Cəmil** Biz vaxtımızı çox yaxşı keçirdik.
**Güllü** Çox adam gəlmişdi?
**Cəmil** Hə, bizim köhnə dostlarımızdan bir çoxu ilə görüşdüm. Lalə yadındadırmı?
**Güllü** Hə.
**Cəmil** Lalə indi məktəbin bədən tərbiyəsi müəllimidir.
**Güllü** Biologiya müəlliməsi Aliyə xanımı gördünmü?
**Cəmil** Yox, o 2001-ci ildə məktəbdən çıxıb.
**Güllü** Bəs ibtidai sinif müəlliməmiz Mehparə xanımla da görüşdün?
**Cəmil** Əlbəttə, xoş xatirələri yada saldıq.
**Güllü** O, mənim ən sevimli müəlliməmdi.
**Cəmil** Mənim də.
**Güllü** Aydın müəllimi necə ?
**Cəmil** Hə, onunla görüşdüm. O, bizə coğrafiya dərsi keçirdi. O vaxt mənə dedi ki, sənə Afina haqqında danışım. Ancaq mən bunun səbəbini anlamamışdım.

**Güllü** O, bunu necə yadında saxlayıb?
**Cəmil** Nəyi?
**Güllü** Mən bir dəfə coğrafiya imtahanından kəsilmişdim, çünki paytaxtları yadımda saxlaya bilmirdim. Yunanıstanın paytaxtım unutmuşdum. Coğrafiya mənim üçün çətin fənn idi.
**Cəmil** Mənim üçün də.

***Tapşırıq 558.*** Təkrar oxuyun və suallara cavab verin.

1. Cəmil dünən haraya getmişdi?
2. Cəmil kiminlə görüşmüşdü?
3. Lalə harada işləyir?
4. Biologiya müəllimәsi Aliyə xanım nə zaman məktəbdən çıxıb?
5. Aydın müəllim kimdir?
6. Aydın müəllim Güllünü xatırlayırmı?
7. Aydın müəllim Cəmilə nə demişdi?

***Tapşırıq 559.*** Mötərizədəki feilləri keçmiş zamanda işlədin və cümlələri tamamlayın.

**1. A:** Sən biologiya imtahanından__________(keçmək)?
**B:** Yox, mən ___________(kəsilmək).
**A:** Sonra bütün sualları ____________(öyrənmək)?
**B:** Bəli, əlbəttə, _______________(öyrənmək), ancaq bu, mənim üçün çox__________(çətin olmaq).
**2. A:** Sən tarix üzrə elmi dərəcəni Bakı Dövlət Universitetində ________(almaq)?
**B:** Yox, mən Rusiyaya________(getmək) və elmi dərəcəmi orada __________ (almaq).
**A:** Kollecdə sən hansı fənləri ________(öyrənmək)?
**B:** İncəsənət tarixi fənnini_______(öyrənmək).
**A:** Bu sahə __________(xoşuna gəlmək)?
**B:** Bəli, çox.

***Tapşırıq 560.*** Bir-birinizə aşağıdakı sualları verin və cavablarınızı yoxlayın.

1. Məktəbə nə vaxt getmisən?
2. İmtahanlar necə keçdi?
3. Keçən axşam bir yerə getmişdinmi?
4. Məzunlarla görüşdə sən kimi gördün?
5. Test suallarım öyrənmişdinmi?

***Tapşırıq 561.*** Aytac və Toğrulun imtahan nəticələri haqqında söhbətinə qulaq asın və suallara cavab verin.

1. Onun imtahan nəticələrini kim görüb?
2. Toğrul nədən imtahan verdi?
3. Aytac hansı fənləri öyrənib?
4. Toğrul harada oxumaq istəyir?
5. Aytac nəçi olmaq istəyir?

***Tapşırıq 562.*** Cütlərlə iş. Aşağıdakı ifadələrdən istifadə edərək məktəb illəri haqqında bir-birinizə suallar verin.

nə vaxt / getmək/məktəb
ən çox/fənn/sevmək/hansı
nə vaxt/bitirmək/məktəb
təhsil almaq/kollec / universitet
almaq/dərəcə/hansı

*Məktəbə nə vaxt getmisən?*
*Mən........................getmişəm.*
*Ən çox sevdiyin fənn hansıdır?*
..............................................................

**Dinləmə. Dinlənilən mətn əsasında ifadə.**

**3. M. Ə. Sabir "Millət necə tarac olur olsun, nə işim var?!" şeiri.**

"Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum özgələri ilə nədir karim,
Dünyavü cahan ac olur olsun nə işim var?!
Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da həq dadıma çatsın,
Mən salim olum cümlə cahan batsa da batsın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!"

**Mənbə:** M.Ə.Sabir. Hophopnamə. I cild, Bakı: Şərq-Qərb" nəşriyyatı, 2004, s.39

**4. Mətn.**

**Füsunkar təbiət abidəsi –Batabat**

Batabat – Naxçıvan Respublikasının Şahbuz rayonunda olan, dağ gölüdür. Bura dəniz səviyyəsindən 2113 m., hündürlükdə Küküçay çayının yaxınlığında

yerləşir. İsti yay günlərində bura çox sərin olur. Ona görə insanlar istirahət üçün bura gəlirlər.

Batabat yaylağının iqlimi bəzi xəstəliklər üçün şəfa mənbəyidir. Ürək, ciyər, əsəb xəstəsi olanlar bura gəlirlər.



Bəzi tarixi mənbələrdən məlum olur ki, Batabat yaylağı ibtidai insanların yaşadığı ərazilərdən biridir. Batabat gölü dünyanın yeganə üzən adası, kimi də diqqəti cəlb edir. Bura çoxlu sayda mineral bulaqlardan ibarətdir.

Füsunkar ərazinin mühüm əhəmiyyəti nəzərə alınaraq, 6 iyul 2003-cü ildə Şahbuz Dövlət Qoruğu yaradılmışdı.

**Mətnə aid suallar:**

1. Batabat harada yerləşir?
2.Burada arxeoloji qazıntı zamanı nə tapılmışdır?
3.Göl üzərindəki ada haqqında danışın.

***Tapşırıq 563.*** Mətni oxuyun. Sualları cavablandırın.

## 5. Dialoq.

| | | |
|---|---|---|
| - Bağışlayın, şəhər mərkəzinə (dəmiryol vağzalına, dəniz vağzalı-na, stadiona) necə getmək olar? | - Извините, как можно проехать в центр города (на железнодорожный вокзал, морской вокзал, стадион)? | - Excuse me, how can I get to the city centre (rail-way station, port, stadi-um)? |
| - Avtobusla (metro, taksi). | - Автобусом (на метро, такси). | - By bus (underground, taxi). |

| | | |
|---|---|---|
| - Şəhər mərkəzinə bura-dan hansı avtobuslar gedir? | - Какие автобусы отсюда едут в центр города? | - Which bus goes to the city centre from here? |
| - Burada ya 96, ya da 145 nömrəli avtobusa minin, on dəqiqədən sonra şəhərin mərkəzində olarsınız. | - Сядьте здесь или на 96, или же на 145 автобус, через десять минут будете в центре города. | - From here if you take buses №96 or №145 you'll be in the city centre in 10 minutes. |
| - Avtobus dayanacağı haradadır? | - Где автобусная остановка? | - Where's the bus stop? |
| - Bu küçə ilə düz gedin və sağa (sola) dönün. | -Идите прямо по этой улице и заверните направо (налево). | - Go straight ahead this street, then turn to the right (left). |
| - Mərkəzi Klinik xəstəxananın ünvanını mənə deyə bilərsiniz? | - Вы можете мне сказать адрес Центральной клинической больницы? | - Could you tell me the address of the Central Hospital? |
| - Əlbəttə. Bu, Cavid pros-pektindədir. Oraya həm 5, həm də 39 nömrəli av-tobuslar gedir. 5 nömrəli avtobus tez-tez gəlir, am-ma 39 nömrəli avtobus bir az gec gəlir. | - Конечно. Это на проспекте Джавида. Туда едут автобусы и №5, и №39. Пятый ав-тобус приезжает часто, а тридцать девятый немного реже. | - Of course. It's on Cavid avenue. Both the 5th and the 39th buses go there. The bus №5 comes often, but the 39th comes a little later. |
| - Bəs metro ilə oraya gedə bilərəm? | - А могу ли я поехать туда на метро? | - And can I get there by underground? |
| - Bəli, «İçəri şəhər» stan-siyasında minin və «Elmlər Akademiya»sı stansiyasinda düşün. Oradakı dayanacaqda av-tobusların hamisi Mərkəzi Klinik xəstəxanaya gedir. Ancaq piyada getsəniz, 15 dəqiqəyə dayanacaqdan xəstəxanaya çata bilərsiniz. | - Да, сядьте на станции «İçeri şexer» и сойдите на станции. «Елмляр Академиясы». Оттуда все автобусы едут в Центральную кли-ническую больницу. Но если пойдете пешком, за 15 минут сможете добраться до больницы. | - Yes, you can board at «İçeri şexer» station and come down at «Elmlar Akademiyasi» station. All the buses from that bus stop go to the Central Hospital. But if you go on foot, you'll get there in 15 minutes. |

| | | |
|---|---|---|
| - Təşəkkür edirəm. Sağ olun. | -Благодарю. До свидания. | - Thanks. Good bye. |
| -Salamat gedin | -Доброго пути. | - Bless you. |

## 47-ci dərs

1. Yer zərfi.
2. Dinləmə. Dinlənilən mətn əsasında ifadə.
3. Leksika. Yoxlayıcı çalışma.
4. Mətn. Azərbaycan.
5. Dialoq.

### 1. Yer zərfi.

> **Qeyd:** *Yer zərfi hərəkətin icra olunduğu yeri bildirir, haraya? harada? haradan? suallarından birinə cavab verir.*

***Tapşırıq 564.*** Yer zərflərinə fikir verin.

1. Həmişə irəli getmək, geri qalanları da qabağa çəkmək lazımdır. 2. Yuxarı çıxanların və aşağı düşənlərin əlindən tərpənmək mümkün deyil. Yuxarıda uşaq paltarları və oyuncaqları satılır. Aşağının bir hissəsində kişi geyimləri, bir hissəsində isə qadın geyimləri şöbəsi yerləşir. Ortanı isə təmir edirlər. 3. Biz gördük ki, hamı arxaya toplaşıb. 4. Qonşum Qafarın mənzili bizdən aşağıda yerləşir. 5. Səhnənin sağında orkestr, solunda xor var. 6. Uşaqlar yan-yörəmizdə qaçışırlar. 7. Onun ayaqqabıları ayağını sıxdığı üçün geridə qalırdı. 8. Masanın üstündəki yasəmənin iyi ətrafa yayılıb. 9. İnsan məqsədinə çatmaq üçün irəli baxmalıdır. 10. Öndə gedənlər III kurs tələbələridir.

***Tapşırıq 565.*** Oxuyun, zərfləri müəyyənləşdirin.

1. Qaçaq Nəbi tez atını kənara çəkdi. 2. Səs etmə, xəlvət gəlib, eşidən olar. 3. Sən düz deyirsən; ağlamayan uşağa süd verməzlər. 4. Elçilər evdən məyus çıxdılar. 5. Sən azərbaycanca pis danışırsan. 6. Qapı qəfildən örtüldü. 7. Düşmən hiyləgərcəsinə gülümsəyirdi. 8. O köks ötürüb yanındakı qıza həsrətlə baxdı. 9. Yanından saymazyana ötüb keçdi. 10. Qoca yamanca yorulmuşdu. 11. Kişi ağayana rəftar etdi, əzilənləri yenidən əzmədi. 12. Bu işlərin axırı tezliklə düzələr. 13. Oğlan səhərdən - axşamacan çalışır, pul qazanırdı. 14. İlk əvvəl gözlərinə inanmadı, sonra qarşısındakı mənzərənin real olduğunu görüb, təəccüblə içini çəkdi. 15. Gec-tez o öz səhvini başa düşüb əzab çəkəcək. 16. Qız xeyli düşündü, sonra təklifə rədd cavabı verdi. 17. Müdir işçilərini bir-bir gözdən keçirtdi, bir az fikirləşib aramla danışmağa başladı. 18. Sizdən dönə-dönə üzr istəyirəm, mən düzgün hərəkət etməmişəm. 19. Tələbə suallara düzgün cavab vermir, tamamilə mövzudan kənara çıxırdı. 20. Qardaşlar səssiz-səmirsiz bir-birinin üzünə baxdılar. 21. Onlar üz-üzə gəldilər, lakin sakitcə baxışdılar, heç nə danışmadılar.

***Tapşırıq 566.*** Verilmiş cümlələrdə altından xətt çəkilmiş, həm zərf, həm isim kimi işlənən sözləri ayırın.

l. Səhər kitabımı səndən götürəcəyəm. 2. Səhər açıldı. 3. Axsam dostlarımızı da yığ, bizə gəl. 4. Bu şəhərin axşamları çox küləkli olur. 5. Gecə xəlvət, tülkü bəy. 6. Konsert gecə başlayacaq. 7. Bu il qış çox sərt keçəcək. 8. Qışda səhərlər qısalır, gecələr uzanır.

***Tapşırıq 567.*** Suallara cavab yazıb zərfləri göstərin.

l. Bu gün hava necə olacaq? 2. O, nə qədər danışır, nə qədər yeyir? 3. Tələt necə danışmaq istədi? 4. Çində istehsal olunan qatarlar necə hərəkət edir? 5. Qonşular harada toplaşmışdılar? 6. Sən dostunla sabah nə vaxt görüşəcəksən? 7. Kəndə haçan qayıdacağıq? 8. Xəbəri eşitcək həmin dəqiqə sən onu necə çatdırdın? 9. Nə zaman yağış yağdı? 10. O, necə görünürdü?

***Tapşırıq 568.*** Nöqtələrin yerinə mötərizədəki yer zərflərindən uyğun gələnini artırın *(irəli, geri; sağ, sol; aşağı, yuxarı; qabaq, arxa; alt- üst).*

1. Maşın gah..., gah da... burulur. 2. Bacım məndən...., rəfiqəm isə ... yaşayır. 3. Leninin əsərlərindən biri «Bir addım... iki addım ...» adlanır. 4. ... müəllimlər, ... şagirdlər əyləşib. 5. Babam bağdan meyvə dərdi və səbətə yığdı. Səbətin ... alma və armudu, ... ərik və şaftalıları yerləşdirdi.

## 2. Dinləmə. Dinlənilən mətn əsasında ifadə.

## 3. Leksika.Yoxlayıcı tapşırıqlar.

Azərbaycan dilinin lüğət tərkibini təşkil edən sözlər onun leksik fondunu təşkil edir. Dilin leksik fonduna yüzlərlə ümumişlək sözlər, terminlər daxildir.

Ümumişlək sözlər hamı tərəfindən başa düşülür və nitqlərində işlədilir.

***Tapşırıq 569.*** Özünüzü yoxlayın. Bildiyiniz uyğun sözləri yazın.
Mebel: masa, …
Meyvə: nar, …
Tərəvəz: kök, …
Quş: sərçə, …
Gül: lalə, …
Qab-qacaq: qazan,…
Geyim: ayaqqabı, …
Balıq: sazan, …
Həşərat: arı,…
Ev heyvanları: keçi,…
Vəhşi heyvan: pələng, …
Peşələr: mühəndis, …
Qohumlar: əmi, …
Sinifdəki əşyalar: lüğət…

Fənlər: ədəbiyyat, …
Planetlər: Mars, …
Dini kitablar: Quran,…

***Tapşırıq 570.*** Təkmənalı sözləri cümlədə işlədin.

Armud, ev, hasar, metro, alça, baba, nənə nar, həyat, bahar, külək, meşə, qatar.

***Tapşırıq 571.*** Aşağıdakı sözlərin mənasını Azərbaycan dilində izah edin.

Ehtiram, etibar, ehtimal, müqavilə, mərdlik, paxıllıq, sərəncam, igidlik, iradəli, əmr, hasar, meşə, külək, həyat, nar, qatar.

Ehtiram (почтение), etibar (доверие), ehtimal (вероятность), müqavilə (договор), mərdlik (мужества), paxıllıq (зависть), sərəncam (распоряжение), igidlik (храбрость), iradəli (решительный), əmr (приказ), hasar (ограда), meşə (лес), külək (ветер), həyat (жизнь), nar (гранат), qatar (поезд).

***Tapşırıq 572.*** Aşağıda verilmiş çoxmənalı sözləri müxtəlif cümlələrdə işlədin.
Baş, çəkmək, düşmək, göz, qol, ayaq, boğaz, əl, bel.

***Tapşırıq 573.*** Verilmiş sözlərə "çəkmək" feilini artırmaqla çoxmənalı sözlər düzəldib yazın və onları cümlələrdə işlədin.

*Nümunə:*
Əl, qol, söz, dərd, qəm, qüssə, fikir, ah, şirə, rütubət, nəm, əzab, gülab, burun, ayaq, zəhmət, aclıq, korluq, həsrət, sürmə, yol, su, arx, diş, xətt, növbə, xərc, hesab, qayğı, baş, hücum, xörək, qorxu, özünü, ad, şəkil, plan, telefon, hasar, qeyrət, qəriblik.

***Tapşırıq 574.*** Aşağıda verilmiş çoxmənalı sözləri yadınızda saxlayın. Həqiqi və məcazi mənaları bir-birindən ayırın.

| | | | | | |
|---|---|---|---|---|---|
| **Əl** | əli yumaq<br>(мыть руки)<br>ələ gətirmək<br>(добиться)<br>ələ salmaq<br>(издеваться)<br>əl vermək<br>(здороваться) | **Göz** | adamın gözü<br>(глаз человека)<br>stolun gözü<br>(ящик стола)<br>bulağın gözü<br>(начало родника) | **Düşmək** | ağacdan düşmək<br>(падать с дерева)<br>yola düşmək<br>(отправиться)<br>başa düşmək<br>(понимать)<br>əsir düşmək<br>(попасть в плен)<br>gözdən düşmək<br>(потерять уважение) |

*Tapşırıq 575.* İmla.

**Şah İsmayıl Xətai**

"Xətai Şah İsmayıl Heydər oğlu Səfəvi 23 iyun 1486-cı ildə Ərdəbil şəhərində anadan olmuşdur. Xətai görkəmli Azərbaycan şairi, dövlət xadimi - Azərbaycan Səfəvilər dövlətinin ilk hökmdarı olmuşdur (1502-1524). Xüsusi mədrəsə təhsili almış, Azərbaycan, fars və ərəb dillərini öyrənmişdir. Hər üç dildə şeir yazmaq qabiliyyətinə malik olan sənətkar əsərlərinin əksər hissəsini doğma ana dilində yazmışdır.

Klassik Şərq poeziyasını dərindən bilən Xətai qəzəl, qəsidə, tərcibənd, rübai, mürəbbe, qitə kimi klassik şeir formaları ilə yanaşı, xalq ədəbiyyatı, aşıq şeiri üslubunda da qoşmalar, nəfəslər, varsağılar, bayatılar yazmış, məşhur «Dəhnamə» poeması və «Nəsihətnamə» məsnəvisi ilə şöhrətlənmişdir.

Xətai 23 may 1524-cü ildə vəfat etmişdir".

**Mənbə:** Xətai. Əsərləri, Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2005, s.5-10

*Tapşırıq 576.* Şeiri intonasiya ilə ifadəli oxu.

**Azərbaycan**

"Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan.
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan.
Səndən uzaq düşsəm də mən eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi qəlbi viran Azərbaycan.
Övladların nə vaxtadək tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!
Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!
Şəhriyarın ürəyi də səninki tək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!"

**Mənbə:** Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı: "AVRASİYA" nəşriyyatı, 2005, s.176

## 4. Mətn.

**Azərbaycan**

Azərbaycan əlverişli təbii şəraiti, mülayim iqlimi, zəngin sərvəti olan bir diyardır. Yer kürəsinin 11 iqlim tipindən səkkizi Azərbaycanda var. Respublikamızın ərazisi üç tərəfdən Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağları ilə əhatə olunmuşdur. Böyük Qafqaz dağları bu ərazini soyuq şimal küləklərindən qoruyur. Ən böyük çaylar Kür və onun qolu Arazdır. Azərbaycanda 4100-dən çox

bitki növü var. Respublikanın meşə, dağ və düzlərində 97 növ heyvan, 346 növ quş, sularında 95 növ balıq var.

Azərbaycanın torpağı çox zəngindir. Buradan neft, qaz, bir çox faydalı qazıntılar çıxarırlar. Ətirli çay, dadlı meyvələr: üzüm, əncir, nar, tut, alma, armud, ərik, şaftalı, portağal, limon, feyxoa, narıngi, qovun, qarpız və s. süfrələr bəzəyidir. Dünyada ən qiymətli bitkilərdən olan zəfəran Abşeron torpağında becərilir. Azərbaycan pambığı və ipəyi ilə də çox məşhurdur.

***Tapşırıq 577.*** Mətni oxuyun. Suallar tərtib edin və cavablandırın.

**5.Dialoq.**

| | | |
|---|---|---|
| Xahiş edirəm, ... ütüləyin (təmizləyin). | Погладьте (почистите), пожалуйста, … | Iron (clean), please. |
| Xahiş edirəm, ləkəni təmizləyin. | Удалите, пожалуйста, пятно. | Remove the stain, please. |
| Mələfələri (şeyləri) nə vaxt ala bilərəm? | Когда я могу получить бельё (вещи)? | When can I get linen (bed (linen) things? |
| Xidmətçi qadın gələr, soruşarsınız. | Придёт горничная, спросите. | The maid will come, ask her. |
| Bu, tez olarmı? | А это быстро будет? | Will it be last? |
| İki saatdan sonra alarsınız. Əgər sizdə yumaq üçün də şeylər varsa, xidmətçi qadına verə bilərsiniz. | Через два часа получите. А если у вас есть вещи и для стирки, то тоже можете ей передать. | You ‘ll get it it in two hours. And if you have clothes (other things) for washing, you can also give her. |
| Ertəsi gün səhər təmiz paltarları alacaqsınız. | На следующее утре получите чистое бельё. | Get clean linen the next worning. |
| Sağ olun!<br>Dəyməz. (Xidmətçi qadına). Mümkünsə, bu kostyumu kimyəvi təmizləməyə, bu paltarları isə yumağa verin. | Спасибо!<br>Пожалуйста.<br>(Горничной). Сдайте, пожалуйста, в чистку этот костюм, а это бельё – в стирку. | Thanks!<br>(Thank you!)<br>You are welcome. (To the maid -) Please hand over this suit for cleaning, and this laundry for washing. |
| Sizə təcili lazımdır? | Вам срочно? | Do you need it urgently? |

| | | |
|---|---|---|
| Yox, mən tələsmirəm. | Нет, я не тороплюсь. | No, I’mnot in a hurry. |
| Onda mən sabah səhər gətirərəm. | Тогда я принесу вам завтра утром. | Then I’ll bring you tomorrow worning. |
| Sağ olun! Sabah da olar. Pulunu indi verim? İstəyirsiniz indi verin, istəyirsiniz sabah. | Спасибо. Можно и завтра. Деньги сейчас заплатить? Хотите сейчас, хотите завтра. | Thanks. Way be tomor-row. pay now? (Does the Money to be paid now?) If you want you can pay now, or you can pay tomorrow. |
| Mən nə qədər verməliyəm? | Сколько с меня? | How much? |
| ... manat... qəpik. | ... рублей ... копеек. | ....rubles...kopeeks. |
| Buyurun, alın. | Пожалуйста, получите. | Take it, please. |

## 48-ci dərs

1. Sintaksis. Söz birləşmələri.
2. Şəkil üzrə iş. Nə? Harada? Nə zaman? adlı intellektual oyunu.
3. Məntiqi suallara cavab verin.
4. Mətn. BDU-nun beynəlxalq aləmdə yüksəlişi.
5. Yunis Əmrə "Salam olsun" şeiri.

### 1. Sintaksis. Söz birləşmələri.

*Qeyd:* *"Sintaksis" yunan sözü olub mənaca "birləşmə", "tərtibat" deməkdir.*

*Sintaksis qrammatikanın bir hissəsidir. Söz birləşmələrini, cümlə və onun tərkibini öyrənir.*

*Söz birləşməsi iki və daha artıq müstəqil sözün birləşməsindən əmələ gəlir. Məs., qızıl üzük, doğma yurd, pəncərə şüşəsi. Quruluşca iki növü vardır: Sadə söz birləşmələri iki müstəqil sözdən, mürəkkəb söz birləşmələri isə üç və daha artıq müstəqil sözdən ibarət olur.*

***Tapşırıq 578.*** Vətən oğlu, vətəni qoruyan, xəbər gətirən, böyüyə hörmət söz birləşmələrini cümlələrdə işlədin.

***Tapşırıq 579.*** Mürəkkəb söz birləşmələrinə diqqət yetirin.

1.Yazın ılıq nəfəsi duyulurdu. 2. Bu kitabdakı şəkillər maraqlıdır. 3. Göydə uçan quşlar aşağı endi. 4.Çox çalışan uşaq fərqli olur. 5. Kəndə tərəf getmək lazımdır.

***Tapşırıq 580.*** Sadə söz birləşmələrini cümlədə işlədin.

Ana laylası, ata məhəbbəti, günəşin şüaları, mavi səma, sevincdən ağlamaq, mesaj göndərmək.

***Tapşırıq 581.*** "Baş" sözünün iştirakı ilə formalaşmış söz birləşmələrinin hər birini bir sözlə əvəz edin.

*Nümunə:* Baş açmaq – bilmək.

| | |
|---|---|
| Başa düşmək – | Başa çatdırmaq – |
| Başa vurmaq – | Baş sındırmaq – |
| Başa salmaq – | Başına hava gəlmək – |
| Baş dolandırmaq – | Başı aşağı olmaq – |

***Tapşırıq 582.*** *Əl* sözünün iştirakı ilə formalaşmış sabit söz birləşmələrinin hər birini bir sözlə ifadə edin.

Əl çalmaq –
Əl vurmaq –
Əldən düşmək –
Əl eləmək –
Əl saxlamaq –
Ələ vermək –
Əli aşağı olmaq –
Ələ salmaq –
Əl gəzdirmək –
Əl qaldırmaq –

***Tapşırıq 583.*** A və B sütunlarında verilmiş sözlərdən uyğunlaşdırıb söz birləşmələri düzəldin.

| A | B |
|---|---|
| fövqəladə | əmlak |
| Roma | rəsmlər |
| Qayaüstü | vəziyyət |
| Daşınmaz | papası |
| Sülhməramlı | hərəkatı |
| Arxeoloji | status |
| Avropa | böhran |
| Taliban | şurası |
| Xəzərin | qazıntılar |
| siyasi | qüvvələr |
| torpağın | qorunması |
| heyvanların | münbitliyi |

**2. Şəkil üzrə iş. Nə? Harada? Nə zaman? adlı intellektual oyunu**



**3. Məntiqi suallara cavab verib yazın.**

1. Telefonu ixtira edən Aleksandr Orahan Bel arvadı və anası ilə heç vaxt telefonda danışa bilmədi. Sizcə nəyə görə?
2. Dünyanın ən çox oxunan mahnısı hansıdır?
3. Çinlilər niyə yeməklərini çubuqla yeyirlər?
4. Kömək siqnalı olan S.O.S.-un mənası nədir?
5. Şahmatda şah niyə passivdir?
6. Bir pişik iti cırmaqlamışdır, bəs it nə demişdir?
7. Adamın biri gecə yarısı yatağının ətrafında qaçırmış. Nə üçün?
8. Beş qardaş idik, beş alma budaqda, hərəmiz almalardan birini yedik. Neçə alma qaldı budaqda?
9. Hansı yazı silinməz?
10. Ələk ilə su necə daşınar?

***Tapşırıq 584***. İmla.

**Nizami Gəncəvi**

“Nizami dünya şöhrətli dahi söz ustasıdır. Yaxın Şərqdə “Xəmsə” yazmaq ənənəsinin banisidir. Gəncədə doğulmuş, bütün ömrünü bu şəhərdə keçirmişdir. Yaradıcılığa lirik şeirlə başlamışdır.

Nizamiyə dünya şöhrəti qazandıran “Xəmsə” adı altında toplanmış poemalarıdır: “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndərnamə”. “

**Mənbə:** (37 söz) Daxili baza

**4. Mətn.**

**BDU-nun beynəlxalq aləmdə yüksəlişi**

Universitet yüksək ixtisaslı kadrlar hazırlamaqla bərabər, həm təbiət, həm də humanitar elm sahələri olmaqla 123 kafedranı, 200-dən çox elmi əməkdaşı olan 37 elmi-tədqiqat və tədris laboratoriyasını, Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunu və Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunu özündə birləşdirən, Azərbaycan dili, ədəbiyyatı və tarixinin klassik məsələlərindən tutmuş genetika, nanotexnologiya, nanomateriallarən alınmasınadək çox geniş spektrdə mövzuları əhatə edən, elmi araşdırmalar həyata keçirən böyük elmi mərkəzdir.

Universitetin beynəlxalq əlaqələri gündən-günə genişlənir. Hazırda universitet keçmiş SSRİ-nin bir çox universitetlərini özündə birləşdirən Avroasiya Universitetlər Assosiasiyasının, Xəzəryanı Ölkələr Universitetləri Assosiasiyasının, Qara Dəniz Universitetləri (QDU) Assosiasiyasının, Avropa Universitetləri Assosiasiyasının üzvüdür. Universitet 2002-2004-cü illərdə QDU Assosiasiyasına çox uğurla rəhbərlik etmişdir. Bundan əlavə, universitet M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Orta Doğu Teknik

Universiteti, Nitsa-Sofiya Antipolis Universiteti, İndiana Universiteti, Kiyev Milli Universiteti, Vyana Universiteti və digər universitetlərlə ikitərəfli müqavilələr əsasında hərtərəfli elmi-texniki, müəllim-tələbə mübadiləsi sahəsində əməkdaşlıq edir.

Bakı Dövlət Universitetində 12 ölkədən 400-dən artıq xarici tələbə, magistrant, aspirant, doktorant, stajor təhsil alır.

Universitetdə bakalavr hazırlığı üçün 4 il, magistr hazırlığı üçün 2 il, elmlər namizədi və elmlər doktoru hazırlığı üçün 3-4 il vaxt norması nəzərdə tutulmuşdur.

Təhsil ödənişli və ödənişsiz əsaslarladır. Burada əyani və qiyabi şöbələr fəaliyyət göstərir.

Universitetin tərkibində çap avadanlıqları olan nəşriyyat, 6 muzey, 80 elmi-tədqiqat və tədris laboratoriyası, informasiya və tərcümə mərkəzi, idman - sağlamlıq kompleksi, poliklinika fəaliyyət göstərir. Burada həmçinin yataqxana və tələbə şəhərciyi var.

**Mənbə:** Daxili baza, vikmənbə

**Mətnə aid suallar:**

1. BDU  hansı Assosiasiyanın üzvüdür?
2. BDU hansı universitetlərlə ikitərəfli müqavilələr əsasında hərtərəfli elmi-texniki, müəllim-tələbə mübadiləsi sahəsində əməkdaşlıq edir?
3. BDU-da neçə ölkədən və nə qədər xarici tələbə bakalavr, magistr, aspirant və doktorant təhsil alır.

***Tapşırıq 585.*** Mətni oxuyun və sualları cavablandırın.

**Dinləmə materialı.**

**<u>5. Yunis Əmrə “Salam olsun” şeirini intonasiya ilə  ifadəli oxu.</u>**

“Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun!
Bizim üçün xeyir-dua
Qılanlara salam olsun!

Əcəl bükə belimizi
Söylətməyə dilimizi
Xəstə ikən halımızı
Soranlara salam olsun!

Bu qaydadı, gələn gedər
Əcəl ki var bizi güdər.
Bizim halımızdan xəbər
Soranlara salam olsun!

Dərviş Yunus söylər sözü,
Yaş doludur iki gözü
Bilməyən nə bilsin bizi?!
Bilənlərə salam olsun!”

**Mənbə:** Şeir dünyası, Fasebook

**Dialoq. Mənə Azərbaycanca kitab lazımdır.**

| | | |
|---|---|---|
| **Qumru:** Mənə Azərbaycan dilində kitablar lazımdır. | Мне нужны книги на азербайджанском. | I need books in Azerbaijani. |
| **Satıcı:** Sizi nə cür kitablar maraqlandırır? | Какого жанра книги вас интересуют? | What  kind of books interest you? |
| **Qumru:** Məni Azərbaycan klassikləri maraqlandırır. Sizdə Axundovun kitabları vardırmı? | Мне интересны книги азербайджанских классиков. У вас ксть книги Ахундова? | I am interested in the Azerbaijani classics. Do you have Akundov’s book? |
| **Satıcı:** Bəli, var. | Да, мы имеем. | Yes, we do. |
| **Qumru:** Zəhmət olmasa o kitabı mənə göstərin. | Можете мне показать книгу? | Could you show me that book? |
| **Satıcı:** Buyurun. | Вот она. | Here it is. |
| **Qumru:** Lüğət neçəyədir? | Сколько стоит словарь? | How much does dictionary cost? |
| **Satıcı:** 10 manata. | 10 манат. | 10 manats. |

## 49-cu dərs

1. İsmi birləşmələr
2. İfadə yazı. Bakı funikulyoru.
3 Yoxlayıcı tapşırıqlar.
4.Mətn. Azərbaycan Respublikasının Dövlət Bayrağı.
5.Dialoq.

### 1. İsmi birləşmələr.

***Qeyd:*** *Əsas tərəfi adlarla (əsasən isim, sifət və sayla) ifadə olunan birləşmələrə ismi birləşmələr deyilir. Məs.,Vətən oğlu, uçan quş və s.*

*İsmi birləşmələr iki böyük qrupa ayrılır:*

*1. Təyini söz birləşmələri.*

*2.Qeyri-təyini söz birləşmələri.*

*Hal və mənsubiyyət şəkilçiləri olmadan yaranan birləşmələrə I növ təyini söz birləşmələri deyilir. Məs., sərin su, işıqlı otaq, yağışlı hava və s.*
*Birinci növ təyini söz birləşmələrinin asılı tərəfi isim, sifət, say, əvəzlik və feili sifətlə, əsas tərəfi isə isimlərlə ifadə olunur. Məs.,*

| | | | |
|---|---|---|---|
| baş<br>savadlı<br>çalışan<br>təcrübəli<br>gözəl<br>yaxşı<br>beş<br>o | müəllim | taxta<br>böyük<br>örtülən<br>davamlı<br>şüşəli<br>həmin<br>çoxlu | qapı |

*<u>II növ təyini söz birləşmələri.</u> Birinci tərəfi yiyəlik hal şəkilçisiz, ikinci tərəfi mənsubiyyət şəkilçili (-ı,-i, -u, -ü) birləşmələrə II növ təyini söz birləşmələri deyilir. Məs., səadət sarayı, xalq qəhrəmanı, dağ çiçəyi və s.*

*<u>III növ təyini söz birləşmələri.</u> Yiyəlik hal və mənsubiyyət şəkilçiləri qəbul edir. Birinci tərəf yiyəlik hal şəkilçili, ikinci tərəf mənsubiyyət şəkilçili olur. Məs., şairlərin əsərləri, dağların çiçəkləri. Sizin oğlunuz – əvəzlik + isim; yaxşıların yaxşısı – sifət + sifət; oxumağın faydası – məsdər + isim. Bunların arasına istənilən qədər söz də əlavə etmək olar. Məs., Bağın şirin, dadlı, saf, hamı tərəfindən bəyənilən almaları.*

*Qeyri-təyini isim birləşmələri nisbətən az işlənir. Məs., yanağı xallı, kirpikləri uzun, bənizi solğun.*

***Tapşırıq 586.*** *Gözəl insan, məlahətli səs, uçan quş, qırmızı köynək, həmin hadisə, bu şagird, o kitab, bütün millətlər, beş dəftər, dəmir ledi* I növ təyini söz birləşmələrinin köməyi ilə cümlələr qurun.

***Tapşırıq 587.*** Köçürün. Aşağıdakı cümlələrdə I növ təyini söz birləşmələrini göstərin.

1. Azərbaycan hüquqi dövlətlər sırasındadır. 2. Rəqqaslara milli geyimlər verildi. 3. Gözəllər gözəli Mina xanım zala daxil oldu. 4. Bu kitab çox maraqlıdır. 5. Anar yeni məktəbdə oxuyur. 6. Qafqazda sıx meşələr çoxdur. 7. Oyanan xalq azadlıq yolunu seçmişdir. 8. Bağçada ətirli güllər var. 9. Bu şagirdlər əlaçıdırlar. 10. Oxuyan quşlar bülbüllərdir.

***Tapşırıq 588.*** *Ana uşağı, şəhər həyatı, kənd camaatı, ağac yarpağı, səadət sarayı, xalq düşməni, gözəllər gözəli* II növ təyini söz birləşmələrinin köməyi ilə cümlələr qurun.

***Tapşırıq 589.*** Köçürün. Aşağıdakı cümlələrdə II növ təyini söz birləşmələrini göstərin.

1. Göz işlədikcə uzaqlarda Qarabağ dağlarının gümüşü silsiləsi parıldayırdı. 2.Dünya işığını sənə haram etdirən, heç nədən xəbəri olmayan başqaları isə səni mühakimə edirlər. 3. Qürub günəşi geniş çölün fonunda xoş bir xəyala bənzəyirdi. 4. Su qabı suda sınar. 5. Mədəniyyət evinin çölə baxan tərəfində tək pəncərəli balaca bir otaq var idi.

***Tapşırıq 590.*** Aşağıdakı III növ təyini söz birləşmələrini cümlələrdə işlədin.

Xoruzun banı, bülbülün şərqisi, qızın gözləri, kitabın səhifələri, atamın səsi, onun çantası, bizim mahnımız, kəpənəyin uçuşu, bizim ailəmiz.

***Tapşırıq 591.*** Aşağıdakı cümlələrdə III növ təyini söz birləşmələrinin altından xətt çəkin.

1. Nizaminin dünya şöhrətli əsərləri dillər əzbəridir. 2. Çayın kənarı ilə evə getdik. 3. Anamın arzusu gözündə qalmadı. 4. Sizin oğlunuz əsgərlikdən qayıtdı. 5.Bu gün universitetdə tələbələr arasında yaxşıların yaxşısı seçildi. 6. Şuşanın yolları uzanıb gedirdi. 7. Məğrur xalqın iradəsi əvəz olunmazdı. 9. Dağların ətirli çiçəkləri ətrafa gözəllik verirdi. 10. Oxumağın faydası həmişə bilinir.

***Tapşırıq 592.*** Verilmiş söz birləşmələrini cümlədə istifadə edin.

Yer kürəsi, Azərbaycan təbii sərvətləri, atmosferin çirklənməsi, Zaqatala qoruğu, ekoloji problemlər

***Tapşırıq 593.*** Suallara cavab verin - cavabları tamamlayın.

1. Haranız ağrıyır? - Boğazım ....
2. Nə üçün almırsan? - pulum olmadığı üçün ....
3. Nə qədər pulun qalıb? - 25 min manat....
4. Nə ilə səyahət edirsiniz? - Gəmi ilə... .
5. Necə danışırlar?- Yavaş-yavaş ....
6. Neçə yaşı var? - On səkkiz ....
7. Nə zaman anadan olub? - 1975-ci ildə ....
8. Təyyarə nə vaxt uçur? - 16.30-da ....
9. Nə üçün satır? - Pulu qurtarıb.
10. Neçə nəfərdirlər? - On üç ... .
11. Bayrağımızda neçə rəng var? - Üç ... .
12. Dərs neçədə qurtarır? - 13.00-da ....

## 2. İfadə yazı. "Bakı funikulyoru".

"Bakı funikulyoru Əliş Ləmbəranskinin təşəbbüsü ilə tikilmişdir. 1960-cı il mayın 5-də istifadəyə verilmişdir. 2 stansiyası var: "Bəhram Gur" və "Şəhidlər xiyabanı". Stansiyalararası məsafə 455 metrdir. Cəmi 2 vaqonu olan bu funikulyorda vaqonlar saniyədə 25 metr sürətlə hərəkət edərək bir stansiyadan digərinə 4 dəqiqəyə çatırdı.

Vaqonlararası interval 10 dəqiqə, gediş haqqı isə 20 qəpik olmuşdur. Funikulyor saatda orta hesabla 2 min sərnişini daşımaq imkanına malik idi.

Funikulyor dəfələrlə təmirə bağlanıb. 2011-ci ilin aprelində isə yenidən təmirə dayandırılmışdır.

23 may 2012-ci ildə əsaslı təmir və yenidənqurmadan sonra yenidən istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.

Bakı şəhərinin sakinləri və xarici turistlərin sevərək istifadə etdiyi funikulyor Bakının ən maraqlı nəqliyyat vasitəsidir".

**Mənbə:** Mətbuat. Tarixi faktlar

### Mətnə aid suallar:

1. Kimin təşəbbüsü ilə Bakı funikulyoru tikilmişdir?
2. Neçənci ildə istifadəyə verilib?
3. Neçə stansiyası var?
4. Stansiyalararası məsafə neçə metrdir?
5. Neçə vaqonu var və hansı sürətlə hərəkət edir?
6. Nə qədər sərnişin daşımaq imkanı var?
7. Axırıncı dəfə neçənci ildə təmirə bağlanıb?
8. Neçənci ildə istifadəyə verilib?

9. Açılışda kimlər iştirak edib?

**3. Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 594.*** Dialoqları tamamlayın. Verilmiş sözlərdən istifadə edin.

*səpgi, ağrıkəsici, allergiya, hansı, hiss etmək, qrip, ürək ağrısı, boğaz, ürək*

1. **Həkim** **................**problemləriniz var?
**Nazlı** **...........**ağrıyır. Məndə həmişə.................olur. Mən bu .........qəbul edirəm, amma ağrı keçmir.
**Həkim** Siz laborator müayinədən keçməlisiniz. Baxaq görək xəstəliyiniz nədir?

2. **Kərəm** Qolundakı.........nədir?
**Ləman** Ah! Bu yəqin salatdakı göbələkdəndir.
**Kərəm** Bəli, ola bilər. Məgər göbələyə qarşı ............... var?
**Ləman** Hə, **...........** var.
**Kərəm** Özünü necə ................?
**Ləman** Yaxşıyam, ancaq düşünürəm ki, biz həkim çağırmalıyıq.

**3. Fatma** Sənə nə olub?
**Eldar** Başım ağrıyır.
**Fatma** ..........da ağrı var?
**Eldar** Yox, mənim ............ağrı yoxdur. Bu, ................ ola bilər?
**Fatma** Ola bilər.

***Tapşırıq 595.*** Verilmiş feilləri arzu formasında işlədərək dialoqları tamamlayın

*dəyişmək, rəngləmək, getmək, yatmaq, almaq, demək*

**1. Gülər** Özümü yaxşı hiss etmirəm. Həmişə yorğunam.
**Rafiq** Sən çox işləyirsən, heç dincəlmirsən.
**Gülər** Ancaq görüləsi işlər çoxdur.
**Rafiq** Sən gərək yaxşı.............və iş rejimini............. Bu, sənə kömək edər.

**2. Həmidə** Mən bu evi bəyənmirəm.
**Teymur** Sən gərək belə ............O ki pis deyil.
**Həmidə** Pisdir.
**Teymur** Yaxşı, onda sən burada bir neçə şeyi gərək ......................
**Həmidə** Bir fikrin var?
**Teymur** Hə. Divarları gərək.........., təzə divan......................
.........................Bu narıncı divan xoşuma gəlmir.

*Tapşırıq 596.* Dialoqu düzgün sıralayın.

Məncə, sən qrip olmusan. ☐
Hə, mən Nazilə xala, sənə nə olub? ☐
özümü həm də çox yorğun hiss edirəm. ☐
Heç bilmirəm mənə nə olub?
Boğazım ağrıyır və hərarətim var. ☐
Başqa ağrılarrı varmı? ☐

**4. Mətn.**

**Azərbaycan Respublikasının Dövlət Bayrağı**

Hər bir dövlətin özünün dövlət rəmzləri vardır: bayraq, gerb, himn.



Azərbaycan Respublikasının Dövlət Bayrağı
Üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir olunmuşdur.

**Mavi rəng** – Azərbaycanın türk mənşəli olması, türkçülük ideyası ilə bağlıdır.

Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng simvolik məna daşıyır.

Göy rəng həm də XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirib.

**Qırmızı rəng** – müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafı ifadə edir.

**Yaşıl rəng** – islam sivilizasiyasına islam dininə mənsubluğu ifadə edir.

**Aypara və ulduz** – aya və günəşə işarə olub, əbədilik, dünyəvilik rəmzidir.

**Mənbə:** Tarixi mənbə, Konstitusiya maddə- 23

**Mətnə aid suallar:**

1. Azərbaycan Respublikasının bayrağı neçə zolaqdan ibarətdir?
2.Qırmızı zolağın ortasında nə təsvir olunub?
3. Mavi rəngin mənası nədir?
4. Qırmızı rəng nəyi ifadə edir?
5. Yaşıl rəng nəyi ifadə edir?
6. Aypara və ulduzun mənası nədir?

*Tapşırıq 597.* Mətni oxuyun. Tərtib olunmuş sualları cavablandırın.

**Dinləmə (Muğam).**

**5. Dialoq. Özümü pis hiss edirəm.**

| | | |
|---|---|---|
| **Ömər:** Özümü pis hiss edirəm. Həkimə getməliyəm. | Я себя плохо чувствую. Нужно пойти к доктору. | I don't feel well. I have to go a doctor. |
| **Harun:** Getməyin. Qoyun sizə həkim çağırım. | Не надо идти. Разрешите я позову доктора. | Don't go. let me call a doctor. |
| **Həkim:** Şikayətiniz nə-dir? | На что вы жалуете? | What is your complaint? |
| **Ömər:** Boğazım ağrıyır, həm də ki, bərk öskürürəm. | У меня болит горло, еще я кашлю. | I have a sore throat and a severe cough. |
| **Həkim:** Başınız ağrıyır-mı? | А голова у вас болит? | Do you have a headache. But I feel weak. |
| **Ömər:** Xeyir, başım ağrı-mır. Amma özümü zəif hiss edirəm. | Нет, голова не болит. Но я себя слабо чувствую. | No, I don't have a headache? |
| **Həkim:** Yəqin sizə soyuq dəyib. Dilinizi çıxarın. Siz qrip olmuşunuz. Üç gün yataqda qalmalısınız. Bu dərmanları gündə üç dəfə qəbul etməlisiniz. | Вы наверное простудилась. Высуньте язык. вы заболели гриппом. Три дня я вам назначаю постельный режим. Эти лекарства принимайте три раза в день. | You must have a cold. Stick out your tongue. You have the flu. You must stay in bed for three days. Take these medications three times a day. |
| **Ömər:** Çox sağ olun, doktor. | Спасибо, доктор. | Thank you very much, doctor. |

## 50-ci dərs

1. Baş üzvlər. Mübtəda. Xəbər.
2. İfadə yazı "Mərdəkan dendralisi" əsasında.
3. Yoxlayıcı tapşırıqlar.
4. Mətn. Muğamlar.
5. Cütlərlə iş.

### 1. Baş üzvlər. Mübtəda. Xəbər

***Qeyd:*** *Bir-biri ilə həm mənaca, həm də qrammatik cəhətdən bağlı olan və müəyyən sintaktik suala cavab verən sözlərə cümlə üzvləri deyilir. Cümlə üzvləri iki yerə bölünür: 1. Baş üzvlər – mübtəda, xəbər; 2. II dərəcəli üzvlər – tamamlıq, təyin, zərflik.*

***Mübtəda:*** *Cümlədə haqqında danışılan şəxsi? əşyanı bildirir. Kim? nə? bəzən də hara? suallarından birinə cavab verir. İsmin adlıq halında olan sözlərlə və söz birləşmələri ilə ifadə olunur. Məs., Uşaq (kim?) dərsdədir. Moruq (nə?) soyuqdəymənin dərmanıdır. Bakı (hara?) gözəl şəhərdir.*
*Mübtəda qrammatik cəhətdən cümlənin ən müstəqil üzvüdür, yəni heç bir cümlə üzvünə tabe olmur. Mübtəda cümlədə ən çox xəbərə bağlı olur. Mübtədanın ifadə vasitələri bunlardır: isim, əvəzlik, sifət, say, məsdər, feili sifət, söz birləşməsi. Sifət, say, feili sifət mübtəda olanda isimləşir.*

***Tapşırıq 598***. Mübtədanın ifadə vasitələrini tapın.

1. Qrup nümayəndəsi hamını bir yerə topladı. 2. İnsanlar nəyi hiss edir və başa düşürlərsə, onu ifadə edirlər. 3. Qırmızı mənə daha xoş gəlir. 4. Ləyaqətli həmişə ləyaqətli olar. 5. Azərbaycan nəhəng, gözəl ölkədir. 6. Birincilər qalib gəldilər. 7. On iki beşə bölünməz. 8. O, sinfə daxil olaraq, hamını gözaltı nəzərdən keçirdi. 9. Siz hara baxırsız? 10. Göyün üzünü qara buludlar almışdı. 11.Yaşamaq gözəldir. 12. Tamaşa etmək lazımdır. 13. Bakının gecələri gözəldir.

***Tapşırıq 599.*** Aşağıdakı parçada mübtədaların altından xətt çəkin.

...Koroğlunun atasının adı Alı imiş. Koroğlunun əsil adı Rovşən idi, ancaq hər yerdə Koroğlu ləqəbiylə məşhur idi.

Koroğlunun atası uşaqlığından ta qocalana kimi, Həsən paşa adlı, varlı, güclü bir paşanın ilxıçısı olmuşdu.

Qoca ilxıçı bir gün dərya kənarında ilxını döş uzunu buraxıbmış. Bu zaman görür ki, dəryadan iki ayğır (at) çıxdı. Atlar özlərini ilxının içinə verdi; hərəsi bir at basdı, qayıtdı, özlərini suya verdi. Bu atların birisi qara-göy, o birisi qızılı-boz, hündür, uzunboylu göyçək şəkilli at imiş.

**Mənbə:** "Koroğlu" dastanı, (bir parça). Bakı: "Lider" nəşriyyatı, 2005, 552 s.

***Qeyd:*** ***Xəbər:*** *Mübtədaya aid iş, hal, hərəkət, hadisə və ya hökmü bildirən cümlə üzvlərinə xəbər deyilir. Xəbər nə etdi? nə etmişdir? nə edirəm? nə edəcəksən? nə edir? kimdir? nədir? necədir? hansıdır? və s. suallarından birinə cavab verir. Məs., Külək nə edir? – əsir. Müəllim nə edirdi? – baxırdı. Sən nə edəcəksən? – danışacaqsan və s.*

*Xəbər iki cür olur: İsmi xəbər və feili xəbər. Feili xəbər feilin şəxsli forması ilə ifadə olunur. Məsələn, Mən səni sevirəm. Sən çox oxuyursan və s. İsmi xəbərlər isim, sifət, əvəzlik, say, məsdər, feili sifət, zərf, söz birləşmələri ilə ifadə olunur. O da şəxsi formada olur. Məs., O, çox gözəl insandır. Biz vətənpərvərik və s.*

***Tapşırıq 600.*** *Yüksəlmək, baxmaq, vətəndaş, uçmaq, gəlmək, yazmaq, intizamlı, oturmaq, çırpınmaq* sözlərini xəbər yerində işlədib dəftərə yazın.

***Tapşırıq 601.*** Aşağıdakı şeir parçasında mübtəda və xəbərlərin altından xətt çəkin və ifadə vasitəsini göstərin.

**Həyat, söylə sən kiminsən?**

"Axan çaylar, sən kiminsən?
- Mənə körpü salanın!
Doğan günəş, sən kiminsən?
- Məndən işıq alanın!
Sonsuz fəza, sən kiminsən?
- Məndə qanad çalanın
Həyat, söylə, sən kiminsən?
- Mən həyatı öyrənənin, bacaranın, alanın!"

**Mənbə:** C.Cabbarlı

***Tapşırıq 602.*** Nöqtələrin yerinə mübtədaları artırın *(su, çay, şəlalə, düşmən, uşaqlar, adam, Quran, dəniz, ilan, düşmən, zarafat, görmək, tələsən, ibadət).*

1. ... ayaqlarını çaya salıb oturdular. 2. Yemiş və üzüm yedikdən sonra dərhal ... içmək olmaz. 3. Dünyada ən uzun ... Nil çayıdır. 4. Dünyada an böyük ... Viktoriyadır. 5. Dostların ayrılığından ... sevinər. 6. Yarpız əkilmiş həyətə ... gəlməz. 7. Dünyada ən duzlu və ən şəffaf ... Aralıq dənizidir. 8. ... «Fatihə» surəsi ilə açılır, «Nas» ilə bitir. 9. ... İslamın ən mühüm şərtlərindən biridir. 10. Gülə-gülə günah işlədən ... ağlaya-ağlaya cəhənnəmə gedər. 11. Yersiz ... dostluğu pozar. 12. Varlanmağa ... yoxsulluğa tez düşər. 13. Yuxuda yumurta ... bolluq, bərəkətdir.

***Tapşırıq 603.*** Cümlələrdə buraxılmış xəbərlər yazın.

1. Tələbələr saat doqquzda dərsə... 2. Qardaşımı məktəbə hər səhər anam... 3. Xalq şairi S.Vurğun 1906-cı ildə Qazaxda ... 4. Sevincin anası 15 ildir ki, hərbi qospitalda tibb bacısı ... 5. Biz hər yay Nabranda... 6. Qubada çoxlu meyvə bağları....... 7. Torpaqlarımızı biz özümüz ... 8. Mənim dostum çoxdur, amma dərdimi heç kimə .... 9. Novruz bayramı hamı bir-birinin evinə..., ağsaqqal və ağbirçəkliləri... 10. Ana dilinizi onu gələcək nəsillər üçün...

***Tapşırıq 604.*** Oxuyun, nöqtələrin yerinə *fikirləşirdi, verməyəm, qışqırdı, vardı, uşaqdır, yığdı, qonşumuz idi* sözlərindən uyğun gələnini yazıb cümlələri köçürün.

1. Nuru səliqə ilə qovluqlarını qatlayıb şkafa ... 2. Buna mən zarafatdan başqa özgə ad ... 3. Məlikzadənin oğlu altı yaşını təzəcə qurtarmış, sağlam, iri gözlü, yaraşıqlı bir ... 4. Beşinci vaqonun ağzında, başına çətir tutub dayanan bir xanımın Məlikzadə ilə danışdığını seçən Əfzəlov sevincindən bərk ... 5. Neçə il əvvəl, biz Ozan küçəsində yaşayanda, həmin bu Nazimə ... 6. Küçənin sonunda bir söyüd ağacı... 7. Atasına nə cavab verəcəyini ürək döyüntüsü ilə ... .

***Tapşırıq 605.*** Mətni köçürün, xəbərləri tapıb altından xətt çəkin, ismi və ya feli xəbər olduğunu üstündə qeyd edin.

Yaxşı havada missis Heyl gözəl çəmənliklərlə əhatə olunmuş, lakin ona qismət olmayan yaraşıqlı evlərin görünüşündən həzz alaraq ekipajda gəzməyi sevərdi. Şimal tərəfdə, indi Şimal sahil kənarı adlanan yerdə, çoxlu gözəl evlər tikilmişdi. İndi Miçiqan gölünə sədd çəkən daş və süni qranit divarlar o vaxt yox idi. Lakin hər iki tərəfindəki çiçəklərlə nəzəri oxşayan yaxşı yol salınmışdı və bütün binalar gözəl və yeni idi. Bir dəfə qış qurtarıb baharın ilk gözəl günləri başlayanda, missis Heyl ekipaj tutdu və Kenini gəzməyə dəvət etdi. Onlar Linkoln parkından keçərək Svenstona yollandılar. Saat dörddə geri dönüb beşə yaxın Şimal sahil kənarına çatdılar. İlin bu fəslində günlər hələ nisbətən qısa olur. Axşam kölgələri böyük şəhəri bürüyərək artıq sıxlaşmaqda idi. Fənərlərin yayğın və şəffaf görünən xəfif işıqları parıldamağa başlayırdı.

*(Teodor Drayzer)*

***Tapşırıq 606.*** Cümlələrdən hansının xəbərində cəm şəkilçisi səhv işlədilmişdir?

1. Tələbələr imtahanın başladığı saatda otağın qarşısına yığıldılar. 2. Sərçələrin səsi bütün həyəti başına götürmüşdülər. 3. Qarşı tərəfin güclü olduğunu görən döyüşçülər arxaya çəkildilər. 4. Qızılı yarpaqlar havada uçuşub yavaş-yavaş yerə enirdilər. 5. Qonaqlar yüksək qonaqpərvərliyə görə şəhərimizdən razı getdilər.

***Tapşırıq 607.*** Aşağıdakı cümlələri köçürün, xəbərlərin nə ilə ifadə olunduqlarını üstlərində göstərin.

1. O çox zəifdir. 2. Professor tələbənin qrupunu, familiyasını soruşdu. 3. Əlbəttə ki, bunlar bizlərə çox tanışdır. 4. İki milyon haqqında vəsiyyət sizə, mərhumun doğma bacıqızlarına aiddir. 5. Xəbərin sizə gec çatmağının səbəbi mərhumun varislərini axtarmaqdır. 6. Mən burada sadəcə deyilənləri yerinə yetirənəm. 7. Qabaq sırada oturanlar üçüncülərdir.

**2. İfadə yazı "Mərdəkan dendralisi" mətni əsasında.**

Azərbaycanın Mərdəkan dendrarisi 1895-1920-ci illərdə böyük xeyriyyəçi və neft milyonçusu Murtuza Muxtarovun şəxsi bağı olub. O dövrlərdə bağda 700 növə yaxın subtropik ağac və kol bitkisi əkilib. Arizona sərvi, İtaliya və Hələb şamları, dəfnə, İspan narı və digər qiymətli ağac, kol bitkilərinin, gül sortlarının, efir yağlı dərman bitkilərinin növ, forma, sortlarının kolleksiyalarının qorunub artırılmasına xüsusi diqqət verilib.



"Dendrari" adı yunan dilində işlənən "dendra" sözündəndir. "Mərdəkan dendrarisi" 1966-cı ildə yaradılıb. Bağda Murtuza Muxtarovun tikdirdiyi 4 ədəd yeraltı su kəhrizi var. Quyuların birinin iki çıxış yolu var ki, bunlardan biri Şəmsi Əsədullayevin bağına, digəri isə Xəzər dənizinə açılır.

Dendraridə bir çox filmlər də çəkilib – "Arşın mal alan", "Qorxma, mən səninləyəm", "Dərviş Parisi partladır", "Başsız atlı" və s. 2005-ci ildə Mərdəkan dendrarisi Dünya Botanika bağlarından biri kimi təsdiq edilmişdir.

Mərdəkan botanika bağında Murtuza Muxtarovun, rus botaniki S.N.Vavilovun, həmçinin rus şairi S.A.Yeseninin ev muzeyləri fəaliyyət göstərir.

**Mətnə aid suallar:**

1. Mərdəkan dendrarisi kimin bağı olub?
2. Murtuza Muxtarov bağda neçə növ subtropik ağac əkdirib?
3.Dendrari nə deməkdir?
4. Bağda neçə su kəhrizi (quyusu) var?
5. Quyuların neçə çıxış yolu var?
6.Yollar kimin bağına və hansı dənizə açılır?
7.Hansı filmlər dendraridə çəkilib?
8.Hansı alim və şairin burada ev muzeyi var?

**3. Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 608*** .Verilmiş sözlərdən və ifadələrdən reklam (elan) hazırlayın.

*trenajorlar, məşq etmək, oturmaq, formanı saxlamaq, aerobika*

Siz çoxlu.................. və....................... istəyirsinizmi?
Onda seçim sizindir!
Siz təcrübəli məşqçilərdən....................dərsləri ala bilərsiniz, həmçinin ................ istifadə edə bilərsiniz.

***Tapşırıq 609***. Aşağıdakı situasiyaları oxuyun və məsləhət verin. Verilmiş ifadələrdən feilin arzu formasından istifadə edin.

*idman etmək, vitamin qəbul etmək, dincəlmək, uzun müddət hərəkətsiz qalmaq, düzgün qidalanmaq, tez-tez gəzməyə çıxmaq, həkimə getmək, erkən, yatmaq*

1. Mən saat 9-dan 5-ə kimi ofisdə işləyirəm və kompüterdən çox istifadə edirəm. Tez-tez belim və gözlərim ağrıyır. Mən nə edim?

..............................................................................................................................

2.Səhərlər qalxa bilmirəm, çünki özümü çox yorğun hiss edirəm. Mən universitet tələbəsiyəm, çox oxuyuram, xüsusən gecələr. Mən həmçinin dostlarımla gəzməyə çıxıram və bəzən çox gec qayıdıram. Mən nə edə bilərəm?

..............................................................................................................................

3. Mən hər gün məşq edirəm. Çünki formada qalmaq və sağlam olmaq istəyirəm. Lakin özümü çox yorğun hiss edirəm və belim ağrıyır. Mən nə edə bilərəm?

..............................................................................................................................

***Tapşırıq 610.*** *"Və", "ancaq", "çünki", "ona görə də"* bağlayıcıları ilə cümlələri tamamlayın.

Bilirəm ki, hər gün idman etmək lazımdır,.................. bu, mənim xeyrimədir. .....................bunun üçün vaxt tapmaq heç də asan deyil. İşdən sonra mən vaxtımın çoxunu televizor qarşısında keçirirəm, ..................çox yorğun oluram. Bəzən mən ev işlərini görürəm, ya da yemək bişirirəm,..........................idman etməyə, həqiqətən, vaxtım olmur. Mən həm də gimnastika zalının üzvüyəm,...................... oraya nadir hallarda gedirəm. Bilirsinizmi, mən trenajorda məşq etməyi xoşlamıram, ...................düşünürəm ki, gimnastika zalı mənim üçün deyil. Bəlkə mən qaçışla məşğul olum?

Dostum hər səhər qaçır,.................o, yaxşı formadadır. Bəli, məncə, artıq ayağa qalxmaq...................idman etmək vaxtıdır.

**4. Mətn.**

## Muğamlar

Muğam şifahi ənənəyə malik Azərbaycan klassik professional musiqi janrlarından biri, iri həcmli vokal-instrumental və ya instrumental əsərdir. Yaxın və Orta Şərq xalqları arasında bu və ya digər dərəcədə muğama yaxın musiqi janrları mövcuddur. Muğam spesifik çoxsahəli musiqi janrı kimi orta əsrlərin son dövründə formalaşmışdır.

Muğamın Azərbaycan musiqisindəki rolunu, onun konsepsiyasının əhəmiyyətini Avropa musiqisindəki sonata – simfoniya konsepsiyası ilə müqayisə etmək olar. Muğam poeziyanı, ifaçılıq mədəniyyətini, yüksək bəstəkarlıq texnikasını özündə birləşdirmişdir. İllər keçdikcə tərkibindəki dəyişikliklərə baxmayaraq, muğam klassik Azərbaycan musiqisinin ən iri və əsas janrı olaraq qalır.

Muğam janrının yaranması eradan əvvəl minilliklərə təsadüf edir. Qədim şumerlərdə də bu söz "maq" kimi verilmişdir. "Muğam" sözü də "muğ" komponenti ilə "maq" kodundan yaranmış "Od harayı", Tanrıdan gələn, Tanrı göndərən sehrli musiqidir. Muğamın sirri – Tanrı sirridir, o səbəbdən də açılması mümkün deyil. O ki, qaldı "muğam" sözünün guya – ərəb mənşəli "məqam" – yəni "dayanılacaq yer" hesab edilməsinə, bu fikir yanlışdır. Burada sözün kökü unudulmuşdur "(Əjdər Fərzəli Qorqud "Dədə Qorqud sözü" kitabından).



Muğam musiqiçilər ansamblı tərəfindən ifa edilir. Bu ansamblı xanəndə (müğənni), tarzən və kamançaçıdan ibarət trio (üçlük) təşkil edir. Əsas aparıcı xətt xanəndənin üzərinə düşür, musiqiçilər onu müşayiət edirlər. Muğamın bu ənənəvi tipi ilə yanaşı, onun mahnı və rəqslə ardıcıllığından ibarət musiqi formaları da var: muğam-mahnı və ya üçhissəli mahnı – muğam – mahnı; rəqs – muğam – rəqs. Azərbaycan muğamları içərisində Rast, Şur, Segah, Çahargah, Bayatı Şiraz, Şüştər, Hümayun, Şahnaz və s. məşhurdur.

***Tapşırıq 611.*** Mətni oxuyun. Tərtib edilmiş sualları cavablandırın.

### Mətnə aid suallar:

1.Muğam nədir?
2.Muğam harada, hansı xalqlar arasında da yayılıb?
3.Muğamın Azərbaycan musiqisindəki rolu haqında nə deyə bilərsiniz?
4. "Muğam" sözünün etimologiyası nədir?
5. Muğam necə ifa edilir? Ansambl haqqında danışın.

6. Hansı Azərbaycan muğamları məşhurdur?

**<u>5. Cütlərlə iş.</u>**

**<u>Dialoq. Nədən şikayət edirsiniz?</u>**

| | | |
|---|---|---|
| Nədən şikayət edirsiniz? | На что вы жалуйтесь? | What is your complaint? |
| Ağzınızı açın. | Откройте рот. | Open your mouth. |
| Dilinizi çıxarın (göstərin). | Высуньте рот. | Stisk out ⁄ shom your tongel. |
| Öskürün. | Кашляйте. | Cough. |
| Dərindən nəfəs alın. | Дышите глубже. | Take a deep breath. |
| Nəfəs almayın. | Не дышите. | Don’t breath. |
| Nəfəsinizi saxlayın. | Держите дыхание. | Hold your breath. |
| Qurşağa qədər soyunun. | Разденетесь до пояса. | Strip to the waist. |
| Bir həftə bayıra çıxmayın. | Не выходите на улицу неделю. | Stay indoors for a week. |

**51-ci dərs**

1. Feili birləşmələr.
2. Həmcins üzvlər.
3. Xalq mahnısı “Pəncərədən daş gəlir”.
4. Mətn. Dilarə (C.Cabbarlı).
5.Dinləmə. Dinlənilən mətni ifadə şəklində yazmaq və danışın.

**2. Feili birləşmələr.**

***Qeyd:*** *Feili birləşmələrin ikinci tərəfi – əsas hissəsi feili bağlama, feili sifət və məsdərlə ifadə olunur. Məsələn, onu görəndə, yazı yazan, kitab oxumaq, durub baxmaq, eşidib sevinmək, xeyli danışıb, yavaş gəzərkən və s. Feili birləşmələrin birinci tərəfi adlıq, təsirlik, yönlük, yerlik, çıxışlıq halda olan isimlərdən, feillərdən və zərflərdən ibarət olur.*

***Tapşırıq 612.*** Aşağıdakı cümlələri köçürün, adlıq hallı feili birləşmələrin altından xətt çəkin.

1. Səfər baxarkən dağların arxasından boylanan günəş yava-yavaş üfüqdə əriyirdi. 2. Alı kişi çıxınca xadimə otağı yığışdırmağa başladı. 3. Qız qayıdanda artıq hər şey gec olacaq. 4. Uşaqlar meydançada oynayarkən müəllim yanlarından keçir, baxıb gülümsəyirdi. 5. Ayaz ağladıqca göz yaşları yanaqlarından süzülüb çənəsi aşağı axırdı. 6. Ana aslan dayanan kimi yanındakı balaları da yerə sindilər. 7. Səhər açıldıqca xəstənin ağrıları daha da artırdı.

***Tapşırıq 613.*** Aşağıdakı cümlələri köçürün, yönlük hallı feili birləşmələrin altından xətt çəkin.

1. Şəhər bağına girəndə şənlik səsi onu aldı. 2. O səhər hamı göyə baxıb, qaralan günəşə heyfsilənirdi. 3. Əkbər ona rast gələrkən yuxarıda danışılanları nöqtəsinə qədər çatdırdı. 4. Evə çatanda yağış daha da güclənmişdi. 5. Televizora baxmaq onun ən böyük xobbisi idi. 6. Kəndə yaxınlaşdıqca banlayan xoruzların, hürən itlərin, mələyən qoyun-quzunun səsi Şamilin ürəyinə yağ kimi yayılırdı.

***Tapşırıq 614.*** Aşağıdakı cümlələri köçürün, təsirlik hallı feili birləşmələrin altından xətt çəkin.

1. Əkbər aldığı kitabın hər vərəqini oxuduqca dayanıb fikirləşirdi. 2. Günəş, qəlblərdən qopan həyəcanı, yaşamaq arzusunu duymuş kimi, qüdrətli əlini üzünə çəkdi, ləkələri təmizlədi. 3. Heyrətini soyutmaq üçün qəzetin o biri səhifəsini də oxuyub ayağa qalxdı. 4. Həmişə olduğu kimi, bu gün də uşaqları toplayıb müxtəlif oyunlar çıxarırdı. 5.Nəzrin qollarını salladıqca xoşhallanır, yorğunluğu bədənindən çıxırdı. 6. Heyran xanım qapının kandarında qonaqları görəndə çox təəccübləndi.

7. Saleh kişi bu peşədə saçını ağardarkən Zeynal evdə buğlanan çaydan içib dincəlirdi.

***Tapşırıq 615.*** Aşağıdakı cümləlləri köçürün, yerlik hallı feili birləşmələrin altından xətt çəkin.

1. Dəftərdə qeyd apararkən arabir başını qaldırırdı. 2. Gəmidə səyahət etmək Məryəmin ən böyük arzusu idi. 3. Kitabda yazılanlar zaman keçdikcə həyatda öz əksini tapırdı. 4. Otaqda yanan şamlar qaranlıqda romantik bir mənzərə yaratmışdı. 5. Sahildə gəzərkən, qağayıların hay-küyü Nazimi keçmişlərə aparırdı. 6. İclasda deyilənlər Ramizi çox düşündürdü. 7. Bağda istirahət etmək Raufun bir ilinə bərabər idi.

***Tapşırıq 616.*** Aşağıdakı cümlələri köçürün, çıxışlıq hallı feili birləşmələrin altından xətt çəkin.

1. Dağlardan əsən külək onun saçlarını oxşadı. 2. Kişi qəzəbdən titrəyərək əllərini yanına salladı. 3. Keçmişdən alnıaçıq, üzüağ danışmaq Şərifovun tam haqqı idi. 4. Müdirin otağından çıxarkən işçi ağappaq ağarmışdı. 5. Həkimlər bütün qüvvələri ilə çalışırdılar ki, şişi kökündən qoparıb dəf etsinlər. 6. Səhər tezdən başlayan iclas, nəhayət axşam saatlarında sona çatdı. 7. Ata göz qapaqlarını ağır-ağır qaldırıb yan-yörəsində sevdiyi doğmalarını görüncə sevincindən ağlamağa başladı.

## 2. Həmcins üzvlər.

1. ***Qeyd:*** *Həmcins üzvlərin aşağıdakı xüsusiyyətləri var:*
2. *Həmcins üzvlər bir-biri ilə tabesizlik əlaqəsində olur.*
3. *Hamisi üçün ümumi olan bir üzvlə əlaqədar olur.*
4. *Həmcins üzvlər sintaktik cəhətdən eyni tipli olur.*
5. *Sadalayıcı intonasiya ilə tələffüz olunur.*

*Cümlənin bütün üzvləri (mübtəda, xəbər, təyin, tamamlıq, zərflik) həmcins olur.*
*Məsələn, Nazim, Rauf və Kamran uşaqlıqdan dostdurlar (mübtədalar).*
*Tamaşaçılar da gülür və əl çalırdılar (xəbərlər).*
*O, gənc, gözəl, girdəsifət bir qız idi (təyinlər).*
*Həmcins üzvlərdə ümumiləşdirici söz də ola bilər.*
*Məsələn, Azərbaycanın böyük çayları - Kür və Araz Muğan düzündə qovuşur.*

***Tapşırıq 617.*** Həmcins sözlərin hansı cümlə üzvü olduğunu müəyyənləşdirin. Tərcümə edin.

1. Divan, kreslo, jurnal stolu evin sağ tərəfindədir. Stol, stul ortadadır. 2. Nənəm mənə yun köynək, əlcək və şərf toxudu. 3. Solmaz evdə də, dərsdə də yalnız onun haqqında düşünür. 4. Novruz bayramında bütün evlərdə paxlava, şəkərbura bişirirlər. Mən dadlı, şirin paxlavanı çox sevirəm. 5. Rüstəm həm yeyir həm

televizora baxır, həm də telefonla danışır. O, həmişə harasa tələsir, həmişə də gecikir.

***Tapşırıq 618.*** Nöqtələrin yerinə həmcins sözlər artırın.

1. Azərbaycanın meşələrində ayı, ... yaşayır. 2. Atam ad günümdə mənim üçün təzə ... aldı. 3. Küçədə ... fıt verərək adamları narahat edir. 4. Təzə aldığım uzunboğaz çəkmə çox ... və .... 5. Professor həm..., həm də lövhədə ... 6. Mücrünü açanda orada qızıl... gördüm. 7. Onun ... ürəyi var. 8. ... rəngli işıqlar axşam şəhərimizi bəzəyir. 9. Anam ... aş bişirib, axşam ... bizə gələcəklər.

***Tapşırıq 619.*** Cümlələrdəki ümumiləşdirici sözlərə həmcins üzvlər yazın.

1. Mən dünya yazıçılarının - ... əsərlərini oxumuşam. 2. Bağda ətirli güllər -... adamı bihuş edir. 3. Tahirə özünə yeni qış geyimləri - ... aldı. 4. Rüstəm hazardan xeyli meyvə - ... aldı. 5. Mən əlvan rəngləri - ... xoşlayıram. 6. Nənəm həyətində ev quşları - ... saxlayır. 7. Balaca Həmidə dərs ləvazimatları - ... aldılar.

***Tapşırıq 620.*** Cümlələrdə həmcins üzvlərə nəzər salın.

1. Nailə, yəqin sən özün daha yaxşı bilirsən Gövhər hardadır, nə edir? 2. Gülnaz, Vəfa, qonaqlara şirin çay gətirin. 3. Dayan, tərpənmə, çoban, onsuz da bir-iki saatlıq ömrüm qalıb. 4. Ay nənə, o kimdir elə, pəncərəni bərk vurur, qışqırır.

***Tapşırıq 621***. Aşağıdakı dialoqa həmcins üzvlər artırın.

*Nümunə: Nərgiz, qızım,*

– Nərgiz, axşamın xeyir.
– Axşamın xeyr, Leyla.
– Necəsən, məşğələyə hazırlaşmısan?
– Bəli, Leyla, hazırlaşmışam.
– Dərs saatı neçədə başlayacaq, Nərgiz?
– Saat $10^{15}$-də başlayacaq, Leyla.
– Onda o zaman universitetdə görüşərik.
– Mütləq.
– Gecən xeyrə qalsın, Nərgiz.
– Gecən xeyrə, Leyla.

***Tapşırıq 622.*** Aşağıda verilən bayatılarda həmcins üzvləri, həmcins xitabları tapın, işlənmə yerini göstərin.

“Araz, Araz, can Araz!
Mən sənə qurban, Araz!

Zaman məni yandırdı,
Sən də alış, yan, Araz!

Ucadır başın, Kəpəz,
Ağarıb qaşın, Kəpəz.
De bir nədən qaralıb
Sənin sol daşın, Kəpəz?

Ceyran, çölə bir də gəl,
Ördək, gölə bir də gəl.
Bir gəlmisən, getmisən
İl dolansın bir də gəl!"

**Mənbə:**Şifahi xalq ədəbiyyatı

***Tapşırıq 623.*** Laylalarda həmcins xitabları tapın.

"Lay-lay, əməyim, balam,
Duzum, çörəyim, bala!
Gözləyirəm böyü sən,
Görüm köməyin, bala!

Lay-lay dedim, yat, bala,
Yuxuna şəkər qat, bala,
Ümidim bircə sənsən,
Boya-başa çat, bala!"

**Mənbə:**Şifahi xalq ədəbiyyatı

## 3.Xalq mahnısı «Pəncərədən daş gəlir».

Pəncərədən daş gəlir
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax.

Səni mənə versələr,
Ay bəri bax, bəri bax.
Aləmə də xoş gələr,
Ay bəri bax, bəri bax.

Pəncərənin milləri,
Ay bəri bax, bəri bax.
Açıb qızıl gülləri,
Ay bəri bax, bəri bax.

Oğlanı yoldan eylər,
Ay bəri bax, bəri bax.
Qızın şirin dilləri,
Ay bəri bax, bəri bax.

Pəncərəni bağlama,
Ay bəri bax, bəri bax.
Mən gedirəm ağlama,
Ay bəri bax, bəri bax.

Gedib bir də gələrəm,
Ay bari bax, bəri bax.
Özgəyə bel bağlama,
Ay bəri bax, bəri bax.

**Mənbə:** Azərbaycan xalq mahnısıı

***Tapşırıq 624.***Verilmiş mətni (türk, rus, ingilis) azərbaycan dilinə tərcümə etmək.

I need a taxi, is his taxi free? Yes, it is. Where would you like to do? Can you take me to the airport? Yes, please get in. Please go faster. Please stop just a minute and wait here for me. How much do I owe you? 9 manats.

Опыт азербайджанского народа содержит немало печального. Тем не менее азербайджанцы не разучились говорить: “Xoş gəlmisiniz” В ситуациях, где используется данная формула речевого этикета, в сознании современного азербайджанца нейтрализуются элементы негативного опыта, актуальна всегда радость. Радость стимулирует исконное благородство. Постоянное благородство запрограммировано на победу и жизнь.

Fakir bir adam, pek cimri bir zengine başvurarak:

- Senden bir dileğim var, dedi.

Zengin:

- Benim de bir dileğim var, dur önce ben söyleyim.

- Fakir:

Buyurun, söyleyin dedi.

- Dileğim: benden bir şeyin istenmemesidir.

**<u>4. Mətn.</u>**

## Dilarə

Gün batar-batmaz idi. Palçıqçı Bəşir pulunu alıb evə qayıdırdı. O, xəstələnmiş, borca düşmüşdü. Bu gün bütün borcları bitir, hətta bir qədər artıq pulu da qalırdı.

Kiçik qızı Dilarə üçün yemiş almaq istəyirdi. Uşağın paltarı da yox idi, amma Bəşirin hələ buna pulu çatmırdı.

Küçədən, müəllimləri başda olmaqla, təmiz geyinmiş, gülərüzlü kiçik-kiçik qızlar, oğlanlar gedirdilər. Bəşir öz qızını xatırladı. Dilarə bunlardan da yaraşıqlıdır. Belə geyinərsə, lap gözəl görünər. O da bu uşaqların arasında olsaydı, nə olardı!

– Ay xanım...

Dili dolaşdı, nə deyəcəyini bilmirdi. Müəllim iri gözləri ilə Bəşirə baxdı.

– Bağışla, xanım, səndən bir xahişim var... Mən özüm palçıqçıyam. Bir balaca qızım var, soruşuram ki, onu neyləyim?

– Əmi, qızın neçə yaşındadır?

– Səkkiz yaşında.

– Əmi, indi vaxt keçmişdir, lakin hər halda gətir bir cür düzəldərik...

Sabah Bəşir qızını müəllimin yanına aparacaqdı. O, müəllimdən sonsuz bir razılıqla, sevinə-sevinə ayrıldı.

Əvvəl bir qədər yeyinlədi. Sonra yavaşıdı. Düşünürdü: “Nə yaxşı adamdır”. Qızı da gözəl geyinəcək, oxumuş olacaq, qonşuları onu tərifləyəcəklər. Bəlkə bir

zaman o da bu müəllim kimi olacaqdır. Lakin qızı ayaqyalın necə aparsın? Birdən dayandı. Özünü itirmişdi... Xoş gəlmisiniz!

**Mənbə:** Cəfər Cabbarlı. Seçilmiş əsərləri, I cild,Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2005, s.72-75

**5. Dinləmə. Dinlənilən mətni ifadə şəklində yazmaq və danışmaq.**

## 52-ci Dərs

1. Cümlənin II dərəcəli üzvləri: Tamamlıq. Təyin. Zərflik.
2. İxtisarlar.
3. İmla.
4. Mətn. Azərbaycanın milli şirniyyatları.
5. Dialoq.

### 1. Cümlənin II dərəcəli üzvləri: Tamamlıq. Təyin. Zərflik.

*II dərəcəli üzvlər baş üzvləri izah edir. Cümlənin 3 ikinci dərəcəli üzvü var: 1) Tamamlıq; 2) Təyin; 3) Zərflik.*

***Tamamlıq***

*Cümlədə əşya bildirən, adlıq və yiyəlik hallardan başqa, yerdə qalan hallarda işlənən ikinci dərəcəli üzvə tamamlıq deyilir. Tamamlıq kimə? nəyə? kimi? nəyi? nə? kimdə? nədə? kimdən? nədən? kimlə? nə ilə? kim üçün? suallarından birinə cavab verir. Məs., Aşiq sevgilisinə on məktub yazır. Bacım kitab oxuyur. Aliyə paltarı bacısına verdi.*

***Təyin***

*Cümlədə isimlə ifadə olunmuş üzvlərin əlamətini bildirir. Təyin necə? nə cür? hansı? neçə? nə qədər? suallarından birinə cavab verir. Məs., Qarabağ döyüşlərində yüzlərlə, minlərlə mərd oğullar şəhid oldular. Uşaqların partlatdığı şar yerə düşdü.*

***Zərflik***

*Cümlədə iş və ya hərəkətin icrasının tərzini, zamanını, yerini, səbəbini və ya kəmiyyətini bildirən ikinci dərəcəli üzvə zərflik deyilir. Zərflik necə? nə cür? nə vaxt? haraya? harada? haradan,? nə qədər? niyə? nə üçün? nə səbəbə? nədən ötrü? və s. suallara cavab verir. Məs., Bu il qış tez gəldi. Gecənin yarısı qar yağmağa başladı. Kəndin yuxarısında göl var. Nəqliyyat işləmədiyi üçün evdə oturdum.*

***Tapşırıq 625.*** Aşağıdakı müxtəlif nitq hissələrini cümlələrdə tamamlıq kimi işlədin.

Yazmağı, qurmaq, siz, şəfəq, oxuyanlar, çanta, kitab.

***Tapşırıq 626.*** *Xoşbəxt, heyranedici, yaxşı, çalışqan, yeni, gözəl* sözlərini cümlələrin təyini kimi işlədin.

***Tapşırıq 627.*** Aşağıdakı sözləri cümlələrdə zərflik yerində işlədib yazın.

Ağlaya- ağlaya, sevə-sevə, tez, axşamçağı, inişil, diqqətlə, hər gün, gülə-gülə, otağımda

***Tapşırıq 628.*** Aşağıdakı mətndəki cümlələri baş üzvlər və II dərəcəli üzvlərə görə təhlil edin.

**İrqlər**

Yer kürəsində yaşayan bütün insanlar mənşəyinə görə eynidir. Lakin bütün insanlar ayrı-ayrı qruplara ayrılır ki, bu qruplar da xalq adlanır. Hər bir xalqın özünəməxsus mədəniyyəti, dili, dini, adət-ənənəsi, yaşayış tərzi, milli paltarları, folkloru, milli mətbəxi vardır.

Dünyada 2000-dən artıq xalq var. Xalqlar xarici görünüşünə görə də bir-birindən fərqlənir. Yəni insanların dərilərinin, saçlarının, gözlərinin rəngi, üz cizgiləri müxtəlifdir. Belə əlamətlərinə görə fərqlənən qruplar irqlər adlanır. Planetimizin əhalisi əsas 3 irqə ayrılır: avropoid, monqoloid və ekvatorial. İrqlərin yaranması və adları planetimizin ayrı-ayrı yerlərində təbii şəraitin müxtəlifliyi ilə bağlıdır.

Avropoidlərin dərisi ağ, saçları düz və ya dalğavari olur. Onlar əsasən Avropa, Amerika və Avstraliyada yaşayırlar.

Monqoloidlərin dəriləri sarı, saçları qara, gözləri qıyıq olur. Onlar Asiyada daha çoxdurlar.

Ekvatorialıların dərisi qara, saçları qıvrım olur. Belə saç onların başlarını günəşin istiliyindən qoruyur. Qara dəri günəşdə yanmır. Onlar, əsasən, Afrikada yaşayırlar.

3 əsas irqdən başqa, dünyada qarışıq və ya aralıq irqlər də vardır.

***Tapşırıq 629.*** Aşağıdakı cümlələrdə tamamlıqlar nə ilə ifadə olunmuşdur?

Tələbə müəllimdən dərsliyi istədi 2. İnsan olan başqasının qəlbinə toxunmağı qəbahət bilər, xəcalət çəkər. 3. O, pilləkənləri addım-addım çıxdı, evin qapısını itələdi. 4. Hələ tələbə ikən ictimai işlərdə həvəslə çalışmışdı. 5. Damı döyən yağışın güclü səsi onun əsəblərinə sanki məlhəm çəkirdi. 6. Ramiz qatarın hərəkətini görən kimi cəld vaqonun pilləsinə atıldı. 7. Sənin üçün bütün çətinliklərə sinə gərməyə hazıram.

***Tapşırıq 630 .*** Köçürün, cümlələrdəki tamamlıqları tapıb altından xətt çəkin, üstündə sualını yazın.

l. Bu iclasın tənəffüsü Qasım üçün daha çox həyəcan və təlaş gətirdi. 2. Səslər bir-birindən ayrılmır, xoş və ümumi bir ahəngə çevrilirdi. 3. Lalə meşədən çoxlu göbələk yığdı. 4. Qoca yerindən qalxıb stola yaxınlaşdı. 5. Mən insanlarda dönüklüyü, qeyri-səmimiyyəti çox görmüşəm. 6. Qız pərt olmuşdu, qızarmış üzü paltarının rəngindən seçilmirdi. 7. Müdir idarənin işlərini şöbənin işçisinə tapşırdı.

***Tapşırıq 631.*** Mötərizələrdə verilmiş tamamlıqlara müvafiq şəkilçi artırıb yazın.

Zahid müəllim (nəvəsi haqqın ...) nikbin idi. 2. Uşaq apardığı hədiyyələrə baxmadan (qapı ...) göstərdi. 3. Yeni doğulan (uşaq ...) bu (ad ...) ki qoydu? 4. O, (yazıq ...) heç bir günah yoxdur. 5. Bu adət -ənənə (biz ...) (babalarımız ...) qalıb. 6. O, ağızdolusu (ailəsi ...), (qohumlar ...) danışırdı. 7. Dost (ellər ...) (xalqınız ...) atəşli salamlar olsun!..

***Tapşırıq 632.*** Təyinləri tapın, üstündə suallarını yazın

Bağçada ağ, qırmızı, san çiçəklər adamın ruhunu oxşayırdı. 2. Məktəbdən qayıdan uşaqlar çantalarım evə qoyub futbol oynamağa düşdülər. 3. Sinif nümayəndəsi Cahangir yoldaşlarının səhv hərəkətlərinə görə müəllimdən üzr istədi. 4. Beşinci sıradakı tamaşaçılar teatrdan yarımçıq çıxdılar. 5. Üçüncü zəng vurulandan sonra bütün çıxış edəcək artistlər pərdənin arxasında hazır durdular. 6. Gənclik həvəsi hələ də başında olan Eldar uşaq kimi atılıb düşməyə başladı. 7. Sirk ustası Popov bütün ömrünü sevimli işinə həsr etmişdi.

***Tapşırıq 633*** **.** Verilmiş sözləri təyin kimi ayrı-ayrı cümlələrdə işlədin.

Böyük, gözəl, uçan, qızarmış, beş, altıncı, bütün, elə, həmin, rayon başçısı, məktəb direktoru, ailənin böyük uşağı, pəncərə önündəki

***Tapşırıq 634*** **.** Cümlələri oxuyun, təyinləri seçib yazın.

l. Xorasana məxfı göndərilmiş adam qayıdıb ürək odlayan xəbər gətiribdir. 2. Bu vaxt üçüncü bölmədəki döyüşçü onbaşının çadırına tərəf yüyürdü. 3. Fəqət indi lazım gəlir, müqəddəs yerlərimizi, zəlalətdə yaşayan millətimizi düşmənlərin zülmündən xilas edim. 4. Allahı sevərsən, elə fikirləri unut. 5. Yaşıl otların üzərinə uzanmış kəndli dərin yuxuya getmişdi. 6. Əsgər ağacın arxasında gizlənib düşmən nöqtəni hədəfə aldı. 7. Təndirdən yenicə çıxmış isti çörək ətri ilə adama «gəl-gəl» deyirdi.

***Tapşırıq 635.*** Aşağıdakı cümlələri köçürün, zaman zərfliklərinin altından xətt çəkin.

Əkbər səhər yerindən qalxanda özünü pis hiss etdi. 2. Sevda aşağı baxarkən maşınların dalbadal düzüldüyünü gördü. 3. Əsgərlər gecə ikən hücuma keçdilər. 4. Səhərlər məktəbə gələndə qəlyanaltı etməyə iştaham olmur. 5. Qışın oğlan çağında kəndin dörd bir tərəfmi əhatə edən dağlar daha da keçilməz olur. 6. Mən onu tanıdığımda kiçik bir uşaq idi, indi böyüyüb. 7. Yeni imtahan üsulları çıxandan bəri şagirdlərin nitqində, yaddaşında xeyli geriləmə müşahidə olunur.

***Tapşırıq 636*** **.**Cümlələri köçürün, tərzi-hərəkət zərfliklərinin altından xətt çəkin.

Maşın sürətlə şütüyürdü. 2. Kişi qapını çırpıb acıqlı halda otağı tərk etdi. 3.Ev yiyəsi qonaqları mehribanlıqla qarşıladı. 4. Camaat bir-birinin arxasında növbə tutaraq aramla irəliləyirdi. 5. Əhməd içəridə danışılanlardan pərt olub qızarmış vəziyyətdə pilləkənlərdən düşdü. 6. Kranın yarıaçıq qalmış suyu damla- damla əlüzyuyana tökülürdü. 7. Havalar getdikcə isinir, insanlar nazik geyməyə başlamışdılar.

***Tapşırıq 637.*** Cümlələri köçürün, kəmiyyət zərfliklərinin altından xətt çəkin.

Yolçular yorğun halda xeyli yol getdilər. 2. Kəndin adamları neçə dəfələrlə aldanmışdılar. 3. O öz hərəkətlərində, fikirlərində çox yanılır. 4. Tövbəyə gəlmiş adam xirtdəyəcən günah içində idi. 5. İnflyasiya olduğuna görə qiymətlər birə on qalxmışdı. 6. Şəbnəm azacıq özünə gəldi. 7. Uzun məsafəni tezliklə qət edən idmançı saatda 150 km yol gəlmişdi.

***Tapşırıq 638.*** Cümlələri köçürün, səbəb zərfliklərinin altından xətt çəkin.

Əzab çəkdiyinə görə siqaretin ucunu siqaretə calayırdı. 2. Ananın sevincdən gözləri yaşarmışdı. 3. Tələbələrin gecikdiyinə görə müəllim çox qəzəbləndi. 4. Yenicə işə düzəlmiş kadr etinasızlığına və məsuliyyətsizliyinə görə işdən qovuldu. 5. Suçunu yuxu apardığına görə tarlanı su başına götürmüşdü. 6. Acınacaqlı, çətin həyata dözməyərək afrikalılar İstanbulun dörd bir tərəfinə səpələnmişdilər. 7. Bu il qış çox sərt keçdiyinə görə dağ çayları bənd-bərəni uçurub keçmişdi.

## 2. İxtisarlar.

***Qeyd:*** *İxtisarlar iki cür yazılır:*

*1) Tam ixtisarlar aid olduqları sözlərə uyğun olaraq böyük hərflə yazılır. Məs., AR (Azərbaycan Respublikası), ARDNS (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti), MM (Milli Məclis).*

*2) Yarımçıq ixtisarlar: Aid olduqları sözlərə uyğun olaraq böyük və kiçik hərflə yazılır. Məs., Azər TAC (Azərbaycan Teleqraf Agentliyi), prof. – (professor), dos. – (dosent) .*

*3) Sözün orta hissəsinin düşməsi ilə yaranan ixtisarlar defislə, baş hərfdən sonrakı hissə düşəndə yazılır. Məs., d-r (doktor), z-d (zavod), e.ə.-(eramızdan əvvəl), ç.v.-(çap vərəqi), d.y.(dəmir yolu).*

*İxtisarlara əlavə edilən şəkilçilər onların son hecasına uyğun olaraq yazılır: Məs., BDU-ya, BMT-yə, MDB-nin, MEA-dan.*

***Tapşırıq 639.*** Tam ixtisarlara aid beş söz yazın və cümlədə işlədin.

***Tapşırıq 640.*** Yarımçıq ixtisarlara aid beş söz yazın və cümlədə işlədin.

***Tapşırıq 641.*** Lüğətdə gedən ixtisarları oxuyub bütöv variantlarını yazın.

"Az.kənd.təs." (jurnal), "Az.qad" jurnal), "Az.mək."-(jurnal), "Mol.Nəsr." (məcmuə), Ata. sözü., aqr., alm., arxeol., astr., f.bağ.

*Nümunə:* alm. – almanca

**3. İmla.** Mətni imla yazın.

İnsanın həyatında elə xatirələr olur ki, zaman keçdikcə hafizəsində daha möhkəm yer tutur, ömrünün əziz günləri kimi həmişə gözünün qabağında canlanır. Mənim belə xatirələrimdən biri akademik Yusif Məmmədəliyevlə ilk görüşüm və dostluğum olmuşdur. Yusif Məmmədəliyev gələcəkdə Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti olmuşdur.

Yusiflə ilk dəfə məni qardaşı İbrahim tanış etmişdi. İbrahim maarif işçiləri evinin direktoru, mən kitabxana müdiri idim. Bir gün Yusif qardaşını görməyə gəlmişdi. İbrahim məni Yusiflə tanış eləyib dedi:

–Yusif Moskvadan təzə gəlib, gənc alimdir. Ədəbiyyatı da çox sevir, sizin dostluğunuz yaxşı tutar, tanış olun!

(84 söz)

**4. Mətn.**

**Azərbaycanın milli şirniyyatları**

Azərbaycan mətbəxi müxtəlif çeşidli şirniyyatlarla zəngindir. Onları yeməklə doymaq olmur.

Şəkərbura – milli Azərbaycan mətbəxinin ən dadlı şirniyyatlarından biridir. Onun tərkibinə qoz, fındıq, ədviyyat və şəkər qatılır. Şəkərbura özünün qeyri-adi görünüşü ilə də fərqlənir. Onun üzərinə vurulan naxışlar buğda sünbülüdür. Şəkərbura ayı təcəssüm etdirir.



Paxlava – padşahların, sultanların desertidir. Çoxqatlı olur, içliyi də şəkərburanın içliyi kimi olur. Bişəndə çox gözəl ətri və görünüşü olur. Paxlava ulduz və atəşi təcəssüm etdirir.

Qoğal – şirin və ya duzlu işdən ibarət olan laylı bişintidir. Qoğal adətən Novruz bayramı ərəfəsində Bişirilir. Onun forması günəşi əks etdirir.

Bakı qurabiyəsi – Bakı qurabiyəsi çiçək formasında görünür, onun ortasında cem olur. Qızılı-sarı qızarmış yumşaq peçenyelərin valehedici ətri ətrafı bürüyür.

Külçə - bu şirin çörəkdir. Onu xüsusi şəkildə təndirdə bişirirlər. Onun hazırlanmasında müxtəlif ədviyyatlardan istifadə edirlər. Bu çörək – bulka məmulatı sayıla bilər.

Bakı kətəsi – bir neçə növə bölünür: Qarabağ, Naxçıvan, bakı. Onlar bir-birindən fərqlənir.

Mütəkkədə - "Bakı peçenyesi" adlanır. Xüsusi resept sayəsində hazırlanır. Onun içliyi qoz-fındıqdan və ya kəsmikdən ibarət olur.

Ümumilikdə undan hazırlanan milli şirniyyatlarımızın 30-dan çox növü mövcuddur.

**Mətnə aid suallar:**

1. Azərbaycanın milli şirniyyatları neçə qrupa bölünür?
2. Unlu şirniyyatlar hansılardır?
3. Karameləoxşar və konfetəoxşar şirniyyatlar hansılardır?

***Tapşırıq 642.*** Şeiri intonasiya ilə oxuyun.

**Bayramların sultanı**

"Hər tərəf işıq saçdı,
Novruz gəldi, sevindik.
Kədər bizdən gen qaçdı,
Şadyanlığa büründük.

Şəkərbura, paxlava,
Şorqoğalı yeməli.
Bayramların sultanı,
Ancaq sənə deməli.

Qoz-fındığın, qovurğan
Ağzı dada gətirir.
Üzərriyin, yovşanın
Qada-bala götürür" .

**Mənbə:** Yusif Diriliş

**5. Dialoq.**

| | | |
|---|---|---|
| Sizin respublikada hansı istirahət guşələri daha məşhurdur? | Какие места отдыха наиболее известны в вашей республике? | Which places are the most popular in your Republic? |
| Bizdə məşhur yerlər... | У нас популярны ... | We have.... |
| Məzuniyyətiniz nə qədər çəkəcək? | Сколько продолжится ваш отпуск? | How long will your vacation last? |
| Məzuniyyətinizi adətən harada keçirirsiniz? | Где вы обычно прово-дите свой отпуск? | Where do usually spend your vacation? |

| | | |
|---|---|---|
| Mən dəniz kənarında (bağda, pansionatda) istirahət edirəm. | Я отдыхаю на море (на даче, в пансионате). | Near the sea. |
| Siz həmişə bir yerdə istirahət edirsiniz, yoxsa gəzməyi sevirsiniz? | Вы отдыхаете всегда в одном месте или любите путешествовать? | You are staying in one place or you prefer to travel? |
| Biz Azərbaycan kurortlarını gəzmək istərdik. | Мы хотели бы побывать на курортах Азербайджана. | We wont to visit Azerbaijan's resorts. |
| Biz bir neçə günü bu istirahət evində (sanatoriyada) keçirmək istərdik. Biz meşə gəzintisinə getmək (çıxmaq) istəyirik. | Мы хотели бы провести несколько дней в этом доме отдыха (санатории) Мы хотим совершить прогулку (выходить на прогулку) в лес. | We want to spend few day sin this resort. We want to walk in forest. |
| Sizdə mineral su mənbələri varmı? | Есть ли у вас минеральные воды? | Do you have mineral waters? |
| Bəli, bizim İstisu, Badamlı, Sirab, Turşsu kimi mineral su mənbələrimiz geniş tanınmışdır. | Да, у нас широко известны такие минеральные источники, как Исти-су, Бадамлы, Сираб, Туршсу. | Yes, we do. We have popular places like Isti-Su, Badamli, Sirab, Turshsu. |
| Sizin məzuniyyətiniz nə vaxtdır?<br>Yayda. | Когда у вас отпуск?<br>Летом. | When is your vacation?<br>In the Summer. |

## 53-cü dərs

1. Zərfliklərin məna növləri. Tərzi-hərəkət və zaman zərflikləri.
2. Terminlər.
3. İnşa. "Ana" haqqında.
4. Mətn. Əfsanələrlə dolu Xınalıq.
5. Dialoq.

### 1. Zərfliklərin məna növləri. Tərzi-hərəkət və zaman zərflikləri.

**Qeyd:** *Tərzi-hərəkət zərfliyi hal-hərəkətin icra tərzini bildirir və necə? nə cür? suallarından birinə cavab olur. Məs., Tamaşaçılar zalı gülə-gülə tərk etdilər. Gülçin dayanmadan şeir söyləyirdi.*

***Tapşırıq 643***. Aşağıdakı sözləri cümlədə tərzi-hərəkət zərflikləri yerində işlədib yazın.

*Nümunə:* Məruzəçi danışa-danışa kürsüdən düşdü.
Sevinə-sevinə, qaça-qaça, gəzə-gəzə, gülə-gülə, yerbəyer, yaxşı, dalbadal, şən, xoşbəxt, bərk.

***Tapşırıq 644.*** Cümlələri köçürün, tərzi-hərəkət zərfliklərinin altından xətt çəkin.

1. Koxa tez özünü yetirdi. 2. Baxışları ilə Kərəmin yoldaşlarını bir-bir süzdü. 3. Onları lal-sükutla da olsa, el adətincə qarşılayacaqlar. 4. Kişi ağlaya-ağlaya dünyasını dəyişdi. 5. Barmaqları əsə-əsə düyməni açdı...
*(İsmayıl Şıxlı "Namərd gülləsi").*

***Tapşırıq 645.*** Cümlələri köçürün, tərzi-hərəkət zərfliklərinin yanında sualını yazın.

1. Maşın sürətlə gedirdi. 2. Ata qapını çırpıb acıqlı halda otağı tərk etdi. 3. Ev yiyəsi qonaqları mehribanlıqla qarşıladı. 4. Camaat bir-birinin arxasında növbə tutaraq aramla irəliləyirdi. 5. Adam düşünmədən danışmamalıdır. 6. Uşaq bu hərəkətləri bilərəkdən edirdi. 7. Ana qaçaraq oğlunun yanına gəldi. 8. Üzündən göz yaşları damla-damla süzülürdü.

**Qeyd:** *Zaman zərfliyi hərəkətin zamanını bildirir, nə vaxt? nə zaman? və haçan? suallarından birinə cavab olur. Məs., Qatar səhər Bakıya çatdı.*

***Tapşırıq 646.*** Aşağıdakı sözləri zaman zərfliyi yerində işlədin.

*Nümunə:* Aqil günorta evə gəldi.

Axşamüstü, cavanlıqda, axşam, səhər, gec-gec, həmişə, dünən, dərhal, yayda, qışda, payızda, yazda.

***Tapşırıq 647***. Aşağıdakı cümlələri köçürün, zaman zərfliklərinin altından xətt çəkin.

1. Sən məni gözlə, indicə gələcəyəm. 2. O, mənə dərhal zəng vurmalıdır. 3. Polis gecə yarısı canini həbs etdi. 4. Qar qışda yağar. 5. Mədinə günorta maşınların necə dalbadal düzüldüyünə baxırdı. 6. Əhməd səhər tezdən dərsə getdi. 7. Xadimələr dan yeri ağarmamış küçələri süpürməyə gedir. 8. O ancaq səhərə yaxın yata bildi.

***Tapşırıq 648.*** Aşağıdakı parçanı oxuyun və zərflikləri göstərin.

"Zərfi açdım, incə bir xətlə belə yazılmışdı: "Həsən! Bu məktubu öz-özümlə uzun mübarizədən sonra yazıram. Sizin geniş, nəcib qəlbiniz qarşısında tab gətirə bilmədim, heç olmazsa, məni qınamayacağınızla təsəlli tapa bilərəm. Əgər, azca da olsa, iradəm çatsaydı, bəlkə də, yazmazdım. Birinci dəfə könlümdə duyduğum narahatlıq əvvəllər də məni qorxutdu... Bunun nə demək olduğunu uzun zaman anlaya bilmədim... Bunun sevgiyə bənzər şey olduğunu öz-özümə belə təkrar etməyə xeyli zaman cəsarət etmədim. Geniş qəlbiniz şirin bir yuxu kimi məni cəzb etdiyi zamanlar dırnaqlarımla sinəmi didərək, hönkür-hönkür ağladım. Zənn edirəm ki, məni sizə bağlayan hisslər haqqında çox da düşünməyəcəksiniz... Ürəyinizə başqa heç nə gəlməyəcəyinə əminəm. Sizdəki yüksək qəlb mənim üçün dünyada hər şeydən qiymətlidir. Onu məndən əsirgəməyin!".

Məktubun axırında əsəbilikdə yazılmış "Gülara" imzasını gördükdə, mən gözlərimə inana bilmədim.

– Yaxşı da... daha burada nə təhqir var ki? – dedim.

–Sanki anlamırsan? - dedi.

O, məni necə sevə bilər? İnsafla danış, hansı bir qız iyrənmədən mənə baxa bilər".

**İ. Əfəndiyev**

## 2. Terminlər.

**Qeyd:** *Terminlər (latın sözüdür, hədd, sərhəd deməkdir). Elmin, texnikanın, incəsənətin xüsusi anlayışlarını, təbiət və cəmiyyətdə baş verən hadisələri, istehsal proseslərini dəqiq ifadə edən söz və söz birləşməsidir. Termin terminologiya (bir sahəyə aid terminlər toplusu) sahəsi ilə bağlıdır, aid olduğu sahədə yalnız bir mənada işlənməlidir. Termin ümumişlək sözlərə, ümumişlək sözlər də terminə çevrilə bilər.*

***Tapşırıq 649.*** Aşağıdakı sözlərin hansı elm sahələrinə aid olduğunu tapın.

Termodinamika, bayatı, məməlilər sinfi, sinus, teorem, lirika, not, aritmiya, folklor, sintaksis, relyef, daş dövrü, dinamika, termogen, amper

*Tapşırıq 650.* Biologiyaya aid beş söz yazın və cümlədə işlədin.

*Tapşırıq 651.* Ədəbiyyata aid beş termin yazın və cümlədə işlədin.

*Tapşırıq 652.* Riyaziyyata aid beş termin yazın və cümlədə işlədin.

*Tapşırıq 653.* Fizikaya aid beş termin yazın və cümlədə işlədin.

*Tapşırıq 654.* Kimyaya aid beş termin yazın və cümlədə işlədin.

**3. İnşa. Ana haqqında.** İnternetdən ana haqqında deyilmiş hikmətli sözlər və kəlamlardan istifadə edin.

**4. Mətn.**

## Əfsanələrlə dolu Xınalıq kəndi

Xınalıq kəndi Qubadan təxminən 60 km Cənub-Qərbdə, hündür dağların qoynunda, dəniz səviyyəsindən 2360 metr yüksəklikdədir.

Xınalığın erkən orta əsrlərdə salındığı ehtimal olunur. Qafqazda Elbrus zirvəsindən sonra ən uca dağların əhatəsində qərar tutmuş Xınalıq kəndi Şah dağının, Şah düzünün və Şahnabat çayının şah əsəridir.



Xınalıq bütün dünyada tanınır. Bu, onun təbii rəngarəngliyi ilə məhdudlaşmır. Orada yaşayanların xüsusi dili mövcuddur. Qəribə quruluşlu dil yalnız həmin kənddə işlənir. Bu dildə təqribən 2000 min adam danışır. tədqiqatçılar xınalıqlıların Qafqaz Albaniyasının qədim tayfalarından biri olduğunu güman edirlər. Xınalıq dilini bəzi mütəxəssislər Ural dili qrupuna aid edirlər. Bu dildə ismin 18 halı var. Ədəbi dilləri Azərbaycan dilidir.

Dünyanın bir çox alimləri xınalıq dili ilə maraqlanmış, onu öyrənməyə təşəbbüs göstərmişlər. XIX əsrdə alman alimləri R.Erkert və A.Dirr öz əsərlərində Xınalıq dilindən bəhs etmişlər.

1980-1990-cı illərdə Xınalıqda Lomonosov adına MDU-nin bir dəstə dilçi alimi işləmişdir. Bu dəstəyə qədim yunan və roman dilləri mütəxəssisi, məşhur rəssam V.A.Kibrikin oğlu A.Y.Kibrik başçılıq etmişdir.

Xınalıq adı "xına" sözündən götürülmüşdür ki, bu da qarşıdakı dağın günəş çıxanda verdiyi rəngdir.

Xınalıq sakinləri özlərini Nuh peyğəmbərin nəslindən sayırlar. Rəvayətə görə, Nuh peyğəmbərin gəmisi tufanı dövründə Ketş-Xınalıq, Ketş dağlarında yerləşib. Baş verən zəlzələdə kənd tamam dağılıb, əhalinin çox hissəsi həlak olub. Sağ qalanlar isə çayı keçərək daha hündür zirvələrə qalxıb, indiki Xınalıqda məskunlaşıblar.

**Mətnə aid suallar:**

1.Xınalıq kəndi harada yerləşir?
2.Nəyə görə ona bu ad verilib?
3. Relyefi necədir?
4. Buranın əhalisi hansı dildə danışır?
5. Bu kənd kimin diqqətini cəlb edib?

***Tapşırıq 655.*** Mətni oxuyun. Sualları cavablandırın.

**Sinif işi.** Nəriman Həsənzadə. "Bu dünya nərdivandır".

"Bu dünya nərdivandı,-
Qalxanda mehribandı,
Enəndə nə yamandı...
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
O qalxırdı bu dəmdə,
Mən enirdim xəbərsiz.
Onu arzularına
Qaldırırdı nərdivan,
Məni xatirələrə
Endirirdi
Bu zaman.

Birimiz-günçıxana,
Birimiz günbatana...
Qalxa bilməzdim daha,
Nə o güc,nə o taqət.
O da enə bilməzdi,-
Haqlı,haqsız
Vermişdi,öz hökmünü təbiət,
Gərək ya düşməyəydi
Bu görüş heç araya.
Ya o əvvəl gələydi,
Ya mən sonra dünyaya..."

**Mənbə:** Nəriman Həsənzadə "Könlüm şeir istəyir", Bakı, 2016, s.18

**Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 656.*** Düzgün variantı seçin.

**1**. Oqtay qaranlıq...............içinə girdi.
**a)** səhra **b)** mağara **c)** ada
**2.** Mən həyəcanlanmağa başladım, çünki dəniz..............idi.
**a)** coşqun **b)** uzaq **c)** mülayim

**3.** Türkiyənin..............Ankaradır.
**a)** dəniz kənarı **b)** paytaxt **c)** əhali

**4. A:** Hansı yol cənuba gedir?
**B:** Bilmirəm.............haradadır?
**a)** qitə **b)** dağ **c)** kompas

**5.** Biz düşərgədə..............tətil keçirdik.
**a)** unudulmaz **b)** sadə **c)** faydalı

***Tapşırıq 657.*** Verilmiş sözlərdən istifadə edib cümlələri tamamlayın.
*cəsarətli, stansiyası, düzəltdi, geyindi*

1. Yaxınlıqda benzindoldurma yoxdur.
2. Araz qayaya dırmanmaq istəmədi, çünki o, deyil.
3. Hava soyuduğu üçün Nərgiz jaketini
4. Mexanik maşınımı

***Tapşırıq 658.*** Mötərizədəki feilləri lazım olan zaman formasında yazın.

**1. A:** Gəl ocaq qalayaq.
B: Yaxşı. Sən əvvəllər.................(ocaq qalamaq)?
**A:** Əlbəttə. Mən düşərgədə öyrənmişəm.
B: Axı sən düşərgədə yalnız bir dəfə................(olmaq).
**A:** Yox, mən keçən il qardaşımla da düşərgəyə................(getmək).

**2. A:** Sən heç deltaplanla...................(uçmaq)?
B**:** Bəli. Keçən il mən (sınaqdan..........keçirmək).
**A:** (xoşuna...........gəlmək)?
B**:** Bəli, çox (xoşuna...........gəlmək).

**<u>5. Dialoq.</u>**

| | | |
|---|---|---|
| Mənzil təmiri barəsində kimə müraciət etmək olar? | К кому мне обратиться по поводу ремонта квартиры? | Who should I contact for apartment renovation? |
| Cənab Məmmədliyə yaxınlaşın. | Подойдите к господину Мамедли. | Come to mister Mamedli. |
| Mən kran təmirinə görə gəlmişəm. Dünən sizə zəng vurmuşdular. Mən bu ünvanda yaşayıram: | Я по поводу ремонта крана. Вчера вам звонили. Я проживаю по адресу: улица Толстого, | I'm about repairing the crane. You got a call yesterday. I live at the address: Tolstoy street, |

| | | |
|---|---|---|
| Azadlıq küçəsi, ev 3, mənzil 6. | дом 3, квартира 6. | house 3, apartment 6. |
| Bəli, bəli, xatırladım. Mən sərəncam vermişəm. Bu gün saat ikidən sonra çilingər sizə gələcək. | Да, да, я вспомнил. Я уже распорядился послать к вам слесаря. Сегодня после двух часов он зайдет к вам. | Yeah, I remembered. I have already ordered you to send a locksmith. Today after $14^{00}$ he will be here. |
| Çalışın, bu vaxt evdə olun. | Постарайтесь в это время быть дома. | Try to be at home at this time. |
| Sağ olun. Xudahafiz. | Спасибо. До свидания. | Thank you. Good-bye. |

## 54-cü dərs

1. Mürəkkəb cümlə.
2. Yoxlayıcı tapşırıqlar.
3. Tərcümeyi –hal. Ərizə.
4. Kəmiyyət kateqoriyasına aid krossvord.
5. Mətn. Böyük şəxsiyyət – Heydər Əlirza oğlu Əliyev.

### 1. Mürəkkəb cümlə.

***Mürəkkəb cümlə** sadə cümlələrdən düzəlir. Amma sadə cümlələrdən fərqlənir. Sadə cümlənin bir, mürəkkəb cümlənin isə iki və daha artıq qrammatik əsası olur. Bu o deməkdir ki, mürəkkəb cümləni təşkil edən sadə cümlənin hər birinin ayrılıqda öz mübtəda və xəbəri olur. Məsələn: Yaz gəlir, havalar istiləşir, təbiət oyanır - cümləsində üç tərkib hissə, hər tərkib hissənin öz mübtədası (yaz, havalar, təbiət), öz xəbəri (gəlir, istiləşir, oyanır) var.*

*Mürəkkəb cümləni əmələ gətirən sadə cümlələr bir-birilə iki cür bağlanır: tabesizlik yolu ilə və tabelilik yolu ilə. Şəhla hiss etdi ki, Fərhad ona artıq inanmır - cümləsində sadə cümlələrdən birincisi qrammatik cəhətdən müstəqil olduğu halda, ikinci hissəsi (Fərhad artıq ona inanmır) birinci hissəni (Şəhla hiss etdi) aydınlaşdırır və tamamlayır. Bu cür bağlılıq tabeli bağlılıqdır. Belə mürəkkəb cümlə isə tabeli mürəkkəb cümlə adlanır.*

*Bərabərhüquqlu sadə cümlələrin birləşməsindən düzələn mürəkkəb cümləyə tabesiz mürəkkəb cümlə deyilir.*

***Tapşırıq 659.*** Nöqtələrin yerinə tabesizlik bağlayıcılarından *(amma, ancaq, lakin isə)* uyğun gələnini qoyun.

1. Oğlanlar otağı təmizləyir, qızlar… həyətdə gül əkirlər. 2. Nərminə Gəncəyə təyyarə ilə gedəcək, … Sevda təyyarədə özünü pis hiss etdiyinə görə qatarla gedəcək. 3. Bağımızda meyvə ağacları – nar, ərik, qoz, bitir, …qonşumuzun həyətində yalnız dekorativ ağaclar bitir. 4. Lənkəran subtropik bitkilərilə məşhurdur, … Zaqatalada qoz, fındıq, qızılgül üstünlük təşkil edir. 5. Bütün uşaqlar şənlənir, rəqs edir, … qrupumuza təzə gələn oğlan kənarda durub sakitcə tamaşa edir.

***Tapşırıq 660.*** Və, amma, ancaq, nə, nə də, həm, həm də, ya, ya da bağlayıcıların iştirakı ilə tabesiz mürəkkəb cümlələr yazın.

***Tapşırıq 661.*** Verilmiş baş cümlələri uyğun olaraq budaq cümlələrə artırın.

1. İlk dəfə idi ki,…
2. Tezliklə məlum oldu ki, …
3. Elə yağış yağırdı ki, …

4. Çətinlik ondadır ki,…
5. Fidan yaxşı bilirdi ki, …
6. Hava soyuq, yağmurludur, ona görə də …
7. Hamı çalışırdı ki, …
8. Mənə dedilər ki, …

***Tapşırıq 662.*** *Çünki ona görə ki, ona görə də* bağlayıcılarından istifadə etməklə cümlələr qurun.

***Tapşırıq 663.*** Verilmiş sadə cümlələri mürəkkəb cümlələrə çevirin.

1. Pərvin dərsdə oturmuşdu. Fikri başqa yerdə idi. 2. Namiq dərslərini hazırladı. Kitab dəftərini çantasına yığdı. 3. Onu düz yola çəkməyə çalışdım. Bütün cəhdlərim boşa çıxdı.4. Buralarda tez-tez yağış-yağdığını eşitmişəm. Bu dərəcədə olduğunu təsəvvür etmirdik. 5. Qış getdi. Bahar gəldi. Havalar dəyişdi.

**2. Yoxlayıcı tapşırıqlar.**

***Tapşırıq 664.*** Sözləri oxuyun. «Bir neçə» və «bir qədər» ifadələrini hansı bəndlərə aid etmək olar?
Sözləri düzgün qruplaşdırıb cədvələ yazın.

| | | | | |
|---|---|---|---|---|
| 1. Göbələk | 3. Duz | 5. Portağal şirəsi | 7. Şorqoğal | 9. Alma |
| 2. Su | 4. Süd | 6. Düyü | 8. Pendir | 10. Soğan |

| Bir neçə | Bir qədər |
|---|---|
| | |
| | |
| | |
| | |

***Tapşırıq 665.*** «Bir az», «bir neçə», «nə qədər» ifadələrindən istifadə edərək dialoqları tamamlayın.

| | | |
|---|---|---|
| 1. | Mələk | Soyuducuda heç ət varmı? |
| | Sənubər | Bilmirəm. Bir bax. |
| | Mələk | Yaxşı. Burada……..ət, …….süd, ………pendir var. |
| | Sənubər | Gərək supermarketə gedək. |
| 2. | Leyla | Nahara nəyimiz var? |
| | İlahə | Bizdə sadəcə……..makaron, …..göbələk var. |
| | Leyla | Elə bunlardır? Pomidor varmı? |
| | İlahə | Yox Ancaq burada……toyuq var. Biz nə edə bilərik? |
| | Leyla | Narahat olma. Biz yaxşı nahar hazırlaya bilərik. Gəl başlayaq. |

**3. Tərcümeyi –hal, Ərizə.**

Mən, Həsənli Famil Mehdi oğlu, 1996-cı ildə Bakı şəhərində anadan olmuşam. 2002-ci ildə 134 saylı məktəbin 1-ci sinfinə getmiş, 2013-cü ildə həmin məktəbi bitirmişəm. Eyni ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşam. Hal-hazırda həmin fakültənin II kurs tələbəsiyəm.

Atam – Həsənli Mehdi Sərdar oğlu 1961-ci ildə Bakıda anadan olmuşdur. Neft şirkətində mühasib işləyir.

Anam – Həsənli Hicran Fuad qızı 1965-ci ildə Bakıda anadan olmuşdur. Bakı Dövlət Universitetinin filologiya fakültəsinin dosentidir.

Qardaşım – Həsənli Yaşar Mehdi oğlu 1992-ci ildə anadan olmuşdur. BDU-nun hüquq fakültəsinin IV kurs tələbəsidir.

**30.04.2021** **İmza:** **(Həsənli Famil)**

**Ərizə.**

Filologiya fakültəsinin dekanı
dos. Həsənov Əli Məmməd oğluna
həmin fakültəsinin III kurs tələbəsi
Zamanlı Samir Heydər oğlu tərəfindən

**Ərizə**

Ailə vəziyyətimlə əlaqədar olaraq mənim iki gün dərslərdə iştirak etməməyimə icazə verməyinizi Xahiş edirəm.

**İmza:** **(Zamanlı Əli)**

**15.09.2021**

***Tapşırıq 666***. İfadə

**Qədim oğuz xalçası**

“Azərbaycan mədəniyyətinin ən qədim nümunələrindən biri xalçalarımızdır. Alimlər sübut etmişlər ki, Azərbaycan xalçaçılığının yaşı 5 min ildən çoxdur. Xalça - divara vurmaq, yaxud ayaq altına sərmək üçün bəzəkli ev əşyası kimi meydana gəlmişdir. O, ipək və ya yun saplardan toxunur.

Lakin əsrlər keçdikcə xalçanın əhəmiyyəti də artmışdır. Müasir dövrümüzdə xalça yalnız məişət əşyası kimi deyil, həm də mədəniyyət nümunəsi kimi qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün dünyanın ən məşhur muzeylərində

Azərbaycan xalçaları nadir sənət inciləri kimi qorunub saxlanılır. Ən qədim Azərbaycan xalçalarından biri Bərdə xalısıdır. Onu rus alimləri 100 il əvvəl Qarabağda apardıqları qazıntı işləri zamanı tapmışlar. 2500 yaşı olan Bərdə xalısı qədim zamanlardan bu ərazidə yaşayan türk tayfalarına məxsus olmuşdur. Xalçanın üzərində rəngbərəng naxışlarla yanaşı, at və maral təsvirləri maraq doğurur.

Hazırda Bərdə xalısı Rusiyanın ən məşhur muzeyi olan Ermitajda, şüşə arxasında saxlanılır. Alimləri heyrətləndirən isə xalçanın günümüzədək necə salamat qalmasıdır. Sən demə, xalının basdırıldığı yerə su sızmış, sonradan su buz bağlamışdır. Xalı həmin buzun içində qaldığından aradan min illər keçsə də, hətta rəngini belə dəyişmədən dövrümüzə gəlib çatmışdır".

**4. Kəmiyyət kateqoriyasına aid krossvord.**




**5. Mətn.**

**Böyük şəxsiyyət – Heydər Əlirza oğlu Əliyev**

H.Əliyevin böyük dövlət xadimi, təcrübəli və ustad siyasətçi, fenomenal hafizəyə və incə duyuma malik şəxsiyyət olması hətta opponentləri tərəfindən də etiraf edilən danılmaz həqiqətdir. Dövrün tanınmış şəxsiyyətləri, dövlət başçıları onun haqqında ən yüksək epitetlər işlətməkdən çəkinmir, iftixar hissi ilə danışırdılar.

H.Əliyevin hansı mövzuda danışmağından asılı olmayaraq, hadisələrin arxasında mahiyyəti görə bilmək qabiliyyəti var idi. O danışdıqca fitri natiqlik məharəti ilə hadisələrin təfsilatından fəlsəfi qatlara keçir, problemə ümumiləşmiş nəzər salır və bu ümumi fonda hadisənin məğzi çox aydın görünürdü.

Azərbaycan xalqı mütəfəkkir xalqdır. Zəngin fikir xəzinəsi olan bir xalqı yeni sözlərlə və ya söz dünyasında yeniliklə heyrətləndirmək çox çətindir. Bununla

belə, bu natiqin çıxışlarında o qədər yeni sözlərə, fikirlərə, qanadlı ifadələrə rast gəlirik ki, heyrətlənməmək mümkün deyil.

Heydər Əliyevin dərin dünyagörüşü onun çoxillik həyati təcrübəsindən xəbər verir. Bu müasir Azərbaycan gerçəkliyini, intellektual həyatını adekvat surətdə əks etdirməklə çağdaş Azərbaycan ictimai fikrində bir ölçü vahidi kimi qəbul edilə bilər.

H.Əliyev görkəmli natiq, söz ustası kimi də tarixdə qaldı.

**Mənbə:** Böyük insanın ömür anları...Heydər Əliyev Mərkəzi, 2013, 392 s.

***Tapşırıq 667.*** Əliyev haqqında slayd izləyin.

***Tapşırı 668.*** Verilmiş mətnləri (rus, ingilis, türk dillərindən) azərbaycan dilinə tərcümə edin.

В другом греческом городе Олимпии, где проходили Олимпийские игры, находился знаменитый храм. Он был посвящён Зевсу – главному богу греков. Этот храм был самым большим во всей Греции, его колонны были высокими и изящными, множество прекрасных статуй украшало храм. Но всё- таки гидом света считали не само здание, а огромную Статую Зевса Олимпийского, которая, находилась внутри.

Excuse me, where is the dentist’s Office? On the second floor. What are the visiting hours? From 9 to 4 I have a terrible toot nache I can’t eat anything. Show me, which toot hurs. The molar tooth on the left. It has a big cavity. I have to fill it. Let me fill it today you need a bridge on the lower right side. How are you feeling now? Thank you, feel much better.

«Derviş, duruşun, bakışın gamlı, içinde sakladığın bir kederin mi var?» diye sormuş.

Derviş gözlerini yere evirmiş çevirmiş: «Hayır!» diye mırıldanmış.

«Peki, öyleyse neden yüzün gülmüyor, neden burada bütün gün durup bekliyorsun? Bilirsin ki, melikemiz yurdunda dertli insan bulundukça, kendi de dertlenir, içi rahat etmez. İstediğin neyse söyle, çaresini ararız!».

**Mənbə:** Xarici baza

## 55-ci dərs

1. Bağlayıcılı tabesiz mürəkkəb cümlə (davamı).
2. Təfəkkür feilləri.
3. Vasitəsiz və vasitəli nitq.
4. Mətn. Atayla yaşıd qız.
5. Tərcümə. Mətnləri (türk, rus, ingilis dilindən) azərbaycan dilinə.

### 1. Bağlayıcılı tabesiz mürəkkəb cümlə.

*Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri müxtəlif üsullarla bir-birinə bağlanır - bağlayıcı ilə və bağlayıcısız.*
*Bağlayıcılı tabesiz mürəkkəb cümlənin tərəfləri - sadə cümlələr aşağıdaki tabesizlik bağlayıcıları ilə bağlanır. Bu bağlayıcıları 25-ci dərsdə öyrənmişdik. Bir daha nəzər salaq:*
1. ***və:*** *Yağış yağdı və tozlu küçələr yuyuldu.*
2. ***amma, ancaq, lakin:*** *Bu yerlərdə havalar xoş olur, amma axşamlar soyuqdan adam titrəyir.*

*Amma, ancaq, lakin bağlayıcıları sinonim bağlayıcılardır və cümlədə bir-birini əvəz edə bilir.*

3. ***həm-həm də:*** *Həm qar yağır, həm də yazın ilıq nəfəsi duyulur.*
4. ***ya-ya da:*** *Ya biz səninlə getməliyik, ya da sən bizimlə qalmalısan.*
5. ***gah-gah da:*** *Gah güclü yağış yağır, gah da yağış yavaşıyırdı.*
6. ***nə-nə də:*** *Nə o, kəndə gəldi, nə də mən Təbrizə getdim (M.İbrahimov).*
7. ***isə:*** *Göz yaşı axıtmayanda ürəyim soyumur, qüssəm isə azalmır (Ə.Vəliyev).*
8. ***yəni:*** *Təbiət canlanır və gözəlləşir, yəni qışın sərt havası yox olur, yaşıllıq görünməyə başlayır.*

***Tapşırıq 669.*** Nöqtələrin yerinə bağlayıcı yazın.
*(həm- həm də; ya -ya da)*

1. ... böyüklər söhbət edirdi, ... uşaqlar ora-bura qaçıb qışqırırdılar. 2. ... müəllim bizi danladı, ... direktör sinfimizə gəlib bizə acıqlandı. 3. ... axşam bizə gəl, ... səhər-səhər universitetdə görüşərik. 4. ... indi mənimlə gedək,... biz heç vaxt görüşməyəcəyik. 5. ... uzaqdan musiqi səsi gəlir, ... əks tərəfdən qışqırıq eşidilir.
*(nə- nə də; gah-gah da)*
1. ... özü yemir, ... bizə icazə vermir. 2. ... saatin zəngi sakitliyi pozur, ... telefonun aramsız səsi zəhlə tökür. 3. ... yağış yağdı, ... otlar göyərdi. 4. Acı xəbəri eşidəndən bəri... Sona xala heç nə yemir, ... Kamran dayı yatmır.
*(və, isə, yəni)*
1. O, gözlərini açdı... pəncərədən düşən işıq onun gözlərini qamaşdırdı. 2. İdmançılar oyuna hazır idilər, hakim... gəlməmişdi. 3. Qış gəldi... hər tərəf ağappaq qarla örtüldü. 4. Göyün üzü qırmızı rəngə boyanmışdı, ... günəş qürub edirdi. 5. Xalidə çox gözlədi Xəlil... yataqdan durmadı.

***Tapşırıq 670.*** Nöqtələrin yerinə sinonim bağlayıcıları (amma, ancaq, lâkin, isə) növbə ilə qoyun.

1. Dilarənin üzü gülür,... ürəyi çox sıxılır. 2. Oğlanlar otağı təmizləyir, qızlar ... həyətdə gül əkirlər. 3. Göy guruldadı,... yağış yağmadı. 4. Ürəyimi sənə açmaq istəyirəm, ... qorxuram. 5. Bütün uşaqlar şənlənir, rəqs edir, ... təzə gələn oğlan bir kanarda sakitcə dayanıb baxır. 6. Atam hər gün tezdən işə gedir, gün batandan sonra evə qayıdır, ... bu gün evə tez qayıdıb. 7. Nərminə Gəncəyə təyyarə ilə gedəcək, ... Ofelya təyyarədə özünü pis hiss etdiyi üçün avtobusla gedəcək. 8. Bizim həyətdə alma, armud, şaftalı, nar, ərik ağaçları bitir, ... qonşumuzun həyətində yalnız dekorativ ağaçlar bitir. 9. Lənkəran çay, narıngi, limon, portağal kimi sitrus bitkiləri ilə dünyada məşhurdur, .... Zaqatalada qızılgül, qoz, fındıq üstünlük təşkil edir. 10. Anam yayda qarpız, yemiş mürəbbələri bişirib, nənəm ... çiyələk, böyürtkən mürəbbələri.

***Qeyd:*** *Tabesizlik bağlayıcıları həm də cümlənin həmcins üzvlərini bir-birinə bağlayır. Bax: 34-cü dərsə.*

***Tapşırıq 671.*** Cümlələri bitirin.

1. O gah gülür, gah da ... 2. Ya dərsini yaz, ya da ... 3. Nənəm çox qoca olduğu üçün nə gözləri görür, nə də ... 4. Ya bizə kömək et, ya da ... 5. Nə ətdir, nə də ... 6. Gah göyün üzü tutulur, gah da ... 7. Nə sən mənə, nə də ... 8. Ailəsi böyük olduğuna görə o, həm oxuyur, həm də ... 9. Onun halı yoxdur, yəni ... 10. Mənim fikrim qətidir, yəni... 11. Lalə yaxşı qızdır, amma... 12. Biz Bakını çox gəzdik, lakin ... 13. Füzuli vətəni Azərbaycanı görmək istəyirdi, ancaq ...

***Tapşırıq 672.*** *Və, ya da, gah, da, istər, lakin, fəqət, həm, halbuki, isə, o cümlədən* tabesizlik bağlayıcılarından istifadə edərək cümlələr qurun.

**2. <u>Təfəkkür feilləri.</u>**

***Qeyd:*** *Bütün feillərdə hərəkət vardır. Lakin onların bəzilərində iş və hərəkət, digərlərində isə təfəkkür, hal- vəziyyət və s. daha özünü qabarıq göstərir.*

***Tapşırıq 673.*** Təfəkkür feillərini öyrən.

| Azərbaycanca | Rusca | İngiliscə |
|---|---|---|
| təsəvvür etmək | воображать, представлять | to imagine, realize |
| planlaşdırmaq | планировать | to plan = project |
| xəyal etmək, arzulamaq | мечтать | to dream |
| nəticə çıxartmaq | делать заключение, | make up a conclusion= to |

| | | |
|---|---|---|
| | заключать | conclude |
| düşünmək | мыслить = думать = считать = верить | to think = think about = guess = believe |
| hiss etmək | чувствовать | to ful |
| duymaq | ощущать | to sense |

***Tapşırıq 674.*** *Düşünmək, yada salmaq, fikrə getmək, duymaq, hiss etmək* təfəkkür feillərini cümlədə işlədin.

*Nümunə:* Ana bütün günü oturub, oğlunun hərəkətlərini düşünürdü.

***Tapşırıq 675.*** Aşağıdakı cümlələrdəki təfəkkür feillərinin altından xətt çəkin və yadda saxlayın.

1. Murad həftəlik gördüyü işləri öz-özünə təhlil etdi. 2. Əhməd dayı müharibədəki dostlarını xatırlamaq istəyirdi. 3. Bakının gələcəkdə daha gözəl olacağını təsəvvür edirəm. 4. Mövzunu yaxşı dərk edib anlamaq istəyirəm. 5. Adil bütün işlərini planlaşdırmaq istəyirdi. 6. Müğənni mahnını oxuduqca, o fikrə getdi. 7. Oğlunun olduğunu o, heç kimdən eşitmək istəmirdi. 8. Nənəm ötən günlərini xatırlayıb gülümsəyirdi.

***Tapşırıq 676***. Aşağıdakı krossvordu həll edin.




Saldan sağa
1) Qumru uşaqlığını .... istəyir
3) Mən ona xoşbəxtlik .... istəyirəm

Yuxarıdan aşağı
2) Tofiq dərsi yaxşı ... üçün çoxlu oxuyur
4) Sona gülün ətrini .... üçün çiçəyi burnuna yaxınlaşdırdı
5) Müəllim Orxanı .... üçün onu çox danışdırdı.

***Tapşırıq 677.*** İmla.

**Bülbül və qaratikan kolu**

"Bir xan qəfəsdə bir bülbül saxlayarmış. Bülbül üçün hər cür şərait yaradılmışdı. Hər cür güldən onun qəfəsinin ətrafında varmış. Ancaq o, bahar fəslinin gəlməsinə baxmayaraq, bir dəfə də gözəl səsi ilə oxumurmuş. Elə məyus-məyus durub baxırmış.

Xan deyir, mən onu o cür bəsləyirəm, yenə oxumur. Buraxın onu, çıxıb getsin. Ancaq izləyin, görün hara gedir. Xanın adamları görürlər ki, bülbül uça-uça qaratikan kolunun üstündə qurumuş bir bülbül yuvasının yanına qonur və "vətənə gəldim, imana gəldim" deyərək cəh-cəh vurmağa başlayır.

Bütün bunları xana çatdırırlar. Xan öz-özünə fıkirləşir. Mən ona o cür baxırdım, bütün bunlar, qaratikan kolunun yanında heç nə imiş".

**Mənbə:** Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu. Şifahi xalq ədəbiyyatı (Rəvayət)

## 3. Vasitəsiz və vasitəli nitq.

***Qeyd:*** *Başqasının nitqi iki üsulla verilə bilər:*
*a) vasitəsiz; b) vasitəli. Vasitəsiz nitqdə başqasının dedikləri şəkildə verilir. Məsələn: Müəllim soruşdu: «Kimin sualı var?» Yazıda vasitəsiz nitq dırnaq arasına alınır və birinci sözün ilk hərfi böyük yazılır. Müəllifin sözlərindən sonra iki nöqtə qoyulur.*
*Başqasının sözlərini öz sözümüz kimi dedikdə vasitəsiz nitq vasitəli nitqə çevrilir. Burada dırnaq işarəsindən istifadə olunmur. Məsələn: Müəllim soruşdu ki, kimin sualı var?*

***Tapşırıq 678.*** Vasitəli nitqdən istifadə edib cümlələri təkrar yazın.

1. «Ağacların yanında ocaq qalamayın», yaşlı kişi bizə dedi.
2. «Zəhmət olmasa, telefonu mənə ver», - Cəmil qardaşından xahiş etdi.
3. «Maşının qabağından keçmə», - ana oğluna dedi.

***Tapşırıq 679.*** Vasitəli nitqdən istifadə edərək cümlələri təkrar yazın.

1. «Uşaqlar, bu göldə üzmək olmaz», - qrup rəhbəri dedi.
Qrup rəhbəri dedi….
2. «Ev tapşırıqlarını hazırla», - ana oğluna dedi.
Ana oğluna ….
3. «Telefonla çox danışma», - Fəxriyyə Çingizə dedi.
Fəxriyyə Çingizə….
4. «Zəhmət olmasa, kompüteri mənə ver», - Fuad Fərəhə dedi.
Fuad Fərəhə….

***Tapşırıq 680.*** Vasitəsiz nitq ilə verilmiş cümlələri vasitəli nitqə çevirin.
1) Bir fransız tarixçisi yazmışdı: «Rusiyada iki Lomonosov var – şair və kimyaçı, hələ üstəlik o, fizik, rəssam, maarifçi və dövlət xadimi idi.
2) Lüdviq Nobel qeyd edirdi: «Bütün bunlar Mendeleyevin adını mənim üçün çox cəlbedici edirdi».
3) Məhəmməd Peyğəmbər demişdir: «Cənnət anaların ayaqları altındadır».
4) Heydər Əliyev demişdir: «Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

***Tapşırıq 681.*** Görkəmli şəxsiyyətlərin fikirlərini vasitəli və vasitəsiz şəkildə yazın. On cümlə.

## 4. Mətn.

### Atayla yaşıd qız

Atam orta yaşda olanda mən uşaq idim. O vaxt mənə yalnız indi məni düşündürən mövzulardan danışırdı, mən də boş-boş suallar verərdim. Atam bilirdi ki, gün gələcək, mən böyüyüb onu anlayacağam. Mən tələsirdim ki, tez böyüyüm. Özümə söz verdim ki, böyüyəndə yazıçı olacağam və atamın mənə danışdıqları, ən çox da müharibə illərinə düşmüş kədərli uşaqlığı haqqında roman yazacağam.

Mənim böyüməyim uzun çəkdi. Uşaqlıqda atamı anlamadım, gənclikdə qəbul etmədim. Orta yaşa çatıb onu anlamağa başlayanda isə artıq gec idi.

İndi mən atamın məzarı önündə onun sevimli mövzularından söz açıram. Ədəbi gənclikdən, yeni yazılarımdan, onun sevimli universitetindən, dostlarından və onların bir-bir fakültəni tərk edib onun yanına gəlməsindən. O isə mənə baxıb susur.

Mən bilirəm ki, heç vaxt öz atamla eyni mövzularda eyni həvəslə danışacaq qədər yaşıd olmayacağam.

Qarşımdakı daşa dönmüş özümlə yaşıd atamla danışıram.

O məni əlimdən tutub otuz yaşıma qədər ötürə bildi, əlimi uşaqlarımın əlinə verənə kimi.

İndi mən onsuz getdiyim bu yollarda onun varlığını hələ də hiss edirəm.

Hərdən filologiya fakültəsinin dəhlizi ilə gedəndə qulağıma pıçıldadığını eşidirəm, tələbələrimə dil və ədəbiyyatımızın qaydalarını öyrədirəm. Atamın mənə öyrətdiyi kimi.

Bir vaxtlar mən öz atamı tələbələrinə – “xalqın uşaqlarına” qısqanırdım. Onun yad uşaqlara sevgisini anlamazdım.

İndi mənim də övladlarım məni tələbələrimə eyni şəkildə qısqanırlar. Başqalarının suallarına daha ətraflı cavab verdiyimə, “xalqın uşaqlarını” daha çox təriflədiyimə görə.

İndi mənim də balalarımın məni qəbul etməməyə, qınamağa öz səbəbləri var.

Amma vaxt gələcək, onlar da məni anlayacaqlar. Yəqin ki, onda da gec olacaq. Onda da mənim üçün bütün mövzular öz mənasını itirmiş olacaq.

Aydındır ki, övladlarımla da heç vaxt eyni mövzulardan eyni həvəslə danışacaq qədər yaşıd olmayacağam.
Amma əsas haqlı çıxmaqdı. Bir gün yadda olmayanda belə.

***Tapşırıq 682.*** Mətni oxuyun. Suallar tərtib edin və cavablandırın.

**5. Tərcümə.** Mətnləri (türk, rus, ingilis dilindən) azərbaycan dilinə.

– Азер, посмотри, что это?
– Где?
–Вот здесь. Иди сюда.
– Это? Это капкан. Рахим, ты никогда не видел капкана?
– Видел. А это что? Это же лапка зверя.
– Да это лапка волка. Охотники рассказывают, что если волк попадает в капкан, то он отгрызает свою лапу и уходит. Вот мы с тобой и увидели это.
– Наверное, ему было очень больно?
– Наверное. Но жизнь, видимо, дороже.

- From which track does the Baku – Ganja train depart?
- From the second track.
- At what time does it depart?
- It arrives at six thirty and departs the station at six forty five.
- Thank you.
-You're welcome.

Masallar çocuklar için vazgeçilmez bir okuldur. Masalla büyümüş bir çocuğun gönül ülkesi, düşleyemeyeceğiniz kadar sınırsızdır. O ülkede cömert padişahlar, zengin saraylar, mutlu insanlar vardır. O ülkede şiddet, cinayet, yoksulluk, yalan, düzenbazlık yoktur. Çünki orada iyiler hep kazanmıştır. Bu talihli çocukların dünyaya iyimser bakacaklarını ve yüreklerindeki saflığı ömür boyu sürdüreceklerini düşünüyorum.

**Ali Çolak**

## 56-cı dərs

1. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi.
2. Oxu mətni. "H.Əliyev dövlətçilik və dil haqqında".
3. Baba Vəziroğlu. "Sən elə bir zirvəsən..." şeiri.
4. Mətn. İrəvan xanlığı.
5. Dialoq.

### 1. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi.

*Sintaktik əlaqələrin 2 növü var: tabesizlik əlaqəsi və tabelilik əlaqəsi.*

*Tabesizlik əlaqəsində olan sözlər eynihüquqlu olur, biri o birisinə tabe olmur, biri o birisini aydınlaşdırır. Tabesizlik əlaqəsi özünü həmcins üzvlər arasında, tabesiz mürəkkəb cümlənin tərəfləri arasında göstərir. Bu əlaqə intonasiya və tabesizlik bağlayıcıları ilə müəyyənləşir. Məsələn: Uşaqlar idman dərsində futbol, voleybol, tennis oynayırlar. «Tərəkəmə», «Vağzalı» və «İnnabı» milli rəqslərimizdir.*

***Tapşırıq 683.*** Cümlələri oxuyun, tabesizlik əlaqəsində olan sözləri seçib yazın.

1. Abşeron bağlarında ancaq əncir, üzüm, nar, püstə və badam yaxşı bitir və bar verir. Bu il biz öz bağımızda ərik, alça, gilas, göyəm və alma ağacları da əkmək fikrindəyik. 2. Buranın havası lap körpə uşaq kimidir, gah gülür, gah ağlayır. 3. Lənkəran, Astara və Masallıda subtropik bitkilər yetişir. Çay, lumu, düyü, naringi və feyxoa ən çox həmin rayonlarda bitir. 4. Səhnə başdan-başa güldür, çiçəkdir. 5. Qızlar və qadınlar bulaqlardan su daşıyırdılar. 6. İndi özümdən də, uşaqlardan, dostlardan - hamıdan incimişəm. 7. Gülçin otağa çox fərəhli, şad və gülərüz daxil oldu. 8. Azərbaycan bayrağında üç rəng - qırmızı, yaşıl və göy rəng var. 9. Qrupumuzda azərbaycanlı, rus, tatar, ləzgi və yəhudi tələbələr oxuyur. Onlar çox mehriban və səmimidirlər. 10. Stolun üstündə konfet, mürəbbə, limon və tort var idi. Hamı səbirsizliklə çay və ya qəhvə gətiriləcəyini gözləyirdi.

### 2. Oxu mətni. H.Əliyevin dövlətçilik və dil haqqında fikirləri.

1) "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətlərimizdir".
2) "Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır".
3) "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, ədəbi olması bundan da çətindir".
4) "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır".
5) "Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz".

6) “Kim müxalifətdə durursa – dursun, ancaq Vətəninə, xalqına mənəviyyatına, məsləyinə müxalifətdə durmasın”.
7) “Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş özünü azad, sərbəst hiss etməlidir”.
8) “Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da əgər həqiqətən vətəndaşdırsa, Vətənin övladıdırsa, deməli öz Vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz”.
9) “Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi”.
10) “Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir”.
11) “Hər bir xalqın, milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”.
12) “Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir”.
13) “Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik!”.
14) “M.Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, Azərbaycanın dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir”.
15) “Azərbaycan dili bizi keçmişdə də, indi də birləşdirəcəkdir”.
16) “Cəlil Məmmədquluzadənin ən dəyərli cəhətlərindən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir”.

**Mənbə:** S.S.Xəlilov. H.Əliyevin kəlamları, 2013

***Tapşırıq 684*** **.** İnşa. “Qəhrəmanlar ölmürlər”.

**3. Baba Vəziroğlu. Sən elə bir zirvəsən... şeiri.**

“Gözlərində açılır bu millətin səhəri,
Sənin adınla bağlı bu xalqın hər zəfəri.
Qədəmin dəyən yerdə səhralar da gül açır,
Gülüstana çevrilir yurdun kəndi, şəhəri.

Günəş doğur elə bil, harda çəkilir adın,
Dosta fəxarət gəlir, gözü kor olur yadın.
Azərbaycan deyəndə səni düşünürük biz,
Azadlığa inamı xalqa sən bağışladın.

Sən bu çətin zamanda gücümüz, qüvvətimiz,
Sən bizim bu dünyada ən böyük sərvətimiz.

Millətin imzası var imzaların içində,
Sənə halaldır, halal ülvi məhəbbətimiz.
Sən elə bir zirvəsən, küləklər neyləyəcək?
Dünənim, bu günümsən, səninlədir gələcək.
Nə qədər Azərbaycan, nə qədər bu millət var,
Heydər "Xalqım" deyəcək, Xalq "Heydər" söyləyəcək!”

**Dinləmə. Slayd.**

**4. Mətn.**

## İrəvan xanlığı

İrəvan xanlığı Şimali Azərbaycan ərazisində olan xanlıqlardan biri idi. Onun ərazisi cənubda Qarabağ, cənubi-şərqdə Naxçıvan xanlıqları ilə həmsərhəd idi. İrəvan şəhəri (indiki Yerevan) xanlığın paytaxtı idi.

Hüseynqulu xan İrəvanın sonuncu hökmdarı olmuşdur. Bu xanlıq iki imperiyanın: Rusiya ilə İranın zərbələrinə məruz qalırdı.

1805-ci ildə rus qoşunları İrəvan xanlığını tutmaq üçün hücum etdilər. Elə bu zaman İran qoşunları da hücuma keçdilər. Üçkilsə yaxınlığında (indiki Ermənistanın ərazisindəki Eçmiədzin) şiddətli döyüş oldu. Lakin heç bir tərəf üstünlük qazanmadı. Belə döyüşlər 1828-ci ilə qədər davam etdi. Bütün bu müddət ərzində Hüseynqulu xanın və qardaşı Həsən xanın qoşunu İrəvan xanlığını müdafiə edir, rus qoşunlarını məğlub edirdilər. 1828-ci ildə rus qoşunu yenilməz İrəvan qalasını top atəşinə tutdu, qalanın divarlarını dağıdıb ələ keçirdi. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmənçay sülh müqaviləsinə əsasən Azərbaycan torpağı bu iki imperiya arasında bölüşdürüldü. İrəvan xanlığı Rusiyanın tərkibinə qatıldı.

Azərbaycanı zəiflətmək üçün İrəvana və onun ətraf rayonlarına İrandan 40.000, Türkiyədən 84.600 erməni köçürüldü. Azərbaycan torpaqları onlara paylandı. Ümumiyyətlə, həmin ildə Zaqafqaziyaya 200.000 erməni köçürüldü.

**Mənbə:** Mətbuat. Daxili baza (Tarixi faktlar əsasında)

**5.Dialoq.**

| | | |
|---|---|---|
| Mehmət - Qızlar, mən meyvə alaram və biz meyvə salatı da hazırlarıq. Təzə bazarda ilin hər fəsli alma, armud, üzüm, portağal, narıngi, heyva, nar tapmaq olar. | M. - Девочки, я куплю фрукты, и ещё мы сделаем фруктовый салат. На Новом базаре в любое время года можно найти яблоки, груши, виноград, апельсины, мандарины, айву и гранат. | M- Girls, I’ll buy fruits and we’ll make fruit salad too. One can find apples, pears, grapes,oranges, tangekines, guinces and pomegranates at any season in Taza Bazaar. |

Mehriban - Burada mövsümi meyvələr də olur- alça, tut, gilas, gilənar, ərik, çiyələk, moruq – bunlar yayın əvvəlində, şaftalı, əncir, üzüm, badam, qoz, püstə, fındıq və şabalıd payızda olur.

М. - Здесь ещё бывают и сезонные фрукты: алча, тут, черешня, вишня, абрикос, клубника, малина - эти фрукты бывают в начале лета, персик, инжир, виноград, миндаль, орех, фисташка, фундук и каштан - осенью.

M. - There are a lot of season fruits too: alcha, mulbery, cherry, strawberry, raspberry - at the beginning of summer; peach, bigs, almonds, grape, nuts and chestnuts in autumn.

Mehmet- Dostlar şad və sevinə-sevinə bazarlıq edib yataqxanaya qayıdırlar. İndi onları mətbəxdə iş görmək gözləyir. Kimi, salat hazırlayır, kimisi borş bişirir, bəziləri də meyvələri yumaqla məşğuldur. Nahara hər şey hazır olmalıdır.

М. После покупок друзья весело и радостно возвращаются в общежитие. Теперь их ждёт работа на кухне. Кто-то готовит салат, кто-то варит борщ, некоторые моют фрукты. Всё должно быть готово к обеду.

M. The friends were returning to hostel happy after shopping. Now the work in the kitchen is waiting for them. Some of them doing salad, somebody preparing borsh. The rest are washing fruits. Everything must be ready for dinner.

## 57-ci dərs

1. Tabelilik əlaqəsi. Uzlaşma.
2.Məntiqi vurğu.
3. İfadə. "Gülüş günü".
4. Mətn. Şuşa şəhərnin tarixi.
5. Dialoq.

### 1. Tabelilik əlaqəsi. Uzlaşma.

***Tabelilik əlaqəsində*** *olan sözlərdən biri o birinə tabe olur. Tabelilik əlaqəsinin 3 növü var: uzlaşma, idarə, yanaşma.*

***Uzlaşma əlaqəsi*** *tabe sözün şəxs və kəmiyyətə görə əsas sözə uyğunlaşmasıdır. Məsələn: Mən anayam, sənin qələmin, Xədicə gəldi.*

*Bu əlaqədə tərəflərin biri təkdirsə, o biri də tək, cəmdirsə, o biri də cəm olmalıdır.*

*Uzlaşma mübtəda və xəbər arasında II və III növ təyini söz birləşmələrinin tərəfləri arasında olur. Mübtəda ilə xəbər arasında şəxsə görə uzlaşma heç vaxt pozulmur, kəmiyyətə görə pozula bilər. Bu, III şəxsin cəmində ola bilər. Məsələn: Fəhlələr işləyir. - Onlar fəhlədirlər - Onlar fəhlədir.*

*II - növ təyini söz birləşmələrinin birinci tərəfi şəxs əvəzlikləriilə ifadə oluna bilmədiyinə görə uzlaşma yalnız III şəxsə görə olur. Məsələn, Qız qalası, qələm qapağı, məktəb həyati və s.*

*III - növ təyini söz birləşməsində uzlaşma hər üç şəxsə görə olur. Məsələn, mənim albomum, sənin paltarın, onun anası, bizim evimiz və s.*

***Tapşırıq 685.*** Cümlələrdəki uzlaşma əlaqələrini göstərin.
1. Quran İslamın müqəddəs kitabıdır. 2. Məhəmməd iyirmi yaşında müstəqil həyata qədəm qoyur. 3. Ramazan müsəlmanların ən müqəddəs və sevimli bayramıdır. 4. Qureyşilər qəbiləsinin varlı tacirləri kömək üçün Məhəmmədə müraciət edirlər. 5. Məhəmməd Xədicə ilə evlənir və onlar 25 ilə yaxın bir yerdə ömür sürürlər.

***Tapşırıq 686.*** «Mənim dostum» birləşməsinin birinci tərəfini hər üç şəxsin tək və cəmində işlədin və ikinci tərəfı də ona uyğunlaşdırıb cümlə içərisində işlədin.

***Tapşırıq 687.*** Oxuyun, tabesizlik və tabelilik əlaqəsində olan sözləri seçib yazın.
1. Biz sülh və demokratiya istəyirik. 2. Azərbaycanda yaşayan bütün millətlər - azərbaycanlılar, ruslar, ləzgilər, tatlar, talışlar, kürdlər və s. eyni hüquqa malikdirlər. 3. Kür Azərbaycanın ən uzun və ən böyük çayıdır. 4. Azərbaycan cənubda Türkiyə və İranla həmsərhəddir. 5. Azərbaycan öz nefti, pambığı, mineral sulan ilə məşhurdur. 6. Səhərisi gün o daha xoşbəxt və daha şən görünürdü. 7. Arif

və Səid hər səhər işə birlikdə piyada gedirlər. 8. Hüqo, Drayzer, Merime mənim çox sevdiyim yazıçılardır. 9. Atam bu il bağımızdan xeyli ərik, şaftalı, nar yığdı.

***Tapşırıq 688.*** «Mən sizdən çox razıyam» cümləsinin mübtəda və xəbərini üç şəxsin tək və cəmində işlədin.

***Tapşırıq 689.*** Nöqtələrin yerinə lazım olarsa, şəkilçləri yazaraq uzlaşma əlaqələrini bərpa edin.

1. Mən hər gün səhər saat $7^{00}$-da oyanır..., əvvəlcə əl-üzümü yuyur..., sonra səhər yeməyini yeyir... 2. Onlar kitabxanadan çıxıb bizə gələcək... 3. Biz vətənimizin övladları.... 4. Balaca Orxanın top... hovuza düşdü... və o, ağladı... . 5. Bizim küçə... böyük və qəşəng... 6. Onlar iyirmi ildir ki, qonşudur... 7. Sən mənim ən yaxın dostum ... 8. Siz hansı yazıçıları sevir...?

## 2. Məntiqi vurğu.

*Cümlənin tərkibində sözlərdən biri xüsusi vurğu ilə seçilir və bu, məntiqi vurğu adlanır. Məntiqi vurğu, əsasən, xəbərin yanındakı sözün üzərinə düşür.*

*- Ayxan bu gün təyyarə ilə **Istanbula** yola düşəcək.*

*- Ayxan bu gün İstanbula **təyyarə ilə** yola düşəcək.*

*- Bu gün təyyarə ilə İstanbula **Ayxan** yola düşəcək.*

*- Ayxan təyyarə ilə İstanbula **bu gün** yola düşəcək.*

*- Danışıq vaxtı məntiqi vurğulu söz bəzən cümlənin müxtəlif yerində işlənə bilir. Danışan məqsədindən asılı olaraq, əsas məlumat daşıyan sözü daha qabarıq nəzərə çatdırmaq üçün onu məntiqi vurğu ilə deyir:*

*- **Ayxan** bu gün getdi.*

*- Ayxan **bu gün** getdi.*

*- Ayxan bu gün getdi.*

*- Birinci cümlədə gedənin Ayxan olması, o birində Ayxanın nə vaxt getməsi, digərində isə Ayxanın məhz getməsi daha artıq nəzərə çatdırılır.*

## 3. İfadə. Gülüş günü.

1 aprel bütün dünyada Gülüş Günü kimi qeyd olunur. Bu ənənə 500 il əvvəl Fransada yaranıb. O vaxt fransızlar yeni ili məhz həmin gün qarşılayırdılar. Amma Fransa kralı qərar verdi ki, yeni il yanvarın 1-də qeyd olunsun. Xalq kralın qərarından narazı oldu. Buna etiraz etmək üçün müxtəlif tədbirlər keçirirdilər. Camaat kralın adamlarını lağa qoyurdu. Onları qonaqlığa dəvət edir, özləri həmin yerə gəlmir, yalan xəbərlər yayırdılar. Amma kral qərarını dəyişmədi.

Aradan illər keçdi. xalq yavaş-yavaş yeni ili yanvarın 1-də qeyd etməyə öyrəşdi. Bununla belə, 1 apreli də unutmadılar. Həmin günkü zarafatları yada salıb 1 apreli Gülüş Günü kimi qeyd etməyi qərara aldılar.

Tezliklə bu ənənə bütün dünyaya yayıldı. Axırda gəlib bizim ölkəmizə də çatdı. Bizdə də həmin gün insanlar bir-birini aldadır, özü də bundan heç kim incimir. Düzdür, hamı çalışır ki, 1 apreldə aldanmasın. Amma bu çox az adama qismət olur.

**Əlavə oxu.** "Qarğa və tülkü" təmsilini obrazlarla ifadəli oxuyun.

"Pendir ağzında bir qara qarğa
Uçaraq qondu bir uca budağa.
Tülkü görcək yavaş-yavaş gəldi,
Endirib baş, ədəblə çömbəldi.

Bir zaman həsrət ilə qarğa sarı
Altdan-altdan marıtdı baş yuxarı;
Dedi: "Əhsən sənə, a qarğa ağa!
Nə nəzakətlə qonmusan budağa!"

"Bəzədin sən bu gün bizim çəməni,
Şad qıldın bu gəlməyinlə məni.
Nə gözəlsən, nə xoşliqasən sən!
Yeri var söyləsəm – hümasən sən!

Tüklərindir ipək kimi parlaq.
Bəd nəzərdən vücudun olsun iraq!
Bu yəqindir ki, var səfa nəfəsin!"
Belə sözdən fərəhlənib qarğa,
Ağzını açdı, ta ki, etsin "ğa".

"Ğa" edərkən hənüz bircə kərə
Pendiri dimdiyindən endi yerə.
Tülkü fövrən havada qapdı, yedi,
Qarğaya tənə ilə böylə dedi:
"Olmasaydı cahanda sarsaqlar,
Ac qalardı, yəqin ki, yaltaqlar".

**Mənbə:** M.Ə.Sabir (Xalq dərdimin tərcümanı). Metodik vəsait. Bakı: F.Köçərli kitabxanasında çap olunmuşdur,2017, (405s.) s.22

**4.Mətn.**

## Şuşa şəhərinin tarixi



Şuşa 1752-ci ildə Qarabağ xanlığını qorumaq üçün qala kimi təməli qoyulmuşdu. Bura əvvəllər Pənahabad adlandırılıb.

1822-ci ilin noyabrında Qarabağ xanlığının əyalətə çevrilməsindən sonra Şuşa hərbi dairə rəisi general leytenant knyaz V.Q.Mədətovun istiqamətgahına çevrildi.

XVIII əsrin ortalarında Şuşa yeni inkişaf mərhələsinə qədəm qoymuşdu.

pənahlı xan müharibələr dövründə əhalinin qorunması üçün etibarlı, üç tərəfi keçilməz sıldırımlı qayalarla əhatə olunmuş yeni bir qala inşa etdirdi. Bu qala «Pənahabad» sonralar isə Şuşa adlandırılmağa başlandı.

Şuşa qalası tez bir zamanda Qarabağ xanlığının paytaxtı olmuşdu. Pənahəli xan şəhəri saldıqdan sonra dövlət atributlarından biri olan Qarabağ xanlığının pul vahidi «Pənahabadi» adlı qızıl sikkə kəsdirdi.

Şaş şəhərinin ərazisi qədim tarixə malikdir. buranın yaşayış yerləri, o cümlədən Cıdır düzündəki Şuşa mağarası, bu yerlərin Azərbaycan ərazisində ən qədim insan yaşayış məskənlərindən olduğunu bildirir. Burada məscidlər, kilsələr, karvansaralar, maarifçilərin, şairlərin, musiqiçilərin ev muzeyləri də var idi. Şuşada ilk teatrı 1896-cı ildə açılmış, 1830-cu ildə isə ilk məktəb inşa edilmişdir. Şuşa birinci növbədə muğam ifaçıları, Azərbaycan milli musiqisinin vokal ifaçılarının vətənidir. Bir sözlə Şuşa mədəniyyət mərkəzidir.

1923-1991-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmuşdur. 1992-ci ildən 2020-ci ilədək şəhər tanınmamış Dağlıq Qarabağ Respublikası tərəfindən idarə olunurdu.

Azərbaycan ikinci Qarabağ müharibəsi nəticəsində 8 noyabr 2020-ci ildə şəhər üzərində nəzarəti bərpa edib. Şanlı qələbə noyabrın 10-da Azərbaycanın bəyanı ilə təsdiq edilib.

**Mətnə aid suallar:**

1. Qarabağ nələri ilə məşhurdur?
2. Qarabağın paytaxtı haradır?
3. Şuşa şəhərini əvvəllər necə adlandırırdılar?
4. Şuşa ətrafındakı qədim yaşayış məskənləri hansılardır?
5. Şuşaya kim rəhbərlik edirdi?
6. Şuşada kimlər yaşayırdılar?
7. Neçənci ildə Qarabağ xanlığının paytaxtı hara olmuşdur?
8. Hansı dövlət atributu meydana gəldi?
9. Pul vahidinin üzərində nələr var idi?

***Tapşırıq 690.*** Mətnə aid verilmiş suallara cavab yazın.

**Dinləmə materialı.**

**5. Dialoq.**

| | | |
|---|---|---|
| Bu gün Opera və balet teatrına gedək. | Пойдём сегодня в театр оперы и балета. | Let's go the opera and ballet theater today. |
| Tamaşa indi başlanacaq. | Спектакль сейчас начнёт-ся. | He play is about to begin. |
| Çox maraqlı tamaşadır. | Очень интересный спек-такль. | A very interesting performance. |
| Aktyorların oyunu xoşu- | Вам понравилась игра | Did you like the acting |

| | | |
|---|---|---|
| nuza gəldi? | актёров? | game? |
| Aktyorlar əla oynayırlar. | Актёры играют велико-лепно. | He actors play great! |
| Baş rolun ifası mənim da-ha çox xoşuma gəldi. | Мне больше всего понра-вилось исполнение глав-ной роли. | I liked he leading role the most. |
| Mən dünən operaya get-mişdim. | Я вчера ходил в оперу. | I went to the opera yesterday? |
| Hə? Bəs nəyə qulaq as-dın? | Да?! А что ты слушал? | Yes? What did you listen to? |
| “Koroğlu”ya. Mənim çox xoşuma gəldi. | “Кёроглы”. Мне очень понравилось. | “Koroglu”. I really liked it. |
| Məzmunu dastanda oldu-ğu kimidir? | Содержание такое же, как в дастане? | Is the content the same as im dastan? |
| Bəli, elədir. | Да, такое. | Yes, that is. |
| Qardaşım gələn həftə “Şah İsmayıl”a bilet tap-mağa söz verib. | Брат мне обещал на той неделе взять билеты на “Шах Исмаиль”. | My brother promised me to get tickets for the opera “Shax Ismail” that week. |
| Hə?! Bu mənim sevimli operamdır. | Да?! Это моя любимая опера. | Yes?!This is my favorite opera. |
| Mən ona iki dəfə qulaq asmışam, ancaq bir də zövqlə dinləyərdim. | Я слушал ее два раз, но с удовольствием послушаю еще. | I listened to it twice, but Y will listen to it with pleasure again. |
| Gəlin bu gün teatra gedək. | Пойдемте сегодня в театр. | Let us go to the theater today. |
| Məmnuniyyətlə. | С удовольствием. | With pleasure! |

## 58-ci dərs

1. Hərbi and.
2. Esse. İşğaldan azad olunmuş Qarabağ torpaqları.
3. Mikayıl  Müşfiq “Yenə o bağ olaydı” şeiri.
4. Mətn.
5. Dialoq.

**1. Hərbi and.**

Mən, Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Silahlı qüvvələri sıralarına daxil olarkən Vətənim Azərbaycana və onun xalqına sadiq olacağıma and içirəm.

Təntənəli surətdə and içirəm:

Azərbaycan Respublikasının mənafeyini, onun ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımı və canımı əsirgəməyəcəyəm;

Səmimi, cəsur, intizamlı olacaq, hərbi sirri verməyəcək, nizamnamələrin tələblərini yerinə yetirəcək, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağam;

Hərb işini vicdanla öyrənəcək, əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirəcək, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olacağam.

Andımı pozsam, Azərbaycan Respublikasının qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazıram.

Mən, Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Silahlı qüvvələri sıralarına daxil olarkən Vətənim Azərbaycana və onun xalqına sadiq olacağıma and içirəm.

Təntənəli surətdə and içirəm:

Azərbaycan Respublikasının mənafeyini, onun ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımı və canımı əsirgəməyəcəyəm;

Səmimi, cəsur, intizamlı olacaq, hərbi sirri verməyəcək, nizamnamələrin tələblərini yerinə yetirəcək, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağam;

Hərb işini vicdanla öyrənəcək, əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirəcək, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olacağam.

Andımı pozsam, Azərbaycan Respublikasının qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazıram.

### Askerlik yemini

Barışta və savaşta, karada, denizde ve havada her zaman ve her yerde milletime ve cumhuriyyetime doğruluk ve muhabbetle hizmet, kanunlara ve nizamlara ve amirlerime itaat edeceğime ve askerliğin namusunu, türk sancağının şanım canımdan aziz bilip icabında Vatan, Cumhuriyet ve vazife uğrunda seve-seve hayatımı feda eyleyeceğime namusum üzüne and içerim.

**Military oath**

I (________) do solemnly swear (or affim) that I will support and depend the Constitution of the United States against all enemies, foreign and domestic that will bear true faith and allegiance to the same; and that I will obey the orders of the President of the United States and the orders of the officers apponted…

**Военная присяга**

Я (_________) торжественно присягаю на верность Отечеству – Российской Федерации. Клянусь свято соблюдать Конституцию Российской Федерации строго выполнять требования воинских уставов, приказы командиров и начальников.

Клянусь достойно исполнять воинской долг, мужественно защищать свободу, независимость и конституционный строй России, народ и Отечество.

## 2. Hərbi terminlər.

***Tapşırıq 691.*** Aşağıdakı terminləri rus dilindən Azərbaycan dilinə tərcümə edin və cümlə qurun.

военный, военное положение, военная тайна, военное снаряжение, военный враг, военная служба, воинская клятва (присяга), воинское звание, воинская доблесть…

***Tapşırıq 692.*** Aşağıdakı terminləri türk dilindən Azərbaycan dilinə dilinə tərcümə edin və cümlə qurun.

savaş, asker, rütbe, gelpe, görev, albay, orgeneral, yüzbaşı, başçavuş, subay, muharebe, barış, nişançı, bölük alay, savaş uçağı pilotu, tüfek.

***Tapşırıq 693.*** Aşağıdakı terminləri ingilis dilindən Azərbaycan dilinə dilinə tərcümə edin və cümlə qurun.

rank, general, lieutenant, ceasefire, war, rudder, conflict, battler, armed forces, combat forces.

**Bunları bilməlisiniz.**

**Onluq say sistemi**

Heç fikir vermisinizmi, on dənə təklik bir onluq, on dənə onluq bir yüzlük, on dənə yüzlük bir minlik yaradır. Buna onluq say sistemi deyirlər.

Bəs nəyə görə beşlik yox, ikilik yox, məhz onluq?

Çox güman ki, bu, insanın əllərindəki barmaqların sayı ilə bağlıdır. Qədimdə insanların dilində say bildirən sözlər yox idi.

Alış-veriş edəndə isə insanlar barmaqla sayırdılar. Çoxlu sayda şeyləri almaq üçün bəzən bir neçə adam lazım gəlirdi. Birinci adam əllərinin barmaqlarını bir-bir

açmaqla təklikləri sayırdı. On barmağı açılıb qurtardıqdan sonra bu adam əlini yumurdu, ikinci adam bir barmağını açırdı.

İkincinin hər barmağı bir onluq demək idi. Bu adamın barmaqlarının onu da açıldıqda məlum olurdu ki, sayılan şeylərin miqdarı on onluğa, yəni yüzə çatıb. Bu zaman üçüncü adam bir barmağını açırdı. Beləliklə, onluq say sistemi yarandı.

**3. Esse. İşğaldan azad olunmuş Qarabağ torpaqları.**

**4. Mikayıl Müşfiq "Yenə o bağ olaydı".** Şeiri əzbərləyin.

«Yenə o bağ olaydı, yenə yığışaraq siz
O bağa köcəydiniz.
Bız də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim,
Qələmə söz verəydim,
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham...
Yazaydım səhər-axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?
Yenə o bağ olaydı, yenə sizə gələydik,
Danışaydıq, güləydik.
Ürkək baxışlarmla ruhumu dindirəydin,
Məni sevindirəydin».

**Mənbə:** Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2004, s.176

**5. Mətn.**

**Abşeron yarımadası**

Abşeron yarımadası XVIII əsrin 20-ci illərində Abşeron kəndi kimi qeyd olunurdu. Belə hesab edilir ki, "Abşeron» sözünün mənası duzlu su deməkdir. Başqa bir ehtimala görə isə, XIX əsrdə belə bir fərziyə yayılmışdı ki, onun ilkin adı Abşirin olub. Bu da şirin su deməkdir.

Abşeron qədim zamanlardan Hindistan və Çinlə əlverişli ticarət yolu olmuşdur. Çinlə bağlı Bilgəh qəsəbəsinin sahil sularında sualtı tədqiqatlar aparılarkən arxeoloji qazıntılar üzə çıxarılmış, çoxsaylı Çindən gətirilmiş keramika tapıntıları qeyd olunur. Hind əlaqələrinə isə Abşeronda, Suraxanıda «Atəşgah» məbədində Hind yazısı olan plitənin mövcudluğu buna sübutdur.

Abşeronda təbii sərvətlərdən neft-qaz çıxarılır. Burada heyvandarlıq, üzümçülük, balıqçılıq və bostançılıq da inkişaf edib.

Burada dənizkənarı istirahət mərkəzləri: sanatoriyalar, dispanserlər, düşərgələr, əyləncə mərkəzləri fəaliyyət göstərir.

## Mətnə aid suallar:

1. Abşeron yarımadası harada yerləşir?
2. Abşeron yarımadasında neçə şəhər və qəsəbə var?
3. Abşeron sözünün mənası nədir?
4. Abşeron sənaye rayonu olaraq özündə hansı kompleksləri birləşdirir?
5. Yarımadanın kənd təsərrüfatına nə aiddir?
6. Hansı kurortlar, istirahət mərkəzləri fəaliyyət göstərir?

## 59-cu dərs

1. Müxtəsər və geniş cümlələr.
2. İfadə "Suqovuşan".
3. C.Cabbarlı "Türk sağ ikən" şeiri.
4. Mətn. Xudafərin körpüsü.
5. Dialoq.

### 1. Müxtəsər və geniş cümlələr.

***Qeyd:*** *Ancaq baş üzvlərdən ibarət olan cümlələrə müxtəsər cümlələr deyilir. Məsələn: Tələbə danışır.*

***Tapşırıq 694.*** Aşağıdakı mətndən müxtəsər cümlələri seçib yazın.

Qartal quşların padşahı idi. Qırğıya dedi ki, bütün quşları bura yığ. Quşlar gəldilər. Qartalın başına yığışdılar. Lakin sərçə gəlmədi. Qırğıya dedi:

– Mən heç kəsin əmrinə qulaq asan deyiləm. sərçənin dediklərini eşidən qartal dilləndi:

– Qırğı, sən tələsmə. Sərçənin tüklərini hələ yolma. Qoy mən öyrənim görüm sərçəyə güc verən nədir ki, o belə yekə-yekə danışır.

Qartal və qırğı uçdular. Onlar gördülər ki, sərçə öz dostunu qonaq çağırıb. Qartal qırğıya dedi:

– Ona bu gün yaxınlaşsan günahdır. Sərçə ev sahibidir. O indi ən böyük padşahdır.

*("Sərçə indi ən böyük padşahdır" təmsili)*

***Qeyd:*** *Geniş cümlələrdə ikinci dərəcəli üzvlər də iştirak edir.*

***Tapşırıq 695.*** Aşağıdakı mətni köçürün, geniş cümlələrin altından xətt çəkin.

Keçi hündür bir yarğana dırmaşır. Canavar görür. Onu tutub yemək istəyir. Ancaq yarğana çıxmağa qorxur. Canavar deyir:

– Ay yazıq, belə genişlikdə, düzənliyi, çəmənliyi qoyub sıldırımın başına niyə dırmaşırsan? Allah eləməsin, oradan yıxılsan, tikən belə ələ gəlməz.

Keçi cavab verdi:

– Sən, yəni məndən çox mənim qayğıma qalırsan? Mən bilirəm əla başa düşürəm ki, düzənliyə enən kimi sənin naharın olacağam.

*("Keçi ilə canavar" təmsili)*

***Tapşırıq 696.*** 10 dənə müxtəsər cümlə yazın.

***Tapşırıq 697.*** 10 dənə geniş cümlə yazın.

***Tapşırıq 698 .*** Şagird, çiçək, televizor, mən, adamlar sözlərinin iştirakı ilə 5 müxtəsər, beş geniş cümlə qurun.

***Tapşırıq 699.*** Gəldim, apardılar, görür, iştirak edəcəyik, alacaqsınız sözlərinin iştirakı ilə 5 müxtəsər, 5 geniş cümlə qurun.

***Tapşırıq 700.*** İmla.

**Ü.Hacıbəyov**

"Dahi bəstəkar, musiqiçi, alim, felyetonçu, pedaqoqdur. O, 1885-ci ildə Şuşada anadan olmuşdur. Azərbaycan professional musiqi sənətinin və milli operasının banisidir. O, Azərbaycan Dövlət Konservatoriyasını təşkil etmiş və onun rektoru olmuşdur. 7 operanın o cümlədən "Leyli və Məcnun (1908) və "Koroğlu) (1937) operalarının 3 musiqili komediyanın bir çox romans və mahnıların müəllifidir. Azərbaycan Respublikası Dövlət Himninin musiqisi də ona məxsusdur.

Azərbaycan xalqı hər il sentyabrın 18-i bəstəkarın doğum gününü xüsusi qeyd edir. Onun məzarını ziyarət edirlər, qəbri üstünə çiçəklər qoyur və elə orada bəstəkarın məşhur "Sənsiz" romansını oxuyurlar".

**2. İfadə. "Suqovuşan".**

Suqovuşan kəndi əvvəllər Dağlıq Qarabağ Muxtar vilayətində Ağdərə rayonunun inzibati ərazisinə aid idi. Lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu Tərtər və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir.

Bu ərazi strateji baxımdan "Qarabağın açarı" – hesab olunur. Çünki Murovdağ silsiləsinin cənub yamacı ilə Səriəng gölünə yol buradan keçir. Suqovuşanın alınması ilə Murov, Kəlbəcər, Tərtər yolu tamamilə kəsilir və Ağdam şəhərinin azadlığına yol açılır.

**Mənbə:** Mətbuat orqanları

**3. C.Cabbarlı "Türk sağ ikən"şeiri .**

"Türk sağ ikən yurduna əl vurulmaz,
Ölsə də zəncir daşımaz, qul olmaz.
Alarım mizrağı, bir türk kimi qalxan çəkərəm mən,
Tutduğum haqq yoludur, qan tökərim can verərim mən
Atılın bombalarım, Qandır, oddur təməlim,
Böyük Turan Vətənim!"

**Mənbə:** Cəfəfər Cabbarlış Turan ellərinə salam. Bakı, 2011.



## 4. Mətn.

### Xudafərin körpüsü

Cəbrayıl rayonu ərazisində yerləşən və uzun illər işğal altında olan Xudafərin körpüsü 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən Rəvvadilərlə mübarizə aparmaq üçün Araz çayı üzərində inşa olunmuşdur. Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü zamanı bir hissəsi uçurulsa da, sonradan bərpa edilib. Bu körpü təbii qayalar üzərində tikilmişdir. Körpüdən bir qədər aralı daha bir körpü də var ki, bu da Xudafərin adlanır. İkinci körpü 11 gözdən ibarət olub və XII əsrdə, Elxanilər dövründə yaradılmışdır. Hər iki körpü İpək yolunun üzərində yerləşir.

Xudafərin körpüsü Azərbaycanı birləşdirən simvolik abidədir. Şükürlər olsun Tanrıya, 30 ilə yaxın həsrətə son qoyuldu və bu gün Azərbaycanın şanlı bayrağı Xudafərin körpüsü üzərində dalğalanır. Yaşasın Azərbaycan!

**Mənbə:** Mətbuat orqanları (Tarixi faktlar əsasında)

## 5. Dialoq. Sağlam olun.

### Həkim Əli bəyə nə məsləhət verir?

**Həkim:** Buyurun, Əli bəy, hansı problemləriniz var?
**Əli bəy:** Əllərimdə, qollarımda bu səpgilər var.
**Həkim:** Sizin allergiyanız varmı?
**Əli bəy:** Məndə çiyələyə allergiya var. Amma mən onu heç vaxt yemirəm.
**Həkim:** Başqa problemləriniz də varmı?
**Əli bəy:** Bəzən mədəm ağrıyır və bel ağrılarım da olur. Ancaq mən ağrıkəsici qəbul edirəm və yaxşı oluram.
**Həkim:** Başınız hərlənirmı?
**Əli bəy:** Bəli.
**Həkim:** Bu, stressdən də ola bilər. Neçə saat işləyirsiniz?
**Əli bəy:** Son vaxtlar mən çox işləyirəm və az yatıram.
**Həkim:** Stress çox zərər verə bilər.
**Əli bəy:** Mən nə etməliyəm?
**Həkim:** Siz vaxtlı-vaxtında dincəlməlisiniz.
**Əli bəy:** Səpgilər haqqında nə deyirsiniz?
**Həkim:** Mən sizə krem verə bilərəm, lakin əvvəlcə bəzi testlərdən keçməlisiniz.
**Əli bəy:** Çox sağ olun!

## Bədən üzvləri

| | | | |
|---|---|---|---|
| bədən - | body - | тело | vücud |
| baş - | nead - | голова | baş |
| çiyin - | shoulder | плечо | omuz |

| | | | |
|---|---|---|---|
| sinə, döş - | ches - | грудь | meme |
| qol - | arm - | рука | kol |
| üz - | face - | лицо | yüz |
| əl - | hand - | рука | |
| barmaq - | finger - | палец | parmak |
| bel - | waist - | спина | bel |




| | | | |
|---|---|---|---|
| ayaq - | foot - | нога | ayak |
| diş - | tooth - | зуб | diş |
| dil | tongul - | язык | dil |
| diz - | knell - | колена | |
| kürək - | bask | лопатка | kürək |
| boğaz - | throat - | горло | boğaz |
| dəri - | skin - | кожа | cild |
| dırnaq - | nail - | ноготь | tırnak |

| | | | |
|---|---|---|---|
| bilək - | wrist - | запастье | bileğ |
| bığ - | mustache | усы | bığ |
| saqqal - | beard - | борода | sakkal |
| qarın - | stomach | живот | karın |
| beyin - | brain - | мозг | beyn |
| ürək - | heart - | сердце | kalp |
| sümük - | bone- | кость | kemik |
| böyrək- | kidney- | почка | kövrek |
| ağ ciyər | lung- | легкое | akciğər |
| qara ciyər | liver | печен | karaciğer |
| mədə- | stomach | желудок | mide |
| bağırsaq- | intestines | кишечник | bağırsaq |
| saç | hair | волосы | saç |
| alın | forehead | лоб | alın |
| qaş | brow | бровь | kaş |
| kirpik | eyelash | ресница | kirpik |
| göz | eye | глаз | göz |
| qulaq | ear | ухо | kulak |
| yanaq | cheek | щека | yanak |
| burun | nose | нос | burun |
| ağız | mouth | рот | ağız |
| dodaq | lip | губы | dodak |
| çənə | chin | подбородок | çene |
| boyun | neck | шея | boyun |

## 60-cı dərs

1. Cümlə üzvlərinin sırası.
2. İmla. “Böyüklərlə gəzirəm”.
3. Tərcümə. Mətnləri (türk, rus, ingilis dilindən) azərbaycan dilinə.
4. Yoxlayıcı tapşırıqlar.
5. Slayd izləmək. Azərbaycan ordusu

### 1. Cümlə üzvlərinin sırası.

*Cümlə üzvlərinin hər birinin cümlədə öz mövqeyi, yeri var. Bu onların mənası və qrammatik mövqeyindən irəli gəlir. Cümlə üzvlərinin sırası pozulduqda cümlənin mənası qismən dəyişildiyi kimi, bəzən mənasızlıq yaranır.*

*Cümlə mübtəda ilə xəbərin sintezindən ibarətdir və xəbər mübtədaya uzlaşma əlaqəsi ilə bağlanıb ona tabe olur. Buna görə də xəbər mübtədadan sonra gəlir. Mübtəda və xəbər adətən cümlənin qütbləri rolunda çıxış edir.*

*Emosional nitqdə bəzən mənanın daha qabarıq verilməsi üçün mübtədadan əvvəl xəbərin işlədilməsi mümkündür. Məsələn: Qurtarın nahaq söz danışmağı! Qayıdın evinizə.*

*Tamamlıqlar, adətən, xəbərə idarə əlaqəsi ilə bağlanır, buna görə də tamamlıqlar asılı olduğu xəbərdən əvvəl gəlir. Qeyri-müəyyən vasitəsiz tamamlıqların yeri son dərəcə sabit, müəyyən vasitəsiz tamamlıqların, eləcə də vasitəli tamamlıqların yeri bir qədər sərbəstdir.*

*Qeyri-müəyyən vasitəsiz tamamlıqlar şəkilçisiz olduğuna görə həmişə xəbərin yanında, ondan əvvəl gəlir. Məsələn: Tələbə mühazirə yazır. Tələbə hər gün dərsdə mühazirə yazır.*

*Müəyyən vasitəsiz (təsirlik halda olan) və vasitəli (qalan hallarda) tamamlıqların yeri sərbəstdir. Məsələn, Mən bileti dostuma verdim. Dostuma bileti mən verdim.*

*Zərfliklərin yeri məna növlərindən asılı olaraq müxtəlifdir. Tərzi-hərəkət və kəmiyyət zərfliklər, adətən, feli xəbərə aid olub onun yanında gəlir. Məsələn, Qapı birdən açıldı. Maşın sürətini bir qədər artırdı.*

*Zaman zərflikləri, adətən, cümlənin əvvəlində, hətta mübtədadan öndə işlənir. Məsələn,* ***İndi*** *biz bu barədə danışarıq.* ***Dünən*** *güclü yağış yağdı.*

*Yer, səbəb və məqsəd zərflikləri xəbərə idarə əlaqəsi ilə bağlanır və onların yeri də cümlədə vasitəsiz və vasitəli tamamlıqlar kimi sərbəst olur. Məsələn, İclasdan sonra hamı konsertə getdi. Yağış yağdığına görə yer sürüşkən idi. Həyatda nəyəsə çatmaq üçün iradəli olmaq lazımdır.*

*Təyin həmişə təyin olunandan əvvəl işlənir, yəni mübtədanın təyini mübtədadan əvvəl, tamamlığın təyini tamamlıqdan əvvəl və s. gəlir. Məsələn,* ***Gözəl*** *musiqi insana ruh yüksəkliyi gətirir. O,* ***köhnə*** *ayaqqabılarmı çıxarıb içəri keçdi. Balaca Fidan* ***gözəl*** *və* ***ağıllı*** *uşaqdır. Maşın* **dar** *küçələrdən keçib sonra magistral yola çıxdı.*

***Tapşırıq 701.*** Sözləri düzgün sıralandırıb cümlə qurun.

1. Əkərsən, biçərsən, nə, onu. 2. Sübut edən, çox, sübut etmir, heç nə. 3. Atılan, daş, daldan, dəyər, topuğa. 4. Cücəni, sayarlar, payızda. 4. Ölç, yüz, biç, bir. 5. Atıb, gizləmə, oxu, yayı. 6. Bazar örtülü, pozar, dostluğu. 7. Ağız, olmaz şirin, deməklə halva. 8. Köhnəsi, hər şeyin, təzəsi, dostun. 9. Əldə, qarpız, iki, tutmaq olmaz. 10. Tanınar, pis, dost, gündə. 11. Çox, basarlar, əyilmə, dikəlmə, çox, asarlar.

***Tapşırıq 702.*** Verilmiş mübtəda və xəbərlərə (qütblərə) ikinci dərəcəli üzvləri düzgün artırın.

1. Düşmən (axşama yaxın, dünən, güclü) atəş açdı. 2. Xalqımız (hər il, tən- tənə ilə, Novruz bayramı, sevimli) qarşılayır. 3. O, (təmizləmək, dişlərini açıb, pəncərə, girib, yatağına) yatdı. 4. Qapı (bərkdən, gecənin ortası) döyüldü. 5. Müəllim (diqqətlə, eynək, çıxarıb, tələbənin üzü) baxdı. 6. Onlar (gec-gec, indi) görüşürlər. 7. Əhməd xanın rəngi (sapsan, xəstəlikdən, uzunsürən) saralmışdı. 8. Xaqani Şirvani (ölkələrə, xarici, səyahət etməyi) xoşlayırdı. 9. Mən (Mosart, ürək, həzin, duyğu, gətirən «Aylı sonata») xoşlayıram. 10. Azərbaycan (Avropa, Asiya və birləşdirən xətdə yerləşən) ölkədir.

**2. İmla.**

### Böyüklərlə gəzirəm

"Tülkünün könlündən böyüklərlə gəzmək keçirdi. O idi ki, öz quyruğunu yatmış dəvənin quyruğuna bağladı. Dəvə diksinib, ayağa qalxdı, səhrada çox qaçdı, tülkü qopmadı ki, qopmadı. Dəvə özünü bazara verdi ki, qoy tülkü adamları görüb quyruğundan açılsın.

Görənlər qışqırdılar:

- Tülküyə bax, dəvənin quyruğundan asılıb. v

Tülkü onlara göz vurdu:

-Mən ölüm, üstünü vurmayın, böyüklərlə gəzirəm".

**3. Tərcümə.** Mətnləri (türk, rus, ingilis dilindən) azərbaycan dilinə tərcümə edin.

The famous Azerbaijani singer Shovket Mammadova was born in the city of Tbilisi in 1897. The teacher, musical figure, first professional woman singer S.Mammadova started to be engaged in music when she was 6 years old. After graduating from Tbilisi Musical School in 1910 she left for Milan to contininue her studies. There she took lessons from the famous singer Abrozzio.

She performed in Tbilisi, Odessa- Moscow, Kiev, Leningrad, Taskent and also in Paris and Tabriz. Shovket Mammadova was the first chairwoman of the Azerbaijan Theatrical Society and the first woman professor in the Azerbaijan State Conservatoire. She died in 1981.

Tıp Fakültesinin son sınıfında imtihana giren talebeye sordular:
- Hastayı terletmek için ne yaparsın?
- Arkasına tentürdiyot sürerim.
- Başka?
- Aspirin ve ya benzeri bir tablet aldırırım.
- Başka?

Çoçuk fena halda kızarmış, kan ter içində kalmıştı. Aklına başka şey gelmiyordu.

Birden buldu ve sevinerek haykırdı:
- Getirir, huzurunuzda imtihana sokarım.

Человек живет в обществе. Общество состоит из людей, связанных между собой. Взаимосвязи, взаимопонимание людей непосредственно обеспечиваются речью, языком. При помощи языка люди общаются, обмениваются мыслями, решают многочисленные вопросы.

Язык—важнейшее средство общения людей друг с другом.

Язык—незаменимое орудие взаимопонимания.

Язык—необходимый инструмент познания.

Человек мыслит, выражает свои чувства, отношения при помощи языка.

## 4.Yoxlayıcı tapşırıqlar.

***Tapşırıq 703***. Verilmiş model üzrə cümlə qurun, həmin cümlələrə cavab yazın.

| | | |
|---|---|---|
| | şair | |
| | artist | |
| Sizin ən çox sevdiyiniz | bəstəkar | kimdir? |
| | müğənni | |
| | rəssam | |
| | futbolçu | |

***Tapşırıq 704.*** Verilmiş sözlərdən yeni sözlər düzəldin.

qlobal, su, qorumaq, yaşıl, meşə, yağ (maq), isti, buz

*Nümunə:* ov - ovçu, ovlamaq, ovlaq, ovluq.

***Tapşırıq 705.*** A və B sütunlarında verilmiş sözlərdən ismi söz birləşmələri düzəldin.

| **A** | **B** |
|---|---|
| vulkan | ehtiyatlar |
| enerji | dəniz |
| Xəzər | resurslar |

| | |
|---|---|
| təbii | püskürmə |
| ekoloji | hövzə |
| su | sistem |
| sosial | münbitliyi |
| torpağın | ekologiya |
| əhalinin | qorunması |
| heyvanların | sıxlıq |

***Tapşırıq 706.*** Uyğun gələn sözləri əlavə edin.

təbii fəlakət ─ qasırğa, ...
faydalı qazıntılar ─ daş kömür, ...
iqlim ─ subtropik, ...
gübrələr - azot, ...
şüalar ─ ultra-bənövşəyi, ...
dağlar ─ Himalay, ...
dənizlər ─ Aralıq, ...
Qoruqlar ─ Qızılağac, ...

**5. Slayd izləmək.**

**Azərbaycan ordusu**

Hər bir dövlətin ərazisi, sərhədləri olur. Ərazisini və sərhədlərini qorumaq üçün dövlətin orduya ehtiyacı vardır. Ona görə də Azərbaycan Demokratik Respublikası yarandıqdan azca sonra, yəni 1918-ci il iyunun 26-da onun Milli Ordusu da yaradıldı. Gənc Azərbaycan dövlətinin qorunmağa böyük ehtiyacı var idi. Çünki mart ayından başlayaraq erməni quldur dəstələri Azərbaycanda qırğın və talanlar törədirdilər.



Azərbaycan hökuməti ordunu yaratmaq işini Rusiya ordusunda böyük təcrübə toplamış general-leytenant Səməd bəy Mehmandarova tapşırdı. O öz xalqını sevən vətənpərvər azərbaycanlı idi.

Azərbaycan dövləti hələ yenicə yaranmışdı. Ona görə də dövləti və ordunu saxlamağa vəsait çatışmırdı. Əsgərlər çox pis şəraitdə yaşayırdılar. Hərbi sahədə təcrübə yox idi. General deyirdi ki, pis şəraitdə yaşayan əsgər vətəni qoruya bilməz. Çünki ac, çılpaq, tez-tez haqsız yerə döyülən əsgərdə qürur hissi məhv olur. Vətənin əsgəri isə qürurlu olmalıdır.

İl yarımdan sonra artıq əsl ordu yaranmışdı. Milli Ordumuzun ixtiyarında qatar, təyyarə, zirehli avtomobil, hərbi gəmilər var idi.

Azərbaycan Respublikası yenə müstəqildir. 26 iyun Ordu Günüdür.

Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib. Azərbaycanın Ordusu cəmi bir ay ərzində düşmənin ordusu haqqında illərdir formalaşdırdığı "yenilməz" mifini darmadağın etdi. Bu gün düşmən artıq Azərbaycan Ordusunun gücünü görür və onunla hesablaşmaqdan başqa yolunun olmadığını dərk edir.

Beləliklə , Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdı.

**Mənbə:** Mətbuat orqanları (Tarixi faktlar əsasında)

## Dinləmə materialları

1. «Oğul» mətni
2. «Herbari»
3. C.Məmmədquluzadə «İki alma»
4. S.Rəhimov «Üç mirvari»
5. N.Gəncəvi «Kərpic kəsən qocanın hekayəti»
6. N.Gəncəvi «Fitnə»
7. Xalidə «Çiçək dənizi»
8. İsi Məlikzadə «Duz»
9. Ə.Cəfərzadə «»
10. Mir Cəlal «Dərsimi yaz»
11. Zahid Xəlil «Su borusu»
12. G.Hüseynoğlu «Müəllimin arzusu
13. C.Cabbarlı «Dilarə»
14. S.Rüstəm «İlk müəllimim»
15. A.Şaiq»Murad»
16. T.Bayram «Ana dilim»
17. Ə.Məmmədxanlı «Buz heykəl»
18. M.Araz «Əsgər məktubu»
19. C.Məmmədquluzadə «Saqqalı uşaq»
20. R.Məmmədova «Nəğməkar quş»
21. Rəşid bəy Əfəndiyev «Nəbi və Tahir»
22. İ.Şıxlı «Məni itirməyin»
23. M.Cəlal «Gülgəz»
24. M.Cəlal «Beş bacının qardaşı»
25. G.Hüseynoğlu «Müəllimin arzusu»
26. Əşrəf Veysəl «Əsgər atasının məktubu»
27. M.Araz «Əsgər məktubu»
28. O.Henri «Son yarpaq»

## Sinifdən xaric oxu

### 1) Nitqin inkişafı. M.Qurbanova, R.Mahmudova, X.Manaflı

1. «Azərbaycan və Türkiyə», s.11-12
2. «Ən gözəl ədəb qaydaları», s.17-18
3. «Kitab haqqında deyimlər» s.28
4. Xarı-Bülbül» çiçək haqqında gözəl bir əfsanə, s.35
5. «O dərmanı hardan alaydım?», s.58-59
6. «Şərqin ən böyük səyyahı», s.76-77
7. «Bayraqları tanıyırsanmı», s.80
8. «Nəsrəddin Tusi», s.85-86
9. «Şah İsmayıl Xətainin vəsiyyəti», s.98
10. «Şəki», s.113-114
11. «Azərbaycanın təbii suları»
12. S.Rüstəm «Ana və poçtalyon», s.164-165
13. «Qobustan qaya təsvirləri», s.167-168
14. M.Cəlal «Həsrət», s.176-177
15. «Milli Qəhrəman Mübariz İbrahimov», s.194-195

### 2) Azərbaycan ədəbiyyatı. N.Rzayeva, Y.Xanlarova, X.Əfəndiyev

1. «Dirsə xan oğlu Buğac boyu», s.12-17
2. M.Füzuli, «Leyli və Məcnun» poemasının qısa məzmunu, s.50-52
3. M.Ə.Sabir «Oxutmuram əl çəkin», s.82
4. A.Səhhət «Köç», hekayədən bir hissə, s.86
5. Ə.Cavad «Çırpınırdı Qara dəniz», s.96
6. Ü.Hacıbəyov «Dil haqqında», s.105-106
7. M.S.Ordubadi «Dumanlı Təbriz» romandan bir parça, s.128-130
8. İ.Əfəndiyev «Yasəmən ağacı», s.203-205
9. Gülhüseyn Hüseynoğlu «Azərbaycan dili», s.213-214
10. N.Xəzri «Ana, Bayraq, Vətən», s.216-217
11. M.Araz «Ayağa dur, Azərbaycan!», s.245-247
12. Çingiz Abdullayev «Məhkumlar» qısa məzmun, s.320-321